Biz elə etməliyik ki, gələcəkdə ölkəmizin uğurlu və uzunmüddətli inkişafını elm, biliklər, texnologiyalar müəyyən etsin. Elmi-texniki tərəqqi hər bir ölkə üçün onun gələcəyini müəyyən edən ən mühüm amildir. Xüsusilə XXI əsrdə ölkələrin gələcəyi bilavasitə təhsilin, biliklərin səviyyəsindən asılı olacaqdır. Ona görə uşaqlarımız, gənclərimiz bilikli, savadlı olmalıdırlar, dünyada gedən yenilikləri bilməlidirlər. Əlbəttə ki, müəllim heyəti də təhsilin yüksək səviyyəsini təmin etməlidir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

2020/2021-ci TƏDRİS İLİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ALİ VƏ ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU VƏ ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ BURAXILIŞ İMTAHANLARI NƏTİCƏLƏRİNİN ELMİ-STATİSTİK TƏHLİLİ

M.M.Abbaszadə, O.Y.Şelaginov

Tariyel
Ağa Əli oğlu
Bədəlov

1994-cü ildən başlayaraq tələbə qəbulunun nəticələrinin geniş elmi-statistik təhlili aparılmış və ümumiləşdirilmiş statistik məlumatların “Abituriyent” jurnalında nəşrinə başlanılmışdır. Tariyel Bədəlovun təşəbbüsü ilə başlanılan və müəlliflərindən biri olduğu bu statistik məlumatlar ənənəvi olaraq hər il “Abituriyent” jurnalının yekun nömrəsində və onun əlavələrində nəşr edilərək təhsil ictimaiyyətinin istifadəsinə verilir.

Azərbaycan Respublikasının elmi-pedaqoji ictimaiyyətinin tanınmış nümayəndəsi, qabaqcıl ziyalısı, nüfuzlu alimi Tariyel müəllimin bütün həyat və fəaliyyəti təhsilimiz və elmimizlə bağlı olub. Onun ömür yolu təhsilimizə, elmimizə ləyaqətlə xidmət edən dəyərli bir şəxsiyyətin, qabaqcıl ziyalının ömür yolu kimi daim yaddaşlarda qalacaq. T.Bədəlovun bənzərsiz şəxsiyyəti çoxcəhətli və səmərəli elmi-pedaqoji fəaliyyətinin başlıca qaynağı olmuşdur. Onun şəxsiyyətinin bütövlüyü insanlarla ünsiyyətdə, həmkarları və işlədiyi kollektivlərlə rəftarda bütün aydınlığı ilə əks olunub.

Müəllim ailəsində göz açmış, hələ orta məktəbdə oxuduğu illərdə təhsildə xüsusilə fərqlənmiş Tariyel Bədəlov Azərbaycan Neft və Kimya İnstitutunu bitirdikdən sonra həyatını elmi-pedaqoji fəaliyyətə həsr etmişdir. Moskvada SSRİ Elmlər Akademiyasının Kibernetika Elmi Tədqiqat İnstitutunun aspiranturasını bitirərək, elmlər namizədi alimlik dərəcəsi almışdır. Yorulmaz zəhməti və gərgin elmi axtarışları ilə ən müasir elm sahəsi olan texniki kibernetikanın respublikamızda əsasının qoyulmasında fəal iştirak etmişdir. Uzun illər bu istiqamət üzrə səmərəli elmi-tədqiqat işi aparmaqla bərabər, həm də Azərbaycan Memarlıq və İnşaat Universitetində mütəxəssis hazırlığı sahəsində məhsuldar fəaliyyət göstərmişdir.

Tələbə Qəbulu üzrə Dövlət Komissiyası yarandığı gündən Tariyel Bədəlovun fəaliyyəti bu təşkilatla bağlı olub. O, 28 il yorulmadan öz enerjisini Komissiyada qəbul imtahanlarının məzmunu və metodiki tərəflərinin işlənməsinə, qəbulun nəticələrinin araşdırılmasına, biliyin qiymətləndirilməsi işinin təkmilləşdirilməsinə sərf edib.

Tariyel müəllim 2012-2016-ci illərdə “Abituriyent” jurnalının baş redaktoru olmuş, 2016-ci ildən ömrünün sonunadək isə jurnalın elmi məsləhətçisi kimi səmərəli fəaliyyət göstərmişdir. Onun baş redaktor və elmi məsləhətçi kimi xidmətləri də əvvəlki fəaliyyət istiqamətləri qədər səmərəlidir. Jurnalın keyfiyyət səviyyəsinin artırılmasında, dərc olunan materialların məzmun və metodiki cəhətdən təkmilləşdirilməsində onun zəngin elmi erudisiyası, təcrübəsi və peşəkarlığı əhəmiyyətli rol oynamışdır.

Kollektivdə həmişə qayğıkeş, həssas, xeyirxah bir insan kimi tanınan Tariyel müəllim öz bilik və istedadını təhsilimizə və elmimizə səmərəli xidmətə sərf edib, yeni qiymətləndirmə üsulları və test formalarının işlənib hazırlanmasında dəyərli töhfələr verib. Hər zaman təşəbbüskarlığı, fəallığı, peşəkarlığı, səriştəli idarəçilik qabiliyyəti ilə seçilib. Onun həyatı, elmi-pedaqoji fəaliyyəti, fədakarlığı gənc nəsillər üçün örnəkdir.

Allah rəhmət eləsin!

GİRİŞ

Müasir mərhələdə təhsil, iqtisadiyyat, mədəniyyət və sosial sahələrdə həyata keçirilən islahatların nəticəsi olaraq ölkəmiz dinamik inkişaf yolu ilə inamla irəliləyir, onun beynəlxalq aləmdə nüfuzu güclənir. Respublikamızda hər bir sahədə müşahidə olunan fasiləsiz inkişaf tendensiyası özünü təhsil sektorunda da göstərir. Bu inkişafın əsasında ulu öndər Heydər Əliyevin ideyaları və həmin ideyaların işığında həyata keçirilən aydın və ardıcıl strateji kurs dayanır. Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə müəyyənləşdirilən və icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişafa, yüksək nəticələrin əldə edilməsinə geniş imkan və şərait yaradır. Ölkəmizin qədəm qoyduğu yeni inkişaf mərhələsinin əsas hədəfləri çoxşaxəli, səmərəli və innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılması, elmin, təhsilin, mədəniyyətin və ictimai həyatın digər sahələrində yeni nailiyyətlərin əldə olunmasıdır.

Respublikamızın rəhbərliyi bunları nəzərə alaraq təhsil sisteminin inkişafına böyük önəm verir, onu dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi ön plana çəkir. Bu sahədə kompleks proqramlar həyata keçirilir. Prezident İlham Əliyev gənclərin sosial, təhsil, karyera və mədəni inkişaf məsələlərinin həllini təmin etmək məqsədilə 2005-2021-ci illəri əhatə edən 3 dövlət proqramı təsdiq etmişdir. Ölkə gənclərinin elm, təhsil, mədəniyyət və digər sahələrə yönəlmiş layihələrin reallaşdırılmasında iştirakına kömək göstərilməsi, onların fəaliyyətinin stimullaşdırılması məqsədilə 2011-ci ildə Gənclər Fondu yaradılmışdır. Sevindirici hal odur ki, ölkə rəhbəri tərəfindən bu sahəyə diqqət və qayğı ilbəil artır.

2020-ci ilin əvvəlindən başlayan koronavirus pandemiyası ölkəmizin vətəndaşlarında neqativ əhval yaratsa da, ilin sonlarına doğru, daha dəqiqi desək, sentyabrın 27-dən başlayaraq Vətən müharibəsindəki möhtəşəm uğurlar hər birimizi qürurlandırdı. 44 günlük II Qarabağ müharibəsi ilə Azərbaycanın ərazi bütövlüyü tam şəkildə təmin olundu. Bu Zəfər Azərbaycan xalqının qəhrəmanlıq salnaməsi kimi tarixə qızıl hərflərlə yazıldı. Azərbaycan silahlı qüvvələrinin əks-hücum əməliyyatları nəticəsində işğala məruz qalan tarixi torpaqlarımız azad edildi. Xalqımızın uzun illər gözlədiyi layiqli qələbəni elan edən Cənab Prezident, Ali Baş Komandan İlham Əliyev Nadir şah Əfşardan sonra itirilmiş torpaqlarımızı bərpa edən ilk rəhbər kimi tarixə düşdü. Cənab İlham Əliyevin bütün sahələrə olduğu kimi ordu quruculuğuna da xüsusi diqqət və qayğısı, Vətən müharibəsində ən yeni texnologiyalara malik müzəffər ordumuzun, yüksək ixtisaslı hərbi kadr potensialının və milli təhsil sisteminin yetirmələri olan gənclərimizin sayəsində Qarabağ mənfur düşmənlərdən azad olundu. Böyük iftixar hissi ilə deyə bilərik ki, qələbə möhtəşəm əks-hücum əməliyyatı, Azərbaycan xalqının şücaət və qəhrəmanlığı, sarsılmaz birliyi, ölkəmizin Ali Baş Komandanının uğurlu diplomatiyası, qüsursuz strategiyası sayəsində mümkün oldu. Uzun müddət dünyada öyrəniləcək və tarix kitablarına düşəcək bu möhtəşəm hadisə ilə bağlı cari ildə tarix fənni üzrə imtahan proqramına "Qarabağ uğrunda Vətən müharibəsi (İkinci Qarabağ müharibəsi)" mövzusu da daxil edildi.

Zəfərimiz növbəti dəfə təsdiqlədi ki, təhsil, bilik və təcrübə, hətta ən çətin məsələləri həll edə bilən böyük bir gücdür. Koronavirus pandemiyası adət etdiyimiz həyat tərzini bir neçə gün ərzində köklü surətdə dəyişdirdi. 2020-ci il bütün dünya təhsilində böhran ili oldu, pandemiya ilə əlaqədar mart ayından təhsilin bütün pillə və səviyyələrində tədris dayandırıldı. Yaranmış vəziyyətdən mümkün qədər az itkilərlə çıxmaq üçün cəld və effektiv qərarların qəbul edilməsində əvvəlki illərdə qazanılmış bilik, bacarıq və təcrübənin böyük rolu oldu. Abituriyentlər ənənəvi olmayan qaydalarda və şəraitdə imtahan verməli oldular. Bu da, təbii ki, müəyyən çətinliklər yaratdı. Buna baxmayaraq, Dövlət İmtahan Mərkəzi qəbul kampaniyasını Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın koronavirus infeksiyasının (COVİD-19) yayılmasının qarşısının alınması ilə bağlı tövsiyələrini nəzərə almaqla, yalnız Operativ Qərargahın müəyyən etdiyi bütün şərtlərin yerinə yetirilməsi ilə həyata keçirdi. Yaranmış böhranlı şəraitdə abituriyentlərə maksimum dəstək olmaq məqsədilə qəbul kampaniyasının bütün mərhələlərində onlara imtahana hazırlıqla bağlı lazımi kömək göstərildi. İmtahanlara hazırlığa metodiki kömək məqsədilə DİM tərəfindən ilboyu silsilə tədbirlər keçirildi, o cümlədən DİM-in nəzdindəki fənlər üzrə elmi-metodiki seminarlar və ekspert şuraları xətti ilə geniş çeşiddə elmi-metodiki materiallar: fənlər üzrə qəbul proqramları, imtahana hazırlığın səmərəli yollarına dair metodiki tövsiyələr, dərsliklərdə səthi və ya natamam verilən mövzulara, yaxud məktəb proqramında olub, dərsliklərdə lazımınca şərhini tapmayan məsələlərə dair məqalələr, fənn proqramlarının çətin mövzularına dair mütəxəssis şərhləri və s. hazırlanıb abituriyentlərin istifadəsinə verildi.

DİM-in "Abituriyent" jurnalında, rəsmi saytımızda və sosial şəbəkələrdəki səhifələrimizdə ("Facebook", "Instagram", "Twitter" "Telegram") dərc olunan materiallar şagird və abituriyentlərin uğur qazanmağında vasitəçi oldu. Bundan başqa, COVİD-19 pandemiyasının şərtləndirdiyi mürəkkəb epidemioloji vəziyyətin və onun yayılmasının qarşısının alınmasına yönəldilmiş tədbirlərin tədris prosesinə təsirini nəzərə alaraq Təhsil Nazirliyi ilə razılaşdırılmaqla buraxılış və qəbul imtahanları fənlərinin proqramları yenidən nəzərdən keçirildi və yüngülləşdirildi. Abituriyentlərin imtahanların məzmunu, texnologiyası və təşkili haqqında məlumatlı olmağına xidmət etmək məqsədilə Mərkəz tərəfindən rəsmi materiallar, test topluları, elmi-metodiki vəsaitlər nəşr olundu, "Vizuallaşdırılmış dərs" sosial layihəsi həyata keçirildi və məqsədyönlü digər internet xidmətləri göstərildi.

DİM-in (TQDK-nın) apardığı ənənəvi elmi-statistik təhlillərdə təhsilin həm ümumilikdə ölkə səviyyəsində, həm də ayrı-ayrı bölgələr və məktəblər üzrə göstəriciləri, eləcə də abituriyentlərin ayrı-ayrı fənlər üzrə nəticələri, onların müxtəlif ixtisas qruplarına meyil və maraqları, ali təhsil müəssisələrinə qəbulolma göstəriciləri, yüksək və zəif göstəricili rayon və məktəblər, ali təhsil müəssisələrinin reytinqi, bakalavriat və magistratura səviyyələrinə, orta ixtisas təhsili pilləsinə və rezidenturaya qəbulun nəticələri, həmçinin ümumtəhsil müəssisələri şagirdlərinin buraxılış imtahanları üzrə nəticələri və s. məsələlər öz əksini tapır. Eyni zamanda, aparılan elmi-statistik təhlilin tərkib hissələri kimi "Tələbə qəbulunun gender aspektləri" ("Qadınlar statistikada"), "Kənd təsərrüfatı profilli ixtisaslar statistikada" və "Neft-qaz ixtisasları statistikada" adlı kitabçalar, həmçinin hər bir rayonun məzunlarının qəbul imtahanlarındakı göstəricilərini əks etdirən kitabçalar hazırlanır. Qəbulun nəticələrinin bu miqyasda, bu səviyyədə araşdırılmasını təhsilin vəziyyətinin monitorinqi də adlandırmaq olar.

Respublikamızın mövcud potensialı ölkəmizdə ali təhsil sisteminin təkmilləşdirilməsi üçün geniş imkanlar açmaqla onun iqtisadi inkişafın mühüm amilinə çevrilməsini təmin etməlidir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da ölkəmizdə insan kapitalının inkişaf etdirilməsi, onun ölkə iqtisadiyyatının qlobal iqtisadi sistemə qoşulması prosesində rəqabətqabiliyyətli olması və hər bir təhsilalanın müasir bilik, bacarıq və vərdişlərə yiyələnməsinin təmin edilməsi təhsil sisteminin başlıca vəzifəsi kimi irəli sürülür. Bu vəzifələrin həlli Azərbaycanda insan kapitalının inkişafında fasiləsizliyin (ömürboyu təhsilin) təmin edilməsi, məktəbəqədər və ümumi təhsil də daxil olmaqla, peşə təhsilli və ixtisaslı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, eləcə də "elm-təhsil-istehsal" əlaqələrinin təkmilləşdirilməsi istiqamətində məqsədli proqramların hazırlanması və həyata keçirilməsi davam etdirilmişdir. Daha keyfiyyətli insan kapitalının formalaşdırılması maddi və mənəvi fayda əldə etməyə və rəqabətqabiliyyətliliyi yüksəltməyə imkan verəcəkdir. Ali təhsil müəssisələrində hazırlanan mütəxəssislər dövlətin və şirkətlərin idarə olunmasında, iqtisadi artımda və əmək məhsuldarlığının yüksəldilməsində fəal iştirak edirlər. Bunu nəzərə alaraq, Azərbaycanda iqtisadi və sosial baxımdan daha səmərəli ali təhsil sisteminin formalaşdırılması prioritet istiqamətlərdən biri olmalıdır. Bu, müasir dünyada gedən qloballaşma, rəqabət və informasiya cəmiyyəti quruculuğu proseslərində yüksək peşəkarlıqla çalışa biləcək kadr potensialının yetişdirilməsi üçün çox vacibdir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında 26 iyul 2019-cu il tarixdə Sərəncam imzalayıb. Sərəncam intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədini daşıyır. Bunu nəzərə alsaq, yuxarıda qeyd olunanların nə qədər həyati əhəmiyyət daşıdığının şahidi olarıq. Bu müsabiqədə iştirak etmək hüququndan biri iştirakçıların ali təhsilli olmasıdır. Ona görə də ölkəmizdə dünya standartlarının tələblərinə cavab verən təhsil sisteminin qurulması, yüksəkhazırlıqlı, rəqabətəqabil milli kadr potensialının formalaşdırılması çox mühümdür.

Dövlətin təhsil siyasətini həyata keçirən qurumlardan biri kimi Dövlət İmtahan Mərkəzi (DİM) Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi dövlət proqramları, verdiyi fərman və sərəncamlardan irəli gələn vəzifələri yerinə yetirmək üçün davamlı və məqsədyönlü iş aparır. 2020-ci ildə tələbə qəbulu kampaniyasının və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanlarının təşkili və keçirilməsi ilə əlaqədar görülmüş işlər də bu fəaliyyətin tərkib hissəsidir.

2020/2021-ci tədris ili üçün respublikanın ali təhsil müəssisələrinə tələbə qəbulu DİM tərəfindən "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu qaydaları"na əsasən aparılıb. Qəbul qaydalarına uyğun olaraq, respublikanın bütün mülki ali təhsil müəssisələrinə, xüsusi təyinatlı ali təhsil müəssisələrinə tələbə qəbulu mərkəzləşdirilmiş qaydada keçirilib.

Azərbaycanda koronavirus pandemiyasının təsirlərini nəzərə alaraq 2020-ci ildə ali təhsil müəssisələrinə qəbul prosesinində bir sıra dəyişikliklər tətbiq edilmişdir:

- İmtahan verənlərin rahatlığını təmin etmək və virusa yoluxma təhlükəsini azaltmaq üçün imtahanlar yalnız rayon mərkəzlərində deyil, ucqar kənd məktəblərində də keçirilmişdir;
- imtahan mərkəzlərinin sayı iki dəfədən çox artırılmışdır;
- imtahan mərkəzləri iki gün əvvəldən dezinfeksiya olunmuş, möhürlənərək mühafizə olunması üçün DİN-in rayon (şəhər) şöbələrinin (idarələrinin) əməkdaşlarına təhvil verilmişdir;
- imtahan verənlər binalara ayrı-ayrı saat intervallarında dəvət edilmişdir;
- binalara buraxılışı təmin edən şəxslər xüsusi geyim forması, maska, sipər və əlcəklə, bütün imtahan iştirakçıları isə tibbi maska ilə təmin olunmuşdur;
- girişdə imtahan iştirakçılarının hərarəti ölçülmüşdür;
- şagirdlərin hər partada bir nəfər olmaqla, 2 metr məsafə gözlənilməklə əyləşdirilməsi təmin edilmişdir.
- sərt karantin rejimi müddətində hər imtahanqabağı imtahan verən və idarəetmə heyətinin üzvü kimi iştirak edəcək şəxslər haqqında məlumat müvafiq icazə sisteminə daxil edilmək üçün Daxili İşlər Nazirliyinə təqdim edilirdi.
- hər bir imtahan iştirakçısının imtahana gələrkən təqdim etməsi tələb olunan sənədlərinin siyahısına sağlamlıq haqqında bəyannamə də əlavə olunmuşdur.
- bəzi mövzular üzrə test tapşırıqlarından qəbul imtahanlarında istifadə edilməmişdi. Bu mövzular buraxılış siniflərində mart ayından sonra tədris olunan mövzular idi;
- imtahanda bacarıq və vərdişlərin qiymətləndirilməsi üçün abituriyentlərə yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqların sayı azaldılmışdı;
- yazı işlərini qiymətləndirən markerlərin işi onlayn rejimdə təşkil olunmuşdu;
- 2019-cu ildə qəbul imtahanının I mərhələsində iştirak etmiş abituriyentlərə 2020-ci ildə qəbul imtahanının I mərhələsində iştirak etmədən, əvvəlki il əldə etdikləri nəticə ilə müsabiqəyə qatılmaq imkanı verilmişdir;
- buraxılış imtahanlarının keçirilmə tarixləri iştirakçıların sayını məhdudlaşdırmaq məqsədilə artırılmışdı;
- qəbul imtahanının II mərhələsi yalnız bir sessiyadan ibarət olmuşdu, yəni abituriyentlər qəbul imtahanının II mərhələsində yalnız bir dəfə iştirak edə bilərdilər;
- V ixtisas qrupunda bəzi qabiliyyət imtahanı tələb edən ixtisaslar üzrə qabiliyyət imtahanları keçirilməmiş, abituriyentlər qəbul imtahanının birinci mərhələsinin (cari ilin məzunları üçün tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanın) nəticələrinə əsasən müsabiqədə iştirak etmişlər;
- "İmtahanın nəticəsi ilə bağlı elektron apelyasiya" sistemi və "Onlayn növbə" sistemi qısa müddət ərzində tərtib edilərək istifadəyə verilmişdir.

2020/2021-ci tədris ili üçün respublikanın ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul qaydaları, qəbul proqramları, xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul elanları hələ ilin əvvəlində "Abituriyent" jurnalının 1-ci sayında dərc edilərək ictimaiyyətə çatdırılmışdır. Eyni zamanda, burada bütün fənlər üzrə test modelləri təqdim edilmişdi ki, abituriyentlərin qəbul imtahanlarında hansı tipli və hansı mürəkkəblik dərəcəsinə malik test tapşırıqlarının təklif ediləcəyi barədə əvvəlcədən təsəvvürləri olsun.

Qəbul imtahanlarına müstəqil şəkildə (repetitor xidmətindən istifadə etmədən) hazırlaşanlara kömək məqsədilə təcrübəli ekspertlərin internet vasitəsilə imtahan fənləri üzrə video-məsləhətləri təşkil edilmiş, abituriyentlərin cavab verməkdə çətinlik çəkdikləri test tapşırıqlarının izahı verilmiş, yol verdikləri səciyyəvi səhvlər araşdırılmışdır. "Videomühazirə" adlanan bu layihənin ikinci mərhələsində bütün fənlər üzrə qəbul proqramlarının mövzularını əhatə edən mühazirələr nümayiş etdirilmişdir. Videomühazirələri tanınmış mütəxəssis-ekspertlər təqdim etmişlər. Layihədə bölgələrin qabaqcıl və təcrübəli müəllimləri də iştirak etmişlər. Mühazirələrdə nəzəri materiallar test tapşırıqlarının həlli ilə müşayiət olunmuşdur.

İmtahanların məzmunu formalaşdırılarkən ənənəvi test tapşırıqları ilə yanaşı, yeni tipli yazılı şəkildə cavablandırılması tələb olunan situasiya, mətn və yaxud mənbə əsasında hazırlanan tapşırıqlar da tətbiq olunmuşdur. Şagird və abituriyentlərin yeni tipli test modelləri haqqında təsəvvürlərini genişləndirmək və bunlarla işləmək vərdişlərini inkişaf etdirmək üçün belə tapşırıqların fənlər üzrə nümunələri ilin əvvəlində "Abituriyent" jurnalında dərc olunmuş, sınaq imtahanlarında yoxlamadan keçirilmişdir. Belə tapşırıqlar abituriyentlərin bilik və bacarıqlarının hərtərəfli üzə çıxarılmasına, əldə olunmuş biliklərin praktikada tətbiqi mexanizmlərinin inkişaf etdirilməsinə, mənimsəmənin dörd səviyyəsinin: bilik, anlama, tətbiqetmə və bacarığın yoxlanılmasına, xüsusilə də qiymətləndirmədə yüksək hazırlıqlı abituriyentlərin fərqləndirilməsinə imkan vermişdir.

Sual kitabçaları hər bir abituriyent üçün xüsusi avtomatlaşdırılmış xətt vasitəsi ilə (bu xətt xüsusi olaraq imtahanlar üçün sual kitabçalarının çapı və komplektasiyasını həyata keçirmək üçün layihələndirilmişdir) fərdi qaydada çap olunub və imtahan zalları üzrə komplektləşdirilib.

DİM-in Naxçıvan, Gəncə, Şəki, Lənkəran, Xaçmaz, Göyçay, Şirvan, Şəmkir və Bərdə şəhərlərində fəaliyyət göstərən regional bölmələrinin xətti ilə görülən işlərin həcmi xeyli artmışdır. Bölmələrin səmərəli fəaliyyəti sayəsində rayonlarda çalışan müəllimlər yalnız təşkilati tədbirlərə deyil, elmi-metodiki işlərə də cəlb edilmişlər. Beləliklə, respublika üzrə bu sahəyə marağı olan müəllimlər üçün geniş imkanlar yaradılır. Bütün bunlar qəbul kampaniyasının keyfiyyətinə də müsbət təsir göstərir.

Qəbul imtahanlarına hazırlıq ərəfəsində gənclərin öz bilik səviyyələrini yoxlamaları, test imtahanının texnologiyasına bələd olmaları və imtahana psixoloji cəhətdən alışmaları üçün respublikanın bütün bölgələrini əhatə etməklə sınaq imtahanı keçirilib. Qəbul imtahanlarının texnologiyasına uyğun təşkil olunmuş bu imtahanlarda ümumilikdə 15104 nəfər müraciət etmişdir. Eyni zamanda, DİM tərəfindən abituriyentlərin istədikləri vaxt fərdi qaydada internet vasitəsilə sınaq imtahanından keçməsi üçün xüsusi proqram hazırlanmışdır.

Həmçinin imtahanlara hazırlaşanlar və tədris prosesində istifadə üçün 4-11-ci sinif dərsliklərinin hər bir tədris vahidi (8 800 tapşırıq), hər bir mövzusu (28 535 tapşırıq) üzrə onlayn sınaq variantları, eləcə də buraxılış və qəbul imtahanlarında tətbiq edilən tapşırıq modellərinə uyğun 4 (hər biri 1 variant olmaqla) onlayn sınaq variantları hazırlanıb və otk.az. portalına yerləşdirilib.

Xüsusi qabiliyyət tələb edən ixtisasları seçən abituriyentlərə elmi-metodiki kömək məqsədilə "Xüsusi qabiliyyət imtahanları" jurnalının 1-ci və 2-ci nömrələrini nəşr etmişdir. Jurnalın 1-ci nömrəsində ali təhsil, 2-ci nömrəsində isə orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarının yığcam xarakteristikası, ixtisaslar üzrə kadr hazırlığı aparan təhsil müəssisələri haqqında məlumatlar, bu ixtisaslar üzrə müsabiqə şərtləri, qabiliyyət imtahanlarının proqramları, qiymətləndirmə meyarları, imtahanlara hazırlıqla bağlı tövsiyə və məsləhətlər, tapşırıq nümunələri, çalışmalar, əyani vəsaitlərdən reproduksiyalar, şəkillər, cədvəllər, normativlər, bir sözlə, burada xüsusi qabiliyyət tələb edən ixtisasları seçənlərin marağına uyğun olan, sorğularına aydınlıq gətirən, imtahana hazırlaşmalarına fayda verə bilən ən zəruri materiallar dərc edilmişdir.

İmtahan rəhbərləri və nəzarətçiləri imtahanlara hazırlaşdırmaq istiqamətində həm respublika paytaxtında, həm də ayrı-ayrı bölgələrdə çoxsaylı tədbirlər həyata keçirilib. İmtahan rəhbərləri bazasının zənginləşdirilməsi məqsədilə AMEA-nın elmi-tədqiqat institutları, eləcə də bir sıra dövlət qurumlarının nümayəndələri imtahanlarda rəhbər qismində iştirak etməyə cəlb olunmuşdur. Bazaya ilk dəfə daxil edilən imtahan rəhbərləri ilə xüsusi seminar-məşğələlər keçirilib. Təlimata uyğun təcrübə və səriştə əldə etmələri üçün onlar öncə sınaq, sonra qəbul imtahanlarında iştirak ediblər.

İşə vicdanla yanaşan, səriştəli və məsuliyyətli müəllimlər hesabına nəzarətçilər bazasının zənginləşdirilməsinə də xüsusi diqqət yetirilib. Yanvar ayından etibarən Bakı şəhəri ilə yanaşı, ölkənin digər bölgə mərkəzlərində də nəzarətçi-müəllimlərlə seminar-məşğələlər təşkil olunub. Seminar-məşğələlərdə müəllimlərə qəbul imtahanı prosesinin idarə olunması hərtərəfli izah edilib, imtahan texnologiyasına aid öyrədici film nümayiş etdirilib.

İlin ilk aylarından etibarən həm paytaxtda, həm də bölgələrdə imtahan üçün nəzərdə tutulan 100-dən çox binaya baxış keçirilmiş, onların imtahana yararlılıq səviyyəsi yoxlanılmış, texniki pasportları dəqiqləşdirilmiş, mövcud çatışmazlıqların aradan qaldırılması üçün aidiyyəti qurumlarla birgə iş aparılmışdır. İmtahan binaları haqqında yenilənmiş məlumat "İmtahan yerləri bazası"na daxil edilmişdir. İmtahan keçirilən binaların təhlükəsizlik baxımından yoxlanılması üçün Xüsusi Dövlət Mühafizə Xidməti ilə birlikdə lazımi tədbirlər həyata keçirilmişdir.

Dövlət İmtahan Mərkəzi tərəfindən göstərilən həm elektron, həm də ödənişli xidmətlərdən faydalanmaq istəyən hər bir istifadəçi (abituriyent, bakalavr, namizəd) şəxsi kabinet yaratmışdır. Şəxsi kabinet bir dəfə yaradılır və daim istifadə edilir. İstifadə edilmiş xidmətlər, imtahan nəticələri və digər məlumatlar istifadəçinin şəxsi kabinetində öz əksini tapır. Kabinet yaradılan zaman onun pul hesabı da açılır. Hesaba lazımi miqdarda vəsait əlavə etmək üçün müxtəlif ödəniş üsullarından yararlanmaq olar. Vəsait DİM tərəfindən göstərilən xidmətlərin ödənilməsi üçün istifadə edilir.

Tam və ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə müsabiqə cari ilin məzunları üçün buraxılış imtahanının nəticələri əsasında, əvvəlki illərin məzunları üçün isə buraxılış imtahanı qaydasında keçirilən qəbul imtahanının nəticələri əsasında aparılmışdır.

Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında ixtisas seçimi ali təhsil müəssisələrinə qəbul imtahanlarının nəticələri açıqlandıqdan sonra ali təhsil müəssisələrinin boş qalan yerlərinə ərizə qəbulu ilə eyni vaxtda – sentyabrın 26-dan oktyabrın 5-dək aparılmışdır. Abituriyentlərə eyni zamanda həm ali təhsil müəssisələrinin boş qalan yerlərinin, həm də orta ixtisas təhsili müəssisələrinin ixtisaslarının müsabiqəsində iştirak etmək imkanı verilmişdi. Abituriyentlər öz ərizələrində hər iki təhsil pilləsindən 20-dək ixtisas kodunu istəklərinə uyğun ardıcıllıqla göstərə bilərdilər.

Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün ərizə qəbulu fevralın 22-dən martın 11-dək internet vasitəsilə aparılıb. Qəbul aparılan ixtisasların siyahısı və plan yerləri haqqında məlumat "Abituriyent" jurnalının 3-cü nömrəsində təqdim olunub.

Respublikanın ümumtəhsil müəssisələrində ümumi orta (9 illik) və tam orta (11 illik) təhsilini başa vuran şagirdlərin yekun buraxılış imtahanları bu il də DİM tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilmişdir.

Ümumi orta (9-cu sinif) təhsil üzrə buraxılış imtahanları yeni tədris proqramı (kurikulum) əsasında iki mərhələdə keçirilmişdir. Birinci mərhələdə şagirdlərin dinləyib-anlama, oxuyub-anlama və yazı bacarıqlarını yoxlamaq məqsədilə açıq və qapalı tipli test tapşırıqlarından, yazı işlərindən, riyazi bacarıqları yoxlamaq məqsədilə isə açıq tipli tapşırıqlardan istifadə edilmişdir. İkinci mərhələdə isə hər bir fənn üzrə qapalı tipli test tapşırıqlarından istifadə edilmişdir. Buraxılış imtahanlarından əvvəl şagirdlərə kömək məqsədilə ana dili (Azərbaycan bölməsinin şagirdləri üçün – Azərbaycan dili, rus bölməsinin şagirdləri üçün – rus dili) və riyaziyyat fənlərindən test tapşırığı nümunələri hazırlanmış, bu imtahanda təqdim ediləcək yazı işlərinin mövzuları, yazı işinin qiymətləndirilməsi meyarları müəyyənləşdirilmiş və DİM-in internet saytında yerləşdirilmişdir. Həmçinin "Abituriyent" jurnalının xüsusi buraxılışında ümumi orta (9 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanı üçün fənlər üzrə alt standartlar, proqramlar, buraxılış imtahanı üçün tapşırıq nümunələri və qiymətləndirmə meyarları ictimaiyyətə çatdırılmışdır.

Tam orta (11-ci sinif) təhsil səviyyəsi üzrə buraxılış imtahanı tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər üçün - Azərbaycan dili, riyaziyyat və xarici dil fənləri üzrə, tədris rus dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər üçün - rus dili, riyaziyyat və xarici dil fənləri üzrə DİM tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilmişdir. Xarici dil fənni tədris edilməyən ümumi təhsil müəssisələrinin şagirdləri buraxılış imtahanını xarici dil fənninin əvəzinə kimya fənnindən vermişdir. Şagirdlərə ümumilikdə 85 test tapşırığı təqdim edilmişdir. "Abituriyent" jurnalının xüsusi buraxılışında tam orta (11 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanı proqramları və test tapşırığı nümunələri ictimaiyyətə çatdırılmışdır.

Buraxılış imtahanlarının mütəşəkkil qaydada keçirilməsi məqsədilə "Şagird–məzun" sistemi üzrə buraxılış imtahanlarında iştirak edəcək şagird kontingentinin seçilməsi, imtahan mərkəzlərinin müəyyənləşdirilməsi, imtahan rəhbərləri və zal nəzarətçilərinin imtahanlara hazırlığı, test bankının zənginləşdirilməsi, proqram təminatının hazırlanması, eləcə də təşkilati işlər istiqamətində geniş hazırlıq işləri görülmüşdür. İmtahanlar regionlar üzrə qruplaşdırılaraq ayrı-ayrı günlərdə keçirilmişdir. Şagirdlərin rahatlığının təmin olunması üçün imtahanlar yalnız rayon mərkəzlərində deyil, ucqar kənd məktəblərində də keçirilmişdir.

Məlum olduğu kimi buraxılış və qəbul imtahanları yeni təhsil proqramları (kurikulumlar) əsasında keçirilmişdir. Bunu nəzərə alaraq DİM-də yeni təhsil proqramları (kurikulumlar) qiymətləndirmə materiallarının hazırlanması, ekspertizası və yoxlanılması ilə bağlı imtahan fənləri üzrə hazırlıq kursları təşkil edilmişdir. Kurslarda elektron qeydiyyatdan keçmiş müəllimlər, metodistlər və pedaqoji yönümlü ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin müvafiq fənn üzrə təhsil alan axırıncı kurs tələbələri və həmin müəssisələrdə təhsil alan magistrlər iştirak etmişlər. Gələcəkdə həmin şəxslər tapşırıq müəllifi, ekspert və imtahan materialların yoxlanılmasında marker kimi Dövlət İmtahan Mərkəzi ilə əməkdaşlıq edə biləcəklər.

Cari ildə yaranmış pandemiya şəraiti və xüsusi karantin rejimi nəzərə alınaraq qəbul imtahanlarının I mərhələsinin keçirilməsi üçün ayrılan imtahan mərkəzlərinin sayı artırılmışdır. Cari ilin məzunları üçün I mərhələnin nəticəsi kimi buraxılış imtahanının nəticəsi əsas götürülmüşdür. İmtahanların I mərhələsi aşağıdakı cədvəldə təqdim olunan qrafikə uyğun keçirilmişdir:

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARININ I MƏRHƏLƏSİ (cari ilin məzunları üçün – buraxılış imtahanları)	
Tarix	**İmtahan mərkəzləri**
03.07.2020	Naxçıvan MR
10.07.2020	Ağdaş, Göyçay, Qazax, Qobustan, Qusar, Ağstafa, Ağsu, Kürdəmir, Qəbələ, Şabran, Ağdam, Beyləqan, Gədəbəy, Hacıqabul, Lerik, Sabirabad, Salyan, Tovuz, Astara, Biləsuvar, Füzuli, İmişli, Neftçala, Şəmkir, Tərtər, Yardımlı, İsmayıllı, Qax, Ucar, Xızı, Zaqatala, Balakən, Oğuz, Quba, Şamaxı, Zərdab, Ağcabədi, Daşkəsən, Şirvan, Naftalan, Saatlı
23.07.2020	Bakı-Binəqədi, Bakı-Suraxanı, Bakı-Qaradağ, Gəncə-Kəpəz, Cəlilabad, Bərdə, Xaçmaz, Lənkəran, Yevlax
24.07.2020	Bakı-Səbail, Bakı-Yasamal, Bakı-Xəzər, Bakı-Pirallahı, Gəncə-Nizami, Masallı, Şəki, Siyəzən
29.07.2020	Bakı-Nizami, Bakı-Nəsimi, Bakı-Nərimanov, Sumqayıt, Goranboy, Mingəşevir
30.07.2020	Bakı-Sabunçu, Bakı-Xətai, Abşeron, Göygöl, Samux

Ali və orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulu bu il də internet vasitəsilə aparılmışdır. Bu üsul ərizə təqdimetmə prosedurunu sadələşdirməklə bərabər, abituriyentlər tərəfindən buraxıla biləcək məntiqi səhvlərin qarşısını almağa da imkan yaratmışdır. Beləliklə, abituriyentlər DİM-in müəyyən etdiyi müddət ərzində özləri barədə tələb olunan məlumatları göstərməklə "Elektron ərizə" doldurmuşlar. Ərizə qəbulu elanının tam mətni və "Şəxsi kabinet"in yaradılması və istifadə qaydası "Abituriyent" jurnalının 2020-ci il 2-ci sayında ictimaiyyətə çatdırılmışdır.

Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, müsabiqə şərtləri, qəbul aparılan ixtisasların planı, o cümlədən dövlət sifarişi üzrə qəbul aparılan yerlərin proqnozu "Abituriyent" jurnalının 4-cü sayında verilmişdir. Proqnozda qəbul aparılan ixtisasların siyahısı, yerlərin sayı və dövlət sifarişinin yerinə yetirilməsində iştirak edən ali təhsil müəssisələrinin adları təqdim olunmuşdur. Hər ixtisas qrupunun imtahan vaxtından bir neçə gün əvvəl abituriyentlərə internet vasitəsilə "İmtahana buraxılış vərəqələri" əldə etmək imkanı yaradılmışdır.

Bu il ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul imtahanlarının ikinci mərhələsi II və III ixtisas qruplarının abituriyentləri üçün avqustun 13-də və 14-də, I və IV ixtisas qruplarının abituriyentləri üçün avqustun 20-də və 21-də keçirilmişdir. Abituriyentlər V ixtisas qrupu üzrə ali təhsil müəssisələrinin ixtisasları üzrə müsabiqədə yalnız qəbul imtahanlarının birinci mərhələsinin (cari ilin məzunları üçün buraxılış imtahanının) nəticələrinə əsasən iştirak etmişlər.

Bütün abituriyentlər üçün ixtisas seçimi və müsabiqə eyni vaxtda – ali təhsil müəssisələrinə bütün qəbul imtahanları başa çatdıqdan sonra keçirilmişdir.

Abituriyentlərin və valideynlərin rahatlığının təmin edilməsi, eyni zamanda kütləviliyin qarşısının alınması məqsədilə DİM bütün ixtisas qrupları üçün qəbul imtahanlarını ölkənin 23 bölgə mərkəzində təşkil etmişdir.

İmtahanların keçirildiyi mərkəzlər və onlara aid olan şəhərlər (rayonlar, yaşayış məntəqələri) aşağıdakı kimi olmuşdur:

I-IV İXTİSAS QRUPLARI ÜZRƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARININ II MƏRHƏLƏSİ	
Bölgələr üzrə imtahan mərkəzləri	**Bölgə (imtahan) mərkəzlərinin əhatə etdiyi şəhər və rayonlar**
Bakı (hər rayon üzrə)	Bakı (müvafiq rayonlar), Abşeron (əvvəlki ilin məzunları), Sumqayıt (əvvəlki ilin məzunları)
Abşeron	Abşeron (cari ilin məzunları)
Sumqayıt	Sumqayıt (cari lin məzunları), Xızı
Gəncə	Gəncə, Daşkəsən, Göygöl, Samux, Goranboy, Naftalan

I-IV İXTİSAS QRUPLARI ÜZRƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARININ II MƏRHƏLƏSİ	
Bölgələr üzrə imtahan mərkəzləri	**Bölgə (imtahan) mərkəzlərinin əhatə etdiyi şəhər və rayonlar**
Qazax-Ağstafa	Qazax, Ağstafa, Tovuz
Bərdə	Bərdə, Beyləqan, Tərtər, Xocavənd
Göyçay	Göyçay, İsmayıllı, Ucar
Lənkəran	Lənkəran, Astara, Lerik
Salyan	Salyan, Neftçala, Biləsuvar (Mehdili kəndi istisna olmaqla)
Sabirabad	Sabirabad, Mehdili kəndi, İmişli, Füzuli
Şəki	Şəki, Oğuz, Qəbələ
Xaçmaz	Xaçmaz, Şabran,Siyəzən
Mingəçevir	Mingəçevir,Yevlax, Ağdaş
Şəmkir	Şəmkir, Gədəbəy
Ağcabədi	Ağcabədi, Ağdam
Kürdəmir	Kürdəmir, Zərdab, Ağsu
Masallı	Masallı, Yardımlı
Cəlilabad	Cəlilabad
Şirvan	Şirvan, Hacıqabul,Saatlı
Zaqatala	Balakən, Zaqatala, Qax
Quba	Quba, Qusar
Şamaxı	Şamaxı, Qobustan
Naxçıvan	Naxçıvan, Sədərək, Şərur, Şahbuz, Babək, Culfa, Kəngərli və Ordubad

Keçirildiyi yerdən asılı olmayaraq bütün hallarda imtahanın keyfiyyətinin dövlət standartlarına uyğun olması təmin edilmişdir.

Müxtəlif təyinatlı imtahanlarda Xüsusi Dövlət Mühafizə Xidmətinin çoxsaylı əməkdaşları imtahan prosesinin təhlükəsizliyini yüksək səviyyədə təmin etmişlər. Daxili İşlər Nazirliyi, "Azərbaycan Hava Yolları" Dövlət Konserni, Səhiyyə Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının peşəkarlığı imtahanların mütəşəkkil keçirilməsində mühüm rol oynamışdır.

Hər ixtisas qrupu üzrə qəbul imtahanı keçirildikdən sonra abituriyentlərin imtahan balları internet vasitəsilə elan edilmiş, onların düzgün ixtisas seçiminə kömək məqsədilə hər bir ixtisas qrupunun abituriyentləri üçün «İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?» adlı vəsait çap edilmişdir. Vəsaitdə təhsil formaları (dövlət sifarişli və ödənişli), Azərbaycan və rus bölmələri üzrə ayrılıqda və hər iki bölmənin birgə müsabiqəsinə aid qəbul planları verilmiş, müsabiqəyə buraxılma şərtləri, eyni zamanda, müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan nəticələrinin bal intervalları üzrə paylanmasına dair məlumatlar təqdim olunmuşdur.

Abituriyentlərin ixtisas seçimi zamanı düzgün istiqamət götürmələrinə kömək məqsədilə ali və orta ixtisas təhsili müəssisələrinə ötənilki qəbul imtahanlarında formalaşmış keçid balları haqqında məlumatlar da ayrıca vəsaitlərdə təqdim edilmişdir. Abituriyentlərə ixtisas seçimi zamanı "Bakalavr ixtisasları" adlı vəsaitlərdən yararlanmaq da tövsiyə olunmuşdur. Bu vəsaitlərdə hər bir ixtisas üzrə kadrların hansı təhsil müəssisəsində hazırlanması, ixtisasın xarakteristikası, təyinatı, bu və ya digər ixtisas üzrə hazırlanan bakalavrlara təhsil müddətində tədris edilən peşə-ixtisas fənləri, həmin fənlər əsasında öyrədilən ixtisas bilik və bacarıqları şərh olunmuş, onların gələcək fəaliyyətinin əsas sahələri və iş yerləri barədə məlumat verilmişdir.

Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək hüququ qazanmış abituriyentlər sentyabrın 10-dan 2-dək internet vasitəsilə ixtisas seçimi etmişdir.

Ali təhsil müəssisələrinə müsabiqə və yerləşdirilmənin nəticələri ictimaiyyətə həm "Abituriyent" jurnalı, həm internet, həm də mobil operatorlar – "Azercell", "Bakcell" və "Nar Mobile"-ın müvafiq xidmətlərindən istifadə yolu ilə elan edilmişdir. Jurnalda qəbul olanların siyahısı ilə yanaşı, təhsili həm ödənişli əsaslarla,

həm də dövlət sifarişi əsasında olan yerlərə qəbul aparılan ixtisasların minimal keçid balları, dövlət sifarişi üzrə qəbul olan abituriyentlərin ali təhsil müəssisələri və ixtisaslar üzrə paylanması, müsabiqənin birgə aparıldığı ixtisaslar üzrə plan yerlərinə Azərbaycan və rus bölmələrindən qəbul olan abituriyentlərin sayı haqqında məlumatlar, ali təhsil müəssisələrinin müvafiq ixtisaslarına müsabiqədənkənar (test və qabiliyyət imtahanlarından azad olunmaqla) qəbul olmaq hüququna malik olan abituriyentlərin siyahısı təqdim olunmuşdur.

2020-ci ildə respublikanın ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə keçirilən qəbul imtahanlarında 67 min 464 nəfər abituriyent iştirak etmişdir. Abituriyentlərdən 1739-u 600 və daha çox bal toplamışdır. Yüksək ballılar respublikanın, demək olar, bütün şəhər və rayonlarını, o cümlədən bəzi kənd məktəblərini təmsil edir. Yüksək nəticə göstərənlər I qrupda 612, II qrupda 216, III qrupda 555, IV qrupda 356 nəfərdir.

DİM ali təhsilin ikinci səviyyəsi olan magistratura səviyyəsinə qəbul imtahanının məzmununun və qiymətləndirmə mexanizminin təkmilləşdirilməsi işlərini cari ildə də davam etdirmişdir.

Magistraturaya qəbul aparılan ixtisaslaşmalar 75 qəbul proqramı üzrə qruplaşdırılmışdır. Bakalavrlara kömək məqsədilə "Magistr" xüsusi buraxılışının saylarında qəbul proqramları, qəbul qaydaları və elanları, ixtisas seçiminə dair tövsiyələr və cədvəllər, test tapşırığı nümunələri, aparılmış müsabiqənin nəticələri, keçid balları və digər zəruri məlumatlar çap olunmuşdur.

Qəbul imtahanına hazırlıq ərəfəsində bakalavrların öz bilik səviyyələrini yoxlamaları və imtahan tapşırıqlarının modelinə bələd olmaları üçün internet vasitəsilə sınaq imtahanı keçirilmişdir. Ərizə qəbulu internet vasitəsilə aparılmışdır. 2020-ci ildə magistraturaya qəbul bir mərhələdə aparılmışdır. İmtahanda (23 fevral 2020-ci il) bakalavrların ümumi intellekt səviyyəsi (məntiqi təfəkkürü), xarici dil və informatikadan bilik səviyyələri test üsulu ilə yoxlanılmışdır. Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə ixtisas magistraturasının ixtisaslaşmalarına qəbul olmaq istəyən və müəyyən edilən müsabiqə şərtini ödəyən bakalavrlar qəbul imtahanını verdikdən sonra əlavə olaraq qabiliyyət imtahanı vermişlər. Bəzi ixtisaslaşmalar üzrə qabiliyyət imtahanları Koronavirus (COVİD-19) pandemiyası ilə əlaqədar yaranmış şəraitə görə ləğv olunmuşdur. Müəyyən edilmiş müsabiqə şərtlərini ödəyənlər ixtisas seçiminə buraxılmışlar. Hər bir bakalavrın 20-dək ixtisaslaşma kodunu seçmək imkanı var idi. Keçirilmiş müsabiqə nəticəsində magistratura səviyyəsinə 8270 nəfər qəbul olmuşdur.

Rezidentura səviyyəsinə qəbul 2020-ci ildə də DİM tərəfindən mərkəzləşdirilmiş qaydada test üsulu ilə keçirilmişdir. Rezidenturaya qəbul qaydaları və qəbul elanı, baza və ixtisas fənləri üzrə qəbul proqramları, namizədlərin cavab verməkdə çətinlik çəkdikləri bəzi test tapşırıqlarının elmi-metodiki izahı və tövsiyələr, test tapşırığı nümunələri və digər zəruri məlumatlar "Rezidentura" jurnalının 2020-ci il tarixli 1-ci və 2-ci nömrələrində çap olunmuşdur. Qəbul imtahanının ikinci mərhələsi və ixtisas seçimi haqqında elan, qəbul aparılan ixtisaslar və plan yerləri haqqında məlumatlar, rezidenturaya qəbul imtahanının I mərhələsinin nəticələrinin ötən illə müqayisəli təhlili və tövsiyələr, 2019-ci ildə rezidenturaya qəbul müsabiqəsində formalaşmış keçid balları və digər elmi-metodiki materiallar jurnalın 3-cü nömrəsində dərc edilib ictimaiyyətə çatdırılmışdır.

Rezidenturaya qəbul qaydalarında bir sıra yeniliklər edilmişdir. Belə ki, baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanı "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilib və "məqbul" alanlar 5 (beş) il ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına buraxılacaqlar. Bu imtahandan toplanılan bal müsabiqə zamanı ixtisas fənləri üzrə eyni bal toplamış namizədləri fərqləndirmək üçün nəzərə alınmışdır. Bununla yanaşı, baza tibb təhsilinin III kursunu tam bitirmiş tələbələrin baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında iştirakına icazə verilmişdir. Bu isə tələbələrə sonrakı kurslarda ancaq klinik fənlər üzərində çalışmağa şərait yaradacaqdır. Rezidenturaya qəbulla əlaqədar edilmiş dəyişiklər həm tədrisin keyfiyyətinin yüksəlməsinə, həm də namizədlərin rezidenturaya qəbul imtahanlarına daha səmərəli hazırlaşmalarına imkan verəcəkdir. Rezidenturaya qəbulla bağlı yeniliklər yalnız qəbul qaydalarında deyil, həmçinin rezidenturaya qəbul aparılan ixtisasların siyahısına edilmiş əlavələrdə də öz əksini tapmışdır. Belə ki, artıq bu ildən etibarən müalicə işi, pediatriya istiqaməti üzrə ailə təbabəti, nüvə təbabəti, neonatologiya və s., stomatologiya istiqaməti üzrə parodontologiya, ortodontiya, restorativ stomatologiya və s. kimi yeni ixtisaslar üzrə də qəbul aparılmışdır.

Rezidenturaya ərizə qəbulu 2020-ci il fevralın 13-dən martın 2-dək internet vasitəsilə aparılmış, 1267 nəfər namizəd qəbul imtahanında iştirak etmək üçün ərizə doldurub təsdiq etmişdir. Qəbul imtahanı iki mərhələdə keçirilmişdir. Birinci mərhələdə namizədlərin baza ali tibb təhsili istiqamətinə uyğun baza fənləri, ikinci mərhələdə isə ixtisas fənləri üzrə bilikləri yoxlanılmışdır. İmtahanın birinci mərhələsi avqustun 5-də, ikinci mərhələsi sentyabrın 18-də keçirilmişdir. İxtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında nəticələri "məqbul"la qiymətləndirilən (topladığı balı 40 və daha çox olan) 764 (onlardan 131 nəfər imtahanın yalnız 1-ci mərhələsində iştirak etmək üçün ərizə verən IV və V kurs tələbələri olub) namizəd buraxılmışdır. 456 namizəd ixtisas seçimində iştirak etmiş, onlardan 418 nəfər rezidenturaya qəbul olmuşdur. Müsabiqənin nəticələri ixtisas seçimi başa çatan gün internet və "Rezidentura" jurnalının 4-cü nömrəsində ictimaiyyətə açıqlanmışdır.

DİM 2019-cu ildə də informasiya-kommunikasiya texnologiyalarının (İKT) kütləvi proseslərə tətbiqi istiqamətində işləri intensiv şəkildə davam etdirmiş, bu sahədə bir sıra yeni layihələr həyata keçirmişdir. İKT istər ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrinə, istər rezidenturaya, istər orta ixtisas təhsili pilləsinə qəbul prosesinin, ümumi təhsil müəssisələri şagirdlərinin buraxılış imtahanlarının, istərsə də dövlət qulluğuna işə qəbulun bütün mərhələlərində tətbiq edilmiş və yüz minlərlə vətəndaşa elektron xidmət göstərilmişdir. Mərkəzin ictimaiyyətə göstərdiyi 18 elektron xidmət növündən hesabat ilində 7 milyon 270 min dəfədən çox istifadə olunmuşdur. Bunlar dövlət qurumlarının icraatında olan elektron xidmət layihələri arasında ən çox istifadə olunan layihələrdəndir.

"Açıq hökumətin təşviqinə dair 2012–2015-ci illər üçün Milli Fəaliyyyət Planı"nın 2-ci bəndində göstərilir ki, dövlət orqanları öz fəaliyyətləri barədə müntəzəm olaraq ictimaiyyətə məlumat verməli, bu məlumatları "mütəmadi, yenilənmiş əsaslarla internet səhifələrində yerləşdirməli", "illik məruzələr tərtib etməli və internet səhifələrində açıqlamalı", "mətbuat konfransları keçirməli və ictimaiyyətlə birbaşa ünsiyyət formasında tədbirlər keçirməlidirlər. " Bu prinsipləri öz fəaliyyətində rəhbər tutan Dövlət İmtahan Mərkəzi mütəmadi olaraq qəbul kampaniyasının mərhələləri ilə bağlı ictimaiyyəti hərtərəfli məlumatlandırmış, qəbul prosesinin şəffaflığının təmin edilməsinə böyük önəm vermişdir. Bu baxımdan, mərkəzi icra hakimiyyəti orqanları rəhbərləri tərəfindən vətəndaşların qəbulu qrafikinə uyğun olaraq 2019-cu ildə də DİM-in direktorlar Şurasının sədri, may ayından başlayaraq sədr müavinləri hər ay bölgələrdə vətəndaşların qəbulunu həyata keçirmiş, il ərzində 20 şəhər və rayonda keçirilmiş qəbullarda 184 vətəndaş iştirak etmiş, səslənmiş 175 müraciətin 152-si DİM-in səlahiyyətinə aid olmuşdur. Qəbullarda hər bir bölgənin ətraf rayonlarından olan vətəndaşlar, eləcə də bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak etmişlər. Qəbul tarixləri barədə əvvəlcədən DİM-in rəsmi internet saytında və kütləvi informasiya vasitələrində elan-məlumat verilmişdir.

Müasir mərhələdə informasiya inkişafın ən başlıca əsaslarından biridir. Ən önəmli məsələlərdən biri informasiyanın açıqlanmasıdır. Bu, informasiya sahibinin mühüm vəzifəsidir. Bu vəzifə "İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının Qanunu"nuda təsbit olunmuşdur. Qanunun 29-cu maddəsinə əsasən informasiya sahibi cəmiyyətin maraqlarını daha asan və daha operativ şəkildə təmin etmək, çoxsaylı informasiya sorğularını azaltmaq məqsədi ilə malik olduğu, ictimai vəzifələrin yerinə yetirilməsi nəticəsində yaradılmış, yaxud əldə olunmuş informasiyanı ictimaiyyətə açıqlamalıdır. Qanunda belə informasiyalara "ümumiləşdirilmiş statistik məlumatlar" aid edilir.

DİM-in apardığı ənənəvi elmi-statistik təhlillərdə təhsilin həm ümumilikdə ölkə səviyyəsində, həm də ayrı-ayrı bölgələr və məktəblər üzrə göstəriciləri, eləcə də abituriyentlərin ayrı-ayrı fənlər üzrə nəticələri, onların müxtəlif ixtisas qruplarına meyil və maraqları, ali təhsil müəssisələrinə qəbulolma göstəriciləri, yüksək və zəif göstəricili rayon və məktəblər, ali təhsil müəssisələrinin reytinqi, bakalavriat və magistratura səviyyələrinə, orta ixtisas təhsili pilləsinə və rezidenturaya qəbulun nəticələri, həmçinin ümumtəhsil müəssisələri şagirdlərinin buraxılış imtahanları üzrə nəticələri və s. məsələlər öz əksini tapıb. Eyni zamanda, aparılan elmi-statistik təhlilin tərkib hissələri kimi "Tələbə qəbulunun gender aspektləri" ("Qadınlar statistikada"), "Kənd təsərrüfatı profilli ixtisaslar statistikada" və "Neft-qaz ixtisasları statistikada" adlı kitabçalar, həmçinin hər bir rayonun məzunlarının qəbul imtahanlarındakı göstəricilərini əks etdirən kitabçalar hazırlanıb. Qəbulun nəticələrinin bu miqyasda, bu səviyyədə araşdırılmasını təhsilin vəziyyətinin monitorinqi də adlandırmaq olar.

DİM elmi-statistik təhlil nəticəsində əldə etdiyi informasiyanı – "ümumiləşdirilmiş statistik məlumatlar"ı qeyd edilən qanuna və "Abituriyent" jurnalının nizamnaməsinə uyğun olaraq açıqlayır və əldə olunmuş nəticələri nəşr edərək ictimaiyyətin istifadəsinə verir.

1. ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN BAKALAVRİAT SƏVİYYƏSİNƏ TƏLƏBƏ QƏBULU

2020/2021-ci tədris ili üçün respublikanın ali təhsil müəssisələrinə tələbə qəbulu DİM tərəfindən "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu qaydaları"na əsasən aparılıb. Qəbul qaydalarına uyğun olaraq, respublikanın bütün mülki ali təhsil müəssisələrinə, xüsusi təyinatlı ali təhsil müəssisələrinə (Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik Xidməti, Fövqəladə Hallar Nazirliyi və Dövlət Sərhəd Xidmətinin təhsil müəssisələri) tələbə qəbulu mərkəzləşdirilmiş qaydada keçirilib.

Cari ildə Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkədə yaranmış şəraitə uyğun olaraq DİM tərəfindən imtahanların təşkili zamanı Nazirlər Kabineti yanında operativ qərargahın tələb və tövsiyələri nəzərə alınmışdır.

Koronavirus (COVID-19) pandemiyasının ölkənin təhsil müəssisələrində təhsil prosesinə mənfi təsirinin aradan qaldırılması ilə bağlı bəzi tədbirlər barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 18 may 2020-ci il tarxili 179 nömrəli qərarına əsasən "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu qaydaları"nda edilən dəyişikliyə uyğun olaraq cari ildə ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə qəbul imtahanlarının ikinci mərhələsi ötən ildən fərqli olaraq yalnız bir dəfə keçirilmişdir.

Abituriyentlər ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün 2020-ci il mayın 12-dən iyunun 12-dək internet vasitəsilə elektron ərizə veriblər. Bunun üçün onlar ekabinet.dim.gov.az internet səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetlərinin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet (eservices.dim.gov.az/erizebak/erize) səhifəsinə daxil olaraq "Abituriyentin elektron ərizəsi" formasını doldduraraq təsdiq etmişlər (etdirmişlər).

Ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə qəbul imtahanı iki mərhələdə həyata keçirilmişdir. İmtahanın ikinci mərhələsi ötən ildən fərqli olaraq yalnız bir dəfə keçirilmişdir. Müsabiqədə iştirak ödənişli olmuşdur. Abituriyentlər ərizələrini təsdiq etmək (etdirmək) üçün tələb olunan məbləği kabinetlərindəki hesaba əlavə etmiş və təsdiq zamanı həmin məbləğ onların hesabından çıxılmışdır. Cari ilədək ali təhsil müəssisələrinə qəbul olmaq üçün ilk dəfə müraciət etmiş Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) imtahanda iştirakı isə dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilmişdir.

Ərizənin təsdiqi DİM-in məlumat bazalarında abituriyent barədə olan məlumatların yetərli olub-olmamasından asılı olaraq iki üsulla həyata keçirilib:

1. Aşağıda göstərilən kateqoriyalardan olan abituriyentlər elektron ərizələrini elektron ərizə səhifəsinə daxil olaraq özləri təsdiq ediblər:

1.1. Azərbaycan Respublikasının ümumtəhsil müəssisələrini cari ildə bitirən abituriyentlər;

1.2. Azərbaycan Respublikasının ümumtəhsil müəssisələrini 2012-ci və ondan sonrakı illərdə bitirən qadın cinsli abituriyentlər;

1.3. Azərbaycan Respublikasının ilk-peşə ixtisas təhsili müəssisələrini 2013-cü və ondan sonrakı illərdə bitirən qadın cinsli abituriyentlər;

1.4. 2012-ci və ondan sonrakı illərdə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə verib onu təsdiq etmiş qadın cinsli abituriyentlər;

2. 1.1, 1.2, 1.3 və 1.4 -ci yarımbəndlərdə göstərilən abituriyentlərdən başqa digər abituriyentlər elektron ərizələrini doldurduqdan sonra 2020-ci il mayın 18-dən iyunun 12-dək DİM-in internet saytından onlayn növbə götürərək tələb olunan sənədləri şəxsən təqdim etməklə elektron ərizələrini müvafiq **Sənəd Qəbulu Komissiyalarında (SQK)** təsdiq etdiriblər. Ərizə qəbulu elanının tam mətni "Abituriyent" jurnalının 2020-ci il 2-ci sayında dərc edilərək ictimaiyyətə çatdırılıb. Ərizə qəbulu ilə bağlı bütün məlumatlar operativ şəkildə DİM-in internet saytında da yerləşdirilib. Bundan başqa, "Abituriyentin elektron ərizəsi" formasının doldurulması qaydası televiziya kanallarında abituriyentlərə dəfələrlə izah olunub. SQK-lar hər gün (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 9-dan 17-dək fəaliyyət göstəriblər:

Bakı şəhərində:

DİM-in Bakı şəhərində yerləşən inzibati binaları:

- *Bakı ş, Yasamal r, Mikayıl Müşfiq küç., 1M*
- *Bakı ş, Nəsimi r, Abdulvahab Salamzadə küç., 28*
- *Bakı ş, Nərimanov r, Koroğlu Rəhimov küç., 108A*

Digər şəhər və rayonlarda:

Naxçıvan ş.	*DİM-in Regional Bölməsi;*
Gəncə ş.	*DİM-in Regional Bölməsi*
Lənkəran ş.	*DİM-in Regional Bölməsi;*
Şəki r-nu.	*DİM-in Regional Bölməsi;*
Xaçmaz r-nu.	*DİM-in Regional Bölməsi;*
Şirvan ş.	*DİM-in Regional Bölməsi;*
Göyçay r-nu.	*DİM-in Regional Bölməsi;*
Bərdə r-nu.	*DİM-in Regional Bölməsi;*
Şəmkir r-nu.	*DİM-in Regional Bölməsi.*

Xüsusi təyinatlı ali təhsil müəssisələrində təhsil almaq istəyən abituriyentlər də 1-ci və 2-ci bənddə göstərilən müddətdə və qaydada elektron ərizələrini təsdiq ediblər.

2020/2021-ci tədris ili üçün ali təhsil müəssisələrinə qəbul beş ixtisas qrupu üzrə aparılmışdır. I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı iki mərhələdən ibarət olmuşdur. Abituriyentlər qəbul imtahanının birinci *(maksimal toplanıla bilən bal – 300)* və ikinci *(maksimal toplanıla bilən bal – 400)* mərhələlərindən topladıqları ümumi balların cəminə *(maksimal toplanıla bilən bal – 700)* əsasən ali təhsil müəssisələrinin ixtisasları üzrə müsabiqədə iştirak etmişlər. Cari ilin məzunları üçün qəbul imtahanının birinci mərhələsinin nəticəsi kimi onların buraxılış imtahanında əldə etdikləri nəticələr götürülmüşdür.

Qəbul imtahanının birinci mərhələsi (cari ilin məzunları üçün tam (11-illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı) üzrə imtahan fənləri, tapşırıqların sayı və balların hesablanma qaydası 1.1 saylı cədvəldə təqdim olunmuşdur. Bu mərhələdə şagird və abituriyentlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi ilə onlara ümumilikdə üç fənn üzrə 85 tapşırıq təqdim edilmişdir. İmtahanın müddəti 3 saat olmuşdur.

Cədvəl 1.1

Fənnin adı	Tapşırıqların sayı	Nisbi balın hesablanması düsturu
Xarici dil (ingilis, alman, fransız, rus, ərəb və ya fars dili)	- Dinləyib-anlamaya dair mətn (publisistik və ya dialoq formalı) və mətnə aid 6 tapşırıq: qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 1 tapşırıq; - Qapalı tipli 16 tapşırıq; - Oxuyub-anlamaya dair mətn və mətnə aid 8 tapşırıq: qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 3 tapşırıq. **Cəmi: 30 tapşırıq**	$\frac{50}{17}(2n_{d(açıq,\ yazılı)} + n_{d(qapalı)})$ **Maksimal bal: 100**
Azərbaycan (rus) dili	- Dil qaydalarına dair 10 qapalı tipli tapşırıq; - Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik formalı) və hər mətnə aid 10 tapşırıq: qapalı tipli 8 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 2 tapşırıq (cəmi 20 tapşırıq). **Cəmi: 30 tapşırıq**	$\frac{50}{17}(2n_{d(açıq,\ yazılı)} + n_{d(qapalı)})$ **Maksimal bal: 100**
Riyaziyyat	- Qapalı tipli 13 tapşırıq; - Cavabların kodlaşdırılması tələb olunan açıq tipli 8 tapşırıq; - Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 4 tapşırıq. **Cəmi: 25 tapşırıq**	$\frac{100}{29}(2n_{d(açıq,\ yazılı)} + n_{d(açıq,\ kod)} + n_{d(qapalı)})$ **Maksimal bal: 100**

Qeyd. 1. $n_{d(açıq,\ kod)}$ - cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi;
$n_{d(qapalı)}$ - qapalı tipli tapşırıqlar üzrə balların cəmi;
$n_{d(açıq,\ yazılı)}$ - yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi.

2. Qapalı tipli və cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqların hər birinə verilən düzgün cavab 1 balla qiymətləndirilib.

3. Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar markerlər tərəfindən meyarlar əsasında 0, $\frac{1}{3}$, $\frac{1}{2}$, $\frac{2}{3}$ və ya 1 balla qiymətləndiriliblər.

Abituriyentin qəbul imtahanının birinci mərhələsi (cari ilin məzunları üçün tam (11-illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı) üzrə ümumi balı hesablanarkən hər bir fənn üzrə topladığı nisbi ballar cəmlənib. Fənlər üzrə nisbi ballar yuxarıdakı cədvəldə göstərilən qaydada hesablandıqdan sonra 0.1-ə qədər yuvarlaqlaşdırılıb. Tapşırıqlar üzrə səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərməyib.

Qəbul imtahanının ikinci mərhələsində abituriyentlərə hər fənn üzrə 30 tapşırıq (ümumilikdə 90 tapşırıq) təqdim olunmuşdur. Bu tapşırıqların 22-si qapalı, 8-i isə açıq tipli idi. Açıq tipli tapşırıqlardan 5-i cavabların kodlaşdırılması tələb olunan hesablama, seçim və ya uyğunluğu müəyyən etmək tipli tapşırıqlar olub. Digər açıq tipli 3 tapşırıq isə yazılı şəkildə cavablandırılması tələb olunan, meyarlar əsasında markerlər tərəfindən qiymətləndirilən situasiya, mətn və yaxud mənbə əsasında hazırlanan tapşırıqlar idi. Bu tapşırıqlar riyaziyyat, fizika, kimya, biologiya və coğrafiya fənləri üzrə situasiya, Azərbaycan (rus) dili və ədəbiyyat fənləri üzrə mətn, tarix fənni üzrə isə mənbə əsasında hazırlanıb. İmtahanın müddəti 3 saat olmuşdur.

Abituriyentin qəbul imtahanının ikinci mərhələsi üzrə ümumi balı hesablanarkən hər bir fənn üzrə topladığı nisbi ballar 1.2 saylı cədvəldə verilmiş müvafiq çəki əmsallarına vurulmaqla cəmlənib. Hər bir fənn üzrə nisbi bal aşağıdakı qaydada hesablandıqdan sonra 0.1-ə qədər yuvarlaqlaşdırılıb:

$$NB = NB_q + NB_a,$$

burada NB – fənn üzrə nisbi bal; NB_q – qapalı tipli tapşırıqlar üzrə nisbi bal; NB_a – açıq tipli tapşırıqlar üzrə nisbi baldır.

Qapalı və açıq tipli test tapşırıqları üzrə nisbi ballar isə aşağıdakı qaydada hesablanıb:

$$NB_q = \left(D_q - \frac{1}{4} Y_q \right) \cdot \frac{100}{33}$$ (hesablamanın nəticəsi mənfi alınarsa, $NB_q=0$ götürülür),

burada D_q – qapalı tipli tapşırıqlar üzrə düzgün cavabların sayı; Y_q – qapalı tipli tapşırıqlar üzrə yanlış cavabların sayıdır.

$$NB_a = (D_{kod} + 2D_{yazılı}) \cdot \frac{100}{33}$$

burada D_{kod} – cavabların kodlaşdırılması tələb olunan açıq tipli (hesablama, seçim, uyğunluğu müəyyən etmək) tapşırıqlar üzrə düzgün cavabların sayı; $D_{yazılı}$ – yazılı şəkildə cavablandırılması tələb olunan, situasiya, mətn və yaxud mənbə əsasında hazırlanan açıq tipli tapşırıqlar üzrə balların cəmidir. Bu tapşırıqlar markerlər tərəfindən meyarlar əsasında $0, \frac{1}{2}$ *və ya* 1 *balla qiymətləndiriliblər.*

Açıq tipli tapşırıqlar üzrə səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərməyib.

Cədvəl 1.2

QƏBUL İMTAHANININ İKİNCİ MƏRHƏLƏSİ ÜZRƏ İMTAHAN FƏNLƏRİNİN ÇƏKİ ƏMSALLARI (İXTİSAS QRUPLARI ÜZRƏ)

İxtisas qrupları	İmtahan fənləri	Çəki əmsalları
I qrup	Riyaziyyat	1.5
	Fizika	1.5
	Kimya	1
II qrup	Riyaziyyat	1.5
	Coğrafiya	1.5
	Tarix	1
III qrup	Azərbaycan (rus) dili	1.5
	Tarix	1.5
	Ədəbiyyat	1
IV qrup	Biologiya	1.5
	Kimya	1.5
	Fizika	1

Abituriyentlər V ixtisas qrupu üzrə ali təhsil müəssisələri və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin ixtisasları üzrə müsabiqədə yalnız qəbul imtahanının birinci mərhələsinin (cari ilin məzunları üçün buraxılış imtahanının) və qabiliyyət imtahanının nəticələrinə (tələb olduğu halda) əsasən iştirak etmişlər.

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə təhsil almaq istəyən və imtahanda topladıqları ümumi balları müvafiq müsabiqə şərtlərini ödəmiş abituriyentlər imtahanların nəticəsi elan olunduqdan sonra V qrup üzrə 2020-ci il avqustun 7-dən 21-dək, həmçinin sentyabrın 2 və 3-də, I qrup üzrə sentyabrın 2-dən 6-dək, III qrup üzrə isə avqustun 27-dən 30-dək eservices.dim.gov.az/erizebak/qabiliyyet internet səhifəsinə daxil olub seçdiyi xüsusi qabiliyyət tələb edən ixtisasın aid olduğu komissiya üzrə qeydiyyatdan keçiblər. Ali təhsil müəssisələrinə qəbul olmaq üçün ilk dəfə müraciət etmiş Azərbaycan Respublikası vətəndaşlarının (ümumi təhsil müəssisələrini bitirən) ilk seçdiyi (qeydiyyatdan keçdiyi) komissiya üzrə qabiliyyət imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilmişdir.

Qabiliyyət imtahanları DİM-in təşkil etdiyi xüsusi komissiyalar tərəfindən mərkəzləşdirilmiş qaydada aparılıb. Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar xüsusi qabiliyyət tələb edən "Musiqi müəllimliyi", "Təsviri incəsənət müəllimliyi", "Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi" və "Məşqçilik" ixtisaslarına qəbul üzrə qabiliyyət imtahanları ləğv edilmişdir. Həmçinin Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Azərbaycan Memarlıq və İnşaat Universiteti istisna olmaqla digər ali təhsil müəssisələrinin Dizayn ixtisasına qəbul üzrə də qabiliyyət imtahanları keçirilməmişdir. Qabiliyyət imtahanları keçirilməyən xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olmaq üçün Qabiliyyət İmtahanı Komissiyaları (QİK) üzrə qeydiyyatdan keçmək tələb olunmamışdır. Qabiliyyət imtahanları Bakı şəhərində ali təhsil müəssisələrinin təsviri sənət istiqamətli ixtisasları üzrə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında, Bakı şəhəri 153 saylı tam orta məktəbdə, musiqi sənəti istiqamətli ixtisasları üzrə Bakı Musiqi Akademiyasında, Azərbaycan Milli Konservatoriyasında və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, memarlıq ixtisası üzrə Azərbaycan Memarlıq və İnşaat Universitetində, teatr, kino və xoreoqrafiya sənəti istiqamətli ixtisasları üzrə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində və Bakı Xoreoqrafiya Akademiyasında, ilahiyyat istiqamətli ixtisası üzrə Azərbaycan İlahiyyat İnstitutunda keçirilib.

Qabiliyyət imtahanları ali təhsil müəssisələri üzrə Bakı şəhərindən əlavə Naxçıvan şəhərində təşkil edilmişdi. Naxçıvan şəhərində keçirilən imtahanlarda yalnız Naxçıvan Dövlət Universitetinin, Bakı şəhərində keçirilən imtahanlarda isə Bakı şəhərində fəaliyyət göstərən ali təhsil müəssisəsinin xüsusi qabiliyyət tələb edən ixtisaslarında təhsil almaq istəyən abituriyentlər iştirak ediblər. Karantin rejiminin yaratdığı əlavə çətinliklər nəzərə alınaraq Naxçıvanda yaşayan abituriyentlərin (subbakalavrların) qabiliyyət imtahanları onlayn şəkildə keçirilmiş və onların qiymətləndirilməsi Bakıda təşkil edilmiş QİK-lər tərəfindən aparılmışdır. İmtahanların qiymətləndirməsi üçün 9 QİK onlayn fəaliyyət göstərmişdir. Eyni zamanda Naxçıvanda yaşayan, "İslamşünaslıq" ixtisasına qəbul olunmaq istəyən abituriyentlərlə müsahibələr də onlyan şəkildə həyata keçirilmişdir.

Dövlət İmtahan Mərkəzi ilin əvvəlində qabiliyyət imtahanlarının keçirilməsi qaydaları, qəbul proqramları, imtahanlara hazırlığa dair metodiki tövsiyələr, qiymətləndirmə meyarları və s. materialları "Abituriyent" jurnalının xüsusi buraxılışı olan "Xüsusi qabiliyyət imtahanları" jurnallarının müvafiq saylarında dərc edərək qabiliyyət imtahanlarına hazırlaşanların istifadəsinə vermişdir.

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə qabiliyyət imtahanlarının yekun nəticəsi ixtisasın xüsusiyyətindən asılı olaraq məqbul və ya balla qiymətləndirilib. Abituriyentin xüsusi qabiliyyət tələb edən ixtisasları seçmək və onların kodlarını ərizəsində qeyd etmək hüququ qazanması üçün onun qabiliyyət imtahanından yekun nəticəsi və test imtahanında topladığı ümumi balı DİM tərəfindən müəyyən edilmiş tələblərə uyğun olmalı idi. Abituriyentlərə öz ərizələrində qabiliyyət tələb edən ixtisaslarla yanaşı, digər ixtisasları da seçmək imkanı verilmişdi. Seçim imkanlarının bu şəkildə genişləndirilməsi, bir tərəfdən, qabiliyyət tələb edən ixtisaslara qəbulda müsabiqə vəziyyətinin artmasına, digər tərəfdən isə müsabiqə zamanı seçimin keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərmişdir. Qeyd edək ki, I–IV qruplardan hər hansı birinə ərizə verən abituriyentə, eyni zamanda V qrupa da ərizə vermək və qoyulan tələbləri ödədiyi halda, bu qrup üzrə də müsabiqədə iştirak etmək və ixtisas seçimi zamanı eyni vaxtda I–IV qruplardan hər hansı birinə daxil olan ixtisaslarla yanaşı, V qrupa aid ixtisasları da ərizəsində istədiyi ardıcıllıqla qeyd etmək imkanı yaradılmışdı.

Son illərdə ən aşağı müsabiqə vəziyyəti xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə olmuşdur. Dövlət İmtahan Mərkəzi bunu nəzərə alaraq gənclərin bu ixtisaslara meyil və marağını artırmaq, onların qəbula hazırlığına kömək məqsədilə əvvəlki illərdə olduğu kimi, bu ildə xüsusi qabiliyyət tələb edən ixtisaslara dair metodiki materiallar hazırlanıb və müxtəlif maarifləndirici tədbirlər həyata keçirib. Qeyd olunanlarla yanaşı,

2015-ci ildən etibarən xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə (I qrup "Memarlıq" və III qrup "İslamşünaslıq" və "Jurnalistika" ixtisasları istisna olmaqla) ayrıca bir qrup – V qrup yaradılmış, qəbul imtahanının struktur və məzmun tərkibi dəyişdirilmişdir. Nəticədə, ötən illərlə müqayisədə V qrup üzrə müsabiqə vəziyyəti dəfələrlə artmışdır. Qeyd edək ki, cari ilin məzunları V qrup üzrə müsabiqədə əlavə qəbul imtahanı vermədən bilavasitə buraxılış imtahanlarının nəticələri əsasında iştirak ediblər. Bununla yanaşı, ötən 2019-cu ildəki imtahanın nəticəsi 2020-ci ildə öz qüvvəsini saxlamış və 2019-cu ildə V qrup üzrə qəbul imtahanında iştirak edən, həmçinin tam orta təhsili 2019-cu ildə bitirərək buraxılış imtahanında iştirak edən abituriyentlər müsabiqə şərtlərini ödədikləri halda, həmin imtahanların nəticələri əsasında 2020-ci ildə V ixtisas qrupu üzrə müsabiqədə iştirak etmək imkanı əldə etmişlər.

Bu il koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar bir sıra xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə qabiliyyət imtahanları keçirilmədiyindən V ixtisas qrupu üzrə müsabiqə vəziyyəti ümumilikdə kəskin artmışdır. Bununla birlikdə cari ildə V ixtisas qrupunda qabiliyyət imtahanının verilməsi tələb olunan ixtisaslar üzrə ayrılan 1034 plan yerinə 1406 abituriyent (subbakalavr) iddia etmişdi. Qeyd edək ki, 2015-ci ildə bu ixtisaslara ayrılan 2355 plan yerinə 4293, 2016-cı ildə 2854 plan yerinə 3993, 2017-ci ildə 3067 plan yerinə 3939, 2018-ci ildə 3307 plan yerinə 3593, 2019-cu ildə isə 3462 plan yerinə 4971 abituriyent iddia edirdi.

Bu il I ixtisas qrupunun xüsusi qabiliyyət tələb edən "Memarlıq" ixtisası üzrə müsabiqəyə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən az olmayan abituriyentlər buraxılmışdı. V qrupun xüsusi qabiliyyət tələb edən (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) "Məşqçilik" və "Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi" ixtisaları üzrə müsabiqədə ümumi balı 75-dən (regionlar üçün 60-dan), "Xoreoqrafiya sənəti (sahələr üzrə)" ixtisası üzrə ümumi balı 30-dan, digər ixtisaslar üzrə isə ümumi balı 60-dan az olmayan abituriyentlər iştirak etmişlər. Qeyd edək ki, bu ixtisaslara qəbul olan abituriyentlərin qəbul imtahanlarında topladıqları orta ballar (I qrupda "Memarlıq" istiqaməti üzrə 370.78, III qrupda "İlahiyyat" istiqaməti üzrə 261.47, "Jurnalistika" istiqaməti üzrə 383.66, V qrupda "Təsviri sənət" istiqaməti üzrə 150.77, "Musiqi sənəti" istiqaməti üzrə 117.34, "Teatr, kino və xoreoqrafiya" istiqaməti üzrə 91.80, "Bədən tərbiyəsi və idman" istiqaməti üzrə 139.31 bal) müsabiqə şərtlərindən xeyli yüksək olub.

2020/2021-ci tədris ili üçün V ixtisas qrupunun xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə ümumilikdə 3639 plan yeri ayrılmışdı (bundan əlavə 85 yerə müsabiqədən kənar qəbul aparılıb). 19802 nəfər (18108 abituriyent və 1694 subbakalavr) V qrupun ixtisasları üzrə müsabiqədə iştirak etmişdir. Onlardan 1163-ü qabiliyyət imtahanının verilməsi tələb olunan ixtisaslara qəbul üçün qabiliyyət imtahanını müvəffəqiyyətlə verənlər olmuşdur. Bu il xüsusi qabiliyyət tələb edən ixtisasların qəbul planları və bu ixtisaslar üzrə müsabiqədə iştirak etmiş abituriyentlərin və subbakalavrların sayı aşağıdakı cədvəldə təqdim olunur:

Cədvəl 1.3

İSTİQAMƏTLƏR ÜZRƏ MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN VƏ SUBBAKALVRLARIN SAYI

İstiqamət	İxtisas qrupu	Qəbul planı (o cümlədən, qabiliyyət imtahanı tələb olunan yerlərin sayı)	Müsabiqədə iştirak edən abituriyentlərin və subbakalvrların sayı (o cümlədən, qabiliyyət imtahanını müvəffəqiyyətlə verənlərin sayı)
Memarlıq	I	145 (145)	183 (183)
İlahiyyat	III	36 (36)	75 (75)
Jurnalistika	III	265 (265)	648 (648)
Təsviri sənət	V	1090 (375)	13484 (657)
Musiqi sənəti	V	634 (449)	1889 (586)
Teatr, kino və xoreoqrafiya sənəti	V	210 (210)	166 (166)
Bədən tərbiyəsi və idman	V	1705 (---)	14029 (---)

Müsabiqə zamanı abituriyentlərin seçdikləri ixtisaslar "Abituriyentin elektron ixtisas seçimi ərizəsi" formasında göstərilən ardıcıllıqla nəzərə alınmış və abituriyent topladığı ballara əsasən müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilmişdir. Seçdiyi ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün abituriyentin

topladığı ümumi balı ilə yanaşı, imtahanın ikinci mərhələsi üzrə yığdığı bala da tələblər (müsabiqə şərtləri) müəyyənləşdirilmişdir. Bu tələblər, bir qayda olaraq, qəbul imtahanlarının nəticələrinin elmi-statistik təhlili əsasında formalaşır. Aparılan təhlil nəticəsində müəyyən edilmişdir ki, I–IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinin qəbul planında nəzərdə tutulmuş qəbul yerlərini həmin qruplarda nəticələri yüksək və orta bal diapazonunda yerləşən abituriyentlərin hesabına tam doldurmaq mümkün deyil. Odur ki, müsabiqə vəziyyətini yüksəltmək məqsədilə müsabiqədə iştirak etmək üçün fənlər üzrə nisbi bala heç bir məhdudiyyət tətbiq edilməmişdir.

Ümumilikdə, müsabiqəyə buraxılma şərtləri aşağıdakı şəkildə müəyyən olunmuşdur:

• **I qrup** ixtisaslarının müsabiqəsinə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılıb. I ixtisas qrupunun "Riyaziyyat", "Fizika" və "Kompüter elmləri" ixtisasları üzrə müsabiqədə ümumi balı 250-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər iştirak edib.

Dövlət ali təhsil müəssisələrinin ("ADA" Universiteti və Bakı Ali Neft Məktəbi istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsində qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər iştirak hüququ qazanıb.

I ixtisas qrupunun "Meliorasiya mühəndisliyi", "Texnologiya müəllimliyi" və "Ekologiya mühəndisliyi" ixtisasları üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər iştirak ediblər.

"Aqronomluq", "Balıqçılıq", "Meşəçilik", "Şərabçılıq", "Torpaqşünaslıq və aqrokimya", "Yerquruluşu və daşınmaz əmlakın kadastrı" və "Zoomühəndislik" ixtisasları üzrə həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan abituriyentlər iştirak hüququ qazanıb.

• **II qrup** ixtisaslarının müsabiqəsinə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılıb.

Dövlət ali təhsil müəssisələrinin ("ADA" Universiteti istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsinə qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılıblar.

II ixtisas qrupunun "Marketinq", "Biznesin idarə edilməsi", "Regionşünaslıq (regionlar üzrə)", "Turizm bələdçiliyi" və "Turizm işinin təşkili" ixtisasları üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər iştirak ediblər.

• **III qrup** ixtisaslarının müsabiqəsinə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılıb.

Dövlət ali təhsil müəssisələrinin ("ADA" Universiteti istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsində qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər iştirak ediblər.

III ixtisas qrupunun "Muzey, arxiv işi və abidələrin qorunması" və "Sosial iş" ixtisasları üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılıb.

• **IV qrup** ixtisaslarının müsabiqəsinə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılıb.

Dövlət ali təhsil müəssisələrinin tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsində qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər iştirak ediblər.

IV ixtisas qrupunun "Ekologiya" ixtisası üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər buraxılıb.

"Bağçılıq və tərəvəzçilik", "Baytarlıq təbabəti", "Bitki mühafizəsi" və "Su bioehtiyatları və akvakultura" ixtisasları üzrə həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan abituriyentlər iştirak ediblər.

• **V qrup** üzrə ixtisas seçimində qabiliyyət imtahanı üzrə yekun nəticəsi və qəbul imtahanında topladığı ümumi balı cədvəl 1.4-də göstərilən şərtləri ödəyən abituriyentlər iştirak etmişlər.

I və V qrupların qəbul planında qarşısında ulduz "*" (qabiliyyət imtahanının nəticəsi məqbulla qiymətləndirilən) və ya iki ulduz "**" (qabiliyyət imtahanının nəticəsi balla qiymətləndirilən) işarəsi olan ixtisaslarının müsabiqəsində qabiliyyət imtahanından yekun nəticəsi və qəbul imtahanından topladığı ümumi balı DİM tərəfindən müəyyən edilmiş tələblərə uyğun olan abituriyentlər iştirak etmişlər. I ixtisas qrupunun xüsusi qabiliyyət tələb edən "Memarlıq" ixtisasının müsabiqəsində iştirak edən abituriyentlərə həmin qrup daxilində digər ixtisasları da seçmək imkanı verilib.

Ali təhsil müəssisələrinin V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə abituriyentin qabiliyyət imtahanlarında topladığı yekun balı, qabiliyyət imtahanlarının nəticələri məqbulla qiymətləndirilən xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə abituriyentin qəbul (cari ilin məzunları üçün buraxılış) imtahanında topladığı ümumi balı əsasında aparılmışdır. Qabiliyyət imtahanı komissiyaları üzrə müsabiqə şərtləri 1.4 saylı cədvəldə təqdim edildiyi kimi olmuşdur.

Cədvəl 1.4

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə şərtləri

İxtisasın adı	Minimal bal	II mərhələ üzrə minimal bal	Qabiliyyət imtahanının yekun nəticəsi
I ixtisas qrupu			
Memarlıq	200	-	məqbul
III ixtisas qrupu			
Jurnalistika	200	100	məqbul
V ixtisas qrupu			
Məşqçilik Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi	75 (regionlar üçün 60)		tələb olunmur
Musiqi müəllimliyi Təsviri incəsənət müəllimliyi	60		tələb olunmur
Dizayn (sahələr üzrə)	60		məqbul
Dekorativ-tətbiqi sənət (sahələr üzrə) İnstrumental ifaçılıq (sahələr üzrə) Vokal sənəti (sahələr üzrə) Dirijorluq (sahələr üzrə) Bəstəkarlıq Musiqişünaslıq Populyar musiqi və caz ifaçılığı (sahələr üzrə) Aktyor sənəti Rejissorluq Operator sənəti Rəngkarlıq Qrafika Heykəltəraşlıq	60		6(bal)
Xoreoqrafiya sənəti (sahələr üzrə)	30		6(bal)

QEYD:
1. I ixtisas qrupunun xüsusi qabiliyyət tələb edən ixtisaslarının müsabiqəsi zamanı test imtahanı üzrə ümumi balları eyni olan abituriyentlərin qabiliyyət imtahanı üzrə yekun balları da nəzərə alınıb.
2. Cari ildə xüsusi qabiliyyət tələb edən Musiqi müəllimliyi, Təsviri incəsənət müəllimliyi, Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi və Məşqçilik ixtisaslarına qəbul olmaq üçün qabiliyyət imtahanları keçirilməyib.
3. Musiqi müəllimliyi ixtisasını yalnız azı 5 illik müsiqi təhsili olan abituriyentlər (subbakalavrlar) seçə biliblər.
4. Cari ildə Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və Azərbaycan Memarlıq və İnşaat Universiteti istisna olmaqla digər ali təhsil müəssisələrinin Dizayn ixtisasına qəbul olmaq üçün qabiliyyət imtahanları keçirilməyib.

Abituriyentlər qəbul qaydalarına əsasən imtahan verdikləri ixtisas qrupuna (qruplarına) aid 15-dək ixtisas kodunu seçə bilərdilər. Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək hüququ qazanmış abituriyentlər sentyabrın 10-dan 20-dək internet vasitəsilə ixtisas seçimi etmişlər.

Ötən ildən etibarən orta ixtisas təhsili pilləsi üzrə "subbakalavr" peşə-ixtisas dərəcəsi almış şəxslərə (subbakalavrlara) qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq hüququ verilmişdir. Tələbə qəbulu ilə bağlı subbakalavrların ərizələrinin qəbulu 2020-ci il iyunun 1-dən iyulun 14-dək internet vasitəsilə aparılmışdır. Ərizə qəbulu ilə bağlı ətraflı məlumat "Abituriyent" jurnalının 2020-ci il 2-ci sayında təqdim olunmuşdur.

Subbakalavrlar ixtisas seçimində iştirak etmək üçün qəbul olmaq istədikləri ixtisasların kodlarını sentyabrın 10-dan 20-dək "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nə daxil edib təsdiq etmişlər. Onlar yalnız orta ixtisas təhsili səviyyəsində təhsil aldıqları tədris dilinə və bitirdikləri ixtisasa uyğun olan ixtisasları seçmək imkanına malik olmuşlar. Qəbul aparılan ixtisasların uyğunluğu Dövlət İmtahan Mərkəzi ilə razılaşdırılmaqla, Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuşdur. Dövlət hesabına ali təhsil almış şəxslərə yalnız ödənişli əsaslarla ayrılmış yerləri seçmək hüququ verilmişdir. Subbakalavrlar xarici dil fənni üzrə əlavə tələblər qoyulan ixtisasları seçə bilməyiblər. Xüsusi qabiliyyət tələb edən ixtisasları isə yalnız bu ixtisaslar üzrə qabiliyyət imtahanlarında iştirak edən və müvafiq müsabiqə şərtlərini ödəyən subbakalavrlar seçə bilmişlər.

İxtisas seçimi başa çatdıqdan sonra ali təhsil müəssisələrinin ixtisaslarının qəbul planı və dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu çərçivəsində əvvəlcə abituriyentlərin, sonra isə subbakalavrların müsabiqə əsasında yerləşdirilməsi aparılmışdır. Cari ildə qəbul imtahanında iştirak etmiş subbakalavrlar isə öz istəklərindən asılı olaraq, həm imtahanda topladıqları ballarla ümumi qaydada (abituriyent kimi), həm də subbakalavr kimi orta ixtisas təhsili səviyyəsində bitirdikləri ixtisasa uyğun ali təhsil pilləsinin ixtisasları üzrə keçirilən müsabiqədə iştirak ediblər.

Beynəlxalq səviyyədə akkreditasiya olunan "Beynəlxalq Bakalavriat Diplom Proqramı (IB Diploma Programme)", "Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (Advanced Level of General Certificate of Education)" və "Yüksək yerləşdirmə (Advanced Placement)" təhsil proqramları üzrə təhsil almış abituriyentlər ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmaq imkanına malik olmuşlar. Bu imkandan yalnız "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"na əsasən Azərbaycan dili (dövlət dili kimi) fənnindən imtahan verərək "məqbul" qiymət alan abituriyentlər istifadə edə bilmişlər. Bu kateqoriyadan olan abituriyentlərə yalnız yuxarıda qeyd olunan təhsil proqramları üzrə təhsil aldıqları dildə tədris olunan ixtisasları seçmək imkanı verilmişdir.

Ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul üçün minimal tələblər təhsil proqramları üzrə aşağıdakı cədvəldə təqdim olunmuşdur:

Beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu üçün minimal tələblər

	Proqramlar	**Müsabiqədənkənar qəbul üçün minimal tələblər**	
		Ödənişli əsaslarla qəbul üçün	**Dövlət sifarişi əsasında qəbul üçün**
1.	Beynəlxalq Bakalavriat Diplom Proqramı	**25** ("Hüquqşünaslıq" və "Tibb" ixtisasları üzrə - **30**)	**35**
2.	Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (müvafiq üç imtahan fənni üzrə)	**C**	**B**
3.	Yüksək yerləşdirmə (müvafiq üç imtahan fənni üzrə)	**3**	**4**

Qeyd: "Müvafiq üç imtahan fənni" dedikdə **I ixtisas qrupu** üzrə riyaziyyat, fizika və kimya fənləri, **II ixtisas qrupu** üzrə riyaziyyat, coğrafiya və tarix fənləri, **III ixtisas qrupu** üzrə Azərbaycan dili və ya rus dili, tarix və ədəbiyyat fənləri, **IV ixtisas qrupu** üzrə isə biologiya, kimya və fizika fənləri nəzərdə tutulur.

Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu aşağıdakı qaydada aparılıb:

1. Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmaq hüququna malikdirlər.

2. Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri dedikdə, aşağıdakı şəxslər nəzərdə tutulur:

- Beynəlxalq fənn olimpiadasının qızıl, gümüş və ya bürünc medalı ilə təltif olunmuş şəxslər;
- IX-XI sinif şagirdləri arasında keçirilən respublika fənn olimpiadasında birinci, ikinci və üçüncü yer tutmuş şəxslər;
- Beynəlxalq müsabiqənin və ya yarışın (15 yaşdan yuxarı yaş qrupunda) laureatı olmuş (ali mükafat, birinci, ikinci və üçüncü yerlər) şəxslər.

3. Beynəlxalq və respublika fənn olimpiadasının qalibinin tam orta təhsil səviyyəsini bitirdikdən sonrakı növbəti 2 tədris ili üçün, beynəlxalq müsabiqənin və ya yarışın qalibinin isə tam orta təhsil səviyyəsini bitirməklə qalibiyyət əldə etdikdən sonrakı növbəti 5 tədris ili üçün ali təhsil müəssisəsinə tələbə qəbulunda yalnız bir dəfə müsabiqədənkənar qəbul olunmaq hüququ vardır. "Müsabiqədənkənar qəbulun aparıldığı ixtisaslar", "Beynəlxalq fənn olimpiadalarının siyahısı", "Respublika fənn olimpiadalarının siyahısı" və "Beynəlxalq müsabiqələrin və yarışların siyahısı" Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 229 nömrəli Qərarında əks olunmuşdur (**http://www.e-qanun.az/framework/42536**).

4. Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qaliblərinin müsabiqədənkənar qəbulu üçün sənədlərin qəbulu və ixtisas seçimi DİM tərəfindən müəyyən olunan müddətdə və qaydada aparılmışdır.

Ali təhsil müəssisələrinə bu il 48834 plan yeri ayrılmışdı.

Qəbul planı ötən illə müqayisədə 1.81 faiz artırılmışdı

2020/2021-ci tədris ili üçün respublikanın ali təhsil müəssisələrinə qəbul üçün 48834 yer ayrılmışdı. Bunlardan 315 yer qəbul imtahanlarında müsabiqədənkənar iştirak edən abituriyentlər (103 yer ADA Universitetinə SAT balına əsasən qəbul olunanlar) tərəfindən tutulmuş, 10 yer isə yalnız subbakalavrların Azərbaycan Dövlət Rəssamlıq Akademiyasına qəbulu üçün ayrılmışdı. Qalan yerlərdən 33939-u Azərbaycan bölməsi, 3214-ü rus bölməsi, 11366-sı isə hər iki bölmənin birgə müsabiqəsi üçün nəzərdə tutulmuşdu. Ümumilikdə qəbul planındakı 41092 yer dövlət, 7742 yer isə özəl ali təhsil müəssisələrinin payına düşürdü.

Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında qəbul üçün 21475 yer nəzərdə tutulmuşdu. Bunlardan 105 yer qəbul imtahanlarında müsabiqədənkənar iştirak edən abituriyentlər tərəfindən tutulmuşdur.

1.1 və 1.2 saylı şəkillərdəki diaqramlarda qəbul planında müsabiqə əsasında qəbul üçün ayrılmış yerlərin paylanması təsvir olunub:

QƏBUL PLANI



Şəkil 1.1



Şəkil 1.2

Müsabiqədənkənar qəbulu nəzərə almasaq, ötən illə müqayisədə bu il dövlət ali təhsil müəssisələrinin qəbul planında 1.30% (524 yer), özəl ali təhsil müəssisələrinin qəbul planı isə 3.06% (230 yer), ümumilikdə isə 754 yer (1.58%) artım müşahidə edilmişdir. Müsabiqədənkənar qəbul ötən illə müqayisədə 114 yer, bu yerlərlə birlikdə ümumi qəbul planı isə 1.81% (868 yer) artmışdır.

Plan yerlərinin təhsil formaları üzrə bölgüsünün müqayisəsi göstərir ki, 2020-ci ildə Azərbaycan və rus bölmələrinin birgə müsabiqəsi üçün ayrılan yerlər 11.53% artmışdır. Bununla belə qeyd etmək lazımdır ki, cari ildə hər iki bölmənin birgə müsabiqəsi üçün ayrılan yerlər ümumi plan yerlərinin cəmi 23.27%-ni təşkil etmişdir. Bu göstərici 2019-cu ildə 21.25%, 2018-ci ildə 21.44%, 2017-ci ildə 14.80%, 2016-cı ildə 18.73%, 2015-ci ildə 13.95%, 2014-cü ildə 13.87% olduğu halda, 2013-cü ildə 56.18% olmuşdu. 2013-cü illə müqayisədə son yeddi ildə həyata keçirilən bu cür dəyişiklik arzuolunmaz haldır. Çünki bəzən Azərbaycan və rus bölmələrinin abituriyentləri eyni test suallarına cavab verdikləri halda, plan yerlərinin ciddi bölgüsü və müsabiqə vəziyyətinin fərqli olması nəticəsində bu bölmələrin eyni ixtisasları üzrə tam fərqli keçid balları yaranır. Plan yerləri birgə müsabiqə üçün ayrıldıqda isə həmin yerlərə bölməsindən asılı olmayaraq daha hazırlıqlı gənclər qəbul olunur.

Bu il ali təhsil müəssisələrinə müsabiqədə iştirak etmək hüququ qazananların 91.64%-i Azərbaycan, 8.36%-i isə rus bölməsinin abituriyentləri olmuşdur. Qeyd edək ki, hər iki bölmənin birgə müsabiqəsi üçün ayrılan yerlərin hesabına Azərbaycan bölməsinin abituriyentləri qəbul planının minimum 69.95, maksimum 93.38%-ni, rus bölməsinin abituriyentləri isə minimum 6.62, maksimum 30.05%-ni tuta bilərdilər. Göründüyü kimi, minimum və maksimum imkanlar arasında fərq kiçikdir. Bu isə Azərbaycan bölməsində daha hazırlıqlı gənclərin ali təhsil müəssisələrinə qəbul olmaq imkanlarında süni maneələr yaradır.

İxtisas qrupları, ali təhsil müəssisələri, ayrı-ayrı təhsil formaları və bölmələr üzrə plan yerlərinin sayı haqqında tam məlumat 1.5 –1.7 saylı cədvəllərdə təqdim olunur.

Cədvəl 1.5

2020/2021-Cİ TƏDRİS İLİ ÜÇÜN RESPUBLİKANIN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU PLANI

İxtisas qrupu	QƏBUL PLANI													
	Müsabiqə əsasında qəbul												Müsabiqədənkənar qəbul	BÜTÖVLÜKDƏ
	Azərbaycan bölməsi üçün			Rus bölməsi üçün			Hər iki bölmənin birgə müsabiqəsi üçün			CƏMİ				
	Dövlət	Özəl	Ümumi	Dövlət	Özəl	Ümumi	Dövlət	Özəl	Ümumi	Dövlət	Özəl	Ümumi		
I	10190	320	10510	775	0	775	3087	480	3567	14052	800	14852	72	14924
II	7849	2115	9964	917	0	917	1308	1500	2808	10074	3615	13689	111	13800
III	7716	1372	9088	1092	10	1102	696	1355	2051	9504	2737	12241	45	12286
IV	3059	135	3194	300	0	300	264	340	604	3623	475	4098	2	4100
V	1183	0	1183	120	0	120	2221	115	2336	3524	115	3639	75^{+10}	3714^{+10}
CƏMİ	**29997**	**3942**	**33939**	**3204**	**10**	**3214**	**7576**	**3790**	**11366**	**40777**	**7742**	**48519**	**305^{+10}**	**48824^{+10}**

Qeyd: Xırda şriftlə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında yalnız subbakalavrlar üçün ayrılan yerlərin sayı göstərilib.

Cədvəl 1.6

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA TƏLƏBƏ QƏBULUNUN İXTİSAS QRUPLARI ÜZRƏ BÖLGÜSÜ

İxtisas qrupu	Qəbul planı (bütövlükdə)	Dövlət sifarişi			
		Müsabiqə əsasında qəbul	Müsabiqədən-kənar qəbul	Bütövlükdə	
				sayı	faizi
I	14924	9124*	20	9144	42.58
II	13800	4089	1	4090	19.05
III	12286	4219	7	4226	19.68
IV	4100	2500**	2	2502	11.65
V	3714^{+10}	1438	75	1513	7.05
CƏMİ	**48824^{+10}**	**21370**	**105**	**21475**	**100.00**

* Əlavə olaraq maksimum 205 yer Azərbaycan Dövlət Aqrar Universitetinin, Naxçıvan Dövlət Universitetinin və Lənkəran Dövlət Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.

** Əlavə olaraq maksimum 150 yer Azərbaycan Dövlət Aqrar Universitetinin, Naxçıvan Dövlət Universitetinin və Lənkəran Dövlət Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.

Cədvəl 1.7

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI

№	TƏHSİL MÜƏSSİSƏSİ	QƏBUL PLANI			
		Azərbaycan bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Cəmi
1	Bakı Dövlət Universiteti	4844	815	417	6076
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	2254	275	669	3198
3	Azərbaycan Texniki Universiteti	1260	0	900	2160
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	1115	70	765	1950
5	Azərbaycan Tibb Universiteti	865	95	15	975
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	3303	230	0	3533
7	Azərbaycan Dövlət İqtisad Universiteti	2975	590	188	3753
8	Azərbaycan Dillər Universiteti	1310	290	85	1685
9	Bakı Slavyan Universiteti	785	360	0	1145
10	Bakı Mühəndislik Universiteti	640	15	555	1210
11	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	228	185	0	413
12	"ADA" Universiteti	0	0	340	340
13	Bakı Musiqi Akademiyası	30	0	122	152
14	Azərbaycan Milli Konservatoriyası	55	0	137	192
15	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	220	0	410	630
16	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	60	0	260	320
17	Azərbaycan Turizm və Menecment Universiteti	395	25	50	470
18	Bakı Xoreoqrafiya Akademiyası	93	17	0	110
19	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası	0	0	1547	1547
20	Milli Aviasiya Akademiyası	339	72	30	441
21	Azərbaycan Dövlət Dəniz Akademiyası	140	30	30	200
22	Bakı Ali Neft Məktəbi	0	0	176	176
23	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	154	0	0	154
24	Naxçıvan Dövlət Universiteti	1185	0	15	1200
25	Naxçıvan Müəllimlər İnstitutu	430	0	0	430
26	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	1360	120	90	1570
27	Gəncə Dövlət Universiteti	1743	15	0	1758
28	Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	300	0	635	935
29	Sumqayıt Dövlət Universiteti	1540	0	140	1680
30	Mingəçevir Dövlət Universiteti	855	0	0	855
31	Lənkəran Dövlət Universiteti	1519	0	0	1519
32	Azərbaycan Kooperasiya Universiteti	955	0	220	1175
33	Azərbaycan İlahiyyat İnstitutu	72	0	0	72
34	"Azərbaycan" Universiteti	0	0	700	700
35	Qərbi Kaspi Universiteti	0	0	1020	1020
36	Xəzər Universiteti	0	0	925	925
37	Bakı Avrasiya Universiteti	900	10	0	910
38	Bakı Qızlar Universiteti	440	0	0	440

Cədvəl 1.7 (ardı)

№	TƏHSİL MÜƏSSİSƏSİ	QƏBUL PLANI			
		Azərbaycan bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Cəmi
39	"Odlar Yurdu" Universiteti	165	0	830	995
40	Bakı Biznes Universiteti	780	0	15	795
41	"Naxçıvan" Universiteti (Naxçıvan şəhəri)	410	0	0	410
42	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	220	0	80	300
	CƏMİ	**33939**	**3214**	**11366**	**48519**

İxtisaslar üzrə ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında tələbə qəbulunun proqnozu 1.1.5 saylı cədvəldə təqdim olunub (bax: səh. 182-196).

Ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün 84512 nəfər abituriyent ərizə vermişdi. Ərizələrin sayı ötən ildəki ilə müqayisədə 17.64% çoxdur

Bu il ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün 84512 abituriyent ərizə vermişdi. Onların 2950-si orta ixtisas, 253-ü ali (2-ci ixtisas kimi), qalanları isə tam orta təhsillidir. Sənəd verənlərin sayı ötən ildəkindən 12673 nəfər çox olmuşdur.

Yalnız orta ixtisas təhsili müəssisələrinə (tam orta təhsil bazasında) sənəd verənləri də (7305 nəfər) nəzərə alsaq, o zaman ərizə verənlərin sayı bütövlükdə 91817-yə bərabər olacaq (1.3 saylı şəklə bax).

Qeyd edək ki, abituriyentlərə, eyni zamanda həm I–IV qruplardan hər hansı birinin ixtisasları üzrə, həm də V qrupun ixtisasları (xüsusi qabiliyyət tələb edən musiqi, incəsənət və idman ixtisasları) üzrə müsabiqədə iştirak etmək imkanı yaradılmışdı. Nəticədə, 46491 nəfər abituriyent (50.63%) bu imkandan yararlanmışdı. Ümumiyyətlə, 16948 abituriyent (18.46%) yalnız I–IV qruplardan birinə, 11527 abituriyent (12.55%) yalnız V qrupa və 9546 abituriyent (10.40%) həm orta ixtisas təhsili müəssisələrinə, həm də I–IV qruplardan birinə daxil olan ixtisaslara qəbul olmaq üçün ərizə verib.

Ali təhsil müəssisələrinə sənəd verən abituriyentlərin 53.51%-ni (45221 nəfər) oğlanlar, 46.49%-ni (39291 nəfər) isə qızlar təşkil etmişdir.

Göründüyü kimi, qəbul imtahanlarında iştirak edənlərin cinsi tərkibi əhalinin 15–19 yaş kateqoriyasındakı tərkibinə uyğundur.

QRUPLAR ÜZRƏ ƏRİZƏLƏRİN PAYLANMASI



Şəkil 1.3

Bölmələr üzrə ayrı-ayrılıqda ali təhsil müəssisələrinə ərizə verən abituriyentlərin cinsi tərkibinə nəzər saldıqda mənzərənin bir qədər fərqli olduğunu müşahidə edirik. Belə ki, Azərbaycan bölməsində oğlan abituriyentlərin (53.85%), rus bölməsində isə qız abituriyentlərin (50.33%) sayı daha çoxdur.

Müasir informasiya texnologiyalarının tətbiqi sayəsində Dövlət İmtahan Mərkəzində gənclər haqqında çoxşaxəli informasiya bazası formalaşdırılmışdır. DİM hər il qəbul imtahanlarının nəticələri əsasında "Qəbul imtahanlarının nəticələrinin gender aspektləri", "Neft-qaz profilli ixtisaslar statistikada" və "Kənd təsərrüfatı profilli ixtisaslar statistikada" adlı təhlili materiallar da hazırlayaraq "Abituriyent" jurnalının xüsusi buraxılışlarında dərc edir.

Cari ildə 17493 subbakalavr qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq üçün ərizə vermişdir. Qeyd edək ki, bu il qəbul kampaniyasında iştirak etmiş subbakalavrlara öz istəklərindən asılı olaraq, həm imtahanda topladıqları bal ilə ümumi qaydada, həm də qəbul imtahanlarında iştirak etmədən orta ixtisas təhsili səviyyəsində bitirdikləri ixtisaslara uyğun ali təhsil pilləsinin ixtisasları üzrə keçirilən müsabiqədə (subbakalavr kimi) iştirak etmək imkanı verilmişdir. Ərizə verən subbakalavrlardan 13907-si (79.50%) ixtisas seçimində yalnız subbakalavr kimi, 570-i (3.26%) yalnız abituriyent kimi, 642-si (3.67%) isə həm abituriyent, həm də subbakalavr kimi iştirak etmişdir. 2374 (13.57%) subbakalavr isə ixtisas seçimində iştirak etməmişdir.

ƏRİZƏ VERƏN SUBBAKALAVRLARIN PAYLANMASI

Şəkil 1.4

2020-ci ildə ümumtəhsil müəssisələrinin 79842 məzunu olmuşdur.
Son on altı ildə məzunların sayı 43266 nəfər azalmışdır

Bu meyil artıq bir neçə ildir ki, müşahidə olunur. Son on altı ildə məzunların sayı 35.14% azalmışdır. Bu, ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak edənlərin sayında da özünü göstərir. Ötən illə müqayisədə məzunların sayı 189 nəfər azalıb. Bununla belə qeyd etmək lazımdır ki, cari ili nəzərə almasaq, son illər sənəd verənlərin tərkibində cari ilin məzunlarının payı azalmamış, əksinə artmışdır. Bu il isə sənəd verənlərin tərkibində cari ilin məzunlarının payı ötən ilə nisbətən təxminən 7% azalsa da, məzunların mütləq sayı artmışdır. Belə ki, builki məzunlar cari ildə sənəd verənlərin 80.52%-ni (65473 nəfər) təşkil etmişdir, lakin ötən illə müqayisədə ali təhsil müəssisələrinə qəbul olmaq üçün ərizə verən cari ilin məzunlarının sayı 4217 nəfər artmışdır. Bunun da əsas səbəbi 2020-ci ildə ali təhsil müəssisələrinə qəbul olmaq üçün ərizə verən abituriyentlərin içərisində əvvəlki illərin məzunlarının sayının kəskin şəkildə artmasıdır. Nəticədə, ərizə verən abituriyentlərin içərisində cari il məzunlarının payı ötən illə müqayisədə azalmışdır. Müqayisə üçün bildirək ki, 2010-cu ildə ali təhsil müəssisələrinə sənəd verənlər arasında həmin ilin məzunlarının payı 55.63%, 2011-ci ildə 58.39, 2012-ci ildə 58.84, 2013-cü ildə 60.66, 2014-cü ildə 64.05, 2015-ci ildə 66.04, 2016-cı ildə 68.31, 2017-ci ildə 75.83, 2018-ci ildə 77.86% və 2019-cu ildə 87.54% olmuşdu. Göründüyü kimi, 2010-cu ildən etibarən sənəd verənlərin arasında əvvəlki illərin məzunlarının payı, əsasən, getdikcə azalmış, cari illərin məzunlarının payı isə artmışdır. Bunun əsas səbəbi hər il ali təhsil müəssisələrinə qəbul üçün ayrılan plan yerlərinin ciddi şəkildə artırılması və nəticədə qəbul olanların sayı artdıqca, növbəti il üçün əvvəlki illərin məzunları arasında qalığın, yəni qəbul olmayanların azalmasıdır.

Sənəd verənlərin ümumtəhsil məktəbini qurtarma illəri üzrə tərkibi aşağıdakı cədvəl və diaqramda təqdim olunur.

Cədvəl 1.8

Ümumtəhsil məktəbini qurtardığı il	Abituriyentlərin sayı	Abituriyentlərin sayı ümumi saya nisbətən, %-lə
2011-ci və ondan əvvəlki illər	3561	4.38
2012	490	0.60
2013	621	0.76
2014	796	0.98
2015	878	1.08
2016	1215	1.49
2017	1317	1.62
2018	1386	1.70
2019	5572	6.85
2020	65473	80.52



Şəkil 1.5

Ali təhsil müəssisələrinə qəbul üçün ayrılmış yerlərin 30.61%-i I, 28.21%-i II, 25.23%-i III, 8.45%-i IV, 7.50%-i isə V qrupun payına düşür. Ötən illə müqayisədə plan yerləri I qrupda 2.23% və II qrupda 2.91% azalmış, III, IV və V qruplarda isə uyğun olaraq 8.71, 10.55 və 3.76% artmışdır (bax: səh. 26, cədvəl 1.10).

I ixtisas qrupu üzrə ən çox plan yeri "İnformasiya texnologiyaları" (956 yer), "Riyaziyyat və informatika müəllimliyi" (720 yer) və "Kompüter mühəndisliyi" (712 yer) ixtisaslarına, II ixtisas qrupu üzrə "İqtisadiyyat" (1950 yer), "Biznesin idarə edilməsi" (1428 yer) və "Maliyyə" (1402 yer) ixtisaslarına, III ixtisas qrupu üzrə "Xarici dil müəllimliyi (ingilis dili)" (1295 yer), "İbtidai sinif müəllimliyi" (1195 yer) və "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" (1137 yer) ixtisaslarına, IV ixtisas qrupu üzrə "Tibb" (610 yer), "Ekologiya" (575 yer) və "Biologiya müəllimliyi" (385 yer) ixtisaslarına, V ixtisas qrupu üzrə "Məşqçilik" (1223 yer), "Dizayn" (550 yer) və "Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi" (482 yer) ixtisaslarına ayrılmışdır.

İxtisas qrupları üzrə qəbul planları və abituriyent ərizələrinin paylanması 1.9 saylı cədvəldə təqdim edilir. Abituriyentlərin istəklərinin qruplar üzrə paylanmasına diqqət yetirək. Bu il abituriyentlərin 36.66%-i (30980 nəfər) I qrupa, 16.85%-i (14237 nəfər) II qrupa, 26.75%-i (22608 nəfər) III qrupa, 6.11%-i (5160 nəfər) IV qrupa, 68.65%-i isə (58018 nəfər) V qrupa, bunlardan isə 46491 abituriyent V qrupla yanaşı digər qruplardan birinə də ərizə vermişdi.

Cədvəl 1.9

İXTİSAS QRUPLARI ÜZRƏ QƏBUL PLANLARI VƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN PAYLANMASI

№	İXTİSAS QRUPU	Qəbul planı				Ərizələrin sayı		
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə	Azərb. bölməsi	Rus bölməsi	Bütövlükdə
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	10510	775	3567	14852	28462	2518	30980
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	9964	917	2808	13689	12845	1392	14237
III	Humanitar, pedaqogika ixtisasları	9088	1102	2051	12241	21013	1595	22608
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	3194	300	604	4098	4505	655	5160
V	İncəsənət, musiqi, idman ixtisasları	1183	120	2336	3639	54245	3773	58018
CƏMİ		**33939**	**3214**	**11366**	**48519**	**77631**	**6881**	**84512**

Qəbul planının və abituriyent ərizələrinin son iki il üzrə müqayisəli təhlili (bax: cədvəl 1.10) göstərir ki, bu il ali təhsil müəssisələrinə qəbul planının 1.58% artmasına baxmayaraq, ərizələrin sayının 17.64% artması müsabiqə vəziyyətinin 15.82% artmasına səbəb olmuşdur. Müsabiqə vəziyyəti, III və IV ixtisas qruplarında azalmış, I, II və V ixtisas qrupunda isə artmışdır.

Cədvəl 1.10

2019 VƏ 2020-Cİ İLLƏR ÜZRƏ QƏBUL PLANI VƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYININ MÜQAYİSƏSİ

İxtisas qrupu	Qəbul planı (illər üzrə)			Ərizə vermiş abituriyentlərin sayı (illər üzrə)			Müsabiqə vəziyyəti (illər üzrə)		
	2019	2020	fərq, %-lə	2019	2020	fərq, %-lə	2019	2020	fərq, %-lə
I	15191	14852	-2.23	28328	30980	+9.36	1.865	2.086	+11.85
II	14100	13689	-2.91	14558	14237	-2.20	1.032	1.040	+0.78
III	11260	12241	+8.71	22230	22608	+1.70	1.974	1.847	-6.43
IV	3707	4098	+10.55	5113	5160	+0.92	1.379	1.259	-8.70
V	3507	3639	+3.76	7676	58018	+655.84	2.189	15.943	+628.32
CƏMİ	**47765**	**48519**	**+1.58**	**71839**	**84512**	**+17.64**	**1.504**	**1.742**	**+15.82**

("-" ötən illə müqayisədə azalmanı, "+" isə artmanı göstərir)

Cari ildə ən yüksək müsabiqə vəziyyəti V ixtisas qrupunda (15.94) olub. Müsabiqə vəziyyətinə görə ikinci yerdə I ixtisas qrupu (2.09), sonrakı yerlərdə isə III ixtisas qrupu (1.85), IV ixtisas qrupu (1.26) və II ixtisas qrupu (1.04) gəlir.

Cari ildə V ixtisas qrupunda müsabiqə vəziyyətinin kəskin artması, Koronavirus (COVID-19) pandemiyasının qarşısının alınması üçün həyata keçirilən tədbirlər çərçivəsində bir sıra xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə qabiliyyət imtahanlarının keçirilməməsi ilə əlaqədar olmuşdur. Belə ki, ötən illərdən fərqli olaraq abituriyentlər bu ixtisasların müsabiqəsində yalnız qəbul imtahanının I mərhələsində (cari ilin məzunları buraxılış imtahanında) topladıqları ballar əsasında iştirak etmiş və onlardan qabiliyyət imtahanı verərək bu imtahan üzrə müvafiq nəticə əldə olunması tələbi qoyulmamışdır. Nəticədə, V ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul olmaq üçün daxil olan ərizələrin sayı ötən illə müqayisədə 7 dəfədən çox artmışdır.

Bildiyimiz kimi cari ildə subbakalavrlara qəbul imtahanında iştirak etmədən ali təhsil müəssisələrinə qəbul olmaq üçün müsabiqədə iştirak etmək imkanı yaradılmışdır. Nəticədə, 13798 subbakalavr bu imkandan yararlanmışdır. Onların 32.90%-i I, 35.40%-i II, 15.81%-i III, 9.34%-i IV və 11.03%-i V qrupa ərizə verib. Nəzərinizə çatdıraq ki, subbakalavrlar diplomlarındakı ixtisaslara uyğun olaraq bir neçə ixtisas qrupu üzrə müsabiqədə iştirak edə bilərdilər və bəzi subbakalavrlar bu imkandan yararlanmışdır.

İxtisas qrupları üzrə qəbul planı ilə ərizələrin sayı arasında qeyri-tarazlıq vardır.
I və V qruplarda ərizələrin, II və IV qruplarda isə plan yerlərinin nisbi çəkisi böyükdür

2020-ci il üçün ali təhsil müəssisələrinin qəbul planının, abituriyent və subbakalavr ərizələrinin qruplar üzrə paylanması 1.6 saylı şəkildə əksini tapıb. Təhlil göstərir ki, ixtisas qrupları üzrə qəbul planı və ərizələrin nisbi çəkiləri arasında qeyri-tarazlıq vardır. Bu halın əyani şəkildə nümayiş etdirilməsi üçün ali təhsil müəssisələrinin qəbul planının və abituriyentlərlə subbakalavrların ərizələrinin nisbi saylarının ixtisas qrupları üzrə paylanmasına 1.7 saylı şəkilə diqqət yetirək. Göründüyü kimi, ümumi qəbul planının II və IV ixtisas qrupları üçün ayrılmış hissələri ərizələrin müvafiq ixtisas qruplarına düşən hissələrindən böyük, I və V ixtisas qruplarında, əksinə, kiçik, III ixtisas qrupunda isə demək olar ki, eynidir. II qrupda plan yerlərinin çox, ərizələrin sayının nisbətən az olması müsabiqə vəziyyətinə mənfi təsir göstərmişdir. Nəticədə, hazırlıq səviyyəsi o qədər də yüksək olmayanlar ali təhsil almaq imkanı əldə etmişlər. Bu baxımdan, gələcəkdə ali təhsil müəssisələrinə plan yerləri ayrılarkən mövcud reallıqlar nəzərə alınmalı, qəbul planında kəskin sıçrayışlar edilməməli, perspektivlər müəyyən olunmalı, bir sözlə, uğurlu qəbul planı siyasəti aparılmalıdır.

2020-Cİ İLDƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI VƏ ƏRİZƏLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ SAYI
(abituriyentlər və subbakalavrlar)



Şəkil 1.6

2020-Cİ İLDƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI VƏ ƏRİZƏLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ NİSBİ SAYI (%-lə)



Şəkil 1.7

İxtisas qrupları üzrə dövlət və özəl ali təhsil müəssisələrinin qəbul planları arasındakı fərqi göstərən diaqram 1.8 saylı şəkildə təqdim edilib. Diaqramdan göründüyü kimi, özəl ali təhsil müəssisələri, əsasən, humanitar və iqtisadiyyat ixtisasları üzrə mütəxəssis hazırlığı həyata keçirir. Abituriyentlər özəl ali təhsil müəssisələrinin ixtisaslarını ərizələrində axırıncı mövqelərdə göstərdiklərindən bu təhsil müəssisələrinin çoxunda müsabiqə vəziyyəti aşağı olur. Onlar ərizələrinin ilk mövqelərində, əsasən, dövlət ali təhsil müəssisələrinin ixtisaslarını kodlaşdırırlar. 2020-ci ildə sənəd verən abituriyentlər arasında özəl ali təhsil müəssisələrinin ixtisas kodlarını ərizələrində birinci yerdə göstərənlər cəmi 6.21%, subbakalavrlar arasında isə cəmi 8.26% olub. 2000-ci illərin birinci yarısında bu göstərici 0.67% olmuşdu. On beş ildən artıq vaxt keçməsinə baxmayaraq, bu sahədə irəliləyiş çox cüzidir. Bu baxımdan, hazırda da özəl ali təhsil müəssisələrinə qəbul olanlar, əsasən, dövlət ali təhsil müəssisələrinə qəbul ola bilməyənlərdir ki, onların da böyük əksəriyyətinin biliyi kafidən yuxarı deyildir. 2010-cu ilə qədər yalnız ödənişli əsaslarla təhsil verdiyi üçün özəl ali təhsil müəssisələrinə, əsasən, bu cür abituriyentlərin qəbul olması həmin ali təhsil müəssisələrinin dövlət ali təhsil müəssisələri ilə rəqabət aparmaq imkanlarını məhdudlaşdırırdı. Bu gün özəl ali təhsil müəssisələri dövlət ali təhsil müəssisələri ilə dövlət sifarişi əsasında qəbul aparılan yerləri tutmaq üçün rəqabət aparmaq, ümumiyyətlə, daha bilikli gəncləri özlərinə cəlb etmək imkanına malikdirlər. Bunun üçün isə onlar həm təhsilin səviyyəsini qaldırmalı, həm də yüksək intellektli tələbələrə təhsilhaqqının məbləğində əhəmiyyətli güzəştlər etməlidirlər. Təəssüf ki, bir çox özəl ali təhsil müəssisələri bu məsələdə o qədər də maraqlı deyillər. Ümumiyyətlə, ayrı-ayrı ali təhsil müəssisələrinə qəbul olan gənclərin bilik səviyyələri bir-birindən ciddi fərqlənir (bax: səh. 440, cədvəl 6.9). Hesab edirik ki, bu amil mütləq birinci kursların tədris planlarında nəzərə alınmalıdır.

2020-Cİ İLDƏ DÖVLƏT VƏ ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ İXTİSAS QRUPLARI ÜZRƏ QƏBUL PLANLARI



Şəkil 1.8

Abituriyent ali təhsil ocağını seçməzdən əvvəl valideynləri, dostları, tanışları ilə məsləhətləşir, maraq göstərdiyi ixtisasların hansı təhsil müəssisələrində olması, həmin təhsil müəssisələrində təhsilin səviyyəsi, biliyin qiymətləndirilməsi meyarları, ali təhsil müəssisəsini bitirdikdən sonra iş yeri tapmaq imkanları, gələcək diplomunun ölkə daxilində və xaricdə tanınması ilə maraqlanır. Bütün bunları nəzərə alaraq, abituriyent meyil göstərdiyi ixtisasların aid olduğu ali təhsil müəssisələri arasında seçim aparır və üstünlük verdiyi ali təhsil müəssisəsinin (müəssisələrinin) ixtisaslarını ərizəsində müxtəlif mövqelərdə qeyd edir.

Müəyyən bir ixtisasın və həmin ixtisasın tədris olunduğu təhsil müəssisəsinin nüfuzundan asılı olaraq ixtisaslar üzrə müsabiqə vəziyyəti fərqli olur. Bildiyimiz kimi, son illərdə abituriyentlər topladıqları balları öyrəndikdən sonra ixtisas seçir və nəticədə yüksək nüfuza malik olan ixtisasları öz ərizələrində yalnız yüksək bal toplamış abituriyentlər qeyd edirlər. Nəticədə, bu cür ixtisaslar üzrə müsabiqə vəziyyəti yüksək olduğu üçün keçid balları və orta ballar da yüksək olur.

Cədvəl 1.11-da ayrı-ayrı ali təhsil müəssisələrinin ixtisaslarına qəbul olan abituriyentlərin qruplar üzrə orta bal göstəriciləri təqdim edilir. I ixtisas qrupu üzrə Bakı Ali Neft Məktəbi (658.839), ADA Universiteti (602.885), Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası (574.377), Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (571.151), II ixtisas qrupu üzrə ADA Universiteti (513.391), III ixtisas qrupu üzrə Milli Aviasiya Akademiyası (600.907), Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası (598.652), ADA Universiteti (580.735), Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (565.141), IV ixtisas qrupu üzrə isə Azərbaycan Tibb Universitetinin (569.129) ixtisaslarına qəbul olan abituriyentlərin orta bal göstəriciləri digər ali təhsil müəssisələri ilə müqayisədə daha yüksəkdir. Cədvəldən göründüyü kimi, yüksək hazırlıqlı abituriyentlərin Bakı Ali Neft Məktəbinə, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına, ADA Universitetinə, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasına meyil və marağı olduqca böyükdür.

Özəl ali təhsil müəssisələri arasında yüksək hazırılıqlı abituriyentlər Xəzər Universitetinə üstünlük verirlər. Cari ildə bu universitetin ixtisaslarına qəbul olan abituriyentlərin orta bal göstəriciləri I qrup üzrə 459.558, II qrup üzrə 335.947, III qrup üzrə 384.276 və IV qrup üzrə 386.525 bal olmuşdur.

Xəzər Universiteti istisna olmaqla, digər özəl ali təhsil müəssisələrinə və regionlarda fəaliyyət göstərən dövlət ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin orta bal göstəriciləri aşağı olub.

I ixtisas qrupu üzrə Qərbi Kaspi Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.), Azərbaycan Kooperasiya Universiteti, Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.), Bakı Avrasiya Universiteti, II ixtisas qrupu üzrə Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.), Lənkəran Dövlət Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti, Sumqayıt Dövlət Universiteti, Gəncə Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, "Naxçıvan" Universiteti (Naxçıvan ş.), Qərbi Kaspi Universiteti, Mingəçevir Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Kooperasiya Universiteti, "Azərbaycan" Universiteti, Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.), Bakı Biznes Universiteti, "Odlar Yurdu" Universiteti, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Bakı Avrasiya Universiteti, IV ixtisas qrupu üzrə Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.), "Odlar Yurdu" Universiteti, Azərbaycan Kooperasiya Universiteti, Mingəçevir Dövlət Universiteti, Azərbaycan Texnologiya Universitetinin (Gəncə ş.) ixtisaslarına qəbul olan abituriyentlərin orta bal göstəriciləri 250-dən aşağı olub. Ümumiyyətlə, əvvəl də qeyd etdiyimiz kimi, II ixtisas qrupunda plan yerlərinin çox, ərizələrin isə az olması nəticəsində bu qrupa daxil olan ixtisaslar üzrə müsabiqə vəziyyəti çox aşağı olmuş və nəticədə II qrupda qəbul olanlar arasında zəif hazırlıqlı abituriyentlər çoxalmışdır.

V ixtisas qrupu üzrə orta bal göstəricisi yüksək olan ali təhsil müəssisələri kimi Azərbaycan Dövlət İqtisad Universiteti və Bakı Mühəndislik Universitetini qeyd etmək olar. Qeyd edək ki, Azərbaycan Dövlət İqtisad Universiteti və Bakı Mühəndislik Universiteti üzrə orta bal göstəricisi müvafiq olaraq 190.722 və 185.303 bal olmuşdur.

Cədvəl 1.11

AYRI-AYRI ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İXTİSASLARINA QƏBUL OLAN ABİTURİYENTLƏRİN QRUPLAR ÜZRƏ ORTA BAL GÖSTƏRİCİLƏRİ (2020-Cİ İL ÜZRƏ)

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	Qruplar üzrə ortastatistik ballar					
		I qrup	II qrup	III qrup	IV qrup	Bütövlükdə (I–IV qruplar üzrə)	V qrup
1	Bakı Dövlət Universiteti	391.093	300.697	474.035	399.799	409.608	148.387
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	415.390	315.316			403.498	
3	Azərbaycan Texniki Universiteti	296.309	277.942			294.673	
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	300.061	244.068			291.628	159.955
5	Azərbaycan Tibb Universiteti				569.129	569.129	
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	376.701	323.944	408.996	352.711	389.048	150.244

Cədvəl 1.11 (ardı)

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	Qruplar üzrə ortastatistik ballar					
		I qrup	II qrup	III qrup	IV qrup	Bütövlükdə (I–IV qruplar üzrə)	V qrup
7	Azərbaycan Dövlət İqtisad Universiteti	395.943	421.831	468.706	283.666	414.125	190.722
8	Azərbaycan Dillər Universiteti		220.724	491.749		443.237	
9	Bakı Slavyan Universiteti		207.252	385.301		362.504	
10	Bakı Mühəndislik Universiteti	402.805	311.818		375.630	380.620	185.303
11	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	571.151	448.313	565.141		507.583	
12	"ADA" Universiteti	602.885	513.391	580.735		558.948	
13	Bakı Musiqi Akademiyası					---	143.957
14	Azərbaycan Milli Konservatoriyası					---	105.666
15	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti		220.013	362.727		337.699	116.884
16	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	259.240		331.343		320.740	142.313
17	Azərbaycan Turizm və Menecment Universiteti	308.733	249.268	443.492		310.018	
18	Bakı Xoreoqrafiya Akademiyası			309.986		309.986	70.462
19	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası		255.694		365.615	320.519	137.524
20	Milli Aviasiya Akademiyası	368.591	294.988	600.907		370.007	
21	Azərbaycan Dövlət Dəniz Akademiyası	378.331				378.331	
22	Bakı Ali Neft Məktəbi	658.839				658.839	
23	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	574.377	461.057	598.652		516.558	
24	Naxçıvan Dövlət Universiteti	310.701	332.666	422.965	434.192	381.258	114.171
25	Naxçıvan Müəllimlər İnstitutu	255.744		345.123	279.550	335.085	109.421
26	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	233.322	249.903		231.234	236.315	
27	Gəncə Dövlət Universiteti	325.990	228.914	413.761	322.539	348.009	142.230
28	Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	212.766	192.388		192.539	203.304	132.588
29	Sumqayıt Dövlət Universiteti	289.969	237.345	394.205	291.729	323.791	144.274
30	Mingəçevir Dövlət Universiteti	292.584	209.909	380.728	195.608	314.927	
31	Lənkəran Dövlət Universiteti	252.118	249.535	357.236	274.507	296.596	120.937
32	Azərbaycan Kooperasiya Universiteti	223.392	199.203	271.064	200.067	239.417	
33	Azərbaycan İlahiyyat İnstitutu			297.752		297.752	
34	"Azərbaycan" Universiteti	277.286	197.499	315.705		287.649	
35	Qərbi Kaspi Universiteti	248.911	212.217	302.426	273.242	283.252	158.658
36	Xəzər Universiteti	459.558	335.947	384.276	386.525	398.122	167.877
37	Bakı Avrasiya Universiteti	212.000	185.376	325.318		302.837	
38	Bakı Qızlar Universiteti	262.667	---	347.380	293.350	337.018	
39	"Odlar Yurdu" Universiteti	251.600	189.139	308.020	223.383	271.942	155.931
40	Bakı Biznes Universiteti	325.500	189.811	309.329		262.886	
41	"Naxçıvan" Universiteti (Naxçıvan şəhəri)	316.825	216.104	315.432		290.652	
42	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası		185.981	352.030		326.728	

1992–2020-ci illər ərzində ali təhsil müəssisələri üzrə ən yüksək müsabiqə vəziyyəti 2008-ci ilə, ən aşağı müsabiqə vəziyyəti isə 2019-cu ilə təsadüf edir

1.9 saylı şəkildə bütövlükdə ali təhsil müəssisələrinə ayrılan plan yerləri və ərizələrin illər üzrə dinamikası təqdim olunub.

1992–2020-ci illər üzrə plan yerləri və abituriyent ərizələrinin dinamikasının müqayisəli təhlili göstərir ki, bu illər ərzində ali təhsil müəssisələrinin qəbul planı 2.88 dəfə, abituriyent ərizələrinin sayı isə 2.1 (subbakalavrlarla birlikdə 2.28) dəfə artıb. İllər üzrə bu göstəricilərin dinamikası müxtəlif olub. Təqdim olunacaq abituriyent ərizələrinin sayının əvvəlcədən proqnozlaşdırılmasına baxmayaraq, qəbul planları tərtib edilərkən heç də həmişə abituriyentlərin gözlənilən sayı nəzərə alınmayıb. Ali təhsil müəssisələri üçün plan yerləri ən çox 2020-ci ildə, ən az 1993-cü ildə ayrılıb. Abituriyent ərizələrinin sayı isə ən az 1992-ci ildə, ən çox 2008-ci ildə olub. Ötən illər ərzində ən aşağı müsabiqə vəziyyəti 2019-cu ilə təsadüf edir. Qeyd etmək lazımdır ki, müsabiqə vəziyyətinin aşağı olması qəbulun keyfiyyətinə mənfi təsir göstərir, ixtisaslar üzrə keçid ballarının aşağı düşməsinə səbəb olur.

1992-2020-Cİ İLLƏR ÜZRƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANI VƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYININ DİNAMİKASI



Şəkil 1.9

İyulun 10, 23, 24, 29, 30-da və avqustun 27-də qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər "Azərbaycan dili" (dövlət dili kimi) fənnindən imtahanı veriblər

Dövlət İmtahan Mərkəzi "Azərbaycan Respublikasında Dövlət dili haqqında" qanunu rəhbər tutaraq qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər üçün "Azərbaycan dili" (dövlət dili kimi) fənnindən test imtahanı keçirir. Bu il də "Azərbaycan dili" (dövlət dili kimi) fənnindən imtahan iki dəfə keçirilib. Ötən ildən fərqli olaraq bu il "Azərbaycan dili" (dövlət dili kimi) fənni üzrə I imtahan bir gündə deyil, Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar kütləviliyin və təmas hallarının qarşısını almaq məqsədilə müxtəlif tarixlərdə (iyulun 10, 23, 24, 29 və 30-da) keçirilmişdir. Azərbaycan dili (dövlət

dili kimi) fənni üzrə I imtahanda iştirak etməyən və ya "qeyri-məqbul" qiymət alan abituriyentlər üçün olan II Azərbaycan dili (dövlət dili kimi) imtahanı isə avqustun 27-də keçirilmişdir. Abituriyentlərin 30 test tapşırığından ibarət suallara cavab vermələri üçün 45 dəqiqə vaxt ayrılmışdı. İmtahanın nəticələri "məqbul" və "qeyri-məqbul"la qiymətləndirilmiş və "məqbul" alan abituriyentlər ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə keçirilən müsabiqəyə buraxılıb. Hər düzgün cavab bir balla qiymətləndirilib, səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərməyib. Abituriyentin "məqbul" alması üçün onun topladığı bal 15-dən az olmamalı idi. 2019-cu ildə keçirilmiş Azərbaycan dili fənni üzrə imtahandan "məqbul" alan abituriyentlər cari ildə ali təhsil müəssisələri və tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün müsabiqəyə cari ildə keçirilən "Azərbaycan dili" (dövlət dili kimi) fənni üzrə müvafiq imtahanda iştirak etmədən buraxılmışlar.

Azərbaycan Respublikasının tədris Azərbaycan dilindən fərqli dillərdə aparılan tam orta təhsil müəssisələrini cari ildə bitirən abituriyentlərin buraxılış imtahanı çərçivəsində verdikləri "Azərbaycan dili" (dövlət dili kimi) fənni imtahanı üzrə nisbi balı ən azı 50 olduqda, onların həmin nəticələri əsas götürülmüş və "məqbul" almış hesab olunmuşlar. Həmin imtahanda nisbi balı 50-dən az olan abituriyentlər isə "qeyri-məqbul" almış hesab olunmuşlar və "Azərbaycan dili" (dövlət dili kimi) fənnindən yenidən imtahan verirmişlər.

İyulun 10, 23, 24, 29 və 30-da keçirilən I imtahanda 6835 abituriyent iştirak edib. Bu imtahanda 4 variantda test kitabçalarından istifadə olunub. İmtahanda iştirak edən abituriyentlərin 4851-i "məqbul" alıb. Avqustun 27-də keçirilən II imtahanda isə 1268 abituriyent iştirak edib. Bu imtahanda da 4 variantda test kitabçalarından istifadə olunub. İmtahanda iştirak edən abituriyentlərin 478-i "məqbul" alıb. Qeyd edək ki, keçirilən imtahanlarda "qeyri-məqbul" alan və yaxud hər iki imtahanda iştirak etməyən abituriyentlər (qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verənlər) 2020-ci ildə ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə keçirilən müsabiqədə iştirak etmək hüququnu itirmiş oldular.

I–IV qruplar üzrə imtahanlara 7269 nəzarətçi, 1293 imtahan rəhbəri cəlb olunub. Onların hər birinin fəaliyyəti təhlil edilib və qiymətləndirilib

Hər il qəbul imtahanlarının idarə olunmasına elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrin yüzlərlə nümayəndəsi, imtahanların gedişinə nəzarət işinə isə minlərlə məktəb müəllimi cəlb olunur. Dövlət İmtahan Mərkəzi imtahanların düzgün və obyektiv idarə olunmasına, zallarda nəzarət prosesinin təlimata uyğun həyata keçirilməsinə böyük diqqət yetirir və bu sahədəki fəaliyyətini mütəmadi olaraq təkmilləşdirir. Təsdiq edilmiş iş qrafikinə uyğun olaraq respublikanın bütün rayonları üzrə ümumtəhsil müəssisələrində nəzarətçi bazasına əlavə edilmiş yeni və təcrübəsi az olan nəzarətçi-müəllimlərə yanvar və fevral aylarında seminar-məşğələlər keçirilib, nəzarətçi-müəllimlər imtahan qaydaları ilə təlimatlandırılıb. Nəzarətçilərdə imtahan prosesi barədə daha aydın təsəvvür yaratmaq üçün seminarlarda videomateriallardan istifadə olunub, onlara DİM tərəfindən hazırlanmış "Nəzarətçilər üçün təlimat" kitabçası təqdim edilib. Seminar-məşğələlər eyni vaxtda respublikanın digər bölgələrində də keçirilib. İmtahanın texnologiyasını dərindən mənimsəmələri üçün nəzarətçilər mütəmadi olaraq keçirilən sınaq imtahanlarına cəlb edilib. Sınaq imtahanlarına nəzarət edən müəllimlərin ümumi sayı 946 nəfər olmuşdur ki, bunların da 42 nəfəri imtahana ilk dəfə cəlb edilib. Eyni zamanda, nəzarətçi-müəllimlər cəlb olunduqları imtahandan öncə müvafiq təlimlərdə iştirak edərək məhz həmin imtahan barədə ətraflı məlumatlar almışlar.

Bu il ali təhsil müəssisələrinə I–IV qruplar üzrə qəbul imtahanlarına bütövlükdə 7269 nəfər, o cümlədən Bakı şəhərinin rayonlarından 2371 (Yasamal rayonu – 169, Binəqədi rayonu – 293, Səbail rayonu – 126, Xətai rayonu – 380, Xəzər rayonu – 146, Nərimanov rayonu – 182, Suraxanı rayonu – 230, Sabunçu rayonu – 360, Nəsimi rayonu – 166, Qaradağ rayonu – 89, Nizami rayonu – 230), Sumqayıt şəhərindən 323, Abşeron rayonundan 229, Naxçıvan MR-dan 297, Gəncə şəhərindən 476, Şəki şəhərindən 307, Mingəçevir şəhərindən 250, Lənkəran şəhərindən 240, Şuşa rayonundan 4, Qubadlı rayonundan 24, Laçın rayonundan 4, Zəngilan rayonundan 13, Şirvan şəhərindən 131, Sabirabad – 204, Göyçay rayonundan 172, Bərdə rayonundan – 257, Xaçmaz rayonundan 205, Şəmkir rayonundan - 172, Qazax rayonundan – 123, Ağstafa – 110, Şamaxı rayonundan – 88, Zaqatala rayonundan – 160, Ağcabədi rayonundan – 178, Kürdəmir rayonundan – 143, Salyan rayonundan – 204, Cəlilabad rayonundan – 127, Masallı rayonundan – 154, Quba rayonundan – 189, Milli Elmlər Akademiyasından 114 nəfər nəzarətçi kimi cəlb olunmuşdu. Bunlardan 1203 nəfəri zal nəzarətçisi sertifikatı almış nəzarətçilərdir.

İmtahanda iştirak edən nəzarətçilərin fəaliyyəti imtahan rəhbərlərinin məlumatlarına və DİM-ə daxil olan şikayət məktublarına əsasən araşdırılmışdır. İmtahanı aşağı səviyyədə keçirən, köçürmə hallarına yol verən, təlimati qaydaları pozan nəzarətçilər bazadan çıxarılmış və onların siyahıları inzibati tədbirlər görülmək üçün Təhsil Nazirliyinə, Bakı Şəhəri üzrə Təhsil İdarəsinə və müvafiq təhsil şöbələrinə göndərilmişdir. Nəzarətçilərin böyük əksəriyyəti təlimati qaydalara əməl etmiş və bu dövlət əhəmiyyətli tədbirin həyata keçirilməsində üzərlərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirmişlər.

Ümumilikdə ali məktəblərə qəbul imtahanlarının ikinci mərhələsinin keçirilməsi üçün 315 imtahan mərkəzindən istifadə olunmuşdur. İmtahan təhlükəsizliyinin təmin olunması məqsədilə binalara buraxılış rejimini təşkil etmək üçün DİN, Təhsil və Gənclər və İdman Nazirliklərinin xətti ilə 630 nəfər əməkdaş cəlb edilmişdir.

Cari ildə yaranmış pandemiya şəraiti və xüsusi karantin rejimi nəzərə alınaraq qəbul imtahanlarının I mərhələsi ötən il olduğu kimi bir gündə deyil, imtahan mərkəzlərinin sayı artırılmaqla 3, 10, 23, 24, 29 və 30 iyul 2020-ci il tarixlərində keçirilmişdir. Cari ilin məzunları üçün I mərhələnin nəticəsi kimi buraxılış imtahanının nəticəsi əsas götürülmüşdür. Qəbul imtahanlarının I mərhələsi aşağıda təqdim olunan qrafikə uyğun keçirilmişdir:

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARININ I MƏRHƏLƏSİ

TARİX	İMTAHAN MƏRKƏZLƏRİ
03.07.2020	Naxçıvan MR
10.07.2020	Ağdaş, Göyçay, Qazax, Qobustan, Qusar, Ağstafa, Ağsu, Kürdəmir, Qəbələ, Şabran, Ağdam, Beyləqan, Gədəbəy, Hacıqabul, Lerik, Sabirabad, Salyan, Tovuz, Astara, Biləsuvar, Füzuli, İmişli, Neftçala, Şəmkir, Tərtər, Yardımlı, İsmayıllı, Qax, Ucar, Xızı, Zaqatala, Balakən, Oğuz, Quba, Şamaxı, Zərdab, Ağcabədi, Daşkəsən, Şirvan, Naftalan, Saatlı
23.07.2020	Bakı-Binəqədi, Bakı-Suraxanı, Bakı-Qaradağ, Gəncə-Kəpəz, Cəlilabad, Bərdə, Xaçmaz, Lənkəran, Yevlax
24.07.2020	Bakı-Səbail, Bakı-Yasamal, Bakı-Xəzər, Bakı-Pirallahı, Gəncə-Nizami, Masallı, Şəki, Siyəzən
29.07.2020	Bakı-Nizami, Bakı-Nəsimi, Bakı-Nərimanov, Sumqayıt, Goranboy, Mingəşevir
30.07.2020	Bakı-Sabunçu, Bakı-Xətai, Abşeron, Göygöl, Samux

Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar tədbirlər çərçivəsində cari ildə ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə qəbul imtahanlarının ikinci mərhələsi ötən ildən fərqli olaraq yalnız bir dəfə keçirilmişdir. İmtahanlarda kütləviliyin və təmas hallarının qarşısını almaq məqsədilə hər bir ixtisas qrupu üzrə imtahanlar müxtəlif imtahan mərkəzlərində ardıcıl 2 gündə keçirilmişdir. İmtahanların ikinci mərhələsi II və III ixtisas qruplarının abituriyentləri üçün avqustun 13-də və 14-də, I və IV ixtisas qruplarının abituriyentləri üçün avqustun 20-də və 21-də keçirilmişdir. İmtahanların keçirildiyi mərkəzlər və onlara aid olan şəhərlər (rayonlar, yaşayış məntəqələri) aşağıdakı kimi olmuşdur:

I-IV İXTİSAS QRUPLARI ÜZRƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARININ II MƏRHƏLƏSİ

Bölgələr üzrə imtahan mərkəzləri	Bölgə (imtahan) mərkəzlərinə aid olan şəhərlər (rayonlar, yaşayış məntəqələri)
Bakı (hər rayon üzrə)	Bakı (müvafiq rayonlar), Abşeron (əvvəlki ilin məzunları), Sumqayıt (əvvəlki ilin məzunları)
Abşeron	Abşeron (cari ilin məzunları)
Sumqayıt	Sumqayıt (cari lin məzunları), Xızı
Gəncə	Gəncə, Daşkəsən, Göygöl, Samux, Goranboy, Naftalan
Qazax-Ağstafa	Qazax, Ağstafa, Tovuz
Bərdə	Bərdə, Beyləqan, Tərtər, Xocavənd
Göyçay	Göyçay, İsmayıllı, Ucar

Bölgələr üzrə imtahan mərkəzləri	Bölgə (imtahan) mərkəzlərinə aid olan şəhərlər (rayonlar, yaşayış məntəqələri)
Lənkəran	Lənkəran, Astara, Lerik
Salyan	Salyan, Neftçala, Biləsuvar (Mehdili kəndi istisna olmaqla)
Sabirabad	Sabirabad, Mehdili kəndi, İmişli, Füzuli
Şəki	Şəki, Oğuz, Qəbələ
Xaçmaz	Xaçmaz, Şabran,Siyəzən
Mingəçevir	Mingəçevir,Yevlax, Ağdaş
Şəmkir	Şəmkir, Gədəbəy
Ağcabədi	Ağcabədi, Ağdam
Kürdəmir	Kürdəmir, Zərdab, Ağsu
Masallı	Masallı, Yardımlı
Cəlilabad	Cəlilabad
Şirvan	Şirvan, Hacıqabul,Saatlı
Zaqatala	Balakən, Zaqatala, Qax
Quba	Quba, Qusar
Şamaxı	Şamaxı, Qobustan
Naxçıvan	Naxçıvan, Sədərək, Şərur, Şahbuz, Babək, Culfa, Kəngərli və Ordubad

Abituriyentlər V ixtisas qrupuna aid ali təhsil müəssisələrinin ixtisasları üzrə müsabiqədə yalnız qəbul imtahanlarının birinci mərhələsinin (cari ilin məzunları üçün buraxılış imtahanının) nəticələrinə əsasən iştirak etmişlər. Ümumilikdə imtahanlarda I–IV qruplar üzrə 67464, V qrup üzrə 56906 (orta ixtisas təhsili müəssisələri üzrə birlikdə 88585 nəfər) abituriyent iştirak etmişdir.

Hərbi Tibb Məktəbinin feldşer ixtisasını seçənlər imtahanı avqustun 27-də vermişlər. C.Naxçıvanski adına və H.Əliyev adına hərbi liseylərə sənəd verənlər isə Dövlət İmtahan Mərkəzi və Müdafiə Nazirliyinin birgə razılığına əsasən bu il ayrıca qəbul imtahanı verməmişlər və müsabiqədə 9-cu sinif buraxılış imtahanında topladıqları bal əsasında iştirak etmişlər. Hərbi Liseyə qəbul olmaq istəyən və buraxılış imtahanı verməyən şəxslər şəhər və rayonların qrafikinə uyğun imtahanlarda iştirak etməlidirlər.

İmtahanların gedişi barədə ictimaiyyətə geniş informasiya çatdırılması, həmçinin qəbulda şəffaflığın təmin olunması məqsədilə kütləvi informasiya vasitələri nümayəndələrinin imtahanlarda iştirakına geniş şərait yaradılmışdır. Bunun üçün imtahan ərəfəsində və imtahanın keçirildiyi dövrdə DİM-in direktorlar şurasının sədri kütləvi informasiya vasitələrinin nümayəndələri üçün mətbuat konfransları keçirmişdir. Mərkəz artıq on yeddi ildir ki, qəbul imtahanlarının gedişini hər saatdan bir özünün internet saytında işıqlandırır və prosesin hər bir məqamına dair fotoşəkillər təqdim edir.

Qəbul imtahanlarının birinci mərhələsinin test kitabçaları iyulun 3-də keçirilən imtahanlar üçün 29 iyun-2 iyul, iyulun 10-da keçirilən imtahanlar üçün 6-9 iyul, iyulun 23-də və 24-də keçirilən imtahanlar üçün 18-23 iyul, iyulun 29-da və 30-da keçirilən imtahanlar üçün 25-29 iyul, I–IV ixtisas qrupları üzrə keçirilən imtahanların ikinci mərhələsinin sual kitabçaları isə avqustun 13-də və 14-də keçirilən imtahanlar üçün 9-13 avqust, avqustun 20-də və 21-də keçirilən imtahanlar üçün 16-20 avqust iyul tarixlərində DİM-in binasında xüsusi bunkerdə hazırlanmışdır. İmtahanlarda istifadə edilən test tapşırıqları bankdan kompüter proqramı vasitəsilə avtomatik olaraq seçilmişdir. Hər bir qrupun abituriyentlərinin bilik səviyyəsinə uyğun qaydada seçilən test tapşırıqları DİM-də fəaliyyət göstərən fənn seminarlarının müəyyənləşdirdiyi standartlara uyğun olmuşdur. Sual kitabçaları Azərbaycan və rus dillərində olmaqla imtahanların hər iki mərhələsi üçün 4 variantda (A, B, C, D) tərtib edilmiş və beləliklə, köçürmə hallarının qarşısının alınması məqsədilə çoxvariantlılıq təmin olunmuşdur.

Avqustun 13-də keçirilən imtahanda II və III ixtisas qruplarının abituriyentləri, o cümlədən DİN-in Polis Akademiyası, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "Hüquqşünaslıq" ixtisasları və DİN-in Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası üzrə təhsil almaq istəyən abituriyentlər imtahan vermişlər. İmtahanın idarə olunmasına Bakı, Gəncə, Sumqayıt, Qazax,

Ağstafa, Şəki, Bərdə, Göyçay, Sabirabad, Salyan, Lənkəran, Xaçmaz, Qubadlı rayonlarının məktəblərindən və Azərbaycan Milli Elmlər Akademiyası əməkdaşlarından 1882 nəfər nəzarətçi-müəllim, 331 nəfər imtahan rəhbəri, 168 nəfər buraxılış rejimini aparan əməkdaş cəlb olunmuşdur.

Avqustun 14-də keçirilən imtahanda II və III ixtisas qruplarının abituriyentləri, o cümlədən DİN-in Polis Akademiyası, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "Hüquqşünaslıq" ixtisasları və DİN-in Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin "İctimai təhlükəsizlik və idarəetmə" ixtisasında təhsil almaq istəyən abituriyentlər imtahan vermişlər. İmtahanın idarə olunmasına Bakı, Naxçıvan, Şəmkir, Abşeron, Şamaxı, Mingəçevir, Zaqatala, Ağcabədi, Kürdəmir, Şirvan, Cəlilabad, Masallı, Quba, Qubadlı rayonlarının məktəblərindən və Azərbaycan Milli Elmlər Akademiyası əməkdaşlarından 1814 nəfər nəzarətçi-müəllim, 316 nəfər imtahan rəhbəri, 152 nəfər buraxılış rejimini aparan əməkdaş cəlb olunmuşdur.

Avqustun 20-də keçirilən imtahanda I və IV ixtisas qruplarının abituriyentləri, o cümlədən Dövlət Sərhəd Xidməti Akademiyasının I qrup ixtisasında, Ali Hərbi Məktəbdə, Fövqəladə Hallar Nazirliyinin Akademiyasının "Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" və "Yanğın təhlükəsizliyi mühəndisliyi" ixtisaslarında təhsil almaq istəyən abituriyentlər iştirak etmişlər. İmtahanın idarə olunmasına Bakı, Gəncə, Qazax, Ağstafa, Sumqayıt, Şəki, Bərdə, Göyçay, Sabirabad, Salyan, Lənkəran, Xaçmaz, Qubadlı rayonlarının məktəblərindən və Azərbaycan Milli Elmlər Akademiyası əməkdaşlarından 1966 nəfər nəzarətçi-müəllim, 348 nəfər imtahan rəhbəri, 170 nəfər buraxılış rejimini aparan əməkdaş cəlb olunmuşdur.

Avqustun 21-də keçirilən imtahanda I və IV ixtisas qruplarının abituriyentləri, o cümlədən Dövlət Sərhəd Xidməti Akademiyasının I qrup ixtisasında, Ali Hərbi Məktəbdə, Fövqəladə Hallar Nazirliyinin Akademiyasının "Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" və "Yanğın təhlükəsizliyi mühəndisliyi" ixtisaslarında təhsil almaq istəyən abituriyentlər iştirak etmişlər. İmtahanın idarə olunmasına Bakı, Naxçıvan, Şəmkir, Abşeron, Şamaxı, Mingəçevir, Zaqatala, Ağcabədi, Kürdəmir, Şirvan, Cəlilabad, Masallı, Quba, Qubadlı rayonlarının məktəblərindən və Azərbaycan Milli Elmlər Akademiyası əməkdaşlarından 1624 nəfər nəzarətçi-müəllim, 298 nəfər imtahan rəhbəri, 140 nəfər buraxılış rejimini aparan əməkdaş cəlb olunmuşdur.

I qrup üzrə sənəd verən abituriyentlərin 67.33%-ni oğlanlar, 32.67%-ni isə qızlar təşkil etmişdir. Bu qrup üzrə sənəd verən abituriyentlərin 26066 nəfəri (84.14%-i) ümumi təhsil məktəblərinin builki məzunları, 7 nəfəri xarici ölkələrin vətəndaşları, 46 nəfəri ali təhsilli şəxslər, 520 nəfəri isə orta ixtisas məktəblərinin məzunları olmuşdur.

II qrup üzrə sənəd verən abituriyentlərin 68.28%-ni oğlanlar, 31.72%-ni isə qızlar təşkil etmişdir. Bu qrup üzrə sənəd verən abituriyentlərin 11346 nəfəri (79.69%-i) ümumi təhsil məktəblərinin builki məzunları, 18 nəfəri xarici ölkələrin vətəndaşları, 37 nəfəri ali təhsilli şəxslər, 465 nəfəri isə orta ixtisas məktəblərinin məzunları olmuşdur.

III qrup üzrə sənəd verən abituriyentlərin 27.91%-ni oğlanlar, 72.09%-ni isə qızlar təşkil etmişdir. Bu qrup üzrə sənəd verən abituriyentlərin 18510 nəfəri (81.87%-i) ümumi təhsil məktəblərinin builki məzunları, 21 nəfəri xarici ölkələrin vətəndaşları, 89 nəfəri ali təhsilli şəxslər, 591 nəfəri isə orta ixtisas məktəblərinin məzunları olmuşdur.

IV qrup üzrə sənəd verən abituriyentlərin 27.60%-ni oğlanlar, 72.40%-ni isə qızlar təşkil etmişdir. Abituriyentlərin 4474 nəfəri (86.71%-i) ümumi təhsil məktəblərinin builki məzunları, 6 nəfəri xarici ölkələrin vətəndaşları, 31 nəfəri ali təhsilli şəxslər, 122 nəfəri isə orta ixtisas məktəblərinin məzunları olmuşdur.

İmtahanlarda oğlanların ən yüksək nisbi sayı II ixtisas qrupunda (68.28%), qızların ən yüksək nisbi sayı isə IV ixtisas qrupunda (72.40%) olmuşdur.

Sual kitabçaları hər bir abituriyent üçün xüsusi avtomatlaşdırılmış xətt vasitəsi ilə (bu xətt xüsusi olaraq DİM-in keçirdiyi imtahanlar üçün sual kitabçalarının çapı və komplektasiyasını həyata keçirir) fərdi qaydada çap olunub və imtahan zalları üzrə komplektləşdirilib. Sual kitabçaları Azərbaycan və rus dillərində olmaqla imtahanların hər iki mərhələsi üçün 4 variantda (A, B, C, D) hazırlanmışdır. Qəbul imtahanlarının birinci mərhələsində sual kitabçalarının xarici dil blokunda "Abituriyentin elektron ərizəsi"ndə "İmtahan verəcəyi xarici dil" bölməsində seçilən xarici dilə uyğun test tapşırıqları təqdim olunub. Xarici dil fənni blokuna daxil olan alman, fransız və ingilis dili fənləri üzrə test tapşırıqları Azərbaycan və rus bölmələri üçün, rus dili, ərəb və fars dili fənləri üzrə test tapşırıqları isə yalnız Azərbaycan bölməsi üçün hazırlanmışdır.

Beləliklə, iyulun 3-də 48, iyulun 10-da 48, iyulun 23-də 48, iyulun 24-də 32, iyulun 29-da 32, iyulun 30-da 48, avqustun 13-də 16, avqustun 14-də 16, avqustun 20-də 16, avqustun 21-də 16, avqustun 27-də

(Orta Hərbi Tibb Məktəbi üzrə) 4 adda test kitabçası hazırlanıb. Ümumilikdə, bu imtahanlarda 9120 test tapşırığından istifadə olunub.

I–IV ixtisas qrupları üzrə imtahanlarda 67464 nəfər abituriyent iştirak etmiş, onların 61990-u Azərbaycan, 5474-ü rus bölməsini təmsil etmişdir. İmtahanların gedişinin hər bir məqamı, eləcə də sonrakı proseslər–testlərin ekspertizası və etalonların müəyyənləşdirilməsi, imtahan protokollarının araşdırılması DİM-in internet saytında operativ şəkildə işıqlandırılmışdır. Qəbul imtahanlarının birinci mərhələsi üzrə nəticələri imtahanın keçirilməsindən təxminən 20 gün sonra (iyulun 3-də keçirilən imtahanın nəticələri iyulun 23-də, iyulun 10-da keçirilən imtahanın nəticələri iyulun 27-də, iyulun 23-də və 24-də keçirilən imtahanların nəticələri avqustun 10-da, iyulun 29-da və 30-da keçirilən imtahanların nəticələri avqustun 18-də) elan edilmişdir. İmtahanların ikinci mərhələsi üzrə nəticələr isə imtahanların keçirilməsindən təxminən 15 gün sonra (avqustun 13-də və 14-də keçirilən imtahanların nəticələri avqustun 28-də, avqustun 2-də və 21-də keçirilən imtahanların nəticələri sentyabrın 2-də) açıqlanmışdır. İmtahan nəticələrinin əvvəlki illərdə olduğundan daha gec elan olnumasının səbəbi yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə yazı işlərinin qiymətləndirilməsinin Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar olaraq onlayn şəkildə aparılması olmuşdur. Nəticələrin elanı DİM-in internet saytı və mobil operatorların telefon xidmətləri vasitəsilə həyata keçirilmişdir. Bununla yanaşı, hər bir abituriyentə internet vasitəsilə cavab kartı və cavab vərəqinin ön, arxa üzünün qrafik təsvirləri, qapalı tipli tapşırıqların doğru cavabları, açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları (tapşırığın ehtimal olunan doğru cavabları, həlli və qiymətləndirmə şkalası) ilə tanış olmaq imkanı da yaradılmışdır.

DİM hər imtahandan sonra həmin imtahanda istifadə olunan test tapşırıqlarının düzgün cavablarını "Space" televiziyası vasitəsilə elan etmiş, Mərkəzin məsul əməkdaşları və fənn ekspertləri birbaşa efir vaxtında test tapşırıqları, eləcə də imtahanların gedişi ilə bağlı abituriyentləri və pedaqoji ictimaiyyəti maraqlandıran sualları cavablandırmışlar. Bu tədbir həm abituriyentlərin öz ballarını rahat hesablamaları və onları maraqlandıran suallara cavab almaları, həm də ümumilikdə, imtahan prosesinin şəffaflığının təmin edilməsi baxımından əhəmiyyətli olmuşdur. Abituriyentlərin ballarının hesablanması üçün xüsusi proqram hazırlanmış, DİM-in və "Abituriyent" jurnalının saytlarında yerləşdirilmişdir. İstifadə üçün çox sadə olan bu proqramda abituriyentlər fənlər üzrə düzgün və səhv cavablarını müvafiq mövqelərdə qeyd etməklə avtomatik olaraq nisbi və ümumi balları haqqında məlumat ala və nəticələrini çap edə bilmişlər.

Qəbul imtahanlarında ayrı-ayrı fənlər üzrə istifadə edilmiş test tapşırıqlarının məzmunu və imtahanın gedişi ilə əlaqədar müraciətlərə baxılması üçün DİM tərəfindən apelyasiya komissiyası yaradılmışdır. Ötən ildən fərqli olaraq cari ildə apelyasiya müraciətlərinə onlayn şəkildə baxılmışdır. Apelyasiya komissiyasına müraciət etmək istəyənlər elan olunmuş tarixlərdə elektron ərizə doldurmaqla qeydiyyatdan keçmişlər. Qeydiyyatdan keçərkən onlar hansı şəkildə ("Zoom" proqramı və ya telefon əlaqəsi vasitəsilə) apelyasiya prosesində iştirak edəcəklərini bildirmişlər. Daha sonra DİM tərəfindən bildirilən tarixdən etibarən müracətçilərlə əlaqə saxlanmış və apelyasiya prosesi təşkil olunmuşdur. İmtahanlar üzrə apelyasiya müraciətləri üçün qeydiyyat tarixləri və apelyasiya proseslərinin başlanma tarixləri aşağıdakı göstərmişdir:

Qəbul imtahanlarının birinci mərhələsində iştirak edənlər üçün

- 3 və 10 iyulda keçirilən imtahanlar üzrə
  Qeydiyyat tarixləri 29-31 iyul, apelyasiya prosesinin başlanma tarixi 5 avqust;
- 23 və 24 iyulda keçirilən imtahanlar üzrə
  Qeydiyyat tarixləri 13-15 avqust, apelyasiya prosesinin başlanma tarixi 17 avqust;
- 29 və 30 iyulda keçirilən imtahanlar üzrə
  Qeydiyyat tarixləri 21-23 avqust, apelyasiya prosesinin başlanma tarixi 24 avqust;

Qəbul imtahanlarının ikinci mərhələsində iştirak edənlər üçün

- II və III qruplar üzrə qeydiyyat tarixləri 30 avqust-1 sentyabr, apelyasiya prosesinin başlanma tarixi 31 avqust;
- I və IV qruplar üzrə qeydiyyat tarixləri 3-5 sentyabr, apelyasiya prosesinin başlanma tarixi 4 sentyabr.

İxtisas seçimi abituriyentlərin imtahan
nəticələri (balları) elan olunduqdan sonra aparılıb

Müsabiqə şərtlərini ödəyən abituriyentlər müsabiqədə iştirak etmək üçün sentyabrın 10-dan 20-dək internet vasitəsilə ixtisas seçimi aparıb və ixtisas seçimi ərizələrini təsdiqləyiblər. Test imtahanlarının nəticələrinə əsasən, 62814 abituriyent ali təhsil müəssisələrinin ixtisaslarına keçirilən müsabiqədə iştirak etmək hüququ qazanıb. İxtisas seçimi zamanı abituriyentlərə kömək məqsədilə hər bir ixtisas qrupu üzrə bir sıra məlumatlar, o cümlədən plan yerlərinin sayı, müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan ballarının paylanması haqqında məlumatlar ayrı-ayrı kitabçalar şəklində, eləcə də ali təhsil müəssisələrinin ixtisasları üzrə 2019-cu ildə tələbə qəbulu müsabiqəsində formalaşmış keçid balları "Abituriyent" jurnalının xüsusi buraxılışında dərc edilmişdir.

Qəbul imtahanlarının nəticələrinə əsasən I ixtisas qrupu üzrə 15380, II ixtisas qrupu üzrə 7683, III, IV və V ixtisas qrupları üzrə, müvafiq olaraq, 17968, 3758 və 45288 nəfər müsabiqədə iştirak etmək hüququ əldə edib (1.12 saylı cədvələ bax). Hər ixtisas qrupu üzrə ayrı-ayrılıqda abituriyentlərin topladıqları balların paylanması 6.10-6.19 saylı cədvəllərdə təqdim edilib (bax: səh. 441-444).

Cədvəl 1.12

İXTİSAS QRUPLARI ÜZRƏ QƏBUL PLANLARI VƏ MÜSABİQƏDƏ İŞTİRAK ETMƏK HÜQUQU QAZANMIŞ ABİTURİYENTLƏRİN PAYLANMASI

İxtisas qrupu	Qəbul planı				Müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin sayı		
	Azərbaycan bölməsi	Rus bölməsi	Birgə müsabiqə aparılan ixtisaslar	Cəmi	Azərbaycan bölməsi	Rus bölməsi	Cəmi
I	10510	775	3567	14852	13986	1394	15380
II	9964	917	2808	13689	6984	699	7683
III	9088	1102	2051	12241	16758	1210	17968
IV	3194	300	604	4098	3306	452	3758
V	1183	120	2336	3639	42160	3128	45288
CƏMİ	**33939**	**3214**	**11366**	**48519**	**57563**	**5251**	**62814**

İxtisas seçimində 52049 nəfər abituriyent iştirak edib. Müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin 17.14%-i (10765 nəfər) arzu etdikləri ixtisaslara qəbul olmaq üçün kifayət qədər yüksək bal toplamadıqlarına, yaxud xarici ölkələrin ali təhsil müəssisələrinə qəbul olduqlarına görə qəbul kampaniyasının ixtisas seçimi mərhələsində iştirak etməyib. Bundan əlavə, ixtisas seçimində 14295 subbakalavr da iştirak etmişdir.

İxtisas seçimi mərhələsində ərizə verən abituriyentlərin 9130 nəfəri, subbakalavrların 1331 nəfəri ərizəsində ali təhsil müəssisələrinin yalnız dövlət sifarişi əsasında ayrılmış yerlərini, 14605 abituriyent və 4487 subbakalavr isə yalnız ödənişli əsaslarla ayrılmış yerlərini seçib. Ödənişli əsaslarla ayrılmış yerləri seçənlərin 771 nəfəri (532 abituriyent və 239 subbakalavr) ərizələrində yalnız özəl təhsil müəssisələrinin ixtisaslarını göstərib. Bu mərhələdə ərizə verən abituriyentlərin 54.40%-i (28314 nəfər), subbakalavrların 59.30%-i (8477 nəfər) ərizəsində həm dövlət sifarişli, həm də ödənişli əsaslarla olan yerləri qeyd etmişdi.

Müsabiqə və yerləşdirmənin nəticələri ixtisas seçimindən dərhal sonra açıqlanıb
İlkin mərhələdə ali təhsil müəssisələrinə 42775 nəfər
qəbul olub, qəbul planı 88.16% dolub.

Müsabiqə və yerləşdirmənin nəticələri sentyabrın 24-də DİM-in internet saytı, AZERCELL, BAKCELL, NARMOBİLE və NAXTEL telefon xidmətləri vasitəsilə elan olunub, sentyabrın 25-də isə "Abituriyent" jurnalının 7-ci sayında dərc edilib. Burada ixtisaslar üzrə keçid balları da təqdim edilib.

Qəbul imtahanlarının nəticələrinə əsasən birinci mərhələdə ali təhsil müəssisələrinə 42775 nəfər (o cümlədən, 36990 abituriyent və 5785 subbakalavr) qəbul olub və qəbul planı 88.16% yerinə yetirilib. Qəbul olanların 39339 nəfəri Azərbaycan, 3436 nəfəri isə rus bölməsini təmsil edib. Onlardan dövlət sifarişi üzrə qəbul olanların sayı, müvafiq olaraq, 19372 və 1471 nəfərdir. Qəbul olan abituriyentlər və subbakalavrlar haqda ayrı-ayrılıqda və ümumiləşdirilmiş məlumatlar cədvəl 1.13-də təqdim olunmuşdur.

Cədvəl 1.13

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)			Qəbulolma Faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Abituriyentlər				
I	14852	10164 (7927)	931 (705)	11095 (8632)	74.70
II	13689	6704 (3314)	615 (261)	7319 (3575)	53.47
III	12241	11075 (4033)	828 (186)	11903 (4219)	97.24
IV	4098	2921 (2095)	257 (117)	3178 (2212)	77.55
V	3639	3061 (1247)	434 (179)	3495 (1426)	96.04
CƏMİ	**48519**	**33925 (18616)**	**3065 (1448)**	**36990 (20064)**	**76.24**
	Subbakalavrlar				
I	14852	1883 (170)	112 (9)	1995 (179)	13.43
II	13689	3129 (409)	193 (7)	3322 (416)	24.27
III	12241	0 (0)	42 (0)	42 (0)	0.34
IV	4098	353 (176)	19 (7)	372 (183)	9.08
V	3639	49 (1)	5 (0)	54 (1)	1.48
CƏMİ	**48519**	**5414 (756)**	**371 (23)**	**5785 (779)**	**11.92**
	Bütövlükdə				
I	14852	12047 (8097)	1043 (714)	13090 (8811)	88.14
II	13689	9833 (3723)	808 (268)	10641 (3991)	77.73
III	12241	11075 (4033)	870 (186)	11945 (4219)	97.58
IV	4098	3274 (2271)	276 (124)	3550 (2395)	86.63
V	3639	3110 (1248)	439 (179)	3549 (1427)	97.53
CƏMİ	**48519**	**39339 (19372)**	**3436 (1471)**	**42775 (20843)**	**88.16**

Ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə əlavə qəbul və qeydiyyat aparıldıqdan sonra ali təhsil müəssisələrinə ümumilikdə 41748 nəfər qəbul olub, qəbul planı bütövlükdə 86.04% dolub

Nəticələr elan edildikdən sonra sentyabrın 26-dan oktyabrın 5-dək ali təhsil müəssisələrinin boş qalan yerlərinə əlavə qəbul elan olunub. Əlavə qəbul elanı, boş qalan plan yerləri haqqında məlumatlar və müsabiqə şərtləri "Abituriyent" jurnalının 8-ci sayında dərc edilərək ictimaiyyətə çatdırılıb. Əlavə yerləşdirmə zamanı əsas qəbulda yüksək müsabiqə şəraiti olan ixtisaslarda müsabiqədən keçməyən yüksək ballı gənclərin ixtisas seçimlərini bir daha dəqiqləşdirmələrinə, boş qalan yerlərdən öz istəklərinə uyğun olanlarını seçmələrinə şərait yaradılıb. Müsabiqəyə buraxılma şərtləri bu mərhələdə də dəyişdirilmədən birinci mərhələdə olduğu kimi saxlanılıb.

Ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə əlavə qəbul və orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu müsabiqəsi eyni vaxtda elan olunub. Hər iki müsabiqə üçün abituriyentlərdən ərizə qəbulu internet vasitəsilə həyata keçirilib. Abituriyentlərə internetdə bir ərizə formasında həm ali təhsil müəssisələrinin boş qalan ixtisaslarının, həm də kolleclərin ixtisaslarının 20-dək kodunu istədikləri ardıcıllıqla qeyd etmək imkanı verilib. Bu mərhələdə də müsabiqə ümumi qaydalara müvafiq olaraq abituriyentin seçdiyi ixtisasların ardıcıllığına uyğun şəkildə aparılıb və abituriyent müsabiqədən keçdiyi birinci ixtisasa qəbul olub. Hər iki müsabiqəyə birlikdə 23465 ərizə daxil olub. Ərizələrin yalnız 1702-sində ali təhsil müəssisələrinin boş qalan ixtisaslarının kodları qeyd olunub.

Beləliklə, ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə əlavə qəbul və qeydiyyat aparıldıqdan sonra ali təhsil müəssisələrinin qəbul planının dolma göstəricisi 88.16%-dən 86.04%-ə düşüb (qəbul olan bəzi şəxslər qeydiyyatdan keçmədiyinə görə).

Boş qalan plan yerlərinə əlavə yerləşdirmənin nəticələri nəzərə alınmaqla ali təhsil müəssisələrinə qəbul olanların sayı haqqında məlumat aşağıdakı cədvəldə təqdim edilir.

Cədvəl 1.14

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT (ƏLAVƏ YERLƏŞDİRMƏ VƏ QEYDİYYAT NƏZƏRƏ ALINMAQLA)

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)			Qəbulolma Faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Abituriyentlər				
I	14852	10092 (7888)	913 (693)	11005 (8581)	74.10
II	13689	6749 (3306)	617 (258)	7366 (3564)	53.81
III	12241	10886 (4022)	812 (184)	11698 (4206)	95.56
IV	4098	2816 (2047)	241 (117)	3057 (2164)	74.60
V	3639	3026 (1234)	417 (174)	3443 (1408)	94.61
CƏMİ	**48519**	**33569 (18497)**	**3000 (1426)**	**36569 (19923)**	**75.37**
	Subbakalavrlar				
I	14852	1521 (172)	89 (10)	1610 (182)	10.84
II	13689	3056 (433)	161 (8)	3217 (441)	23.50
III	12241	1 (0)	35 (0)	36 (0)	0.29
IV	4098	250 (157)	15 (7)	265 (164)	6.47
V	3639	46 (1)	5 (0)	51 (1)	1.40
CƏMİ	**48519**	**4874 (763)**	**305 (25)**	**5179 (788)**	**10.67**
	Bütövlükdə				
I	14852	11613 (8060)	1002 (703)	12615 (8763)	84.94
II	13689	9805 (3739)	778 (266)	10583 (4005)	77.31
III	12241	10887 (4022)	847 (184)	11734 (4206)	95.86
IV	4098	3066 (2204)	256 (124)	3322 (2328)	81.06
V	3639	3072 (1235)	422 (174)	3494 (1409)	96.02
CƏMİ	**48519**	**38443 (19260)**	**3305 (1451)**	**41748 (20711)**	**86.04**

Əlavə yerləşdirmə və qeydiyyatın nəticələrini nəzərə almaqla ayrı-ayrı ixtisas qruplarında qəbulolma göstəricilərinə nəzər salaq:

I ixtisas qrupu üzrə qəbul imtahanında 28243 nəfər abituriyent iştirak edib. Onların Azərbaycan bölməsi üzrə 38.83%-i, rus bölməsi üzrə isə 40.49%-i ali təhsil müəssisələrinə qəbul olub. Qəbul planı bütövlükdə (subbakalavrlar da nəzərə alınmaqla) 84.94% yerinə yetirilib.

II ixtisas qrupu üzrə imtahanda iştirak edən abituriyentlərin sayı 13024 nəfər olub. Onların Azərbaycan bölməsi üzrə 56.92%-i, rus bölməsi üzrə isə 52.92%-i tələbə adına layiq görülüb, qəbul planı 77.31% dolub. Bu göstərici digər ixtisas qrupları ilə müqayisədə ən aşağı göstəricidir.

III ixtisas qrupu üzrə qəbul imtahanında 21410 nəfər abituriyent iştirak edib. Onların Azərbaycan bölməsi üzrə 54.56%-i, rus bölməsi üzrə isə 55.65%-i ali təhsil müəssisələrinə qəbul olub. Qəbul planı 95.86% yerinə yetirilib.

IV ixtisas qrupu üzrə qəbul imtahanında 4787 nəfər abituriyent iştirak edib. Onların Azərbaycan bölməsi üzrə 67.16%-i, rus bölməsi üzrə isə 40.57%-i tələbə adına layiq görülüb, qəbul planı 81.06% dolub.

V ixtisas qrupu üzrə qəbul imtahanında 56906 nəfər abituriyent iştirak edib. Onların Azərbaycan bölməsi üzrə 5.68%-i, rus bölməsi üzrə isə 11.39%-i tələbə adına layiq görülüb. Qəbul planı 96.02% dolub.

Göründüyü kimi, II və IV ixtisas qrupları istisna olmaqla, qalan bütün qruplarda imtahanda iştirak edənlər arasından ali təhsil müəssisələrinə qəbulolma faizi rus bölməsində daha yüksəkdir, amma müsabiqədə iştirak etmək hüququ qazanan abituriyentlər arasında isə III və V ixtisas qrupları istisna olmaqla, digər qruplarda qəbulolma faizi Azərbaycan bölməsində daha yüksəkdir. Ümumilikdə götürdükdə, Azərbaycan bölməsində ali təhsil müəssisələrinə qəbul olanlar imtahanlarda iştirak edənlərin 44.95%-ni, müsabiqədə iştirak etmək hüququ qazananların isə 58.32%-ni təşkil edir. Rus bölməsində bu göstəricilər, müvafiq olaraq, 47.10 və 57.13%-dir.

Qəbulolma göstəricilərinin təhsil formaları üzrə təhlili göstərir ki, dövlət ali təhsil müəssisələrinə 36068, özəl ali təhsil müəssisələrinə isə 5680 nəfər qəbul olub. Dövlət ali təhsil müəssisələrinin qəbul planı 88.45%, özəl ali təhsil müəssisələrinin planı isə 73.37% dolub.

Ali təhsil müəssisələrinə 5179 subbakalavr qəbul olunub və onların 15.22%-i dövlət sifarişi üzrə, 84.78%-i isə ödənişli əsaslarla ayrılan yerlərə qəbul olunub. Qəbul olunan subbakalavrların 67.08%-i (3474 nəfər) dövlət, 32.92%-i (1705 nəfər) özəl ali təhsil müəssisələrinə qəbul olunub. 1.14 saylı cədvəldən göründüyü kimi subbakalavrların böyük əksəriyyəti (93.20%-i) I və II qrup ixtisaslarına qəbul olunub. Dövlət sifarişi üzrə qəbul olunanlar arasında bu qrupların payı 79.06%, ödənişli əsaslarla qəbul olunanlar arasında isə 95.74%-dir.

Subbakalavrların böyük hissəsi "İqtisadiyyat" (611 nəfər), "Maliyyə" (526 nəfər), "Mühasibat" (519 nəfər), "Turizm işinin təşkili" (445 nəfər), "Marketinq" (299 nəfər), "Menecment" (286 nəfər), "İnformasiya texnologiyaları" (164 nəfər), "Maşın mühəndisliyi" (162 nəfər), "Dövlət və bələdiyyə idarəetməsi" (150 nəfər), "Kompüter mühəndisliyi" (144 nəfər) və "Nəqliyyat mühəndisliyi" (136 nəfər) ixtisaslarına qəbul olunub. Bu ixtisaslara qəbul olunan subbakalavrlar bütövlükdə ali təhsil müəssisələrinə qəbul olunan subbakalavrların 66.46%-ni təşkil edir. Onların 11.56%-i (398 nəfər) dövlət sifarişi üzrə, 88.44%-i (3044 nəfər) ödənişli əsaslarla ayrılan yerlərə qəbul olunub.

Müsabiqə zamanı bir yerə bir neçə subbakalavr iddia etdiyi hallarda onların diplom ballarının orta göstəricisi əsas götürülüb və bu göstəricisi digərlərindən yüksək olan subbakalavr həmin yerə yerləşdirilib. Ali təhsil müəssisələrinə qəbul olunan subbakalavrların orta diplom balı 76-ya bərabər olub. Bu göstəriciləri aşağı olan subbakalavrlar, əsasən, "Populyar musiqi və caz ifaçılığı" (orta diplom balı 56.000 bal), "Mədən mühəndisliyi" (65.995 bal), "Cihaz mühəndisliyi" (66.716 bal), "İnformasiya təhlükəsizliyi" (67.187 bal) və "Mexanika mühəndisliyi" (67.287 bal) ixtisaslarına, yüksək olan subbakalavrlar isə əsasən "Statistika" (95.470 bal), "Sosial iş" (93.150 bal), "Aqronomluq" (91.791 bal), "Biologiya" (90.340 bal) və "Biotexnologiya" (89.642 bal) ixtisaslarına qəbul olunub.

Məlum olduğu kimi Təhsil Nazirliyinin müraciəti nəzərə alınaraq "Riyaziyyat", "Fizika", "Kompüter elmləri" ixtisasları üzrə müsabiqəyə ən azı 250 bal toplayan abituriyentlər buraxılıb (bu ixtisaslara qəbulolma faizi 2019-cu ildə 88.76%, subbakalavrlarla birlikdə 89.11%, 2020-ci ildə 89.29%, subbakalavrlarla birlikdə 91.19% olub). 2015-ci ildən 2019-cu ilə qədər bu ixtisaslarla yanaşı, "Nəqliyyat tikintisi mühəndisliyi", "İnşaat mühəndisliyi", "İnformasiya texnologiyaları", "Geologiya", "Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi" (2020-ci ildən etibarən "Radiotexnika və telekommunikasiya mühəndisliyi") ixtisasları üzrə də müsabiqəyə ən azı 250 bal toplayan abituriyentlər buraxılırdı. 2020-ci ildən etibarən isə bu ixtisaslar üzrə müsabiqə şərti 250 baldan 200 bala endirilib. Nəticədə, ötən illə müqayisədə bu 5 ixtisasa ayrılan yerlərə qəbulolma faizi 62.10%-dən (subbakalavrlarla birlikdə 81.59%) 69.67%-dək (subbakalavrlarla birlikdə 90.19%-dək) artıb. Mütləq sayla bu fərq daha çoxdur. Belə ki, bu ixtisaslara 2019-cu ildə ayrılan 1657 yerə 1352 nəfər (1029 abituriyent və 323 subbakalavr), 2020-ci ildə ayrılan 2038 yerə 1838 nəfər (1408 abituriyent və 430 subbakalavr) qəbul olunub. Göründüyü kimi, yuxarıda sadalanan 5 ixtisas üzrə plan yerlərinin artmasına baxmayaraq, müsabiqə şərtinin 250 baldan 200 bala endirilməsi nəticəsində, bu yerlərə qəbul olanların sayı da artmış və qəbulolma faizi 2019-cu illə müqayisədə yüksəlmişdir.

2020-ci ildə Təhsil Nazirliyinin təqdim etdiyi siyahıya əsasən ödənişli əsaslarla qəbul aparılan bir neçə ixtisasının (bax: səh. 17-18) müsabiqəsinə ümumi balı 150-dən, II mərhələ üzrə balı 50-dən az olmayan abituriyentlər buraxılıb. Həmin ixtisaslara ayrılan plan yerlərinin 71.30 faizi dolub. Bu göstərici I ixtisas qrupunda 89.74, II ixtisas qrupunda 63.69, III ixtisas qrupunda 97.76, IV ixtisas qrupunda isə 59.13 faizə bərabər olub. I və III ixtisas qruplarında Təhsil Nazirliyi tərəfindən təklif olunan bu tədbir o dərəcədə də effektli olmayıb. I ixtisas qrupunda regionlarda yerləşən bəzi ali təhsil müəssisələri, III ixtisas qrupunda isə bəzi özəl ali təhsil müəssisələri istisna olmaqla, digər ali təhsil müəssisələrində təklif olunan ixtisaslar üzrə formalaşan keçid balları 200 baldan yuxarı olub.

Ali təhsil müəssisələrinə ayrı-ayrı təhsil formaları üzrə qəbul olan və qəbul olmayan abituriyentlərin və subbakalavrların paylanma diaqramlarını nəzərdən keçirək (şəkil 1.10, 1.11 və 1.12).

QƏBULUN NƏTİCƏSİ



Şəkil 1.10



Şəkil 1.11



Şəkil 1.12

Ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmiş abituriyentlərin və müsabiqədə iştirak edən subbakalavrların ümumilikdə 43.96%-i (abituriyentlərin 45.12%-i, subbakalavrların 35.71%-i) ali təhsil müəssisələrinə qəbul olub. Qəbul olanların 49.61%-i dövlət sifarişi əsasında (96.20%-i abituriyentlər, 3.80%-i subbakalavrlar), o cümlədən, 47.37%-i dövlət (97.06%-i abituriyentlər, 2.94%-i subbakalavrlar),

2.24%-i özəl (77.88%-i abituriyentlər, 22.12%-i subbakalavrlar) ali təhsil müəssisələrində, 50.39%-i isə ödənişli təhsil forması üzrə (79.13%-i abituriyentlər, 20.87%-i subbakalavrlar), o cümlədən, 39.03%-i dövlət (82.24%-i abituriyentlər, 17.76%-i subbakalavrlar), 11.36%-i özəl (68.42%-i abituriyentlər, 31.58%-i subbakalavrlar) ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanıb.

Beləliklə, imtahanda iştirak edən abituriyentlərin 54.88%-i (44487 nəfər) ali təhsil müəssisələrinə qəbul olmamışdır. Təqdim edilən rəqəmlər qəbul prosesində həm rəqabəti, həm istəkləri təmin edilməyənlərin sayının nə qədər çox olduğunu, həm də qəbul prosesinin kütləviliyini, ağır və məsuliyyətli iş olduğunu göstərir.

DİM bu işin məsuliyyətini dərk edərək qəbul kampaniyasının tam şəffaf keçməsini təmin etmək məqsədilə onun bütün mərhələlərində görülən tədbirlər barədə ictimaiyyəti müntəzəm olaraq məlumatlandırmışdır. Qəbul imtahanlarında iştirak etmiş hər bir gəncin imtahan nəticələri haqqında məlumatlar arayış formasında imtahanın keçirildiyi vaxtdan 2–3 gün sonra internetdə yerləşdirilmişdir. Arayışda abituriyentlərin hər fənn üzrə ayrı-ayrılıqda düzgün və səhv cavabları, nisbi balları göstərilmişdir. Bunun əsasında onlar öz imtahan nəticələrini ətraflı təhlil etmək imkanına malik olmuşlar.

Abituriyentlərin imtahan balları elan edildikdən sonra onların düzgün ixtisas seçiminə kömək məqsədilə DİM tərəfindən bütün ixtisas qruplarının abituriyentləri üçün "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı vəsaitlər çap edilib. Vəsaitlərdə plan yerlərinin sayı, hər bir qrup üzrə müsabiqə şərtləri, həmçinin müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan ballarının paylanma histoqramları cədvəl şəklində təqdim edilib. Cədvəldən istifadə edən müsabiqə iştirakçıları öz imtahan göstəricilərinin bu bal sıralanmasındakı yerini müəyyən etmək və ötən illərdə qəbul imtahanlarında ayrı-ayrı ixtisaslar üzrə formalaşmış keçid ballarını nəzərə almaqla uğurlu seçim etmək imkanı qazanıblar.

Ötən il olduğu kimi, bu il də DİM-də apelyasiya komissiyası bir neçə mərhələdə fəaliyyət göstərmişdir. Hər bir ixtisas qrupu üzrə imtahan keçirilən gündən sonra apelyasiyada (II və III qruplar üzrə 31 avqustdan etibarən (qeydiyyat tarixləri: 30 avqust-1 sentyabr), I və IV qruplar üzrə 4 sentyabrdan etibarən (qeydiyyat tarixləri: 3-5 sentyabr)) imtahanın gedişi və qəbul imtahanlarında ayrı-ayrı fənlər üzrə istifadə edilmiş test tapşırıqlarının məzmunu ilə əlaqədar müraciətlərə baxılmışdır. Apelyasiya komissiyasının tərkibində şöbə müdirləri və müəllimlərdən ibarət işçi qrup fəaliyyət göstərmiş, testlərlə bağlı suallara mütəxəssislər tərəfindən hərtərəfli izahat verilmişdir.

Qəbul imtahanlarının ikinci mərhələsində iştirak edənlər üçün

- II və III qruplar üzrə qeydiyyat tarixləri 30 avqust-1 sentyabr, apelyasiya prosesinin başlanma tarixi 31 avqust;
- I və IV qruplar üzrə qeydiyyat tarixləri 3-5 sentyabr, apelyasiya prosesinin başlanma tarixi 4 sentyabr.

Hər ixtisas qrupu üzrə abituriyentlərin istəyinə daha çox uyğun olan, ərizələrdə daha çox birinci yerdə göstərilən ən nüfuzlu ixtisaslar müəyyən edilib

Hər bir ixtisas üzrə müsabiqə vəziyyəti təkcə həmin ixtisası seçən abituriyentlərin sayından deyil, həm də həmin ixtisas üçün ayrılmış plan yerlərinin miqdarından asılı olur. Bir qayda olaraq, abituriyentlərin sayının artması müsabiqə vəziyyətinin yüksəlməsinə, plan yerlərinin artması isə müsabiqə vəziyyətinin düşməsinə səbəb olur. Bu baxımdan, müsabiqə vəziyyəti ixtisasın nüfuz səviyyəsini tam ifadə edə bilməz. Nəzərə alsaq ki, ərizədə birinci yerdə göstərilən ixtisas abituriyentin istəyinə ən çox uyğun olandır, deməli, ixtisasın nüfuzunu həmin ixtisasın abituriyent ərizələrində birinci yerdə göstərilməsinin sayı əsasında müəyyənləşdirmək daha düzgün olar. Aparılan müqayisə zamanı müsabiqəsində iştirak etmək üçün ümumi bala qoyulan tələb 200-dən az olan ixtisaslar nəzərə alınmamışdır. Bu qayda ilə hər qrupun ən nüfuzlu ixtisası müəyyənləşdirilmişdir. Məlum olmuşdur ki, bu il abituriyentlər Azərbaycan bölməsində I qrupda ən çox Bakı Dövlət Universitetinin "Riyaziyyat müəllimliyi", II qrupda Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə (tədris ingilis dilində) ", III qrupda Azərbaycan Dillər Universitetinin "Xarici dil müəllimliyi (ingilis dili üzrə)", IV qrupda Azərbaycan Tibb Universitetinin "Tibb", V qrupda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının "Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi" ixtisaslarına üstünlük vermişlər (cədvəl 1.15). III və IV ixtisas qrupunda Azərbaycan və rus bölməsinin abituriyentlərinin seçimi eyni olmuşdur (cədvəl 1.16). II qrupda rus bölməsinin abituriyentləri Azərbaycan

bölməsinin abituriyentlərindən fərqli olaraq daha çox Azərbaycan Dövlət İqtisad Universitetinin tədrisi rus dilində olan "Maliyyə" ixtisasına meyil etmişlər. I ixtisas qrupunda rus bölməsinin abituriyentləri Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "İnformasiya texnologiyaları", V ixtisas qrupunda isə Azərbaycan Dövlət İqtisad Universitetinin "Dizayn (sahələr üzrə)" ixtisasına üstünlük veriblər. Azərbaycan bölməsində I ixtisas qrupunda "Riyaziyyat müəllimliyi" ixtisasına marağın artmasını Təhsil Nazirliyinin pedaqoji ixtisaslara göstərdiyi qayğı ilə əlaqələndirmək olar.

Cədvəl 1.15

ABİTURİYENT ƏRİZƏLƏRİNDƏ BİRİNCİ YERDƏ ƏN ÇOX GÖSTƏRİLMİŞ DÖVLƏT SİFARİŞLİ ƏYANİ ŞÖBƏ İXTİSASLARI

Azərbaycan bölməsi

İxtisas qrupu	İxtisasın adı	Birinci yerdə göstərmələrin	
		sayı	faizi (bu ixtisasa sənəd verən abituriyentlərin ümumi sayına nəzərən)
I	Riyaziyyat müəllimliyi (Bakı Dövlət Universiteti)	296	43.27
II	Maliyyə (tədris ingilis dilində, Azərbaycan Dövlət İqtisad Universiteti)	297	78.78
III	Xarici dil müəllimliyi (ingilis dili üzrə, Azərbaycan Dillər Universiteti)	515	33.14
IV	Tibb (Azərbaycan Tibb Universiteti)	835	78.63
V	Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi (Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası)	1416	34.83

Cədvəl 1.16

ABİTURİYENT ƏRİZƏLƏRİNDƏ BİRİNCİ YERDƏ ƏN ÇOX GÖSTƏRİLMİŞ DÖVLƏT SİFARİŞLİ ƏYANİ ŞÖBƏ İXTİSASLARI

Rus bölməsi

İxtisas qrupu	İxtisasın adı	Birinci yerdə göstərmələrin	
		sayı	faizi (bu ixtisasa sənəd verən abituriyentlərin ümumi sayına nəzərən)
I	Kompüter elmləri (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti)	44	15.22
II	Maliyyə (Azərbaycan Dövlət İqtisad Universiteti)	42	44.21
III	Xarici dil müəllimliyi (ingilis dili üzrə, Azərbaycan Dillər Universiteti)	62	38.51
IV	Tibb (Azərbaycan Tibb Universiteti)	64	64.65
V	Dizayn (sahələr üzrə, Azərbaycan Dövlət İqtisad Universiteti)	166	36.56

Oğlan abituriyentlər texniki və iqtisad, qız abituriyentlər isə humanitar ixtisaslara üstünlük veriblər

"Abituriyentin ərizəsi"ni dolduran gənc öz ərizəsində ixtisas qrupunu qeyd etməklə, əslində, özünün bu və ya digər yönümlü ixtisaslara istəyini, marağını ifadə etmiş olur. Bu amil nəzərə alınaraq ixtisas qrupları üzrə abituriyentlərin istəyini ifadə edən kəmiyyət göstəricisi hesablanıb. Bu zaman ixtisas seçimi aparan abituriyentlərin neçə faizinin həmin ixtisas qrupuna müraciət etməsi nəzərə alınıb. Hər bir abituriyentin istəyi nəzərə alınmaqla hesablanan belə göstərici əsasında ölkənin bütün abituriyentlərini təmsil edən ortastatistik abituriyentin (ayrılıqda oğlan və qız) ixtisas qruplarından hər birinə görə istəyi faizlə müəyyən edilib. 1.17 saylı cədvəldə hesablamanın nəticələri təqdim olunur (bu il hər bir abituriyent eyni zamanda həm V, həm I–IV qruplardan birini seçə bilmişdir, ona görə qruplar üzrə faizlərin cəmi 100-dən çox alınır).

Cədvəl 1.17

ORTASTATİSTİK OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ İSTƏKLƏRİNİN PAYLANMASI

№	OĞLAN ABİTURİYENT						QIZ ABİTURİYENT					
	Azərb. bölməsi			Rus bölməsi			Azərb. bölməsi			Rus bölməsi		
	Qrup	İstək		Qrup	İstək		Qrup	İstək		Qrup	İstək	
		sayla	%-lə		sayla	%-lə		sayla	%-lə		sayla	%-lə
1	V	30964	74.07	V	2039	59.65	V	23281	64.98	V	1734	50.07
2	I	19117	45.73	I	1741	50.94	III	15094	42.13	III	1203	34.74
3	II	8946	21.40	II	775	22.67	I	9345	26.08	I	777	22.44
4	III	5919	14.16	III	392	11.47	II	3899	10.88	II	617	17.82
5	IV	1252	3.00	IV	172	5.03	IV	3253	9.08	IV	483	13.95

Cədvəldən göründüyü kimi, V ixtisas qrupu istisna olmaqla, oğlan və qızların ixtisas qruplarına münasibətləri fərqlidir. Əvvəlki illərdə olduğu kimi, bu il də hər iki bölmənin ortastatistik oğlan abituriyentinin istəyi ən çox "Riyaziyyat, fizika və mühəndislik" (I qrup) və "İqtisadiyyat və idarəetmə" (II qrup) ixtisaslarınadır. Azərbaycan bölməsində oğlanların 67.13%, rus bölməsində isə 73.61%-nin istəyi bu iki ixtisas qrupuna yönəlib. Bu rəqəmlər oğlan abituriyentlərin texniki, iqtisad və idarəetmə ixtisaslarına marağının nə dərəcədə yüksək olduğunu göstərir. Bununla belə, qeyd etmək lazımdır ki, oğlanların I ixtisas qrupuna istəyi II qrupa nəzərən əhəmiyyətli dərəcədə yüksəkdir. Onu da qeyd etmək lazımdır ki, 2020-ci ildə 2018-ci və 2019-ci illərlə müqayisədə hər iki bölmədə oğlan abituriyentlərin II ixtisas qrupuna maraqları bir qədər də zəifləyib. 2018-ci ildə Azərbaycan və rus bölmələrində oğlan abituriyentlərin müvafiq olaraq, 26.76% və 28.85%, 2019-cu ildə 26.26% və 28.24%, 2020-ci ildə isə 21.40% və 22.67%-i bu ixtisas qrupunu seçib. Göründüyü kimi, 2018-ci və 2019-cu illərdə bu istək demək olar ki, dəyişməyib. Lakin 2020-ci ildə II ixtisas qrupunu seçən oğlan abituriyentlərin nisbi sayı azalıb.

Ortastatistik qız abituriyentin humanitar ixtisaslardan ibarət III ixtisas qrupuna istəyi daha yüksəkdir. Qız abituriyentlər "İqtisadiyyat və idarəetmə" ixtisaslarına (II qrup) az maraq göstəriblər. Əvvəlki illərdə rus bölməsinin qız abituriyentləri II ixtisas qrupuna daha çox maraq göstərirdilər və son illərdə onların da oğlanlarda olduğu kimi bu ixtisas qrupuna meyli azalıb. 2018-ci ildə rus bölməsindəki qız abituriyentlərin 23.08%-i, 2019-cu ildə 19.37%-i, 2020-ci ildə isə 17.82%-i II ixtisas qrupunu seçib.

IV ixtisas qrupunda qızların ixtisas maraqları (istəkləri) oğlanların maraqlarından 2.77-3.03 dəfə yüksəkdir. Onu da qeyd edək ki, IV qrup üzrə ixtisas seçimi mərhələsində iştirak edən qız abituriyentlərin sayı oğlanlardan 2.80 dəfə yüksək olub.

Ötən ildəkindən fərqli olaraq cari ildə də V ixtisas qrupuna həm oğlan, həm də qız abituriyentlərin maraqları kəskin şəkildə yüksəlib. Bu daha çox Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar olaraq bir sıra xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə qabiliyyət imtahanlarının ləğv edilməsi ilə bağlıdır. Bununla yanaşı, V ixtisas qrupuna istəyin bu dərəcədə yüksək olması daha çox cari ilin məzunlarına görədir. Bildiyimiz kimi, cari ilin məzunlarının V ixtisas qrupu üzrə ixtisasların müsabiqəsində buraxılış imtahanının nəticələri əsasında iştirak etmək imkanı olmuşdur və onlar əlavə imtahan verməmişlər. Həmçinin cari ilin məzunları ali təhsil müəssisələrinə qəbul kampaniyasında ilk dəfə iştirak etdikləri üçün onların iştirakı dövlət büdcəsi tərəfindən maliyyələşdirilmişdir. Qeyd olunan səbəblərə görə cari ilin məzunları ərizələrində həm də V ixtisas qrupunu seçmişlər, baxmayaraq ki, faktiki olaraq onların bir çoxunun bu qrupa aid olan ixtisaslara maraqları çox az olub və yaxud heç olmayıb. Qeyd edək ki, ixtisas seçimi mərhələsində abituriyentlərin cəmi 34.79%-i (oğlanların 43.01%-i, qızların 26.48%-i) V qrupa daxil olan ixtisasları öz ərizələrində qeyd edib.

Bakı şəhərinin Qaradağ rayonu, Siyəzən, Salyan və Neftçala rayonlarının oğlan abituriyentləri ənənəvi olaraq yüksək faizlə I qrupun ixtisaslarını seçiblər

Respublikanın ayrı-ayrı bölgələrini təmsil edən oğlan və qız abituriyentlərin və subbakalavrların ixtisas qrupları üzrə istəklərinin paylanması müəyyənləşdirilib. Abituriyentləri və subbakalavrları bu və ya digər ixtisas qrupuna nisbətən daha çox meyil göstərilən bölgələr 1.18 saylı cədvəldə təqdim olunub.

Cədvəldən göründüyü kimi, Neftçala, Qusar, Salyan, Qazax rayonlarında, Sumqayıt şəhərində, eləcə də, Bakı şəhərinin Suraxanı, Xəzər və Qaradağ rayonlarında oğlanlar yüksək faizlə (uyğun olaraq, 68.85%, 67.21%, 66.42%, 60.18%, 60.45%, 64.23%, 63.77% və 62.29%) texniki ixtisaslar qrupunu seçiblər. Əvvəlki illərdəki qəbulun nəticələri də göstərir ki, bu bölgələrdə oğlanların texniki ixtisaslara maraqları yüksəkdir və bu, bir ənənəyə çevrilib. Buna səbəb həmin bölgələrdə dəqiq fənlərin, xüsusən riyaziyyat, fizika fənlərinin tədrisi səviyyəsinin yüksək olması, həmçinin texniki elmlərlə bağlılığı olan sənaye müəssisələrinin mövcudluğudur. Şübhəsiz, müəllimin nüfuzu, yüksək təhsili və pedaqoji bacarığı da şagirdlər arasında fənnin daha dərindən öyrənilməsini şərtləndirir. İxtisas seçərkən isə gənclər ən yaxşı bildikləri fənnin daha çox əhəmiyyət kəsb etdiyi ixtisas qrupuna üstünlük verirlər.

Bu il Kəngərli, Qobustan, Babək, Şuşa, Cəbrayıl, İmişli, Saatlı, Cəlilabad, Ordubad, Şərur, Xaçmaz, Bakı şəhərinin Sabunçu və Qaradağ rayonlarında qızlar humanitar ixtisaslara daha çox üstünlük veriblər.

Cədvəl 1.18

RESPUBLİKANIN BÖLGƏLƏRİNİ TƏMSİL EDƏN OĞLAN VƏ QIZLARIN İXTİSAS QRUPLARI ÜZRƏ İSTƏKLƏRİNİN PAYLANMASI

İxtisas qrupu	AZƏRBAYCAN BÖLMƏSİ		RUS BÖLMƏSİ	
	Oğlan abituriyent	Qız abituriyent	Oğlan abituriyent	Qız abituriyent
I	Neftçala rayonu (68.85), Salyan rayonu (66.42), Bakı ş. Qaradağ rayonu (62.29), Qazax rayonu (60.18), Qax rayonu (59.80), Ağstafa rayonu (58.50), Sumqayıt şəhəri (58.24), Siyəzən rayonu (56.90), Qusar rayonu (56.27), Bakı ş. Suraxanı rayonu (55.85)	Siyəzən rayonu (42.44), Qax rayonu (41.83), Kürdəmir rayonu (37.94), Sumqayıt şəhəri (34.93), Qubadlı rayonu (32.45), Şabran rayonu (32.43), Ağdaş rayonu (32.34), Salyan rayonu (32.20), Hacıqabul rayonu (32.00), Qusar rayonu (31.53), Yevlax rayonu (31.15)	Qusar rayonu (67.21), Bakı ş. Suraxanı rayonu (64.23), Bakı ş. Xəzər rayonu (63.77), Sumqayıt şəhəri (60.45), Bakı ş. Xətai rayonu (59.38), Abşeron rayonu (58.10), Xaçmaz rayonu (56.52), Bakı ş. Nizami rayonu (55.13), Bakı ş. Sabunçu rayonu (52.21), Bakı ş. Yasamal rayonu (50.54), Gəncə şəhəri (50.23)	Sumqayıt şəhəri (31.87), Bakı ş. Suraxanı rayonu (30.28), Bakı ş. Xətai rayonu (29.60), Qusar rayonu (28.38), Bakı ş. Qaradağ rayonu (27.59), Abşeron rayonu (25.96), Bakı ş. Nizami rayonu (23.97), Xaçmaz rayonu (23.64), Bakı ş. Binəqədi rayonu (23.58), Bakı ş. Xəzər rayonu (23.53)
II	Ordubad rayonu (35.14), Ağcabədi rayonu (34.36), Naxçıvan şəhəri (32.98), Qəbələ rayonu (32.80), Babək rayonu (32.37), Ağsu rayonu (31.53), Ağdam rayonu (31.37), İmişli rayonu (31.30)	Zaqatala rayonu (25.60), Bakı ş. Səbayel rayonu (24.16), Bakı ş. Yasamal rayonu (23.25), Bakı ş. Nərimanov rayonu (22.06), Bakı ş. Nəsimi rayonu (21.68), Bakı ş. Xətai rayonu (21.44), Qusar rayonu (20.38), Bakı ş. Binəqədi rayonu (20.03)	Bakı ş. Nəsimi rayonu (28.88), Gəncə şəhəri (27.65), Bakı ş. Yasamal rayonu (27.42), Bakı ş. Nərimanov rayonu (26.95), Abşeron rayonu (26.67), Bakı ş. Səbayel rayonu (25.83), Bakı ş. Binəqədi rayonu (23.41), Bakı ş. Xətai rayonu (22.57)	Bakı ş. Nəsimi rayonu (28.84), Bakı ş. Səbayel rayonu (27.31), Bakı ş. Xəzər rayonu (25.88), Bakı ş. Yasamal rayonu (25.24), Bakı ş. Nərimanov rayonu (24.07), Bakı ş. Xətai rayonu (22.12), Bakı ş. Binəqədi rayonu (20.73), Sumqayıt şəhəri (20.00)
III	Kəlbəcər rayonu (24.17), Yardımlı rayonu (22.82), Lerik rayonu (22.78), Culfa rayonu (22.41), Saatlı rayonu (21.04), Cəlilabad rayonu (19.93), Şəmkir rayonu (19.26), Şərur rayonu (19.15), Babək rayonu (18.91), Şamaxı rayonu (18.90), İmişli rayonu (18.90)	Kəngərli rayonu (52.25), Qobustan rayonu (51.28), Babək rayonu (49.83), Şuşa rayonu (48.99), Cəbrayıl rayonu (48.93), İmişli rayonu (48.77), Saatlı rayonu (48.34), Cəlilabad rayonu (47.56), Ordubad rayonu (47.25), Şərur rayonu (47.24)	Bakı ş. Sabunçu rayonu (16.91), Bakı ş. Nəsimi rayonu (15.95), Xaçmaz rayonu (13.04), Bakı ş. Nərimanov rayonu (12.77), Bakı ş. Səbayel rayonu (11.25), Bakı ş. Nizami rayonu (10.68), Bakı ş. Xəzər rayonu (10.14)	Xaçmaz rayonu (43.64), Bakı ş. Sabunçu rayonu (41.40), Bakı ş. Qaradağ rayonu (41.38), Abşeron rayonu (36.54), Bakı ş. Suraxanı rayonu (35.21), Bakı ş. Binəqədi rayonu (34.96), Bakı ş. Nəsimi rayonu (33.33), Bakı ş. Nizami rayonu (30.99), Gəncə şəhəri (30.89), Bakı ş. Nərimanov rayonu (30.37)

Cədvəl 1.18 (ardı)

İxtisas qrupu	AZƏRBAYCAN BÖLMƏSİ		RUS BÖLMƏSİ	
	Oğlan abituriyent	Qız abituriyent	Oğlan abituriyent	Qız abituriyent
IV	Saatlı rayonu (8.47), Ağcabədi rayonu (7.17), Zərdab rayonu (6.25), Mingəçevir şəhəri (6.15), Lənkəran rayonu (6.07), Yardımlı rayonu (5.90), Tovuz rayonu (5.72), Zaqatala rayonu (5.22), Bərdə rayonu (5.12)	Naxçıvan şəhəri (15.82), Ordubad rayonu (15.14), Şirvan şəhəri (14.89), Tovuz rayonu (14.80), Şəmkir rayonu (14.69), Ağcabədi rayonu (14.52), Mingəçevir şəhəri (13.00), Bərdə rayonu (12.91), İmişli rayonu (12.53), Babək rayonu (12.12)	Gəncə şəhəri (8.76), Qusar rayonu (8.20), Bakı ş. Səbayel rayonu (6.67), Bakı ş. Binəqədi rayonu (6.35), Bakı ş. Nərimanov rayonu (5.32), Sumqayıt şəhəri (5.22)	Qusar rayonu (28.38), Gəncə şəhəri (20.46), Xaçmaz rayonu (17.27), Abşeron rayonu (15.38), Bakı ş. Nərimanov rayonu (14.44), Bakı ş. Yasamal rayonu (14.32), Bakı ş. Sabunçu rayonu (12.74), Bakı ş. Binəqədi rayonu (12.60)
V	Göygöl rayonu (88.98), Şərur rayonu (85.11), Naxçıvan şəhəri (84.64), Şahbuz rayonu (83.90), Balakən rayonu (83.45), Şəmkir rayonu (83.43), Ağcabədi rayonu (82.57), Ağstafa rayonu (82.17), Daşkəsən rayonu (81.74), Qazax rayonu (81.69), Babək rayonu (81.41), Samux rayonu (81.25), Gəncə şəhəri (81.20)	Göygöl rayonu (77.42), Samux rayonu (76.81), Şəmkir rayonu (75.29), Ağcabədi rayonu (73.90), Zərdab rayonu (73.81), Gəncə şəhəri (73.01), Şərur rayonu (71.94), Ağdaş rayonu (71.70), Naxçıvan şəhəri (71.60), Ağstafa rayonu (68.78), Bərdə rayonu (67.93), Ucar rayonu (67.92), Şahbuz rayonu (67.23)	Gəncə şəhəri (76.50), Abşeron rayonu (73.33), Bakı ş. Suraxanı rayonu (69.92), Bakı ş. Binəqədi rayonu (61.90), Xaçmaz rayonu (60.87), Bakı ş. Xəzər rayonu (57.97), Bakı ş. Nizami rayonu (57.69), Bakı ş. Sabunçu rayonu (56.62), Sumqayıt şəhəri (55.97), Qusar rayonu (55.74)	Gəncə şəhəri (70.66), Bakı ş. Xəzər rayonu (48.24), Bakı ş. Xətai rayonu (47.35), Abşeron rayonu (46.15), Bakı ş. Binəqədi rayonu (44.72), Qusar rayonu (44.59), Bakı ş. Yasamal rayonu (44.42), Bakı ş. Nəsimi rayonu (41.95), Xaçmaz rayonu (40.91), Bakı ş. Suraxanı rayonu (40.14)

Qeyd: Seçmədə qəbul kampaniyasında iştirak etmək üçün müraciət edənlərin sayı Azərbaycan bölməsində 100-dən, rus bölməsində isə 50-dən az olmayan bölgələr iştirak edir.

I–IV ixtisas qrupları üzrə qəbul imtahanlarında abituriyentlərin 42.8%-i 200-dən az bal toplamışdır

I–IV ixtisas qrupları üzrə qəbul imtahanlarında iştirak edən və qəbul olan abituriyentlərin bal göstəriciləri aşağıdakı diaqramlarda (bax: şəkil 1.13 və 1.14) təsvir edilib. Qəbulda toplanılması mümkün olan maksimal bal 700-dür. 0-700 bal diapazonunu şərti olaraq (0-200), (200-300), (300-500), (500-700) intervallarına bölərək, ənənəvi "2","3","4","5" qiymətləri ilə analogiyasını yaratsaq, görərik ki, bu il abituriyentlərin 42.8 faizi imtahandan "2", 21.0%-i "3", 26.6%-i "4", 9.7%-i isə "5" qiymət alıb (bax: şəkil 1.13). Ötən il bu göstəricilər, uyğun olaraq, 40.2%, 20.4%, 28.3%, 11.1% olmuşdur. Göründüyü kimi, bu il "2" və "3" qiymət alanların faizi nisbətən artmış, "4" və "5" qiymət alanların faizi isə nisbətən azalmışdır. Təbii ki, qəbul imtahanlarında iştirak edən abituriyentlərin topladıqları balların paylanması strukturunda və qəbul planında baş verən dəyişikliklər qəbul olan abituriyentlərin ballarının paylanmasında da öz əksini tapmışdır. Qəbul olanların topladıqları balların paylanma diaqramından (şəkil 1.14) görünür ki, onların 27.1%-ni "3", 50.3%-ni "4", 17.8%-ni isə "5" qiymət alanlar təşkil edib. Ötən il bu göstəricilər, uyğun olaraq 25.4%, 49.5%, 19.2% olub.

V ixtisas qrupu üzrə ərizə verib qəbul imtahanında (cari ilin məzunları üçün tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında) iştirak edən və qəbul olan abituriyentlərin bal göstəriciləri isə aşağıdakı diaqramlarda (bax: şəkil 1.15 və 1.16) təsvir edilib. Bu imtahanlarda toplanılması mümkün olan maksimal bal 300-dür. Şəkil 1.15-dən göründüyü kimi, qəbul (buraxılış) imtahanlarında iştirak edən abituriyentlərin 49.62%-nin topladığı bal 100-dən aşağıdır. Qəbul olan abituriyentlər arasında 30-dan az bal toplayan yoxdur (şəkil 1.16). Qəbul imtahanlarında iştirak edənlərin təxminən yarısının (49.62%) imtahan nəticəsi 100 və daha aşağı bal intervallarında yerləşdiyi halda, qəbul olan abituriyentlərin böyük əksəriyyətinin nəticəsi, əsasən, 100 və daha yuxarı bal intervallarında olub (89.73%).

Təəssüflə qeyd etmək lazımdır ki, bu il Tərtər, Samux, Daşkəsən, Ağdaş, Ağsu, Astara, Göygöl rayonlarının və Gəncə şəhərinin cari il məzunlarını təmsil edən abituriyentlərin 20%-dən çoxunun qəbul imtahanlarında topladığı bal 100-dən aşağı olmuşdur.

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(I–IV qruplar üzrə)



Şəkil 1.13

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(I–IV qruplar üzrə)



Şəkil 1.14

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(V qrup üzrə)



Şəkil 1.15

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(V qrup üzrə)



Şəkil 1.16

Məlum olduğu kimi, "Abituriyentin ərizəsi" formasına ayrı-ayrı fənlər üzrə attestat qiymətləri də daxil edilir. Ərizədə qeyd olunan qiymətlər əsasında abituriyentlərin orta attestat qiymətləri hesablanaraq, onların qəbul imtahanlarında topladıqları ballarla müqayisəsi aparılmışdır. Aşağıda attestat qiymətlərinə görə müxtəlif səviyyədə yerləşən cari ilin məzunlarının qəbul imtahanlarında topladıqları balların paylanma cədvəli təqdim edilir (bax: səh. 48, cədvəl 1.19). Bu cədvələ əsaslanaraq, attestatda bütün qiymətləri "5" olan abituriyentlərlə bütün qiymətləri "3" olan abituriyentlərin imtahan ballarını müqayisə edək. Tam orta məktəbi bütün fənlərdən "3" qiymətlə başa vuran məzunların 94.13%-nin qəbul imtahanlarındakı nəticələri də çox zəif – 0–200 bal intervalında olub. "5" qiymətlə bitirən məzunların isə yalnız 32.06%-i attestat qiymətlərini doğrulda bilib. Bu da məktəblərdə verilən aşağı qiymətlərin obyektiv olduğunu, yüksək qiymətlərin isə nisbətən şişirdildiyini göstərir.

Əlbəttə, obyektiv qiymətləndirilmə aparılarsa, təhsilin bir pilləsində əldə olunmuş nailiyyətlər digər pilləyə keçiddə nəzərə alınmalıdır. İndiki halda isə ali təhsil müəssisələrinə qəbul zamanı attestat qiymətləri nəzərə alınaraq bunun əsasında abituriyentin nəticəsinə hər hansı bal əlavə edilərsə, əla qiymətlərini doğrultmayan "əlaçılar" öz biliyi hesabına bal toplayanları sıxışdırıb onları ali təhsil müəssisələrinə qəbulda üstələyə bilərlər. Digər tərəfdən, bu cür addımın subyektivliyə bir qədər də yol açmayacağına zəmanət vermək çətindir. Odur ki, biz məktəb və qəbul göstəriciləri arasında yüksək korrelyasiya ($r>0.9$) olmayanadək attestat qiymətlərinin qəbulda əlavə bal kimi nəzərə alınmasının tərəfdarı deyilik.

Qiymətləndirmə ilə bağlı qeyd olunan problem digər amillərlə yanaşı, həm də tam orta təhsil standartlarının yerlərdə eyni qaydada tətbiq edilməməsindən irəli gəlir. Qiymət meyarlarının məktəblərdə bir-birindən ciddi fərqlənməsi nəticəsində eyni hazırlıqlı şagirdin biliyi bir məktəbdə (rayonda) "əla", digər məktəbdə (rayonda) "kafi" qiymətləndirilir. Dövlət İmtahan Mərkəzi ümumtəhsil müəssisələrində qiymətləndirmənin vahid standartlar əsasında aparılması işinə kömək məqsədilə məktəb proqramlarına uyğun olaraq şagirdlərin biliyinin yoxlanılması və qiymətləndirilməsi üçün fənlər üzrə test kitabları nəşr edib. Kitablar Təhsil Nazirliyi tərəfindən dərs vəsaiti kimi təsdiq edilib. Onlarda qiymətləndirmənin 5 və 9 ballıq sistemdə standartları da təqdim olunub ki, hər bir məktəb bunun əsasında öz şagirdlərinin biliyini vahid qiymətləndirmə sistemi ilə ölçmək imkanı əldə etsin.

Cədvəl 1.19

ATTESTAT QİYMƏTLƏRİ VƏ QƏBUL İMTAHANLARINDA TOPLADIQLARI BALLAR ÜZRƏ ABİTURİYENTLƏRİN PAYLANMASI

SEÇMƏLƏR		CƏMİ	BAL İNTERVALLARI				
			0-100	100-200	200-300	300-500	500-700
İmtahan iştirakçıları	sayı	67464	11126	17756	14133	17911	6538
	faizi	100.0	16.49	26.32	20.95	26.55	9.69
İmtahan iştirakçıları (2020-ci ilin məzunları)	sayı	56666	7436	13824	12240	16732	6434
	faizi	100.0	13.12	24.40	21.60	29.53	11.35
2020-ci ilin məzunları (əlaçılar)	sayı	10732	168	1026	1772	4325	3441
	faizi	100.0	1.57	9.56	16.51	40.30	32.06
2020-ci ilin məzunları (orta attestat balı 4.5-5 intervalında yerləşənlər, 4.5 daxil olmaqla)	sayı	16811	658	3056	3988	6834	2275
	faizi	100.0	3.91	18.18	23.72	40.65	13.53
2020-ci ilin məzunları (orta attestat balı 4-4.5 intervalında yerləşənlər, 4 daxil olmaqla)	sayı	15512	1922	4709	4056	4196	629
	faizi	100.0	12.39	30.36	26.15	27.05	4.05
2020-ci ilin məzunları (orta attestat balı 3.5-4 intervalında yerləşənlər)	sayı	7178	1697	2771	1579	1054	77
	faizi	100.0	23.64	38.60	22.00	14.68	1.07
2020-ci ilin məzunları (orta attestat balı 3-3.5 intervalında yerləşənlər, 3.5 daxil olmaqla)	sayı	4873	2084	1802	717	265	5
	faizi	100.0	42.77	36.98	14.71	5.44	0.10
2020-ci ilin məzunları (orta attestat balı "3" olanlar)	sayı	1073	734	276	48	14	1
	faizi	100.0	68.41	25.72	4.47	1.30	0.09

Fənlər üzrə məktəb qiymətləri ilə qəbul imtahanlarında toplanılan balların müqayisəsi üçün abituriyentlərin hər bir fənn üzrə topladıqları balların məktəb qiymətləri ilə korrelyasiyası da araşdırılıb. Məlum olub ki, ümumtəhsil müəssisələrində nisbətən obyektiv qiymətləndirmə ana dili, riyaziyyat və xarici dil fənləri üzrə aparılır. Bu fənlər üzrə korrelyasiya əmsalı 0.47-0.49 intervalındadır. 2014-cü ildə xarici dil üzrə korrelyasiya əmsalı 0.42-yə bərabər olub. Amma son altı ildə buraxılış imtahanı fənləri siyahısına xarici dil fənni də daxil edildikdən sonra bu göstərici 0.48-ə yüksəlib. Ədəbiyyat, tarix, fizika, kimya, biologiya və coğrafiya fənləri üzrə korrelyasiya əmsalları 0.35-0.44 intervalındadır.

2014-2020-Cİ İLLƏRDƏ QƏBUL İMTAHANLARINDA TOPLADIQLARI BALLAR ÜZRƏ ABİTURİYENTLƏRİN PAYLANMASININ MÜQAYİSƏSİ (BÜTÜN MƏZUNLAR NƏZƏRƏ ALINMAQLA)



Şəkil 1.17

Məlum olduğu kimi, 2015-ci ildən V qrup və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul cari ilin məzunları üçün buraxılış imtahanlarının nəticələri əsasında həyata keçirilib. Ona görə də V qrup ixtisaslarına və ya orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər I–IV qruplar üzrə imtahanlarda iştirak etməyiblər. Nəticədə, 2014-cü illə müqayisədə 2015, 2016 və 2017-ci illərdə I–IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən cari il məzunlarının respublika üzrə bütün məzunların sayındakı payı 65.67%-dən müvafiq olaraq 58.71, 59.16 və 63.34%-dək azalmış, 2018 və 2019-cu illərdə əksinə olaraq bu pay müvafiq olaraq, 67.33 və 72.41 faizə qədər artmış, 2020-ci ildə isə qismən azalaraq 70.97% təşkil etmişdir. Ötən illər ərzində xüsusi qabiliyyət tələb edən ixtisaslara (V qrup) və orta ixtisas təhsili müəssisələrinə qəbul olanların əksəriyyətinin qəbul imtahanında 0–100 və 100–200 intervalında bal toplayanlardan ibarət olduqlarını nəzərə alsaq, deyə bilərik ki, 2014-cü illə müqayisədə 2015, 2016, 2017, 2018, 2019 və 2020-ci illərdə qəbul imtahanı ballarının paylanma spektrinə daxil olan orta və yüksək bal intervallarında (200–300, 300–500, 500–700) heç bir əhəmiyyətli dəyişiklik baş verməməlidir. Doğrudan da, 1.17 saylı şəkildən göründüyü kimi, ciddi dəyişiklik yalnız 0–100 intervalında bal toplayanların nisbi sayındadır. 200–300, 300–500 və 500–700 intervallarında bal toplayanların mütləq saylarını təhlil etdikdə görürük ki, 2015, 2016, 2017, 2018, 2019 və 2020-ci illərdə bu intervallarda nəticə göstərənlərin sayı 2014-cü illə müqayisədə qismən artıb (2014-cü ildə bu intervallar üzrə nəticə göstərən abituriyentlərin sayı, müvafiq olaraq, 9509, 12863 və 5440-a, 2015-ci ildə 9702, 13182 və 6153-ə, 2016-cı ildə 9713, 13589 və 6501-ə, 2017-ci ildə 9256, 14088 və 6865-ə, 2018-ci ildə 10036, 15049 və 8062-yə, 2019-cu ildə 11810, 17854 və 7266-ya, 2020-ci ildə isə 12240, 16732 və 6434-ə bərabər olub).

Bundan əlavə, hər bir fənn üzrə attestat qiyməti "kafi" və "əla" olan abituriyentlərin qəbul imtahanlarında müvafiq fəndən topladıqları nisbi balların bal intervalları üzrə paylanma histoqramları təhlil edilib. Məlum olub ki, fənlər üzrə attestat qiymətləri "3" olan abituriyentlərin əksəriyyəti qəbul imtahanlarında da analoji nəticə göstəriblər. Belə ki, bu abituriyentlərin ayrı-ayrı fənlər üzrə 63–97%-i 0–40 intervalında nisbi bal

toplamışdır. Deməli, yuxarıda da qeyd etdiyimiz kimi, ümumi təhsil məktəblərində verilən aşağı qiymətlər müəyyən edilmiş vahid standartlara xeyli dərəcədə uyğundur. Ancaq, təəssüf ki, "əla" ilə qiymətləndirmədə bunun əksini görürük (bax: cədvəl 1.20). Bu, özünü fizika (I, IV qruplar), kimya (I, IV qruplar) və coğrafiya (II qrup) fənləri üzrə qiymətləndirmədə daha qabarıq göstərir. Fizika fənnindən əlaçı abituriyentlərin 40.10%-nin, kimya fənnindən 30.95%-nin və coğrafiya fənnindən 27.22%-nin uyğun fənlər üzrə qəbul imtahanının II mərhələsində topladıqları nisbi balları 20-dən az olmuşdur. Əlaçı abituriyentlərin 80-100 bal intervalındakı nəticələrinə nəzər saldıqda görürük ki, bu abituriyentlərin coğrafiya fənni üzrə yalnız 7.04%-i, fizika fənni üzrə 7.78%-i və kimya fənni üzrə isə 17.16%-i 80–100 bal intervalında nəticə göstərərək özlərinin attestat qiymətlərini doğruldublar. Belə zəif nəticə göstərənlərin sayının çox olması bu fənlərin aşağı səviyyədə tədris olunması və qiymətləndirmədə standartlara əməl edilməməsi ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, burada təhlil olunan göstəricilər qiymətləndirmənin respublika üzrə vəziyyətini ifadə edir. Lakin hər bir bölgənin fərqli göstəriciləri də ola bilər. Biz, sadəcə, bu sahədə problemlərin olduğunu və onun təhlil edilərək aydınlaşdırıla bilinməsi imkanlarını göstərdik. Bu baxımdan, hər bir bölgə müvafiq qaydada nəticələrini təhlil edib mövcud problemlərini üzə çıxara və onların həll olunması üçün tədbirlər görə bilər. Bölgələrdə bu işin, hətta müəllimlər səviyyəsində də təhlil edilməsi mümkündür.

Cədvəl 1.20

FƏNLƏR ÜZRƏ ATTESTAT QİYMƏTLƏRİ "ƏLA" OLAN ABİTURİYENTLƏRİN NİSBİ BAL İNTERVALLARINA GÖRƏ PAYLANMASI (2020-Cİ İLİN MƏZUNLARI)

FƏNN		CƏMİ	BAL İNTERVALLARI				
			0 – 20	20 – 40	40 – 60	60 – 80	80 – 100
I mərhələ üzrə							
Ana dili	sayı	32651	436	3320	8780	12774	7341
	faizi	100.00	1.34	10.17	26.89	39.12	22.48
Riyaziyyat	sayı	24823	3698	6991	5960	4614	3560
	faizi	100.00	14.90	28.16	24.01	18.59	14.34
Xarici dil	sayı	28494	2195	7149	7694	6529	4927
	faizi	100.00	7.70	25.09	27.00	22.91	17.29
II mərhələ üzrə							
Ana dili (III qrup)	sayı	11496	565	1573	2449	3249	3660
	faizi	100.00	4.91	13.68	21.30	28.26	31.84
Ədəbiyyat (III qrup)	sayı	11796	1281	1921	3152	3721	1721
	faizi	100.00	10.86	16.29	26.72	31.54	14.59
Riyaziyyat (I, II qruplar)	sayı	13978	3218	3159	3147	2523	1931
	faizi	100.00	23.02	22.60	22.51	18.05	13.81
Tarix* (II, III qruplar)	sayı	15576	3382	3199	3362	2883	2750
	faizi	100.00	21.71	20.54	21.58	18.51	17.66
Fizika (I, IV qruplar)	sayı	14040	5630	3477	2310	1531	1092
	faizi	100.00	40.10	24.76	16.45	10.90	7.78
Kimya (I, IV qruplar)	sayı	13798	4271	2782	2342	2035	2368
	faizi	100.00	30.95	20.16	16.97	14.75	17.16
Biologiya (IV qrup)	sayı	3539	410	646	842	872	769
	faizi	100.00	11.59	18.25	23.79	24.64	21.73
Coğrafiya (II qrup)	sayı	6364	1732	1610	1488	1086	448
	faizi	100.00	27.22	25.30	23.38	17.06	7.04

* Qeyd: Tarix fənnindən göstəricilər Azərbaycan tarixi və ümumi tarix fənlərinin hər ikisindən "əla" qiymət alan abituriyentlərin göstəriciləri əsasında müəyyənləşmişdir.

Abituriyentlərin ballarının paylanma histoqramlarında assimmetriya mövcuddur
Ortastatistik abituriyentə nəzərən zəif nəticə göstərənlər sayca üstünlük təşkil edir

Qəbul imtahanlarının nəticələri əsasında Azərbaycan və rus bölmələri üzrə ayrılıqda abituriyentlərin topladıqları balların I–IV və V ixtisas qrupları üzrə paylanması müəyyənləşdirilib. Onlar cədvəl şəklində tərtib olunub (1.21, 1.22, 1.23 və 1.24 saylı cədvəllərə bax) və histoqramları (1.1, 1.2, 1.3, 1.4 saylı qrafiklərə bax) qurulub.

Qrafiklərdə Azərbaycan və rus bölmələri üzrə ayrılıqda abituriyentlərin I–IV və V ixtisas qrupları üzrə topladıqları balların paylanma histoqramları və ədədi xarakteristikaları: riyazi gözləmə (orta qiymət) – M, abituriyentlərin seçməsini iki bərabər hissəyə ayıran bal (mediana) – Me, abituriyentlərin ballarının paylanmasında rast gəlmə ehtimalı ən yüksək olan bal (moda) təqdim edilib. Təhlil göstərir ki, I–IV ixtisas qruplarında hər iki bölmə üzrə abituriyentlərin ballarının paylanma histoqramları sağtərəfli asimmetriyaya malikdir. Bu o deməkdir ki, abituriyentlərin tam seçimində orta nəticə göstərən (Azərbaycan bölməsində 259.79, rus bölməsində 267.84 bal) abituriyentlərə nəzərən zəif nəticə göstərənlər sayca üstünlük təşkil edir. Bununla belə, Azərbaycan və rus bölmələri abituriyentlərinin histoqramlarında fərqli cəhətlər mövcuddur. Bunlar aşağıdakılardır:

1. Azərbaycan bölməsi ilə müqayisədə rus bölməsində abituriyentlərin ballarının paylanma histoqramlarında asimmetriya nisbətən zəifdir. Azərbaycan və rus bölmələri abituriyentlərinin orta bal göstəriciləri arasındakı fərq ötən ilə nəzərən 4.44-dən 8.05-ə qədər artmışdır. Azərbaycan bölməsində abituriyentlərin 56.82, rus bölməsində isə 61.20%-i 200-dən çox bal toplamışdır. Digər tərəfdən, imtahanda iştirak edənlərin yarısının Azərbaycan bölməsində 230.76, rus bölməsində isə 242.66 baldan zəif nəticə göstərməsi, hər iki bölmədə abituriyentlərin hazırlığının günün tələbləri (dövlət tədris proqramları və təhsil standartları) səviyyəsində olmadığını təsdiqləyir.

2. Abituriyentlərin topladıqları balların ortastatistik* abituriyentin topladığı bala (seçmənin riyazi gözləmə qiymətinə) nəzərən səpələnməsi (paylanmanın dəyişkənliyi) ortakvadratik meyillə xarakterizə edilir. Ortakvadratik meyilin qiymətləri bölmələr üzrə test imtahanlarında toplanılan balların paylanmasının ədədi xarakteristikaları cədvəllərində göstərilib. Azərbaycan bölməsi üzrə bu göstərici 157.16, rus bölməsi üzrə 146.79 bala bərabərdir. Əslində, Azərbaycan və rus bölmələri üzrə toplanılan balların riyazi gözləmə (orta) qiymətləri bir-birindən fərqli olduğundan onların ortakvadratik meyillərini bilavasitə müqayisə etmək düzgün deyil. Müqayisə ortakvadratik meyillərin riyazi gözləmə (orta) qiymətlərinə nəzərən faizləri (variasiya əmsalı) əsasında aparılmalıdır. Belə müqayisə isə göstərir ki, Azərbaycan bölməsində abituriyentlərin topladıqları balların səpələnmə göstəricisi riyazi ortanın 60.50%-ni təşkil etdiyi halda, rus bölməsində 54.81%-ni təşkil edir. Azərbaycan bölməsində ortastatistik abituriyentin topladığı bala (riyazi ortaya) nəzərən səpələnmənin yüksək olması bu bölmənin qəbul imtahanlarında iştirak edən abituriyentlərinin bilikləri arasında daha ciddi qütbləşmənin mövcud olduğunu göstərir.

V ixtisas qrupu üzrə abituriyentlərin tam seçməsində orta bal ətrafında nəticə göstərən (Azərbaycan bölməsində 109.78, rus bölməsində 120.58 bal) abituriyentlərə nəzərən zəif nəticə göstərən abituriyentlər sayca üstünlük təşkil edirlər. Azərbaycan və rus bölmələri abituriyentlərinin histoqramlarında bəzi fərqli cəhətlər mövcuddur. Belə ki, Azərbaycan bölməsi ilə müqayisədə rus bölməsi abituriyentlərinin ballarının paylanma histoqramlarında orta nəticə göstərən abituriyentlər daha çox üstünlük təşkil edir. İmtahanda iştirak edənlərin yarısı Azərbaycan bölməsində 99.75, rus bölməsində isə 110.74 baldan aşağı nəticə göstərib. Azərbaycan bölməsi üzrə ortakvadratik meyil 55.97, rus bölməsi üzrə 55.90 bala bərabərdir. Ortakvadratik meyillərin riyazi gözləmə (orta) qiymətlərinə nəzərən faizləri (variasiya əmsalı) əsasında müqayisə göstərir ki, Azərbaycan bölməsində abituriyentlərin topladıqları balların səpələnmə göstəricisi riyazi ortanın 50.98%-ni təşkil etdiyi halda, rus bölməsində yalnız 46.36%-ni təşkil edir. Göründüyü kimi, ortastatistik abituriyentin topladığı bala (riyazi ortaya) nəzərən səpələnmə hər iki bölmə üzrə yüksəkdir. Bu da o deməkdir ki, qəbul imtahanlarında iştirak edən abituriyentlərinin bilikləri arasında ciddi qütbləşmənin mövcud olduğunu göstərir.

Qəbul imtahanlarının nəticələri əsasında ixtisas qrupları üzrə də abituriyentlərin topladıqları balların paylanması müəyyənləşdirilib. Onlara uyğun olan statistik sıralar jurnalın əlavələr hissəsində təqdim olunub (cədvəllər 6.10-6.19, bax: səh. 441-444).

* Burada ortastatistik abituriyent dedikdə, I-IV ixtisas qrupları üzrə qəbul imtahanlarında iştirak edən abituriyentlərin bu imtahanda nümayiş etdirdikləri bilik və bacarıq baxımından ümumiləşdirilmiş obrazı nəzərdə tutulur.

Bölmə: Azərbaycan (I–IV qruplar)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları

Riyazi gözləmə:	259.79	Minimal bal :	0
Ortakvadratik meyil:	157.16	Maksimal bal :	700.0
Moda :	90	Abituriyentlərin sayı :	61990
Mediana :	230.76		

Cədvəl 1.21

Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	30	0.05	0.05	220 - 240	2669	4.31	51.99	460 - 480	1247	2.01	88.36
0 - 20	271	0.44	0.49	240 - 260	2574	4.15	56.14	480 - 500	1160	1.87	90.23
20 - 40	644	1.04	1.52	260 - 280	2436	3.93	60.07	500 - 520	1086	1.75	91.98
40 - 60	2358	3.80	5.33	280 - 300	2340	3.77	63.85	520 - 540	970	1.56	93.55
60 - 80	3504	5.65	10.98	300 - 320	2156	3.48	67.32	540 - 560	888	1.43	94.98
80 - 100	3702	5.97	16.95	320 - 340	2110	3.40	70.73	560 - 580	793	1.28	96.26
100 - 120	3578	5.77	22.72	340 - 360	1840	2.97	73.70	580 - 600	703	1.13	97.39
120 - 140	3426	5.53	28.25	360 - 380	1806	2.91	76.61	600 - 620	601	0.97	98.36
140 - 160	3275	5.28	33.53	380 - 400	1713	2.76	79.37	620 - 640	460	0.74	99.10
160 - 180	3038	4.90	38.44	400 - 420	1620	2.61	81.99	640 - 660	326	0.53	99.63
180 - 200	2944	4.75	43.18	420 - 440	1417	2.29	84.27	660 - 680	171	0.28	99.90
200 - 220	2789	4.50	47.68	440 - 460	1286	2.07	86.35	680 - 700	59	0.10	100.00

Qrafik 1.1



Bölmə: Rus (I–IV qruplar)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları

Riyazi gözləmə :	267.84	Minimal bal :	0
Ortakvadratik meyil :	146.79	Maksimal bal :	686.7
Moda :	130	Abituriyentlərin sayı :	5474
Mediana :	242.66		

Cədvəl 1.22

Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	2	0.04	0.04	220 - 240	280	5.12	49.34	460 - 480	105	1.92	89.48
0 - 20	12	0.22	0.26	240 - 260	271	4.95	54.29	480 - 500	100	1.83	91.30
20 - 40	25	0.46	0.71	260 - 280	263	4.80	59.10	500 - 520	74	1.35	92.66
40 - 60	117	2.14	2.85	280 - 300	213	3.89	62.99	520 - 540	86	1.57	94.23
60 - 80	210	3.84	6.69	300 - 320	216	3.95	66.93	540 - 560	78	1.42	95.65
80 - 100	272	4.97	11.66	320 - 340	205	3.74	70.68	560 - 580	63	1.15	96.80
100 - 120	268	4.90	16.55	340 - 360	178	3.25	73.93	580 - 600	58	1.06	97.86
120 - 140	315	5.75	22.31	360 - 380	175	3.20	77.13	600 - 620	56	1.02	98.89
140 - 160	296	5.41	27.71	380 - 400	149	2.72	79.85	620 - 640	26	0.47	99.36
160 - 180	297	5.43	33.14	400 - 420	154	2.81	82.66	640 - 660	23	0.42	99.78
180 - 200	310	5.66	38.80	420 - 440	135	2.47	85.13	660 - 680	9	0.16	99.95
200 - 220	297	5.43	44.23	440 - 460	133	2.43	87.56	680 - 700	3	0.05	100.00

Qrafik 1.2



Bölmə: Azərbaycan (V qrup)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları			
Riyazi gözləmə :	109.78	Minimal bal :	0.0
Ortakvadratik meyil :	55.97	Maksimal bal :	300.0
Moda :	65	Abituriyentlərin sayı :	53244
Mediana :	99.75		

Cədvəl 1.23

Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	48	0.09	0.09	100 - 110	3491	6.56	56.73	210 - 220	844	1.59	95.30
0 - 10	36	0.07	0.16	110 - 120	3201	6.01	62.75	220 - 230	620	1.16	96.46
10 - 20	142	0.27	0.42	120 - 130	2950	5.54	68.29	230 - 240	506	0.95	97.41
20 - 30	802	1.51	1.93	130 - 140	2567	4.82	73.11	240 - 250	448	0.84	98.25
30 - 40	2391	4.49	6.42	140 - 150	2174	4.08	77.19	250 - 260	321	0.60	98.85
40 - 50	3630	6.82	13.24	150 - 160	2073	3.89	81.08	260 - 270	274	0.51	99.37
50 - 60	4018	7.55	20.79	160 - 170	1787	3.36	84.44	270 - 280	188	0.35	99.72
60 - 70	4087	7.68	28.46	170 - 180	1528	2.87	87.31	280 - 290	108	0.20	99.92
70 - 80	4028	7.57	36.03	180 - 190	1368	2.57	89.88	290 - 300	40	0.08	100.00
80 - 90	3821	7.18	43.20	190 - 200	1102	2.07	91.95				
90 - 100	3713	6.97	50.18	200 - 210	938	1.76	93.71				

Qrafik 1.3



Bölmə: Rus (V qrup)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları			
Riyazi gözləmə :	120.58	Minimal bal :	0.0
Ortakvadratik meyil :	55.90	Maksimal bal :	284.8
Moda :	105	Abituriyentlərin sayı :	3662
Mediana :	110.74		

Cədvəl 1.24

Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	4	0.11	0.11	100 - 110	284	7.76	49.56	210 - 220	77	2.10	94.18
0 - 10	2	0.05	0.16	110 - 120	217	5.93	55.49	220 - 230	59	1.61	95.79
10 - 20	3	0.08	0.25	120 - 130	207	5.65	61.14	230 - 240	47	1.28	97.08
20 - 30	28	0.76	1.01	130 - 140	181	4.94	66.08	240 - 250	31	0.85	97.92
30 - 40	94	2.57	3.58	140 - 150	189	5.16	71.25	250 - 260	29	0.79	98.72
40 - 50	171	4.67	8.25	150 - 160	158	4.31	75.56	260 - 270	29	0.79	99.51
50 - 60	211	5.76	14.01	160 - 170	159	4.34	79.90	270 - 280	15	0.41	99.92
60 - 70	225	6.14	20.15	170 - 180	142	3.88	83.78	280 - 290	3	0.08	100.00
70 - 80	267	7.29	27.44	180 - 190	112	3.06	86.84	290 - 300	0	0.00	100.00
80 - 90	252	6.88	34.33	190 - 200	109	2.98	89.81				
90 - 100	274	7.48	41.81	200 - 210	83	2.27	92.08				

Qrafik 1.4



Məlum olduğu kimi 2019-cu ildən etibarən, orta ixtisas təhsili pilləsi üzrə "subbakalavr" peşə-ixtisas dərəcəsi almış şəxslər (subbakalavrlar) qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq hüququna malik olmuşlar. Onlar yalnız orta ixtisas təhsili səviyyəsində təhsil aldıqları tədris dilinə və bitirdikləri ixtisasa uyğun olan ixtisasları seçə biliblər. Subbakalavrlar xarici dil fənni üzrə əlavə tələblər qoyulan ixtisasları seçə bilməyiblər və qəbul imtahanında iştirak edərək müsabiqə şərtlərini ödəyən abituriyentlərin müsabiqəsi başa çatdıqdan sonra subbakalavrların müsabiqəsi aparılmışdır. Bununla yanaşı subbakalavrlara abituriyent kimi qəbul imtahanında iştirak etmək imkanı da yaradılmışdır. Qəbul imtahanında iştirak etmiş subbakalavrlar isə öz istəklərindən asılı olaraq, həm imtahanda topladığı bal ilə ümumi qaydada (abituriyent kimi), həm də subbakalavr kimi orta ixtisas təhsili səviyyəsində bitirdiyi ixtisasa uyğun ali təhsil pilləsinin ixtisasları üzrə keçirilən müsabiqədə iştirak edə bilmişlər.

Qəbul imtahanında iştirak edən subbakalavrların bütövlükdə və imtahanın ayrı-ayrı mərhələləri üzrə topladıqlar balların paylanmaları 1.5, 1.6 və 1.7 saylı qrafiklərdə göstərilmişdir. Qrafiklərdən də göründüyü kimi subbakalavrların imtahan nəticələri zəif olmuş və histoqramlar sağtərəfli assimmetriyaya malik olmuşlar.

İmtahanın I mərhələsində iştirak edən 1185 subbakalavrların topladıqları balların riyazi gözləməsi 87.66-ya bərabər olmuş və onların yarısı 82.90 baldan az bal toplamışdır. V ixtisas qrupuna müsabiqənin imtahanın I mərhələsinin nəticələri əsasında aparıldığını və bu mərhələdə ən azı 60 bal toplayanların müsabiqəyə buraxıldığını (Xoreoqrafiya sənəti istiqaməti üzrə ən azı 30 bal toplayanlar müsabiqəyə buraxılıb) nəzərə alsaq, imtahanda iştirak edən subbakalavrların 23.54%-i (279 nəfər) müsabiqə şərtini ödəməmişdir.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏN SUBBAKALAVRLARIN TOPLADIQLARI BALLARIN PAYLANMASI



Qrafik 1.5

1.6 saylı qrafikdə subbakalavrların imtahanın II mərhələsində topladıqları balların paylanması təqdim olunmuşdur. Göründüyü kimi, subbakalavrların yarısı mümkün olan 400 baldan heç 42-sini toplaya bilməmiş və riyazi gözləmə 59.95-ə bərabər olmuşdur. I-IV ixtisas qruplara aid olan ixtisasların müsabiqəsində iştirak etmək üçün qoyulan minimal tələbi (imtahanın II mərhələsində ən azı 100 bal toplayanlar müsabiqəyə buraxılıblar) bu mərhələdə abituriyent kimi iştirak edən subbakalavrların cəmi 21.32%-i (123 nəfər) ödəmiş, qalan 78.68%-i isə 100-dən az bal toplayaraq minimal tələbi ödəyə bilməmişdir.

1.7 saylı qrafikdə də qəbul imtahanının hər iki mərhələsində iştirak edən subbakalavrların topladıqları balların paylanması təqdim olunmuşdur. Onu da qeyd edək ki, subbakalavrların ali təhsil müəssisələrinə qəbulu üçün müsabiqə onların diplom balları əsasında aparılmışdır. Apardığımız araşdırma göstərir ki, qəbul imtahanının I mərhələsində iştirak edən subbakalavrların diplom balları ilə onların imtahanda topladıqları ballar arasında heç bir stoxastik əlaqə yoxdur və korrelyasiya əmsalının qiyməti 0.25-ə bərabərdir. Bu isə diplom ballarının obyektiv olmadığını və subbakalavrların ali təhsil müəssisələrinə onların hazırlıq səviyyələrinə görə deyil, təsadüfi qaydada aparılmasını göstərir.

Subbakalavrların I-IV ixtisas qrupları üzrə əldə etdikləri imtahan nəticələrini tam seçməylə (imtahanda iştirak edən abituriyentlər və subbakalavrlar (abituriyent kimi iştirak edənlər) birlikdə) müqayisə etdikdə, subbakalavrların nəticələrinin həddindən artıq zəif olduğunun şahidi oluruq. I-IV ixtisas qrupları üzrə imtahanda abituriyent kimi iştirak edən subbakalavrların topladıqları balların riyazi gözləməsi 61.47 bal olduğu halda, tam seçmədə bu göstərici 4.24 dəfə böyük olub (260.45 bal). Onu da qeyd edək ki, imtahanda iştirak edən subbakalavrların yarısı 42.50 baldan aşağı nəticə göstərib, tam seçmə üzrə bu göstərici isə 231.88-ə bərabər olub. Subbakalavrların ixtisas seçimində iştirak etdiyini nəzərə alsaq, onların göstəricilərini ixtisas seçimində iştirak edən abituriyentlərlə müqayisə etmək daha ədalətli olardı və burada biz müqayisənin subbakalavrlar üçün daha acınacaqlı olduğunu görürük. Belə ki, ixtisas seçimində iştirak edən abituriyentlərin qəbul imtahanında topladıqları balların riyazi gözləməsi (349.86) imtahanda iştirak edən subbakalavrların analoji göstəricisindən 5.69 dəfə böyükdür.

Bütün bu qeyd olunanlar onu göstərir ki, imtahan vermədən ali təhsil müəssisələrinə qəbul olmaq imkanı əldə etmiş subbakalavrların hazırlıq səviyyələri imtahanın nəticələri əsasında ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin hazırlıq səviyyələrindən çox aşağıdır. Bu isə öz növbəsində ali təhsil müəssisələrində tədris zamanı müəyyən problemlərin ortaya çıxmasına səbəb ola bilər. Fikrimizcə, ali təhsil müəssisələrində subbakalavr kimi qəbul olanlar üçün xüsusi tədris planı hazırlanmalıdır və onların mütəxəssis kimi hazırlığı bu tədris planı çərçivəsində, onlarla daha intensiv məşğul olmaqla həyata keçirilməlidir.

QƏBUL İMTAHANININ II MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏN SUBBAKALAVRLARIN TOPLADIQLARI BALLARIN PAYLANMASI



Qrafik 1.6

QƏBUL İMTAHANININ HƏR İKİ MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏN SUBBAKALAVRLARIN ÜMUMİLİKDƏ TOPLADIQLARI BALLARIN PAYLANMASI



Qrafik 1.7

Müasir dünyada inkişaf və iqtisadi yüksəliş üçün ən zəruri amillərdən biri ölkələrdə keyfiyyətli təlim-tədrisi təmin edən effektiv təhsil sistemlərinin qurulmasıdır. Təhsil sistemlərində səmərəliliyi təmin edən həlledici amillərdən biri isə işlək qiymətləndirmə sisteminin yaradılması və onun təkmilləşdirilərək inkişaf etdirilməsidir.

Bu baxımdan, klassik test nəzəriyyəsi əsasında qəbul imtahanlarında istifadə edilən testlərin etibarlılığı hesablanmışdır. Məlum olmuşdur ki, fənlər üzrə testlərin etibarlılıq əmsalının Küder-Riçardson (KR-20) və Split-Half metodları vasitəsilə hesablanmış qiymətləri 0.85-0.98 hüdudlarında yerləşir. Etibarlılıq əmsalının aşağı həddi kimi, adətən, 0.70 qiyməti qəbul edildiyindən, əminliklə təsdiq etmək olar ki, bu il qəbul imtahanlarında bütün fənlər üzrə kifayət qədər etibarlı testlərdən istifadə edilmişdir. Qeyd etmək lazımdır ki, testoloji praktikada testlərin etibarlılığı, bir qayda olaraq, 0.8-0.9 intervalında dəyişir.

İxtisas qrupuna aid olan fənlərin çəki əmsalları və fənlər üzrə testlərin etibarlılıq əmsalları nəzərə alınmaqla bütövlükdə hər bir qrupun testinin etibarlılıq əmsalı Mosye (Mosier) düsturu əsasında hesablanmışdır. Bütün ixtisas qrupları üzrə ayrı-ayrılıqda aparılmış hesablamalar nəticəsində məlum olmuşdur ki, qrup testlərinin etibarlılıq əmsalları 0.94-0.97 intervalında yerləşir. Rəqəmlər göstərir ki, bu il qəbul imtahanlarında fənlər üzrə istifadə edilən testlərin kompozisiyası əsasında tərtib edilmiş qrup testləri də yüksək etibarlılıq keyfiyyətinə malik olmuşdur.

Qəbul imtahanlarına hazırlıqda sınaq imtahanlarının xüsusi yeri vardır. Bu imtahanlarda abituriyent imtahan texnologiyası ilə tanış olur, qəbul imtahanında istifadə ediləcək test modeli və imtahan meyarları əsasında öz bilik səviyyəsini qiymətləndirmək imkanı əldə edir. Abituriyentin sınaq imtahanlarında əldə etdiyi nəticələrlə qəbul imtahanındakı nəticələri arasındakı stoxastik əlaqələri müəyyən etmək məqsədilə onların müvafiq imtahan göstəriciləri (ümumi balları və fənlər üzrə nisbi balları) arasında korrelyasiya əmsalları hesablanıb və təhlil edilib. 1.25 saylı cədvəldə abituriyentlərin ən yüksək bal topladıqları sınaq və qəbul imtahanı nəticələri arasında korrelyasiya əmsallarının hesablanmış qiymətləri ixtisas qrupları üzrə təqdim edilib.

Cədvəldən göründüyü kimi, bütün ixtisas qruplarında abituriyentlərin sınaq və qəbul imtahanlarının nəticələri arasında sıx stoxastik əlaqə mövcuddur. Bu əlaqələr həm imtahan fənləri üzrə toplanılan nisbi ballar, həm də ümumi ballar arasında özünü büruzə verir.

Ən yüksək stoxastik əlaqə I ixtisas qrupunu təmsil edən abituriyentlərin nəticələrində özünü göstərir. Bu qrupda abituriyentlərin sınaq və qəbul imtahanlarındakı ümumi balları arasındakı xətti əlaqənin sıxlıq səviyyəsi çox yüksəkdir və korrelyasiya əmsalı 0.88-ə bərabərdir. Qeyd etmək lazımdır ki, korrelyasiya əmsalı vahidə yaxınlaşdıqca stoxastik əlaqə funksional əlaqəyə yaxınlaşır.

I ixtisas qrupunda abituriyentlərin ayrı-ayrı imtahan fənlərindən sınaq və qəbul imtahanlarında topladıqları nisbi ballar arasındakı xətti əlaqələrin sıxlığını ifadə edən korrelyasiya əmsalları 0.790-dan (fizika fənni üzrə) 0.810-a (riyaziyyat fənni üzrə) qədər dəyişir. Göründüyü kimi, fənlər üzrə korrelyasiya əmsalının variasiyası kiçikdir.

Fənlər üzrə nisbətən zəif stoxastik əlaqə III ixtisas qrupunda müşahidə olunur. Burada korrelyasiya əmsalının ən kiçik qiyməti ədəbiyyat (0.737), ən böyük qiyməti isə tarix fənnində (0.787) müşahidə olunur.

Sınaq və qəbul imtahanlarında abituriyentlərin topladıqları ümumi ballar arasında mövcud olan belə sıx stoxastik əlaqələr imtahanlarda istifadə edilən test modellərinin yüksək etibarlılığa malik olduğunu nümayiş etdirir.

Cədvəl 1.25

SINAQ VƏ QƏBUL (II MƏRHƏLƏ) İMTAHANLARININ NƏTİCƏLƏRİ ARASINDA KORRELYASİYA ƏMSALLARI

№	İXTİSAS QRUPU	Ümumi bal	İMTAHAN FƏNLƏRİ							
			Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	0.875			0.810	0.790	0.808			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	0.872			0.789				0.767	0.796
III	Humanitar, pedaqogika ixtisasları	0.860	0.777	0.737					0.787	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	0.867				0.792	0.795	0.760		

Bu gün gənclərimizin aldıqları təhsilin məzmunu XXI əsrin tələblərinə cavab verməlidir. İnformasiya cəmiyyətinin formalaşdığı müasir dövrdə təhsil müəssisəsi (məktəb və ya universitet) gənclərə düşünməyi, zəruri informasiyanı müstəqil şəkildə əldə etməyi, informasiya bolluğu şəraitində düzgün istiqamət götürməyi, analitik və yaradıcı şəkildə düşünə bilməyi öyrətməlidir. Əlbəttə, bütün bu amillər qəbul imtahanlarının məzmununa da öz tələblərini verir.

DİM hər bir imtahan layihəsini tərtib edərkən, ilk növbədə onun məqsədini müəyyən edir: kimi seçirik?

Tələbə qəbulunda qarşıya qoyulan əsas məqsəd seçdiyi ixtisas üzrə ali təhsil müəssisələrində təhsilalma qabiliyyətinə malik olan abituriyentlərin seçilməsidir. Bu vəzifənin həyata keçirilməsi üçün istifadə edilən test tapşırıqları valid, yəni düzgün seçimetmə keyfiyyətinə malik olmalıdır. Bununla əlaqədar, DİM biliyin qiymətləndirilməsi üzrə beynəlxalq təcrübəyə əsaslanmaqla ardıcıl olaraq test tapşırıqlarının həm məzmununda, həm tərtibində, həm də təqdimat formalarında təkmilləşdirmə işləri aparır. Belə işlərdən biri də son illər qəbul imtahanlarında ayrı-ayrı fənlər üzrə testlərdə nəzəri biliklərin bilavasitə tətbiqinə aid test tapşırıqlarının sayının artırılmasıdır. Nəticədə, qeyri-standart düşüncə və yaradıcılıq tələb edən məsələlər artdıqca abituriyentlərin bir hissəsinin topladığı bal ötən illərlə müqayisədə azalmış, lakin bununla belə, yüksək bal diapazonunda (500–700 bal) biliyin qiymətləndirilməsi və onun əsasında abituriyentlərin sıralanması daha dəqiq aparılmışdır. Bu dəyişiklik qəbul imtahanına hazırlaşarkən əzbərçiliyə üstünlük verən abituriyentlərin imtahan nəticələrinə öz təsirini göstərmişdir. Belə abituriyentlər, adətən, məktəb kursunda öyrənilən fiziki, kimyəvi və bioloji proseslərin, riyazi çevirmələrin məğzini anlamağa cəhd etmir, təbiət hadisələrinin səbəb-nəticə əlaqələrini izah etməkdə çətinlik çəkirlər. Bu gün tələbə adı qazananların, xüsusilə də 500 – 700 arasında bal toplayan gənclərin nəticələrinin təhlili belə qənaətə gəlməyə əsas verir ki, DİM ali təhsil müəssisələrinin I kursları üçün bilik və bacarıqları ali təhsil almağa imkan verən tələbə kontingenti seçmişdir.

Öz gələcəyini düşünən hər bir cəmiyyət var gücünü ona yönəldir ki, bütün təbəqələrdən olan insanların təhsil almaq imkanları maksimal dərəcədə bərabərləşsin. Təhsil sistemi gənclərə şəxsi uğur əldə etməyə, öz bacarıq və səyləri əsasında cəmiyyətdə layiqli yer tutmağa bərabər şanslar verməlidir. Qəbul imtahanlarının nəticələri bir daha təsdiq edir ki, bunun üçün ölkəmizdə real sosial lift qurulub və bu mexanizm uğurla fəaliyyət göstərməkdədir.

DİM 1992–2010-cu illərdə keçirilən qəbul imtahanlarında abituriyentlərə yalnız qapalı tipli test tapşırıqları təqdim edirdi. 2011-ci ildə ilk dəfə olaraq ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə keçirilən qəbul imtahanlarında riyaziyyat fənni üzrə test blokuna qapalı tipli test tapşırıqları ilə yanaşı, 5 açıq tipli test tapşırığı da daxil edilmişdi. Beləliklə, bütün ixtisas qruplarında riyaziyyat fənnindən təqdim edilən testlərin tərkibində 20 test tapşırığı qapalı, 5 test tapşırığı isə açıq tipli olmuşdu. Açıq tipli test tapşırıqlarının mürəkkəblik dərəcəsi orta və çətin idi. 2012–2014-cü illərdə açıq tipli test tapşırıqlarının daxil olduğu fənlər I ixtisas qrupu üzrə fizika və riyaziyyat, II qrup üzrə coğrafiya və riyaziyyat, III qrup üzrə tarix və riyaziyyat, IV qrup üzrə isə kimya və riyaziyyat fənləri olmuşdur. Sadaladığımız fənlərdən təqdim edilən testlərin tərkibində 20 test tapşırığı qapalı, 5 test tapşırığı isə açıq tipli olmuşdur. 2015-ci ildən 2018-ci ilədək bütün ixtisas qruplarında açıq tipli test tapşırıqlarının daxil olduğu fənlərin sayı artırılmışdır. Həmin fənlər bunlardır: I ixtisas qrupu üzrə kimya, II və III qruplar üzrə ana dili, IV qrup üzrə isə biologiya fənni. Açıq tipli test tapşırıqlarının təqdim olunduğu üç fənnin hər birinin test blokunda 21 test tapşırığı qapalı, 4 test tapşırığı isə açıq tipli olmuşdur.

Məlum olduğu kimi 2019-cu ildə ilk dəfə qəbul imtahanı iki mərhələdə keçirilib. Bununla yanaşı, ilk dəfə olaraq imtahanın hər iki mərhələsində abituriyentlərə yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli test tapşırıqları da təqdim olunub. Bu cür test tapşırıqları bizə abituriyentlərin bacarıq və vərdişlərinin qiymətləndirilməsi üçün geniş imkanlar yaradır. Belə ki, bu tapşırıqları vasitəsilə abituriyentlərin məktəbdə əldə etdikləri bilikləri real həyatda, praktikada istifadə etmək bacarıqları öyrənilir və qiymətləndirilir. Nəzəri biliklərin real situasiyada tətbiqi kimi vərdişlər gələcək mütəxəssislər üçün ən vacib keyfiyyətlərdən sayılır. Bu məqsədlə abituriyentlərə yazılı şəkildə cavablandırılması üçün I mərhələdə ana dili fənni üzrə 10, riyaziyyat fənni üzrə 7, xarici dil fənni üzrə 7, ümumilikdə 24, II mərhələdə isə hər bir imtahan fənni üzrə 3, ümumilikdə 9 test tapşırığı təqdim olunmuşdur. Bu tip tapşırıqlar 0, 1 və 2 balla qiymətləndirilmişdir. 2020-ci ildə Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar yaranmış çətinliklər nəzərə alınaraq qəbul imatahlarında müəyyən sadələşdirilmələr aparılmışdır. Belə ki, qəbul imtahanlarının I mərhələsində imtahanında abituriyentlərə təqdim olunan yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqların sayı 24-dən 12-yə (hər fənn üzrə 4 tapşırıq) salınmışdır. Lakin təəssüflə qeyd etmək lazımdır ki, bu tip tapşırıqlara, hətta qapalı test tapşırıqları üzrə yüksək nəticə göstərən abituriyentlərin arasında da zəif cavab verənlər az deyil. Məsələn, II qrupda riyaziyyat fənnindən 22 qapalı tapşırığın ən azı 18-nə (təxminən 81.8%-nə) düzgün cavab verən abituriyentlərin 21.24%-i yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar üzrə toplanıla biləcək maksimal balın yalnız üçdə birinə qədərini toplaya bilib, 10.85%-i isə ümumiyyətlə bu tip test tapşırıqlarının heç birini düzgün cavablandıra bilməyib.

Qeyd etmək lazımdır ki, yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar abituriyentlərin qiymətləndirilməsində geniş imkanlar açdığı kimi, bu tapşırıqların yoxlanılması və qiymətləndirilməsi də çox böyük resurs hesabına mümkün olur. Qiymətləndirmənin keyfiyyətli və obyektiv aparılması xeyli vaxt və maliyyə tələb edir. Əgər bu tapşırıqların yoxlama prosesini sürətləndirməyə çalışsaq, o zaman yoxlamanın keyfiyyəti aşağı düşər və obyektiv qiymətləndirmədə problemlər yaranar. O da qeyd olunmalıdır ki, bu tip açıq tapşırıqlar əvvəlcədən təlim keçmiş və seçilmiş markerlər tərəfindən yoxlanılır. Proses elə qurulmuşdur ki, insan faktoru qiymətləndirməyə heç bir təsir göstərməsin. Bunu apelyasiyada yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar üzrə şikayətlərin az olması da təsdiq edir. Apelyasiyaya müraciət etmiş 1925 abituriyentdən (imtahanda iştirak edənlərin 2.85%-i) 301-nin iddiası təmin edilmiş və 326 yazı işinin qiymətlərində müvafiq düzəlişlər edilmişdir. Digər iddialarla bağlı isə, abituriyentlərə tapşırıqların yerinə yetirilməsində yol verdikləri səhvləri ekspertlər tərəfindən izah edilmişdir.

Qəbul imtahanının II mərhələsində abituriyentlərə hər bir imtahan fənni üzrə 22 qapalı, 8 açıq tipli tapşırıq təqdim olunub. Açıq tipli tapşırıqların 5-i cavabları kodlaşdırılan, 3-ü isə yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar olub. Qapalı və açıq tipli tapşırıqlar arasındakı xətti əlaqəni ifadə edən korrelyasiya əmsalı ixtisas qrupları və imtahan fənləri üzrə müxtəlifdir. II mərhələdə qapalı və açıq tipli test tapşırıqları arasındakı korrelyasiya əmsalının qiyməti I qrupda riyaziyyatdan 0.78, fizikadan 0.80, kimyadan 0.79, II qrupda riyaziyyatdan 0.77, tarixdən 0.77, coğrafiyadan 0.77, III qrupda Azərbaycan dilindən 0.70, ədəbiyyatdan 0.71, tarixdən 0.80, IV qrupda fizikadan 0.85, kimyadan 0.85, biologiyadan 0.81 olub.

Açıq tipli test tapşırıqlarına, əsasən, qapalı tipli test tapşırıqları üzrə orta və yüksək bal toplayan abituriyentlər cavab vermişlər. Belə abituriyentlərin müxtəlif fənlərdən qapalı tipli test tapşırıqları üzrə düzgün cavabvermə faizi 40-dan yüksək olub. Onlar I ixtisas qrupunda riyaziyyat, fizika və kimya fənləri üzrə, müvafiq olaraq, seçmənin 48.32, 27.72 və 38.60%-ni, II ixtisas qrupunda riyaziyyat, tarix və coğrafiya fənləri üzrə 35.50, 44.79 və 48.35%-ni, III ixtisas qrupunda Azərbaycan dili, ədəbiyyat və tarix fənləri üzrə 78.98, 71.90 və 57.97%-ni, IV ixtisas qrupunda isə fizika, kimya və biologiya fənləri üzrə 52.71, 58.49 və 78.19%-ni təşkil edib.

Təqdim edilən rəqəmlərdən görünür ki, açıq tipli test tapşırıqları, ilk növbədə orta və yüksəkhazırlıqlı abituriyentləri bir-birindən fərqləndirməyə xidmət edib. Məsələn, I ixtisas qrupunda qapalı tipli tapşırıqların ən azı 40%-ni düzgün cavablandıran abituriyentlərin riyaziyyat fənnindən cavabları kodlaşdırılan açıq tipli test tapşırıqlarına verdikləri düzgün cavabların sayına görə paylanmasına nəzər yetirək: onların 27.53%-i açıq tipli test tapşırıqlarının 1-nə, 23.18%-i 2-nə, 13.57%-i 3-nə, 7.43%-i 4-nə, 3.08%-i 5-nə düzgün cavab verib, qalan 25.21%-i isə heç birinə düzgün cavab verə bilməyib. Bu seçmənin yazılı şəkildə cavablandırılması tələb olunan test tapşırıqarı üzrə topladıqları balların miqdarına görə paylanmasına nəzər yetirdikdə isə bir az fərqli mənzərə ilə qarşılaşırıq: həmin abituriyentlərin 9.44%-i bu tip tapşırıqlar üzrə 1, 13.02%-i 2, 8.14%-i 3, 11.31%-i 4, 7.04%-i 5, 13.22%-i 6 bal toplaya bilib və qalan 37.84%-i isə ümumiyyətlə bal toplaya bilməyib. İdeal halda abituriyentlərin diferensiasiyası üçün açıq tipli test tapşırıqları orta və yüksək hazırlıqlı abituriyentlər seçməsinin səviyyəsinə tam uyğun olsaydı, onları cavabları kodlaşdırılan açıq tipli test taprşırıqları üzrə sayca 6 bərabər hissəyə (altseçməyə), yazılı şəkildə cavablandırılması tələb olunan test tapşırıqları üzrə isə 7 bərabər hissəyə bölərdi. Reallıqda açıq tipli test tapşırıqları vasitəsilə tam seçmə, orta və yüksəkhazırlıqlı abituriyentlər seçməsində alınan paylanmaların ideal paylanma ilə müqayisəsi göstərir ki, orta və yüksəkhazırlıqlı abituriyentlər seçməsində alınan paylanma ideala daha yaxındır. Deməli, açıq tipli test tapşırıqları, həqiqətən, orta və yüksəkhazırlıqlı abituriyentləri bir-birindən daha dəqiq fərqləndirməyə imkan vermişdir.

Ortastatistik abituriyent fənlər üzrə məktəb proqramının yalnız 27-58 faizini mənimsəyir

Ali təhsil müəssisələrinə imtahan vermiş abituriyentlərin Azərbaycan və rus bölmələri üzrə ayrılıqda ortastatistik portreti müəyyənləşdirilib. Belə ki, Azərbaycann bölməsində ortastatistik abituriyent I mərhələdə ana dili fənnindən test tapşırıqlarının 52.11, riyaziyyatdan 29.77, ingilis dilindən 37.51%-nə, II mərhələdə ana dilindən 58.12, ədəbiyyatdan 49.82, riyaziyyatdan 32.29, fizikadan 27.41, kimyadan 32.85, biologiyadan 54.07, tarixdən 40.25, coğrafiyadan 34.78%-inə düzgün cavab verib*.

Rus bölməsində ortastatistik abituriyent isə I mərhələdə ana dili fənnindən test tapşırıqlarının 57.09, riyaziyyatdan 31.84, ingilis dilindən 51.03%-nə, II mərhələdə ana dilindən 53.14, ədəbiyyatdan 47.05, riyaziyyatdan 33.52, fizikadan 27.72, kimyadan 33.14, biologiyadan 47.92, tarixdən 31.15, coğrafiyadan 30.71%-inə düzgün cavablandırıb. Abituriyentlərin cavab göstəricilərindən aydın olur ki, hər iki bölmədə ortastatistik abituriyent fənlər üzrə testlərin yalnız 27-58 faizinə düzgün cavab verib. Test tapşırıqlarının məktəb proqramı çərçivəsində hazırlandığını və bu çərçivədən kənara çıxmadığını, qəbul imtahanında iştirak edənlərin məktəbin seçilən şagirdləri olduğunu nəzərə alsaq, belə qənaətə gəlmək olar ki, ortastatistik məzun məktəb proqramının 42–73%-ni mənimsəmir. Bu isə ümumi təhsil müəssisələrimizin böyük qismində tədris prosesinin normal aparılmamasından, tələbkarlığın zəifliyindən, ən başlıcası isə müəllimlərin çoxunun peşəkarlıq səviyyəsinin aşağı olmasından və tədris prosesində yeni təlim üsulları və texnologiyalarından istifadə edə bilməməsindən irəli gəlir. Odur ki, bu sahədə həyata keçirilməsi vacib olan digər tədbirlərlə yanaşı, müəllimlərin müasir elmi əsaslarla ixtisasının artırılması, ali təhsil müəssisələrində pedaqoji kadrların hazırlanması səviyyəsinin yüksəldilməsi və gələcək müəllimlərə lazımi pedaqoji-metodiki bilik və bacarıqların aşılanması məsələləri diqqət mərkəzində olmalıdır.

Qeyd olunanlarla yanaşı, abituriyentləri yüksək nəticələr qazanan qabaqcıl rayonların, məktəblərin, eləcə də öz yüksək nəticələri ilə fərqlənən müəllimlərin qabaqcıl təcrübəsi öyrənilməli və yayılmalıdır. Bunlar haqqında bir qədər sonra daha geniş məlumat veriləcəkdir.

Abituriyentlərin imtahan fənlərinə cavablarının ortastatistik göstəriciləri qruplar üzrə aşağıdakı cədvəllərdə təqdim olunur.

* Hər hansı bir seçmə (bölmə və ixtisas qrupları) üzrə ortastatistik abituriyentin ixtiyari fəndən düzgün cavablarının faizi dedikdə, həmin seçməyə daxil olan abituriyentlərin fənn üzrə düzgün cavablarının sayının orta qiymətinin test tapşırıqlarının ümumi sayına nəzərən faizi başa düşülür.

Cədvəl 1.26

AZƏRBAYCAN BÖLMƏSİ ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	50.99	35.37	37.01			34.15	25.35	30.71			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	54.41	33.16	39.40			28.20				35.11	34.78
III	Humanitar, pedaqogika ixtisasları	61.38	26.87	43.14	58.12	49.82					43.31	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	66.21	49.55	53.99				40.19	46.09	54.07		
V	İncəsənət, musiqi, idman ixtisasları	48.96	26.61	33.86								

Cədvəl 1.27

RUS BÖLMƏSİ ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	56.64	38.39	51.05			36.73	26.11	31.35			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	57.86	33.22	54.04			27.30				27.90	30.71
III	Humanitar, pedaqogika ixtisasları	62.43	24.99	55.07	53.14	47.05					33.74	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	67.14	45.78	62.59				33.83	39.92	47.92		
V	İncəsənət, musiqi, idman ixtisasları	51.93	25.37	43.31								

Test ölçü alətidir. Onun elmi baxımdan düzgün istifadə edilməsi və alınmış nəticələrin düzgün şərhi (interpretasiyası) çox əhəmiyyətlidir. Bu səbəbdən testin tərtib və istifadə edilməsinin bütün mərhələləri testologiyanın tələblərinə uyğun həyata keçirilməlidir.

Müasir test nəzəriyyəsi müəyyən qabiliyyətə malik olan sınaq iştirakçısının test tapşırığına düzgün cavabvermə ehtimalını bir (test tapşırığının çətinlik səviyyəsi), iki (test tapşırığının çətinlik və diskriminasiya səviyyəsi) və üçparametrli (test tapşırığının çətinlik, diskriminasiya və cavabı təsadüfi şəkildə tapma səviyyəsi) logistik funksiyalarla ifadə olunan riyazi modellər əsasında qiymətləndirir.

Son illər DİM test tapşırıqları bankının parametrləndirilməsi üzrə bir sıra tədbirlər həyata keçirir: test tapşırıqlarının sınaqdan keçirilməsi və sonradan nəticələrinin emalı – test tapşırıqlarının kalibrlənməsi aparılır. Test tapşırıqlarının parametrləndirilməsi iki model – Rasch və ikiparametrli logistik model əsasında həyata keçirilir. Rasch modelində bütün test tapşırıqları eyni diskriminasiya (ayırdetmə) göstəricisinə malikdir. Bu, əslində, çox sərt fərziyyədir və praktikada özünü nadir hallarda doğruldur. İkiparametrli logistik modeldə isə test tapşırıqlarının diksriminasiya göstəriciləri bir-birindən fərqlənir. Bu modelin Rasch modelinə nəzərən üstünlüyü onun empirik (real) məlumatlarla daha yüksək uzlaşma səviyyəsinə malik olmasıdır. İkiparametrli logistik model əsasında bilik və bacarıqların qiymətləndirilməsi BILOG-MG proqram təminatı əsasında aparılır.

Təbiidir ki, praktikada bütün test tapşırıqları riyazi modellə uzlaşmır və model işlədiləndə onunla uzlaşmayan test tapşırıqları atılmalı olur. Belə hallar, əsasən, test tapşırıqlarında müxtəlif qüsurların, məsələn, üstünlüyə malik distraktorun, yaxud çox zəif diskriminasiya xassəsinin olmasının nəticəsidir.

Model tətbiq edilərkən sınaq iştirakçılarının motivasiya səviyyəsi də nəzərə alınmalıdır. Başqa sözlə, informasiyanın emalı prosesində sınaq iştirakçısının imtahan prosesində mümkün olan ən yüksək nəticəni əldə etmək marağı hesaba alınmalıdır. Bununla əlaqədar olaraq test tapşırıqları parametrləndirildikdə, onlara cavab verməkdən çoxlu sayda imtina edən abituriyentlər sınaq iştirakçıları seçməsindən çıxarılır.

Yeni testlərin tərkibində parametrləndirilmiş tapşırıqlardan istifadə edilməsi testləşdirmə aparılan fənn üzrə qabiliyyət göstəricisi şkalasına yeni test tapşırıqlarının əlavə edilməsinə imkan verir. Beləliklə, kalibrlənmə həyata keçirildikdən sonra eyni tapşırıqlara malik olmayan müxtəlif testlərin nəticələrini müqayisə etmək imkanı yaranır. Bununla yanaşı müxtəlif imtahanlarda eyni imtahan iştirakçılarının olması da, bu imtahanlardakı testlərin nəticələrini müqayisə etmək imkanı verir.

Bu il Azərbaycan dili və riyaziyyat fənlərindən imtahan testləri tərtib edilərkən məhz ikinci metoddan istifadə olunmuşdur. Bu da bütün ixtisas qruplarında imtahan verən abituriyentlərin qabiliyyət səviyyələrinin elmi cəhətdən əsaslandırılmış müqayisəsini aparmağa imkan vermişdir.

DİM-in müxtəlif ixtisas qruplarında tətbiq etdiyi testlər eyni struktura malik deyil və onlar müvafiq qrupların kontingentinin qabiliyyətini mümkün qədər dəqiq üzə çıxarmağa və yoxlamağa istiqamətlənib. Testlərin strukturlarındakı müxtəliflik onların informasiya funksiyalarının təhlil prosesində istifadə edilən test tapşırıqlarının sayına görə normallaşdırılmış qrafiklərində özünü göstərir. Təqdim edilən informasiya funksiyaları (bax: qrafiklər 1.8 və 1.9) müvafiq qabiliyyətə malik abituriyentlər testdən keçirildikdə orta hesabla bir test tapşırığına düşən informasiyanın miqdarını təyin etməyə imkan verir. İnformasiya miqdarı nə qədər çox olarsa, qabiliyyəti ölçmə xətası da bir o qədər az olar. Qrafiklərdən göründüyü kimi, bütün informasiya funksiyaları maksimum nöqtəsinə malikdir və bu nöqtə hansı qabiliyyətə malik olan abituriyentlər testdən keçirildikdə ölçmə xətasının minimal olduğunu göstərir. Məsələn, Azərbaycan dilindən testlərin ən kiçik ölçmə xətası III ixtisas qrupunda qabiliyyət göstəricisi -0.75 loqit olan abituriyentlər üçün təmin edilir (bax: qrafik 1.8).

Qəbul imtahanı testinin məqsədi abituriyentləri ranqlara ayırmaq olduğundan onun ən yüksək ölçmə dəqiqliyi məhz müsabiqədə iştirak edən abituriyentlərin daha çox cəmləşdiyi intervalda əldə edilməlidir. Azərbaycan dili fənni üzrə III ixtisas qrupunda testin informasiya əyrisinin qabiliyyət göstəricilərinin paylanma histoqramı ilə müqayisəsi (1.8 saylı qrafik) də bizə bunu əyani şəkildə göstərir və göründüyü kimi, abituriyentlərin daha çox cəmləşdiyi yerdə onların qabiliyyətləri daha dəqiq qiymətləndirilir. Belə ki, əgər Azərbaycan dili fənni üzrə orta və yüksək qabiliyyətə malik olan abituriyentlər III ixtisas qrupunda sayca daha çox müşahidə olunursa, onda III ixtisas qrupunun Azərbaycan dili testinin informasiya funksiyasının müvafiq intervaldakı qiyməti də maksimal olmalıdır.

Riyaziyyat fənni üzrə I və II ixtisas qruplarında testlərin informasiya əyrilərinin qabiliyyət göstəricilərinin paylanma histoqramları ilə müqayisəsinə (1.9 saylı qrafik) baxdıqda, bir qədər fərqli mənzərənin şahidi oluruq. I və II ixtisas qrupları üzrə informasiya əyrilərindən göründüyü kimi, abituriyentlərə təqdim olunan testlər nəzərdə tutulduğu kimi daha çox orta və yüksək qabiliyyətli abituriyentləri bir-birilərindən fərqləndirmək və həmin hissələrdə onların qabiliyyət göstəricilərini daha dəqiq ölçmək üçün nəzərdə tutulub. Lakin bu ixtisas qrupları üzrə qabiliyyət göstəricilərinin paylanma histoqramına baxdıqda belə məlum olur ki, abituriyentlərin böyük hissəsi riyaziyyat fənni üzrə aşağı və orta qabiliyyət səviyyələrinə malikdirlər. DİM-in qəbul imtahanlarında təqdim olunan testlərin ümumorta təhsil müəssisələrinin tədris proqramları çərçivəsində hazırlandığını nəzərə alsaq, belə nəticəyə gəlmək olar ki, şagirdlərin riyaziyyat fənni üzrə hazırlıq səviyyələri qənaətbəxş deyil.

AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN İNFORMASİYA ƏYRİSİ VƏ ABİTURİYENTLƏRİN QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI



Qrafik 1.8

RİYAZİYYAT FƏNNİNDƏN İXTİSAS QRUPLARI ÜZRƏ İNFORMASİYA ƏYRİLƏRİ VƏ ABİTURİYENTLƏRİN QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI





Qrafik 1.9

1.18 və 1.19 saylı şəkillərdəki diaqramlarda tam seçmənin 5, 10 və 15%-ni təşkil edən altseçmələr üzrə qəbul imtahanının I mərhələsinin nəticələrinə əsasən müvafiq olaraq, Azərbaycan dili və riyaziyyatdan yüksək qabiliyyətə malik olan abituriyentlərin ixtisas qruplarına görə tərkibləri təqdim edilmişdir. Məlum olduğu kimi, II mərhələdə Azərbaycan dili fənni üzrə yalnız III ixtisas qrupunun, riyaziyyat fənni üzrə isə yalnız I və II ixtisas qruplarının abituriyentləri imtahan verdiklərindən II mərhələnin nəticələrinə əsasən abituriyentlərin daha çox hansı ixtisas qruplarını seçdiklərini görmək mümkün deyil. Bu səbəbdən də mənzərəni tam şəkildə görmək üçün qəbul imtahanının I mərhələsənin nəticələri götürülüb.

1.18 saylı şəkildəki diaqramdan göründüyü kimi, Azərbaycan dili fənnindən yüksək qabiliyyətə malik abituriyentlər daha çox III ixtisas qrupunu təmsil edirlər: 5 faizli altseçmədə 45.76%, 10 faizli altseçmədə 45.93% və 15 faizli altseçmədə 45.06%. Azərbaycan dili fənni üzrə yüksək qabiliyyətə malik olan gənclər III qrupla yanaşı, digər ixtisas qruplarında da təmsil olunublar. Onlar müvafiq hazırlıq keçdikləri halda III ixtisas qrupu abituriyentlərinə real rəqabət göstərə bilərdilər. Əgər Azərbaycan bölməsi abituriyentlərinin ixtisas qruplarına görə bölgüsünü nəzərə alsaq (I qrupda – 42.01%, II qrupda – 19.07%, III qrupda – 32.10%, IV qrupda – 6.81%), onda Azərbaycan dili üzrə yüksək qabiliyyətli abituriyentlərin istəklərinin qütbləşməsi aşkar şəkildə nəzərə çarpar. Çünki 5 faizli altseçmədə I və II qrupların abituriyentləri, müvafiq olaraq, cəmi 22.93% və 15.32% təşkil etdiyi halda, III və IV qrupların abituriyentləri, artıq 45.76 və 15.98% təşkil edir. Ötən illə müqayisədə bu il Azərbaycan dilindən yüksək qabiliyyətə malik olan abituriyentlərin nisbi sayı I, II və IV ixtisas qruplarında azalıb (I qrupda 23.19%-dən 22.93%-ə, II qrupda 17.96%-dən 15.32%-ə qədər, IV qrupda 17.93%-dən 15.98%-ə qədər). III ixtisas qrupuda isə, əksinə, belə abituriyentlərin nisbi sayı artmışdır (III qrupda 40.92%-dən 45.76%-ə).

Riyaziyyat fənnində tamamilə fərqli mənzərə müşahidə olunur (bax: 1.19 saylı şəkil). Burada 5 faizli altseçmədə I ixtisas qrupunun abituriyentləri sayca ən çoxdur (50.69%). I və IV qrupların abituriyentlərinin nisbi çəkiləri (müvafiq olaraq, 50.69% və 19.58%) onların tam seçmədəki nisbi çəkilərini (müvafiq olaraq, 42.06% və 7.16%) üstələyir. Bütün bunlar onu göstərir ki, I və IV ixtisas qruplarını seçən abituriyentlərin içərisində riyazi qabiliyyəti yüksək olanların nisbi çəkisi daha çoxdur. II və III ixtisas qruplarında, əksinə, bu qrupları seçənlərin (müvafiq olaraq, 19.27% və 31.52%) içərisində riyazi qabiliyyəti yüksək olanların nisbi çəkisi (müvafiq olaraq, 18.08 və 11.65%) daha azdır. Qeyd edək ki, ötən illərlə müqayisədə cari ildə riyaziyyat fənnindən yüksək qabiliyyətə malik olan abituriyentlərin ixtisas qruplarına olan meyilləri dəyişmişdir. Məsələn 2018-ci illə müqayisə 2020-ci ildə belə abituriyentlərin I ixtisas qrupu üzrə nisbi çəkisi 12.22% artmışdır (38.47%-dən 50.69%-ə qədər). II ixtisas qrupu üzrə isə əksinə, bu qrupu seçənlərin həm 5 faizli altseçmədəki nisbi çəkiləri (24.90%-dən 18.08%-ə qədər), həm də tam seçmədəki nisbi çəkiləri (24.68%-dən 19.27%-ə qədər) azalmışdır.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏTLİ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ BÖLGÜSÜ



Şəkil 1.18

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN RİYAZİYYAT FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏTLİ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ BÖLGÜSÜ



Şəkil 1.19

Qəbul imtahanının I mərhələsinin nəticələrinə əsasən ayrı-ayrı fənlər üzrə oğlan və qız abituriyentlərin qabiliyyət səviyyələrinin paylanmasını ayrılıqda əks etdirən histoqramların (1.10 və 1.11 saylı qrafiklərə bax) müqayisəsi qızların həm Azərbaycan dili, həm də riyaziyyatdan üstünlüyə malik olduğunu göstərir. Lakin riyaziyyat fənni üzrə bu üstünlük Azərbaycan dilindən fərqli olaraq çox cüzidir.

Azərbaycan dili üzrə qabiliyyət səviyyəsinin paylanmasını əks etdirən histoqramların (1.10 saylı qrafik) müqayisəsi göstərir ki, oğlanların sayının qızların sayından çox olmasına baxmayaraq, -1.15 loqitdən başlayaraq nisbətən yüksək qabiliyyət intervalında qızlar, -1.15 loqitdən solda yerləşən aşağı qabiliyyət intervalında isə oğlanlar sayca üstünlük təşkil edir. Histoqramlar üzrə hesablamalar göstərir ki, hər 100 qız abituriyentdən 94–95–nin qabiliyyəti -1.15 loqitdən yüksək olduğu halda, hər 100 oğlan abituriyentdən qabiliyyətləri həmin intervalda yerləşənlərin sayı cəmi 86–87 nəfərdir. Beləliklə, bu intervalda fərq 8% təşkil edir.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN AZƏRBAYCAN DİLİ FƏNNİ ÜZRƏ QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI (2020-Cİ İLİN MƏZUNLARI)



Qrafik 1.10

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN RİYAZİYYAT FƏNNİ ÜZRƏ QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI (2020-Cİ İLİN MƏZUNLARI)



Qrafik 1.11

Riyaziyyat fənni üzrə qabiliyyət səviyyələrinin paylanmasında isə bir qədər başqa mənzərə müşahidə olunur (1.11 saylı qrafikə bax). Burada oğlan abituriyentlərin qabiliyyət göstəriciləri qızların göstəricilərinə yaxın olmuşdur. Azərbaycan dilindən fərqli olaraq riyaziyyat fənni üzrə oğlan və qızların qabiliyyət səviyyələrinin paylanmaları arasındakı fərq kiçikdir.

Qabiliyyətlərin ortakvadratik meyillə ifadə edilmiş vahidlərdə fərqlərini müqayisə etdikdə də həmin nəticəyə gəlmək mümkündür. Azərbaycan dili üzrə ümumi paylanmanın ortakvadratik meyilinin σ_a=1.091 olduğunu nəzərə alsaq, onda fərq aşağıdakı kimi olacaq:

$$\frac{0.459 + 0.030}{1.091} = 0.45\sigma_a$$

Riyaziyyat üzrə ümumi paylanmanın ortakvadratik meyilinin σ_r=1.139 olduğunu nəzərə alanda fərq:

$$\frac{-0.220 + 0.262}{1.139} = 0.04\sigma_r$$

bərabər olacaq.

Beləliklə, oğlan və qız abituriyentlərin qabiliyyət səviyyələri arasındakı fərq müvafiq ortakvadratik meyilin Azərbaycan dilində 45, riyaziyyatda isə 4 faizinə bərabərdir.

1.20 və 1.21 saylı şəkillərdəki diaqramlarda oğlan və qızların tam seçmənin 5, 10 və 15%-ni təşkil edən altseçmələri üzrə Azərbaycan dili və riyaziyyatdan qəbul imtahanının I mərhələsinin nəticələrinə əsasən yüksək qabiliyyətə malik olan oğlan və qız abituriyentlərin nisbi sayları faizlə təqdim edilmişdir. Diaqramlardan göründüyü kimi, Azərbaycan dilindən ən yüksək qabiliyyətə malik olan 5 faizli altseçmədə hər 100 abituriyentdən 64-65-i qız, 35-36-sı oğlan, riyaziyyatdan ən yüksək qabiliyyətə malik olan 5 faizli altseçmədə hər 100 abituriyentin 51-52-si oğlan, 48-49-u qızdır. Altseçmələr genişləndikcə oğlanların və qızların sayları tam seçmədəki tərkibə yaxınlaşır.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏTLİ OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN BÖLGÜSÜ



Şəkil 1.20

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN RİYAZİYYAT FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏTLİ OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN BÖLGÜSÜ



Şəkil 1.21

Qəbul imtahanının I mərhələsinin nəticələrinə əsasən yüksək qabiliyyətə malik olan oğlan və qız abituriyentlərin ixtisas qrupları üzrə tərkibinin (bax: cədvəl 1.28 və 1.29) təhlili göstərir ki, Azərbaycan dili üzrə yüksək qabiliyyətə malik olan oğlanların III ixtisas qrupuna istəkləri tam seçməni təmsil edən ortastatistik oğlan abituriyentin həmin qrupa nümayiş etdirdiyi istəkdən yüksəkdir. Doğrudan da, 5 faizli altseçmə səviyyəsində III ixtisas qrupunun oğlan abituriyentlərinin nisbi sayı tam seçməyə nəzərən təxminən 2.0 dəfə artmışdır. Azərbaycan dilindən yüksək qabiliyyətə malik oğlan abituriyentlər III ixtisas qrupu ilə yanaşı, IV ixtisas qrupuna da üstünlük verirlər (nisbi sayı isə təxminən 3.2 dəfə çox olub). Qız abituriyentlərin seçimində də belə tendensiya IV ixtisas qrupunda müşahidə olunur. Burada 5 faizli altseçmə səviyyəsində qız abituriyentlərin istəyi tam seçməyə nəzərən 1.8 dəfə yüksəkdir. Digər tərəfdən, qeyd etmək lazımdır ki, Azərbaycan dili fənni üzrə yüksək qabiliyyətli oğlanların və qızların I qrupun ixtisaslarını seçmə ehtimalı tam seçməyə nəzərən müvafiq olaraq, 1.7 və 1.6 dəfə zəifdir.

Cədvəl 1.28

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏT SƏVİYYƏSİNƏ MALİK OLAN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ PAYLANMASI (2020-Cİ İLİN MƏZUNLARI)

Tam seçmə üzrə	Oğlan abituriyentlər					Qız abituriyentlər				
	Altseçmə-nin payı	İxtisas qrupları üzrə paylanması				Altseçmə-nin payı	İxtisas qrupları üzrə paylanması			
		I	II	III	IV		I	II	III	IV
5%	**35.61**	31.04	22.68	35.04	11.25	**64.39**	18.45	11.25	51.70	18.60
10%	**36.07**	32.66	23.35	33.12	10.87	**63.93**	18.63	10.84	53.16	17.37
15%	**36.63**	34.78	23.55	31.89	9.79	**63.37**	19.43	11.02	52.67	16.88
İmtahan iştirakçılarının paylanması	**52.08**	53.63	25.64	17.24	3.49	**47.92**	29.38	11.94	48.26	10.42

Cədvəl 1.29

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN RİYAZİYYAT FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏT SƏVİYYƏSİNƏ MALİK OLAN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ PAYLANMASI (2020-Cİ İLİN MƏZUNLARI)

Tam seçmə üzrə	Oğlan abituriyentlər					Qız abituriyentlər				
	Altseçmə-nin payı	İxtisas qrupları üzrə paylanması				Altseçmə-nin payı	İxtisas qrupları üzrə paylanması			
		I	II	III	IV		I	II	III	IV
5%	**51.82**	58.43	20.40	7.98	13.19	**48.18**	42.37	15.59	15.59	26.46
10%	**51.22**	57.58	21.36	10.08	10.98	**48.78**	42.24	15.01	18.25	24.50
15%	**50.95**	56.34	22.85	10.92	9.88	**49.05**	41.40	14.47	21.18	22.95
İmtahan iştirakçılarının paylanması	**51.88**	54.05	25.50	16.80	3.66	**48.12**	29.13	12.56	47.39	10.92

Riyaziyyatdan yüksək qabiliyyətə malik olan oğlan abituriyentlər I və II qrupun ixtisaslarına üstünlük verirlər. Belə ki, riyaziyyatdan yüksək qabiliyyətə malik 5%-li altseçməni təmsil edən abituriyentlərin 78.83%-i ərizələrində bu qrupları seçiblər. Bu altseçmənin istəyini tam seçmə ilə müqayisə etsək görərik ki, yüksək qabiliyyətli abituriyentlərin ixtisas qruplarını seçməkdə göstərdikləri istək tam seçmənin istəyinə uyğundur.

Riyaziyyatdan yüksək qabiliyyətə malik qız abituriyentlər seçməsində bir az fərqli mənzərənin şahidi oluruq. Belə ki, bu cür abituriyentlər daha çox I və IV ixtisas qruplarına üstünlük verirlər və riyaziyyatdan yüksək qabiliyyətə malik 5%-li altseçməni təmsil edən abituriyentlərin müvafiq olaraq, 42.37 və 26.46%-i ərizələrində bu qrupları seçiblər.

Riyaziyyatdan yüksək qabiliyyətə malik həm oğlan, həm qız abituriyentlər III qrupa elə də meyil göstərməyiblər. Oğlan abituriyentlərin tam seçməsinin 16.80, qız abituriyentlərin 47.39%-i bu qrupu seçmələrinə baxmayaraq, riyaziyyatdan yüksək qabiliyyətə malik 5%-li altseçmədə belələrinin nisbi sayı müvafiq olaraq, 2.1 və 3.0 dəfə az olub. IV ixtisas qrupunda isə bunun tam əksini görürük. 1.29 saylı cədvəldən də göründüyü kimi oğlan abituriyentlərin 3.66%-i, qız abituriyentlərin 10.92% IV ixtisas qrupunu seçdiyi halda yüksək qabiliyyətə malik 5%-li altseçmədə belələrinin nisbi sayı tam seçməyə nəzərən müvafiq olaraq, 3.6 və 2.4 dəfə çox olub.

Fənlər üzrə elmi-metodiki təhlil və tövsiyələr

COVID-19 pandemiyası ilə bağlı ciddi karantin qaydaları nəzərə alınaraq, ali təhsil müəssisələrinə

2020-ci ilin qəbul imtahanları bir dəfə keçirilib. Tətbiq edilən qaydalara uyğun olaraq tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı qəbul imtahanının birinci mərhələsinə, ixtisas qrupları üzrə imtahanlar isə ikinci mərhələsinə aid olub.

Aşağıda təqdim edilən təhlil qəbul imtahanlarının ikinci mərhələsinə aiddir.

Ötən ildə olduğu kimi, bu il də qəbul imtahanlarında istifadə edilmiş qiymətləndirmə tapşırıqları müvafiq fənn kurikulumlarının təlim nəticələrinə uyğun hazırlanıb. İlin əvvəlində "Abituriyent" jurnalının birinci sayında imtahanlarda yoxlanılması və qiymətləndirilməsi mümkün olan alt standartlar, dərsliklərdə onların reallaşdırılması üçün verilmiş təlim materiallarına uyğun mövzular əsasında qəbul proqramları və imtahan modellərinə uyğun tapşırıq nümunələri dərc edilərək abituriyentlərə qəbul imtahanlarında hansı tipli, hansı formalı tapşırıqların təklif ediləcəyi barədə məlumat verilib. Sinif dərslikləri əsasında qiymətləndirmə tapşırıqları kitabçalarının təkmilləşdirilmiş variantları nəşr edilib. İmtahanlara hazırlaşanlara metodiki kömək baxımından bütün imtahan fənləri üzrə qəbul proqramlarının mövzularına dair 151 videomühazirə hazırlanaraq DİM-in **"*Youtube*"** kanalına yerləşdirilib. Abituriyentlərin qəbul imtahanlarında istifadəsi nəzərdə tutulan test modeli ilə tanış olması məqsədilə ***otk.az*** saytında onlayn sınaq imtahanları keçirilib. Göstərilənlərin nəticəsidir ki, imtahanlarda istifadə edilmiş tapşırıqlar məzmun və forma baxımından abituriyentlərə tanış olub.

İmtahanlarda fənn kurikulumlarının təlim nəticələrinin yoxlanılmasına və qiymətləndirilməsinə imkan verən tapşırıqlardan istifadə olunub. Bu cür tapşırıqlara dair nümunələr DİM-in nəşrləri olan vəsaitlərdə və siniflər üzrə dərsliklər əsasında hazırlanmış qiymətləndirmə tapşırıqları kitabçalarında kifayət qədər verilib.

İmtahanlarda I ixtisas qrupu üzrə riyaziyyat, fizika, kimya, II ixtisas qrupu üzrə riyaziyyat, coğrafiya, tarix, III ixtisas qrupu üzrə tədris dili, ədəbiyyat, tarix, IV ixtisas qrupu üzrə biologiya, kimya, fizika fənlərinin hər birindən imtahan bloklarına 30 tapşırıq daxil edilib. Bunlardan 22-si qapalı (verilənlərdən bir doğru cavabın müəyyən edilməsi), 5-i cavabı kodlaşdırılan açıq tipli (hesablama, seçim və uyğunluğu müəyyən etmək), 3-ü cavabı yazı ilə ifadə olunan tapşırıqlar olub. Cavabı yazı ilə ifadə olunan tapşırıqlar I ixtisas qrupunda riyaziyyat, fizika və kimya, II ixtisas qrupunda riyaziyyat, coğrafiya, IV ixtisas qrupunda biologiya, kimya, fizika fənlərindən 3 tapşırıqlı situasiya, II və III ixtisas qruplarında tarix fənnindən 3 tapşırıqlı mənbə, III ixtisas qrupunda tədris dili və ədəbiyyat fənlərindən 3 tapşırıqlı mətn olub.

Abituriyentlərin bilik və bacarıqlarını hərtərəfli yoxlamaq məqsədilə ayrı-ayrı ixtisas qruplarının peşə xüsusiyyətləri nəzərə alınaraq fənlər üzrə imtahan bloklarına qabiliyyət göstəricilərinə görə terminoloji, faktoloji, ümumiləşdirmə, izahat, hesablama, öncəgörmə və təklif olunan fəaliyyət xarakterli, mürəkkəblik dərəcəsinə görə sadə, orta çətinlikli və çətin tapşırıqlar daxil edilib. Bilik və bacarıqların qiymətləndirilməsində fənn kurikulumları üzrə təlim nəticələrinə verilən tələblər nəzərə alınaraq imtahan bloklarında məntiqi düşünmə və nəzəri biliklərin tətbiqini tələb edən, proses və hadisələrin mahiyyətinin dərk edilməsinə yönələn, səbəb və nəticə əlaqələri əsasında qurulan tapşırıqlara üstünlük verilib. Həmçinin imtahanlarda Eyler-Venn diaqramı və klasterdən istifadə olunub.

Qeyd etmək lazımdır ki, COVID-19 pandemiyası ilə bağlı xüsusi karantin qaydaları nəzərə alınaraq hər ixtisas qrupu üzrə qəbul imtahanları iki gün keçirilib. Ötən illərdə olduğu kimi, bu il də qəbul imtahanları üçün sual kitabçaları qapalı şəraitdə ekspertlər tərəfindən hazırlanıb. Sual kitabçalarının formalaşdırılması

zamanı COVID-19 pandemiyası ilə bağlı tətbiq edilən xüsusi karantin qaydalarının tədris prosesinə təsiri nəzərə alınmış və tədrisi mart-iyun aylarına təsadüf edən mövzulara aid tapşırıqlardan istifadə edilməyib. Tapşırıqların digər bölmələr üzrə paylanmasında məktəb kursunda mövzuların əhəmiyyətlilik dərəcəsi, tədris prosesində bölmələrə ayrılan vaxt və ixtisas qruplarının peşə xüsusiyyətləri nəzərə alınıb. Hər iki gün üçün hazırlanan tapşırıq variantları analoji olaraq eyni mürəkkəblik dərəcəsinə, eyni relevantlıq kateqoriyalarına malik olmaqla, eyni bölmələri əhatə edib. Qapalı şəraitdə yekun ekspertiza keçirilib, qapalı, cavabları kodlaşdırılan açıq tipli tapşırıqların doğru cavab etalonları və cavabları yazı ilə ifadə olunan açıq tipli tapşırıqların qiymətləndirilmə meyarları dəqiqləşdirilib və təsdiq edilib.

İmtahanlar keçirilən günlərdə imtahanlardan dərhal sonra aparılmış müstəqil ekspertiza nəticəsində qapalı və cavabları kodlaşdırıla bilən açıq tapşırıqların etalonları bir daha təsdiq edilərək elə həmin günlərdə Dövlət İmtahan Mərkəzinin "***Youtube***" kanalı vasitəsilə canlı yayımla ictimaiyyətə təqdim olunub.

Cavabları yazı ilə ifadə olunan tapşırıqların qiymətləndirilmə meyarları bir daha dəqiqləşdirilib və tapşırıqlar müəyyən vaxt ərzində markerlər tərəfindən yoxlanılıb və nəticələr DİM-in internet saytı ilə elan edilib.

COVID-19 pandemiyası ilə bağlı ölkədə tətbiq edilən xüsusi karantin qaydaları nəzərə alınaraq, bu il elmi-metodiki seminarların əvəzinə fənlər üzrə işçi qruplarında imtahan nəticələrinin statistik göstəriciləri əsasında imtahanlarda istifadə olunmuş tapşırıqlar mürəkkəblik dərəcəsi, relevantlıq kateqoriyası və məzmun baxımından təhlil edilib. Təhlil nəticəsində tapşırıqların respublikanın ümumtəhsil müəssisələrində qüvvədə olan fənn kurikulumlarının təlim nəticələrinə, seçilmiş alt standartların tələblərinə və dərsliklərdəki materiallar əsasında hazırlanmış qəbul proqramlarına uyğunluğu bir daha təsdiqini tapıb.

İşçi qrupları tərəfindən aparılan təhlil onu da göstərib ki, tapşırıqlarla abituriyentlərin müvafiq fənn kurikulumunun təlim nəticələrinə uyğun bilik və bacarıqlarını yoxlamaq, obyektiv qiymətləndirmək mümkün olub.

Təhlil nəticəsində həmçinin abituriyentlərin cavab verməkdə çətinlik çəkdikləri tapşırıqlar müəyyənləşdirilib və həmin tapşırıqlar araşdırılıb, onların izahına dair metodik tövsiyələr hazırlanıb, müvafiq fənlər üzrə test banklarının təkmilləşdirilməsi üçün təkliflər verilib.

Aşağıda ayrı-ayrı fənlər üzrə aparılmış elmi-metodik təhlilin nəticələri təqdim olunur:

Azərbaycan dili fənnindən III ixtisas qrupu üzrə qəbul imtahanlarında istifadə edilmiş tapşırıqlar fənn kurikulumunun 3 (**"Oxu", "Yazı"** və **"Dil qaydaları"**) məzmun xətti üzrə 5 əsas və 65 alt standartın reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edir. Tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarında Azərbaycan dili fənnindən **"Oxu"** və **"Yazı"** məzmun xətləri üzrə alt standartların tələbi olan bacarıqlar yetərincə yoxlandığından, qəbul imtahanlarında daha çox **"Dil qaydaları"** məzmun xəttinə aid bilik və bacarıqlar yoxlanılmışdır. Mətn tapşırıqları isə digər məzmun xətlərinə aid bacarıqların yoxlanmasına yönəlmişdir.

Qəbul imtahanında istifadə edilmiş tapşırıqlar abituriyentlərin aşağıdakı bilik və bacarıqlarının yoxlanılması, qiymətləndirilməsi üçün nəzərdə tutulub:

- öyrəndiyi söz və ifadələri üslubi xüsusiyyətlərinə görə izah etmək;
- söz və ifadələrə əsasən oxuduğu mətnləri üslubi xüsusiyyətlərinə görə müqayisə edib qiymətləndirmək;
- mətnin hissələrini (giriş, əsas hissə, nəticə), abzasları, cümlələri, onlar arasında bağlama vasitələrini təhlil etməklə məzmunun aydın ifadə olunmasına təsirini izah etmək;
- mövzuya uyğun üslub seçməklə fikirlərini yazılı şərh etmək;
- üslubi tələblər baxımından özünün və başqasının yazısını təkmilləşdirmək;
- qrammatik-semantik xüsusiyyətlərini gözləməklə sözlərdən üslubi imkanlarına görə istifadə etmək;
- nitqin düzgünlüyünü və ifadəliliyini təmin edən durğu işarələrindən istifadə etmək;
- mətnin tərtibatına və üslubuna uyğun düzgün yazı bacarıqları nümayiş etdirmək.

İmtahan nəticələrinin statistik göstəricilərinin təhlili onu deməyə əsas verir ki, abituriyentlər ana dilinin qayda-qanunlarını öyrənməyə meyil göstərmiş, onlarda bu sahədə nəzəri və praktik bilikləri əlaqələndirəbilmə qabiliyyəti formalaşmışdır. Bu isə müstəqillik dövründə Respublikada dövlət tərəfindən ana dilinə göstərilən diqqət və qayğı ilə bağlıdır. Gənc nəsil ana dilini daha yaxşı mənimsəməyə, ondan qüsursuz istifadə etməyə böyük önəm verir.

Müxtəlif variantlarda eynitipli tapşırıqların cavablandırılma göstəricilərinin yaxın olması tapşırıqların düzgün qurulduğunu göstərir. Təhlilin nəticəsi həm də müxtəlif mövzularda olan tapşırıqların abituriyentlər tərəfindən cavablandırılma səviyyəsinin fərqli olduğunu deməyə əsas verir. Bu hal daha çox mövzunun tədrisi və təkrar edilməsi vəziyyəti ilə bağlıdır. Abituriyentlərin daha yaxşı cavablandırdıqları mövzular

sözlərin səs və hərf tərkibinə görə təhlili, sifət, tabesiz mürəkkəb cümlənin tərəfləri arasında məna əlaqələri, cümlələrin üslubi xüsusiyyəti, feilin təsriflənməyən formaları və s.-dir.

Abituriyentlərin ən zəif cavablandırdıqları mövzular cümlədəki sözlərin morfoloji təhlili, morfoloji kateqoriyaların müəyyənləşdirilməsi ilə bağlıdır. Burada sözlərin hansı nitq hissəsinə aidliyi, bu nitq hissəsi ilə bağlı hansı qrammatik xüsusiyyətlərə malik olması, sözlərdəki şəkilçilərin mənsubiyyəti və s. müəyyənləşdirmək tələb olunur.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahları təqdim olunur:

6-cı sinif

4.1.2. Sözün qrammatik mənasını kontekstə uyğun izah edir.

13 avqust tarixli imtahan, A variantı, 25 saylı test tapşırığı

Sinifdəki gərginlik səylə çalışmağımıza mane olurdu nümunəsindəki sözlərlə bağlı düzgün fikirləri müəyyən edin.

1. Sinifdəki – isimdən düzələn yer zərfidir.
2. Gərginlik – düzəltmə sifətdən yaranmış isimdir.
3. Səy – isim; *lə* – qoşmadır.
4. Çalışmağımıza – mənsubiyyət və hal şəkilçili düzəltmə feildir.
5. Mane olurdu – xəbər şəklində *idi* hissəciyi ilə işlənmiş feildir.

6-cı və 7-ci sinif tədris proqramı səviyyəsində olan açıq tipli tapşırıqdır. Tapşırığa abituriyentlərin 17,24%-i doğru cavab verib, 73,53%-i yanlış cavab verib, 9,23%-i cavab verməkdən imtina edib. Birinci bənddəki fikir səhvdir, çünki "sinifdəki" sözü isimdən (sinif) yaransa da, yer zərfi deyil. Düzdür, burada sözün daxili məzmununda yer anlayışı var, lakin yer anlayışı olan bütün sözləri yer zərfi hesab etmək olmaz. "Sinifdəki" sözü "hansı?" sualına cavab verib məkanla müəyyənləşən əlamət məzmununa malikdir və ona görə də sifətdir. İkinci bənddəki fikir düzgündür, ona görə ki, "gər(mək)" sözündən *-gin* şəkilçisi vasitəsilə "gərgin" sifəti, "gərgin" sifətindən isə "gərginlik" ismi yaranmışdır. Onu da demək lazımdır ki, çox zaman sözün kökü ilə həmin sözün hansı sözdən yaranması məsələsi qarışdırılır. Bu sözdə də nəzərə almaq lazımdır ki, "gər(mək)" feili kökdür, lakin "gərginlik" sözü həmin kökdən yaranmamışdır. Hər hansı sözün hansı komponentdən yarandığını müəyyən etmək üçün sonuncu leksik şəkilçinin artırıldığı hissəyə nəzər salmaq lazımdır. Bu sözdə isə isim düzəldən *-lik* şəkilçisi birbaşa "gər(mək)" feilinə deyil, həmin feildən düzələn "gərgin" sifətinə artırılmışdır. Deməli, "gərginlik" ismi "gərgin" sifətindən yaranmışdır. Üçüncü bənddəki fikir səhvdir; belə ki, cümlədəki "səylə" sözü nitq hissəsi olaraq tərzi-hərəkət zərfidir. "İlə" qoşma olduqda qrammatik anlayış olaraq yeni söz yaratmır, ona görə də sözə verilən sualda qalır: nə ilə? Burada isə belə fakt yoxdur, əksinə, söz yalnız "necə?, nə cür?, nə tərzdə?" suallarına cavab verir ki, bu da leksik anlamda yeni nitq hissəsi deməkdir, yəni "səylə" sözü qoşmalı isim deyil, bütünlükdə zərfdir. Dördüncü bənddəki fikir də səhvdir. Burada mənsubiyyət (-ımız) və hal şəkilçisi (-a) vardır, həm də söz feilin məsdər formasındadır. Lakin bu sözü quruluşca düzəltmə hesab etmək olmaz, çünki istər məsdər (-maq), istər mənsubiyyət, istərsə də hal şəkilçiləri qrammatik şəkilçidir, "çalış" sözü isə sadə feildir. Deməli, burada leksik şəkilçi olmadığından sözün düzəltmə feil olması haqqındakı fikir səhvdir. Beşinci bənddəki fikir düzgündür, ona görə ki, "mane olurdu" sözü feildir, *-ur* indiki zaman şəkilçisidir, ondan sonra işlənən *-du* "idi" hissəciyinin şəkilçiləşmiş formasıdır.

Doğru cavab: 2, 5

Əvvəlki illərdə olduğu kimi, 2020-ci ilin qəbul imtahanlarında da ədəbi dilin normaları ilə bağlı test tapşırıqlarının cavablandırılmasında abituriyentlər çətinlik çəkmişlər.

10-cu sinif

4.1.2. Sözün qrammatik-məna xüsusiyyətlərini gözləməklə ədəbi dil normalarına riayət edir.

13 avqust tarixli imtahan, A variantı, 27 saylı test tapşırığı

Qrammatik normanın pozulması ilə bağlı uyğunluğu müəyyən edin.

1. Söz sırası pozulmasına görə.
2. Şəkilçilərin ardıcıllığının gözlənilməməsinə görə.
3. Mübtəda ilə xəbər arasında uzlaşmanın pozulmasına görə.

a. Üfüqə baş qoyur mürgülü günəş. (S. Vurğun)

b. Onlar vətən uğrunda canlarından keçmişlərdir, dostum.

c. Hər üçü birdən cavab verdilər.

d. Dalğalar hey tələtümlə çırpınırdı.

e. Eşit harayımı, ay mehribanım. (M. İsmayıl)

10-cu sinfin proqramına aid açıq tipli bu tapşırıqda qrammatik norma üzrə uyğunluğun pozulduğu faktların müəyyənləşdirilməsi tələb olunur. Tapşırığa abituriyentlərin 27,22%-i doğru cavab verib, 58,30% -i yanlış cavab verib, 14,48%-i cavab verməkdən imtina edib. Tapşırığın **a**. və **e.** bəndlərindəki nümunələrdə söz sırasının gözlənilməməsinə görə normanın pozulması faktı müşahidə olunur; belə ki, **a.** bəndindəki nümunədə cümlənin əvvəlində verilməli olan mübtəda və ona aid olan təyin tamamlıq və xəbərdən sonraya keçmişdir. **e.** bəndindəki nümunədə də tamamlıq xəbərdən sonraya keçdiyi üçün yenə söz sırasının pozulması faktı ortaya çıxır. İkinci bənddə şəkilçilərin ardıcıllığının gözlənilməməsinə görə normanın pozulduğu fakt müəyyənləşdirilməlidir. **b.** bəndindəki nümunə bu qrupa aiddir; buradakı feili xəbərdə *-dir+lər* ardıcıllığına malik olan şəkilçilər *–lər+dir* kimi sıralanmışdır. Üçüncü bənddə mübtəda ilə xəbər arasında uzlaşmanın pozulduğuna aid nümunə müəyyənləşdirilməlidir. **c.** bəndindəki nümunə bu qrupa aiddir. Bu cümlənin mübtədası "hər üçü" birləşməsidir ki, kəmiyyətcə tək hesab edilir. Mübtədaya uyğun olaraq, bu cümlənin xəbəri də təkdə olmalı idi, lakin cəmdə olduğu üçün uzlaşma pozulmuşdur.

Doğru cavab: 1-a,e; 2-b; 3-c

10-cu sinif

4.1.2. Sözün qrammatik-məna xüsusiyyətlərini gözləməklə ədəbi dil normalarına riayət edir.

14 avqust tarixli imtahan, A variantı, 27 saylı test tapşırığı

Cümlələrdə ədəbi dilin normalarının pozulması baxımından uyğunluğu müəyyən edin.

1. fonetik norma
2. leksik norma
3. qrammatik norma

a. Kənd camaatının çoxu bu məsələdən xəbərsiz idilər.

b. Ağacdakı meyvələr yerə töküldü.

c. Sədaqət atlaz donunu həvəslə geyindi.

d. Belə işdəsək, sabah işi qurtaracağıq.

e. Vətən müharibəsi haqqında film yazılmışdır.

Ədəbi dilin normaları ilə bağlı bu tapşırığa abituriyentlərin 16,45%, -i doğru cavab verib. Tapşırığın yerinə yetirilməsi üçün ədəbi dil normalarının hər birinə: fonetik norma orfoqrafik və orfoepik qaydalara riayət olunması lazımdır. Verilmiş nümunədə yalnız bu qaydalardan biri olan orfoqrafik normanın, yəni sözlərin düzgün yazılışının pozulması nəzərdə tutulur. Bu baxımdan **d.** bəndi uyğun cavabdır, çünki burada "işləsək" sözü tələffüz formasında, yəni "işdəsək" kimi verilmişdir. Deməli, **1-d** cavabı düzgündür. Leksik normaya görə sözlərin mənasına bələd olmaq və onları yerinə görə düzgün işlətmək tələb olunur. Bu baxımdan **e.** bəndində leksik norma pozulmuşdur, çünki film yazılmaz, çəkilər. Deməli, **2-e** cavabı düzgündür. Qrammatik normada sözlərin düzgün əlaqələnməsi, söz və şəkilçilərin düzgün sıralanması tələb olunur. Bu cəhətdən **a.** bəndində qrammatik norma, daha dəqiqi, uzlaşma əlaqəsi kəmiyyət baxımından pozulmuşdur, çünki cümlənin mübtədası olan "kənd camaatının çoxu" birləşməsi kəmiyyətcə təkdədir və onunla uzlaşma əlaqəsində olan xəbər (xəbərsiz idilər) də təkdə olmalı idi. Deməli, **3-a** cavabı düzgündür.

Doğru cavab: 1-d; 2-e; 3-a

Abituriyentlərin zəif nəticə göstərməsinin səbəblərindən biri terminlərin zəif mənimsənilməsidir. Düzdür, müasir imtahan materiallarında praktik tapşırıqlar üstünlük təşkil edir, lakin hər hansı elmin əsasında, ilk növbədə terminlər durur. Terminləri bilmədən hər hansı elmi fikri dəqiq anlamaq və tapşırıqları yerinə yetirmək mümkün deyil. Ona görə də hər hansı bir sahə üzrə elmi bilik alan şəxs mütləq həmin elmin terminlərini mənimsəməlidir. Lakin abituriyentlərin bu tipli test tapşırıqlarını zəif cavablandırması bu sahədə hələ də problemlərin olduğunu göstərir.

9-cu sinif

4.1.1. Mürəkkəb cümlənin növlərini fərqləndirir.

13 avqust tarixli imtahan, A variantı, 24 saylı test tapşırığı

Bağlayıcı söz işlənmiş tabeli mürəkkəb cümlələri müəyyən edin.

1. Kim ki öyrənməyi ar bilmir, o, istədiyinə nail olacaq.
2. Pislik niyə edirsiniz, axı pislik görərsiniz.
3. Nə tökərsən aşına, o da çıxar qaşığına.
4. Akif hiss elədi ki, atasının ona hörməti artıb.
5. Hara ata-ana məhəbbəti ilə bəzənibsə, ora gözəldir.

9-cu sinif proqramına uyğun olan bu açıq tipli tapşırıqda baş və budaq cümlənin bağlayıcı sözlə əlaqələndiyi tabeli mürəkkəb cümlələrin müəyyənləşdirilməsi tələb olunur. Tapşırığa abituriyentlərin 34,04%-i doğru cavab verib, 52,47%-i yanlış cavab verib, 13,49%-i cavab verməkdən imtina edib.

Bağlayıcı söz morfoloji cəhətdən sual əvəzliyi olub, birinci yerləşən budaq cümlə içərisində işlənir və budaq cümləni baş cümləyə bağlamağa xidmət edir. Test tapşırığının dörd bəndində olan cümlələrdə sual əvəzliyi vardır, yalnız dördüncü bəndin nümunəsində sual əvəzliyi, deməli, bağlayıcı söz yoxdur. Sual əvəzliyi birinci yerdə yerləşən budaq cümlənin tərkibində olduqda bağlayıcı söz funksiyasını yerinə yetirir. Lakin ikinci bənddəki nümunə səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlədir, ona görə də tələbə cavab vermir. Digər üç nümunədə, yəni birinci, üçüncü və beşinci cümlələrdə bağlayıcı sözdən istifadə edilmişdir. Birinci bənddəki nümunədə ikinci komponent baş cümlədir və mübtəda budaq cümləsini tələb edir: Kim istədiyinə nail olacaq? — Kim ki öyrənməyi ar bilmir. Budaq cümlədəki "kim ki" ifadəsi bağlayıcı sözdür. Həmin ifadənin sayəsində budaq cümlə özündən sonra əsas olan komponenti tələb edir. Üçüncü bənddəki nümunədə də ikinci komponent baş cümlədir və mübtəda budaq cümləsini tələb edir: Nə çıxar qaşığına?— Nə tökərsən aşına. Burada da "nə" sual əvəzliyi sintaktik baxımdan baş və budaq cümləni bağlayan bağlayıcı sözdür. Nəhayət, sonuncu bənddəki nümunə də eyni xarakterlidir; burada budaq cümlə olan birinci komponentdə işlənən "hara" bağlayıcı sözü baş və budaq cümlənin bağlanmasına xidmət etmişdir.

Doğru cavab: 1, 3, 5

Mürəkkəb cümlə, o cümlədən tabeli mürəkkəb cümlə abituriyentlərin zəif cavablandırdığı mövzulardandır.

9-cu sinif

4.1.1. Mürəkkəb cümlənin növlərini fərqləndirir.

13 avqust tarixli imtahan, A variantı, 18 saylı test tapşırığı

Alim tanıyıram ki, öz ömrünü ancaq elmi araşdırmalara həsr edib cümləsi haqqındakı fikirlərdən biri səhvdir:

A) Baş cümlədə ikinci dərəcəli üzv işlənmişdir.

B) Budaq cümlədə iki tamamlıq işlənmişdir.

C) □←○ sxeminə uyğundur.

D) Budaq cümlə baş cümləyə bağlayıcı ilə bağlanıb.

E) Baş cümlənin mübtədası isimlə ifadə olunub.

Tabeli mürəkkəb cümlə haqqında məlumat yeni dərslikdə daha konkretləşdirilmiş, yalnız baş və budaq cümlənin müəyyənləşdirilməsi və bunları bağlayan vasitələr haqqında məlumatla kifayətlənilmişdir. Bu isə tabeli mürəkkəb cümlə haqqında məlumatın daha tez mənimsənilməsinə şərait yaradır. Lakin tapşırığa abituriyentlərin yalnız 30,26%-i doğru cavab verib, 19,17%-i cavab verməkdən imtina edib. Konstruksiyanın birinci komponenti baş cümlədir; belə ki, bu komponentdən sual doğur: Necə alim tanıyıram? Cavab kimi ikinci komponent meydana çıxır, deməli, ikinci komponent budaq cümlədir. Ona görə də **C** bəndinə aid fikir düzgündür. Baş və budaq cümlənin bağlanmasında "ki" bağlayıcısından istifadə olunmuşdur. Ona görə də **D** bəndindəki fikir düzgündür. Baş cümlə iki cümlə üzvündən ibarətdir: ikinci dərəcəli üzv olan qeyri-müəyyən tamamlıq (*alim*-i) və feili xəbər (*tanıyıram*). Deməli, **A** bəndindəki fikir də düzgündür. Cümlədə mübtəda iştirak etmədiyi üçün **E** bəndindəki fikir səhvdir. Budaq cümlədə (Öz ömrünü ancaq elmi araşdırmalara həsr edib) iki tamamlıq: vasitəli (araşdırmalara) və vasitəsiz (ömrünü) tamamlıqlar olduğuna görə **B** variantındakı fikir də düzgündür.

Doğru cavab: E

Müəyyən cədvəl, diaqram və qrafiklər üzrə tapşırıqların yerinə yetirilməsi ilə bağlı abituriyentlərin müəyyən təcrübəsi var. Bu tip tapşırıqlar müxtəlif mürəkkəblik dərəcəsində tərtib olunur. Ona görə də bu tip tapşırıqların cavablandırılma səviyyəsi də fərqli olur.

5-ci sinif

4.1.1. Cümləni məqsəd və intonasiyaya görə növlərinə ayırır.

6-cı sinif

4.1.1. Cümlənin qrammatik əsasını müəyyənləşdirir.

7-ci sinif

4.1.2. Sözləri ümumi qrammatik mənalarına görə fərqləndirir.

8-ci sinif

4.1.1. Sadə cümlənin növlərini fərqləndirir.

14 avqust tarixli imtahan, A variantı, 25 saylı test tapşırığı

Verilmiş nümunələrə əsasən Eyler-Venn diaqramındakı ***yanlış*** fikirləri müəyyən edin.

I Çən-duman tutmuş yolla gedən maşın dönə-dönə istiqaməti müəyyən etməyə çalışırdı.

II Kənd uşaqları mahnı qoşa-qoşa dar cığırla irəliləyir, ətrafa səs-küy yayırdılar.



Tapşırıq müxtəlif mövzular üzrə bilikləri əlaqələndirir və bir çox alt standartların tələbini əks etdirir. Sintaksis bölməsi ilə bağlı açıq tipli tapşırıqdır, lakin diaqram üzrə düzgün fikirlərin deyil, yanlış fikirlərin müəyyənləşdirilməsi tələb olunur. Tapşırığa abituriyentlərin 20,45% -i doğru cavab verib.

Verilmiş cümlələrdən hər ikisində mübtəda (“maşın”, “kənd uşaqları”) olduğundan müəyyən şəxsli cümlələrdir. Bu baxımdan birinci fikir kəsişən dairədə olmalı idi, deməli, yerinə görə səhvdir. Hər iki cümlədə eyni sözün təkrarı ilə düzəlmiş söz (“dönə-dönə”, “qoşa-qoşa”) vardır, lakin birinci cümlədəki sözü həm feili bağlama, həm də zərf kimi təhlil etmək olar. İkinci cümlədəki sözü isə yalnız feili bağlama kimi təhlil etmək olar. Ona görə də ikinci fikrin birinci dairədə verilməsi səhv deyil. Birinci cümlənin mübtədası isimlə (“maşın”), ikinci cümlənin mübtədası söz birləşməsi ilə (“kənd uşaqları”) ifadə olunduğundan üçüncü fikir birinci dairədə olmalı idi, kəsişən dairədə olması səhvdir. Cümlələrin ikisi də nəqli cümlə olduğundan dördüncü fikir düzgündür. İkinci cümlədə həmcins xəbərlər vardır (“irəliləyir”, “səs-küy salırdılar”), birinci cümlədə isə həmcins üzv yoxdur. Ona görə də beşinci fikir düzgündür. Hər iki cümlə sadə cümlə olduğundan hər ikisi bir qrammatik əsasa malikdir. Ona görə də altıncı fikir də səhvdir.

Doğru cavab: 1, 3, 6

İmtahanlarda üç tapşırıqlı mətndən də istifadə edilib. Belə tapşırıqlarla daha çox məntiqi düşüncə, faktları əlaqələndirmə və bunları dil materialı ilə ifadə edə bilmə bacarıqları yoxlanılır.

14 avqust tarixli imtahan, A variantı, mətn üzrə 29 saylı test tapşırığı

Bitkilər musiqidən təsirlənirmi?

Müasir zamanda insanlar əllərində olmayan səbəblərdən təbiətlə iç-içə yaşaya bilmirlər. Təbiəti sevən insanlar gül dibçəklərini, çiçəkləri evə gətirməyə ehtiyac duyurlar. Çox vaxt evlərimizə gətirdiyimiz çiçəklərin tez solmasının qarşısını almaq haqqında düşünməli oluruq.

Çiçək yetişdirənlərin fikrinə görə, çiçəklər musiqidən müsbət təsir alır və buna görə də gec solur. Bəs bu fikir doğrudurmu? Elm adamları bu hadisəni araşdırmaq istəsələr də, bitkilərin beyni olmadığı üçün axtarışlar nəticəsiz qalmışdır. Elmi dəlillərə əsaslanmasa da, musiqinin bitkinin inkişafına təsir etdiyini söyləyən həvəskar tədqiqatçılar var. Onlar fərqli musiqilərin səsləndirildiyi şəraitlərdə eyni növdən olan bitkilər yetişdirir və həmin bitkilərin inkişafında müxtəlif nəticələr əldə etdiklərini iddia edirlər.

Musiqinin bitkinin inkişafına müsbət təsir edib-etmədiyini hər bir şəxs özü **1** keçirməklə **2** edə bilər.

29. Mətndəki rəqəmlərin yerinə uyğun sözləri müəyyən edib yazın.

1.
2.

Ehtimal olunan doğru cavablar:

1. sınaq, təcrübə, eksperiment.

2. təsdiq, müşahidə, nəticə əldə etmək.

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
2 bal	A. Tələb olunan hər 2 boşluq doğru yazılır, yanlış fikir ***yazılmır;***
1 bal	B. Tələb olunan boşluqlardan 1-i doğru yazılır, digəri ***yazılmır*** və ya ***yanlış*** yazılır; C. Hər 2 boşluğa uyğun fikir yazılsa da, ***1 yanlış*** fikir də yazılır;
0 bal	D. 1 boşluğa düzgün fikirlə yanaşı, ***yanlış*** fikir də yazılır, digər boşluq ***yazılmır;*** E. Hər 2 boşluğa uyğun fikir yazılsa da, ***2 və daha çox*** yanlış fikir də yazılır; F. Hər 2 boşluq ***yanlış*** yazılır; G. Digər bütün hallarda.

Tapşırıqla 8-ci sinif səviyyəsində *3.1.3. (Mətnin hissələri, abzaslar və cümlələr arasında əlaqəni gözləməklə yazıya düzəlişlər edir)* alt standartının tələbləri üzrə bacarıqlar yoxlanılır. Abituriyentlərin 22,38%-i yazı işini tam yerinə yetirdiyinə görə 2 balla, 42,09% 0-i yarım balla, 30,21%-i 0 balla qiymətləndirilib. Tapşırıqda mətnin sonuncu cümləsindəki rəqəmlərin yerinə uyğun sözlərin müəyyən edilməsi tələb olunur. Cümlənin məntiqi onu belə tamamlamağa imkan verir: *Musiqinin bitkinin inkişafına müsbət təsir edib-etmədiyini hər bir şəxs özü təcrübə (sınaq) keçirməklə müəyyən edə (dəqiqləşdirə) bilər.*

Təhlillər göstərir ki, abituriyentlərin çoxu müasir elmi biliklərə yiyələnsələr də, müxtəlif bacarıqları mənimsəsələr də, hələ də müəyyən mövzuların cavablandırılmasında çətinlik çəkirlər. Bu baxımdan, müvafiq fənn üzrə tədrisin səviyyəsini yüksəltməyə böyük ehtiyac vardır.

Azərbaycan dili istisna olmaqla tədris digər dillərdə aparılan təhsil müəssisələrinin şagirdləri üçün ***Azərbaycan dili (dövlət dili)*** fənnindən imtahanlarda istifadə edilmiş test tapşırıqları fənn kurikulumunun 2 (**"Oxu"** və **"Yazı"**) məzmun xətti üzrə 9-cu sinif səviyyəsində 3 əsas, 22 alt standartın, 11-ci sinif səviyyəsində isə 3 əsas və 28 alt standartın reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Tapşırıqlar şagirdlərin

- oxuduğu mətndə sözlərin mənasını izah etmək;
- Azərbaycan dilində olan mətnlər üzərində işləmək, onların məzmunu haqqında mülahizələrini bildirmək;
- yazılı nitqində orfoqrafiya, qrammatika və durğu işarəsi qaydalarını tətbiq etmək;
- öz fikirlərini sərbəst, məntiqli ifadə etmək

kimi bilik və bacarıqlarının yoxlanılması, qiymətləndirilməsi üçün nəzərdə tutulub.

Qeyd etmək lazımdır ki, həm ümumi (9 illik) orta, həm də tam (11 illik) orta təhsil səviyyələrində buraxılış imtahanı verən şagirdlər dövlət dilindən də imtahan vermişlər. İmtahanlarda dil qaydaları ilə bağlı məntiqi təfəkkürə əsaslanan, praktiki əhəmiyyətli test tapşırıqları ilə yanaşı, oxuyub-anlamanı, dilin praktiki tətbiqini yoxlamaq məqsədilə bədii və publisistik üslublarda olan ontapşırıqlı iki mətndən istifadə olunub. Bu tapşırıqlarla mətndəki əsas fikri müəyyən etmək, faktları tutuşdurmaqla məntiqi nəticə çıxarmaq, fikri ümumiləşdirmək, mətndə verilən bir neçə məlumatdan yeni informasiya əldə etmək və s. kimi bacarıqlar yoxlanılıb.

İmtahan nəticələrinin statistik göstəriciləri əsasında test tapşırıqlarının hər biri məzmun, relevantlıq kateqoriyası və mürəkkəblik dərəcəsi baxımından təhlil edilib. Təhlil göstərib ki, test tapşırıqlarının məzmunu şagirdlərin nəzəri materialı necə mənimsədiyini, onların praktiki dil səviyyəsini, söz ehtiyatını və oxuyub-anlama bacarığını üzə çıxarmağa imkan verib və onların fənn üzrə hazırlıq səviyyələri ilbəil yüksəlib. Yanlış cavablar ümumi bala təsir etmədiyinə görə şagirdlər mümkün qədər tapşırıqların hamısını cavablandırmağa cəhd ediblər və bu da imtina faizinin olduqca aşağı olması ilə nəticələnib.

Təhlil onu da göstərib ki, bir sıra şagirdlər mətnlərin məzmununun mənimsənilməsi, verilmiş fikirlərin mətnin tərkib hissələri ilə əlaqələndirilməsi, sözlərin qrammatik mənalarının müəyyən edilməsi və s. məsələlərlə bağlı tapşırıqların cavablandırılmasında çətinlik çəkiblər.

Aşağıda şagirdlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahları təqdim olunur:

24 iyun tarixli imtahan, 9-cu sinif, A variantı, mətn üzrə 11 saylı test tapşırığı

Maharacadan ibrətamiz dərs

Cay Sinqh Maharaca Alvara günlərin birində Londonda gəzərkən o zaman məşhur olan "Rolls-Royce" avtosalonunu görür. Onu maraqlandıran modellərlə bağlı məsləhət almaq üçün salona daxil olur. Baş verir heç kəsin gözləmədiyi bir hadisə lakin. 1

Müştərinin monarx olduğunu bilməyən satıcı Maharacanın xarici görünüşünə nəzər salaraq, onu salondan qovur. Dərin bir sarsıntı keçirən Maharaca bunu heç cür bağışlaya bilməzdi. O, satıcını qeyri-adi üsulla cəzalandırmağa qərar verir. 2

Maharaca elə həmin avtosalondan 6 ədəd ən dəbdəbəli avtomobil alır və onların Hindistana çatdırılmasını xahiş edir. 3 Avtomobillər şəhərdəki məişət tullantılarının daşınması üçün bələdiyyəyə verilir. 4

Əlbəttə, bu, avtosalonun reputasiyası üçün böyük ..... idi. Yeni zibilyığan maşınlar barədə xəbər bütün dünyaya yayılır. Şirkətin gəlirləri kəskin şəkildə azalır. 5

Məsələnin nə ilə əlaqəli olduğunu anlayan "Rolls-Royce" rəhbərliyi təşviş içində Maharacaya teleqram yollayır. Üzrxahlıq məqsədilə ona altı avtomobil hədiyyə edilir. Maharaca kobud satıcını bağışlamağa qərar verir.

11. Verilmiş fikirlərdən hansı mətnin əsas hissəsinə aid ***deyil***?

A) Monarx varlı adama bənzəmirdi.

B) "Rolls-Royce" rəhbərliyi Maharacadan üzr istəyir.

C) Maharaca bahalı maşınlar alır.

D) Maharaca satıcını cəzalandırmaq istəyir.

E) Şirkətin maşınları təyinatı üzrə istifadə olunmur.

Mətnlə bağlı olan bu tapşırıq 5-ci sinif səviyyəsində 3.1.3. *Mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir* alt standartının tələbi olan bacarıqların yoxlanılmasına xidmət edir. Tapşırığa şagirdlərin 14,04%-i doğru cavab verib. 26,32%-i yanlış olaraq **A** bəndini, 35,96%-i isə **E** bəndini doğru cavab kimi qeyd edib, 1,75%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün mətnin məzmununu dəqiq mənimsəmək, söz və ifadələrin mənasını başa düşmək, mətni tərkib hissələrinə ayırmaq, tərkib hissələri arasındakı fərqi və əlaqəni dəqiq müəyyənləşdirmək əsas şərtlərdəndir. Bilmək lazımdır ki, mətnin giriş hissəsində mövzu haqqında bir-iki cümlə ilə ümumi məlumat verilir və mətnin məzmunu haqqında ilkin təsəvvür yaradılır. Birinci abzas, əsasən, giriş hissəni təşkil edir. Əsas hissədə mətndəki hadisə dolğun şəkildə təsvir olunur. Əsas hissə bir neçə abzasdan ibarət ola bilər. Yekun hissədə mətndəki hadisə ümumiləşdirilir, əhvalatın nəticəsi verilir. Mətnin son abzası, əsasən, nəticəni bildirir.

Mətnin məzmununun ardıcıllığı və hissələri nəzərə alınanda **B** bəndindəki fikrin əsas hissəyə deyil, mətnin nəticə hissəsinə aid olduğunu görmək olar. Belə ki, "Rolls-Royce" rəhbərliyinin Maharacadan üzr istəməsindən mətnin son abzasında, yəni nəticə hissəsində bəhs olunur. **A** bəndində verilən fikir mənin əsas hissəsinə aiddir. Belə ki, mətnin əsas hissəsində satıcının Maharacanı xarici görünüşünə görə kasıb bildiyi və salondan qovduğu yazılır. **C** bəndindəki fikir (Maharaca bahalı maşınlar alır) əsas hissəyə aiddir. **D** bəndindəki fikir də (Maharaca satıcını cəzalandırmaq istədi) əsas hissədədir. Şirkətin maşınlarının təyinatı üzrə istifadə olunmaması üzrə **E** bəndində verilən məlumat da mətnin əsas hissəsindədir. Belə ki, mətndə haqqında bəhs olunan avtomobillər zibil daşımaq üçün deyildi, lakin Maharaca satıcını cəzalandırmaq üçün bu yeni modelli dəbdəbəli avtomobillərlə məişət tullantıları, zibil daşıtdırdı və şirkəti nüfuzdan saldı.

Doğru cavab: B

24 iyun tarixli imtahan, 9-cu sinif, B variantı, 2 saylı test tapşırığı

3.1.1. *Mətndəki əsas nitq hissələrini qrammatik mənasına görə izah edir.*

Zərf və say kimi işlənə bilən sözləri müəyyən edin.

1. az 2. ikinci 3. xeyli 4. bir-bir
5. bir qədər 6. minlərlə

A) 4, 5, 6 B) 1, 3, 4 C) 1, 2, 4 D) 2, 5, 6 E) 1, 3, 5

Tapşırığa şagirdlərin 27,19%-i doğru cavab verib, 1,77%-i cavab verməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün nitq hissələri haqqında məlumata, onların işlənmə məqamına dərindən bələd olmaq lazım idi. Aydındır ki, ümumi qrammatik mənasına görə say əşyanın miqdar və sırasını bildirir, *neçə? nə qədər? neçənci?* suallarından birinə cavab verir. Saylar aid olduğu əşyadan(isimdən) əvvəl gəlir və onu təyin edir. Məsələn:

Həyətdə[isim] xeyli[say] uşaq[isim] var idi.

Zərf isə ümumi qrammatik mənasına görə hərəkətin tərzini, zamanını, yerini, miqdarını bildirir, əsasən, cümlənin zərfliyi olur. Məsələn:

İgidlərimiz[sifət] Qarabağda[isim] qəhrəmancasına[zərf] vuruşur[feil], hər gün[zərf] qələbələrlə[zərf] irəli[zərf] gedirlər[feil].

Test tapşırığında verilmiş "az", "xeyli" və "bir qədər" sözləri həm say kimi işlənərək adlara, həm də zərf kimi işlənərək hərəkətə aid ola bilir. Məsələn:

Say kimi: *az adam; xeyli kitab; bir qədər istiot.*

Zərf kimi: *az danışmaq; xeyli irəliləmək; bir qədər istirahət etmək.*

Test tapşırığındakı digər sözlər isə yalnız say kimi işlənib, əşyaya aid ola bilir.

Doğru cavab: E

11 iyun tarixli imtahan, 11-ci sinif, A variantı, 5 saylı test tapşırığı

4.1.3. *Sait və samitlərin, mürəkkəb sözlərin yazılış qaydalarına, cümlənin sonunda və dialoqlarda durğu işarələri qaydalarına əməl edir.*

Hansı söz ***səhv*** yazılıb?

A) ekspert B) hökmlü C) müdafiyə D) sədrlik E) pilləkən

Orfoqrafiya qaydaları ilə bağlı bu tapşırığa şagirdlərin cəmi 35,58%-i doğru cavab verib, 1%-i isə cavab verməkdən imtina edib. Digər şagirdlər müxtəlif yanlış bəndləri qeyd ediblər.

Tapşırığın verilməsində əsas məqsəd düzgün yazı qaydaları üzrə bacarıqları yoxlamaqdır. Sözlərin düzgün yazılışını mənimsəmək həm düzgün bilik, həm də möhkəm hafizə və diqqət tələb edir. Tapşırıqda nümunə kimi verilən sözlər gündəlik həyatda tez-tez rast gəlinən sözlərdir. **C** bəndində verilmiş "müdafiyə" sözü, əslində, tələffüz şəklindədir. Bu sözün yazılış şəkli "müdafiə" olmalıdır. Söz 7 hərfdən, 8 səsdən ibarətdir. Yəni tələffüz zamanı qoşa saitlərin arasına [y] səsi artırılır: müdafiə - [müdafiyə]. **E** bəndindəki "pilləkən" sözünün yazılışı düzgündür. Bəzən yanlış olaraq qalın saitlərlə tələffüz edilsə də, bu söz incə saitlərlə yazılır. **B** və **D** bəndlərində verilən "hökm", "sədr" kimi sözlər təkhecalı sözlərdir, samitlə başlayan şəkilçi qəbul etdikdə yazıda heç bir dəyişiklik yaranmır. **A** bəndindəki "ekspert" sözünün yazılışı da düzgündür.

Doğru cavab: C

11 iyun tarixli imtahan, 11-ci sinif, B variantı, mətn üzrə 12 saylı test tapşırığı

Peşmanlıq

I Ala-bəzək geyimli cavan bir oğlan əlində tutduğu kağız bükümündəki gilasları yeyir, ətrafına baxa-baxa şəhər bağının yanından ötürdü. **Yediyi** gilasın tumlarını yığıb zibil qutusuna atmağa tənbəllik edir, birbaşa yerə tullayırdı. Axşamdan xeyli keçmişdi, xiyaban o qədər *sakitlik*[1] idi ki, ağır, *ahəngdar*[2] addımlardan, döşəməyə düşən tumların səsindən başqa heç nə eşidilmirdi. Cavan oğlan hər gün buralardan keçsə də, ...

II Səhər buradan işə gedəndə həmişə zibil içində gördüyü xiyabanı şüşə kimi tərtəmiz gördü. Sanki kimsə hamıdan tez durub xiyabanı silib-süpürmüşdü ki, adamlara *xoş*[3] olsun.

III Bu vaxt ağ önlüklü, gödəkə bir qadının əyilərək kağız qırıqlarını, tumları, siqaret kötüklərini yığdığını görəndə addımlarını saxlayıb xeyli baxdı. Qadın xiyabanı elə səylə, canıyananlıqla təmizləyir, sahmana salırdı ki, elə bil öz həyəti idi.

IV Adi hallarda heç diqqət yetirmədiyi, məhəl qoymadığı bu qadın cavan oğlana tam *fərqli*[4] göründü, bir anlıq gözündə böyüdü. **Dayanıb** xeyli baxdı. Fikirləşdi ki, pul təklif etsin, yaxınlaşıb təşəkkür etsin. Üzr istəmək barədə xeyli düşündü.

Üzünü qadına tərəf tutub:

– Xala, – dedi, – buralara zibil atan, sizin zəhmətinizi artıranlardan biri də mənəm. Sizin bu zəhmətinizi görüncə əməlli-başlı xəcalət çəkdim. Sizə necə təşəkkür eləyəcəyimi, xəcalətinizdən necə çıxacağımı bilmirəm.

V Qadın başını qaldırıb bir oğlana, bir də zibil qutusuna baxdı, başını aşağı salıb öz işinə davam etdi və *astadan*[5] dilləndi:

– **Keçdiyiniz** yerləri zibilləməmək həm mənə yaxşılıq, həm də özünüzə hörmət olardı.

12. Mətnin tərkib hissələrinə aid ***uyğunsuzluğu*** müəyyən edin.

A) Təmizlik edən qadın – əsas B) Qadının cavabı – nəticə C) Gilas tumları – giriş

D) Təmiz xiyaban – əsas E) Oğlanın etirafı – nəticə

Mətnin məzmunu ilə bağlı olan bu tapşırıq 6-cı sinif səviyyəsində 3.1.3. (*Mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir)* alt standartının tələbi olan bacarıqların yoxlanılması üçündür.

Tapşırığa şagirdlərin 40,29%-i doğru cavab verib, 2%-i cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün əvvəl mətni tərkib hissələrinə (giriş, əsas hissə, nəticə) ayırmaq və onları bir-birindən fərqləndirmək lazımdır. Mətnin birinci abzasında hadisə haqqında ilkin təsəvvür yaradılmışdır. Buna görə də birinci abzas mətnin giriş hissəsini təşkil edir. Beşinci abzasda qadının sözləri ilə mətndəki hadisəyə yekun vurulur və mətndən çıxan nəticə aydın olur. Buna görə də sonuncu abzas mətnin nəticə hissəsini təşkil edir. Yerdə qalan abzaslar isə mətnin əsas hissəsidir.

Mətnin birinci abzasında yediyi gilasların tumunu yerə tökən oğlandan söhbət gedir. Deməli, **C** bəndindəki fikir (Gilas tumları – giriş) doğrudur. Əsas hissədə oğlanın dünən zibillədiyi xiyabandan səhəri gün keçərkən hər yeri təmiz görməsindən bəhs olunur. Yaşlı bir qadın yerdən zibilləri hövsələ ilə, canıyananlıqla yığır, xiyabanı səliqəyə salırdı. Bunu görən oğlan ayaq saxlayır, qadına etiraf edir ki, buranı zibilləyənlərdən biri də odur. Və qadından üzr istəyir. Deməli, **A** (Təmizlik edən qadın), **D** (Təmiz xiyaban), **E** bəndlərindəki (Oğlanın etirafı) fikirlər əsas hissəyə aiddir. Nəticə hissədə bəhs olunana görə, qadın bir oğlana, bir də zibil qutusuna baxıb deyir:

– Keçdiyiniz yerləri zibilləməmək həm mənə yaxşılıq, həm də özünüzə hörmət olardı.

Beləliklə, E bəndindəki (Oğlanın etirafı – nəticə) fikir nəticəyə deyil, əsas hissəyə aiddir.

Doğru cavab: E

Tapşırıqları yüksək səviyyədə cavablandırmaq üçün dərsliklərdəki materialları öyrənməklə yanaşı, mənimsənilən biliklərin sistemləşdirilməsi, ümumiləşdirmələr aparılması lazımdır. Öyrənilmiş mövzulara, təqdim olunmuş mətnlərə məntiqi yanaşmaq, təhlil aparmaq, düzgün nəticə çıxarmaq çox vacibdir. Mətni, tapşırıqdakı sualları düzgün oxumaq, başa düşmək, tələb olunan sualları düzgün cavablandırmaq hər bir şagirdin diqqətindən, bacarıqlı və məntiqli olmasından çox asılıdır.

Azərbaycan bölməsində ***ədəbiyyat fənnindən*** III ixtisas qrupu üzrə qəbul imtahanlarında istifadə olunmuş tapşırıqlar fənn kurikulumunun müəyyən etdiyi 2 məzmun xəttinin (**"Ədəbiyyat və həyat həqiqətləri", "Yazılı nitq"**) 3 əsas və 61 alt standartının reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Test tapşırıqları şifahi xalq ədəbiyyatı, qədim dövr ədəbiyyatı, orta dövr ədəbiyyatı, yeni dövr ədəbiyyatı, Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm dövrü, sovet dövrü Azərbaycan ədəbiyyatı, Azərbaycan ədəbiyyatında milli özünüdərkə qayıdış və istiqlalçılıq mərhələsi, müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı, dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, mövzulararası əlaqə bölmələrinə aid olub.

Tapşırıqlar abituriyentlərin

- oxuduğu bədii nümunələri bədii-emosional və obrazlı qavradığını nümayiş etdirmək;
- bədii nümunələrin mövzu, süjet, kompozisiya, bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirmək;
- bədii nümunələri mövzu, janr, problem baxımından müqayisə etmək;
- bədii nümunələrin məzmununa və ideyasına yarandığı dövrün ictimai-siyasi və əxlaqi-etik dəyərləri kontekstində qiymət vermək;
- nitqində emosional-obrazlı ifadələrdən istifadə etmək;
- bədii nümunələrin məzmun və ideyası ilə bağlı fikirlərini əsaslandırmaqla şərh etmək

kimi bilik və bacarıqlarının yoxlanılması üçün nəzərdə tutulub.

İmtahan nəticələrinin statistik göstəriciləri onu deməyə əsas verir ki, bədii əsərlərin, yaxud bədii parçaların mənimsənilməsində müəyyən qədər irəliləyiş var. Belə ki, 13 avqust tarixli imtahanda M.İbrahimovun "Azad" hekayəsinin məzmunu ilə bağlı test tapşırıqlarında (A variantı 80 saylı) nəticələr

yüksək olmuşdur (60,04%). Eyni fikri həm H.Cavidin "İblis" faciəsi, həm də M.Füzulinin "Leyli və Məcnun" poeması ilə bağlı test tapşırıqlarına (A variantı 70 və 74 saylı) da aid etmək olar. Həmin test tapşırıqlarına abituriyentlərin cavabları müvafiq olaraq belə olmuşdur: 81,78% və 78,97%. Eləcə də 14 avqust tarixli imtahanda E.Heminqueyin "Qoca və dəniz" povesti və İ.Şıxlının "Namərd gülləsi" hekayəsi ilə bağlı verilən hadisələrin düzgün ardıcıllığının müəyyənləşdirilməsi (A variantı 67 və 74 saylı), həm də "Koroğlu" eposu və H.Cavidin "İblis" faciəsi ilə bağlı test tapşırıqlarında (A variantı 69 və 70 saylı) da həmin vəziyyət müşahidə edilir. Həmin test tapşırıqlarına abituriyentlərin cavabları müvafiq olaraq belə olmuşdur: 68,26%, 72,01% və 65,05%, 64,88%. 13 avqust tarixli imtahanda Ə.Haqverdiyevin "Bomba", S.Vurğunun "Vaqif" (A variantı 76 və 77 saylı), 14 avqust tarixli imtahanda isə M.F.Axundzadənin "Hekayəti-müsyö Jordan və dərviş Məstəli şah", Ş.İ.Xətayinin "Dəhnamə" əsəri ilə bağlı ümumiləşdirmə səciyyəli test tapşırığının cavablandırılmasında da eyni vəziyyət müşahidə edilir (A variantı 73 və 78 saylı). Abituriyentlərin test tapşırıqlarına verdiyi düzgün cavablar belə olub: 61,10%, 62,29%; 78,07%, 66,12%.

13 avqust tarixli imtahanda M.F.Axundzadənin "Aldanmış kəvakib" povesti ilə bağlı verilən test tapşırığına (A variantı 71 saylı) düzgün cavab verənlərin 54,28% təşkil etməsi M.F.Axundzadə irsinin öyrənilməsi sahəsində müəyyən irəliləyişin olduğunu göstərir. 13 və 14 avqust tarixli imtahanlarda N.Gəncəvinin "İsgəndərnamə" poeması ilə bağlı test tapşırıqlarında isə orta nəticə müşahidə edilir (A variantı 85 saylı; A variantı 84 saylı). Belə ki, abituriyentlərin bu test tapşırıqlarına düzgün cavabı 42,49% və 46,54% nisbətində olub.

Təhlillər göstərir ki, bəzi ədəbi nümunələrə aid test tapşırıqlarının cavablandırılmasında abituriyentlər çətinlik çəkiblər. Həm 13 avqust, həm də 14 avqust tarixli imtahanlarda N.Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi ilə (A variantı 83 saylı; A variantı 85 saylı) bağlı test tapşırıqlarında, demək olar ki, eyni vəziyyət müşahidə olunur: 35,19% və 24,07%. 13 avqust tarixli imtahanda Ə.Cavadın "Səsli qız" əsəri (A variantı 84 saylı), Anarın "Keçən ilin son gecəsi" dramı (A variantı 86 saylı), M.İbrahimovun "Gələcək gün" romanı (A variantı 87 saylı) ilə bağlı test tapşırıqlarında abituriyentlərin göstərdiyi nəticələr aşağı səviyyədə olmuşdur (müvafiq olaraq: 24,06%, 38,58%, 16,06%). Eyni fikri 14 avqust tarixli imtahanda S.Rüstəmin "Təbrizim" şeiri, Mir Cəlalın "Bahar" əsəri, M.Hüseynin "Odlu qılınc" hekayələri ilə bağlı istifadə edilmiş test tapşırığına (A variantı 72, 83 və 87 saylı) da aid etmək olar: 33,97%, 34,83%, 32,44%.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahları təqdim olunur:

10-cu sinif

1.1.5. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjet və kompozisiyalı bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə, metafora, metonimiya, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, inversiya) müəyyənləşdirir.

13 avqust tarixli imtahan, A variantı, 63 saylı test tapşırığı

Məcnun səhralara düşər yollarım,

Dönər ilğımlara Leyli bulaqlar. (M. Araz)

Nümunədə işlənmişdir:

A) metafora B) təşbeh, metonimiya C) təşbeh, simvol D) epitet, metonimiya E) epitet

Tapşırığa abituriyentlərin 33,89%-i doğru cavab verib, 17,04%-i B bəndini, 14,16%-i D bəndini doğru cavab kimi götürüb, 16,09%-i isə cavab verməkdən imtina edib.

Ədəbiyyat fənninin tədrisi zamanı ən çox diqqət yetirilən mövzulardan biri də bədii əsərlərin dili ilə bağlıdır. Belə ki, 5-11 siniflərdə tədris edilən əsərlərdə bədii təsvir vasitələrinin müəyyənləşdirilməsinə xüsusi diqqət yetirilir. Təqdim edilən test tapşırığında da nümunədə işlənmiş məcaz növünü müəyyənləşdirmək tələb olunur. Nümunədə işlənmiş "Məcnun" və "Leyli" xüsusi adları fikri qüvvətləndirmək üçün təyinedici söz kimi "səhralar" və "bulaqlar"a əlavə olunduğundan epitet sayılır.

Doğru cavab: E.

7-ci sinif

1.1.5. Heca vəznli şeirlərdə, süjetli bədii nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, təşbeh, mübaliğə, bədii sual, təkrir, litota) müəyyənləşdirir.

10-cu sinif

1.2.1. Müxtəlif vəznli şeirləri (heca, əruz, sərbəst) və süjetli bədii nümunələri (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) janr, dil baxımından müqayisə edir.

13 avqust tarixli imtahan, A variantı, 79 saylı test tapşırığı

Eyler-Venn diaqramına əsasən verilən nümunələrlə bağlı düzgün fikirləri müəyyən edin.

I - Qış günü qışlağı Qıraqbasanın,
Gözüdür Aranın, cümlə-cahanın,
Belə gözəl yerin, gözəl məkanın
Bir gözəl obası, hayıf ki, yoxdur! (M.P. Vaqif)

II - Günəş təki hər çıxanda səhərdən,
Alırsan Vaqifin əqlini sərdən.
Duaçınam, salma məni nəzərdən,
Əskik olmayasan sənadan, Pəri! (M.P. Vaqif)



A) 2, 3, 6 B) 1, 4, 5 C) 1, 4, 6 D) 2, 4, 6 E) 2, 3, 5

Həm 8-ci, həm də 10-cu sinfin "Ədəbiyyat" dərsliyi əsasında M.P.Vaqifin "Hayıf ki, yoxdur!" və "Pəri" qoşmalarına aid bu tapşırığa abituriyentlərin 38,11%-i doğru cavab verib, 35,90%-i A bəndini doğru cavab kimi götürüb, 13,85%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün şairin hər iki əsərinə dərindən bələd olmaq tələb olunur. Məlumdur ki, 8-ci sinifdə xüsusi tədris olunan "Hayıf ki, yoxdur!" qoşması özünün ictimai motivi ilə seçilir. 10-cu sinifdə keçilən "Pəri" qoşması isə Vaqifin yaradıcılığı üçün səciyyəvi olan mövzuya – şairin "ellər yaraşığı, ölkə gözəli" kimi tərənnüm etdiyi Pəriyə həsr edilmişdir. Odur ki, test tapşırığında M.P. Vaqifin şeirlərindən təqdim edilmiş nümunələrin hər ikisi qoşmanın orta bəndləri olduğu üçün 1-ci bənddəki fikir səhv sayılır. Birinci nümunə ictimai motivli "Hayıf ki, yoxdur!" qoşmasından, ikinci nümunə isə tərənnüm əsasında yazılmış "Pəri" qoşmasından götürüldüyü üçün doğru fikirlərdir. Hər iki örnək qoşma olduğu üçün 3-cü bənddə verilən fikir də doğrudur. 6-cı bənddəki "Rədifi vardır" fikri hər iki örnək üçün ortaq cəhət olduğundan orta xanada yazılmalı idi. Buna görə də doğru fikir hesab edilə bilməz.

Doğru cavab: E.

10-cu sinif

1.2.1. Müxtəlif vəznli şeirləri (heca, əruz, sərbəst) və süjetli bədii nümunələri (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) janr, dil baxımından müqayisə edir.

14 avqust tarixli imtahan, A variantı, 62 saylı test tapşırığı

Eyler-Venn diaqramına əsasən əsərlərin forma xüsusiyyətləri ilə bağlı düzgün fikirləri müəyyən edin.



A) 1, 4, 6 B) 2, 3, 6 C) 1, 3, 4
D) 1, 2, 5 E) 2, 3, 5

Mövzulararası əlaqə bölməsinə aid bu tapşırığa abituriyentlərin 26,92%-i doğru cavab verib, 36,15%-i B bəndini doğru cavab kimi götürüb, 12,04%-i isə cavab verməkdən imtina edib.

S.Ə.Şirvaninin 10-cu sinifdə tədris olunan "Guş qıl..." müxəmməsi və Q.Zakirin 8-ci sinifdə keçilən "Durnalar" qoşması ilə bağlı verilən fikirlər əsasında doğru olanları seçmək və tapşırığın yerinə yetirilməsi üçün onun şərtinə diqqət yetirmək lazımdır. 1-ci, 4-cü və 6-cı fikirlər məzmunla bağlı olduğuna görə doğru cavab hesab edilə bilməz. Eyler-Venn diaqramında verilən 2-ci bənddəki "Əruzun rəməl bəhrindədir", 3-cü bənddəki "Şeir vahidi bənddir" və 5-ci bənddəki "Rədifli şeirdir" fikirləri təqdim edilən nümunələrin forma xüsusiyyətlərinə aid düzgün fikirlərdir.

Doğru cavab: E.

10-cu sinif

3.1.2. Müşahidələrinə, əlavə məlumatlara əsaslanmaqla əsərin ideyasına, probleminə münasibət bildirir, ümumiləşdirmələr aparır, nəticə çıxarır.

14 avqust tarixli imtahan, A variantı, 72 saylı test tapşırığı

S. Rüstəmin "Təbrizim" şeiri ilə bağlı düzgün fikirlər əsasında klasteri tamamlayın.



1. Cənubi Azərbaycanın taleyi ilə bağlı siyasi mətləblər də öz əksini tapmışdır.
2. Şair oxucularını milli azadlıq uğrunda mübarizəyə səsləmişdir.
3. Otaylı-butaylı Azərbaycanın qəti şəkildə birləşəcəyinə dərin inam ifadə olunmuşdur.
4. Azərbaycanın ikiyə bölünməsi ilə bağlı tarixi hadisələr xatırlanmışdır.
5. Müəllif bədii təsvir və ifadə vasitələri hesabına fikrin obrazlı ifadəsinə nail olmuşdur.

A) 2, 3 B) 1, 5 C) 1, 2 D) 4, 5 E) 3, 4

Test tapşırığına abituriyentlərin yalnız 33,97%-i doğru cavab verib, 20,32%-i cavab verməkdən imtina edib. Tpşırığın yerinə yetirilməsi üçün S.Rüstəmin 9-cu sinifdə tədris olunan "Təbrizim" şeirinə bələd olmaq lazım idi. S.Rüstəmin "Təbrizim" şeiri ilə bağlı klasteri 1-ci bənddəki "Cənubi Azərbaycanın taleyi ilə bağlı siyasi mətləblər də öz əksini tapmışdır" və 5-ci bənddəki "Müəllif bədii təsvir və ifadə vasitələri hesabına fikrin obrazlı ifadəsinə nail olmuşdur" fikirləri ilə tamamlamaq mümkündür. Digər bəndlərdəki fikirlər isə yanlışdır.

Doğru cavab: B.

Məlum olduğu kimi, artıq iki ildir ki, imtahanlarda ədəbiyyat fənni üzrə mətn tapşırıqlarından da istifadə olunur. Digər tapşırıqlarda olduğu kimi, mətn tapşırıqlarının cavablandırılmasında da abituriyentlərin göstərdiyi nəticələr fərqli olmuşdur. Məsələn, 13 avqust tarixli imtahanda abituriyentlərin göstərdiyi nəticələr A variantı 88, 89 və 90 saylı test tapşırıqları üzrə müvafiq olaraq, 17,32; 2,09 və 6,07%, 14 avqust tarixli imtahanda isə A variantına aid eyni saylı mətn tapşırıqları üzrə nəticələr müvafiq olaraq 70,57; 20,28 və 42,91% təşkil etmişdir. Təhlillər göstərir ki, mətn tapşırıqları üzrə şagirdlərin göstərdiyi ən aşağı nəticə mətnlərin janrı, obrazların xarakteri və bədii ifadə vasitələrinin müəyyənləşdirilməsi ilə bağlı olmuşdur.

13 avqust tarixli imtahan, A variantı mətn üzrə 88,89, 90 saylı tapşırıqlar

S.S. Axundovun "Tamahkar" əsərindən parça

Q u l u. (Öz-özünə) Deyən gərək, a kaftar Hacı Murad, bu pulları kimə yığırsan, niyə yemirsən? Arvadın yox, oğlun yox, bir qızın var, o da bu gün-sabah çıxıb birinə gedər. Yenidən evlənməyə ömrün yox. Bu pulları kimə yığırsan? Adam pulu qazanar ya bu dünya üçün, ya axirət üçün. Bu dünyada yeyər, içər, xərclər. Axirət üçün də məscid-mədrəsə tikdirər, fağıra pul verər, yetimə paltar alıb qarnını doydurar. Bu zalım oğlunun tayı-bərabəri yoxdur səxavətdə. Az qalırıq, acından köpük qusaq. Allahın sirrinə təəccüb qalınmalıdır. Pulu götürüb eləsinə verir ki, sandığa doldurub gecə-gündüz keşiyini çəkir, mənim kimi oğlanı da ona nökər edir. Yəni belə malınyeməzin malını yemək haramdır? Mənə görə halaldan da halaldır. Ancaq

açarları əlimə sala bilmirəm, özü də nə duyursa, məni otağına qoymur. İndi gəlib məni burada görsə, həşirimi qatacaqdır. *(Pəncərədən baxır.)* Odur, gəlir, dədəmin evi yıxıldı.

88. Mətnə əsasən nöqtələrin yerinə uyğun olan sözü və klasteri tamamlayan fikri müəyyən edib yazın.



Ehtimal olunan doğru cavablar:



Qiymətləndirmə meyarı:

Bal şkalası	**Meyarlar**
2 bal	A. Tələb olunan hər 2 hissə doğru yazılır, yanlış fikir ***yazılmır;***
1 bal	B. Tələb olunan hər 2 hissə doğru yazılır, lakin hər hansı 1 hissəyə ***1 yanlış*** fikir də yazılır; C. Yalnız 1 hissəyə doğru yazılır, yanlış fikir ***yazılmır;*** D. Nöqtələrin yerinə doğru, xüsusiyyətə isə yanlış fikir yazılır;
0 bal	E. Yanlış fikirlərin sayı ***2 və daha*** çoxdur; F. Nöqtələrin yerinə ***yanlış*** fikir yazıldığı bütün hallarda; G. Digər bütün hallarda.

Qeyd 1: Xüsusiyyət hissəsində "*dramatik növün göstəricisidir, nəsr şəklindədir*" fikirləri ***doğru,*** "*nəzm şəklindədir*" fikri isə ***yanlışdır.***

Qeyd 2: Klasterdəki fikir təkrarlanarsa, ***nəzərə alınmır.***

Tapşırıqla 8-ci sinif səviyyəsində *1.1.4. (Bədii nümunələrin (dastan, hekayə, novella, dram, poema) janr xüsusiyyətlərini müəyyənləşdirir)* alt standartının tələbləri üzrə bacarıqlar yoxlanılır.

Tapşırığın tələbinə görə, mətnə əsasən klasterdə nöqtələrin yerinə uyğun olan sözü və klasteri tamamlayan fikri müəyyən edib yazmaq lazımdır. Klasterin birinci şaxəsində verilmiş ifadəyə əsasən nöqtələrin yerinə ***monoloq,*** klasterin ikinci şaxəsinə isə monoloqa aid xüsusiyyət yazılmalıdır. Məsələn, klasterin şaxəsinə monoloqa aid bu fikirlər yazıla bilər: *Qəhrəmanın digər surətlərə, yaxud özünə müraciətlə söylədiyi nitqdir; Obrazın daxili aləminin, xarakterinin açılmasına xidmət edir; Obrazın daxili aləmini, fikir və düşüncələrini əks etdirir* və s.

Abituriyentlərin 17,32%-i yazı işini tam yerinə yetirdiyinə görə 2 balla, 2,29%-i yarım balla, 43,35%-i 0 balla qiymətləndirilib, 37,04%-i isə cavab verməkdən imtina edib.

89. Mətnə əsasən Qulu və Hacı Murad obrazlarına aid xarakterik xüsusiyyətləri yazın.

Qulu	***Hacı Murad***
1.	1.
2.	2.

Ehtimal olunan doğru cavablar:

Qulu: *Qorxaq, deyingən, narazı, paxıl, xeyirxah düşüncəli.*

Hacı Murad: *xəsis (simic), ayıq (ehtiyatlı), tamahkar, zalım.*

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
2 bal	A. Hər iki obraza aid 2 doğru xarakterik xüsusiyyət yazılır, yanlış fikir ***yazılmır;***
1 bal	B. Hər iki obraza aid 1 doğru xarakterik xüsusiyyət yazılır, yanlış fikir ***yazılmır***; C. Obrazlardan birinə 2, digərinə isə 1 doğru xarakterik xüsusiyyət yazılır, yanlış fikir ***yazılmır*** və ya ***1 yanlış*** fikir yazılır; D. Yalnız 1 obraza aid 2 doğru xarakterik xüsusiyyət yazılır, yanlış fikir ***yazılmır*** və ya digər obraza aid xüsusiyyətlər ***yanlış*** yazılır;
0 bal	E. Yalnız 1 doğru xarakterik xüsusiyyət yazılır; F. Hər iki obraza aid 1 doğru və 1 ***yanlış*** xüsusiyyət yazılır; G. Hər iki obraza aid xarakterik xüsusiyyətlər ***yanlış*** yazılır; H. Digər bütün hallarda.

Qeyd 1: Quluya aid "*oğru, səxavətli, ədalətli, tamahkar, kasıb*" kimi fikirlər yanlışdır.

Qeyd 2: Hacı Murada aid "*varlı, əsəbi, kobud, hökmlü, hiyləgər, zəhmli*" kimi fikirlər yanlışdır.

Tapşırıqla 8-ci sinif səviyyəsində *1.2.2. (Obrazları nitqinə, bağlı olduqları məişət təsvirlərinə əsaslanmaqla səciyyələndirir)* alt standartının tələbləri üzrə bacarıqlar yoxlanılır. Hər obrazın xarakteri ilə bağlı ən azı iki xüsusiyyət müəyyən edilib yazılmalıdır. Mətndə obrazların xüsusiyyətləri hazır şəkildə verilmir, Qulunun monoloqundan aydın olur ki, o, xaraktercə qorxaq, tamahkar, acgöz, deyingən və s., Hacı Murad isə xəsis, ayıq və s.-dir. Bu xüsusiyyətləri müəyyənləşdirmək mətndəki fikirləri ümumiləşdirmə, nəticə çıxarma bacarıqları tələb edir.

Abituriyentlərin 2,09%-i yazı işini tam yerinə yetirdiyinə görə 2 balla, 40,16%-i yarım balla, 43,47%-i 0 balla qiymətləndirilib, 14,28%-i isə cavab verməkdən imtina edib.

90. Mətndə altından xətt çəkilmiş cümlələrdəki bədii ifadə vasitələrini müəyyən edib yazın.

Ehtimal olunan doğru cavablar:

"*Bu zalım oğlunun tayı-bərabəri yoxdur səxavətdə*" cümləsində mənfi cəhət müsbət mənalı sözlə pərdələnərək verildiyinə görə *kinayə*, söz sırası pozulduğu üçün isə *inversiya* vardır. "*Az qalırıq, acından köpük qusaq*" cümləsində isə *mübaliğə* işlənmişdir.

Kinayə, inversiya, mübaliğə, bədii təzad

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
2 bal	A. Tələb olunan 4 ifadə vasitəsindən 3 və ya 4 - ü doğru yazılır, yanlış fikir ***yazılmır;***
1 bal	B Tələb olunan 4 ifadə vasitəsindən 1- i və ya 2 - si doğru yazılır, yanlış fikir ***yazılmır;*** C. Tələb olunan 4 ifadə vasitəsindən 3 və ya 4 - ü doğru yazılmaqla ***1 yanlış*** fikir də yazılır; D. Tələb olunan 4 ifadə vasitəsindən 2 - si doğru, 1-i ***yanlış*** yazılır;
0 bal	E. Tələb olunan 4 ifadə vasitəsindən 1 - i doğru yazılmaqla ***1 və ya 2 yanlış*** ifadə vasitəsi yazılır; F. Tələb olunan 4 ifadə vasitəsindən 2 - si doğru yazılmaqla ***2 və daha çox yanlış*** ifadə vasitəsi yazılır; G. Tələb olunan ifadə vasitəsi ***yanlış*** yazılır; H. Digər bütün hallarda.

Tapşırıq 11-ci sinif səviyyəsində *1.1.5. Müxtəlif vəznli (heca, əruz) şeirlərdə, mürəkkəb süjetli və kompozisiyalı ədəbi nümunələrdə bədii təsvir və ifadə vasitələrini (epitet, bənzətmə (təşbeh), metafora, metonimiya, sinekdoxa, simvol, mübaliğə, litota, bədii sual, təkrir, bədii təzad, kinayə (sarkazm), inversiya) müəyyənləşdirir* alt standartının tələbləri üzrə bacarıqlar yoxlanılır.

"Bu zalım oğlunun tayı-bərabəri yoxdur səxavətdə" cümləsində mənfi cəhət müsbət mənalı sözlə pərdələnərək verildiyinə görə *kinayə*, söz sırası pozulduğu üçün isə *inversiya* vardır. "Az qalırıq, acından köpük qusaq" cümləsində isə *mübaliğə* işlənmişdir.

Abituriyentlərin 6,07%-i yazı işini tam yerinə yetirdiyinə görə 2 balla, 47,42%-i yarım balla, 25,88%-i 0 balla qiymətləndirilib, 20,63%-i isə cavab verməkdən imtina edib.

Təhlilə əsasən demək olar ki, ümumtəhsil məktəblərində ədəbiyyat fənninin tədrisi ilə bağlı bir sıra problemlər hələ də qalmaqdadır. Bu daha çox aşağı siniflərdə tədris olunan əsərlərlə bağlıdır. Deyilənlər yuxarı siniflərdə həm ayrı-ayrı sənətkarların yaradıcılığının öyrənilməsi, həm də ədəbi mətnlərin düzgün qavranılması və təhlilinə aid olan test tapşırıqlarının cavablandırılmasında da özünü göstərir.

Экзаменационный тестовый блок по русскому языку составляется на основе предметного Куррикулума, включающего в себя 4 содержательные линии (**"Аудирование и говорение"**, **"Чтение"**, **"Письмо"**, **"Языковые правила"**).

Линия **"Аудирование и говорение"** развивает умения слушать и понимать услышанное, определять основную мысль говорящего, задавать вопросы и, анализируя прослушанную информацию, определять недостатки речи; обоснованно выражать свои мысли и делать соответствующие выводы.

Содержательная линия **"Чтение"** развивает умения, помогающие учащимся читать и понимать прочитанное, различать стили, основываясь на лексическом своеобразии текста, сравнивать и оценивать прочитанные тексты с точки зрения соответствующей лексики; менять структуру текста, сохраняя содержание; распространять текст, используя дополнительную информацию.

Содержательная линия **"Письмо"** выявляет следующие умения: выбирать стиль, соответствующий теме, создавать текст на заданную тему, совершенствовать стиль и структуру текста, писать тексты различных жанров, соблюдая особенности стиля.

По содержательной линии **"Языковые правила"** должны быть продемонстрированы следующие умения: строить предложения и целесообразно использовать их, основываясь на литературной норме языка; соблюдать лексико-семантические и грамматические нормы; использовать знаки препинания в предложениях различных конструкций; пользоваться языковыми средствами для точной передачи мысли при построении высказывания и т.д.

Вступительный экзамен в 11 классе в 2020 году, как и в предыдущий год, проводился в 2 этапа. Экзамен на аттестат зрелости (I этап) сдавался всеми выпускниками и включал в себя проверку знаний, умений и навыков по трём содержательным линиям: 2 текста (II и III линии) и 10 закрытых заданий по IV линии. На 2-ом этапе экзамен по русскому языку предусмотрен только для абитуриентов, поступающих в вузы по III группе специальностей. Тестовые задания для этих абитуриентов составлены на основе IV содержательной линии (**"Языковые правила"**) и представлены более сложными вопросами, которые позволяют выявить уровень умений и навыков абитуриентов.

На экзаменах были использованы тестовые задания, охватывающие следующие разделы: ***"Фонетика и орфоэпия"***, ***"Лексика и фразеология"***, ***"Морфемика и словообразование"***, ***"Морфология"***, ***"Синтаксис"***, ***"Орфография"***, ***"Пунктуация"***, ***"Культура речи"*** и сопоставительные задания. Они рассчитаны на выявление следующих навыков и умений.

	Перечень проверяемых умений и навыков. **Абитуриенты должны уметь:**
1.	производить анализ звукового состава слова, дифференцировать звуки речи русского языка, произносить слова в соответствии с орфоэпическими нормами.
2.	анализировать слова с точки зрения их лексического значения и определять значение фразеологизмов.
3.	обладать прочными орфографическими навыками.

4.	производить морфемный анализ слова, соотносить предъявленную схему со словом, определять основные способы образования слов.
5.	дифференцировать части речи русского языка, определять принадлежность слова к определённой части речи.
6.	производить пунктуационный анализ предложения.
7.	производить синтаксический анализ простого, простого осложнённого и сложного предложений.
8.	находить пунктуационные, орфографические, речевые ошибки.

Для III группы специальностей были представлены тестовые задания различной степени сложности, которые позволили определить уровень знаний и подготовки учащихся. Для того чтобы выявить степень усвоения учащимися специфических особенностей русского языка, в вопросники для III группы были включены 5 заданий открытого типа, а также связный текст, состоящий из 120 слов, с тремя заданиями к нему, где нужно было подобрать антоним к слову; определить стиль текста, указать его характерные признаки, подтвердив их 2-мя примерами из текста; ответить на вопрос по тексту, сформулировав свои мысли в 3-х и более предложениях.

Статистический анализ показал, что абитуриенты успешно справились с заданиями теоретического характера, то есть достаточно хорошо усвоили правила по фонетике, лексикологии, морфологии, синтаксису, орфографии, пунктуации, тогда как допустили ошибки при выборе верных ответов на задания практического характера, связанные с расстановкой знаков препинания в простом и сложном предложениях, с правописанием слов различных частей речи, с определением типов предложений и т.д. Однако наиболее трудными для абитуриентов оказались тестовые задания по таким темам, как **“Орфография”**, **“Состав слова”**, **“Способы образования слов”**, “**Разряды прилагательных**”, **“Употребление непроизводных и производных предлогов”, “Правописание частицы не с различными частями речи”, “Главные члены предложения”**, **“Сложное предложение”**.

Ниже даётся анализ ряда тестовых заданий, которые вызвали у абитуриентов затруднения.

(6 класс -4.1.2. *Объясняет грамматическое значение слова согласно контексту.*

8 класс -4.1.1. *Различает виды и типы простых предложений.)*

Экзамен 13 августа, вариант А тестовое задание № 16.

Сколько местоимений и грамматических основ в отрывке?

Не с теми я, кто бросил землю

На растерзание врагам.

Их грубой лести я не внемлю,

Им песен я своих не дам.

A) 8, 5 B) 8, 4 C) 6, 4 D) 6, 3 E) 7, 5

На это тестовое задание верно ответили 34,67 % абитуриентов, а 10,22% отказались отвечать. Это сопоставительное задание, которое проверяет знания абитуриентов по таким темам, как “*Разряды местоимений”* и *“Главные члены предложения”*.

Местоимения имеют 9 разрядов: 1. личные (*я, ты,он (она,оно), мы,вы,они*)*;* 2. возвратное (*себя*); 3. вопросительные (*кто? что? какой? который? чей? сколько? каков*?); 4. относительные – это те же вопросительные (*кто, что и др*.)только без вопроса; они служат для связи простых предложений в составе сложноподчинённого; 5. притяжательные (*мой, твой, свой, наш, ваш* и *его, её, их*); 6. указательные (*этот, тот, такой, таков*, *столько* и др.*)*; 7.определительные (*весь, всякий, сам, каждый, самый, иной, любой, другой*); 8. отрицательные (*никто, ничто, некого, нечего, никакой, ничей* и т.д.); 9.неопределённые (*некто, нечто, некий, некоторый, несколько, кто-то, что-то* и др.).

Местоимения: *с теми* (*те*) – указательное местоимение в форме творительного падежа множественного числа; *я* - личное; *кто* – относительное; *их* – притяжательное; *я* – личное; *им* –

личное местоимение (*они*) в дательном падеже множественного числа*; я* – личное; *своих* – притяжательное местоимение в родительном падеже множественного числа. Таким образом, местоимений в этом отрывке – 8.

Грамматическая основа – это подлежащее и сказуемое. Они связаны между собой грамматически и по смыслу. Их в отрывке - 4*: 1. я – подлежащее, сказуемое отсутствует, но подразумевается, т.е. находился; 2. кто бросил; 3. я не внемлю; 4. я не дам.*

Верный ответ: В.

(10 класс -4.1.2. *Соблюдает лексико-семантические и грамматические нормы языка.**)***

Экзамен 13 августа, вариант А тестовое задание № 23.

Укажите речевые ***ошибки.***

1. вопреки прогноза
2. согласно постановлению
3. по приезду из отпуска
4. по окончании каникул
5. вслед поезду

Это открытое тестовое задание проверяет, насколько абитуриенты знают тему "Употребление предлогов с существительными". На тестовое задание верно ответили 15,56% абитуриентов, а 77,33% абитуриентов ошиблись.

Предлоги бывают непроизводными и производными. Непроизводные предлоги могут употребляться с несколькими падежами, а производные – употребляются только с одним падежом. Так, предлоги *вопреки, согласно, вслед* являются производными, они употребляются только с дательным падежом (*согласно постановлению - № 2, вслед поезду - № 5*). В ответе *№1* допущена речевая ***ошибка*** в окончании существительного (*вопреки (чему?) прогноза),* т.к. следует написать *прогнозу.* Непроизводный предлог *по* употребляется с тремя падежами: с дательным, винительным и предложным. В сочетании *по окончании каникул (№ 4*) выражение написано верно, а в сочетании *по приезду из отпуска (№ 3*) допущена ***ошибка***, потому что следует написать *по приезде из отпуска*, (существительное *приезд* – 2-го скл., в предложном падеже имеет окончание *–е)*.

Верный ответ: 1, 3.

(7 класс -4.1.2. *Различает слова по их общему грамматическому значению***)**

Экзамен 13 августа, вариант А тестовое задание № 26.

Слитно пишутся:

1. (*не*)законченная вовремя работа
2. ничуть (*не*)близкий путь
3. (*не*)ряшливый вид
4. дом (*не*)построен
5. (*не*)большой остров

Это открытое тестовое задание, проверяет знания абитуриентов по теме "Правописание частицы **не** с различными частями речи". На это тестовое задание 36,89% абитуриентов ответили верно, а 59,11% ответили неверно; отказ незначительный.

В тестовом задании в сочетаниях слов даны прилагательные, полные и краткие формы причастий с частицей *не*. Частица *не* пишется с различными частями речи слитно и раздельно. Она пишется слитно, если слово без этой частицы не употребляется *(№ 3 –неряшливый вид*), если к слову можно подобрать синоним без *не* (*№ 5 небольшой остров – маленький остров).*

Частица *не* пишется раздельно с краткими причастиями (*№ 4 – дом не построен*), с полными причастиями при наличии зависимых слов (*№ 1 – не законченная вовремя работа*); с прилагательными, если к ним относятся слова *ничуть, нисколько, отнюдь, вовсе* и другие (*№ 2 – ничуть не близкий путь*).

Таким образом, слитно пишутся слова *неряшливый вид и небольшой остров.*

Верный ответ: 3, 5

(6 класс-4.1.2. *Объясняет грамматическое значение слова согласно контексту.)*

7 класс-4.1.2. *Различает слова по их общему грамматическому значению.*

Экзамен 14 августа, вариант А, тестовое задание № 7.

Сколько форм причастий соответственно можно образовать от глаголов *оберегать, отправить, остановиться*?

A) 4; 2; 1 B) 3; 2; 1 C) 2; 2; 2

D) 4; 3; 2 E) 2; 2; 1

Это тестовое задание относится к теме "Причастие как особая форма глагола". На это задание 38,10% ответили верно, 19,05% отказались отвечать, а 10,88% предпочли ответ А.

Причастия образуются от глаголов. Все четыре формы причастий образуются от слов *читать, видеть, слышать, носить, рисовать* и от двувидовых переходных глаголов. Три формы образуются от переходных глаголов несовершенного вида, две формы - от переходных глаголов совершенного и от непереходных глаголов несовершенного вида. Одна форма – от непереходных глаголов совершенного вида.

Чтобы выяснить, сколько форм причастий можно образовать от глаголов *оберегать, отправить, остановиться,* нужно определить вид и переходность каждого из них.

Оберегать (*что делать?, кого? что?*) – глагол несовершенного вида, переходный – имеет

3 формы (*оберегающий, оберегавший, оберегаемый*).

Отправить (*что сделать?, кого? что?*) – глагол совершенного вида, переходный –

2 формы (*отправивший, отправленный*).

Остановиться (*что сделать?, где?*) – глагол совершенного вида, непереходный –

1 форма (*остановившийся*).

Верный ответ: B.

(10 класс-4.1.2. *Соблюдает лексико-семантические и грамматические нормы языка*.**)**

Экзамен 14 августа, вариант А, тестовое задание № 23

Речевые ***ошибки*** допущены:

1. семеро пловцов 2. играть на пианине

3. двое волейболисток 4. остроумный конферансье

5. приехал с Гянджи

Это открытое задание относится к теме "Речевые нормы". На это задание 24,49% ответили верно, 71,43 % допустили ошибки.

Речевые ошибки – это любые отклонения от действующих языковых норм. Обычно эти ошибки встречаются в употреблении собирательных числительных с существительными, в согласовании прилагательных с несклоняемыми существительными и т.д.

Собирательные числительные *двое, трое, семеро и т.д.* употребляются в следующих случаях:

- с существительными мужского рода;
- с существительными, обозначающими названия детёнышей животных;
- с существительными, употребляемыми только во множественном числе;
- с личными местоимениями;

В сочетании *семеро пловцов* числительное *семеро* употребляется с существительным мужского рода *пловец*, поэтому в словосочетании нет речевой ***ошибки***.

С существительными женского и среднего рода собирательные числительные не употребляются. Значит, в пункте *№ 3* допущена речевая ***ошибка***, так как слово *футболистка* относится к существительному женского рода. В сочетании *играть на пианине № 2* допущена ошибка, т.к. несклоняемое существительное *пианино* имеет во всех падежах одну и ту же форму.

Имена прилагательные согласуются с существительными в роде, числе, падеже. Если существительное несклоняемое, то окончание прилагательного определяется по роду существительного.

В ответе № 4 слово *конферансье* – несклоняемое существительное мужского рода, прилагательное *остоумный* стоит в мужском роде, поэтому в данном словосочетании нет речевой ошибки.

При обозначении пространственных отношений для указания обратного направления предлогу **в** соответствует предлог **из**, а предлогу **на** – предлог **с.** Значит, в пункте *№ 5* допущена ошибка (правильно говорить: приехал **из** Гянджи, так как поехал ***в*** Гянджу).

Верный ответ: 2, 3, 5

(5 класс - 4.1.2. *Объясняет… грамматическое значение слов (имена, признаки и действия).*

6 класс - 4.1.2. *Объясняет грамматическое значение слова согласно контексту.)*

Экзамен 14 августа, III группа, вариант А, тестовое задание № 24

Укажите глаголы переходные, совершенного вида, II спряжения:

1. превратить 2. лечиться 3. шутить 4. решить
5. стелить 6. выучиться

Это открытое задание относится к теме “Глагол как часть речи”. На это задание 32,65% ответили верно, 57,14 % допустили ошибки.

Переходными называются глаголы, действие которых переходит на предмет, выраженный существительным или местоимением в винительном падеже без предлога. Родительный падеж употребляется в том случае, если действие переходит на часть предмета или при глаголе есть отрицание.

Глаголы несовершенного вида обозначают незаконченное действие и отвечают на вопрос (*что делать*?). Глаголы совершенного вида обозначают законченное действие и отвечают на вопрос (*что сделать*?).

Спряжение – это изменение глагола по лицам и числам (в настоящем и будущем времени). Глаголы I спряжения имеют следующие ударные личные окончания: *-ешь, -ет, -ем, -ете, -ут/-ют*; глаголы II спряжения – *-ишь, -ит, -им, -ите, -ат/-ят*. В безударном положении глаголы I спряжения оканчиваются на *-ать, -ять, -еть, -уть, -ыть, -оть,* а

II спряжения – *на -ить.*

1. ***Превратить*** (*кого?, что?*), (*что сделать?*), (*преврати́шь*) – имеет окончание *-ишь*, следовательно, *переходный, совершенного вида,* II *спряжения.*

2. ***Лечиться*** (*где?*), (*что делать?*), (*ле́чишься*) оканчивается на *-ить*, значит, *непереходный, несовершенного вида,* II *спряжения.*

3. ***Шутить*** (*с кем*?), (*что делать*?), (*шу́тишь*) оканчивается на *–ить– непереходный, несовершенного вида,* II *спряжения.*

4. ***Решить*** (*кого?, что*?), (*что сделать*?), (*реши́шь*) имеет окончание *-ишь*, следовательно, *переходный, совершенного вида,* II *спряжения.*

5. ***Стелить*** (*кого?, что?),* (*что делать*?), *(сте́лешь)* оканчивается на *-ить*, но это глагол-исключение – *переходный, несовершенного вида,* I *спряжения.*

6. ***Выучиться*** (*где*?), (*что сделать*?), (*вы́учишься*) оканчивается на *-ить* – значит,

переходный, совершенного вида, II *спряжения.*

Верный ответ: 1, 4

Внимательно ознакомьтесь с представленным текстом и, воспользовавшись информацией, данной в нём, выполните на <u>Листе ответов</u> задания 28 – 30.

Дадим мир планете Земля!

Война принесла нашей стране много горя. Она разорила сотни городов и сёл. Она уничтожила миллионы людей. Она лишила тысячи детей отцов и матерей. Кто ответит за это? Но наш народ победил в этой войне. Победил, потому что был до конца предан Родине. Победил, потому что проявил много выдержки, мужества, отваги. Победил, потому что это была справедливая война за счастье и мир на земле. Мир – это твёрдая уверенность отцов и матерей, что их дети вырастут здоровыми и счастливыми. Мир – это поля, покрытые не чёрным пеплом, а золотом спелых колосьев. Мир – это смех детей и молчание пушек. Пушки пусть останутся для праздничных салютов. Мир должен видеть всегда только праздничные салюты!

(По А. Лиханову)

(6 класс - 4.1.2. *Объясняет грамматическое значение слова согласно контексту***)**

28. Раскройте лексическое значение слова *отвага*.

Данное задание проверяет умение абитуриентов определять значение слова по контексту. На него 61,78% выпускников дали верный ответ; 14,67% – частичный ответ; 0 баллов получили 10,67%, а 12,89% отказались отвечать.

Полный балл получил тот, кто правильно ответил на вопрос, т.е. подобрал синоним без ошибок. Полбалла получили абитуриенты, которые, наряду с правильным ответом, указали 1 неверный.

Верный ответ: Отвага *– смелость, храбрость.*

11 класс – 4.1.2. *Соблюдая грамматико-семантические особенности, использует слова в зависимости от их стилевой принадлежности***)**

29. Определите стиль текста. Укажите характерные признаки данного стиля (не менее 2-х), подтвердив их двумя примерами из текста.

Данное задание проверяет умение выпускников на базе лексики определять стиль текста и обосновывать своё мнение. На него 25,33% дали верный ответ; 14,67% –частичный ответ; 0 баллов получили 39,56% , а 20,44 % отказались от ответа.

Полный балл получили абитуриенты, верно назвавшие стиль текста, перечислившие 2 характерные признака и подтвердившие свою мысль двумя примерами (одна ошибка допустима). Если же стиль текста был указан верно или были названы только 2 признака или 2 примера, или 1 признак и 1 пример, то за такую работу отвечающие получали полбалла. В 0 баллов оценивался любой другой ответ.

Верный ответ: *Стиль публицистический. В тексте использована общественно-значимая информация, цель которой воздействовать на внутренний мир читателя или слушателя; имеется риторический вопрос (Кто ответит за это?) и восклицательное предложение (Мир должен видеть всегда только праздничные салюты!).*

(10 класс - 4.1.2. *Соблюдает лексико-семантические и грамматические нормы языка*.)

(11 класс - 4.1.3. *Осознанно применяет знаки препинания для обеспечения стилистически правильной, грамотной письменной речи.***)**

30. Ответьте на вопрос. ***Почему простые люди всей Земли не хотят войны?*** (Сформулируйте мысли своими словами в 3-х и более предложениях, используя в качестве аргумента не менее 2-х фактов и не повторяя предложений из текста).

На данное задание 66,22% ответили верно; 22,22% – получили полбалла; 8,00% –отказались от ответа, а 3,56% набрали 0 баллов.

Полный балл получили те, кто написал 3 простых предложения, привёл 2 и более факта и мысль сформулировал без речевых ошибок (1 ошибка допустима). Полбалла получили абитуриенты, написавшие менее 3-х предложений, но раскрывшие мысль и подтвердившие её двумя примерами; или написавшие 3 и более предложений, но приведшие всего один факт. Также в полбалла оценивалась работа, соответствующая заданию, но включающая более двух речевых ошибок. Во всех остальных случаях работа оценивалась в 0 баллов.

Верный ответ: *Простые люди, действительно, не хотят войны, потому что все военные тяготы ложатся на их плечи. Но в то же время и войны бывают разные: захватнические, грабительские или освободительные. Именно такую справедливую войну сейчас ведёт моё отечество в Карабахе. И, как поётся в песне, "нам нужна одна Победа. Одна на всех – мы за ценой не постоим!"*

Научно-методический и статистический анализ результатов вступительных экзаменов показал, что уровень знаний по предмету “Русский язык” в целом удовлетворительный. Немаловажную роль в этом сыграли методические пособия, тестовые сборники по классам, выпускаемые ГЭЦ, образцы тестовых заданий и научно-методические статьи, систематически публикуемые на страницах журнала “Абитуриент”.

Экзаменационный тестовый блок для вступительного экзамена ***по литературе*** уже второй год составляется на основе предметного Куррикулума. Задания соответствовали стандартам двух линий – “Литература и реалии жизни” и “Письменная речь”, проверялись результаты обучения определённых подстандартов.

Блок заданий был составлен таким образом, чтобы абитуриенты сумели:

- проявить способность литературного ассоциирования и самостоятельного определения отдельных элементов произведения;
- охарактеризовать проблематику и идейный смысл произведений;
- воспроизвести содержание художественного текста, определить героев, основные сюжетные линии;
- определить особенности композиции;
- объяснить сходство и различие произведений классиков азербайджанской, русской и мировой литературы;
- соотнести прочитанное с литературным направлением;
- определить родо-жанровые особенности произведений, авторское отношение к созданному;
- интерпретировать фактический материал;
- применять художественные приёмы и средства;
- охарактеризовать литературных героев;
- объяснить общий смысл данного фрагмента из произведения;
- продемонстрировать высокий уровень владения письменной речью;
- применить теоретические знания на практике.

Анализ экзамена по литературе показал, что абитуриенты успешно справились с заданиями, касающимися творчества Н.М.Карамзина, А.С.Пушкина, М.Д.Пашаева, а также с заданиями сопоставительного характера и применения теоретических правил на практике. Однако большинство абитуриентов не справились с заданиями, касающимися творчества М.А.Булгакова, В.В.Маяковского, О. де Бальзака.

Ниже даётся анализ ряда тестовых заданий, которые вызвали у абитуриентов большие затруднения.

(**11 класс – 1.2.1.** *Разбирает стихотворения различных жанров и примеры сюжетной литературы (поэма, рассказ, повесть, роман, драма, комедия, трагедия) с точки зрения языка и стиля, композиции.*)

Экзамен 13 августа, III группа, вариант A, тестовое задание № 82.

Укажите верный вариант заполнения диаграммы Эйлера-Венна.



A) I – повествование ведётся от лица главного героя;
II – драматические произведения;
III – композиция произведения построена на антитезе

B) I – отсутствие экспозиции;
II – жанр – поэмы;
III – наличие эпилога

C) I – посвящается Раевскому;
II – тема свободы;
III – по форме – монолог-исповедь

D) I – драматическое произведение;
II – место действия – Кавказ;
III – лиро-эпическое произведение

E) I – построено на диалогах героя с черкешенкой;
II – реалистические произведения;
III – кульминация произведения – бой с барсом

На данное задание, представляющее собой диаграмму Эйлера-Венна, 32,44% абитуриентов ответили верно, 19,56% предпочли вариант D; 20,00% выбрали вариант E, а 15,56% отказались от ответа.

Приступая к сравнению "Кавказского пленника" А.С.Пушкина и "Мцыри" М.Ю. Лермонтова, следует отметить, что оба произведения – романтические поэмы, относящиеся к лиро-эпосу, где главной темой является свобода, а местом действия – Кавказ.

В поэме А. Пушкина повествование ведётся от лица автора, и только во второй части даётся монолог пленника. Произведение посвящено другу поэта Н.Н.Раевскому – младшему, с чего и начинается повествование. В поэме отсутствует экспозиция; автор сразу приступает к описанию горного черкесского аула. Завершается произведение эпилогом.

В поэме М.Лермонтова, представляющей собой монолог-исповедь, автор противопоставляет безрадостную жизнь героя в монастыре тем трём дням, которые он провёл на воле, пытаясь добраться до родного аула. Центральным событием этих дней является бой с барсом – это кульминация. Эпилог в поэме отсутствует.

Верный ответ: C

(**11 класс –1.2.2.** *Различает понятия образ, характер, герой, сравнивает их действия с общественно-политической ситуацией и морально-этическими ценностями.)*

Экзамен 13 августа, III группа, вариант A, тестовое задание № 83.

Укажите ***лишнее*** в кластере относительно произведения М.Ф. Ахундзаде “Везирь Лянкяранского ханства”.

Данное задание представляет собой кластер открытого типа, проверяющий как знание содержания произведения М. Ф. Ахундзаде, так и теории литературы, связанной с пьесой. На него только 25,33% абитуриентов ответили верно, 55,56% допустили ошибки, а 19,11% от ответа отказались.

Драматическое произведение "Везирь Лянкяранского ханства" третья по счёту комедия писателя (4.), драматурга, основоположника реалистической литературы в Азербайджане (5.). В ней автор осуждает деспотизм хана (2.) и его приближённых. В комедии описывается жизнь титулованных особ и их ближайшего окружения. Едкая насмешка (3.) звучит в изображении взаимоотношений жён в доме везиря. Тип "маленького человека" (1.) характерен больше для русского реализма и затрагивает чиновников низшего класса, униженных и замученных жизнью. А таких персонажей в пьесе нет.

Верный ответ: 1, 4

(**9 класс – 1.2.2.** *Различает жизненную позицию тех или иных героев, сравнивает их.)*

Экзамен 14 августа, III группа, вариант A, тестовое задание № 81.

Какой человеческий порок высмеивается в произведении А.П. Чехова “Смерть чиновника”?

A) хвастовство B) раболепие C) гордыня D) глупость E) алчность

На данное задание 36,05% абитуриентов дали верный ответ, 25,85% выбрали вариант D; 15,65% выбрали вариант E, а 12,93% отвечать отказались.

Чтобы верно ответить на вопрос, необходимо вспомнить содержание произведения. Господин Червяков, находясь в театре, неожиданно чихнул во время представления и "обрызгал" лысину

сидящего впереди старичка. Как культурный человек, чиновник извинился, и его извинение было принято. Когда же зажёгся свет, то Червяков узнал в "пострадавшем" статского генерала, служащего по ведомству путей сообщения. Заискивая перед начальником, пусть даже "чужим", он из раза в раз приходит униженно просить прощения, чем выводит чиновника из себя. Будучи выгнанным из кабинета разозлившимся генералом, Червяков, придя домой, умирает от того, что "в животе у него что-то оборвалось". В своём рассказе А.П.Чехов высмеивает основной порок, присущий чиновникам, – это чинопочитание, угодничество. Червякова нельзя назвать глупым человеком (в тексте нет на то указания), но рабская психология делает своё дело. Ни хвастовство, ни гордыня, ни алчность Червякову не свойственны.

Верный ответ**: **В

Внимательно ознакомьтесь с представленным текстом и, воспользовавшись информацией, данной в нём, выполните на Листе ответов задания 88 – 90.

Долго он (гость) не мог распознать, какого пола была фигура: баба или мужик … Лицо его (хозяина) было почти такое же, как у многих худощавых стариков, один подбородок только торжественно вышагивал далеко вперёд, так что он должен был всякий раз закрывать его платком, чтобы не заплевать; маленькие глазки ещё не потухли и бегали из-под высоко выросших бровей, как мыши, когда они высматривают, не затаился ли где кот или шалун мальчишка. Гораздо замечательнее был наряд его: никакими средствами и стараньями нельзя бы докопаться, из чего состряпан был его халат… рукава и верхние полы засалились и залоснились. На шее у него тоже было повязано что-то такое, которое нельзя было разобрать: чулок ли, подвязка ли, или набрюшник, только никак не галстук.

(**11 класс–1.2.1.** *Разбирает стихотворения различных жанров и примеры сюжетной литературы(поэма, рассказ, повесть, роман, драма, комедия, трагедия) с точки зрения языка и стиля, композиции*.)

Экзамен 13 августа, III группа, вариант А, тестовое задание № 88.

К какому жанру относится произведение, из которого приведён отрывок?

Данное задание проверяет умение абитуриентов применять теоретические знания на практике. 32,44% абитуриентов получили полный балл, отказались отвечать 30,67%.

Отрывок, предложенный для анализа, принадлежит перу Н.В.Гоголя и взят из поэмы "Мёртвые души". Автор назвал своё произведение поэмой в прозе, потому что в ней много лирических отступлений, замечаний и комментариев автора, в которых он высказывает своё отношение к русской общественной жизни первой половины XIX века ("о двух типах писателей", "Прометей и муха", "Русь-тройка" и др.).

Ответ: поэма

(**11 класс–1.1.5.** *Определяет особенности языка и стиля**,** изобразительно-выразительные средства (символ, метафора, сравнение, эпитет, литота, гипербола, художественный вопрос, ирония, сарказм, инверсия, синекдоха) в стихотворениях различного рода и примерах сюжетной литературы со сложным сюжетом и композицией.*

11 класс–1.2.3. *Выражает обоснованное мнение о роли в создании образности изобразительно выразительных средств в стихотворениях и примерах сюжетной литературы.*)

Экзамен 13 августа, III группа, вариант А, тестовое задание № 89.

Определите вид тропа в подчёркнутых сочетаниях слов.

Задание проверяет не только умение определять особенности языка произведения, но и обосновывать свой выбор. 15,11% абитуриентов справились с заданием, получив полный балл, 36,89% получили полбалла, 17,33% - 0 баллов, а 30,67% отказались от ответа.

Слова в тексте подчёркнуты, и выпускникам остаётся только определить их вид, опираясь на свою теоретическую подготовку, т.е. на знание определений.

Тропы, или изобразительно-выразительные средства, - это слова (выражения) в переносном значении: эпитет, метафора, метонимия, синекдоха, олицетворение и т.д.

1- *торжественно вышагивал* (подбородок) – олицетворение (наделение неживого предмета свойствами живого существа), т.к. подбородок не может вышагивать, да ещё и торжественно.

2- *как мыши* (глаза) – сравнение, т.к. один предмет уподобляется другому при помощи сравнительного союза ***как***.

Полный балл получили абитуриенты, правильно определившие оба изобразительно-выразительных средства. Если же верно был определён только один троп, то выпускник получал 0,5 балла. Если же неправильных ответов было больше, чем правильных, абитуриент получал 0 баллов. ***Ответ: торжественно вышагивал* – олицетворение, *как мыши* – сравнение**

Экзамен 13 августа, III группа, вариант А, тестовое задание № 90.

(11 класс–3.1.2. *Основываясь на наблюдения и дополнительные сведения, выражает отношение к идее, проблеме, художественным особенностям произведения, обобщает и делает выводы.**)***

Узнав по данному отрывку героя, назовите его и охарактеризуйте, используя знания по содержанию произведения. (Сформулируйте мысли в нескольких предложениях и приведите не менее двух фактов).

На данное задание 29,78% абитуриентов ответили в полном объёме, получив полный балл, 6,67% получили полбалла, 22,22% - 0 баллов, а 41,33% отвечать отказались.

За такой ответ абитуриенты получали полный балл. Если же было написано менее 3-х предложений, но мысль была раскрыта, были приведены 2 факта, абитуриент получал 0,5 балла. Также в 0,5 балла оценивалась работа, в которой абитуриент в 3-4-х предложениях ответил на вопрос, но привёл в доказательство всего 1 пример или допустил более 2-х речевых ошибок. В остальных случаях ответ оценивался в 0 баллов.

Ответ: Это Плюшкин из поэмы Н.В.Гоголя "Мёртвые души". Объезжая помещиков, Чичиков неожиданно знакомится с самым богатым из них. Когда-то это был рачительный хозяин, к которому ездили учиться "мудрой скупости". Но со временем он превратился в "прореху на человечестве", в паука, в нищего богача и скрягу. Предприниматель купил у него не только мёртвых, но и беглых крестьян.

Tarix fənnindən qəbul imtahanlarında həm II, həm də III ixtisas qrupu üzrə istifadə edilmiş tapşırıqlar fənn kurikulumu üzrə 5 (“**Tarixi zaman**”, “**Tarixi məkan**”, “**Dövlət**”, “**Şəxsiyyət**”, “**Mədəniyyət**”) məzmun xətti üzrə 149 (“Azərbaycan tarixi”ndən 88, “Ümumi tarix”dən 61) alt standartın reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Tapşırıqlar məzmun xətləri üzrə təlim nəticələrinə uyğun hazırlanıb və abituriyentlərin

- Azərbaycanın tarixi keçmişi və müasir dövrü haqqında zəruri biliklərə malik olduğunu nümayiş etdirmək;
- tarixi hadisə və proseslərin mahiyyətini konkret dövrün xüsusiyyətləri baxımından təhlil etmək, bir-biri ilə oxşar və fərqli cəhətlərini müəyyən etmək;
- mənbələr əsasında müxtəlif tarixi dövrləri təhlil etmək;
- tarixi hadisə, proses və təzahürlərin səbəb-nəticə əlaqələrini müəyyən etmək və tarixi dövr baxımından qiymətləndirmək;
- dünya tarixinin hadisə və proseslərini Azərbaycan tarixinin eyni dövrləri ilə müqayisə etmək və təhlillər aparmaq;
- müxtəlif tarixi hadisələri konkret məkan baxımından müqayisə etmək;
- cəmiyyət və dövlətlərin inkişafında islahat və inqilabların rolunu fərqləndirmək, aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərini müqayisə etmək;
- tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin rolunu qiymətləndirmək;
- müxtəlif cəmiyyətlərdə mədəniyyətin inkişaf xüsusiyyətlərini fərqləndirmək;
- tarixdə ayrı-ayrı dövlətlərin yaranması, inkişafı, tənəzzülü ilə bağlı bilik və bacarıqları nümayiş etdirmək;
- tarixi termin və anlayışların izahını vermək, fərqləndirmək;
- hadisələrin xronoloji ardıcıllığını müəyyən etmək;
- tarixin ayrı-ayrı dövrlərində baş vermiş hadisələri xəritə və cədvəl formasında vermək;
- Azərbaycan və dünya tarixində mühüm rol oynamış dövlət və elm xadimlərinin fəaliyyətinin səciyyəvi xüsusiyyətlərini müəyyən etmək üzrə bilik və bacarıqlarının aşkara çıxarılması və qiymətləndirilməsinə yönəlib.

Ötən ildə olduğu kimi, builki qəbul imtahanlarında da II və III ixtisas qrupları üzrə istifadə edilmiş tapşırıqlar həm "Azərbaycan tarixi"nə, həm də "Ümumi tarix" fənlərinə aid olub. Tapşırıq bloklarında fənn kurikulumunun təlim nəticələrinə uyğun olaraq tarixi proses və hadisələr arasında səbəb-nəticə, məkan-zaman əlaqələri, tarixi proses və hadisələrin ümumiləşdirilməsi, müqayisəsi, qanunauyğunluqları, izahat, nəzəri biliklərin tətbiqi və təhlili ilə bağlı bilik və bacarıqları ölçməyə imkan verən tapşırıqlar üstünlük təşkil edib.

İmtahan nəticələrinin statistik göstəriciləri əsasında aparılan təhlili göstərib ki, abituriyentlərin əksəriyyəti "Qədim Şərq", "Azərbaycan ərazisində ibtidai icma cəmiyyəti", "Azərbaycan XIV əsrin 2-ci yarısı – XV əsrdə" bölmələrinə aid test tapşırıqlarına yaxşı, məntiqi düşüncə və nəzəri biliklərin tətbiqini tələb edən bəzi test tapşırıqlarına həm II, həm də III ixtisas qruplarında müəyyən qədər zəif cavab veriblər.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

Qeyd etmək lazımdır ki, hər bir tapşırıq aid olduğu alt standartın tələblərinin yoxlanılması və qiymətləndirilməsi üçün nəzərdə tutulub.

"Ümumi tarix", 9-cu sinif

1.1.2. Müxtəlif ölkələrdə baş vermiş ayrı-ayrı tarixi faktların sinxronluğunu müəyyənləşdirir.

"Azərbaycan tarixi", 9-cu sinif

1.1.1. Azərbaycan və dünya ölkələrində baş vermiş mühüm hadisə, proses və təzahürlərin sinxronluğunu izah edir.

13 avqust tarixli imtahan, III ixtisas qrupu, B variantı, 57 saylı test tapşırığı (II ixtisas qrupu, B variantı, 87 saylı test tapşırığı)

Uyğunluğu müəyyən edin.

1. 1949-cu il 2. 1975-ci il 3. 1997-ci il

a. GUAM-ın yaradılması

b. Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin yaradılması

c. Azərbaycan Respublikasının Avropa Şurasına üzv qəbul edilməsi

d. Almaniya Federativ Respublikasının yaranması

e. Pakistan Respublikasının yaranması

9-cu sinif "Ümumi tarix" dərsliyində "Dünya ölkələri II Dünya müharibəsindən sonra" və "Azərbaycan tarixi" dərsliyində "Azərbaycan müstəqillik dövründə" mövzularına aid test tapşırığına abituriyentlərin 20,09 %-i doğru cavab verib, 29,93 %-i cavab verməkdən imtina edib.

Test tapşırığının yerinə yetirilməsi üçün Azərbaycanın müstəqillik dövründə və dünya ölkələrində II Dünya müharibəsində baş vermiş siyasi prosesləri dərindən bilmək lazımdır. İllərə uyğun doğru verilmiş hadisələr, 1949-cu ildə Almaniya Federativ Respublikasının yaranması, 1975-ci ildə Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin yaradılması, 1997-ci ildə GUAM təşkilatının yaradılmasıdır. Verilmiş illərə uyğun gəlməyən bəndlərdə isə Azərbaycan Respublikasının Avropa Şurasına üzv qəbul edilməsi 2001-ci ildə, Pakistan Respublikasının yaranması isə 1956-cı ildə baş vermişdir.

Doğru cavab: 1 – d; 2 – b; 3 – a

"Azərbaycan tarixi", 9 və 11-ci siniflər

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.

4.1.1. Tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin (Məmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, Şeyx Məhəmməd Xiyabani, Nəriman Nərimanov, Əbülfəz Elçibəy, Heydər Əliyev, İlham Əliyev və b.) rolunu və fəaliyyətini dəyərləndirir.

13 avqust tarixli imtahan, II ixtisas qrupu, B variantı, 71 saylı test tapşırığı (III ixtisas qrupu, B variantı, 41 saylı test tapşırığı)

Birinci Dünya müharibəsi illərində Cənubi Azərbaycanda:

A) Azərbaycan (türk) dili dövlət dili elan edildi

B) Ş.M. Xiyabaninin rəhbərlik etdiyi milli azadlıq hərəkatı məğlub oldu

C) Milli hökumət təşkil edildi

D) ermənilər tərəfindən "Urmi bəlası" törədildi

E) Ş.M. Xiyabaninin rəhbərliyi ilə Təbriz üsyanı baş verdi

9-cu sinif "Azərbaycan tarixi" dərsliyində "Azərbaycan Birinci Dünya müharibəsi illərində" və "Cənubi Azərbaycanda milli azadlıq mübarizəsi", 11-ci sinif "Azərbaycan tarixi" dərsliyində "Cənubi Azərbaycan 1917-1920-ci illərdə" mövzularına aid test tapşırığına abituriyentlərin 20,82 %-i doğru cavab verib, 28,98 %-i cavab verməkdən imtina edib. Test tapşırığının yerinə yetirilməsi üçün Birinci Dünya müharibəsi illərinin xronoloji çərçivəsinə dair bilik və Cənubi Azərbaycanda baş vermiş hadisələrdən hansının həmin dövrə aid olduğunu müəyyən etmək bacarığına malik olmaq lazımdır. Verilənlərdən üçü 1920-ci ilə aiddir, biri isə müharibə illərinə uyğun gəlsə də, Cənubi Azərbaycan tarixinə aid deyil.

Doğru cavab: D

"Azərbaycan tarixi", 8-ci sinif

1.1.1. Azərbaycan və dünya ölkələrində baş vermiş mühüm hadisə, proses və təzahürlərin sinxronluğunu izah edir.

"Ümumi tarix", 11-ci sinif

1.1.4. Dünyada və Azərbaycanda baş verən hadisə, proses və təzahürlər arasında əlaqələri tarixi zaman baxımından qiymətləndirir.

14 avqust tarixli imtahan, III ixtisas qrupu A variantı 33 saylı test tapşırığı (II ixtisas qrupu, B variantı, 68 saylı test tapşırığı)

Trafalqar yaxınlığında ingilislərin fransız donanması üzərində qalib gəldiyi ildə Azərbaycanda:

A) Dərbənd xanlığı Rusiya tərəfindən işğal olundu

B) Şamaxı xanlığı Rusiya tərəfindən işğal olundu

C) Rus qoşunları Naxçıvanın Qarababa kəndi yaxınlığında məğlub edildi

D) Aslandüz döyüşü baş verdi

E) İrəvan xanlığı Rusiya tərəfindən işğal olundu

"Azərbaycan tarixi" dərsliyindən "Azərbaycan XIX əsrin əvvəllərində. Rusiya-Qacar müharibələri" və "Ümumi tarix" dərsliyindən "Dünya ölkələri XIX-XX əsrin əvvəllərində. Birinci Dünya müharibəsi" mövzularına aid test tapşırığına abituriyentlərin 27,48 %-i doğru cavab verib, 31,53 %-i cavab verməkdən imtina edib. Test tapşırığının yerinə yetirilməsi üçün Trafalqar yaxınlığında döyüşün tarixinə dair bilik və Azərbaycanda baş vermiş siyasi hadisələrdən hansının həmin ilə uyğun gəldiyini müəyyən etmək bacarığı lazımdır. 1805-ci ildə Trafalqar yaxınlığında ingilislər fransız donanması üzərində qalib gəldi. Dərbənd xanlığı 1806, İrəvan xanlığı isə 1828-ci ildə Rusiya tərəfindən işğal edilmişdir. Qarababa döyüşü 1809, Aslandüz döyüşü isə 1812-ci ildə baş vermişdir. Trafalqar döyüşünün baş verdiyi ildə Azərbaycanda baş vermiş siyasi hadisə Şamaxı xanlığının Rusiya tərəfindən işğalı olmuşdur.

Doğru cavab: B

"Azərbaycan tarixi", 7-ci sinif

3.1.1. Azərbaycan feodal dövlətlərinin inkişafı, müstəqilliyini itirməsi və siyasi müstəqilliyinin bərpası səbəblərini şərh edir.

13 avqust tarixli imtahan, II ixtisas qrupu A variantı 65 saylı test tapşırığı (III ixtisas qrupu, B variantı, 35 saylı test tapşırığı)

Hadisə-nəticə əlaqəsinin doğru verildiyi bəndi müəyyən edin.

A) Cavanşirin uğurlu xarici siyasəti – Sasani asılılığına son qoyulması

B) Birinci Həşdadsər döyüşü – Bəzz qalasının ərəb ordusu tərəfindən tutulması

C) Xürrəmilər hərəkatının başlanması – Əməvilərin vergi siyasətini yumşaltması

D) Ərəblərin Bələncər şəhərini tutması – xəzərlərin Azərbaycan ərazisinə yürüşlərinə son qoyulması

E) Abbasilər xilafətinin parçalanması – Azərbaycan dövlətçiliyinin bərpası

"Azərbaycan Xilafətin tərkibində" mövzusuna aid tapşırığa abituriyentlərin 34,46 %-i doğru cavab verib, 19,13 %-i isə cavab verməkdən imtina edib. Test tapşırığının yerinə yetirilməsi üçün Azərbaycanda Ərəb ağalığı dövrünə aid hadisə və proseslərin səbəb-nəticə əlaqələrinə dair bilik və bacarıqlara malik olmaq kifayətdir. Cavanşirin uğurlu xarici siyasəti ölkəni Ərəb və Xəzər dövlətlərinin hücumlarından qorumağa kömək etsə də, ölkədə Sasani ağalığına son qoyulması Sasani dövlətinin süqutu ilə başa çatmışdır. Xürrəmilərlə ərəb ordusu arasında birinci Həşdadsər döyüşü 829-cu ildə baş verdiyinə, həmçinin xürrəmilərin qələbəsi ilə başa çatdığına görə 837-ci ildə Bəzz qalasının ərəb ordusu tərəfindən tutulmasına səbəb ola bilməzdi. Xürrəmilər hərəkatının başlanması Xilafətdə Abbasilər sülaləsinin hakimiyyəti dövründə baş verdiyinə görə Əməvilərin vergi siyasətinə heç bir təsiri olmamışdır. Ərəblərin Bələncər şəhərini tutması 722-ci ildə baş vermişdir, xəzərlərin Azərbaycan ərazisinə yürüşlərinə son qoyulması isə VIII əsrin sonunda baş vermişdir.

Doğru cavab: E

“Azərbaycan tarixi”, 9-cu sinif

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.

14 avqust tarixli imtahan, III ixtisas qrupu, A variantı, 44 saylı test tapşırığı (II ixtisas qrupu, B variantı, 69 saylı test tapşırığı)

Xüsusi Cənubi Qafqaz Komitəsi ilə Cənubi Qafqaz Komissarlığının ümumi cəhəti:

A) Bakı XKS ilə müqavilə imzalamaları

B) Osmanlı dövləti ilə sülh müqaviləsi imzalamaları

C) Eyni ildə süqut etmələri

D) Birinci dünya müharibəsi illərində yaranmaları

E) Rusiyada yaranmış sovet rejimini tanımaları

“Azərbaycan tarixi” dərsliklərində “Azərbaycan 1917-ci il fevral inqilabından sonrakı dövrdə. Şimali Azərbaycan Rusiya imperiyasının dərin siyasi böhranı dövründə” mövzularına aid test tapşırığına abituriyentlərin 29,51 %-i doğru cavab verib, 33,26 %-i cavab verməkdən imtina edib. Test tapşırığının yerinə yetirilməsi üçün Azərbaycanın Birinci Dünya müharibəsi dövründə baş vermiş siyasi hadisələrinə dair məlumatlı olmaq lazımdır. Xüsusi Cənubi Qafqaz Komitəsi 1917-ci il mart-oktyabr aylarında fəaliyyət göstərmişdir. Cənubi Qafqaz Komissarlığı isə 1917-ci ilin noyabrından – 1918-ci ilə qədər fəaliyyət göstərmişdir. Cənubi Qafqazda mövcud olan bu hakimiyyət orqanlarından heç biri Bakı XKS ilə müqavilə imzalamamışdır. 1917-ci ilin 5 dekabrında Ərzincanda Osmanlı dövləti ilə Bakı XKS müqavilə imzalamışdır. Rusiyada yaranmış Sovet rejimini tanımayan Xüsusi Cənubi Qafqaz Komitəsi olmuşdur. Birinci Dünya müharibəsi 1914-1918-ci illəri əhatə etdiyinə görə hər iki hakimiyyət orqanının yaranması bu dövrə təsadüf edir.

Doğru cavab: D

Məlum olduğu kimi, qəbul imtahanlarında tətbiq edilən forma və məzmunca yeniliklərdən biri də tarixi mənbə üzərində işlə bağlı tapşırıqlar olmuşdur. Mənbələrlə bağlı tapşırıqlar məlumatın əldə edilməsi, nəticə çıxarma, təhlil, müqayisə və səbəb-nəticə əlaqələrini müəyyən etmə bacarıqlarını yoxlamaq məqsədi daşıyır.

13 avqust tarixli imtahan, III ixtisas qrupu, A variantı, 58 - 60 saylı mənbə tapşırıqları (II ixtisas qrupu, B variantı, 88-90 saylı mənbə tapşırıqları)

Konfransda Zaqafqaziyanın gürcü və erməni nümayəndələri Brest müqaviləsinin Qafqaza aid olan maddələrinə etiraz etdilər. Lakin türklər bildirdilər ki, Cənubi Qafqaz hökumətinin Brest sülhündə marağı və mənafeyi olduğu üçün o, beynəlxalq hüquq normalarına cavab verən prinsiplər əsasında qurulmalı və digər dövlətlər tərəfindən tanınması üçün tədbirlər görməlidir. Ona görə Cənubi Qafqaz hökuməti, hətta indi tanınsa belə, əvvəlki beynəlxalq hüquqi prinsiplərə etiraz edə bilməz. Çünki həmin hökumət Brest danışıqlarında iştirak etməkdən imtina etdiyini və özünü Rusiyanın tərkib hissəsi olduğunu bildirmişdir. Odur ki, Osmanlı nümayəndəliyi onların Brest sülhü haqqında etirazını rədd etdi.

58-60 saylı tapşırıqların yerinə yetirilməsi üçün Azərbaycanın 1918-ci ildə Zaqafqaziya Seymi tərkibində olduğu tarixi dövrə dair biliklərə, həmçinin həmin dövrdə baş vermiş siyasi hadisələrə dair mühakimə yürütmək, təhlil etmək bacarıqlarına malik olmaq lazımdır. Abituriyentlər təqdim edilmiş mənbəni diqqətlə oxuyub təhlil etməli, həmçinin müvafiq dərsliklər əsasında mənimsədiyi biliklərlə əlaqələndirmək və nəticə çıxarmaq bacarığı nümayiş etdirməlidirlər.

“Azərbaycan tarixi”, 11-ci sinif

2.1.1. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın geosiyasi mövqeyini dəyərləndirir.

58. Mənbədə hansı konfransdan bəhs edildiyini müəyyən edərək yazın.

Bu tapşırığı abituriyentlərin 25,92 %-i (II ixtisas qrupunda 14,23%) tam yerinə yetirib və onların işi maksimum balla qiymətləndirilib. Abituriyentlərin 8,76 %-nin cavabı maksimum balın yarısı ilə, 36,88 %-nin cavabı 0 balla qiymətləndirilib, 37,12 %-i isə cavab verməkdən imtina edib.

1918-ci ilin mart ayının 3-də Sovet Rusiyası I Dünya müharibəsindəki rəqibləri olan Dördlər İttifaqının üzvləri ilə Brest-Litovsk şəhərində müqavilə imzalayaraq müharibədən çıxdı. Müqavilənin Osmanlı dövləti ilə imzalanmış və Qafqaza aid maddələrinə görə rus qoşunu Qars, Ərdəhan və Batum şəhərlərini tərk etməli, Rusiya və Osmanlı dövlətləri arasındakı 40 il əvvəlki sərhədlər bərpa olunmalı idi. Brest-Litovsk müqaviləsinin Qafqaza aid maddələrinə Cənubi Qafqaz Seyminin erməni və gürcü nümayəndələri etiraz etdilər. Tərəflər 1918-ci il mart ayının 14-də Trabzonda məsələni müzakirə etmək üçün konfransa toplaşdılar.

***Doğru cavab*:** Trabzon konfransı

***Qiymətləndirmə meyarı**:*

Bal şkalası	Meyar
2 bal	A. Tapşırığın doğru cavabı (Trabzon konfransı və ya Trabzon) cümlə daxilində və ya təklikdə yazılır;
1 bal	B. Doğru cavabla yanaşı 1 yanlış cavab yazılır (Məs. Trabzon, Paris)
0 bal	C. 1 doğru və 2 yanlış cavab=0 bal yazılır D. Bütün digər cavablar

"Azərbaycan tarixi", 11-ci sinif

3.1.2. Müxtəlif dövrlərdə dövlətlərarası münasibətlərdə Azərbaycanın mövqeyini şərh edir.

59. Konfransda Osmanlı hökumətinin Cənubi Qafqaz nümayəndəliyi qarşısında qoyduğu və mənbədə göstərilməyən iki tələbini müəyyən edərək yazın.

Bu tapşırığı abituriyentlərin 8,76 %-i (II ixtisas qrupunda 5,22%) tam yerinə yetirib və onların işi maksimum balla qiymətləndirilib. Abituriyentlərin 15,07 %-nin cavabı maksimum balın yarısı ilə, 24,22%-nin cavabı 0 balla qiymətləndirilib, 51,95 %-i isə cavab verməkdən imtina edib.

Konfransda Osmanlı hökumətinin Cənubi Qafqaz nümayəndəliyi qarşısında qoyduğu və mənbədə göstərilməyən tələbləri aşağıdakılardan ibarət idi:

1. Cənubi Qafqaz Seymi müstəqilliyini elan etsin, Cənubi Qafqaz Rusiyanın tərkibindən ayrılsın;
2. Qars, Batum, Ərdəhan vilayətləri dərhal boşaldılsın.

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyar
2 bal	• Cənubi Qafqaz (Zaqafqaziya) Seymi müstəqilliyini elan etsin (Cənubi Qafqazın Rusiyanın tərkibindən ayrılması); • Cənubi Qafqaz (federativ) respublikasının yaradılması • Özlərini müstəqil elan etsinlər (öz dövlətlərini yaratmaları) • Qars, Batum, Ərdəhan vilayətləri dərhal boşaldılsın. • Brest-Litovsk sülhünün şərtlərinə uyğun olaraq Qars, Batum, Ərdəhan vilayətləri dərhal boşaldılsın. • Qars, Ərdəhan və Batum vilayətlərinin (və ya bu ərazilərdən 1 və 2-nin qeyd edilməsi) geri qaytarılması) • 40 il əvvəl Rusiya tərəfindən işğal edilən ərazilərin geri qaytarılması • 1877-1878-ci illər sərhədlərinin bərpa edilməsi • Osmanlı dövlətinin ərazi bütövlüyü • Brest sülhünün tanınması • Ərazi iddiaları edilməməsi • Bir sıra ərazilər Osmanlılara verilməli idi. • Yuxarıda qeyd edilən doğru cavabların 2-nin qeyd edilməsi
1 bal	2 və daha çox törəmə cavaba (eyni məna, eyni mahiyyət daşıyan cavablar) 1 bal verilir. • 1 doğru cavab=1 bal • 1 doğru və 1 yanlış cavab=1 bal
0 bal	• Cənubi Qafqaz respublikaları seymdən çıxıb öz müstəqilliklərini elan etsinlər • Cənubi Qafqaz seymindən çıxsınlar • Cənubi Qafqaz Seymi buraxılsın • Seymin müstəqilliyi tanınmalı idi • Doğru cavab olmayan bütün digər cavablar • Mənbədən köçürülən bütün cavablar • 1 doğru və 2 yanlış cavab=0 bal

“Azərbaycan tarixi”, 9-cu sinif

3.1.2. Xarici dövlətlərin strateji maraqları ilə bağlı Azərbaycanın mövqeyini dəyərləndirir.

60. Tarixi biliklərinizə əsasən Seymin erməni və gürcü nümayəndələrinin Osmanlı dövlətinin tələblərini rədd etməsinin 3 nəticəsini yazın.

Bu tapşırığı abituriyentlərin 7,65 %-i (II ixtisas qrupunda 4,5 %) tam yerinə yetirib və onların işi maksimum balla qiymətləndirilib. Abituriyentlərin 8,92%-nin cavabı maksimum balın yarısı ilə, 26,98 %-nin cavabı 0 balla qiymətləndirilib, 56,45 %-i isə cavab verməkdən imtina edib.

Seymin erməni və gürcü nümayəndələri Osmanlı dövlətinin tələblərini rədd etməsinin nəticəsində Osmanlı hərbi qüvvələri ilə döyüşlərdə erməni-gürcü hərbi qüvvələri bir neçə gün ərzində ağır məğlubiyyətə uğradı. Osmanlı dövləti Batumu ələ keçirməklə Brest-Litovsk sülh müqaviləsinin müəyyənləşdirdiyi sərhədləri bərqərar etdi. Osmanlı dövləti Seymə sülh danışıqlarını bərpa etmək haqqında təklif göndərdi. Nəticədə, Seym Osmanlı dövlətinin hər iki tələbini qəbul etdi. Aprelin 22-də Seym Cənubi Qafqazın Rusiyadan ayrılmasını və müstəqil Demokratik Federativ Respublika elan olunmasını qərara aldı. Tapşırıqda bu hadisələrdən 3-nün qeyd edilməsi tələb olunur.

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyar
2 bal	• Cənubi Qafqaz (Zaqafqaziya) nümayəndə heyəti Trabzon sülh konfransını yarımçıq tərk etdi. • Seymin gürcü və erməni fraksiyaları Osmanlı dövlətininə müharibə elan edilməsi haqqında qərar verdilər. • Seymin gürcü və erməni fraksiyalarının qərarına qəti etiraz edən Azərbaycan fraksiyalarının mövqeyi isə nəzərə alınmadı. (Seymdə fikir ayrılığı yarandı.) • Osmanlı hərbi qüvvələri ilə döyüşlərdə erməni-gürcü hərbi qüvvələri məğlubiyyətə uğradı. (Osmanlı hərbi qüvvələri qalib gəldi.) • Osmanlı dövləti Batumu ələ keçirməklə Brest-Litovsk sülh müqaviləsinin müəyyənləşdirdiyi sərhədləri bərqərar etdi və Seymə sülh danışıqlarını bərpa etmək haqqında təklif göndərdi. • Seym Cənubi Qafqazın Rusiyadan ayrılmasını və müstəqil Demokratik Federativ Respublika elan olunmasını qərara aldı. (Seym Cənubi Qafqazı müstəqil etdi.) • Osmanlı dövlətinin ərazi bütövlüyü təmin edildi. • Osmanlı dövləti ilə yenidən sülh danışıqlarına başlanması üçün Batumda sülh konfransı çağırılması təklifi qəbul olundu. (Osmanlı dövləti ilə yenidən sülh danışıqlarına başlanması) • Osmanlı Batum konfransında əlavə ərazilər tələb etdi. • Osmanlı və Seym arasında toqquşmaya səbəb oldu. (Osmanlı dövləti gürcü və ermənilərlə müharibəyə girdi.) • Qars, Ərdahan və Batum boşaldıldı. • Şimali Azərbaycan müstəqillik əldə etdi.
1 bal	2 və daha çox törəmə cavaba (mahiyyətcə eyni cavab) 1 bal verilir. (Törəmə cavablar müvafiq doğru cavabların yanında möhtərizə içərisində verilmişdir.) • 2 doğru cavab və 1 yanlış=1 bal • 1 doğru cavab=1 bal • 1 doğru və 1 yanlış cavab=1
0 bal	1 doğru və 2 yanlış cavab=0 bal • Seymin gürcü və erməni fraksiyaları Osmanlı dövlətinin tələblərini rədd etdi. • Osmanlı dövləti Seymə müharibə elan etdi. • Seym fəaliyyətini dayandırdı • Bütün digər cavablar

Qəbul imtahanının nəticələri göstərir ki, abituriyentlər imtahana hazırlıq dövründə tarixi prosesləri öyrənərkən mövzulararası əlaqələndirmə və hadisələri səbəb-nəticə əlaqələri çərçivəsində təhlil edərək yekun ümumiləşdirmə aparmaq, məntiqi nəticə çıxarmaq və mühakimə yürütmək bacarığına daha da dərindən yiyələnməlidirlər.

Coğrafiya fənnindən ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsində istifadə olunmuş tapşırıqlar 3 (**"Coğrafi məkan"**, **"Təbiət"**, **"Cəmiyyət"**) məzmun xətti üzrə 6 əsas və 118 alt standartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Tapşırıqlar ilə abituriyentlərin

– Kainatda Yerin mövqeyini, öz oxu və Günəş ətrafında hərəkətinin coğrafi nəticələrini təsvir etmək;

– səma cisimlərinin qarşılıqlı təsirini əlaqələndirmək;

– Yerin ayrı-ayrı təbəqələrində baş verən hadisələrin səbəb-nəticə əlaqələrini müəyyən etmək;

– Yerin sutkalıq və illik hərəkətini Yerdə həyatın mövcudluğu ilə əlaqələndirmək;

– Əhalinin sayının dinamikasını ölkələrin iqtisadi inkişaf səviyyəsi ilə əlaqələndirmək;

– Coğrafi təbəqələrin inkişaf mərhələlərini izah etmək;

– Ərazilərin təbii şəraitinin və təbii proseslərin ölkələrin iqtisadiyyatında rolunu izah etmək üzrə bilik və bacarıqlarının yoxlanılması və qiymətləndirilməsi nəzərdə tutulub.

Test blokuna bilik və bacarıqların obyektiv qiymətləndirilməsi məqsədilə qabiliyyət göstəricilərinə görə: terminoloji, faktoloji, ümumiləşdirmə, izahat, hesablama, proqnozlaşdırma və təklif olunan fəaliyyət tipli, çətinlik dərəcələrinə görə isə sadə, orta və çətin tapşırıqlar daxil edilib.

Tapşırıqların bölmələr üzrə paylanmasında məktəb coğrafiya kursunda mövzuların əhəmiyyətlilik dərəcəsi, tədris prosesində bölmələrə ayrılan vaxt və ixtisas qrupunun peşə xüsusiyyətləri nəzərə alınıb.

Ötən illərdə olduğu kimi, bu il də nəzəri biliklərin tətbiqinə əsaslanan, məntiqi düşüncə tələb edən, qazanılmış biliklərin tətbiqinə əsaslanan xəritə-sxem, qrafik, diaqram və hesablama xarakterli tapşırıqlara üstünlük verilib.

Qəbul imtahanının nəticələrinin statistik göstəriciləri əsasında təhlil onu göstərib ki, abituriyentlərin bir çoxu "Coğrafiya xəritələri", "Azərbaycanın relyefi, faydalı qazıntıları", "Azərbaycanın iqlimi", "Materiklərin daxili suları", "Dünyanın təbii ehtiyatlarının yerləşməsi" , "Dünya təsərrüfatı" və s. mövzulara aid tapşırıqlara daha yaxşı cavab veriblər. Lakin hesablama xarakterli, xəritə-sxem məzmunu olan, nəzəri bilikləri tətbiq etmə, nəticə çıxarmaq qabiliyyəti tələb edən, müəyyən ölkələrin və ya regionların fiziki-coğrafi və iqtisadi-coğrafi səciyyəsini müəyyən edən tapşırıqlar nisbətən zəif cavablandırılıb.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahları təqdim olunur:

9-cu sinif

3.2.1. Ölkələrin inkişafını tarixi-coğrafi baxımdan izah edir.

13 iyul tarixli imtahan, A variantı, 33 saylı test tapşırığı

Niger çayının mənsəbində yerləşən ölkəyə aid olan xüsusiyyətləri müəyyən edin.

1. Afrikada inkişafı ən zəif olan ölkələrdən biridir.
2. Ərazisində savanna və seyrək meşələr geniş sahə tutur.
3. Urbanizasiya səviyyəsi aşağıdır.
4. Sahilindən soyuq okean cərəyanı keçir.
5. Son illərdə iri neft ixracatçısına çevrilmişdir.
6. Beynəlxalq hava, sərnişin, yük daşınmalarında həlledici rolu vardır.

A) 4, 5, 6 B) 1, 4, 6 C) 1, 3, 5 D) 2, 3, 6 E) 2, 3, 5

"Materiklər və ölkələr coğrafiyası" və "Dünyanın iqtisadi və sosial coğrafiyası" bölmələrinin qarşılıqlı əlaqəsi əsasında tərtib olunan, "Regionların fiziki-coğrafi və iqtisadi-coğrafi səciyyəsi" hissəsinə aid test tapşırığında Afrikada yerləşən Niger çayının mənsəbində olan ölkənin xarakterik xüsusiyyətlərinin müəyyən edilməsi tələb olunur. Tapşırığa abituriyentlərin 28,66%-i doğru cavab verib, 21,80%-i isə cavab verməkdən imtina edib. Nəticənin aşağı olması onu göstərir ki, abituriyentlərin bir çoxu əvvəlki illərdə olduğu kimi, yenə də ayrı-ayrı ərazilər və ölkələrin öyrənilməsində çətinlik çəkirlər və mövzunu tam olaraq mənimsəyə bilmirlər.

Test tapşırığının yerinə yetirilməsi üçün "Dünyanın fiziki xəritəsi" və "Dünyanın siyasi xəritəsi" əlaqəli şəkildə müqayisə edilməlidir. Müqayisədən aydın olur ki, materikdə Niger çayının mənsəbində olan ölkə Nigeriyadır. Subekvatorial iqlim qurşağında yerləşdiyinə görə onun ərazisində savanna və seyrək meşələr təbii zonası geniş sahə tutur (2); İEOÖ sırasına daxil olduğuna və kənd əhalisi üstünlük təşkil etdiyinə görə urbanizasiya səviyyəsi aşağıdır (3); neft hasilatında regionda aparıcı yer tutduğuna görə son illərdə iri neft ixracatçısına çevrilmişdir (5).

Doğru cavab: E.

10-cu sinif

2.1.7. Coğrafi təbəqənin qanunauyğunluqlarını izah edir.

13 iyul tarixli imtahan, A variantı, 37 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.

№	*Mühafizə olunan ərazi*	*Qorunan obyekt*	*Fiziki-coğrafi rayon*
1	Türyançay qoruğu	saqqızağacı	Acınohur-Ceyrançöl
2	Şirvan Milli Parkı	Ceyranlar	Küdrü-Şirvan
3	Qızılağac Milli Parkı	su quşları	Lənkəran ovalığı
4	Altıağac Milli Parkı	dağ-meşələri	Qonaqkənd
5	Göygöl Milli Parkı	göl kompleksi	Gəncə

A) 1, 2, 3 B) 1, 4, 5 C) 2, 4, 5 D) 1, 3, 5 E) 2, 3, 4

"Azərbaycanın fiziki coğrafiyası" bölməsinin "Azərbaycan Respublikasının torpaq-bitki örtüyü və ətraf mühitin mühafizəsi" mövzusuna aid test tapşırığında mühafizə olunan ərazilərin yerləşdiyi fiziki-coğrafi rayon və burada mühafizə edilən obyektlərin uyğun olduğu bəndlərin müəyyənləşdirilməsi tələb olunur. Bu test tapşırığına abituriyentlərin 18,41%-i doğru cavab verib, 8,03%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün ilk növbədə "Azərbaycanın fiziki-coğrafi rayonlaşma" xəritəsi ilə qoruqlar və milli parkların yerləşməsini əks etdirən xəritəni müqayisə etmək lazımdır. Bu zaman xüsusi mühafizə olunan ərazilərin hansı fiziki-coğrafi rayonda yerləşməsini asanlıqla müəyyən etmək olur. Verilmiş qoruqlar və milli parkları fiziki-coğrafi rayonlarla müqayisə etdikdə aydın olur ki, Türyançay qoruğunda ardıc və saqqız ağacından ibarət kolluqlar mühafizə olunur, bu ərazilər Acınohur-Ceyrançöl fiziki-coğrafi rayonunda yerləşir (1); Altıağac Milli Parkı dağ meşələrinin qorunması üçün yaradılmışdır, Qonaqkənd fiziki-coğrafi rayonunda yerləşir (4); Göygöl Milli Parkında eyni adlı göl kompleksi mühafizə edilir, bura Gəncə fiziki-coğrafi rayonuna daxildir (5).

Doğru cavab: B.

7-ci sinif

2.1.5. Dünya okeanı və quru sularının fiziki-coğrafi xüsusiyyətlərini şərh edir.

13 iyul tarixli imtahan, A variantı, 50 saylı test tapşırığı

Hansı gölün çuxuru şəkildə göstərilən tektonik struktura uyğun gəlir?

A) Oneqa B) Çad C) Eyr
D) Sarısu E) Nyasa



Təqdim olunan sxem əsasında göl çuxurunun mənşəyinin müəyyən edilməsinə aid test tapşırığı "Hidrosfer" bölməsində "Quru suları. Çaylar və göllər" mövzusuna aiddir. Tapşırıqda göl çuxurlarının mənşəyinə aid xüsusiyyətlərin müəyyən edilməsi tələb olunur. Bu tapşırığa abituriyentlərin 29,05%-i doğru cavab verib, 22,39%-i cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün bilmək lazımdır ki, tektonik hərəkətlər nəticəsində əmələ gələn çuxurlar uzunsov və dərin olur. Onların bəziləri su ilə dolduqda göllər yaranır. Dünyada Baykal, Tanqanika və Nyasa gölləri belə çuxurlarda yerləşir və bunlar daha məşhurdur.

Statistik məlumatların təhlili göstərir ki, abituriyentlərin əksəriyyəti hələ də konkret coğrafi obyektlərə aid xüsusiyyətlərin müəyyən edilməsində çətinlik çəkirlər.

Doğru cavab: E.

7-ci sinif

3.2.3. Dünya təsərrüfatın quruluşuna təsir edən təbii və iqtisadi amilləri şərh edir.

13 iyul tarixli imtahan, A variantı, 57 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.

1. Torpaq ehtiyatları 2. Su ehtiyatları 3. Meşə ehtiyatları

a. Yerləşməsi və tələbat rayonları arasında kəskin ərazi fərqləri vardır.

b. Mülayim enliklərdə meşə-kimya sənayesini xammal ilə təmin edir.

c. Mülayim-kontinental iqlim şəraitində daha məhsuldardır.

d. Çox hissəsi kənd təsərrüfatında və sənayedə istifadə edilir.

e. Dünyada iki qurşaq formasında yerləşir.

Uyğunluğun müəyyən edilməsinə aid açıq tipli tapşırıq "Dünyanın təbii ehtiyatlarının coğrafiyası" bölməsinə aiddir və onların yerləşmə xüsusiyyətlərinin müəyyən edilməsi ilə bağlıdır. Tapşırığa abituriyentlərin 10,44%-i doğru cavab verib, 21,15%-i cavab verməkdən imtina edib. Təəssüflə qeyd etmək lazımdır ki, abituriyentlərin 68,41%-nin cavabı səhv olmuşdur.

Tapşırığın yerinə yetirilməsi üçün təbii ehtiyatların yerləşmə və istifadə uyğunluğunu bilmək lazımdır. Torpaq ehtiyatları mülayim-kontinental iqlim şəraitində daha məhsuldardır; su ehtiyatlarının yerləşməsi və tələbat rayonları arasında kəskin ərazi fərqləri vardır, onların çox hissəsi kənd təsərrüfatında və sənayedə istifadə edilir; meşə ehtiyatları mülayim enliklərdə meşə-kimya sənayesini xammal ilə təmin edir, dünyada iki qurşaq (şimal və cənub meşə qurşağı) formasında yerləşir.

Doğru cavab: 1 –c; 2 – a, d; 3 – b, e

8-ci sinif

3.1.2. Əhalinin təbii artımına görə hesablamalar aparır

14 iyul tarixli imtahan, A variantı, 36 saylı test tapşırığı

Ölkə əhalisinin sayı 62,5 milyon nəfərdir. İl ərzində ölkədə hər 1000 nəfərə doğulanların sayı 5 nəfər, ölənlərin sayı isə 1 nəfər olmuşdur. Növbəti ildə ölkə əhalisinin sayı 62,7 milyon nəfərə çatmışdır. Bu müddət ərzində ölkəni tərk edənlərin sayını hesablayın (min nəfərlə).

A) 35 B) 15 C) 50 D) 56 E) 80

Hesablama xarakterli bu test tapşırığında əhalinin təbii artımı və miqrasiya arasında nisbətin müəyyən edilməsi tələb olunur. Test tapşırığına abituriyentlərin 35,36%-i doğru cavab verib, 34,53%-i isə cavab verməkdən imtina edib. Əvvəlki illərdə də bu tipli test tapşırıqlarının təqdim olunmasına baxmayaraq, abituriyentlər onun həllində çətinlik çəkmişlər.

Test tapşırığının yerinə yetirilməsi üçün bilmək lazımdır ki, əhalinin sayı təbii artım və miqrasiya hesabına dəyişir. Ölkədən gedənlərin sayı çox olursa, əhalinin sayı zəif artır və ya azalır. İlk növbədə təbii artım hesabına əhalinin sayının neçə nəfər çoxaldığı müəyyən edilməlidir:

Doğulanların sayı:

1000 nəfər — 5 nəfər

62500 min nəfər — x nəfər x = (62500 min x 5) : 1000 = 312500 nəfər

Ölənlərin sayı:

1000 nəfər — 1 nəfər

62500 min nəfər — x nəfər x = (62500 min x 1) : 1000 = 62500 nəfər

Təbii artım: 312500 nəfər – 62500 nəfər = 250 000 nəfər olacaqdır. Tapşırığın şərtində göstərildiyi kimi, ölkədə əhalinin sayı bir il ərzində 200 000 nəfər artdığına görə miqrasiya edənlərin sayı 50 min nəfər olmuşdur: (250 000-200 000 = 50min nəfər).

Doğru cavab: 50 (min nəfər)

9-cu sinif

3.2.3 Təsərrüfat sahələrinin səciyyəsini verir.

14 iyul tarixli imtahan, A variantı, 41 saylı test tapşırığı

Əsasən tropik enliklərdə becərilən bitkilər:

A) şəkər qamışı, arpa, kətan B) pambıq, şəkər çuğunduru, taxıl

C) şəkər çuğunduru, şəkər qamışı, təbii kauçuk D) şəkər qamışı, qəhvə, təbii kauçuk

E) buğda, təbii kauçuk, qəhvə

Bu test tapşırığı "Dünya təsərrüfatının coğrafiyası" bölməsində "Dünyanın kənd təsərrüfatı sahələrinin coğrafiyası" mövzusuna aiddir. Burada kənd təsərrüfatı bitkiləri əkinlərinin yerləşmə xüsusiyyətlərinin müəyyən edilməsi, onlar arasında tropik bitkilərin seçilməsi tələb olunur. Test tapşırığına abituriyentlərin 29,20%-i doğru cavab verib, 13,56%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin regionlar üzrə yerləşməsini, hansı ölkələrdə və hansı təbii-coğrafi şəraitdə yerləşməsini bilmək lazımdır. Tapşırıqda verilən bitkilərin təhlili göstərir ki, şəkər qamışı, qəhvə və təbii kauçuk tropik enliklərdə becərilir.

Doğru cavab: D

8-ci sinif

1.2.2. Yerin hərəkətinin coğrafi nəticələri ilə həyatın inkişafı arasında əlaqəni izah edir.

14 iyul tarixli imtahan, A variantı, 42 saylı test tapşırığı

Yerin fırlanma oxu ilə orbit müstəvisi arasında qalan bucaq 58º-yə bərabər olsaydı, hansı hadisələr baş verərdi?

1. Bakıya günəş şüalarının minimum düşmə bucağı azalardı.
2. Mülayim qurşağın sahəsi böyüyərdi.
3. 23,5º enliklərdə Günəş ildə iki dəfə zenitdə olardı.
4. Fəsillərin növbələşməsinin baş verdiyi ərazi kiçilərdi.
5. Yalnız yaz və payız fəsilləri olardı.
6. Ayrı-ayrı enliklərdə gündüzün uzunluğu bərabər olardı.

A) 2, 3, 5 B) 1, 4, 6 C) 1, 3, 4 D) 1, 5, 6 E) 2, 4, 5

Bu test tapşırığı "Yerin Günəş ətrafında hərəkəti və onun nəticələri" bölməsinə aiddir. Burada Yerin fırlanma oxu ilə orbit müstəvisi arasında qalan bucağın dəyişməsi nəticəsində baş verə biləcək hadisələrin müəyyən edilməsi tələb olunur. Test tapşırığına abituriyentlərin 26,78%-i doğru cavab verib, 31,97%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün xəyali olaraq Yerin fırlanma oxu ilə orbit müstəvisi arasında qalan bucağın dəyişməsi prosesində hansı hadisələrin baş verə biləcəyini təsəvvür etmək lazımdır. Mövcud şəraitdə Yerin fırlanma oxu ilə orbit müstəvisi arasında qalan bucaq 66,5º-yə bərabərdir. Onun azalması baş verərsə, tropiklər qütblərə doğru, Qütb dairələri isə ekvatora doğru hərəkət etmiş olar. Bu halda isə Bakıya günəş şüalarının minimum düşmə bucağı azalardı (1); 23,5º enliklərdə Günəş ildə iki dəfə zenitdə olardı (3); fəsillərin növbələşməsinin baş verdiyi ərazilər kiçilərdi (4).

Doğru cavab: **C**

10-cu sinif

2.1.7. Coğrafi təbəqənin qanunauyğunluqlarını izah edir

14 iyul tarixli imtahan, A variantı, 55 saylı test tapşırığı

Talış dağları fiziki-coğrafi rayonunu Günnüt-Qapıcıq fiziki-coğrafi rayonundan fərqləndirən əlamətlər:

1. Alçaqdağlıq ərazilərdə yağıntıların miqdarı orta dağlığa nisbətən çoxdur.
2. Endemik və relikt bitki növləri geniş yayılmışdır.
3. Kiçik Qafqaz tektonik qalxmasında yerləşir.
4. Alçaq dağlıq sahələrdə meşə örtüyü yaxşı inkişaf etmişdir.
5. Səpələnən günəş radiasiyasının miqdarı daha çoxdur.
6. Dağətəyi ərazilərdən yüksək dağlığa doğru ümumi günəş radiasiyası artır.

Seçim formalı açıq tipli tapşırıq "Azərbaycanın fiziki coğrafiyası" bölməsinin "Azərbaycanın fiziki-coğrafi rayonlaşdırılması" mövzusuna aiddir. Tapşırığa abituriyentlərin 1,11%-i doğru cavab verib, 23,39%-i cavab verməkdən imtina edib, 75,50%-i isə səhv cavab verib.

Tapşırığın yerinə yetirilməsi üçün Azərbaycanın fiziki-coğrafi rayonlarının yerləşdiyi ərazilərin coğrafi xüsusiyyətlərini bilmək lazımdır. Belə ki, Talış dağları fiziki-coğrafi rayonu Günnüt-Qapıcıq fiziki-coğrafi rayonundan alçaq dağlıq ərazilərdə yağıntıların miqdarının orta dağlığa nisbətən çox olması (1); endemik və relikt bitki növlərinin geniş yayılması (2); alçaq dağlıq sahələrdə meşə örtüyünün yaxşı inkişaf etməsi (4); səpələnən günəş radiasiyasının miqdarının daha çox olması (5) kimi əlamətlərinə görə fərqlənir.

Doğru cavab: 1, 2, 4, 5.

Qəbul imtahanlarının nəticələrinin statistik göstəricilərinin təhlili göstərir ki, müxtəlif mövzulara aid hesablama xarakterli və xəritə-sxemlərin qarşılıqlı əlaqəli təhlilinə aid tapşırıqların yerinə yetirilməsində bir sıra abituriyentlər çətinlik çəkiblər. Bu kimi çətinliklərin aradan qaldırılması üçün abituriyentlərə nəzəri biliklərlə yanaşı, praktik bilgilərə və xəritə-sxemlərlə, diaqramlarla, qrafiklərlə işləmə bacarığına yiyələnmələri tövsiyə edilir.

Riyaziyyat fənnindən I və II ixtisas qrupları üzrə qəbul imtahanlarında istifadə edilmiş tapşırıqlar 5 (**"Ədədlər və əməllər"**, **"Cəbr və funksiyalar"**, **"Həndəsə"**, **"Ölçmə"**, **"Statistika və ehtimal**") məzmun xətti üzrə 12 əsas və 187 alt standartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Tapşırıqlar ilə abituriyentlərin

1. Ədədlər üzərində dəqiq və təqribi hesablamalar aparmaq;
2. Həyati məsələlərin həllində riyazi bilikləri tətbiq etmək;
3. Riyazi anlayışlara aid alqoritmləri yerinə yetirmək;
4. Rasional ifadələr üzərində eynilik çevrilmələri aparmaq;
5. Tənlik və bərabərsizlikləri həll etmək;
6. Riyazi kəmiyyətlər arasındakı asılılıqların qrafiki təsvirini mənimsəmək;
7. Həndəsi fiqurlarla, koordinatlar və vektorlarla əməliyyatların yerinə yetirilməsi;
8. Müstəvi fiqurların və fəza cisimlərinin xassələrini praktik həndəsi məsələlərin həllinə tətbiq etmək;
9. Statistik məlumatları toplamaq, araşdırmaq, sistemləşdirmək və nəticəsini təqdim etmək;
10. Statistik və ehtimal əsasında hadisənin başvermə mümkünlüyünü proqnozlaşdırmaq;
11. Ətraf aləmdəki ehtimal və statistikanın qanunauyğunluqlarının mövcudluğu haqqında məlumatları izah etmək, ehtimalın klassik modelinə əsasən hadisələrin baş verməsini proqnozlaşdırmaq üzrə bilik və bacarıqlarının aşkara çıxarılması və qiymətləndirilməsi nəzərdə tutulub.

I və II ixtisas qrupları üzrə qəbul imtahanlarında istifadə edilmiş 30 tapşırıqdan 19-u cəbr və 11-i həndəsəyə aid olub. Abituriyentlərin hazırlıq səviyyəsinin hərtərəfli yoxlanılması və qiymətləndirilməsi məqsədilə bloklara mürəkkəblik dərəcəsinə görə sadə, orta, çətin tapşırıqlar daxil edilib və nəzəri biliklərin tətbiqinə əsaslanan, məntiqi düşüncə, təhliletmə bacarığı tələb olunan tapşırıqlara üstünlük verilib.

Qəbul imtahanının nəticələrinin statistik göstəriciləri əsasında təhlil göstərib ki, hər iki ixtisas qrupu üzrə abituriyentlərin müəyyən hissəsi natural ədədlər, adi və onluq kəsrlər, rasional kəsrlər, kvadrat köklər, tənliklər sistemi, funksiyalar və qrafiklər, üstlü və loqarifmik tənliklər, sadə həndəsi fiqurlar, dördbucaqlılar mövzularına aid tapşırıqlara yaxşı cavab veriblər. Bununla yanaşı, bir sıra abituriyentlər bərabərsizliklər, triqonometrik funksiyalar və tənliklər, loqarifmik funksiya, funksiyanın törəməsi, üçbucaqlar, fiqurların sahəsi, hərəkət, koordinatlar üsulu, çoxüzlülər, fırlanma cisimləri mövzularına aid tapşırıqları zəif cavablandırıblar.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahları təqdim olunur:

11-ci sinif 2.1.3. ***Törəmənin həndəsi və fiziki mənasını tətbiq edir.***

13 avqust tarixli imtahan, II ixtisas qrupu, A variantı, 15 saylı test tapşırığı

$f(x) = -x + 5 + 3\ln(x+2)$ funksiyasının qrafikinə toxunan düz xətt absis oxuna paraleldir. Toxunma nöqtəsinin absisini tapın.

A) 2 B) –1 C) –2 D) 1 E) 0

11-ci sinifdə tədris olunan "*Törəmə və tətbiqləri*" bölməsinə aid test tapşırığına abituriyentlərin 15,47%-i doğru cavab verib, 52,15%-i isə cavab verməkdən imtina edib.

Məlumdur ki, funksiyasının qrafikinə toxunan düz xətt absis oxuna paralel olarsa, həmin nöqtədə $f'(x) = 0$ şərti ödənilər. Onda,

$$f'(x) = -1 + \frac{3}{x+2} = 0,$$

$$\frac{3}{x+2} = 1,$$

$$x + 2 = 3,$$

$$x = 1$$

Beləliklə, toxunma nöqtəsinin absisi x=1 olar.

Doğru cavab: D.

Düzgün cavab faizinin aşağı olmasını abituriyentlərin funksiyaların törəmələri haqqında biliklərinin zəif olmaları ilə əlaqələndirmək olar.

8-ci sinif 2.2.1. ***Rasional ifadələr üzərində əməlləri yerinə yetirir.***

13 avqust tarixli imtahan, II ixtisas qrupu, A variantı, 26 saylı test tapşırığı

$x^2-4x+1=0$ olarsa, $x+x^2+\frac{1}{x}+\frac{1}{x^2}$ ifadəsinin qiymətini tapın.

8-ci sinifdə tədris olunan "*Rasional ifadələr*" bölməsinə aid açıq tipli test tapşırığına abituriyentlərin 7,11%-i doğru cavab verib, 64,56%-i isə cavab verməkdən imtina edib.

$x^2-4x+1=0 \Rightarrow x^2+1=4x$ bərabərliyinin hər iki tərəfi x-a bölünsə, $x+\frac{1}{x}=4$ alınar. Verilmiş ifadə sadələşdirilsə:

$$x+x^2+\frac{1}{x}+\frac{1}{x^2}=\left(x+\frac{1}{x}\right)+\left(x^2+\frac{1}{x^2}\right)=\left(x+\frac{1}{x}\right)+\left(x+\frac{1}{x}\right)^2-2\cdot x\cdot\frac{1}{x}=4+16-2=18$$ alınar.

Doğru cavab: 18.

Abituriyentlərin zəif nəticə göstərmələrini onların tapşırığın həlli üçün lazım olan faktları bilməmələri və təhliletmə qabiliyyətlərinin zəif olması ilə əsaslandırmaq olar.

13 avqust tarixli imtahan, II ixtisas qrupu, A variantı

Situasiya. Parkda şəkildə göstərilən növdə karusel quraşdırıldı. Karuselin oturacaqlarının bərkidildiyi iplərin oturacaqlarla birlikdə hündürlüyü 10 m, iplərin bərkidildiyi hissənin çevrəsinin uzunluğu 12π m-dir. Karusel hərəkət edərkən iplər sabit vəziyyətindən yalnız radius istiqamətində 30° kənara doğru meyil edərək müəyyən çevrə üzrə hərəkət edir. Karuselin oturacaqları sarı, qırmızı, yaşıl və göy rənglərlə boyanmışdır.



28. Karusel hərəkət edərkən oturacaqların cızdığı ən böyük çevrənin uzunluğunu tapın.

Həlli: Kiçik çevrənin (iplərin bərkidildiyi hissənin) radiusu $2\pi r=12\pi \rightarrow r=6$ tapılır. Düzbucaqlı üçbucaqda 30^o-li bucağın qarşısındakı katet hipotenuzun yarısına bərabər olduğu üçün karuselin oturacaqları iplərin bərkidildiyi hissədən 5 m kənara meyil edəcək. Onda, karusel hərəkət edərkən oturacaqların cızdığı ən böyük çevrənin radiusu $R=6+5=11$ (m) olar. Deməli, axtarılan çevrənin uzunluğu $l=2\pi R=22\pi$ olar.



Doğru cavab: 22π *m*

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
2 bal	A. Üsulundan asılı ***olmayaraq*** tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavab (22π m və ya 22π və ya 69,08 və ya 66) doğru tapılıb;
1 bal	B. Üsulundan asılı ***olmayaraq*** tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; C. Karusel hərəkət edərkən oturacaqların cızdığı ən böyük çevrənin radiusu həll prosesi aparılaraq $R=6+5=11(m)$ düzgün tapılıb, lakin həll prosesinin davamı ***yoxdur*** və ya ***səhvdir***; D. Kiçik çevrənin radiusu (6) və karuselin oturacaqlarının iplərin bərkidildiyi hissədən 5m kənara meyl etməsi tapıldıqdan sonra ***səhvən*** böyük çevrənin radiusu $R=6+10=16$ yazılaraq $l=2\pi R=32\pi$ (və ya 100,48 və ya 96) tapılıb; **Bu bənd E bəndindən fərqləndirilməlidir!**

Bal şkalası	Meyarlar
0 bal	E. Kiçik çevrənin radiusu (6) tapıldıqdan sonra ***səhvən*** böyük çevrənin radiusu R=6+10=16 yazılaraq $l=2\pi R=32\pi$ (və ya 100,48 və ya 96) tapılıb; **Bu bənd D bəndindən fərqləndirilməlidir!** (burada iplərin bərkidildiyi hissənin 5 m kənara meyil etməsi şagirdin yazısından ***hiss olunmur***) F. Yalnız Kiçik çevrənin radiusu (6) tapılıb, həll prosesinin davamı ***yoxdur*** və ya tamamilə ***yanlışdır***; G. Yazı vərəqində yalnız 5+6=11 və ya 10+12=22 və ya $10+12\pi=22\pi$ və ya $10\pi+12\pi=22\pi$ yazılıb; H. Birbaşa cavab (22πm və ya 22π və ya 69,08 və ya 66) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır***; I. Başqa tapşırığın həlli yazılıb; J. Yalnız karuselin oturacaqlarının iplərin bərkidildiyi hissədən 5m kənara meyil etməsi tapılıb, lakin həll prosesinin davamı ***yoxdur*** və ya ***səhvdir***; (yəni 5m yazıldıqdan sonra $R=5\cdot3$ və ya $R=5\cdot2$ və ya $R=5\cdot4$ və ya buna uyğun hər hansı ifadə yazılaraq həll prosesi davam etdirilib) K. Yalnız çevrənin uzunluğunun düsturu yazılıb, həll prosesi ***yoxdur*** və ya tamamilə ***yanlışdır***; L. Kiçik çevrənin radiusu 6 tapıldıqdan sonra ***səhvən*** $R=6\cdot2=12$ yazılaraq $l=24\pi$ hesablanıb; M. ***Səhvən*** böyük çevrənin radiusu 6m və ya 8m və ya 10m yazılıb və uyğun olaraq $l=12\pi$ və ya $l=16\pi$ və ya $l=20\pi$ hesablanıb; N. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə abituriyentlərin "Həndəsə" məzmun xəttinin 6_3.1.4. (*Çevrə və dairənin elementlərini (vətər, seqment, sektor, mərkəzi bucaq) bilir, onların xassələrini tətbiq edir*) alt standartının tələbləri üzrə bacarıqlar yoxlanılır.

Abituriyentlərin 12,14%-i yazı işini tam yerinə yetirirdiyinə görə 2 balla, 21,80% -i 1 balla, 2,09%-i 0 balla qiymətləndirilib, 63,97%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin tapşırığa zəif cavab vermələrini onların qeyd edilən faktları bilməmələri ilə əlaqələndirmək olar.

29. Karusel hərəkət edərkən iplərin bərkidildiyi hissəylə oturacaqların cızdığı ən böyük çevrə arasında əmələ gələn fiqurun səthinin sahəsini hesablayın.

Həlli:



I Üsul: Karusel hərəkət edərkən iplərin bərkidildiyi hissə ilə oturacaqların cızdığı ən böyük çevrə arasında əmələ gələn fiqur doğuranı 10m, oturacaqlarındakı çevrələrin radiusu uyğun olaraq 6m və 11m olan kəsik konusun oturacaqları arasında qalan səthdir. Onda, axtarılan sahə $S_{yan}=\pi l(r+R)=10\pi\cdot17=170\pi$



II Üsul: Əvvəlcə kəsik konusu tam konusa tamamlayıb, oxşar konusların xassəsinə görə $\frac{x}{x+10}=\frac{6}{11}\rightarrow x=12$. Onda, tam konusun doğuranı 12 + 10 = 22 olacaq. Deməli, kəsik konusun yan səthinin sahəsi $S_{yan}=22\cdot11\pi-12\cdot6\pi=170\pi$

Doğru cavab: $170\pi m^2$

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
2 bal	A. Üsulundan asılı ***olmayaraq*** tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavab ($170\pi m^2$ və ya 170π və ya 533,8 və ya 510) doğru tapılıb; B. Həll prosesi düzgün aparılıb, lakin əvvəlki tapşırıqda alınan ***səhv*** nəticəyə görə cavab düzgün ***tapılmayıb***; C. Kəsik konusun tam səthinin sahəsi (327π və ya 1026,78 və ya 981) hesablanıb;

Bal şkalası	Meyarlar
1 bal	D. Üsulundan asılı ***olmayaraq*** tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; E. ***Səhvən*** $S_{tam}=\pi l(R-r)+S_{ot1}+S_{ot2}=10\pi\cdot 17=50\pi+36\pi+121\pi=207\pi$ və ya $S_{y_{an}}=\pi l(R-r)=50\pi$ tapılıb; F. ***Səhvən*** $S_{tam}=\pi l\dfrac{(R+r)}{2}+S_{ot1}+S_{ot2}=10\pi\cdot 17=85\pi+36\pi+121\pi=242\pi$ və ya $S_{yan}=\pi l\dfrac{(R+r)}{2}=85\pi$ tapılıb; G. Yalnız $S_{yan}=l(r+R)=10\cdot 17=170$ yazılıb; H. Radiuslardan biri ***hər hansı fərqli ədəd*** seçilib və həll prosesi buna uyğun aparılaraq kəsik konusun tam və ya yan səthinin sahəsi doğru tapılıb; I. Kəsik konusun yan səthi (170π) tapıldıqdan sonra hər hansı digər üsulla sahə tapılaraq yan səthin sahəsi ilə toplanılıb; (məsələn $S_d=\pi(r+R)^2=289\pi$, $170\pi+289\pi=459\pi$) **Bu bənd C bəndindən fərqləndirilsin!** J. **II Üsulla** həll zamanı $x=12$ olduğu tapılıb, lakin həll prosesinin davamı ***yoxdur*** və ya ***səhvdir***; (yəni $x=12$ tapıldıqdan sonra konusun həcmi və ya hər hansı uyğun ***olmayan*** hesablama aparılıb)
0 bal	K. Kəsik konusun ouracaqlarının radiusları (6 və 11) qeyd edilib və hündürlüyü ($5\sqrt{3}$) tapılıb, lakin həll prosesinin davamı ***yoxdur*** və ya tamamilə ***yanlışdır***; (yəni ***səhvən*** $S_{tam}=\pi\cdot(R+r)+S_{ot1}+S_{ot2}$ və ya $S_{yan}=\pi\cdot(R+r)$ düsturlarından istifadə edilib) L. Kəsik konusun həcmi hesablanıb; M. ***Səhvən*** $S_{yan}=\pi Rl=110\pi$ və ya $S_{yan}=\pi rl=60\pi$ və ya $S_{tam}=\pi Rl+157\pi=267\pi$ və ya $S_{tam}=\pi rl+157\pi=217\pi$ yazılıb; N. Yalnız $S_{yan}=\pi l(r+R)$ və ya hər hansı düstur yazılıb, lakin hesablama prosesi ***yoxdur***; O.Yalnız kəsik konusun oturacaqlarının sahəsi (36π və 121π) və ya onların cəmi (157π) və ya fərqi ($85\ \pi$) hesablanıb, həll prosesinin davamı ***yoxdur*** və ya tamamilə ***yanlışdır***; P. Birbaşa cavab ($170\pi m^2$ və ya 170π və ya 533,8 və ya 510) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır***; Q. ***Səhvən*** $S_{yan}=22\pi\cdot 10=220\pi$ və ya $S_{yan}=2\pi(R-r)=2\pi\cdot 5=10\pi$ yazılıb; R. Başqa tapşırığın həlli yazılıb; S. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə abituriyentlərin "Həndəsə" məzmun xəttinin 11_3.2.4. (*Konusun, kəsik konusun yan səthlərinin, tam səthlərinin və həcmlərinin tapılmasına aid məsələlər həll edir*) alt standartının tələbləri üzrə bacarıqlar yoxlanılır.

Abituriyentlərin 3,79%-i yazı işini tam yerinə yetirdiyinə görə 2 balla, 18,15%-i 1 balla, 1,89%-i 0 balla qiymətləndirilib, 76,17%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin tapşırığa zəif cavab vermələrini onların kəsik konusun yan səthinin sahəsi haqqında biliklərinin zəif olması ilə əlaqələndirmək olar.

30. Karuseldə hər rəngdə oturacaqdan 5 ədəd olarsa, karuselə ardıcıl yaxınlaşan 2 uşağın hər ikisinin yaşıl oturacaqda əyləşməsi hadisəsinin ehtimalını hesablayın.

Həlli:

I Üsul: Karuseldəki bütün oturacaqların sayı 20, yaşıl oturacaqların sayı isə 5 ədəddir. Onda, karuselə ardıcıl yaxınlaşan 2 uşağın hər ikisinin yaşıl oturacaqda əyləşməsi hadisəsinin ehtimalı

$$\frac{{}_5C_2}{{}_{20}C_2}=\frac{5!}{2!\cdot 3!}\cdot\frac{18!\cdot 2!}{20!}=\frac{1}{19}$$

II Üsul: Karuselə ardıcıl yaxınlaşan birinci şagirdin yaşıl oturacaqda əyləşməsi hadisəsinin ehtimalı $\frac{5}{20}$, bu şərt daxilində ikinci şagirdin yaşıl oturacaqda əyləşməsi hadisəsinin ehtimalı $\frac{4}{19}$-dür. Hər iki hadisənin eyni anda baş verməsi hadisəsinin ehtimalı isə $\frac{5}{20}\cdot\frac{4}{19}=\frac{1}{19}$ olar.

Doğru cavab: $\frac{1}{19}$

Qiymətləndirmə meyarı:

Bal şkalası	**Meyarlar**
2 bal	A. Üsulundan asılı ***olmayaraq*** tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavab ($\frac{1}{19}$) doğru tapılıb;
1 bal	B. Üsulundan asılı ***olmayaraq*** tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; C. Əlverişli halların sayı ${}_5C_2=10$ düzgün tapılıb, lakin həll prosesinin davamı ***yoxdur*** və ya ***səhvdir***; (burada ${}_5C_2$ -nin kəsrin surətində yazılaraq həll prosesinin aparılması və ya əlverişli halların sayının → ${}_5C_2=10$ yazılması nəzərdə tutulur) **Bu bənd N bəndindən fərqləndirilməlidir!** D. Mümkün halların sayı ${}_{20}C_2=190$ düzgün tapılıb, lakin həll prosesinin davamı ***yoxdur*** və ya ***səhvdir***; (burada ${}_{20}C_2$ -nin kəsrin məxrəcində yazılaraq həll prosesinin aparılması və ya mümkün halların sayının → ${}_{20}C_2=190$ yazılması nəzərdə tutulur) **Bu bənd N bəndindən fərqləndirilməlidir!** E. $\frac{5}{20}$ və $\frac{4}{19}$ qeyd edilib, lakin həllin davamı ***yoxdur*** və ya ***səhvən*** $\frac{5}{20}+\frac{4}{19}=\frac{35}{76}$ yazılıb; F. Oturacaqların ümumi sayı (20) hesablandıqdan sonra yalnız birinci şagirdin yaşıl oturacaqda əyləşməsi ehtimalı $\frac{5}{20}$ və ya $\frac{5}{20}=\frac{1}{4}$ yazılıb, həll prosesinin davamı ***yoxdur*** və ya ***yanlışdır***; **Bu bənd O bəndindən fərqləndirilməlidir!** G. ***Səhvən*** $\frac{5}{20}\cdot\frac{5}{20}=\frac{1}{16}$ yazılıb;
0 bal	H. ***Səhvən*** $\frac{{}_{20}C_2}{{}_5C_2}=\frac{19\cdot10}{10}=19$ yazılıb; I. Yalnız oturacaqların sayı yazılıb, həll prosesinin davamı ***yoxdur*** və ya tamamilə ***yanlışdır***; J. Birbaşa cavab ($\frac{1}{19}, \frac{10}{190}, \frac{5}{95}, \frac{2}{38}, \frac{20}{380}$ və ya hər hansı ekvivalent kəsr) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır***; K. Başqa tapşırığın həlli yazılıb; L. Yalnız $\frac{2}{20}$ və ya $\frac{2}{5}$ və ya hər hansı bu kimi kəsrlər yazılıb; M. Yalnız ${}_5C_2=10$ və ya ${}_{20}C_2=190$ olduğu yazılıb (ikisindən biri), lakin həll prosesinin davamı ***yoxdur*** və ya tamamilə ***yanlışdır***; **Bu bənd C və D bəndindən fərqləndirilməlidir! (**burada yazı vərəqində heç bir qeyd ***olmadan*** ${}_5C_2=10$ və ya ${}_{20}C_2=190$ yazılması nəzərdə tutulur, yəni şagirdin yazısından ${}_5C_2=10$ -un əlverişli halların sayı olması və ya ${}_{20}C_2=190$ -ın mümkün halların sayı olması ***hiss olunmur*****)** N. Birbaşa $\frac{5}{20}=\frac{1}{4}$ yazılıb; **Bu bənd F bəndindən fərqləndirilməlidir!** O. Oturacaqların sayı tapıldıqdan sonra ***səhvən*** $\frac{2}{20}=\frac{1}{10}$ yazılıb; P. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə abituriyentlərin "Statistika və ehtimal" məzmun xəttinin 8_5.2.3. (*Ehtimalların hesablanmasına aid məsələlərdə vurma qaydasını tətbiq edir*) alt standartının tələbləri üzrə bacarıqlar yoxlanılır.

Abituriyentlərin 10,44%-i yazı işini tam yerinə yetirdiyinə görə 2 balla, 20,50%-i 1 balla, 8,03%-i 0 balla qiymətləndirilib, 61,03%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin tapşırığa zəif cavab vermələrini onların "Ehtimal nəzəriyyəsi" bölməsindən tapşırığın həlli üçün lazım olan faktları bilməmələri ilə əlaqələndirmək olar.

9-cu sinif 2.3.1. ***Cəbri bərabərsizlikləri intervallar üsulu ilə həll edir.***

14 avqust tarixli imtahan, II ixtisas qrupu, A variantı, 11 saylı test tapşırığı

$|x-2| < |x^2-x-2|$ bərabərsizliyini ***ödəməyən*** tam ədədlərin sayını tapın.

A) 3 B) 2 C) 1 D) 4 E) 5

9-cu sinifdə tədris olunan "*Bərabərsizliklər*" bölməsinə aid test tapşırığına abituriyentlərin 10,24%-i doğru cavab verib, 21,38%-i isə cavab verməkdən imtina edib.

$|x-2| < |x^2-x-2|$ bərabərsizliyini ***ödəməyən*** həllər çoxluğu, $|x-2| \geq |x^2-x-2|$ bərabərsizliyinin həllər çoxluğudur. Sonuncu bərabərsizliyin həlli $\left[\begin{array}{l} x=2 \\ |x+1| \leq 1 \end{array}\right.$ bərabərsizliyinə gətirilir.

Beləliklə, verilmiş bərabərsizliyi ödəməyən tam həllərinin sayı 4-dür.

Doğru cavab: D.

Nəticənin aşağı olmasının səbəbi abituriyentlərin dəyişəni həm də modul işarəsi daxilində olan bərabərsizliklər mövzusunu zəif mənimsəmələri ilə əsaslandırmaq olar.

8-ci sinif 2.2.1. ***Rasional ifadələr üzərində əməlləri yerinə yetirir.***

14 avqust tarixli imtahan, II ixtisas qrupu, A variantı, 23 saylı test tapşırığı

$\dfrac{x^2+4xy+3}{(a^2+3a)x+2x+5}$ ifadəsini tam rasional ifadəyə çevirən *a*-nın qiymətləri hasilini tapın.

8-ci sinifdə tədris olunan "*Rasional ifadələr*" bölməsinə aid açıq tipli test tapşırığına abituriyentlərin 6,78%-i doğru cavab verib, 66,23%-i isə cavab verməkdən imtina edib.

$\dfrac{x^2+4xy+3}{(a^2+3a)x+2x+5}$ ifadəsinin tam rasional ifadəyə çevirməsi üçün (a^2+3a) əmsalı (–2)-yə bərabərləşdirilməlidir. $a^2+3a=-2 \Rightarrow a^2+3a+2=0$

Deməli, *a*-nın qiymətləri hasili $a_1 \cdot a_2 = 2$ olur.

Doğru cavab: 2.

Abituriyentlərin zəif nəticə göstərmələrini onların tapşırığın həlli üçün lazım olan faktları bilməmələri və təhliletmə qabiliyyətlərinin zəif olması ilə əsaslandırmaq olar.

8-ci sinif 3.1.3. ***Pifaqor teoremini tətbiq edir, iti bucağın triqonometrik funksiyalarının tərifərini bilir və bəzi bucaqların triqonometrik funksiyalarının qiymətini tapır.***

20 avqust tarixli imtahan, I ixtisas qrupu, A variantı, 7 saylı test tapşırığı

ABC üçbucağında $AB=2\sqrt{5}$, $BC=6$ və *O* nöqtəsində kəsişən *AD*, *BE* medianları perpendikulyardır. *AC* tərəfinin uzunluğunu tapın.



A) 12 B) 6 C) 14 D) 10 E) 8

8-ci sinifdə tədris olunan "*Üçbucaqlar*" bölməsinə aid test tapşırığına abituriyentlərin 12,97%-i doğru cavab verib, 51,08%-i isə cavab verməkdən imtina edib.

$AE^2 = AO^2 + OE^2 = AO^2 + \dfrac{1}{4}BO^2$ və $BD^2 = BO^2 + OD^2 = BO^2 + \dfrac{1}{4}AO^2$ münasibətlərindən

$\dfrac{5}{4}\left(AO^2+BO^2\right) = AE^2+BD^2 \rightarrow \dfrac{5}{4}AB^2 = \dfrac{1}{4}\left(AC^2+BC^2\right) \rightarrow AC^2 = 100-36 = 64 \rightarrow AC = 8$ alınır.

Doğru cavab: E.

Nəticənin aşağı olmasını abituriyentlərin üçbucağın medianının xassəsini və Pifaqor teoremini düzgün tətbiq edə bilməmələri ilə əsaslandırmaq olar.

6-ci sinif 2.2.2. ***Rasional ədədlər çoxluğunda tənlikləri həll edir.***

20 avqust tarixli imtahan, I ixtisas qrupu, A variantı, 23 saylı test tapşırığı

Zalda olan şagirdlər hər stol arxasında 4 nəfər oturduqda 4 şagird ayaq üstə qalır, hər stol arxasında 6 nəfər oturduqda isə 4 stol boş qalır. Zaldakı şagirdlərin sayını tapın.

6-cı sinifdə tədris olunan "*Tənlik qurmaqla məsələ həlli*" bölməsinə aid açıq tipli test tapşırığına abituriyentlərin 7,08%-i doğru cavab verib, 44,09%-i isə cavab verməkdən imtina edib.

x ilə stolların sayı işarə edilsə, şərtə əsasən aşağıdakı kimi tənlik alınar:

$4x+4=6(x-4)$

$2x=28$

$x=14$

Onda şagirdlərin sayı $4x+4=60$ olar.

Doğru cavab: **60.**

Nəticənin aşağı olmasını abituriyentlərin tapşırığın həlli üçün lazım olan tənliyi qurub, həll edə bilməmələri ilə əlaqələndirmək olar.

10-cu sinif 2.3.1. ***Triqonometrik tənlik və bərabərsizlikləri həll edir.***

20 avqust tarixli imtahan, I ixtisas qrupu, A variantı, 27 saylı test tapşırığı

Triqonometrik tənliklər üçün uyğunluğu müəyyən edin.

1. $\sin\frac{x}{2}=-1$ 2. $\cos 2x=-1$ 3. $tg\frac{x}{2}=\sqrt{3}$

a. Ən kiçik müsbət kökü $\frac{\pi}{2}$-dir. b. Ən böyük mənfi kökü $\left(-\frac{\pi}{2}\right)$-dir.

c. Ən böyük mənfi kökü $(-\pi)$-dir. d. Ən kiçik müsbət kökü π-dir.

e. Ən kiçik müsbət kökü 3π -dir.

10-cu sinifdə tədris olunan "*Triqonometrik tənliklər və bərabərsizliklər*" bölməsinə aid uyğunluğun müəyyən edilməsi tipli test tapşırığına abituriyentlərin 7,44%-i doğru cavab verib, 38,87%-i isə cavab verməkdən imtina edib.

Həlli: 1. $\sin\frac{x}{2}=-1\rightarrow\frac{x}{2}=-\frac{\pi}{2}+2\pi n\rightarrow x=-\pi+4\pi n,\ n\in Z$

2. $\cos 2x=-1\rightarrow 2x=\pi+2\pi n\rightarrow x=\frac{\pi}{2}+\pi n,\ n\in Z$ $\begin{cases} n=-1,\ x=-\frac{\pi}{2} \\ n=0,\ x=\frac{\pi}{2} \end{cases}$

3. $tg\frac{x}{2}=\sqrt{3}\rightarrow\frac{x}{3}=\frac{\pi}{3}+\pi n\rightarrow x=\pi+3\pi n,\ n\in Z$ $n=0,\ x=\pi$

Doğru cavab: 1 – c, e; 2 – a, b; 3 – d

Nəticənin aşağı olmasınını abituriyentlərin triqonometrik tənlikləri həll edə bilməmələri ilə əlaqələndirmək olar.

20 avqust tarixli imtahan, I ixtisas qrupu, A variantı

Situasiya: Zavodda 1 kq nardan 0,5 *l* nar şirəsi, nar şirəsindən isə 20% itki ilə narşərab alınır. Hazırlanmış narşərab hər birinin tutumu 162 *l* olan silindr formalı çəlləklərə doldurulur. Sonra isə satış məqsədi ilə çəlləkdəki narşərab 2 litrlik və 3 litrlik qablara boşaldılır.



28. Hər bir çəlləyin yan səthinin sahəsi oturacağının sahəsindən 4 dəfə çox olarsa, bu çəlləyin hündürlüyünü tapın (π=3).

Həlli:



I Üsul: Tapşırığın şərtinə əsasən $2\pi h = 4\pi r^2 \to h = 2r$. Digər tərəfdən $\pi r^2 h = 162 \to 3 \cdot r^2 \cdot 2r = 162 \to r = 3$

h=2r=6 olar.

II Üsul: $2\pi h = 4\pi r^2 \to r = \frac{h}{2}$. Digər tərəfdən $\pi r^2 h = 162 \to 3 \cdot \left(\frac{h}{2}\right)^2 \cdot h = 162 \to h^3 = 216 \to h = 6$

olar.

Doğru cavab: 6 dm və ya 6.

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
2 bal	A. Üsulundan asılı ***olmayaraq*** tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavab (6) (burada litrin çevrilməsindən asılı olaraq cavab 6dm və ya 0,6m və ya 60sm alına bilər) doğru tapılıb; B. **I Üsulla** həll zamanı h=2r yazıldıqdan sonra r=3 olduğu hesablanıb, lakin silindrin hündürlüyünün 6 olduğu qeyd ***edilməyib***;
1 bal	C. Üsulundan asılı ***olmayaraq*** tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; D. h=2r (və ya $r = \frac{h}{2}$) tapılıb, lakin həll prosesinin davamı ***yoxdur*** və ya ***səhvdir***; E. ***Səhvən*** $\pi rh = 4\pi r^2$ (və ya $2\pi rh = 8\pi r^2$) yazılaraq h=4r olduğu yazılıb. Həll prosesi buna uyğun aparılaraq $h = 6\sqrt[3]{4}$ tapılıb; (yəni silindrin yan səthinin və ya oturacağının sahəsi düsturu qeyd edilərkən ***səhvə*** yol verilib) F. Birbaşa h=2r və ya r=3 olduğu yazılaraq həll prosesi sona qədər aparılıb;
0 bal	G. Yalnız silindrin uyğun düsturları yazılıb, lakin hesablama prosesi ***yoxdur***; H. ***Səhvən*** silindrin tam səthinin sahəsinin 162 olduğu yazılaraq sonda r=3 və h=6 olduğu yazılıb; I. Başqa tapşırığın həlli yazılıb; J. Birbaşa cavab (6) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır***; K. Yalnız $2\pi rh = 4\pi r^2$ yazılıb, həll prosesinin davamı ***yoxdur*** və ya tamamilə ***yanlışdır***; L. ***Səhvən*** $\pi rh = 4\pi r^2$ yazılaraq h=4r olduğu qeyd edilib, lakin həll prosesinin davamı ***yoxdur***; M. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə abituriyentlərin "Həndəsə" məzmun xəttinin 11_5.2.3. (*Silindrin yan səthinin, tam səthinin və həcminin tapılmasına aid məsələlər həll edir)* alt standartının tələbləri üzrə bacarıqlar yoxlanılır.

Abituriyentlərin 15,13%-i yazı işini tam yerinə yetirdiyinə görə 2 balla, 19,68%-i 1 balla, 3,94%-i 0 balla qiymətləndirilib, 61,24%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin tapşırığa zəif cavab vermələrini onların qeyd edilən faktları bilməmələri ilə əlaqələndirmək olar.

29. Bir çəllək narşərab istehsal etmək üçün neçə kq nar götürmək lazımdır?

I Üsul: Nar şirəsindən 20% itki ilə narşərab alınırsa, deməli şirənin 80%-i narşərab olur. Onda

$$x = \frac{162 \cdot 100\%}{80\%} = \frac{405}{2} = 202{,}5\,(l)$$

nar şirəsi lazımdır. Digər tərəfdən 1 kq nardan 0,5 l nar şirəsi alındığı üçün $\frac{405}{2} \cdot 2 = 405\,(kq)$ nar lazım olacaq.

II Üsul: Şərtə görə 1 kq nardan 0,5 *l* nar şirəsi alınır. 0,5 *l* nar şirəsindən isə 20% itki ilə 0,4 *l* narşərab alındığı tapılır. Buna uyğun

1 *kq* ———— 0,4 *l*

x kq ———— 162 *l*

tənasübü qurulur və ya nisbət vasitəsilə x=162:0,4=405 (kq) tapılır.

***Doğru cavab*: 405 kq.**

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
2 bal	A. Üsulundan asılı ***olmayaraq*** tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavab (405 kq və ya 405) doğru tapılıb;
1 bal	B. Üsulundan asılı ***olmayaraq*** tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; C. Bir çəlləkə narşərab istehsal etmək üçün $\frac{405}{2}$ və ya (202,5 *l*) nar şirəsi lazım olduğu tapılıb, lakin həll prosesinin davamı ***yoxdur*** və ya ***yanlışdır***; D. **II Üsulla** həll zamanı 1 kq nardan 0,4 *l* narşərab alındığı (yaxud narın hər hansı kütləsinə uyğun olan narşərab həcmi: məsələn, 100 kq nar üçün 40 litr narşərab, 2,5 kq nar üçün 1 litr narşərab və s. alındığı) tapılıb lakin həll prosesinin davamı ***yoxdur*** və ya tamamilə ***yanlışdır***; E. Həll prosesi *seçmə üsulu* ilə yazılaraq düzgün cavab tapılıb; F. **II Üsulla** həll zamanı 0,4 *l* tapılıb və birbaşa cavab yazılıb;
0 bal	G. ***Səhvən*** 162-nin 80%-i tapılıb (129,6) və həll prosesi sona qədər aparılaraq 259,2 hesablanıb; H. ***Səhvən*** 162-nin 2 qatı tapılıb daha sonra 80%-i hesablanaraq 259,2 hesablanıb; I. Birbaşa cavab (405 kq və ya 405) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır***; J. ***Səhvən*** 162-nin 80%-i tapılıb (129,6), həll prosesinin davamı ***yoxdur*** və ya tamamilə ***yanlışdır***; K. Başqa tapşırığın həlli yazılıb; L. 1 kq şirədən alınan narşərab ***səhvən*** 0,5 *l* (yaxud 0,1 *l*) götürülərək tənasüb qurulub 162:0,5=324 (0,1 *l* halında 162:0,1=1620) ifadəsi yazılıb; M. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə abituriyentlərin "Ədədlər və əməllər" məzmun xəttinin 6_1.2.5. (*Nisbət, tənasüb, düz mütənasib, tərs mütənasib kəmiyyətlərə və faizə aid sadə məsələləri həll edir*) alt standartının tələbləri üzrə bacarıqlar yoxlanılır.

Abituriyentlərin 19,79%-i yazı işini tam yerinə yetirdiyinə görə 2 balla, 26,24%-i 1 balla, 5,72%-i 0 balla qiymətləndirilib, 48,25% abituriyent isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin tapşırığa zəif cavab vermələrini onların faizə aid biliklərinin zəif olması ilə əlaqələndirmək olar.

30. Narşərab dolu bir çəlləyi tam boşaltsaq tutumu 2 *l* və 3 *l* olan cəmi 71 ədəd qab tam dolar. Neçə ədəd 3 litrlik qab istifadə edilər?

Həlli:

I Üsul: 3 *l*-lik qabların sayı x olarsa, onda 2 *l*-lik qabların sayı 71–x olar. Deməli,

$$2\cdot(71-x)+3x=162$$

$$142-2x+3x=162$$

$$x=20$$

Qeyd: Burada 2*l*-lik qabların sayının x olduğu fərz edilərək hesablama prosesi aşağıdakı kimi də aparıla bilər.

$$3\cdot(71-x)+2x=162$$

$$213-3x+2x=162$$

$$x=51$$

Deməli 3*l*-lik qabların sayı 71–51=20-dir.

II Üsul: 3*l*-lik qabların sayı *x*, 2*l*-lik qabların sayı *y* olarsa, onda $\begin{cases} x+y=71 \\ 3x+2y=162 \end{cases} \to x=20,\ y=51$ olar.

***Doğru cavab*: 20.**

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
2 bal	A. Üsulundan asılı ***olmayaraq*** tapşırığın həll prosesi ***doğru*** yazılıb və cavab (20) doğru tapılıb; B. **Qeyd 1**-ə uyğun şəkildə tənlik qurulmaqla həll prosesi aparılıb və 2*l*-lik qabların sayı (51) düzgün tapılıb;
1 bal	C. Üsulundan asılı ***olmayaraq*** tapşırığın həll prosesi doğru yazılıb, amma yol verilən mexaniki ***səhvə*** görə (hesablama ***səhvi*** nəzərdə tutulur) cavab ***səhv*** tapılıb; D. $2\cdot(71-x)+3x=162$ və ya $3\cdot(71-x)+2x=162$ tənlikləri qurulub, lakin həll prosesi zamanı ***səhvə*** yol verilib; E. Uyğun xətti tənlik ***qurulmadan*** *seçmə üsulu* ilə 3*l*-lik qabların sayı düzgün tapılıb; (yəni $3\cdot 20+2\cdot 51=60+102=162$ və 20+51=71 yazılıb) F. **II Üsulla** həll zamanı $\begin{cases} x+y=71 \\ 3x+2y=162 \end{cases}$ tənliklər sistemi qurulub (*tənliklər sisteminə daxil olan hər iki xətti tənliyin olması şərti ilə*), lakin həll prosesinin davamı ***yoxdur*** və ya ***səhvdir***;
0 bal	G. Tapşırığın şərtinə uyğun ***olmayan*** tənlik qurularaq həll prosesi aparılıb; H. Birbaşa 2*l* qabların sayı 51 və 3*l* qabların sayı 20 yazılıb; I. **II Üsulla** həll zamanı *x*+*y*=71 (*tənliklər sisteminə daxil olan xətti tənliklərdən biri*) yazıldıqdan sonra *x*=20 və *y*=51 yazılıb; J. **II Üsulla** həll zamanı 3*x*+2*y*=162 və ya 2*x*+3*y*=162 yazılıb (*tənliklər sisteminə daxil olan xətti tənliklərdən biri*), həll prosesinin davamı ***yoxdur*** və ya ***səhvdir***; K. Birbaşa cavab (20) yazılıb, həll prosesi isə ***yazılmayıb*** və ya tamamilə ***yanlışdır***; L. Başqa tapşırığın həlli yazılıb; M. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə abituriyentlərin "Cəbr və funksiya" məzmun xəttinin 6_2.2.2. (*Rasional ədədlər çoxluğunda tənlikləri həll edir*) alt standartının tələbləri üzrə bacarıqlar yoxlanılır.

Abituriyentlərin 15,58%-i yazı işini tam yerinə yetirdiyinə görə 2 balla, 20,88%-i 1 balla, 3,72% -i 0 balla qiymətləndirilib, 59,52%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin zəif cavab vermələrini onların tapşırığın həlli üçün tələb olunan tənlik və ya tənliklər sistemini qurub həll edə bilməmələri ilə əlaqələndirmək olar.

10-cu sinif 2.3.1. ***Triqonometrik tənlik və bərabərsizlikləri həll edir.***

21 avqust tarixli imtahan, I ixtisas qrupu, A variantı, 23 saylı test tapşırığı

$\sin x + \sin 5x = 0$ tənliyinin ən kiçik müsbət kökünün dərəcə ölçüsünü tapın.

10-cu sinifdə tədris olunan "*Triqonometrik tənliklər və bərabərsizliklər*" bölməsinə aid açıq tipli test tapşırığına abituriyentlərin 5,93%-i doğru cavab verib, 51,29%-i isə cavab verməkdən imtina edib.

$\sin x + \sin 5x = 0$

$2\sin 3x\cos 2x = 0$

$\sin 3x = 0$ və ya $\cos 2x = 0$

$x = \frac{\pi n}{3}, n \in Z$ və ya $x = \frac{\pi}{4} + \frac{\pi k}{2}, k \in Z.$

Beləliklə, verilmiş tənliyin ən kiçik müsbət kökünün dərəcə ölçüsü 45-dir.

Doğru cavab: 45

Abituriyentlərin zəif nəticə göstərmələrini onların tapşırığın həlli üçün lazım olan eyni adlı triqonometrik funksiyaların cəminin və fərqinin hasilə çevrilməsi düsturunu bilməmələri ilə əsaslandırmaq olar.

8-ci sinif 1.2.3. ***Kvadrat kök daxil olan ədədi ifadələri sadələşdirir***.

21 avqust tarixli imtahan, I ixtisas qrupu, A variantı, 24 saylı test tapşırığı

$\frac{\sqrt{2x-6}+\sqrt{12-4x}+12x}{x-1}$ ifadəsinin mümkün həqiqi qiymətini tapın.

8-ci sinifdə tədris olunan "*Kvadrat kök. Həqiqi üstlü qüvvət*" bölməsinə aid açıq tipli test tapşırığına abituriyentlərin 13,88%-i doğru cavab verib, 49,85%-i isə cavab verməkdən imtina edib.

$$\frac{\sqrt{2x-6}+\sqrt{12-4x}+12x}{x-1}=\frac{\sqrt{2(x-3)}+\sqrt{4(3-x)}+12x}{x-1}$$

$$\begin{cases} x-3\geq 0 \\ 3-x\geq 0 \end{cases} \Rightarrow x=3.$$

Buradan görünür ki, ifadənin mənası olması üçün x=3 olmalıdır. Deməli, ifadəsinin mümkün qiyməti $\frac{12\cdot 3}{3-1}=18$ olar.

Doğru cavab:18

Abituriyentlərin zəif nəticə göstərmələrini onların funksiyaların təyin oblastlarını tapa bilməmələri ilə əsaslandırmaq olar.

Qeyd etmək lazımdır ki, imtahanda istifadə edilmiş tapşırıqlara dair dərsliklərdə və Dövlət İmtahan Mərkəzinin müvafiq nəşrlərində çoxlu sayda nümunələr verilir. "Abituriyent" jurnalının birinci və ikinci saylarında imtahan modelləri və çətin mənimsənilən tapşırıqların izahları dərc edilir. Abituriyentlərin imtahana hazırlaşarkən dərsliklərə və qeyd edilmiş materiallara diqqət yetirmələri tövsiyə olunur.

Fizika fənnindən qəbul imtahanlarında istifadə olunmuş tapşırıqlar 3 **("Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar", "Maddə və sahə, qarşılıqlı təsir, əlaqəli sistemlər", "Eksperimental fizika və müasir həyat")** məzmun xətti üzrə 5 əsas standartın və 73 alt standartın reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edir.

Qəbul imtahanlarında abituriyentlərin orta məktəb fizika kursu üzrə fiziki hadisə, anlayış, model və kəmiyyətlərin, fiziki qanunların, prinsiplərin dərk edilməsi və mahiyyətinin mənimsənilməsi, müxtəlif tip və müxtəlif çətinlik səviyyələrində olan məsələləri həll etmək qabiliyyəti, fiziki kəmiyyətlərin arasındakı asılılıqların qrafiki təsvirinin mənimsənilməsi səviyyəsinin aşkara çıxarılması nəzərdə tutulmuşdur. Ona görə də abituriyentlərə müəyyən biliklərlə yanaşı, təhliletmə, mühakiməyürütmə və əsaslandırma bacarığını yoxlamaq üçün müxtəlif tipli tapşırıqlar da verilmişdir.

Tapşırıqlar ümumtəhsil məktəblərinin fizika kursunun aşağıdakı bölmələrini əhatə etmişdir:

1. Mexanika
2. Molekulyar fizika və termodinamika
3. Elektrodinamika
4. Optika
5. Atom və nüvə fizikası

Tapşırıqların bölmələr üzrə paylanması aşağıdakı kimi olmuşdur: "Mexanika"–9; "Molekulyar fizika"– 4; "Elektrodinamika" –14; "Optika"– 2; Atom və nüvə fizikası – 1.

Qəbul imtahanlarında fizika fənnindən test bloklarında istifadə edilmiş 30 tapşırıqdan 22-si qapalı (verilənlərdən bir doğru cavabın seçilməsi), 5-i açıq tipli (cavabların kodlaşdırılması tələb olunan: 3 seçim, 1 hesablama, 1 uyğunluğu müəyyən etmək) və 3 tapşırıqlı (yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli)1 situasiya olub.

Abituriyentlərin hazırlıq səviyyəsinin hərtərəfli yoxlanılması və qiymətləndirilməsi məqsədilə test bloklarına müxtəlif nominasiyalı və mürəkkəblik dərəcəsinə görə sadə, orta və çətin tapşırıqlar daxil edilib.

Qəbul imtahanlarının nəticələrinin statistik təhlili göstərmişdir ki, abituriyentlərin müəyyən hissəsi I ixtisas qrupu üzrə "Ağırlıq qüvvəsi. Ümumdünya cazibə qanunu", "Mexaniki rəqslər və dalğalar", "Elektrik tutumu", "Termodinamikanın əsasları", "Dəyişən cərəyan", "Həndəsi optika" "Dalğa optikası", IV ixtisas qrupu üzrə isə "Elektrik tutumu", "Dəyişən cərəyan", "Dalğa optikası" mövzularına aid test tapşırıqlarına ya zəif cavab verib, ya da cavab verməkdən imtina ediblər.

Nominasiyalar üzrə də statistik təhlil aparılmış və müəyyən edilmişdir ki, abituriyentlərin müəyyən hissəsi faktoloji materiala əsaslanan düstur və vahidlərə aid tapşırıqlara daha yaxşı, fiziki hadisə və proseslərin mahiyyətinin açılmasına yönəlmiş qrafik, keyfiyyət və hesablama tipli, həmçinin fiziki cihaz və qurğulara aid tapşırıqlara isə nisbətən zəif cavab vermişdir. Bu tipli tapşırıqlarda, adətən, kəmiyyətlər arasında asılılığı müəyyən etmək, müxtəlif parametrlərin dəyişməsinin fiziki proseslər gedən sistemin tam enerjisinə təsirini araşdırmaq və bu prosesin gedişində kəmiyyətlərin necə dəyişəcəyi barədə nəticə çıxarmaq lazım gəlir.

Təhlil onu da göstərmişdir ki, abituriyentlərin bir qismi Eyler-Venn diaqramları vasitəsi ilə fiziki kəmiyyətlərin ölçülməsi üçün istifadə olunan cihaz və vasitələr, onların iş prinsiplərinin oxşar və fərqli cəhətlərinin ayırd edilməsinə aid test tapşırıqlarına da cavab verməkdə çətinlik çəkiblər.

Əksər abituriyentlər iki və daha çox fiziki hadisənin mahiyyəti ilə bağlı biliklərin istifadə edilməsinə dair test tapşırıqlarına cavablarda da səhvlərə yol vermiş və ya onları cavablandırmaqdan imtina etmişlər. Bunun səbəbi tədris prosesində fənlər arasında və eləcə də fizikanın müxtəlif bölmələri arasında əlaqələrin öyrənilməsinə kifayət qədər fikir verilməməsi ola bilər. Digər bir səbəb isə abituriyentlərin riyazi bilik səviyyələrinin zəif olmasıdır.

Aşağıda abituriyentlərin daha zəif nəticə göstərdikləri test tapşırıqlarının izahı təqdim olunur.

9-cu sinif

1.1.2. Elektromaqnit (maqnit və işıq), atom və nüvə hadisələrinə uyğun cihazlardan istifadə edir.

3.1.2. Müxtəlif fiziki hadisələrə (elektromaqnit, işıq, atom və nüvə) əsaslanan qurğuların iş prinsiplərini şərh edir.

20 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 39 saylı test tapşırığı

Cisim toplayıcı linzadan d=4F məsafədə yerləşmişdir. Linzanın xətti böyütməsini hesablayın (F – linzanın

fokus məsafəsidir).

A) $\frac{1}{3}$ B) 4 C) 3 D) 2 E) $\frac{1}{4}$

"Həndəsi optika" mövzusuna aid test tapşırığına abituriyentlərin 17,49 %-i doğru cavab verib, 22,82 % -i cavab verməkdən imtina edib, 32,18% isə doğru olmayan E bəndini qeyd edib. Test tapşırığının yerinə yetirilməsi üçün linzanın xətti böyütməsinin $\Gamma = \frac{H}{h} = \frac{f}{d}$ düsturlarını bilmək kifayətdir. Məsələnin şərtinə əsasən xəyal məsafəsini nazik linza düsturundan $f = \frac{dF}{d-F} = \frac{4F \cdot F}{4F-F} = \frac{4}{3}F$ kimi təyin edib, linzanın xətti böyütməsini $\Gamma = \frac{f}{d} = \frac{\frac{4}{3}F}{4F} = \frac{1}{3}$ hesablamaq olar.

Doğru cavab: A

9-cu sinif

1.1.1. Elektromaqnit (maqnit, işıq), atom və nüvə hadisələrini, onların baş vermə səbəblərini şərh edir.

20 iyul tarixli imtahan, IV ixtisas qrupu, A variantı, 80 saylı test tapşırığı

Tezliyi $6 \cdot 10^{14}$ Hs olan yaşıl işıq şüası vakuumdan sındırma əmsalı $n = 2,5$ olan mühitə keçdikdə

dalğa uzunluğu ($c = 3 \cdot 10^8 \frac{\text{m}}{\text{san}}$):

A) 200 nm azalar B) 200 nm artar C) dəyişməz D) 300 nm artar E) 300 nm azalar

9-cu sinifdə tədris olunan “Optika” bölməsinə aid bu test tapşırığına abituriyentlərin 21,07%-i doğru cavab verib, 32,50 % -i isə cavab verməkdən imtina edib. Test tapşırığının yerinə yetirilməsi üçün işığın sınma qanunundan alınan əsas nəticələri bilmək kifayətdir. Sınma qanunundan alınır ki, işıq optik sıxlığı kiçik olan mühitdən böyük olan mühitə keçəndə tezliyi dəyişmir, dalğa uzunluğu isə azalır. Yaşıl işığın vakuumda dalğa uzunluğu $\lambda_0 = \frac{c}{\nu} = \frac{3 \cdot 10^8}{6 \cdot 10^{14}} = 500\ nm$ olur. İşıq şüası vakuumdan sındırma əmsalı n=2,5 olan mühitə keçdikdə dalğa uzunluğu 2,5 dəfə azalır və $\lambda = \frac{\lambda_0}{n} = \frac{500\ nm}{2{,}5} = 200\ nm$ olur. Yəni işığın dalğa uzunluğu 300 nm azalır.

Doğru cavab: E

11-ci sinif

20 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı

Situasiya: “Elektrik tutumu” mövzusunu izah edərkən müəllim elektrik tutumu 40 pF olan yüklənmiş müstəvi hava kondensatorunun lövhələrinə elektrometri birləşdirdi. Lövhələr arasındakı gərginlik 16 V-dur. Lövhələr arasındakı məsafəni 2 dəfə azaltdıqda elektrometrin göstərişi dəyişdi.



58. Elektrometrin göstərişi necə dəyişdi? Uyğun düsturları yazmaqla fikrinizi əsaslandırın.

***İzah*:** Yükləndikdən sonra gərginlik mənbəyindən ayrılmış müstəvi kondensatorun yükü onun lövhələri arasındakı məsafədən asılı olmayıb dəyişməz qalır:

$$q = const$$

Elektrometr kondensatorun lövhələri arasındakı potensiallar fərqini (gərginliyi) ölçür. Müstəvi hava kondensatorunun lövhələri arasındakı potensiallar fərqi isə

$U = \frac{q}{C} = \frac{qd}{\varepsilon_0 S}$ düsturu ilə hesablanır. Baxılan halda kondensatorun lövhələrinin sahəsi və yükü dəyişmir ($q = const, S = const$). Elektrik sabiti ε_0 da sabit kəmiyyət olduğundan kondensatorun lövhələri arasındakı gərginlik, başqa sözlə, elektrometrin göstərişi kondensatorun lövhələri arasındakı məsafə ilə düz mütənasib olaraq dəyişir: Tapşırığın şərtinə əsasən kondensatorun lövhələri arasındakı gərginlik, yəni elektrometrin göstərişi əvvəlcə 16 V-a bərabərdir. Lövhələr arasındakı məsafəni 2 dəfə azaltdıqda, $U \sim d$ olduğundan elektrometrin göstərişi də 2 dəfə azalaraq 8V olur.

Doğru cavab: 2 dəfə azaldı və ya 8 V-a bərabər oldu.

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
2 bal	**A.** Kondensatorun lövhələri arasındakı məsafəni 2 dəfə azaltdıqda elektrometrin göstərişinin 2 dəfə azalması və ya 8 V-a bərabər olması (düsturları yazaraq əsaslandırmaqla) doğru yazılmışdır**.**
1 bal	**B.** Kondensatorun lövhələri arasındakı məsafəni 2 dəfə azaltdıqda elektrometrin göstərişi 2 dəfə azalması və ya 8 V-a bərabər olması doğru yazılıb, lakin bu uyğun düsturları yazaraq əsaslandırmayıb**.** **C.** $U \sim d$ olduğundan elektrometrin göstərişi də 2 dəfə azalır və ya 8V olur yazılmış, lakin $U \sim d$ asılılığı uyğun düsturlarla əsaslandırılmayıb**;** **D.** Kondensatorun lövhələri arasındakı məsafəni 2 dəfə azaltdıqda elektrometrin göstərişinin 2 dəfə azalması və ya 8 V-a bərabər olması doğru yazılmış, lakin bunu əsaslandırdıqda səhvlərə yol verilmişdir**;** **E.** Uyğun düsturlar yazılmaqla $U \sim d$ olduğu doğru yazılmış, lakin elektrometrin göstərişinin yanlış olaraq 2 dəfə artdığı və ya 32 V olduğu yazılmışdır**;**
0 bal	**F.** A-E bəndlərindən başqa digər bütün hallarda.

Tapşırıq 11-ci sinifdə tədris edilən "Elektrik tutumu" bölməsinə aiddir. Tapşırıq vasitəsilə abituriyentlərin **"Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar"** məzmun xəttinin 11_1.1.1. (*Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsini şərh edir*), və "Eksperimental fizika və müasir həyat" məzmun xəttinin 11_3.1.1. *(Elektromaqnit, atom və nüvə hadisələrinə dair qanun və qanunauyğunluqları təcrübələrlə yoxlayır, nəticələrini təqdim edir*) alt standartlarının tələbləri üzrə bacarıqlar yoxlanılır.

Abituriyentlərin 9,30%-i yazı işini tam yerinə yetirdiyinə görə 2 balla, 29,37%-i 1 balla, 2,75%-i 0 balla qiymətləndirilib, 58,58%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün elektrometrin kondensatorun lövhələri arasındakı potensiallar fərqini (gərginliyi) ölçdüyünü və kondensatorun lövhələri arasındakı gərginlik, başqa sözlə, elektrometrin göstərişi kondensatorun lövhələri arasındakı məsafə ilə düz mütənasib olaraq dəyişdiyini bilmək lazımdır.

59. Kondensatorun elektrik yükünü hesablayın.

***İzah*:** Kondensatorun tutumu $C = 40pF$, lövhələri arasındakı gərginlik (potensiallar fərqi) $U = 16V$ olduğundan onun yükü $q = CU$ düsturuna əsasən hesablanır:

$$\mathrm{q = CU = 40\,pF \cdot 16\,V = 640\,pKl = 0,64\,nKl = 6,4 \cdot 10^{-10}\,Kl}$$

Doğru cavab: $\mathrm{640\,pKl = 0,64\,nKl = 6,4 \cdot 10^{-10}\,Kl}$

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
2 bal	A. Düstur düzgün tətbiq edilmiş və vahid çevrilməsindən doğru istifadə edilərək kondensatorun yükü onun vahidi də yazılmaqla doğru tapılmışdır**;** B. Düstur ***yazılmadan*** bütün hesablamalar doğru aparılmış, vahid çevrilmələri doğru yazılmış və cavab yükün vahidi də yazılmaqla doğru tapılmışdır;
1 bal	C. Düstur düzgün tətbiq edilmiş, lakin hesablamada və ya vahid çevrilməsində səhvə yol verildiyindən cavab doğru alınmamışdır**;** D. Düstur düzgün tətbiq edilmiş, hesablama düzgün aparılmış, lakin yükün vahidi ya heç ***yazılmayıb***, ya da ***yanlış*** yazılıb**;** E. Düstur düzgün tətbiq edilmiş, lakin hesablamada $U = 8V$ olduğu nəzərə alınaraq $q = 0{,}32nKL$ (və ya hər hansı ekvivalent ifadə) tapılıb**;** F. Düstur düzgün tətbiq edilmiş, lakin hesablamada $U = 32V$ olduğu nəzərə alınaraq $q = 1{,}28nKL$ (və ya hər hansı ekvivalent ifadə) tapılıb**;**
0 bal	G. A-F bəndlərindən başqa digər bütün hallarda.

Tapşırıq 11-ci sinifdə tədris edilən "Elektrik tutumu" bölməsinə aiddir. Tapşırıq vasitəsilə abituriyentlərin **"Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar"** məzmun xəttinin 11_1.1.1. (*Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsini şərh edir*), və "Eksperimental fizika və müasir həyat" məzmun xəttinin 11_3.1.1. (*Elektromaqnit, atom və nüvə hadisələrinə dair qanun və qanunauyğunluqları təcrübələrlə yoxlayır, nəticələrini təqdim edir*) alt standartlarının tələbləri üzrə bacarıqlar yoxlanılır.

Abituriyentlərin 10,77%-i yazı işini tam yerinə yetirdiyinə görə 2 balla, 10,74%-i 1 balla, 20,18%-i 0 balla qiymətləndirilib, 58,30%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün kondensatorun yükünün $q = CU$ düsturu ilə təyin edildiyini bilmək və vahid çevrilməsindən doğru istifadə edərək hesablama aparmaq kifayətdir.

60. Kondensatorun lövhələri arasında məsafəni azaltdıqdan sonra onun elektrik sahəsinin enerjisini hesablayın.

***İzah*:** Kondensatorun elektrik sahəsinin enerjisi

$$\mathrm{W = \frac{qU}{2} = \frac{CU^2}{2} = \frac{q^2}{2C}}$$

düsturlarından hər hansı biri ilə hesablanır.

I üsul. Əvvəlki (58 və 59-cu) tapşırıqların həllindən istifadə edərək, başqa sözlə, lövhələr arasındakı məsafəni 2 dəfə azaltdıqdan sonrakı kondensatorun lövhələri arasındakı gərginlik və yükün məlum qiymətlərinə əsasən kondensatorun elektrik sahəsinin enerjisini hesablamaq olar:

II üsul. Müstəvi hava kondensatorun tutumu

$$C_0 = \frac{\varepsilon_0 S}{d}$$

düsturu ilə hesablanır. Baxılan halda kondensatorun lövhələrinin sahəsi dəyişmir və ε_0 da sabit kəmiyyət olduğundan, müstəvi kondensatorun tutumu onun lövhələri arasındakı məsafə ilə tərs mütənasibdir:

$$C \sim \frac{1}{d}$$

Deməli, kondensatorun lövhələri arasındakı məsafəni 2 dəfə azaltdıqda onun tutumu 2 dəfə artır:

$$C=2C_0$$

C_0= 40 pF olduğundan:

$$C = 2C_0 = 2 \cdot 40\,\text{pF} = 80\,\text{pF}$$

Lövhələri arasındakı məsafəni 2 dəfə azaltdıqda kondensatorun gərginliyi 8V-a bərabər olduğundan, onun enerjisini $CU^2/2$ düsturuna əsasən hesablamaq olar:

$$W = \frac{CU^2}{2} = \frac{80\,\text{pF}\cdot(8\text{V})^2}{2} = \frac{80\cdot10^{-12}\,\text{F}\cdot64\text{V}^2}{2} = 2560\cdot10^{-12}\,\text{C} = 2{,}56\cdot10^{-9}\,\text{C} = 2{,}56\,\text{nC}$$

III üsul. Kondensatorun lövhələri arasındakı məsafəni 2 dəfə azaltdıqda onun tutumu 2-ci həll üsulunda göstərildiyi kimi, 2 dəfə artaraq 80 pF olur.

Kondensatorun yükü isə əvvəlki (59-cu) tapşırıqda hesablanıb: $q=6{,}4\cdot10^{-10}$ Kl

Beləliklə, $q^2/2C$ düsturuna əsasən kondensatorun enerjisini hesablamaq olar:

$$W = \frac{q^2}{2C} = \frac{(6{,}4\cdot10^{-10}\,\text{Kl})^2}{2\cdot80\,\text{pF}} = \frac{40{,}96\cdot10^{-20}\,\text{Kl}^2}{160\cdot10^{-12}\,\text{F}} = 0{,}256\cdot10^{-8}\,\text{C} = 2{,}56\cdot10^{-9}\,\text{C} = 2{,}56\,\text{nC}$$

Doğru cavab: $2{,}56\cdot10^{-9}\,\text{C} = 2{,}56$ nC

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
2 bal	A. Düstur düzgün yazılmış, vahid çevrilməsindən doğru istifadə edilərək hesablamalar doğru yerinə yetirilmiş və cavab doğru tapılmışdır**;** B. Düstur yazılmadan hesablamalar doğru aparılmış, vahid çevrilmələri doğru yazılmış və cavab doğru tapılmışdır; C. Əvvəlki tapşırıqdan alınan ***səhv*** nəticəyə görə buradakı uyğun düsturlardan istifadə edilərək hesablama prosesi aparılıb və uyğun cavab alınıb;
1 bal	D. Düstur düzgün yazılmış, lakin hesablamada və ya vahid çevrilməsində ***səhvə*** yol verildiyindən doğru cavab alınmır**;** D. Düstur düzgün tətbiq edilmiş, hesablama doğru aparılmış, lakin vahid ya heç ***yazılmayıb***, ya da ***yanlış*** yazılıb**;** E. Əvvəlki tapşırıqdan alınan səhv nəticəyə əsasən həll prosesi aparılıb, lakin sonda vahid ya heç ***yazılmayıb***, ya da ***yanlış*** yazılıb**;**
0 bal	F. A-E bəndlərindən başqa digər bütün hallarda.

Tapşırıq 11-ci sinifdə tədris edilən "Elektrik tutumu" bölməsinə aiddir. Tapşırıq vasitəsilə abituriyentlərin "Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar" məzmun xəttinin 11_1.1.1. (*Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsini şərh edir*), və "Eksperimental fizika və müasir həyat" məzmun xəttinin 11_3.1.1. (*Elektromaqnit, atom və nüvə hadisələrinə dair qanun və qanunauyğunluqları təcrübələrlə yoxlayır, nəticələrini təqdim edir*) alt standartlarının tələbləri üzrə bacarıqlar yoxlanılır.

Abituriyentlərin 2,19%-i yazı işini tam yerinə yetirdiyinə görə 2 balla, 12,02%-i 1 balla, 22,27%-i 0 balla qiymətləndirilib, 63,52%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün kondensatorun lövhələri arasındakı məsafəni iki dəfə azaltdıqda onun tutumunun iki dəfə artması, lövhələr arasındakı potensiallar fərqinin iki dəfə azalmasını və kondensatorun yükünün dəyişməməsini nəzərə alaraq onun elektrik sahəsinin enerjisini

$$W = \frac{qU}{2} = \frac{CU^2}{2} = \frac{q^2}{2C}$$

düsturlarından hər hansı biri ilə hesablamaq kifayətdir.

10-cu sinif

1.1.2. Mexaniki və istilik hadisələrinin qanun və qanunauyğunluqlarına aid (qrafik, kəmiyyət və keyfiyyət tipli) məsələlər qurur və həll edir.

3.1.2. Mexaniki və istilik hadisələrini xarakterizə edən fiziki kəmiyyətlər arasındakı asılılıqları müəyyənləşdirir.

21 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 44 saylı test tapşırığı

44. Verilmiş kütləli ideal qaz üzərində qapalı proses təsvir edilmişdir. p(T) diaqramın hansı hissəsi xarici qüvvələrin qaz üzərində müsbət iş görməsinə uyğundur? (p – qazın təzyiqi, T – mütləq temperaturudur)



A) belə hissə yoxdur B) *CD* C) *BC*
D) *AB* E) *DA*

Termodinamikanın əsasları mövzusuna aid bu test tapşırığına abituriyentlərin 16,25 %-i doğru cavab verib, 19,47%-i cavab verməkdən imtina edib. Abituriyentlərin 23,24 %-i yanlış olan D bəndini, 21,22 %-i isə C bəndini doğru cavab kimi qeyd edib. 10-cu sinifdə tədris olunan bu mövzuda göstərildiyi kimi, xarici qüvvələrin qaz üzərində gördüyü iş A= -p($V_2 - V_1$) o vaxt müsbət olar ki, qazın həcmi kiçilsin. Verilmiş kütləli ideal qazın həcminin kiçilməsi isə təsvir edilmiş diaqramda DA hissəsində baş verir.

Doğru cavab: E

11-ci sinif

1.1.1. Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsinə aid (qrafik, kəmiyyət və keyfiyyət tipli) məsələlər qurur və həll edir.

21 iyul tarixli imtahan, I ixtisas qrupu, A variantı, 47 saylı test tapşırığı

Daxili müqaviməti r olan cərəyan mənbəyinə hər birinin müqaviməti $R=3r$ olan üç rezistor ardıcıl qoşulmuşdur. Bu rezistorlar paralel birləşdirilərsə, dövrədəki cərəyan şiddəti necə dəyişər?

A) 5 dəfə azalar B) 9 dəfə azalar C) 5 dəfə artar D) dəyişməz E) 9 dəfə artar

Sabit cərəyan qanunları mövzusuna aid bu test tapşırığına abituriyentlərin 10,52 %-i doğru cavab verib, 24,41 %-i cavab verməkdən imtina edib. Abituriyentlərin 27,97 %-i yanlış olan E bəndini, 19,06 %-i B bəndini, 13,88 %-i D bəndini doğru cavab kimi qeyd edib. 11-ci sinfin "Fizika" dərsliyində də göstərildiyi kimi, tam dövrə üçün Om qanununa əsasən dövrədəki cərəyan şiddəti $I = \frac{\varepsilon}{R+r}$ düsturu ilə hesablanır. Hər birinin müqaviməti $R=3r$ olan üç rezistor ardıcıl qoşulduqda xarici müqavimətin ümumi qiyməti $R_x=3\cdot 3r=9r$ olur. Onda dövrədəki cərəyan şiddəti hesablanır : $I = \frac{\varepsilon}{9r+r}=\frac{\varepsilon}{10r}$. Həmin rezistorlar paralel qoşulduqda xarici müqavimətin ümumi qiyməti $R_x=\frac{3r}{3}=r$ olur. Bu halda dövrədəki cərəyan şiddəti $I = \frac{\varepsilon}{r+r}=\frac{\varepsilon}{2r}$ alınır. Yəni dövrədəki cərəyan şiddəti 5 dəfə artar. Göründüyü kimi, tapşırığı yerinə yetirmək üçün tam dövrə üçün Om qanununu, naqillərin ardıcıl və paralel birləşməsi qaydalarını bilmək kifayətdir.

Doğru cavab: C

Kimya fənnindən ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsində istifadə olunmuş tapşırıqlar 4 **("Maddə və maddi aləm", "Kimyəvi hadisələr", "Eksperiment və modelləşdirmə", "Kimya və həyat")** məzmun xətti üzrə 10 əsas və 33 alt standartın tələblərinin reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib. Tapşırıqların bölmələr üzrə paylanması aşağıdakı kimi olub:

I ixtisas qrupu üzrə "Ümumi kimya" – 11, "Qeyri-üzvi kimya" – 10, "Üzvi kimya" – 9, IV ixtisas qrupu üzrə isə "Ümumi kimya" – 9, "Qeyri-üzvi kimya" –10, "Üzvi kimya" –11.

Tapşırıqlar ilə abituriyentlərin

- maddələrin Beynəlxalq və tarixi (trivial) adlandırılması;
- qeyri-üzvi və üzvi maddələrin tərkibi və xassələrinə görə təsnifatı;
- atomun quruluşu, valentlik, kimyəvi elementlərin oksidləşmə dərəcəsi və ionların yükünün, kimyəvi rabitələrin və kristal qəfəslərin tipinin, quruluş formuluna görə izomerliyin və homoloqların, suda məhlulların mühitinin, oksidləşdirici və reduksiyaediciliyinin müəyyən edilməsi;
- D.İ. Mendeleyevin dövri sisteminə və atomun quruluşuna əsasən kimyəvi elementlərin və onların birləşmələrinin kimyəvi xassələrinin xarakterizə edilməsi;
- kimyəvi tarazlığa və reaksiya sürətinə təsir edən amillərin xarakterizə edilməsi;
- oksidləşmə-reduksiya reaksiyalarının tənliklərinin əmsallaşdırılması;
- ion-mübadilə reaksiyalarının tam və qısa ion tənliklərinin tərtib olunması;
- maddələrin kimyəvi xassələrinin dəyişməsi qanunauyğunluğunun, kimyəvi reaksiyaların mahiyyətinin izah edilməsi;
- kimyəvi formullara və tənliklərə görə hesablamalar aparılması üzrə bilik və bacarıqlarının yoxlanılması və qiymətləndirilməsi nəzərdə tutulub.

Test bloklarına bilik və bacarıqların obyektiv qiymətləndirilməsi məqsədilə qabiliyyət göstəricilərinə görə: terminoloji, faktoloji, ümumiləşdirmə, izahat, hesablama, proqnozlaşdırma və təklif olunan fəaliyyət tipli, çətinlik dərəcələrinə görə isə sadə, orta və çətin tapşırıqlar daxil edilib.

İmtahanda qəbul proqramının mənimsənilmə səviyyəsini hərtərəfli yoxlamaq məqsədi ilə I və IV ixtisas qrupları üzrə kimyəvi hadisə və proseslərin mahiyyətinin dərkinə yönəlmiş, məntiqi düşüncəyə əsaslanan, nəzəri biliklərin tətbiqini tələb edən cədvəl, qrafik və sxem formasında olan tapşırıqlara üstünlük verilib.

Qəbul imtahanının nəticələrinin statistik göstəriciləri əsasında hər bir tapşırıq məzmun, mürəkkəblik dərəcəsi və qabiliyyət göstəriciləri baxımından təhlil edilib. Təhlil göstərmişdir ki, həm I, həm də IV ixtisas qrupları üzrə abituriyentlərin nəticələri əvvəlki illərlə müqayisədə nisbətən artıb. Belə ki, IV ixtisas qrupu üzrə abituriyentlərinin doğru cavablarının orta statistik göstəricisi təxminən 50-60% olub.

Bununla yanaşı, təhlil onu da göstərmişdir ki, I ixtisas qrupu üzrə abituriyentlər "Kimyəvi reaksiyaların istilik effekti", "Azot və onun birləşmələri", "Fosfor və onun birləşmələri", "Nitrat turşusu", "Kimyəvi tarazlıq", "Karbohidrogenlər", "Spirtlər" və s. mövzulara aid tapşırıqlara zəif cavab veriblər. Həmçinin abituriyentlərin müəyyən hissəsi, kimyanın bəzi mövzularına (metalların alınması, karbohidrogenlər, spirtlər, mürəkkəb efirlər, aminturşular, irimolekullu birləşmələr və s.) cavab verməkdə çətinlik çəkiblər. Abituriyentlər xüsusilə açıq tipli test tapşırıqlarına zəif cavab veriblər.

Qeyd etmək lazımdır ki, zəif cavablandırılan tapşırıqların aid olduqları mövzular əsas etibarı ilə tədris proqramının sonuncu mövzularıdır (mürəkkəb efirlər, karbohidratlar, azotlu üzvi birləşmələr, irimolekullu birləşmələr). Demək olar ki, abituriyentlər imtahana hazırlaşarkən həmin mövzuları səthi öyrənirlər. Bu mövzular isə bir-biri ilə sıx əlaqəlidir və ciddi təhlil tələb edir.

Təhlil həmçinin onu da göstərmişdir ki, həm I, həm də IV ixtisas qrupunda ötən illərdə olduğu kimi, abituriyentlərin bir çoxu məntiqi yanaşma, ümumiləşdirmə, hesablama tələb olunan tapşırıqlara, həmçinin qeyri-üzvi, üzvi maddələrin xassələrinə aid tapşırıqlara cavab verməkdə çətinlik çəkiblər.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

7-ci sinif

2.2.2. Sadə reaksiyaların tənliklərinə əsasən hesablamalar aparır.

20 avqust tarixli imtahan, I ixtisas qrupu, A variantı, 62 saylı test tapşırığı

Azot (II) oksidin əmələgəlmə istiliyi –90,0 kC-dur. 11,2 *l* (n.ş.) azotun azot (II) oksidə qədər oksidləşməsi zamanı udulan istiliyi (kC) hesablayın.

A) 36 B) 60 C) 180 D) 90 E) 45

7-ci sinifdə tədris olunan "Kimyəvi reaksiyaların istilik effekti" mövzusu üzrə termokimyəvi tənliklər üzrə hesablama aparmaq bacarıqlarını yoxlamağa yönəlmiş bu tapşırığa abituriyentlərin 16,88 %-i doğru cavab verib, 23,32 %-i cavab verməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün reaksiya tənliyini yazıb onun əsasında hesablama aparmağı bacarmaq lazımdır.

11,2 *l* x kC

$N_2 + O_2 \rightarrow 2NO - 2 \cdot 90$ kC

22,4 l 180 kC

X=90 kC

Kimyəvi reaksiyaların istilik effekti, termokimyəvi tənliklər üzrə hesablamalar 7-ci sinif "Kimya" dərsliyində aydın izah edilmişdir. Tənliklər üzrə hesablamalara isə kimyanın bütün bölmələrində rast gəlinir. Bu tapşırığa abituriyentlərin zəif cavab verməsi onların bu mövzunu tam öyrənmədiklərini və hesablama bacarıqlarının aşağı olmasını göstərir.

Doğru cavab: D

9-cu sinif

1.1.1. Maddələrin (metallar, qeyri-metallar və onların birləşmələri, sadə üzvi birləşmələr) quruluşunu, fiziki xassələrini şərh edir.

2.2.1. Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərini tərtib edir.

20 avqust tarixli imtahan, I ixtisas qrupu, A variantı, 64 saylı test tapşırığı

$KOH \xrightarrow{+Cl_2,\ t} X \xrightarrow{MnO_2,\ t} Y \xrightarrow{+Fe,\ t} Z$

Z maddəsi üçün hansı ifadələr ***doğru deyil***?

1. Dəmir yanığı adlanır
2. Dəmir atomlarının oksidləşmə dərəcəsi yalnız +3-dür
3. Termit qarışığının tərkibinə daxildir
4. Turşu oksididir
5. Çuqun istehsalında xammal kimi istifadə oluna bilər

A) 3, 4 B) 1, 3 C) 1, 5 D) 2, 5 E) 2, 4

9-cu sinifdə tədris olunan "Dəmir və birləşmələri" mövzusu üzrə dəmir və onun birləşmələrinin xassələrinə aid bilikləri yoxlamağa yönəlmiş bu tapşırığa abituriyentlərin 17,10%-i doğru cavab verib, 41,67%-i cavab verməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün dəmirin birləşmələrinin xassələrini və tətbiq sahələrini bilmək lazımdır.

$6KOH + 3Cl_2 \xrightarrow{t} 5KCl + KClO_3 + 3H_2O$

$2KClO_3 \xrightarrow{MnO_2,t} 2KCl + 3O_2$

$2O_2 + 3Fe \rightarrow Fe_3O_4$

Doğru olmayan ifadələr 2-ci və 4-cü bəndlərdə göstərilib.

Abituriyentlərin bu tapşırığa zəif cavab verməsi onu göstərir ki, onlar qeyri-üzvi maddələrin xassələri və tətbiqinə kifayət qədər fikir vermirlər.

Doğru cavab: E

10-cu sinif

1.3.1. Qeyri-üzvi və üzvi birləşmələrin tərkibinə və quruluşuna aid hesablamalar aparır.

20 avqust tarixli imtahan, I ixtisas qrupu, A variantı, 84 saylı test tapşırığı

0,1 mol benzol və 0,1 mol C_nH_{2n}-nin tam yanmasından 22,4 *l* CO_2 (n.ş.) alınmışsa, *n*-i hesablayın.

10-cu sinifdə tədris olunan "Karbohidrogenlər" mövzusu üzrə karbohidrogenlərin yanma reaksiyası əsasında hesablamalara aid bacarıqları yoxlamağa yönəlmiş bu açıq tipli tapşırığa abituriyentlərin 14,85 %-i doğru cavab verib, 56,02 %-i cavab verməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün karbohidrogenlərin yanma reaksiyalarının tənlikləri üzrə hesablama aparmağı bacarmaq lazımdır.

0,1 mol x *l*

$2C_6H_6 + 15O_2 \rightarrow 12CO_2 + 6H_2O$

2 mol 12·22,4 *l*

x=13,44 *l*; 0,1 mol C_nH_{2n}-nin tam yanmasına

V=22,4 - 13,44=8,96 *l*

0,1 mol 8,96 *l*

$C_nH_{2n} + \frac{3n}{2} O_2 \rightarrow nCO_2 + nH_2O$

1 mol n·22,4 *l*

n=4

Karbohidrogenlərin yanma reaksiyaları 10-cu sinif dərsliyində əhatəli şəkildə verilmişdir. Tənliklər üzrə hesablamalar isə kimyanın bütün bölmələrində rast gəlinir. Bu tapşırığa abituriyentlərin zəif cavab verməsi, onların bu məqamlara ciddi yanaşmadıqlarını və hesablama bacarıqlarının aşağı olmasını göstərir.

Doğru cavab: 4

8-ci sinif

2.2.1. Mühüm qeyri-üzvi birləşmələrə aid reaksiya tənliklərini tərtib edir.

2.2.2. Mühüm qeyri-üzvi birləşmələrə aid reaksiya tənliklərinə əsasən hesablamalar aparır.

21 avqust tarixli imtahan, I ixtisas qrupu, A variantı, 83 saylı test tapşırığı

Mg və MgO qarışığının 20 q-na artıqlaması ilə götürülmüş xlorid turşusu ilə təsir etdikdə 4,48 *l* (n.ş.) qaz ayrılıb. İlkin qarışıqda Mg metalının kütlə payını (%) hesablayın. A_r(Mg)=24

8-ci sinifdə tədris olunan "Oksid. Əsas. Turşu. Duz" bölməsi üzrə xlorid turşusunun kimyəvi xassələri əsasında hesablamalara aid bacarıqları yoxlamağa yönəlmiş bu açıq tipli tapşırığa abituriyentlərin 14,91 %-i doğru cavab verib, 62,29 %-i cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün qeyri-üzvi maddələrin kimyəvi xassələri əsasında tənliklər üzrə hesablama aparmağı bacarmaq lazımdır. MgO-nun xlorid turşusu ilə reaksiyasından qaz alınmır, Mg-un xlorid turşusu ilə reaksiyasından isə hidrogen alınır.

x q 4,48 *l*

$Mg + 2HCl \rightarrow MgCl_2 + H_2$

24 q 22,4 *l*

x=4,8 q

$\omega(Mg)=\frac{4,8}{20}\cdot 100=24\ \%$

Xlorid turşusunun metallarla və metal oksidləri ilə reaksiyaları 9-cu sinif dərsliyində əhatəli şəkildə verilmişdir. Bu tapşırığa abituriyentlərin zəif cavab verməsi mövzunu tam mənimsəmədiklərini göstərir.

Doğru cavab: 24

7-ci sinif

1.1.1. Maddələri (bəsit, mürəkkəb, saf), qarışıqları tərkibinə və fiziki xassələrinə görə fərqləndirir.

20 avqust tarixli imtahan, IV ixtisas qrupu, A variantı, 54 saylı test tapşırığı

20°C-dəki 800 q doymuş məhlul 50°C-yə qədər qızdırılır. Bu məhlulu doymuş hala gətirmək üçün məhlulda 50 q X duzu həll edilərsə, *y*-i hesablayın (buxarlanma nəzərə alınmır).



7-ci sinifdə tədris olunan "Məhlullar" mövzusu üzrə məhlulların qatılığına aid hesablama bacarıqlarını yoxlamağa yönəlmiş bu açıq tipli tapşırığa abituriyentlərin 28,75 %-i doğru cavab verib, 43,57 %-i cavab

verməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün məhlullara aid hesablama aparmağı və qrafiklə işləməyi bacarmaq lazımdır. Qrafikdən göründüyü kimi, 20°C-də X duzunun həllolma əmsalı 600 q/l-dir.

1600 q məhlulda – 600 q duz – 1000 q su var

800 q məhlulda – 300 q duz –500 q su olar

50°C-də məhlulu doymuş hala gətirmək üçün məhlulda 50 q X duzu həll edilərsə,

m_{duz}=300+50=350 q

$K_h=\frac{350}{500}\cdot 1000$=700 q/l alınar.

Bu tapşırığa abituriyentlərin zəif cavab verməsi, mövzunun mahiyyətinin lazımi səviyyədə öyrənilməməsinin nəticəsidir.

Doğru cavab: 700

11-ci sinif

1.1.1. Maddələrin (oksigenli, azotlu üzvi birləşmələr və polimerlərin) tərkibini, quruluşunu, fiziki xassələrini şərh edir, təqdimatlar hazırlayır.

1.3.1. Oksigenli, azotlu üzvi birləşmələrin və polimerlərin tərkibinə, quruluşuna aid hesablamalar aparır, təqdimatlar edir.

2.2.1. Oksigenli, azotlu üzvi birləşmələr və polimerlərə aid reaksiyaların tənliklərini tərtib edir.

21 avqust tarixli imtahan, IV ixtisas qrupu, A variantı, 57 saylı test tapşırığı

X doymuş biratomlu spirti və Y doymuş birəsaslı karbon turşusundan əmələ gələn Z mürəkkəb efirində karbonun kütlə payı 40% olarsa, *X, Y* və *Z* maddələri ilə molekullarındakı siqma rabitələrin sayının uyğunluğunu müəyyən edin.

1. X	a. 7
2. Y	b. 8
3. Z	c. 5
	d. 13
	e. 4

11-ci sinifdə tədris olunan "Mürəkkəb efirlər" mövzusuna aid uyğunluğun müəyyən edilməsi tapşırığına abituriyentlərin 27,09 %-i doğru cavab verib, 39,51 %-i cavab verməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün doymuş biratomlu spirtlərin, doymuş birəsaslı karbon turşularının və mürəkkəb efirlərin quruluşu əsasında ümumiləşdirmə aparmağı bacarmaq lazımdır.

$C_nH_{2n+1}OH + C_mH_{2m}O_2 \rightarrow C_mH_{2m-1}OOC_nH_{2n+1} + H_2O$

$M(C_mH_{2m-1}OOC_nH_{2n+1})$=14m + 14n + 32

$\omega(C)=\frac{12m+12n}{14m+14n}\cdot 100 = 40$; 6,4(m+n)=12,8

m+n=2 Bu, o deməkdir ki, m=n=1

1. Spirt - CH_3OH - $N_{\sigma\text{-}rab}$=5

2. Turşu - HCOOH - $N_{\sigma\text{-}rab}$=4

3.Efir - $HCOOCH_3$ - $N_{\sigma\text{-}rab}$=7

Doymuş biratomlu spirtlərin, doymuş birəsaslı karbon turşularının, mürəkkəb efirlərin quruluşu və alınması 11-ci sinif dərsliyində geniş şəkildə verilmişdir. Bu tapşırığa abituriyentlərin zəif cavab verməsi, bir daha üzvi kimyanın axırıncı mövzularını dərindən öyrənmədiklərini və hesablama bacarığının aşağı olmasını göstərir.

Doğru cavab: 1-c; 2-e; 3-a

Təhlil göstərir ki, abituriyentlərin cavab verməkdə çətinlik çəkdikləri tapşırıqların aid olduğu mövzuların dərsliklərdə və Dövlət İmtahan Mərkəzinin müvafiq nəşrlərində kifayət qədər ətraflı izah edilməsinə, onlara dair nümunələr verilməsinə baxmayaraq, abituriyentlərin bir çoxu həm qeyri-üzvi, həm də üzvi maddələrin xassələrini və üzvi kimyanın axırıncı mövzularını (mürəkkəb efirlər, karbohidratlar, azotlu üzvi birləşmələr, irimolekullu birləşmələr) dərindən öyrənmir. Qəbul imtahanlarına hazırlaşanların bu sahələrə ciddi fikir vermələri tövsiyə edilir.

"Biologiya" fənnindən qəbul imtahanında istifadə edilmiş tapşırıqlar 4 **("Canlıların quruluşu və müxtəlifliyi", "Bioloji proseslər", "İnsan və onun sağlamlığı", "Canlılar və ətraf mühit")** məzmun xətti üzrə 6 əsas standartın və 72 alt standartın reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

İmtahanlarda istifadə edilmiş test bloklarına canlı aləmdə baş verən bioloji hadisə və proseslərin mahiyyətinin dərk olunmasını tələb edən, bitki və heyvanların təsnifatı, fizioloji və ekoloji xüsusiyyətləri, habelə onların həyat fəaliyyəti sahəsində bilik və bacarıqlarını yoxlamağa imkan verən, ümumiləşdirmə və məntiqi düşüncəyə əsaslanan tapşırıqlar daxil edilib.

Tapşırıqlar ilə abituriyentlərin:

- əsas bioloji qanun və qanunauyğunluqları, canlı varlıqların quruluşu və əlamətlərini, bioloji proses və hadisələrin mahiyyətini, terminologiyanı və insan orqanizminin xüsusiyyətlərini bilmək və başa düşmək;
- bioloji proseslər arasındakı qanunauyğunluqları başa düşmək və təhlil etmək, bioloji məsələləri həll etmək, sxemlər qurmaq, bioloji varlıqların xüsusiyyətlərini müqayisə edərək nəticə çıxarmağı bacarmaq;
- qazanılmış bilik və bacarıqları ətraf mühitin qorunmasında, sağlam həyat tərzinin keçirilməsində tətbiq etmək kimi bilik və bacarıqlarının yoxlanılması və qiymətləndirilməsi nəzərdə tutulub.

Ötən illərdə olduğu kimi, tapşırıqlar "Botanika", "Zoologiya", "İnsan" və "Ümumi biologiya" bölmələrini əhatə edib. Tapşırıqların bölmələr üzrə paylanması aşağıdakı kimi olub: "Botanika"– 6, "Zoologiya" – 6, "İnsan" – 8 , Ümumi biologiya" – 10. Abituriyentlərin hazırlıq səviyyəsinin hərtərəfli yoxlanılması və qiymətləndirilməsi məqsədilə test bloklarına mürəkkəblik dərəcəsinə görə sadə, orta və çətin tapşırıqlar daxil edilib.

İmtahan nəticələrinin statistik göstəriciləri üzrə təhlil göstərir ki, abituriyentlərin bir çoxu bitkilərin seleksiyası, bitki sortlarının alınması xüsusiyyətləri, insanın cinsiyyət sistemi və cinsiyyət orqanlarında gedən proseslər, insanın skeleti və ifrazat sistemi, sitologiya və canlıların sistematikasına aid test tapşırıqlarına yaxşı cavab verib. Bununla yanaşı, bir sıra abituriyentlər üzvi aləmin təkamülünün hərəkətverici qüvvələri, makrotəkamülün yolları, insanın xromosom dəsti, irsi xəstəlikləri, parazit qurdların həyat dövriyyəsi, habelə çiçəkli bitkilərdə ikiqat mayalanma mexanizmi və kəmiyyətlərinə dair nəzəri biliklərin tətbiqi tələb olunan, mövzulararası əlaqəyə aid, hesablama tipli test tapşırıqlarının yerinə yetirilməsində çətinlik çəkib.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

7-ci sinif

2.1.1. Müxtəlif canlılarda gedən həyati prosesləri fərqləndirir.

20 avqust tarixli imtahan, A variantı, 5 saylı test tapşırığı

Bir çiçəyinin mayalanmasında 2 spermi iştirak edən bitkiləri seçin.

1. Pomidor 2. Kartof 3. Göyçiçək
4. Ərik 5. Arpa 6. Kələm

A) 3, 4, 5 B) 2, 5, 6 C) 1, 2, 5
D) 1, 3, 4 E) 1, 2, 6

"Generativ orqanlar" bölməsinə aid bu test tapşırığına abituriyentlərin 30,89%-i doğru cavab verib, 20,00%-i isə cavab verməkdən imtina edib. 6 və 9-cu siniflər üçün "Biologiya" dərsliklərindəki materialdan məlumdur ki, çiçəkli bitkilərdə baş verən ikiqat mayalanma prosesində bilavasitə dörd hüceyrə iştirak edir. Bunlar iki spermi, bir yumurta hüceyrə və bir mərkəzi hüceyrədir. Qeyd etmək lazımdır ki, bu dörd hüceyrənin mayalanma prosesində iştirakı nəticəsində bir toxum əmələ gəlir. Əgər bir çiçəkdən əmələ gələn meyvə çoxtoxumludursa, onda mayalanmada iştirak edən hüceyrələrin və o cümlədən də spermilərin sayı da toxumların sayına müvafiq olaraq çox olar. Tapşırığın şərtində verilən "pomidor", "kartof" və "kələm" çoxtoxumlu meyvəyə (giləmeyvə, buynuzmeyvə), "göyçiçək", "ərik" və "arpa" isə müvafiq olaraq birtoxumlu toxucameyvə, çəyirdəkmeyvə və dənmeyvəyə malik bitkilərdir. Birtoxumlu meyvə əmələ gətirən bir çiçəyin mayalanmasında isə iki sperm iştirak edər.

Doğru cavab: A

10-cu sinif

1.1.4. Makrotəkamül haqqında məlumat toplayır və təqdimat hazırlayır.

20 avqust tarixli imtahan, A variantı, 11 saylı test tapşırığı

İdioadaptasiyanı yalnız makrotəkamül prosesi hesab etmək olarmı?

A) Olmaz, belə ki, idioadaptasiya yolu ilə növ, cins, fəsilə əmələ gəlir
B) Olmaz, belə ki, idioadaptasiya yalnız mikrotəkamülün yollarından biridir
C) Olmaz, belə ki, idioadaptasiya yolu ilə yalnız yeni populyasiya və növlər əmələ gəlir
D) Olar, belə ki, idioadaptasiya yolu ilə yalnız sinif, tip və şöbə kateqoriyaları əmələ gəlir
E) Olar, belə ki, idioadaptasiya yalnız makrotəkamülün yollarından biridir

"Yer üzərində həyatın əmələ gəlməsi. Makrotəkamül" bölməsinə aid, bu test tapşırığına abituriyentlərin 28,04 %-i doğru cavab verib, 16,61%-i isə cavab verməkdən imtina edib. 10-cu sinif "Biologiya" dərsliyində tədris olunan müvafiq materialdan məlumdur ki, A.N. Severtsov və İ.İ. Şmalhauzen üzvi aləmin təkamülünün 3 yolunu müəyyən etmişlər: aromorfoz, idioadaptasiya və ümumi degenerasiya. İdioadaptasiyalar aromorfozlara nisbətən daha kiçik təkamül dəyişkənlikləridir. Bu prosesdə canlılar yaşadıqları mühit şəraitinə uyğunlaşmalar qazanırlar. Bunun nəticəsində də kiçik taksonomik qruplar – növ, cins, fəsilələr əmələ gəlir. Sinif, tip və şöbə kimi nisbətən iri kateqoriyalar isə aromorfozlar nəticəsində yaranır.

Mikrotəkamül növün təkamülünün ilk mərhələsidir. Həmçinin, mikrotəkamül populyasiya daxilində baş verən təkamül prosesləridir və o, növün əmələ gəlməsi ilə başa çatır. Növdən yuxarı sistematik kateqoriyaların – cins, fəsilə, dəstə və digərlərinin yaranması isə makrotəkamül prosesləri ilə təmin olunur. İdioadaptasiyaların həm növ, həm də növdən yuxarı təsnifat vahidlərinin – məhz, cins və fəsilənin yaranmasına gətirib çıxarmasını nəzərə alaraq, təkamülün bu yolunu yalnız makrotəkamül deyil, eyni zamanda mikrotəkamül prosesi də hesab etmək olar.

Doğru cavab: A.

7-ci sinif

2.1.1. Müxtəlif canlılarda gedən həyati prosesləri fərqləndirir.

21 avqust tarixli imtahan, A variantı, 24 saylı test tapşırığı

Qaraciyər sorucusunun hansı inkişaf mərhələləri parazitlik etdikləri orqanizmlərin bədənində əmələ gəlir?

1. yumurta 2. kirpikli sürfə 3. quyruqlu sürfə
4. sista 5. finna 6. yetkin fərd

"Qurdlar. Molyuskalar" bölməsinə aid olan açıq tipli bu tapşırığa abituriyentlərin 23,63%-i doğru cavab verib, 8,35%-i isə cavab verməkdən imtina edib.

Məlumdur ki, parazit yastı qurdlar aralıq və əsas sahiblərinin orqanizmində mürəkkəb həyat dövriyyəsi keçirərək inkişaf edirlər. 7-ci siniflər üçün "Biologiya" dərsliyindəki materialda sorucu qurdlar sinfinin nümayəndəsi olan qaraciyər sorucusunun inkişaf mərhələləri əyani olaraq sxem şəklində təqdim olunmuşdur. Belə ki, parazitin yetkin fərdi əsas sahibin – qaramalın qaraciyərində yumurta qoyur, suya düşmüş yumurtalardan kirpikli sürfə çıxır, bu sürfələr isə aralıq sahib hesab edilən göl ilbizinin bədəninə daxil olaraq orada quyruqlu sürfələrə başlanğıc verirlər. İlbizin orqanizmini tərk edən quyruqlu sürfələr suya düşərək sistaya çevrilirlər. Gölməçədən su içən qaramalın həzm sisteminə daxil olan sistadan cavan sorucu çıxır və o, qana keçərək qaraciyərə gəlir. Qaraciyərdə sorucu yetkin fərdə çevrilərək cinsi yolla çoxalır. Beləliklə, məlum olur ki, qaraciyər sorucusunun yumurtası (1) və yetkin fərdi (6) əsas sahibin, quyruqlu sürfəsi (3) isə aralıq sahibin bədənində əmələ gəlir.

Doğru cavab: 1, 3, 6

11-ci sinif

4.1.1. Təbii seçməni yaşamaq uğrunda mübarizənin nəticəsi kimi əsaslandırır, məruzə və referatlar hazırlayır.

21 avqust tarixli imtahan, A variantı, 27 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin:

Seçmənin formaları	*Xarakteristikası*
1. hərəkətverici **2**. stabilləşdirici	**a**. əlamətin orta həddini saxlayır. **b**. orqanizmlərin dəyişən mühit şəraitinə uyğunlaşmasını təmin edir. **c**. əlamətləri orta həddən kənara çıxan fərdləri saxlayır. **d**. orqanizmlərin çoxşəkilliliyinin artmasına kömək edir. **e**. relikt canlıların uzun müddət dəyişməməsini təmin edir.

"Təkamül təlimi" bölməsinə aid olan bu test tapşırığına abituriyentlərin 19,35%-i doğru cavab verib,9,57%-i isə cavab verməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün 9 və11-ci siniflər üçün "Biologiya" dərsliklərindəki müvafiq tədris materialını mənimsəyib ümumiləşdirmə aparmaq lazımdır. Məlumdur ki, təbii seçmənin 3 forması müəyyən edilmişdir: hərəkətverici, stabilləşdirici və dizruptiv seçmə. Hərəkətverici seçmə dəyişkən həyat şəraitində baş verir və belə halda orqanizmlərin dəyişən mühit şəraitinə uyğunlaşmasını təmin edir, orqanizmlərin çoxşəkilliliyinin artmasına kömək edir. Seçmənin bu forması əlamətləri orta həddən kənara çıxan fərdlərin saxlanmasını təmin edir. Bunun əksinə olaraq, dəyişməyən, yəni nisbətən sabit qalan mühit şəraitində təsir göstərən stabilləşdirici seçmə isə əlamətin orta həddini saxlayır. Stabilləşdirici seçmə nəticəsində relikt növlər, misal üçün, hatteriya, pəncəüzgəcli balıqlar və digərləri uzun müddət dəyişməmiş qalmışlar.

Doğru cavab: 1- b,c,d; 2-a,e

20 avqust tarixli imtahan, A variantı, 28, 29 və 30 saylı tapşırıqlar

Situasiya: Müayinə keçən insanın sağlam olduğu məlum oldu və bu insanda qarışıq sekresiya vəzilərindən ikisi əsas bədən boşluğunda yerləşmir. Z orqanı sayı 1 ədəd olan qarışıq sekresiya vəzisidir.


ağciyər

Z
orqanı

28. Şəkildəki orqandan çıxan eritrositin Z orqanına gedib çatması üçün keçilən yolun ardıcıllığını (qan damarlarının və ürək kameralarının adlarını göstərməklə) müəyyən edin.

Ehtimal olunan doğru cavab: 1-ci hal: ağciyər venası → sol qulaqcıq → sol mədəcik → aorta → kiçik arteriya damarlar (mədəaltı vəz arteriyası) 2-ci hal: ağciyər venası → sol qulaqcıq → sol mədəcik → aorta → qarın aortası → kiçik arteriya damarlar (mədəaltı vəz arteriyası)

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
2 bal	A. 1 və 2-ci halallardan hər hansı birinə uyğun olaraq eritrositin Z orqanına gedib çatması üçün keçilən yolun ardıcıllığı tam doğru göstərilir, səhv cavab yazılmır.
1 bal	B. 1 və 2-ci halallardan hər hansı birinə uyğun olaraq eritrositin Z orqanına gedib çatması üçün keçilən yolun ardıcıllığının yazılması zamanı 1 hissənin adı yazılmır və ya bir hissənin adı səhv yazılır.
0 bal	C. 1 və 2-ci halallardan hər hansı birinə uyğun olaraq eritrositin Z orqanına gedib çatması üçün keçilən yolun ardıcıllığının yazılması zamanı 1 və ya daha çox hissənin adı yazılmır və həmçinin 1 və ya daha çox hissənin adı səhv yazılır. D. 1 və 2-ci halallardan hər hansı birinə uyğun olaraq eritrositin Z orqanına gedib çatması üçün keçilən yolun ardıcıllığının yazılması zamanı 2 hissənin adı yazılmır və ya 2 hissənin adı səhv yazılır. E. Səhv cavabların sayı 2 və daha çoxdur. F. Digər bütün hallarda.

"Fənlərarası əlaqə" bölməsinə aid bu tapşırıq vasitəsilə abituriyentlərin "Bioloji proseslər" məzmun xəttinin 8_2.1.1. (*İnsan orqanizmində baş verən bioloji prosesləri izah edir*) alt standartın tələbləri üzrə bacarıqlar yoxlanılır.

Abituriyentlərin 17,32%-i yazı işini tam yerinə yetirdiyinə görə 2 balla, 14,29%-i 1 balla, 34,82%-i 0 balla qiymətləndirilib, 33,57% -i isə tapşırığı yerinə yetirməkdən imtina edib. 8-ci sinif "Biologiya" dərsliyində tədris olunan müvafiq materialdan məlumdur ki, insanda iki növ qarışıq sekresiya vəzisi var: mədəaltı vəz və kişi və qadın cinsiyyət vəziləri (müvafiq olaraq – bir cüt toxumluq və bir cüt yumurtalıq). Tapşırığın şərtinə görə müayinə keçən insanın 3 qarışıq sekresiya vəzilərindən ikisi bədən boşluğunda yerləşmirsə, bu şəxsin kişi cinsinə mənsub olduğu məlum olur. Belə ki, kişilərdə toxumluqlar əsas bədən boşluqlarında yerləşmir. Eyni zamanda aydın olur ki, Z orqanı da mədəaltı vəzi, yəni sayı bir ədəd olan qarışıq sekresiya vəzisidir. Uyğun olaraq ağciyərlərdən çıxan qanın mədəaltı vəzə gedib çatması zamanı qanın qət etdiyi yolun (qan damarlarının və ürək kameralarının adlarını göstərməklə) ardıcıllığını dərslikdə insanın qan-damar sisteminin anatomiyasına aid materiallara əsasən müəyyən etmək olar. Ardıcıllıq belədir: ağciyər venaları – sol qulaqcıq – sol mədəcik – aorta qövsü – qarın aortası – mədəaltı vəz arteriyası.

29. Z orqanına daxil olan qanın 100 ml-də X xromosomlarının maksimal sayını hesablayın. Cavabınızı əsaslandırın.

Ehtimal olunan doğru cavab:

Əsaslandırma: Qarışıq vəzilərdən yalnız biri bədən boşluğunda yerləşir, deməli bu kişi orqanizmidir. Xromosomları nüvəsi olan formal elementdə – leykositdə olur. Hər bir leykositdə 1 X xromosomu olur (Yaxud şagirdin cavabından məlum olur ki, bu kişi orqanizmidir və hər bir leykositdə 1 X xromosomu olur).

Hesablanma: əvvəlcə 100 ml qanda olan leykositlərin maksimum sayı tapılır.

1ml=10^3 mm^3 100 ml = 10^5 mm^3

1 mm^3 qanda —— 10 000 leykosit

10^5 mm^3 qanda—— a leykosit

a = $10 \cdot 10^8 = 10^9$ (1 milyard) leykosit

X xromosomlarının sayı leykositlərin sayına bərabərdir – 10^9 (1 milyard) X xromosomu

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
2 bal	A. Əsaslandırma doğrudur və doğru hesablamalar apararaq düz cavab tapılır, səhv cavab yazılmır. B. Z orqanına daxil olan qanın 100 ml-də X xromosomlarının maksimal sayını tapmaq üçün düzgün hesablama aparılır və doğru cavabı tapılır, səhv cavab yazılmır.
1 bal	C. Əsaslandırma doğrudur ancaq hesablamalar aparılmayıb və ya düz cavab tapılmayıb.
0 bal	D. Əsaslandırmanın səhv olduğu bütün hallarda. E. Səhv cavabların sayı 2 və daha çoxdur. F. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə abituriyentlərin "Bioloji proseslər" məzmun xəttinin 8_2.1.1. (*İnsan orqanizmində baş verən bioloji prosesləri izah edir*) və 9_2.1.3. (*Bioloji proseslərin mahiyyəti və məzmununu, baş verən dəyişiklikləri riyazi üsullarla əsaslandırır*) alt standartlarının tələbləri üzrə bacarıqlar yoxlanılır.

Abituriyentlərin 8,39%-i yazı işini tam yerinə yetirdiyinə görə 2 balla, 40,89%-i 1 balla, 8,04%-i 0 balla qiymətləndirilib, 42,68%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün, 8-ci sinfin "Biologiya" dərsliyindən insanın qan-damar sistemi, 9-10-cu sinif dərsliklərindən isə insanın kariotipinə aid bilikləri ümumiləşdirməyi bacarmaq lazımdır. Məlumdur ki, kişinin bir somatik hüceyrəsində bir X xromosom var. Qanın formalı elementlərindən yalnız leykositlərdə xromosomlar olur (yetkin eritrositlər və trombositlərdə nüvə olmur). Beləliklə, əgər 1 ml qanda 10 milyon leykosit varsa, 100 ml-də 1 milyard leykosit olar və deməli o qədər də X xromosom olar.

30. Z orqanının və şəkildə göstərilən orqanın yerləşdikləri bədən boşluqlarında olan yalnız daxili sekresiya vəzilərinin adlarını və hər birinin sayını müəyyən edin.

Ehtimal olunan doğru cavab: Döş boşluğunda 1 ədəd timus vəzi, qarın boşluğunda 2 ədəd böyrəküstü vəzi yerləşir.

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
2 bal	A. Hər 2 bədən boşluqlarında olan yalnız daxili sekresiya vəzilərinin adlarını və hər birinin sayı doğru müəyyən edilir, səhv cavab yazılmır.
1 bal	B. Bədən boşluqlarından hər hansı birinə aid olan yalnız daxili sekresiya vəzilərinin adları və sayı doğru müəyyən edilir, digəri yazılmır və ya səhv yazılır. C. Hər 2 bədən boşluqlarında olan yalnız daxili sekresiya vəzilərinin adlarını və hər birinin sayı doğru müəyyən edilməklə yanaşı, bir səhv cavab da yazılır. D. Hər 2 bədən boşluğunda olan vəzilərin adları doğru yazılır, sayları isə ya yazılmır, ya da səhv yazılır.
0 bal	E. Hər 1 bədən boşluğuna aid olmayan ən azı 1 vəzinin adı səhv yazılır. F. Bədən boşluqlarından hər hansı birinə aid olan yalnız daxili sekresiya vəzilərinin adları doğru müəyyən edilir, say isə yazılmır, digər bədən boşluğuna aid olan vəzinin adı və sayı ya yazılmır, ya da səhv yazılır. G. Səhv cavabların sayı 2-dən çoxdur. H. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə abituriyentlərin "Bioloji proseslər" məzmun xəttinin 8_2.1.1. (*İnsan orqanizmində baş verən bioloji prosesləri izah edir*) alt standartının tələbləri üzrə bacarıqlar yoxlanılır.

Abituriyentlərin 32,14%-i yazı işini tam yerinə yetirdiyinə görə 2 balla, 29,37%-i 1 balla, 18,75%-i 0 balla qiymətləndirilib, 25,36%-i isə tapşırığı yerinə yetirməkdən imtina edib. 8-ci sinif "Biologiya" dərsliyində tədris olunan müvafiq materialdan məlumdur ki, insanda ağciyərlər döş boşluğunda, mədəaltı vəz isə qarın boşluğunda yerləşir. Döş boşluğunda daxili sekresiya vəzilərindən yalnız timus, qarın boşluğunda isə 2 ədəd böyrəküstü vəzi (cəmi üç vəzi) yerləşir.

Qəbul imtahanlarının nəticələrinin təhlili göstərir ki, abituriyentlər dərslikdəki materialı öyrənməklə yanaşı, ümumiləşmə aparmaq, mənimsədikləri bilikləri sistemləşdirmək bacarıqlarını daha da inkişaf etdirməlidirlər.

I–IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən abituriyentlərin 22.9%-i (15482 nəfər) imtahan verdikləri fənlərin ən azı birindən sıfır bal toplayıb

I–IV ixtisas qrupları üzrə qəbul imtahanlarında iştirak edən abituriyentlərin 22.9%-i imtahan verdikləri fənlərin biri və ya bir neçəsi üzrə test suallarına ya cavab verməmiş, yaxud da cavabları təhlil aparmadan təsadüfi qaydada seçmişdir. Təbii ki, belə abituriyentlərin yanlış cavablarının sayı düzgünlərin sayından qat-qat çox olmuş, nəticədə düzgün cavabların yanlış cavablar nəzərə alınmaqla təshih edilmiş qiyməti sıfırdan kiçik alınmış və qəbul qaydalarına əsasən sıfıra bərabər qəbul olunmuşdur. Təəssüf ki, gənclər arasında birtərəfli hazırlıqla ali təhsil müəssisələrinə qəbul olmaq arzusunda olanlar hələ də var. DİM imtahan fənləri üzrə də minimal tələblər qoyub və məhdudiyyətlər tətbiq edirdi. Cari ildə isə imtahan fənləri üzrə heç bir məhdudiyyət tətbiq edilməmişdir.

DİM şagird və abituriyentlərin nəinki imtahan fənlərinə, həmçinin ümumtəhsil məktəblərində tədris olunan digər fənlərə lazımi diqqət göstərməsinin tərəfdarıdır. Sirr deyil ki, hazırda məktəblərdə yuxarı sinif şagirdlərinin, əsasən, seçdikləri ixtisas qrupuna aid fənlərə üstünlük verməsi, digər fənləri isə, heç olmasa, proqramın minimum tələbləri səviyyəsində öyrənməməsi, məktəb rəhbərlərinin də bu vəziyyətə göz yumması halları mövcuddur. Məktəb rəhbərləri, eləcə də müəllimlər şagirdlərin bütün fənlər üzrə ən azı minimum proqram həcmində bilik almasına nail olmalı, imtahana düşən fənləri yaxşı bildiklərinə görə digər fənləri lazımınca öyrənməmələrinə güzəşt etməməlidirlər.

Aşağıdakı cədvəllərdə ayrı-ayrı fənlər üzrə sıfır bal toplayan abituriyentlərin faizi təqdim edilib.

Cədvəl 1.30

İMTAHAN FƏNLƏRİNDƏN SIFIR (0) BAL TOPLAMIŞ AZƏRBAYCAN BÖLMƏSİ ABİTURİYENTLƏRİNİN FAİZİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ 0 BAL TOPLAMIŞ ABİTURİYENTLƏRİN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	Xarici dil	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	0.05	0.99	0.19			12.68	20.80	15.56			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	0.05	1.12	0.14			17.48				10.09	10.67
III	Humanitar, pedaqogika ixtisasları	0.02	1.24	0.15	1.08	3.40					6.17	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	0.02	0.65	0.12				10.66	9.68	3.10		
V	İncəsənət, musiqi, idman ixtisasları	0.16	2.02	0.33								

Cədvəl 1.31

İMTAHAN FƏNLƏRİNDƏN SIFIR (0) BAL TOPLAMIŞ RUS BÖLMƏSİ ABİTURİYENTLƏRİNİN FAİZİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ 0 BAL TOPLAMIŞ ABİTURİYENTLƏRİN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	Xarici dil	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	0.00	0.80	0.04			9.53	17.07	12.37			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	0.17	0.86	0.26			14.07				10.72	9.78
III	Humanitar, pedaqogika ixtisasları	0.14	1.65	0.14	1.64	3.84					9.80	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	0.00	0.34	0.00				12.29	10.10	2.69		
V	İncəsənət, musiqi, idman ixtisasları	0.14	2.21	0.25								

Cədvəllərdə sıfır bal toplayanların faizi qruplar üzrə verilib. Ümumilikdə, I mərhələdə sıfır bal toplayanlar çox azdır. Bunun əsas səbəbi kimi bu mərhələdə II mərhələdən fərqli olaraq qapalı tipli test tapşırıqları üzrə yanlış cavablara görə cərimə tətbiq olunmaması və bu cavabların ümumi bala təsir göstərməməsidir. Nəticədə, abituriyentlər I mərhələdə daha cəsarətli davranırlar və hətta cavablarını bilmədikləri test tapşırıqlarını da cavablandırırlar ki, bu da öz növbəsində təsadüfi şəkildə düzgün cavabların qeyd olunması ehtimalını artırır.

II mərhələdə ana dili, ədəbiyyat və biologiya fənləri üzrə sıfır bal toplayan abituriyentlərin faizi digər fənlərə nisbətən azdır. Sıfır bal toplayanlar ən çox kimya, riyaziyyat və fizika fənləri üzrədir. Bu fənlər üzrə abituriyentlərin nəticələrinin aşağı olması və sıfır bal toplayanların sayının çoxluğu bir sıra məktəblərdə həmin fənlərin tədrisinə, eləcə də bu fənlər üzrə qəbula hazırlıq prosesinə laqeyd münasibətin nəticəsidir. İstənilən halda, bunun real səbəbləri aydınlaşdırılmalı və həmin fənlərə münasibətin dəyişdirilməsi üçün tədbirlər görülməlidir.

II mərhələdə imtahan fənlərindən sıfır bal toplayan abituriyentlər Azərbaycan bölməsində çoxluq təşkil edir. Bu bölmə üzrə I və II ixtisas qruplarında bütün fənlər üzrə, III qrupda tarix, IV qrupda fizika və kimya fənlərindən sıfır bal toplayanlar nisbətən daha çoxdur. Rus bölməsində də qruplar üzrə vəziyyət eyni ilə Azərbaycan bölməsindəki kimidir.

Məlum olduğu kimi 2019-cu ildən etibarən müsabiqə şərti kimi imtahan fənləri üzrə heç bir məhdudiyyət qoyulmur. I-IV ixtisas qruplarına daxil olan ixtisaslar üzrə ali təhsil müəssisələrinə qəbul olanlar arasında 5114 nəfərin altı imtahan fənnindən (hər iki mərhələ üzrə birlikdə) heç olmasa, biri üzrə nisbi balı 10-dan az olmuşdur. Onlardan 4509 nəfərin yalnız bir, 583 nəfərin iki, 22 nəfərin isə üç imtahan fənni üzrə nisbi balı 10-dan az olmuşdur. Ən azı 1 fənn üzrə nisbi balı 10-dan az olan abituriyentlərin 21.69%-i (yalnız 1 fənn üzrə nisbi balı 10-dan az olanların 19.32%-i, 2 fənn üzrə nisbi balı 10-dan az olanların 38.25%, 3 fənn üzrə nisbi balı 10-dan az olanların 68.18%-i) 200-dən az bal toplayıb.

I-IV ixtisas qruplarına daxil olan ixtisaslar üzrə ali təhsil müəssisələrinə qəbul olanlar arasında I mərhələdə ana dili fənni üzrə 16, riyaziyyat fənni üzrə 838 və xarici dil fənni üzrə 205 abituriyentin topladığı nisbi balı 10-dan az olub. II mərhələdə ana dili fənni üzrə 1, ədəbiyyat fənni üzrə 28, riyaziyyat fənni üzrə 1193, fizika fənni üzrə 1282, kimya fənni üzrə 897, biologiya fənni üzrə 14, tarix fənni üzrə 940, coğrafiya fənni üzrə 327 abituriyentin topladığı nisbi balı 10-dan az olub.

Bu il qəbul imtahanlarının II mərhələsində Azərbaycan bölməsi abituriyentlərinin riyaziyyat, fizika və kimya fənləri istisna olmaqla, digər bütün fənlər üzrə göstəriciləri rus bölməsi abituriyentlərinin göstəricilərindən yüksəkdir. Belə üstünlük özünü biologiya və tarix fənləri üzrə daha qabarıq şəkildə göstərib. I mərhələdə isə bütün fənlər üzrə rus bölməsinin abituriyentlərinin göstəriciləri yüksək olmuşdur. Aşağıda Azərbaycan və rus bölmələri abituriyentlərinin fənlər üzrə düzgün cavablarının müqayisəsini ifadə edən 1.22 saylı şəkli təqdim edilir.

AZƏRBAYCAN VƏ RUS BÖLMƏLƏRİ ABİTURİYENTLƏRİNİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ DÜZGÜN CAVABLARININ (FAİZLƏ) MÜQAYİSƏSİ DİAQRAMI



Şəkil 1.22

Müsabiqə şərtlərini ödəyərək ixtisas seçimində iştirak edən abituriyentlər seçməsi üzrə Azərbaycan və rus bölmələri abituriyentlərinin II mərhələdə imtahan fənləri üzrə düzgün cavablarının müqayisəsi göstərir ki, burada artıq bütün fənlər üzrə Azərbaycan bölməsinin abituriyentlərinin göstəriciləri daha üstündür (bax: şəkil 1.23). I mərhələdə riyaziyyat fənni üzrə Azərbaycan bölməsinin abituriyentlərinin üstünlüyü çox cüzidir.

AZƏRBAYCAN VƏ RUS BÖLMƏLƏRİNİN MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİNİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ DÜZGÜN CAVABLARININ (FAİZLƏ) MÜQAYİSƏSİ DİAQRAMI



Şəkil 1.23

Ölkənin ayrı-ayrı bölgələrini təmsil edən abituriyentlərin imtahan fənləri üzrə cavablarının təhlili göstərir ki, fənlər üzrə ən yüksək nəticə, əsasən, birbaşa Təhsil Nazirliyinin tabeliyində olan liseylərə və özəl liseylərə məxsusdur. Fənlər üzrə şəhər və rayon təhsil şöbələrinin göstəricilərinin təhlilindən aydın olur ki, kənd rayonlarının bir çox fənlər üzrə göstəriciləri Bakı və Sumqayıt şəhərlərinin göstəricilərini qabaqlayır. Belə rayonlara misal olaraq Gədəbəy, Masallı, Qəbələ, Quba, Ağstafa, Balakən, İmişli, İsmayıllı, Qazax və Tovuz rayonlarını göstərmək olar. Bunun obyektiv səbəblərindən biri kimi qəbul imtahanlarında bu şəhərlərin məzunlarının daha çox hissəsinin, rayonların isə yalnız hazırlıqlı məzunlarının iştirak etməsini göstərmək olar. Məsələn, bu il Bakı şəhəri üzrə məzunların 91.58%-i, Sumqayıt şəhəri üzrə 95.75%-i qəbul imtahanlarında iştirak etmişdir. Yüksək göstəricili rayonlar üzrə isə məzunların ən yaxşı halda 62–87%-i ali təhsil müəssisələrinə sənəd vermişdir.

Aşağıdakı cədvəllərdən göründüyü kimi, Azərbaycan bölməsində ana dili və coğrafiya fənləri üzrə Sumqayıt şəhərinin, ədəbiyyat və biologiya fənləri üzrə Mingəçevir şəhərinin, riyaziyyat fənni üzrə Qax rayonunun, fizika və kimya fənləri üzrə Naxçıvan şəhərinin, tarix fənni üzrə Ağstafa rayonunun abituriyentləri üstünlük əldə etmişdir.

Rus bölməsi abituriyentlərinin böyük əksəriyyətini Bakı, Sumqayıt və Gəncə şəhərlərinin məzunları təşkil etdiyindən yüksək göstəricilər də bu şəhərlər arasında paylanıb (bax: səh. 135, cədvəl 1.41).

Müəyyən bölgələrin ayrı-ayrı fənlər üzrə qəbul imtahanlarındakı yüksək göstəriciləri artıq ənənə halını almışdır. Məsələn, Azərbaycan bölməsi üzrə ana dili fənnindən Sumqayıt şəhəri və Qəbələ rayonu, ədəbiyyat fənnindən Mingəçevir şəhəri və Qəbələ rayonu, riyaziyyat fənnindən Sumqayıt şəhəri və Qax rayonu, kimyadan Neftçala rayonu, biologiyadan Abşeron və Şəki rayonları, tarixdən Mingəçevir şəhəri, coğrafiyadan Sumqayıt şəhəri və Qəbələ rayonu bütün illərdə ən yüksək göstəricili bölgələr sırasındadır. Şübhəsiz, bu göstəricilər müvafiq şəhər və rayonların təhsil orqanları və müəssisələrinin səmərəli fəaliyyətinin nəticəsidir. Onların iş təcrübəsini respublika miqyasında yaymaq müvafiq elmi-metodik mərkəzlərin və mütəxəssislərin ümdə vəzifələrindən biri olmalıdır. Bundan bütövlükdə respublikanın təhsil sistemi qazanar.

Ayrı-ayrı fənlər üzrə ən yüksək nəticə göstərən təhsil şöbələri və liseylərin siyahısı 1.32-1.39 saylı cədvəllərdə təqdim edilir. Statistik rəqəmlərin etibarlı olması və reallığı dürüst əks etdirməsi məqsədilə cədvəllərdə abituriyentlərinin sayı 100-dən az olmayan rayonlar verilib. Biologiya fənni üzrə imtahan verən abituriyentlərin sayının nisbətən az olmasını nəzərə alaraq, müvafiq cədvələ abituriyentlərinin sayı 50-dən az olmayan rayonlar daxil edilib.

ABİTURİYENTLƏRİ II MƏRHƏLƏDƏ İMTAHAN FƏNLƏRİ ÜZRƏ YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ TƏHSİL ŞÖBƏLƏRİ VƏ LİSEYLƏR (2020-Cİ İL MƏZUNLARI)

Azərbaycan bölməsi

Fənn: **Ana dili** Cədvəl 1.32

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (TN tabeli və özəl)	234	74.81	21.30	3.89
Sumqayıt şəhəri	591	67.77	26.91	5.32
Zəngilan rayonu	105	67.65	27.42	4.94
Qəbələ rayonu	210	67.30	26.74	5.96
Qubadlı rayonu	152	66.39	25.90	7.72
Ağstafa rayonu	117	65.97	25.87	8.16
Qazax rayonu	179	65.65	26.54	7.80
Mingəçevir şəhəri	177	65.43	28.25	6.32
Salyan rayonu	157	65.41	27.62	6.97
Abşeron rayonu	538	62.96	29.81	7.23

Fənn: **Ədəbiyyat** Cədvəl 1.33

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (TN tabeli və özəl)	234	62.74	29.29	7.96
Mingəçevir şəhəri	177	62.46	27.75	9.79
Masallı rayonu	259	58.31	31.85	9.84
Abşeron rayonu	538	58.05	30.40	11.55
Gədəbəy rayonu	151	56.69	32.95	10.36
Qəbələ rayonu	210	56.54	35.67	7.79
Qubadlı rayonu	152	56.50	32.16	11.34
Balakən rayonu	107	56.44	31.97	11.58
Son on iki ilin statistikası əsasında hər bir rayonun ayrı-ayrı fənlər üzrə ən qabaqcıl məktəbləri də müəyyənləşdirilib. Bunun üçün hər bir fənn üzrə abituriyentlərinin sayı 10-dan az olmayan məktəblər götürülüb. 6.25 və 6.26 saylı cədvəllərdə (bax: səh. 453–458) respublikanın rayonlarının hər bir fənn üzrə son on iki ildə stabil olaraq yaxşı nəticə göstərən məktəbləri təqdim edilib. Rayon və şəhər təhsil şöbələri tərəfindən bu məktəblərin fəaliyyəti qiymətləndirilməli, onların qabaqcıl iş təcrübələri öyrənilib yayılmalıdır. Həmin məktəblərin məzunlarının yüksək nəticələr qazanması bəzən bütövlükdə pedaqoji kollektivlərin fəaliyyətindən çox, qabaqcıl iş təcrübəsi ilə seçilən bir neçə fənn müəlliminin, hətta bəzi hallarda bir müəllimin əməyi nəticəsində başa gəlir. Belə müəllimlərin fəaliyyəti öyrənilməlidir. Onların ictimaiyyətə tanıdılması, əməyinin layiqincə qiymətləndirilməsi digər müəllimlərin də dərslərə yaradıcı yanaşmasına səbəb olar ki, bu da nəticə etibarilə məktəblərdə təhsilin səviyyəsinin yüksəlməsinə müsbət təsir göstərər.

Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində ümumtəhsil müəssisələri məzunlarının intellektual baxımdan daha hazırlıqlı hissəsi iştirak edir və onlar hər bir tələbə yeri uğrunda yüksək müsabiqədən keçməli olurlar. Qəbul imtahanları həm də gənclərin intellektinin formalaşmasında mühüm rol oynayan məktəb müəllimlərinin, bütövlükdə isə abituriyentlərin təmsil olunduğu bölgələrin pedaqoji ictimaiyyətinin, bir növ, hesabatıdır. Abituriyentləri (cari və əvvəlki illərin məzunları) ən yüksək və ən zəif nəticə göstərən bölgələrin siyahısı 1.66 və 1.67 saylı cədvəllərdə təqdim edilir.

Respublikanın müxtəlif bölgələrindən olan abituriyentlərin ali təhsil müəssisələrinə qəbulolma göstəriciləri üzrə aparılan statistik araşdırmalar göstərir ki, Ordubad rayonu abituriyentlərinin ali təhsil müəssisələrinə qəbulolma faizi daha yüksəkdir (bax: 1.66 saylı cədvəl). O da qeyd edilməlidir ki, son səkkiz ildə bir qayda olaraq, Bakı şəhərindən və Ordubad rayonundan olan abituriyentlərin qəbulolma faizi yüksək olub.

Son illər qəbul imtahanlarında iştirak edən və qəbul olan abituriyentlərin arasında kənd rayonlarından olan abituriyentlərin sayı artıb. Belə ki, 2011-ci ildə kənd rayonlarından olan abituriyentlərin sayı imtahanda iştirak edən abituriyentlər içərisində 52.76%, qəbul olan abituriyentlər içərisində isə 45.59% idisə, artıq 2015-ci ildə bu rəqəmlər, müvafiq olaraq, 54.67% və 50.05%-ə, 2016-cı ildə 55.51% və 52.13%, 2017-ci ildə 57.13% və 52.67%, 2018-ci ildə 58.18% və 54.15%-ə, 2019-cu ildə 57.82% və 54.38%-ə, 2020-ci ildə 59.64% və 56.84%-ə bərabər olmuşdur.

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ ABİTURİYENTLƏRİN QƏBULOLMA FAİZİNƏ GÖRƏ ƏN YÜKSƏK VƏ ƏN AŞAĞI NƏTİCƏ GÖSTƏRƏN BÖLGƏLƏR

ƏN YÜKSƏK NƏTİCƏ Cədvəl 1.66

№	B Ö L G Ə	Abit. sayı	Qəbul olub	Qəbul-olma faizi
1	Ordubad rayonu	300	177	59.00
2	Kəngərli rayonu	153	89	58.17
3	Qubadlı rayonu	625	340	54.40
4	Qax rayonu	389	208	53.47
5	Sumqayıt şəhəri	3177	1635	51.46
6	Ağstafa rayonu	630	320	50.79
7	Masallı rayonu	1134	566	49.91
8	Naxçıvan şəhəri	1023	507	49.56
9	Qazax rayonu	748	369	49.33
10	Bakı şəhəri	24580	12063	49.08

ƏN AŞAĞI NƏTİCƏ Cədvəl 1.67

№	B Ö L G Ə	Abit. sayı	Qəbul olub	Qəbul-olma faizi
1	Qusar rayonu	607	219	36.08
2	Goranboy rayonu	746	267	35.79
3	Daşkəsən rayonu	179	61	34.08
4	Ağsu rayonu	461	157	34.06
5	Xızı rayonu	124	42	33.87
6	Astara rayonu	720	243	33.75
7	Şabran rayonu	430	145	33.72
8	Tərtər rayonu	583	192	32.93
9	Samux rayonu	452	148	32.74
10	Lerik rayonu	407	119	29.24

Respublikanın böyük şəhərlərini təmsil edən abituriyentlərin (cari və əvvəlki illərin məzunları) ali təhsil müəssisələrinə qəbulolma göstəriciləri 1.68 saylı cədvəldə təqdim edilib. Abituriyentlərinin ali təhsil müəssisələrinə qəbulolma faizinə görə Sumqayıt şəhərinin nəticələri digər şəhərlərin göstəricilərindən yüksəkdir. İmtahanda iştirak edən hər 100 Sumqayıt məktəblisindən 51-52-si ali təhsil müəssisəsinə qəbul olub.

Naxçıvan şəhəri də abituriyentlərinin ali təhsil müəssisələrinə qəbulolma faizinə görə fərqlənir. Cədvəldən göründüyü kimi, imtahan iştirak edən hər 100 məktəblidən 49-50-si ali təhsil müəssisəsinə qəbul olub. Naxçıvan şəhərinin göstəricisinin bu dərəcədə yüksək olması daha çox bu şəhərin məktəblərini bitirən abituriyentlərin yerli ali təhsil müəssisələrinə üstünlük vermələri və bu ali təhsil müəssisələrinə istəyin digər regionlarda elə də yüksək olmadığından irəli gəlir. Əgər 165-166-cı səhifədəki 1.65 saylı cədvələ nəzər salsaq, Naxçıvan Universiteti, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutuna qəbul olanların müvafiq olaraq, 82.39, 77.38 və 75.51%-ni Naxçıvan MR-in məktəblilərinin təşkil etdiyini görərik. Respublikanın qalan ali təhsil müəssisələrinə (Azərbaycan Respublikası Dövlət Gömrük Akademiyası istisna olmaqla) qəbul olan abituriyentlər arasında Naxçıvan MR-dən olan abituriyentlərin payı 5%-dən çox olmayıb.

Bakı şəhərinin abituriyentləri ənənəvi olaraq qəbulolma göstəricisinə görə ən yaxşılardan olub və aşağıdakı cədvəldən də göründüyü kimi imtahanda iştirak edən hər 100 Bakı məktəblisindən 49-50-si ali təhsil müəssisəsinə qəbul olub.

Ötən ilə nəzərən, bu il böyük şəhərləri təmsil edən abituriyentlər seçməsində ali təhsil müəssisələrinə qəbul olanların nisbi çəkisi azalmışıdır. Azalma daha çox Gəncə şəhərinin göstəricilərində nəzərə çarpır. Belə ki, əgər 2019-cu ildə bu şəhərin hər yüz məzunundan 53-54-ü tələbə adını qazanmışdısa, bu il onların sayı artıq 38-39 nəfərdir.

Cədvəl 1.68

RESPUBLİKANIN BÖYÜK ŞƏHƏRLƏRİNİ TƏMSİL EDƏN ABİTURİYENTLƏRİN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBULOLMA GÖSTƏRİCİLƏRİ

№	Ş Ə H Ə R	Abituriyentlərin sayı			Qəbul olub			Qəbulolma faizi		
		Cəmi	Oğlan	Qız	Cəmi	Oğlan	Qız	Cəmi	Oğlan	Qız
1	Sumqayıt	3177	1650	1527	1635	772	863	51.46	46.79	56.52
2	Naxçıvan	1023	535	488	507	240	267	49.56	44.86	54.71
3	Bakı	24580	12995	11585	12063	5614	6449	49.08	43.20	55.67
4	Mingəçevir	863	442	421	396	169	227	45.89	38.24	53.92
5	Gəncə	3031	1515	1516	1172	532	640	38.67	35.12	42.22

Rayon təhsil şöbələri üçün maraqlı olacağı nəzərə alınaraq tam orta məktəbi 2020-ci ildə bitirmiş abituriyentlərin ali təhsil müəssisələrinə qəbulolma göstəriciləri haqqında məlumat 1.69 saylı cədvəldə təqdim olunur. Cədvəldən göründüyü kimi, Təhsil Nazirliyinin tabeliyində olan liseylər respublikanın digər ümumtəhsil müəssisələri ilə müqayisədə ənənəvi olaraq üstünlüyə malikdir. Qəbul imtahanlarında iştirak edən Təhsil Nazirliyinin tabeliyində olan liseylərin və özəl liseylərin abituriyentlərinin 69.43%-i ali təhsil müəssisələrinə qəbul olub. Ümumilikdə həm respublika üzrə, həm də respublikanın bölgələri içərisində bu göstərici üzrə ən yüksək nəticə Kəngərli rayonunun məzunlarına məxsusdur. Bu il Kəngərli rayonunun imtahanda iştirak edən hər 100 məzunundan 73-74 nəfəri ali təhsil müəssisələrinə qəbul olmuşdur.

1.69 saylı cədvəldə ali təhsil müəssisələrinə qəbul olan builki məzunların onların ümumi sayına nəzərən faizi də təqdim edilib. Bu göstərici üzrə cari ildə Naxçıvan şəhərinin, Qubadlı, Ordubad, Sədərək rayonlarının, Sumqayıt şəhərinin ümumtəhsil müəssisələri respublikanın digər bölgələrini təmsil edən məktəblərlə müqayisədə çox böyük üstünlüyə malikdir. Məktəbi 2020-ci ildə bitirən hər 100 nəfər məzundan Naxçıvan şəhəri üzrə 63-64-ü, Qubadlı və Ordubad rayonları üzrə 57-58-i, Sədərək rayonu və Sumqayıt şəhəri üzrə 56-57-si ali təhsil müəssisələrinə qəbul olmuşdur. Qeyd etmək lazımdır ki, böyük şəhərlərin ümumtəhsil müəssisələrinə nəzərən bölgə məktəblərinin nisbətən az sayda məzununun ali təhsil müəssisələrinə sənəd verməsi səbəbindən bölgə məzunlarının bütövlükdə qəbulolma faizi aşağı olub. Məsələn, Sabirabad rayonunun qəbul imtahanlarında iştirak edən məzunlarının ali təhsil müəssisələrinə qəbulolma faizi 48.02-yə bərabərdir, lakin qəbul imtahanlarında məzunların yalnız 53.75%-i iştirak etdiyindən bütövlükdə rayon məzunlarının ali təhsil müəssisələrinə qəbulolma faizi cəmi 25.81-ə bərabərdir.

Cədvəl 1.69

2020-Cİ İL MƏZUNLARININ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBULOLMA GÖSTƏRİCİLƏRİ

№	TƏHSİL ŞÖBƏSİ	Məzunların sayı	Abituriyentlərin		Qəbul olan abituriyentlərin		
			sayı	faizi (bölgənin məzunlarının sayına görə)	sayı	faizi (bölgənin abituriyentlərinin sayına görə)	faizi (bölgənin məzunlarının sayına görə)
1	Naxçıvan şəhəri	720	642	89.17	457	71.18	63.47
2	Qubadlı rayonu	554	529	95.49	319	60.30	57.58
3	Ordubad rayonu	278	244	87.77	160	65.57	57.55
4	Sədərək rayonu	71	61	85.92	40	65.57	56.34
5	Sumqayıt şəhəri	2703	2588	95.75	1514	58.50	56.01
6	Zəngilan rayonu	453	412	90.95	246	59.71	54.30
7	Liseylər (TN tabeli və özəl)	2143	1639	76.48	1138	69.43	53.10
8	Şərur rayonu	524	462	88.17	278	60.17	53.05
9	Şahbuz rayonu	155	135	87.10	80	59.26	51.61
10	Bakı şəhəri	19628	17976	91.58	9971	55.47	50.80
11	Abşeron rayonu	2397	2211	92.24	1186	53.64	49.48
12	Şuşa rayonu	176	161	91.48	87	54.04	49.43
13	Cəbrayıl rayonu	686	618	90.09	339	54.85	49.42
14	Kəngərli rayonu	159	105	66.04	77	73.33	48.43
15	Qazax rayonu	742	638	85.98	351	55.02	47.30
16	Babək rayonu	492	387	78.66	231	59.69	46.95
17	Qax rayonu	418	316	75.60	189	59.81	45.22
18	Ağstafa rayonu	681	531	77.97	304	57.25	44.64
19	Laçın rayonu	892	757	84.87	395	52.18	44.28
20	Mingəçevir şəhəri	795	707	88.93	351	49.65	44.15
21	Ağdam rayonu	1348	1088	80.71	587	53.95	43.55
22	Kəlbəcər rayonu	1292	1060	82.04	562	53.02	43.50
23	Şirvan şəhəri	585	474	81.03	254	53.59	43.42
24	Culfa rayonu	298	233	78.19	127	54.51	42.62
25	Gəncə şəhəri	2474	2219	89.69	1042	46.96	42.12
26	Siyəzən rayonu	356	283	79.49	149	52.65	41.85
27	Hacıqabul rayonu	340	276	81.18	142	51.45	41.76
28	Şamaxı rayonu	575	497	86.43	240	48.29	41.74
29	Xocalı rayonu	121	111	91.74	50	45.05	41.32
30	Qəbələ rayonu	1146	882	76.96	469	53.17	40.92
31	İsmayıllı rayonu	715	551	77.06	285	51.72	39.86
32	Füzuli rayonu	1179	968	82.10	455	47.00	38.59
33	Masallı rayonu	1352	936	69.23	518	55.34	38.31
34	Oğuz rayonu	431	351	81.44	165	47.01	38.28
35	Salyan rayonu	972	673	69.24	372	55.27	38.27
36	Naftalan şəhəri	68	65	95.59	26	40.00	38.24
37	Balakən rayonu	654	509	77.83	240	47.15	36.70

Cədvəl 1.69 (ardı)

№	TƏHSİL ŞÖBƏSİ	Məzunların sayı	Abituriyentlərin		Qəbul olan abituriyentlərin		
			sayı	faizi (bölgənin məzunlarının sayına görə)	sayı	faizi (bölgənin abituriyentlərinin sayına görə)	faizi (bölgənin məzunlarının sayına görə)
38	Bərdə rayonu	1325	1013	76.45	482	47.58	36.38
39	Şəki rayonu	1716	1338	77.97	624	46.64	36.36
40	Qobustan rayonu	259	200	77.22	94	47.00	36.29
41	Quba rayonu	1259	916	72.76	449	49.02	35.66
42	Gədəbəy rayonu	702	458	65.24	250	54.59	35.61
43	Tovuz rayonu	1480	1061	71.69	521	49.10	35.20
44	Neftçala rayonu	594	429	72.22	209	48.72	35.19
45	İmişli rayonu	920	602	65.43	321	53.32	34.89
46	Şəmkir rayonu	1632	1214	74.39	569	46.87	34.87
47	Zaqatala rayonu	897	585	65.22	310	52.99	34.56
48	Ağcabədi rayonu	1183	831	70.25	403	48.50	34.07
49	Zərdab rayonu	419	307	73.27	141	45.93	33.65
50	Beyləqan rayonu	710	540	76.06	234	43.33	32.96
51	Göygöl rayonu	665	519	78.05	219	42.20	32.93
52	Biləsuvar rayonu	795	593	74.59	261	44.01	32.83
53	Lənkəran rayonu	1659	1207	72.75	537	44.49	32.37
54	Ağdaş rayonu	799	639	79.97	258	40.38	32.29
55	Kürdəmir rayonu	903	566	62.68	288	50.88	31.89
56	Göyçay rayonu	929	679	73.09	290	42.71	31.22
57	Xocavənd rayonu	76	71	93.42	23	32.39	30.26
58	Goranboy rayonu	813	590	72.57	244	41.36	30.01
59	Xızı rayonu	130	89	68.46	38	42.70	29.23
60	Cəlilabad rayonu	1577	994	63.03	460	46.28	29.17
61	Ağsu rayonu	457	327	71.55	131	40.06	28.67
62	Tərtər rayonu	591	424	71.74	169	39.86	28.60
63	Ucar rayonu	602	421	69.93	171	40.62	28.41
64	Yevlax rayonu	1090	695	63.76	308	44.32	28.26
65	Xaçmaz rayonu	1504	999	66.42	409	40.94	27.19
66	Astara rayonu	816	588	72.06	220	37.41	26.96
67	Samux rayonu	465	348	74.84	125	35.92	26.88
68	Yardımlı rayonu	478	280	58.58	128	45.71	26.78
69	Lerik rayonu	395	290	73.42	105	36.21	26.58
70	Şabran rayonu	491	333	67.82	128	38.44	26.07
71	Daşkəsən rayonu	205	124	60.49	53	42.74	25.85
72	Sabirabad rayonu	1174	631	53.75	303	48.02	25.81
73	Saatlı rayonu	675	412	61.04	165	40.05	24.44
74	Qusar rayonu	817	489	59.85	195	39.88	23.87
75	İdman liseyləri	67	60	89.55	5	8.33	7.46
CƏMİ		**79842**	**64157**	**80.35**	**33236**	**51.80**	**41.63**

Böyük şəhərlərdən və kənd rayonlarından olan abituriyentlərin istəklərində oxşar cəhətlər olsa da, bilikləri fərqlidir. Bu fərq özünü ən çox I mərhələdə ingilis dili, II mərhələdə riyaziyyat fənlərinə verilən cavablarda göstərir

Respublikanın böyük şəhərlərindən və kənd rayonlarından olan abituriyentlərin ayrı-ayrı ixtisas qruplarına meyilləri və fənlər üzrə test suallarına cavabvermə göstəricilərinin hər biri ayrılıqda araşdırılıb. Nəticələrə əsasən hər iki kontingentin ixtisas qruplarına olan istək və meyilləri arasında fərq, demək olar ki, yox dərəcəsindədir. O mənada ki, həm böyük şəhərlərin, həm də kənd rayonlarının oğlan abituriyentləri riyaziyyat və mühəndislik ixtisasları qrupuna, qız abituriyentləri isə humanitar və pedaqoji ixtisaslar qrupuna daha çox üstünlük verirlər. Lakin bu iki kontingentdən olan abituriyentlərin imtahan fənləri üzrə test tapşırıqlarına cavablarında ciddi fərq vardır. Böyük şəhərlərdən olan abituriyentlərin hazırlıq səviyyəsi kənd rayonlarından olan abituriyentlərin hazırlıq səviyyəsindən yüksəkdir. Bu üstünlük özünü, ənənəvi olaraq, daha çox ingilis dili və riyaziyyat fənləri üzrə hazırlıqda göstərir. Bu müqayisənin əyani olması üçün aşağıdakı diaqramları (şəkil 1.24) təqdim edirik. Diaqramlardan da aydın görünür ki, tarix fənni istisna olmaqla digər bütün fənlər üzrə şəhərlərdən olan abituriyentlərin səviyyəsi yüksəkdir. Bu, şübhəsiz, şəhər məktəblərinin maddi-texniki bazasının, təlim-tədris texnologiyasının, informasiya təminatının kənd məktəbləri ilə müqayisədə xeyli üstün olması və digər obyektiv amillərlə bağlıdır. Bununla belə, son illər dövlət xətti ilə, həmçinin Heydər Əliyev Fondu tərəfindən respublikanın müxtəlif bölgələrində, əsasən də kənd rayonlarında müasir standartlara cavab verən məktəblərin inşa edilməsi, onların maddi-texniki bazasının və müəllim potensialının gücləndirilməsi şəhər və rayon abituriyentlərinin bilikləri arasındakı fərqin azalmasına təsir göstərir.

BÖYÜK ŞƏHƏRLƏRDƏN VƏ KƏND RAYONLARINDAN OLAN ABİTURİYENTLƏRİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ DÜZGÜN CAVABLARININ MÜQAYİSƏSİ DİAQRAMI



Şəkil 1.24

Məcburi köçkün ailələrindən olan abituriyentlərin imtahan nəticələri ilbəil yaxşılaşır. Onların təhsil problemlərinin həlli diqqət mərkəzindədir

Dövlət İmtahan Mərkəzi məcburi köçkün və qaçqın ailələrindən olan şagirdlərin və abituriyentlərin qəbul imtahanlarına hazırlığına kömək göstərilməsini həmişə diqqət mərkəzində saxlayır. Hər il onlarla görüşlər təşkil olunur, peşəyönüm istiqamətli söhbətlər aparılır, onları imtahanların texnologiyası ilə tanış etmək məqsədilə pulsuz sınaq imtahanları keçirilir. Onlara dərsliklər, dərs vəsaitləri, "Abituriyent" jurnalları, həmçinin imtahanlarda istifadə olunmuş test kitabçaları hədiyyə olunur. Bütün bunlar və digər amillər məcburi köçkün və qaçqın ailəsindən olan abituriyentlərin təhsillərini davam etdirmək istəklərinə və imtahan göstəricilərinə müsbət təsir göstərir. Bu il ali təhsil müəssisələrinə sənəd verən 12759 məzundan (11241 abituriyent və 1518 subbakalavr) 5742-si (5109 abituriyent və 633 subbakalavr) tələbə adı qazanıb. Məcburi köçkün olan abituriyentlərin ali təhsil müəssisələrinin nüfuzlu ixtisaslarına qəbulolma faizi də artıb.

1.1 Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında tələbə qəbulu

Azərbaycan Respublikası Prezidentinin "Ali təhsil müəssisələrində yeni maliyyələşdirmə mexanizminin tətbiq edilməsi barədə" 10 fevral 2010-cu il tarixli Fərmanına əsasən 2010/2011-ci tədris ilindən başlayaraq gənclərin Azərbaycan Respublikasının ali təhsil müəssisələrində həm dövlət sifarişi, həm də ödənişli əsaslarla təhsil alması üçün qəbul aparılır. Dövlət sifarişi əsasında təhsil adambaşına maliyyələşdirmə prinsipi ilə həyata keçirilir. Bu o deməkdir ki, müəyyən ixtisaslar üzrə mütəxəssis hazırlığını dövlət sifarişinə əsasən yerinə yetirən təhsil müəssisələrinə maliyyə vəsaitləri tələbələrin sayından asılı olaraq ayrılır.

Ali təhsildə adambaşına maliyyələşdirmə mexanizmi dünyanın inkişaf etmiş ölkələrində tətbiq olunan mütərəqqi metodlardandır. Belə bir mexanizmin tətbiqi ali təhsildə keyfiyyətin yüksəlməsinə, ali təhsil müəssisələri arasında dövlət sifarişi əsasında təhsil alan tələbə uğrunda mübarizə və rəqabətin yaranmasına xidmət edir.

Tətbiq olunan qaydaya əsasən mülkiyyət formasından asılı olmayaraq qanunvericiliyə uyğun fəaliyyət göstərən bütün ali təhsil müəssisələrinə dövlət sifarişi ilə mütəxəssis hazırlığında iştirak etmək imkanı yaradılmışdır. Qeyd etmək lazımdır ki, qəbul imtahanında yüksək nəticə əldə edərək dövlət sifarişi əsasında dövlət, yaxud özəl ali təhsil müəssisəsinə qəbul olan abituriyentin təhsili üçün nəzərdə tutulan vəsait həmin ali təhsil müəssisəsinin hesabına köçürülür.

2020/2021-ci tədris ili üçün ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında 21370 nəfər (əlavə olaraq 105 yer müsabiqədənkənar) tələbə qəbulu nəzərdə tutulmuşdu. Bu yerlərin 42.70%-i I qrupun, 19.13%-i II qrupun, 19.74%-i III qrupun, 11.70%-i IV qrupun, 6.73%-i V qrupun payına düşürdü. Ötən illə müqayisədə cari ildə dövlət büdcəsinin vəsaiti hesabına tələbə qəbuluna ayrılan yerlərin sayı 8.24% (1626 yer), ümumi qəbul planındakı payı isə 41.34%-dən 44.04%-dək artmışdır. Ayrılmış yerlərin sayındakı dəyişiklik ixtisas qrupları üzrə müxtəlif olmuşdur. Cari ildə II, III, IV və V qruplara daxil olan ixtisaslar üçün ayrılan yerlər, müvafiq olaraq, 31.10, 12.63, 10.62 və 0.07% artmış, I qrupa daxil olan ixtisaslar üçün isə 0.63% azalmışdır.

Ümumiyyətlə, son iki ildə dövlət sifarişi üzrə ayrılan yerlərdə kəskin artım müşahidə olunur. Belə ki, 2018-ci illə müqayisədə 2020-ci ildə dövlət sifarişi üzrə ayrılan yerlərin sayı 81.02% (9565 yer) artmışdır (1.1.1 saylı şəklə bax).



Şəkil 1.1.1

Bu il 30 mülki dövlət və 11 özəl ali təhsil müəssisəsi dövlət sifarişinin yerinə yetirilməsində iştirak etmişdir. Ali təhsil müəssisələri arasında dövlət sifarişi əsasında ən çox mütəxəssis hazırlamaq imkanına Bakı Dövlət Universiteti (5286 yer), Azərbaycan Dövlət Pedaqoji Universiteti (3403 yer) və Azərbaycan Dövlət İqtisad Universiteti (3250 yer) malik olmuşdur.

Dövlət sifarişi ilə qəbul aparılan yerlər üzrə müsabiqə Azərbaycan və rus bölmələri ilə birgə aparılmışdır. Nəticədə, Azərbaycan bölməsindən 56096, rus bölməsindən isə 5002 nəfər abituriyent bu yerlərin müsabiqəsində iştirak etmək hüququ qazanmışdı. Ümumilikdə isə dövlət sifarişi ilə qəbul aparılan yerlərin müsabiqəsində 61098 nəfər abituriyent və 14158 nəfər subbakalavr iştirak etmək hüququ qazanmışdı. Abituriyentlərin 25.17%-i (15380 nəfər) I qrupun, 8.77%-i (5358 nəfər) II qrupun, 25.16%-i (15370 nəfər) III qrupun, 6.15%-i (3758 nəfər) IV qrupun, 74.12%-i (45288 nəfər) V qrupun, subbakalavrların 31.89%-i (4515 nəfər) I qrupun, 33.90%-i (4800 nəfər) II qrupun, 15.38%-i (2178 nəfər) III qrupun, 9.10%-i (1289 nəfər) IV qrupun, 11.96%-i (1693 nəfər) V qrupun payına düşürdü.

Ötən ildəkindən fərqli olaraq cari ildə də V ixtisas qrupuna abituriyentlərin maraqları kəskin şəkildə yüksəlib. Bu daha çox Koronavirus (COVİD-19) pandemiyası ilə əlaqədar olaraq bir sıra xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə qabiliyyət imtahanlarının ləğv edilməsi ilə bağlıdır. Bununla yanaşı, V ixtisas qrupuna istəyin bu dərəcədə yüksək olması daha çox cari ilin məzunlarına görədir. Bildiyimiz kimi, cari ilin məzunlarının V ixtisas qrupu üzrə ixtisasların müsabiqəsində buraxılış imtahanının nəticələri əsasında iştirak etmək imkanı olmuşdur və onlar əlavə imtahan verməmişlər. Həmçinin, cari ilin məzunları ali təhsil müəssisələrinə qəbul kampaniyasında ilk dəfə iştirak etdikləri üçün onların iştirakı dövlət büdcəsi tərəfindən maliyyələşdirilmişdir. Qeyd olunan səbəblərə görə cari ilin məzunları ərizələrində həm də V ixtisas qrupunu seçmişlər, baxmayaraq ki, faktiki olaraq onların bir çoxunun bu qrupa aid olan ixtisaslara maraqları çox az olub və yaxud heç olmayıb. Belə ki, müsabiqədə iştirak etmək hüququ qazanan abituriyentlər 74.12% V ixtisas qrupunun payına düşsə də, beləliklə, ixtisas seçimində iştirak edən abituriyentlər arasında cəmi 29.08% təşkil etmişdir.

Dövlət sifarişi ilə qəbul aparılan yerlər üzrə müsabiqədə iştirak etmək hüququ qazanan abituriyentlərdən 37444 nəfər (61.29%), subbakalavrlardan 9806 nəfər (69.26%) bu yerləri öz ərizələrində qeyd etmişdi. Ötən illə müqayisədə abituriyentlər arasında müsabiqə iştirakçılarının sayı 31.35% çox olmuşdur. Abituriyentlərdən müsabiqə iştirakçılarının 92.50%-i (34637 nəfər) Azərbaycan, 7.50%-i (2807 nəfər) isə rus bölməsini təmsil etmişdir. Azərbaycan bölməsində abituriyentlərin 33.04%-i I qrupun, 11.01%-i II qrupun, 24.98%-i III qrupun, 8.05%-i IV qrupun, 28.81%-i isə V qrupun dövlət sifarişli yerlərini öz ərizələrində qeyd etmişdi. Rus bölməsində bu göstəricilər, müvafiq olaraq, 35.27%, 11.19%, 19.20%, 8.41% və 32.42%-dir. Ən yüksək müsabiqə vəziyyəti V qrupda (1 yerə 5.9 ərizə), ən aşağı müsabiqə vəziyyəti isə II qrupda (1 yerə 0.9 ərizə) müşahidə edilmişdir.

Təhlil göstərir ki, ödənişli ixtisaslar üzrə müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin 97.27%-i dövlət sifarişi əsasında qəbul aparılan yerlərin müsabiqəsində iştirak etmək hüququ qazanmışdır. Qeyd edək ki, cari ildə dövlət sifarişi və ödənişli yerlər üzrə qoyulan müsabiqə şərtləri eyni olmuşdur. Bu göstərici I, IV və V qruplar üzrə 100.00%, II qrup üzrə 69.74%, III qrup üzrə isə 85.54% təşkil etmişdir. II və III qruplar üzrə dövlət sifarişi və ödənişli yerlər üzrə müsabiqə şərtlərinin eyni olmasına baxmayaraq, göstəricilərin 100%-dən az olmasının səbəbi bəzi ixtisasların ödənişli yerləri üzrə müsabiqə şərtlərinin müsabiqəyə buraxılmaq üçün qoyulan şərtlərdən aşağı (bu ixtisasların ödənişli yerləri üzrə müsabiqədə iştirak etmək üçün tələb olunan minimal bal 150 olub) olması ilə əlaqədardır. I və IV ixtisas qruplarında da bəzi ixtisasların müsabiqəsində iştirak üçün tələb olunan minimal bal 150 olub, lakin bu müsabiqə şərti həm də, həmin ixtisasların dövlət sifarişi üzrə ayrılan yerlərinə də şamil olunmuşdur. Bu hesabla əlavə olaraq I qrupda 4991 nəfərin, IV qrupda isə 666 nəfərin təkcə bu ixtisasların dövlət sifarişli yerlərinin müsabiqəsində iştirak etmək hüququ olmuşdur. Bu abituriyentlər nəzərə alınmasa idi, o zaman təhsili ödənişli əsaslarla olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin I qrup üzrə yalnız 67.55%-nin, IV qrup üzrə 82.28%-nin, bütövlükdə isə 94.63%-nin dövlət sifarişi əsasında qəbul aparılan yerlərin müsabiqəsində iştirak etmək hüququ olardı.

Dövlət sifarişi əsasında qəbul aparılan yerlərin, bu yerlər uğrunda müsabiqədə iştirak etmək hüququ qazanan və müsabiqədə iştirak edən abituriyentlərin ixtisas qrupları üzrə paylanması və qruplarda yaranan müsabiqə vəziyyəti 1.1.1 saylı cədvəldə təqdim edilir.

Cədvəl 1.1.1

DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏR ÜZRƏ MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN ƏRİZƏLƏRİNİN SAYI VƏ MÜSABİQƏ VƏZİYYƏTİ

№	İxtisas qrupu	Dövlət sifarişi	Müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin sayı			Müsabiqədə iştirak edən abituriyentlərin sayı			Müsabiqə vəziyyəti
			Azərb. bölməsi	Rus bölməsi	Bütöv-lükdə	Azərb. bölməsi	Rus bölməsi	Bütöv-lükdə	
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	9124[1]	13986	1394	15380	11445	990	12435	1.164
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	4089	4925	433	5358	3814	314	4128	0.937
III	Humanitar, pedaqogika ixtisasları	4219	14408	962	15370	8653	539	9192	1.770
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	2500[2]	3306	452	3758	2787	236	3023	1.021
V	İncəsənət, musiqi, idman ixtisasları	1438	42160	3128	45288	9979	910	10889	5.927
C Ə M İ		**21370**	**56096**	**5002**	**61098**	**34637**	**2807**	**37444**	**1.526**

1) I qrupda əlavə olaraq maksimum 205 yer Azərbaycan Dövlət Aqrar Universitetinin, Naxçıvan Dövlət Universitetinin və Lənkəran Dövlət Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.

2) IV qrupda əlavə olaraq maksimum 150 yer Azərbaycan Dövlət Aqrar Universitetinin, Naxçıvan Dövlət Universitetinin və Lənkəran Dövlət Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.

Plan yerləri və müsabiqədə iştirak edən abituriyentlərin sayının 1992-2020-ci illər üzrə dinamikasının (şəkil 1.1.3) təhlili göstərir ki, 1996-cı ildən başlayaraq dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən yerlər üzrə qəbul planı 2019-cu ilə kimi, demək olar ki, sabit qalıb. 2019-cu ildə isə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən yerlərin sayında kəskin artım müşahidə olunur. 2020-ci ildə də bu tendensiya davam etmiş və ötən illə müqayisədə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşən yerlərin sayı artmışdır.

Müsabiqə iştirakçılarının sayında illər ərzində böyük dəyişikliklər baş verib. Bu dəyişikliklər, bir tərəfdən, məktəb məzunlarının sayı və onların qəbul imtahanlarında nümayiş etdirdikləri bilik səviyyəsi ilə bağlıdırsa, digər tərəfdən, ayrı-ayrı illərdə DİM-in müsabiqə şərtlərində apardığı təkmilləşdirmələrlə bağlıdır. Test üsulu ilə qəbul aparılan ilk illərdə dəyişikliklər daha çox olub. Ən ciddi dəyişiklik 2002 və 2010-cu illərə təsadüf etmişdir ki, bu da 2002-ci ildə respublikada məktəb məzunlarının sayının kəskin azalması, 2010-cu ildə isə ali təhsil müəssisələrində yeni maliyyələşdirmə mexanizminin tətbiq edilməsi ilə əlaqədardır.

1992-2020-Cİ İLLƏRDƏ QƏBUL PLANI VƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYININ DİNAMİKASI (DÖVLƏT BÜDCƏSİNİN VƏSAİTİ HESABINA MALİYYƏLƏŞƏN YERLƏR ÜZRƏ MÜSABİQƏ ŞƏRTLƏRİNİ ÖDƏYƏN ABİTURİYENTLƏR)



Şəkil 1.1.3

İxtisas qrupları üzrə builki qəbul planı, abituriyent ərizələrinin sayı və müsabiqə vəziyyətinin ötən ilin müvafiq göstəriciləri ilə müqayisəsinin rəqəmlərlə ifadəsi 1.1.2 saylı cədvəldə təqdim edilir. Ötən illə müqayisədə cari ildə ərizələrin sayı 31.35% artıb.

Cari ildə dövlət büdcəsi vəsaiti hesabına maliyyələşən yerlərin artmasına baxmayaraq, bu yerlərə müsabiqə də 20.63% artmışdır. Bunun əsas səbəbi 2019-cu illə müqayisədə 2020-ci ildə dövlət sifarişi üzrə ayrılan yerlərə nisbətən ərizələrin daha çox artmasıdır. Hər bir qrup üzrə ayrılıqda baxdıqda müsabiqə vəziyyətinin II qrupdan başqa digər qruplarda artdığı müşahidə olunur.

2020-ci ildə dövlət sifarişi üzrə ayrılan yerlərin müsabiqəsində iştirak etmək üçün 9806 subbakalavr ərizə verib. Onların 35.98%-i (3528 nəfər) I qrupa, 26.58%-i (2606 nəfər) II qrupa, 13.92%-i (1365 nəfər) III qrupa, 11.42%-i (1120 nəfər) IV qrupa, 14.08%-i (1381 nəfər) isə V qrupa ərizə verib.

Cədvəl 1.1.2

2019-CU VƏ 2020-Cİ İLLƏR ÜZRƏ QƏBUL PLANI VƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYININ MÜQAYİSƏSİ (DÖVLƏT BÜDCƏSİNİN VƏSAİTİ HESABINA MALİYYƏLƏŞƏN YERLƏR ÜZRƏ MÜSABİQƏ ŞƏRTLƏRİNİ ÖDƏYƏN ABİTURİYENTLƏR)

İxtisas qrupu	Dövlət sifarişi (illər üzrə)			Ərizə vermiş abituriyentlərin sayı (illər üzrə)			Müsabiqə vəziyyəti (illər üzrə)		
	2019	2020	fərq, %-lə	2019	2020	fərq, %-lə	2019	2020	fərq, %-lə
I	9182	9124	-0.63	9605	12435	+29.46	0.879	1.164	+32.42
II	3119	4089	+31.10	4409	4128	-6.37	1.316	0.937	-28.80
III	3746	4219	+12.63	7465	9192	+23.13	1.713	1.770	+3.33
IV	2260	2500	+10.62	2786	3023	+8.51	0.973	1.021	+4.93
V	1437	1438	+0.07	4446	10889	+144.92	2.946	5.927	+101.19
CƏMİ	**19744**	**21370**	**+8.24**	**28508**	**37444**	**+31.35**	**1.265**	**1.526**	**+20.63**

("-" ötən illə müqayisədə azalmanı, "+" isə artmanı göstərir)

Builki qəbul imtahanlarının nəticələrinə əsasən ali təhsil müəssisələrinin dövlət sifarişi əsasında ayrılan 21370 plan yerinə 20711 nəfər qəbul olmuş, dövlət sifarişi 96.92% yerinə yetirilmişdir. Qəbul olanlardan 146 nəfəri Azərbaycan Dövlət Aqrar Universiteti, Naxçıvan Dövlət Universiteti və Lənkəran Dövlət Universiteti üçün nəzərdə tutulmuş əlavə yerlərə qəbul olmuşdur. Dövlət sifarişli yerlər üzrə müsabiqədə I ixtisas qrupundan 15963 nəfər (12435 abituriyent, 3528 subbakalavr) iştirak etmişdir. Onların Azərbaycan bölməsində 54.52%-i, rus bölməsində isə 59.58%-i qəbul olmuş, dövlət sifarişi 96.04% yerinə yetirilmişdir. II ixtisas qrupu üzrə müsabiqədə 6734 nəfər (4128 abituriyent, 2606 subbakalavr) iştirak etmişdir. Onların Azərbaycan bölməsində 59.42%-i, rus bölməsində isə 60.18%-i qəbul olmuş, dövlət sifarişi 97.95% yerinə yetirilmişdir. III ixtisas qrupundan müsabiqədə 10557 nəfər (9192 abituriyent, 1365 subbakalavr) iştirak etmişdir. Onların Azərbaycan bölməsində 40.31%-i, rus bölməsində isə 31.78%-i qəbul olmuş, dövlət sifarişi üzrə ayrılan yerlər 99.69% dolmuşdur. IV ixtisas qrupundan müsabiqədə 4143 nəfər (3023 abituriyent, 1120 subbakalavr) iştirak etmişdir. Onların Azərbaycan bölməsində 57.26%-i, rus bölməsində isə 42.18%-i qəbul olmuş, dövlət sifarişi 93.12% yerinə yetirilmişdir. V ixtisas qrupundan müsabiqədə 12270 nəfər (10889 abituriyent, 1381 subbakalavr) iştirak etmişdir. Onların Azərbaycan bölməsində 10.88%-i, rus bölməsində isə 18.81%-i qəbul olmuş, dövlət sifarişi üzrə ayrılan yerlər 97.98% dolmuşdur.

Dövlət sifarişinin ən az yerinə yetirilmə faizi IV ixtisas qrupunda olmuşdur (93.12%). I, II, III və V ixtisas qruplarında plan yerlərinin dolma göstəricisi 96%-dən yuxarıdır. Dövlət sifarişi əsasında ayrılan yerlər üzrə qəbulun nəticələri 1.1.3 saylı cədvəldə təqdim edilir.

Cədvəl 1.1.3

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏRƏ QƏBUL OLANLARIN SAYI HAQQINDA MƏLUMAT

İxtisas qrupu	Dövlət sifarişi üzrə ayrılan yerlərin sayı	Qəbul olanların sayı (ADAU, NDU və LDU üçün ayrılmış əlavə yerlər də nəzərə alınmaqla)			Qəbulolma faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Cəmi	
I	9124	7984 (8060)	703	8687 (8763)	95.21 (96.04)
II	4089	3739	266	4005	97.95
III	4219	4022	184	4206	99.69
IV	2500	2135 (2204)	123 (124)	2258 (2328)	90.32 (93.12)
V	1438	1235	174	1409	97.98
CƏMİ	**21370**	**19115 (19260)**	**1450 (1451)**	**20565 (20711)**	**96.23 (96.92)**

Bütün ixtisas qrupları üzrə bütövlükdə götürdükdə, qəbul olanların 92.99%-i (19260 nəfər) Azərbaycan, 7.01%-i (1451 nəfər) rus bölməsinə aiddir. 2019-cu ildə bu göstəricilər, müvafiq olaraq, 92.88 faiz (16461 nəfər) və 7.12 faiz (1261 nəfər) təşkil etmişdi. Bölmələr üzrə son on iki ilin qəbul imtahanlarının nəticələrinin təhlilindən aydın olur ki, dövlət vəsaiti hesabına maliyyələşdirilən yerlərə müsabiqənin Azərbaycan və rus bölmələri ilə birgə aparılması, zəif müsabiqə vəziyyəti yaranan rus bölməsinə qəbul olanların faizinin azalmasına səbəb olmuşdur. Belə ki, bu illər ərzində Azərbaycan bölməsinə qəbul olanların faizi 82.65-dən 92.99-ə qədər artmış, rus bölməsində isə 17.35%-dən 7.01%-ə qədər azalmışdır.

Ali təhsil müəssisələrinə qəbul olan oğlan və qız abituriyentlərin sayları arasında fərq kiçikdir. Onların 47.11%-ni (17228 nəfər) oğlanlar, 52.89%-ni (19341 nəfər) qızlar təşkil edib. Dövlət sifarişi üzrə ali təhsil müəssisələrinə qəbul olanların isə 51.40%-ni (10240 nəfər) qız və 48.60%-ni (9683 nəfər) oğlan abituriyentlər təşkil edib. Subbakalavrlar arasında qəbul olanların 38.50%-ni (1994 nəfər) oğlanlar, 61.50%-ni (3185 nəfər) qızlar təşkil edib. Dövlət sifarişi üzrə ayrılan yerlərə qəbul olanlar arasında isə oğlanların payı 38.83% (306 nəfər), qızların payı isə 61.17% (482 nəfər) olub.

Cari ilin məzunları arasında da analoji vəziyyət müşahidə olunur. Belə ki, ali təhsil müəssisələrinə ümumilikdə qəbul olanların 47.59%-ni (15816 nəfər) oğlanlar, 52.41%-ni (17420 nəfər) qızlar, dövlət sifarişi əsasında qəbul olanların isə 48.85%-ni (9201 nəfər) oğlanlar, 51.15%-ni (9634 nəfər) qızlar təşkil edib.

Məlum olduğu kimi 2020-ci ildə dövlət sifarişi üzrə ayrılan yerlərin sayı 2019-cu illə müqayisədə artmış və ümumi qəbul planındakı payı 41.34%-dən 44.04%-ə qalxmışdır. Bu isə öz növbəsində bu yerlərə qəbul olanların da sayının artmasına gətirib çıxarıb. 1.1.4 və 1.1.5 saylı şəkillərin müqayisə etdikdə görürük ki, 2020-ci ildə dövlət sifarişi əsasında qəbul olanların ümumi qəbul olanların içərisindəki payı 44.90%-dən 54.48%-dək artıb.

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TƏHSİL FORMALARI ÜZRƏ PAYLANMASI

2019-cu il	**2020-ci il**
	
Şəkil 1.1.4	Şəkil 1.1.5

1.1.6 saylı şəkildə 2019 və 2020-ci illərdə ali təhsil müəssisələrinə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən və ödənişli təhsil formaları üzrə (xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla) qəbul olmuş abituriyentlərin imtahan ballarının paylanma diaqramları ixtisas qrupları ardıcıllığında təqdim edilmişdir. Diaqramların müqayisəli təhlili zamanı ötən ilə nəzərən 500-dən az bal toplayanlar seçməsində dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən yerlərə qəbul olan abituriyentlərin nisbi çəkisinin artması müşahidə olunur. Bunun başlıca səbəbi, həm ötən illə müqayisədə dövlət sifarişi üzrə ayrılan yerlərin artması, həm də yüksək hazırlıqlı abituriyentlərin seçimində təhsil haqqının dövlət büdcəsinin vəsaiti hesabına və yaxud öz hesabına olmasından asılı olmayaraq, ali təhsil müəssisələrinin və ixtisasların nüfuzu olmuşdur. Məsələn, I və II ixtisas qruplarında yüksək hazırlıqlı abituriyentlər Bakı Ali Neft Məktəbi və ADA Universitetinin ödənişli ixtisaslarını da öz ərizələrində ilk yerlərdə qeyd etmişlər.

2019 və 2020-ci İLLƏRDƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ VƏ ÖDƏNİŞLİ TƏHSİL FORMALARI ÜZRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN İMTAHAN BALLARININ PAYLANMA DİAQRAMLARI

(ixtisas qrupları üzrə, xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)



Şəkil 1.1.6

Ayrı-ayrı ali təhsil müəssisələrinin dövlət sifarişi ilə tələbə qəbulu imkanları (təhsil müəssisəsinin inhisarında olan ixtisaslar və digər ali təhsil müəssisələri ilə birgə qəbul aparılan ixtisaslar üzrə) və bu imkanlardan istifadə edilməsini əks etdirən göstəricilər (qəbulolma faizləri) 1.1.4 saylı cədvəldə təqdim edilir.

Cədvəl 1.1.4

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN DÖVLƏT SİFARİŞİ İLƏ TƏLƏBƏ QƏBULU İMKANLARI VƏ QƏBULUN NƏTİCƏLƏRİ

(subbakalavrlar istisna olmaqla)

№	Ali təhsil müəssisəsi	Dövlət sifarişi üzrə ali təhsil müəssisəsinin kadr hazırlığı imkanı və qəbulun nəticəsi					o cümlədən, dövlət sifarişi üzrə kadr hazırlığı üçün ali təhsil müəssisəsinin				
							inhisarında olan faktiki		digər ali təhsil müəssisələri ilə rəqabət apardığı faktiki		
		yerlərin sayı	bütün ali təhsil müəssisələri üzrə istifadə olunmayan yerlərin sayı	faktiki yerlərin sayı	faktiki yerlər üzrə qəbul olanların sayı	faktiki yerlər üzrə qəbulolma faizi	yerlərin sayı	yerlərin faizi	yerlərin sayı	yerlər üzrə qəbul olanların sayı	yerlər üzrə qəbulolma faizi
1	Bakı Dövlət Universiteti	5286	16	5270	3653	69.32	967	18.35	4303	2686	62.42
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	3058	6	3052	2282	74.77	319	10.45	2733	1963	71.83
3	Azərbaycan Texniki Universiteti	2115	68	2047	953	46.56	102	4.98	1945	851	43.75
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	1890	132	1758	894	50.85	373	21.22	1385	521	37.62
5	Azərbaycan Tibb Universiteti	838	59	779	756	97.05	673	86.39	106	83	78.30
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	3403	2	3401	1797	52.84	39	1.15	3362	1758	52.29
7	Azərbaycan Dövlət İqtisad Universiteti	3250	38	3212	2256	70.24	35	1.09	3177	2221	69.91
8	Azərbaycan Dillər Universiteti	1155	2	1153	847	73.46	0	0.00	1153	847	73.46
9	Bakı Slavyan Universiteti	1100	1	1099	150	13.65	0	0.00	1099	150	13.65
10	Bakı Mühəndislik Universiteti	1210	3	1207	694	57.50	31	2.57	1176	663	56.38
11	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	408	0	408	289	70.83	0	0.00	408	289	70.83
12	Bakı Musiqi Akademiyası	152	0	152	125	82.24	5	3.29	147	120	81.63
13	Azərbaycan Milli Konservatoriyası	192	0	192	117	60.94	16	8.33	176	101	57.39
14	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	581	21	560	285	50.89	84	15.00	476	201	42.23
15	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	299	0	299	179	59.87	59	19.73	240	120	50.00
16	Azərbaycan Turizm və Menecment Universiteti	470	9	461	171	37.09	0	0.00	461	171	37.09
17	Bakı Xoreoqrafiya Akademiyası	50	0	50	32	64.00	30	60.00	20	2	10.00
18	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası	615	34	581	476	81.93	273	46.99	308	203	65.91
19	Milli Aviasiya Akademiyası	407	2	405	303	74.81	108	26.67	297	195	65.66
20	Azərbaycan Dövlət Dəniz Akademiyası	200	14	186	186	100.0	161	86.56	25	25	100.00
21	Bakı Ali Neft Məktəbi	136	0	136	134	98.53	0	0.00	136	134	98.53
22	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	154	0	154	118	76.62	0	0.00	154	118	76.62
23	Naxçıvan Dövlət Universiteti	1200	2	1198	446	37.23	2	0.17	1196	444	37.12
24	Naxçıvan Müəllimlər İnstitutu	430	0	430	41	9.53	0	0.00	430	41	9.53
25	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	1560	222	1338	754	56.35	436	32.59	902	318	35.25
26	Gəncə Dövlət Universiteti	1758	34	1724	505	29.29	0	0.00	1724	505	29.29
27	Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	915	53	862	48	5.57	0	0.00	862	48	5.57

Cədvəl 1.1.4 (ardı)

№	Ali təhsil müəssisəsi	Dövlət sifarişi üzrə ali təhsil müəssisəsinin kadr hazırlığı imkanı və qəbulun nəticəsi					o cümlədən, dövlət sifarişi üzrə kadr hazırlığı üçün ali təhsil müəssisəsinin				
							inhisarında olan faktiki		digər ali təhsil müəssisələri ilə rəqabət apardığı faktiki		
		yerlərin sayı	bütün ali təhsil müəssisələri üzrə istifadə olunmayan yerlərin sayı	faktiki yerlərin sayı	faktiki yerlər üzrə qəbul olanların sayı	faktiki yerlər üzrə qəbulolma faizi	yerlərin sayı	yerlərin faizi	yerlərin sayı	yerlər üzrə qəbul olanların sayı	yerlər üzrə qəbulolma faizi
28	Sumqayıt Dövlət Universiteti	1680	0	1680	248	14.76	4	0.24	1676	244	14.56
29	Mingəçevir Dövlət Universiteti	855	0	855	99	11.58	0	0.00	855	99	11.58
30	Lənkəran Dövlət Universiteti	1519	6	1513	263	17.38	49	3.24	1464	214	14.62
31	Azərbaycan Kooperasiya Universiteti	1155	44	1111	24	2.16	0	0.00	1111	24	2.16
32	Azərbaycan İlahiyyat İnstitutu	72	0	72	71	98.61	57	79.17	15	14	93.33
33	Azərbaycan Universiteti	700	14	686	41	5.98	0	0.00	686	41	5.98
34	Qərbi Kaspi Universiteti	1020	1	1019	99	9.72	0	0.00	1019	99	9.72
35	Xəzər Universiteti	925	0	925	386	41.73	0	0.00	925	386	41.73
36	Bakı Avrasiya Universiteti	780	1	779	5	0.64	0	0.00	779	5	0.64
37	Bakı Qızlar Universiteti	440	0	440	16	3.64	0	0.00	440	16	3.64
38	Odlar Yurdu Universiteti	995	0	995	36	3.62	0	0.00	995	36	3.62
39	Bakı Biznes Universiteti	795	0	795	18	2.26	0	0.00	795	18	2.26
40	Naxçıvan Universiteti (Naxçıvan şəhəri)	410	0	410	9	2.20	0	0.00	410	9	2.20
41	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	300	0	300	24	8.00	0	0.00	300	24	8.00

Cədvəldən göründüyü kimi, ən yüksək qəbulolma göstəricisi Azərbaycan Dövlət Dəniz Akademiyası (100.0%), Azərbaycan İlahiyyat İnstitutu (98.61%), Bakı Ali Neft Məktəbi (98.53%) və Azərbaycan Tibb Universitetinə (97.05%) aiddir.

Azərbaycan Dövlət Dəniz Akademiyasının dövlət büdcəsinin vəsaiti hesabına təhsil almaq üçün 186 nəfər tələbə qəbul etmək imkanına malik olmuşdur. Bu yerlərin 161-i bilavasitə onun inhisarında olan, 25-i isə digər ali təhsil müəssisələrinin də iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər idi. Azərbaycan Dövlət Dəniz Akademiyasının digər ali təhsil müəssisələri ilə birgə iştirak etdiyi müsabiqələrdə 25 nəfər qalibin 25-i təhsilini davam etdirmək məqsədilə məhz bu ali təhsil müəssisəsini seçmişdir.

Azərbaycan İlahiyyat İnstitutu dövlət büdcəsinin vəsaiti hesabına təhsil almaq üçün 72 nəfər tələbə qəbul etmək imkanına malik olmuşdur. Bu yerlərdən 57-si bilavasitə onun inhisarında olan, 15-i isə digər ali təhsil müəssisələrinin də iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər idi. Azərbaycan İlahiyyat İnstitutunun digər ali təhsil müəssisələri ilə birgə iştirak etdiyi müsabiqələrdə 15 nəfər qalibin 14-ü təhsilini davam etdirmək məqsədilə məhz bu ali təhsil müəssisəsini seçmişdir. Bunun əsas səbəbi bu ali təhsil müəssisəsinə dövlət sifarişi üçün ayrılan yerlərin müsabiqə şərtlərinin digər təhsil müəssisələrindən aşağı olmasıdır. Belə ki, III ixtisas qrupunda dövlət sifarişi üzrə ayrılan yerlərin müsabiqəsinə ən azı 200 bal toplayan abituriyentlər buraxıldığı halda, Azərbaycan İlahiyyat İnstitutunun ixtisaslarının müsabiqəsinə ən azı 150 bal toplayan abituriyentlər buraxılıb.

Bakı Ali Neft Məktəbi dövlət büdcəsinin vəsaiti hesabına təhsil almaq üçün 136 nəfər tələbə qəbul etmək imkanına malik olub. Bu yerlərin hamısı digər ali təhsil müəssisələrinin də iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər idi. Müsabiqədə Bakı Ali Neft Məktəbi böyük üstünlüyə malik olub və 136 nəfər qalibdən 134-ü təhsilini davam etdirmək məqsədilə məhz bu ali təhsil müəssisəsini seçib.

Dövlət ali təhsil müəssisələri arasında dövlət sifarişi ilə tələbə qəbulunda ən aşağı nəticə Azərbaycan Texnologiya Universitetinə (Gəncə ş.) məxsusdur. Bu ali təhsil müəssisəsi dövlət sifarişi üzrə 862 nəfər tələbə qəbul etmək imkanına malik olmuşdur. Bu yerlərin hamısı digər ali təhsil müəssisələrinin də iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər idi. Nəticədə, Azərbaycan Texnologiya Universitetinin (Gəncə ş.) digər ali təhsil müəssisələri ilə birgə iştirak etdiyi müsabiqələrdə 862 nəfər qalibdən yalnız 48-i təhsilini davam etdirmək məqsədilə bu ali təhsil müəssisəsini seçmişdir.

Zəif nəticə göstərən digər təhsil müəssisələri Naxçıvan Müəllimlər İnstitutu, Mingəçevir Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Sumqayıt Dövlət Universiteti və Lənkəran Dövlət Universitetidir. Bu ali təhsil müəssisələri dövlət vəsaiti hesabına təhsil almaq üçün, müvafiq olaraq, 430, 855, 1099, 1680 və 1513 nəfər tələbə qəbul etmək imkanına malik idi. Müsabiqə, adları qeyd olunan ali təhsil müəssisələrinin yüksək hazırlıqlı abituriyentlər arasında çox zəif nüfuza malik olduğunu göstərib. Belə ki, abituriyentlər Naxçıvan Müəllimlər İnstitutunun digər ali təhsil müəssisələri ilə birgə müsabiqəsi üçün ayrılan 430 dövlət sifarişli yerdən yalnız 41-ni (9.53%), Mingəçevir Dövlət Universiteti üçün ayrılan 855 dövlət sifarişli yerdən yalnız 99-nu (11.58%), Bakı Slavyan Universitetinə ayrılan 1099 yerdən yalnız 150-ni (13.65%), Sumqayıt Dövlət Universitetinə ayrılan 1676 yerdən yalnız 244-nü (14.56%), Lənkəran Dövlət Universitetinə ayrılan 1464 yerdən yalnız 214-nü (14.62%) seçmişlər.

Dövlət sifarişi üzrə tələbə qəbulunun müsabiqəsində 11 özəl ali təhsil müəssisəsi iştirak etmişdir. Onların hamısı birlikdə müxtəlif ixtisaslar üzrə dövlət büdcəsinin vəsaiti hesabına 7532 nəfər tələbə qəbul etmək imkanına malik olmuşdur. Bu yerlərin əksəriyyəti digər ali təhsil müəssisələrinin (dövlət və özəl) də iddialı olduqları birgə müsabiqə üçün ayrılan yerlər idi. Bütövlükdə götürdükdə, dövlət sifarişi ilə təhsil almaq hüququ qazanan cəmi 729 nəfər abituriyent təhsilini özəl ali təhsil müəssisələrində davam etdirmək istədiyini bildirmişdi. Onların 386 nəfəri Xəzər Universitetini seçmişdir. Beləliklə, abituriyentlər öz ixtisas seçimləri ilə bu özəl ali təhsil müəssisəsinə böyük inam göstərdiklərini nümayiş etdirmişlər.

Bu il ali təhsil müəssisələri üzrə, bütövlükdə, dövlət büdcəsi vəsaiti hesabına maliyyələşdirilən ixtisaslara qəbul olanların (subbakalavrlar da nəzərə alınmaqla) 86.31%-i (17876 nəfər) Bakı şəhərində, 13.69%-i (2835 nəfər) isə respublikanın regionlarında yerləşən ali təhsil müəssisələrini seçmişdir. 2019-cu ildə bu göstəricilər, müvafiq olaraq, 84.51%-i (14977 nəfər) və 15.49%-i (2745 nəfər) olmuşdu. Bakı şəhərində və regionlarda yerləşən ali təhsil müəssisələrinə son on iki ildə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən yerlərə qəbul olanların nisbi çəkisinin müqayisəli təhlili göstərir ki, bu illər ərzində Bakı şəhərində yerləşən ali təhsil müəssisələrinə qəbul olanların faizi 79.73-dən 86.31-ə qədər artmış, regionlarda yerləşən ali təhsil müəssisələrinə qəbul olanların faizi isə 20.27-dən 13.69-a qədər azalmışdır. Beləliklə, aydın olur ki, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən yerlərə müsabiqənin bütün ali təhsil müəssisələri üzrə mərkəzləşdirilmiş şəkildə aparılması ötən illərlə müqayisədə hazırda regionlarda yerləşən ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə qəbul olanların faizinin azalmasına səbəb olmuşdur.

1.1.5 saylı cədvəldə qruplar və ixtisaslar üzrə dövlət sifarişi ilə tələbə qəbuluna ayrılan yerlərin sayı (tələbə qəbulunun proqnozu) və qəbulun nəticələri təqdim edilmişdir. Cədvəldə ixtisaslar üzrə ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin sayı həm bütövlükdə, həm də təhsil müəssisələri üzrə ayrılıqda verilmişdir. Cədvəldə təqdim edilən rəqəmlərin təhlili göstərir ki, bütövlükdə, dövlət sifarişi əsasında qəbul aparılan yerlərə qəbulolma faizi yüksəkdir.

Artıq səkkizinci ildir ki, kənd təsərrüfatı ixtisaslarına abituriyentlərin maraqlarını artırmaq məqsədilə bu ixtisaslara qəbul üçün əlavə olaraq dövlət sifarişli yerlər ayrılır. Bundan əlavə, kənd təsərrüfatı ixtisaslarının bir çoxunun 2015-ci ildə IV qrupdan abituriyentlərin sayı çox olan I qrupa keçirilməsi bu ixtisaslar üzrə müsabiqəyə və nəticədə qəbula ciddi dərəcədə yaxşı təsir göstərib. Məlum olduğu kimi, son illər I qrupa ərizə verən abituriyentlərin sayı daha da artmışdır.

Məlum olduğu kimi, "Memarlıq" və "Jurnalistika" ixtisasları istisna olmaqla, qalan bütün xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə buraxılış imtahanının (qəbul imtahanının I mərhələsinin) nəticələri əsasında aparılıb və nəticədə bu ixtisaslar üzrə müsabiqə vəziyyəti xeyli yaxşılaşıb.

Cədvəl 1.1.5

QRUPLAR VƏ İXTİSASLAR ÜZRƏ DÖVLƏT SİFARİŞİ İLƏ TƏLƏBƏ QƏBULUNA AYRILAN YERLƏRİN SAYI VƏ QƏBULUN NƏTİCƏLƏRİ
(subbakalavrlar istisna olmaqla)

I QRUP

№	İxtisaslar	Tələbə qəbulunun proqnozu	Qəbul olan abituriyentlərin sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
1	Aerokosmik mühəndislik	55	55	100.00	283.9	Milli Aviasiya Akademiyası	55
2	Aqromühəndislik	90	16	17.78	201.4	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	16
3	Aqronomluq	165	182	110.30	194.6	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	119
						Lənkəran Dövlət Universiteti	63
4	Aviasiya təhlükəsizliyi mühəndisliyi	25	25	100.00	351.4	Milli Aviasiya Akademiyası	25
5	Balıqçılıq	45	45	100.00	152.8	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	45
6	Cihaz mühəndisliyi	190	137	72.11	204.8	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	97
						Azərbaycan Texniki Universiteti	25
						Milli Aviasiya Akademiyası	14
						Qərbi Kaspi Universiteti	1
7	Dəniz naviqasiyası mühəndisliyi	80	78	97.50	281.4	Azərbaycan Dövlət Dəniz Akademiyası	78
8	Ekologiya mühəndisliyi	210	145	69.05	224.9	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	49
						Azərbaycan Texniki Universiteti	15
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	36
						Azərbaycan Dövlət İqtisad Universiteti	18
						Bakı Mühəndislik Universiteti	3
						Milli Aviasiya Akademiyası	11
						Naxçıvan Dövlət Universiteti	1
						Gəncə Dövlət Universiteti	5
						Sumqayıt Dövlət Universiteti	4
						Mingəçevir Dövlət Universiteti	3
9	Elektrik və elektronika mühəndisliyi	360	358	99.44	249.8	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	110
						Azərbaycan Texniki Universiteti	72
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	25
						Azərbaycan Dövlət İqtisad Universiteti	21
						Bakı Mühəndislik Universiteti	75
						Milli Aviasiya Akademiyası	13
						Azərbaycan Dövlət Dəniz Akademiyası	25
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	10
						Sumqayıt Dövlət Universiteti	7
10	Energetika mühəndisliyi	310	310	100.00	228.6	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	127
						Azərbaycan Texniki Universiteti	98
						Bakı Mühəndislik Universiteti	25
						Milli Aviasiya Akademiyası	15
						Naxçıvan Dövlət Universiteti	9
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	12
						Sumqayıt Dövlət Universiteti	11
						Mingəçevir Dövlət Universiteti	13

Cədvəl 1.1.5 (ardı)

№	İxtisaslar	Tələbə qəbulunun proqnozu	Qəbul olan abituriyentlərin sayı	Qəbulolma faizi	Minimal bal	Dövlət sifarişi əsasında qəbul aparılan ali təhsil müəssisələri	Qəbul olub
11	Fizika	146	143	97.95	260.9	Bakı Dövlət Universiteti	109
						Naxçıvan Dövlət Universiteti	14
						Sumqayıt Dövlət Universiteti	20
12	Fizika müəllimliyi	250	250	100.00	358.2	Bakı Dövlət Universiteti	158
						Azərbaycan Dövlət Pedaqoji Universiteti	69
						Bakı Mühəndislik Universiteti	1
						Naxçıvan Dövlət Universiteti	5
						Gəncə Dövlət Universiteti	4
						Sumqayıt Dövlət Universiteti	1
						Lənkəran Dövlət Universiteti	4
						Xəzər Universiteti	8
13	Geologiya	85	79	92.94	206.1	Bakı Dövlət Universiteti	36
						Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	43
14	Geologiya və geofizika mühəndisliyi	130	129	99.23	249.5	Bakı Dövlət Universiteti	44
						Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	85
15	Geomatika və geodeziya mühəndisliyi	65	60	92.31	200.3	Bakı Dövlət Universiteti	21
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	37
						Milli Aviasiya Akademiyası	2
16	Gəmi energetik qurğularının istismarı mühəndisliyi	80	69	86.25	262.1	Azərbaycan Dövlət Dəniz Akademiyası	69
17	Gəmiqayırma və gəmi təmiri mühəndisliyi	15	14	93.33	350.9	Azərbaycan Dövlət Dəniz Akademiyası	14
18	Hava nəqliyyatının hərəkətinin təşkili	15	13	86.67	424.9	Milli Aviasiya Akademiyası	13
19	Hərbi kompozisiya materialları mühəndisliyi	15	15	100.00	217.5	Azərbaycan Texniki Universiteti	15
20	Hərbi rabitə vasitələri mühəndisliyi	15	15	100.00	238.3	Azərbaycan Texniki Universiteti	15
21	Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi	112	112	100.00	272.7	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	57
						Azərbaycan Texniki Universiteti	30
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	25
22	İnformasiya texnologiyaları	650	645	99.23	300.3	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	167
						Azərbaycan Texniki Universiteti	140
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	86
						Azərbaycan Dövlət İqtisad Universiteti	96
						Bakı Mühəndislik Universiteti	54
						Milli Aviasiya Akademiyası	26
						Naxçıvan Dövlət Universiteti	20
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	20
						Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	2
						Sumqayıt Dövlət Universiteti	11
						Mingəçevir Dövlət Universiteti	13
						Lənkəran Dövlət Universiteti	4
						"Azərbaycan" Universiteti	1
						Qərbi Kaspi Universiteti	2
Təhlil göstərir ki, ümumilikdə, ödənişli təhsil forması üzrə qəbul olanların sayı dövlət sifarişi əsasında qəbul olanların sayına yaxındır. Qəbul olanların tərkib hissələri arasında olan bu nisbi tarazlıq heç də bütün ali təhsil müəssisələrində eyni forma və nisbətdə olmayıb. Məsələn, Bakı Slavyan Universiteti, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Bakı Xoreoqrafiya Akademiyası, Azərbaycan Turizm və Menecment Universiteti, regionlarda yerləşən ali təhsil müəssisələri (Azərbaycan Dövlət Aqrar Universiteti istisna olmaqla) və özəl ali təhsil müəssisələrində (Xəzər Universiteti istisna olmaqla) ödənişli təhsil forması üzrə tələbə qəbulu üstünlük təşkil edib. ADA Universiteti dövlət sifarişi əsasında tələbə qəbulunda iştirak etməkdən ümumiyyətlə imtina edib. Azərbaycan İlahiyyat İnstitutuna isə qəbul yalnız dövlət sifarişi əsasında aparılmışdır. Dövlət ali təhsil müəssisələrinə qəbul olan tələbələr içərisində ödənişli təhsil forması üzrə qəbul olanların nisbi çəkisi (faizi) Naxçıvan Müəllimlər İnstitutu (88.05%), Bakı Slavyan Universiteti (83.87), Sumqayıt Dövlət Universiteti (81.94%), Azərbaycan Texnologiya Universiteti (80.80%) və Mingəçevir Dövlət Universitetində (80.58%) ən yüksək olub.

Cədvəl 1.2.3

ALİ TƏHSIL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI, ONLARIN QƏBUL PROSESİNDƏ FORMALAŞAN TƏRKİB HİSSƏLƏRİ VƏ ÖDƏNİŞLİ TƏHSİL FORMASI ÜZRƏ QƏBULUN NƏTİCƏLƏRİ

№	TƏHSİL MÜƏSSİSƏSİ	Ümumi plan yerləri	Dövlət sifarişi üzrə qəbul olanların sayı	Yalnız dövlət sifarişi əsasında tələbə qəbulunda istifadə edilməyən yerlərin sayı	Ödənişli təhsil forması üzrə qəbul aparılan yerlərin sayı	Ödənişli təhsil forması üzrə qəbul olanların	
						sayı	qəbulolma faizi
1	Bakı Dövlət Universiteti	6076	3674	0	2402	1852	77.10
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	3198	2292	0	906	661	72.96
3	Azərbaycan Texniki Universiteti	2160	1004	3	1153	729	63.23
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	1950	958	1	991	797	80.42
5	Azərbaycan Tibb Universiteti	975	756	52	167	150	89.82
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	3533	1797	0	1736	1472	84.79
7	Azərbaycan Dövlət İqtisad Universiteti	3753	2325	0	1428	1228	85.99
8	Azərbaycan Dillər Universiteti	1685	847	0	838	762	90.93
9	Bakı Slavyan Universiteti	1145	150	0	995	780	78.39
10	Bakı Mühəndislik Universiteti	1210	708	4	498	298	59.84
11	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	413	289	0	124	92	74.19
12	ADA Universiteti	340	0	0	340	311	91.47
13	Bakı Musiqi Akademiyası	152	125	0	27	19	70.37
14	Azərbaycan Milli Konservatoriyası	192	117	0	75	70	93.33
15	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	630	287	0	343	274	79.88
16	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	320	179	0	141	136	96.45
17	Azərbaycan Turizm və Menecment Universiteti	470	174	0	296	205	69.26
18	Bakı Xoreoqrafiya Akademiyası	110	32	0	78	47	60.26
19	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası	1547	494	0	1053	1017	96.58
20	Milli Aviasiya Akademiyası	441	303	0	138	82	59.42
21	Azərbaycan Dövlət Dəniz Akademiyası	200	186	0	14	7	50.00
22	Bakı Ali Neft Məktəbi	176	134	2	40	39	97.50
23	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	154	118	0	36	36	100.00
24	Naxçıvan Dövlət Universiteti	1200	459	4	737	624	84.67
25	Naxçıvan Müəllimlər İnstitutu	430	41	0	389	302	77.63
26	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	1570	893	286	391	288	73.66
27	Gəncə Dövlət Universiteti	1758	532	0	1226	1033	84.26
28	Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	935	124	0	811	522	64.36
29	Sumqayıt Dövlət Universiteti	1680	248	0	1432	1125	78.56
30	Mingəçevir Dövlət Universiteti	855	135	0	720	560	77.78
31	Lənkəran Dövlət Universiteti	1519	394	28	1097	775	70.65
32	Azərbaycan Kooperasiya Universiteti	1175	93	0	1082	576	53.23
33	Azərbaycan İlahiyyat İnstitutu	72	71	1	0	0	---
34	Azərbaycan Universiteti	700	66	0	634	490	77.29

Cədvəl 1.2.3 (ardı)

№	TƏHSİL MÜƏSSİSƏSİ	Ümumi plan yerləri	Dövlət sifarişi üzrə qəbul olanların sayı	Yalnız dövlət sifarişi əsasında tələbə qəbulunda istifadə edilməyən yerlərin sayı	Ödənişli təhsil forması üzrə qəbul aparılan yerlərin sayı	Ödənişli təhsil forması üzrə qəbul olanların	
						sayı	qəbulolma faizi
35	Qərbi Kaspi Universiteti	1020	128	0	892	576	64.57
36	Xəzər Universiteti	925	413	0	512	274	53.52
37	Bakı Avrasiya Universiteti	910	6	0	904	620	68.58
38	Bakı Qızlar Universiteti	440	16	0	424	325	76.65
39	Odlar Yurdu Universiteti	995	90	0	905	735	81.22
40	Bakı Biznes Universiteti	795	19	0	776	712	91.75
41	Naxçıvan Universiteti (Naxçıvan şəhəri)	410	9	0	401	275	68.58
42	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	300	25	0	275	161	58.55
	CƏMİ	**48519**	**20711**	**381**	**27427**	**21037**	**76.70**

Dövlət sifarişi əsasında və ödənişli təhsil forması üzrə ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin ixtisas qrupları üzrə paylanması 1.2.4 saylı cədvəldə təqdim edilmişdir. Cədvəldən göründüyü kimi, dövlət sifarişi əsasında tələbə qəbulunun ən yüksək faizi IV ixtisas qrupunda (70.08%), ödənişli təhsil forması üzrə olan yerlərə isə III ixtisas qrupundadır (64.16%).

Dövlət sifarişi əsasında və ödənişli təhsil forması üzrə ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin nisbi saylarını bölmələrə görə ayrı-ayrılıqda müqayisə etsək, fərqli-fərqli mənzərənin şahidi olarıq. Belə ki, rus bölməsində ödənişli təhsil forması üzrə ali təhsil müəssisələrinə qəbul olanların üstünlüyü, Azərbaycan bölməsində isə tarazlıq müşahidə olunur. Müqayisəni qruplar üzrə aparsaq, görərik ki, I və V qruplarda hər iki bölmədə eyni mənzərə mövcuddur – I qrupda dövlət sifarişi əsasında ali təhsil müəssisələrinə qəbul olanların (Azərbaycan bölməsində 69.40%, rus bölməsində 70.16%), V qrupda isə əksinə ödənişli təhsil forması üzrə qəbul olanların üstünlüyü müşahidə olunur. II, III və IV qruplarda bölmələr üzrə mənzərə bir qədər fərqlənir. IV ixtisas qrupunda Azərbaycan bölməsi üzrə ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin böyük hissəsi (71.89%-i) dövlət sifarişi əsasında, rus bölməsi üzrə abituriyentlərin yarıdan çoxu (51.56%-i) ödənişli təhsil forması üzrə qəbul olanlardır. II və III ixtisas qruplarında hər iki bölmədə ali təhsil müəssisələrinə qəbul olanların çox hissəsini ödənişli təhsil forması üzrə qəbul olanlar təşkil etsə də, onların bu qruplar daxilində qəbul olanların içindəki payı bölmələr üzrə bir-birindən fərqlənir – Azərbaycan bölməsində ödənişli təhsil forması üzrə qəbul olanların nisbi sayı müvafiq olaraq, 61.87 və 63.06-ya, rus bölməsində isə müvafiq olaraq, 65.81 və 78.28-ə bərabərdir.

Cədvəl 1.2.4

DÖVLƏT SİFARİŞİ ƏSASINDA VƏ ÖDƏNİŞLİ TƏHSİL FORMASI ÜZRƏ QƏBUL OLANLARIN İXTİSAS QRUPLARI ÜZRƏ PAYLANMASI

İxtisas qrupları	Azərbaycan bölməsi				Rus bölməsi				Bölmələr üzrə cəmi			
	Dövlət sifarişi əsasında qəbul olanların		Ödənişli təhsil forması üzrə qəbul olanların		Dövlət sifarişi əsasında qəbul olanların		Ödənişli təhsil forması üzrə qəbul olanların		Dövlət sifarişi əsasında qəbul olanların		Ödənişli təhsil forması üzrə qəbul olanların	
	sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi
I	8060	69.40	3553	30.60	703	70.16	299	29.84	8763	69.46	3852	30.54
II	3739	38.13	6066	61.87	266	34.19	512	65.81	4005	37.84	6578	62.16
III	4022	36.94	6865	63.06	184	21.72	663	78.28	4206	35.84	7528	64.16
IV	2204	71.89	862	28.11	124	48.44	132	51.56	2328	70.08	994	29.92
V	1235	40.20	1837	59.80	174	41.23	248	58.77	1409	40.33	2085	59.67
Cəmi	**19260**	**50.10**	**19183**	**49.90**	**1451**	**43.90**	**1854**	**56.10**	**20711**	**49.61**	**21037**	**50.39**

Aşağıda 1.2.1, 1.2.2 və 1.2.3, 1.2.4 saylı şəkillərdə I-IV və V ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında və ödənişli təhsil forması üzrə qəbul olmuş abituriyentlərin ballarının paylanma diaqramları təsvir edilib. Diaqramlardan göründüyü kimi, bu yerlərə heç də hazırlıq səviyyəsi eyni olan abituriyentlər qəbul olmayıb. Dövlət sifarişi əsasında ayrılan yerlərə qəbul olan abituriyentlərin hazırlıq səviyyəsi ödənişli təhsil forması üzrə qəbul olanlardan əhəmiyyətli dərəcədə yüksəkdir. I-IV ixtisas qrupları üzrə dövlət sifarişi əsasında ayrılan yerlərə qəbul olanların 27.83%-ni 500-dən yuxarı bal toplamış abituriyentlər təşkil etdiyi halda, ödənişli təhsil forması üzrə ayrılan yerlərə qəbul olanlar arasında belələri yalnız 5.35%-dir. Digər tərəfdən, dövlət sifarişi əsasında ayrılan yerlərə qəbul olanlar arasında 200-300 intervalında bal toplayanlar 17.74%-dirsə, ödənişli təhsil forması üzrə belə göstəricilərlə qəbul olanlar 38.84% təşkil edir. Analoji vəziyyəti V ixtisas qrupu üzrə müqayisədə də görmək olar. Belə ki, bu ixtisas qrupunda dövlət sifarişi əsasında ayrılan yerlərə qəbul olanlar arasında 150-200 və 200-300 intervallarında bal toplayanlar uyğun olaraq 51.40 və 7.57% təşkil etdiyi halda, ödənişli təhsil forması üzrə qəbul olanlar arasında bu göstəricilər uyğun olaraq 9.52 və 0.29% olmuşdur. Aşağı bal intervalında başqa mənzərənin şahidi oluruq. Belə ki, dövlət sifarişi əsasında ayrılan yerlərə qəbul olanlar arasında 50-100 və 100-150 intervallarında bal toplayanlar 40.25%, ödənişli təhsil forması üzrə bu göstəricilərlər qəbul olanlar 90.05% təşkil edir. Dövlət sifarişi əsasında və ödənişli təhsil forması üzrə olan yerlərə qəbul olan abituriyentlərin bal göstəriciləri arasındakı fərq nəzərə alınaraq, ödənişli təhsil forması üzrə qəbul olanların təhsil üçün ödədiyi vəsaitin bir hissəsi onların müasir təhsil standartları səviyyəsində hazırlığına yönəldilməlidir. Eyni zamanda, dövlət sifarişi əsasında və ödənişli təhsil forması üzrə olan yerlərə qəbul olan abituriyentlərin bal göstəriciləri arasındakı fərq nəzərə alınaraq, ödənişli təhsil forması üzrə qəbul olanlar üçün ali təhsil müəssisələri tədris proqramında dəyişiklik aparmalı, onları bir qədər genişləndirilmiş proqram əsasında hazırlamalıdırlar.

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏRİNƏ QƏBUL OLMUŞ ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(I-IV qruplar üzrə)



Şəkil 1.2.1

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN ÖDƏNİŞLİ TƏHSİL FORMASI ÜZRƏ AYRILAN YERLƏRİNƏ QƏBUL OLMUŞ ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(I-IV qruplar üzrə)



Şəkil 1.2.2

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏRİNƏ QƏBUL OLMUŞ ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(V qrup üzrə)



Şəkil 1.2.3

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN ÖDƏNİŞLİ TƏHSİL FORMASI ÜZRƏ AYRILAN YERLƏRİNƏ QƏBUL OLMUŞ ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(V qrup üzrə)



Şəkil 1.2.4

Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında ayrılan yerlərə və ödənişli təhsil forması üzrə qəbul olan abituriyentlərin bilik səviyyələri arasındakı fərqi müəyyən etmək üçün onların topladıqları ballar və test tapşırıqlarına cavabları da ixtisas qrupları və bölmələr üzrə ayrı-ayrılıqda araşdırılıb və nəticələr 1.2.5-1.2.9 saylı cədvəllərdə təqdim edilib.

Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında ayrılmış yerlərə qəbul olanların test tapşırıqlarının həlli üzrə ən yüksək göstəricisi Azərbaycan bölməsində həm I, həm II mərhələ üzrə III qrup abituriyentlərinin ana dili fənninə (müvafiq olaraq, 80.21% və 83.68%), rus bölməsində isə I mərhələ üzrə III qrup abituriyentlərinin ingilis dili fənninə (81.88%), II mərhələ üzrə III qrup abituriyentlərinin ana dili fənninə (82.10%) cavablarında özünü göstərib.

Test tapşırıqlarına cavabların müqayisəli təhlili göstərir ki, ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında ayrılmış yerlərə və ödənişli təhsil forması üzrə ayrılmış yerlərə qəbul olanların bilikləri arasında ən az fərq Azərbaycan bölməsində hər iki mərhələ üzrə I ixtisas qrupunda (qəbul olan abituriyentlərin fənlər üzrə düzgün cavablarının faiz nisbəti I mərhələdə 1.15-1.33, II mərhələdə 1.32-1.42 diapazonundadır), rus bölməsində hər iki mərhələ üzrə IV ixtisas qrupundadır (faiz nisbəti I mərhələ üzrə 1.05-1.23, II mərhələ üzrə 1.19-1.39 diapazonundadır).

Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında ayrılmış yerlərə və ödənişli təhsil forması üzrə qəbul olanların fənlər üzrə cavablarının ortastatistik göstəriciləri arasında ən böyük fərq Azərbaycan bölməsində həm I, həm II mərhələ üzrə II ixtisas qrupunda, rus bölməsində isə I mərhələ üzrə III ixtisas qrupunda, II mərhələ üzrə II ixtisas qrupunda müşahidə olunur. Ödənişli təhsil forması üzrə qəbul olanların cavablarının göstəriciləri dövlət sifarişi əsasında qəbul olanların cavablarından Azərbaycan bölməsində II ixtisas qrupunda I mərhələ üzrə 1.25-1.76, II mərhələ üzrə 1.61-1.90 dəfə, rus bölməsində isə I mərhələ üzrə III ixtisas qrupunda 1.21-1.83, II mərhələ üzrə II ixtisas qrupunda 1.60-1.79 dəfə aşağıdır.

Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında ayrılmış yerlərə və ödənişli təhsil forması üzrə ayrılmış yerlərə qəbul olan abituriyentlərin ayrılıqda ortastatistik bal göstəricilərinin (bax: cədvəl 1.2.9) müqayisəsi də biliklər arasında ən böyük fərqin hər iki bölmə üzrə II qrupda olduğunu təsdiq edir.

Ümumilikdə götürdükdə, dövlət sifarişi əsasında ayrılmış yerlərə qəbul olan ortastatistik abituriyentin* bal göstəricisi ödənişli təhsil forması üzrə ali təhsil müəssisəsinə qəbul olan ortastatistik abituriyentin bal göstəricisindən 1.31-1.33 dəfə yüksəkdir.

* Burada ortastatistik abituriyent – ixtisas qrupu daxilində təhsil formasından (dövlət sifarişi əsasında yaxud ödənişli) asılı olaraq müəyyən seçməyə daxil olan abituriyentlərin ümumiləşdirilmiş obrazıdır. Ortastatistik abituriyentin imtahan fənni üzrə topladığı bal dedikdə, onun təmsil etdiyi seçməyə daxil olan abituriyentlərin həmin fəndən topladıqları nisbi balların orta qiyməti nəzərdə tutulur. Abituriyentin ümumi balı hesablanarkən onun hər bir fənn üzrə topladığı nisbi balı fənlərin müvafiq çəki əmsallarına vurulmaqla cəmlənir.

Cədvəl 1.2.5

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

(xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)

AZƏRBAYCAN BÖLMƏSİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	68.58	60.49	56.31			59.74	45.25	55.45			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	72.80	58.00	60.22			52.78				60.58	60.54
III	Humanitar, pedaqogika ixtisasları	80.21	46.48	66.73	83.68	75.06					73.38	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	76.41	65.05	66.30				55.94	65.22	70.24		

Cədvəl 1.2.6

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ ÖDƏNİŞLİ TƏHSİL FORMASI ÜZRƏ AYRILAN YERLƏRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

(xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)

AZƏRBAYCAN BÖLMƏSİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	59.71	45.37	44.04			45.11	31.76	40.08			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	58.39	32.98	40.90			27.75				37.73	37.24
III	Humanitar, pedaqogika ixtisasları	67.86	27.48	46.96	66.74	59.53					50.80	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	67.06	45.98	50.90				36.28	41.71	54.82		

Cədvəl 1.2.7

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

(xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)

RUS BÖLMƏSİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	69.03	58.92	69.36			56.70	41.71	51.33			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	73.26	58.08	75.92			49.67				48.50	55.25
III	Humanitar, pedaqogika ixtisasları	81.71	47.42	81.88	82.10	76.64					64.53	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	71.92	53.69	70.65				44.08	49.94	59.67		

Cədvəl 1.2.8

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ ÖDƏNİŞLİ TƏHSİL FORMASI ÜZRƏ AYRILAN YERLƏRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

(xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)

RUS BÖLMƏSİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	61.03	42.19	60.34			42.10	26.46	33.36			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	61.22	33.68	57.93			27.74				30.30	32.90
III	Humanitar, pedaqogika ixtisasları	67.57	25.91	61.76	60.76	55.73					38.72	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	68.30	43.48	62.55				31.60	37.53	50.14		

Cədvəl 1.2.9

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏRƏ VƏ ÖDƏNİŞLİ TƏHSİL FORMASI ÜZRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN ORTASTATİSTİK BAL GÖSTƏRİCİLƏRİ

(xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)

№	İXTİSAS QRUPU	AZƏRBAYCAN BÖLMƏSİ			RUS BÖLMƏSİ		
		Ortastatistik abituriyentin topladığı ballar		Ballar nisbəti	Ortastatistik abituriyentin topladığı ballar		Ballar nisbəti
		dövlət sifarişi əsasında qəbul olan	ödənişli əsaslarla qəbul olan		dövlət sifarişi əsasında qəbul olan	ödənişli əsaslarla qəbul olan	
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	383.15	286.02	1.34	382.62	280.94	1.36
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	406.98	247.42	1.64	398.46	255.24	1.56
III	Humanitar, pedaqogika ixtisasları	495.74	363.23	1.36	497.98	343.00	1.45
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	452.85	324.34	1.40	387.81	317.97	1.22
Bütövlükdə		**422.53**	**318.70**	**1.33**	**403.72**	**307.74**	**1.31**

1.3. Dövlət və özəl ali təhsil müəssisələrinə tələbə qəbulunun müqayisəli təhlili

Qanunvericiliyə uyğun fəaliyyət göstərən özəl ali təhsil müəssisələrinə tələbə qəbulunun təşkili və keçirilməsi 1995-ci ildən Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına (indiki Dövlət İmtahan Mərkəzinə) həvalə olunub. Bununla əlaqədar Mərkəz hər il, bir qayda olaraq, özəl ali təhsil müəssisələrinin nümayəndələrinin iştirakı ilə keçirilən müşavirələrdə bütövlükdə ali təhsil müəssisələrinə əvvəlki illərdə aparılmış tələbə qəbulunun müxtəlif parametrlər üzrə nəticələri, o cümlədən özəl ali təhsil müəssisələrinə qəbulun nəticələri barədə ətraflı məlumat verir, tövsiyələrini bildirir.

Özəl ali təhsil müəssisələrinə tələbə qəbulu, əvvəlki illərdə olduğu kimi, bu il də dövlət ali təhsil müəssisələrinə qəbulla birgə elan olunmuşdu. Abituriyentlərə ərizələrində dövlət ali təhsil müəssisələrinin ixtisasları ilə yanaşı, özəl təhsil müəssisələrinin də ixtisaslarını qeyd etmək imkanı verilmişdi. Həmin ixtisaslara müsabiqənin aparılması şərtləri dövlət ali təhsil müəssisələrinin müvafiq ixtisasları ilə eyni olmuşdur. 2010-cu ildən ali təhsil müəssisələrində tətbiq olunan yeni qaydalara əsasən, özəl ali təhsil müəssisələrinə dövlət sifarişi ilə mütəxəssis hazırlığında iştirak etmək imkanı yaradılmışdır.

Bu təhsil müəssisələrinə cari ildə 7742 plan yeri ayrılmışdı. Özəl ali təhsil müəssisələrinin qəbul planı ötən illə müqayisədə bu il 3.06% (230 yer) artmışdır. Ayrılmış plan yerlərinin 50.92%-i Azərbaycan, 0.13%-i rus, 48.95%-i isə hər iki bölmə abituriyentlərinin birgə müsabiqəsi üçün nəzərdə tutulmuşdu. Qruplar üzrə götürdükdə planın 10.33%-i birinci, 46.69%-i ikinci, 35.35%-i üçüncü, 6.14%-i dördüncü, 1.49%-i isə beşinci ixtisas qrupuna aid olub. Ötən illərdə olduğu kimi, bu il də qəbul planının əsas hissəsi (82.04%-i) II və III qrup ixtisasları üçün nəzərdə tutulmuşdu. Sadəcə, ötən illə müqayisədə müsabiqə vəziyyətinin zəif olduğu II ixtisas qrupunun payı 50.05%-dən 46.69%-ə qədər azalmış, müsabiqə vəziyyətinin yüksək olduğu III qrupun payı isə 29.51%-dən 35.35%-dək çoxalmışdır. Özəl ali təhsil müəssisələrinin I ixtisas qrupu üzrə qəbul planı dövlət ali təhsil müəssisələrinin müvafiq qrup üzrə qəbul planının 5.69, IV qrup üzrə 13.11, V qrup üzrə 3.26%-nə bərabər olduğu halda, II qrup üzrə 35.88, III qrup üzrə 28.80%-nə bərabər olub. Bütün qruplar üzrə ümumilikdə götürdükdə isə özəl ali təhsil müəssisələrinin qəbul planı dövlət ali təhsil müəssisələrinin qəbul planının 18.99%-i qədər olmuşdur.

Özəl ali təhsil müəssisələrinə sənədlərin qəbulu dövlət ali təhsil müəssisələri ilə birgə və eyni qaydalar əsasında aparılmışdır. DİM sənəd qəbulu mərhələsində bu təhsil müəssisələri rəhbərlərinin peşəyönümü işi aparmaqla bağlı müraciətlərini nəzərə alaraq, onların dövlət qeydiyyatından keçmiş ixtisasları barədə "Abituriyent" jurnalında geniş məlumatların verilməsini təmin etmişdir.

Sənəd qəbulunun nəticələrinin təhlili göstərir ki, müsabiqədə iştirak edən abituriyentlərin 39.99%-i (20812 nəfər), subbakalavrların isə 46.05%-i (6583 nəfər) öz ərizələrində özəl təhsil müəssisələrinin ixtisaslarını da qeyd etmişdir. Azərbaycan bölməsində özəl təhsil müəssisələrinin ixtisaslarını abituriyentlərin 39.68%-i (19124 nəfər), subbakalavrların 45.18%-i (6195 nəfər), rus bölməsində isə abituriyentlərin 43.78%-i (1688 nəfər), subbakalavrların 66.44%-i (390 nəfər) seçmişdir. Abituriyentlərin 716 nəfəri, subbakalavrların isə 394 nəfəri öz ərizələrində yalnız özəl ali təhsil müəssisələrinin ixtisaslarını qeyd etmişdir.

İxtisas qrupları üzrə dövlət və özəl ali təhsil müəssisələrinin qəbul planı, həmin ali təhsil müəssisələrinin ixtisaslarını seçmiş abituriyentlərin sayı və müsabiqə vəziyyəti haqqında məlumat 1.3.1 – 1.3.3 saylı cədvəllərdə təqdim olunur. Cədvəllərdən göründüyü kimi, ixtisas qrupları üzrə özəl ali təhsil müəssisələrinə ərizələrin sayı plan yerlərinin sayından çox olsa da, III və V ixtisas qruplarından başqa digər ixtisas qruplarının heç birində müsabiqə şəraitinin yaranma ehtimalı yoxdur. Çünki abituriyentlər bu təhsil müəssisələrinin ixtisaslarını ərizələrində axırıncı yerlərdə göstərmişlər. Xatırladaq ki, ehtimal olunan müsabiqənin hesablanması qaydasında abituriyentin seçdiyi ixtisasları öz ərizəsində hansı yerdə qeyd etməsi amili nəzərə alınır. Əgər subbakalavrları da nəzərə alsaq, I, III və V ixtisas qruplarında müsabiqə şəraitinin olduğunu görərik.

Özəl ali təhsil müəssisələrində olduğu kimi, dövlət ali təhsil müəssisələrində də III və V ixtisas qruplarında müsabiqə şəraiti mövcud olmuşdur. Subbakalavrları da nəzərə olsaq, o zaman özəl ali təhsil müəssisələrində I, III və V ixtisas qrupları üzrə, dövlət ali təhsil müəssisələrində isə bütün ixtisas qrupları üzrə müsabiqə şəraitinin mövcud olduğunu görərik.

Dövlət ali təhsil müəssisələrində ən zəif müsabiqə (0.695) II, ən yüksək müsabiqə (4.111) isə V ixtisas qrupunda olub. Subbakalavrları da nəzərə alsaq, dövlət ali təhsil müəssisələrində ən zəif müsabiqə (1.105) yenə II, ən yüksək müsabiqə (4.574) isə V ixtisas qrupunda olub.

Cədvəl 1.3.1

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI

№	İXTİSAS QRUPU	Dövlət ali təhsil müəssisələri				Özəl ali təhsil müəssisələri			
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə	Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	10190	775	3087	14052	320	0	480	800
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	7849	917	1308	10074	2115	0	1500	3615
III	Humanitar, pedaqogika ixtisasları	7716	1092	696	9504	1372	10	1355	2737
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	3059	300	264	3623	135	0	340	475
V	İncəsənət, musiqi, idman ixtisasları	1183	120	2221	3524	0	0	115	115
CƏMİ		**29997**	**3204**	**7576**	**40777**	**3942**	**10**	**3790**	**7742**

Cədvəl 1.3.2

MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN ƏRİZƏLƏRİNİN SAYI

№	İXTİSAS QRUPU	Dövlət ali təhsil müəssisələri			Özəl ali təhsil müəssisələri		
		Azərb. bölməsi	Rus bölməsi	Bütövlükdə	Azərb. bölməsi	Rus bölməsi	Bütövlükdə
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	12504	1131	13635	2269	282	2551
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	6673	614	7287	2493	258	2751
III	Humanitar, pedaqogika ixtisasları	13506	960	14466	8990	381	9371
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	2990	274	3264	881	103	984
V	İncəsənət, musiqi, idman ixtisasları	16793	1263	18056	5174	764	5938
CƏMİ		**47490**	**3843**	**51333**	**19124**	**1688**	**20812**

Cədvəl 1.3.3

ƏRİZƏ QƏBULU MƏRHƏLƏSİNDƏ İXTİSAS QRUPLARI ÜZRƏ MÜSABİQƏ VƏZİYYƏTİ
(subbakalavrlar istisna olmaqla)

№	İXTİSAS QRUPU	Dövlət ali təhsil müəssisələri				Özəl ali təhsil müəssisələri			
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə	Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	0.993	1.023	1.395	0.920	0.551	---	0.980	0.730
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	0.738	0.564	1.106	0.695	0.204	---	0.297	0.202
III	Humanitar, pedaqogika ixtisasları	1.490	0.797	2.772	1.362	1.929	0.692	1.617	1.378
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	0.910	0.821	2.207	0.879	0.430	---	0.671	0.517
V	İncəsənət, musiqi, idman ixtisasları	8.692	4.889	3.479	4.111	---	---	10.877	10.877
CƏMİ		**1.323**	**0.919**	**2.083**	**1.215**	**0.841**	**0.692**	**1.191**	**0.839**

İmtahanların nəticələrinə əsasən, özəl ali təhsil müəssisələrinin plan yerlərinin dolma göstəricisi 73.37% olub. Ayrı-ayrı ixtisas qruplarında plan yerlərinin dolma faizləri fərqlidir. Bu göstəricilər I qrupda 66.38, II qrupda 59.34, III qrupda 95.98, IV qrupda 56.63, V qrupda isə 93.91%-ə bərabərdir. Qeyd etmək lazımdır ki, ixtisas seçimində iştirak edən abituriyentlərin bir hissəsi (I qrupda 174 nəfər, IV qrupda 12 nəfər) özəl ali təhsil müəssisələri ilə müqayisədə dövlət orta ixtisas təhsili müəssisələrinə üstünlük verib. Abituriyentlərin belə gözlənilməz seçim etmələrinin bir çox səbəbləri vardır. Bunların sırasında təhsil haqqını, diplomun əmək bazarındakı dəyərini, ali təhsil müəssisəsində təhsilin səviyyəsini və s. göstərmək mümkündür.

Özəl ali təhsil müəssisələrindən fərqli olaraq dövlət ali təhsil müəssisələrinin plan yerlərinin dolma faizi ümumilikdə 88.45% olub. Ən yüksək göstərici V ixtisas qrupunda (96.08%), ən aşağı göstərici isə II ixtisas qrupunda (83.76%) qeydə alınıb.

Özəl və dövlət ali təhsil müəssisələrinə qruplar və bölmələr üzrə qəbulolma göstəriciləri 1.3.4 və 1.3.5 saylı cədvəllərdə təqdim edilib.

Cədvəl 1.3.4

ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLANLARIN SAYI HAQQINDA MƏLUMAT

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)			Qəbulolma Faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Abituriyentlər				
I	800	295 (202)	27 (20)	322 (222)	40.25
II	3615	660 (100)	49 (6)	709 (106)	19.61
III	2737	2612 (272)	14 (3)	2626 (275)	95.94
IV	475	199 (102)	11 (4)	210 (106)	44.21
V	115	61 (9)	47 (11)	108 (20)	93.91
CƏMİ	**7742**	**3827 (685)**	**148 (44)**	**3975 (729)**	**51.34**
	Subbakalavrlar				
I	800	180 (8)	29 (0)	209 (8)	26.13
II	3615	1401 (179)	35 (3)	1436 (182)	39.72
III	2737	1 (0)	0 (0)	1 (0)	0.04
IV	475	58 (17)	1 (0)	59 (17)	12.42
V	115	0 (0)	0 (0)	0 (0)	0.00
CƏMİ	**7742**	**1640 (204)**	**65 (3)**	**1705 (207)**	**22.02**
	Bütövlükdə				
I	800	475 (210)	56 (20)	531 (230)	66.38
II	3615	2061 (279)	84 (9)	2145 (288)	59.34
III	2737	2613 (272)	14 (3)	2627 (275)	95.98
IV	475	257 (119)	12 (4)	269 (123)	56.63
V	115	61 (9)	47 (11)	108 (20)	93.91
CƏMİ	**7742**	**5467 (889)**	**213 (47)**	**5680 (936)**	**73.37**

Cədvəl 1.3.5

DÖVLƏT ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLANLARIN SAYI HAQQINDA MƏLUMAT

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)			Qəbulolma Faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Abituriyentlər				
I	14052	9797 (7686)	886 (673)	10683 (8359)	76.02
II	10074	6089 (3206)	568 (252)	6657 (3458)	66.08
III	9504	8274 (3750)	798 (181)	9072 (3931)	95.45
IV	3623	2617 (1945)	230 (113)	2847 (2058)	78.58
V	3524	2965 (1225)	370 (163)	3335 (1388)	94.64
CƏMİ	**40777**	**29742 (17812)**	**2852 (1382)**	**32594 (19194)**	**79.93**
	Subbakalavrlar				
I	14052	1341 (164)	60 (10)	1401 (174)	9.97
II	10074	1655 (254)	126 (5)	1781 (259)	17.68
III	9504	0 (0)	35 (0)	35 (0)	0.37
IV	3623	192 (140)	14 (7)	206 (147)	5.69
V	3524	46 (1)	5 (0)	51 (1)	1.45
CƏMİ	**40777**	**3234 (559)**	**240 (22)**	**3474 (581)**	**8.52**
	Bütövlükdə				
I	14052	11138 (7850)	946 (683)	12084 (8533)	85.99
II	10074	7744 (3460)	694 (257)	8438 (3717)	83.76
III	9504	8274 (3750)	833 (181)	9107 (3931)	95.82
IV	3623	2809 (2085)	244 (120)	3053 (2205)	84.27
V	3524	3011 (1226)	375 (163)	3386 (1389)	96.08
CƏMİ	**40777**	**32976 (18371)**	**3092 (1404)**	**36068 (19775)**	**88.45**

1.3.1 və 1.3.2 saylı şəkillərdə I–IV ixtisas qrupları üzrə özəl və dövlət ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin topladıqları balların paylanma diaqramları təsvir olunub. Göründüyü kimi, dövlət ali təhsil müəssisələrinə qəbul olanların 19.88%-nin, özəl ali təhsil müəssisələrinə qəbul olanların isə cəmi 2.51%-nin balı 500-700 intervalında yerləşir. Dövlət ali təhsil müəssisələrinə qəbul olanların əksəriyyətinin (70.76%) imtahan nəticələri orta (300-500) və yüksək (500-700) bal diapazonlarında yerləşdiyi halda, özəl ali təhsil müəssisələrinə qəbul olanların (51.44%) nəticələri, əsasən, aşağı (150-200 və 200-300) bal diapazonunda yerləşir.

V ixtisas qrupu üzrə qəbul olan abituriyentlər arasında bir qədər fərqli mənzərə görürük. Belə ki, V ixtisas qrupu üzrə özəl ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin əksəriyyətinin (70.44%) ən azı 150 bal topladığı halda, belələri dövlət ali təhsil müəssisələrinə qəbul olanlar arasında 28.49%-dir. Dövlət ali təhsil müəssisələrinə qəbul olanların əksəriyyəti (71.51%) 150 baldan aşağı nəticə göstərib. (1.3.3 və 1.3.4 saylı şəkillərə bax). Bunun başlıca səbəbləri V qrup üzrə özəl ali təhsil müəssisələrinə qəbul aparılan ixtisasların və bu ixtisaslara ayrılan yerlərin az olması, həmçinin bu yerlərin müsabiqəsində iştirak etmək üçün əlavə olaraq xüsusi qabiliyyət imtahanlarının verilməsi və bu imtahanlardan müvəffəq qiymət alınmasının tələb olunmamasıdır. Qeyd edək ki, yalnız 3 özəl ali təhsil müəssisəsində V ixtisas qrupuna aid ixtisaslar üçün plan yeri ayrılmışdır – Xəzər Universitetində "Dizayn" ixtisası üzrə 20 yer, "Təsviri incəsənət müəllimliyi" ixtisası üzrə 15 yer, "Odlar Yurdu" Universitetində "Dizayn" ixtisası üzrə 45 yer, Qərbi Kaspi Universitetində "Dizayn" ixtisası üzrə 35 yer ayrılmışdı. Göründüyü kimi hər 3 ali təhsil müəssisəsində abituriyentlər arasında yüksək nüfuza sahib "Dizayn" ixtisası üzrə qəbul aparılıb və V qrup üzrə ayrılan 115 yerin 100-ü bu ixtisas üzrə ayrılıb. Qeyd edək ki, dövlət ali təhsil müəssisələrinə qəbul planında V qrup üzrə 3524 yer ayrılmış və bu yerlərə 3335 abituriyent qəbul olunmuşdu. Özəl ali təhsil müəssisələrində isə ayrılan 115 yerə 108 abituriyent qəbul olunub.

ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(I-IV ixtisas qrupları üzrə)



Şəkil 1.3.1

DÖVLƏT ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(I-IV ixtisas qrupları üzrə)



Şəkil 1.3.2

ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(V qrup üzrə)



Şəkil 1.3.3

DÖVLƏT ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(V qrup üzrə)



Şəkil 1.3.4

Abituriyentlərin imtahan fənlərinə cavablarının təhlili göstərir ki, özəl ali təhsil müəssisələrinə qəbul olanların göstəriciləri dövlət ali təhsil müəssisələrinə qəbul olanların göstəricilərindən aşağıdır. Belə nəticə göstərənlər sonradan birinci kursun tədris proqramını mənimsəməkdə çətinlik çəkirlər. Ona görə də özəl ali

təhsil müəssisələri birinci kurs tələbələri üçün genişləndirilmiş tədris proqramları hazırlamalı və həmin proqramları tədrisin intensivləşdirilməsi hesabına həyata keçirməlidirlər.

Dövlət və özəl ali təhsil müəssisələrinə qəbul olmuş abituriyentlərin bilikləri arasındakı fərqin əyani müqayisəsi üçün 1.3.5 və 1.3.6 saylı şəkillər təqdim edilir. Şəkildəki diaqramlardan göründüyü kimi, həm Azərbaycan bölməsində, həm də rus bölməsində bütün fənlər üzrə üstünlük dövlət ali təhsil müəssisələrinə qəbul olan gənclərin tərəfindədir.

DÖVLƏT VƏ ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ ORTASTATİSTİK NƏTİCƏLƏRİ (XÜSUSİ QABİLİYYƏT TƏLƏB EDƏN İXTİSASLAR İSTİSNA OLMAQLA)

AZƏRBAYCAN BÖLMƏSİ



Şəkil 1.3.5

DÖVLƏT VƏ ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ ORTASTATİSTİK NƏTİCƏLƏRİ (XÜSUSİ QABİLİYYƏT TƏLƏB EDƏN İXTİSASLAR İSTİSNA OLMAQLA)

RUS BÖLMƏSİ



Şəkil 1.3.6

1.4 Xüsusi təyinatlı təhsil müəssisələrinə tələbə qəbulu

Dövlət İmtahan Mərkəzi 2020-ci il avqustun 13-də və 14-də Polis Akademiyası, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyası və Daxili Qoşunların Ali Hərbi Məktəbinə, avqustun 20-də və 21-də Dövlət Sərhəd Xidməti Akademiyası, H.Əliyev adına Ali Hərbi Məktəb və Fövqəladə Hallar Nazirliyinin Akademiyasına, avqustun 27-də Orta Hərbi Tibb Məktəbinə test üsulu ilə qəbul imtahanı keçirib. C.Naxçıvanski adına Hərbi lisey və H.Əliyev adına Hərbi liseyə sənəd verənlər isə Dövlət İmtahan Mərkəzi və Müdafiə Nazirliyinin birgə razılığına əsasən bu il ayrıca qəbul imtahanı verməmişlər və müsabiqədə 9-cu sinif buraxılış imtahanında topladıqları bal əsasında iştirak etmişlər.

Azərbaycan Ali Hərbi Məktəbinə və hərbi liseylərə qəbul ixtisaslar üzrə deyil, ümumiləşmiş şəkildə, Orta Hərbi Tibb Məktəbinə qəbul "Feldşer" ixtisası, Polis Akademiyasına "Hüquqşünaslıq", Daxili Qoşunların Ali Hərbi Məktəbinə "İctimai təhlükəsizlik və idarəetmə", Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasına "Hüquqşünaslıq", Fövqəladə Hallar Nazirliyinin Akademiyasına "Həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" və "Yanğın təhlükəsizliyi mühəndisliyi", Dövlət Sərhəd Xidmətinin Akademiyasına isə I qrup ixtisasları üzrə aparılıb.

H.Əliyev adına Ali Hərbi Məktəb, Fövqəladə Hallar Nazirliyinin Akademiyası və Dövlət Sərhəd Xidmətinin Akademiyasının I qrup ixtisaslarında təhsil almaq istəyən abituriyentlər mülki ali təhsil müəssisələrinin I qrupunun, Polis Akademiyası, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyası və Daxili Qoşunların Ali Hərbi Məktəbində təhsil almaq istəyənlər III qrupun abituriyentləri ilə birgə imtahan vermişlər.

Sənədlərin qəbulu xüsusi təyinatlı təhsil müəssisələrində aparılmış və abituriyentlər test imtahanından əvvəl həmin təhsil müəssisələrinin ixtisas-peşə tələblərinə uyğun xüsusi yoxlamalardan keçmişlər.

Xüsusi təyinatlı ali təhsil müəssisələrinə sənəd verən abituriyentlərin hamısı I mərhələdə ana dili, riyaziyyat və xarici dil fənlərindən imtahan verib. II mərhələdə H.Əliyev adına Ali Hərbi Məktəb, Fövqəladə Hallar Nazirliyinin Akademiyası və Dövlət Sərhəd Xidmətinin Akademiyasının I qrup ixtisaslarına sənəd verənlər riyaziyyat, fizika və kimya, Polis Akademiyasının, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyası və Daxili Qoşunların Ali Hərbi Məktəbinə sənəd verənlər ana dili, tarix və ədəbiyyat fənlərindən imtahan vermişlər. Orta Hərbi Tibb Məktəbinə sənəd verənlər ana dili və kimya, hərbi liseylərə sənəd verənlər isə ana dili, riyaziyyat və xarici dil fənlərindən test imtahanı vermişlər. Xüsusi təyinatlı ali təhsil müəssisələrinə qəbul ola bilməyən abituriyentlərə, müsabiqə şərtlərini ödədikləri halda, imtahan verdikləri ixtisas qrupuna daxil olan mülki ali təhsil müəssisələrinin ixtisasları üzrə müsabiqədə iştirak etmək imkanı verilmişdir.

Azərbaycan Ali Hərbi Məktəbi, Orta Hərbi Tibb Məktəbi və hərbi liseylərdə təhsil almaq istəyən abituriyentlər üçün test tapşırıqları yalnız Azərbaycan dilində, Daxili Qoşunların Ali Hərbi Məktəbində, Polis Akademiyasında, Dövlət Təhlükəsizlik Xidmətinin, Fövqəladə Hallar Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin Akademiyalarında təhsil almaq istəyən abituriyentlər üçün isə Azərbaycan və rus dillərində təqdim olunmuşdur.

Xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul Dövlət İmtahan Mərkəzi tərəfindən təsdiq olunmuş ali təhsil müəssisələrinə, ümumi və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanı proqramları əsasında aparılmışdır.

İmtahan nəticələrinin statistik təhlili nəticəsində abituriyentlərin ortastatistik portreti müəyyənləşdirilib.

Polis Akademiyası, Dövlət Təhlükəsizlik Xidməti Akademiyası və Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin ixtisasını seçən ortastatistik abituriyent ana dilindən test tapşırıqlarının 69.46/68.94, ədəbiyyatdan 60.75, riyaziyyatdan 41.10, tarixdən 61.72, ingilis dilindən isə 52.35%-ni düzgün cavablandırıb. Azərbaycan Ali Hərbi Məktəbinin, Dövlət Sərhəd Xidməti Akademiyasının və Fövqəladə Hallar Nazirliyi Akademiyasının ixtisaslarını seçən ortastatistik abituriyentin düzgün cavablarının faizi ana dilindən 44.88, riyaziyyatdan 29.82/28.59, fizikadan 20.96, kimyadan 24.78, ingilis dilindən 27.41 olub. Orta Hərbi Tibb Məktəbi abituriyentlərinin düzgün cavablarının faizi ana dilindən 45.57, kimyadan 44.26, hərbi liseylərin abituriyentlərinin düzgün cavablarının faizi isə ana dilindən 36.94, riyaziyyatdan 36.49, ingilis dilindən 23.82 olub.

1.5 Bölgələr üzrə 2020-ci il məzunlarının qəbul imtahanlarındakı nəticələrinin təhlili*

Burada ölkəmizin ayrı-ayrı bölgələrini təmsil edən məzunların imtahan nəticələrinin məktəb və rayon (şəhər) səviyyəsində elmi-statistik təhlili verilir. Bu təhlillər əsasında onların imtahan fənləri üzrə nəticələri, müxtəlif ixtisas qruplarına meyl və maraqları, ali məktəblərə qəbulolma göstəriciləri, habelə yüksək və zəif göstəricili məktəblər müəyyənləşdirilmişdir. Bu, ilk növbədə hər bir təhsil şöbəsi və məktəbin öz nəticələri haqqında dolğun məlumat əldə etməsi məqsədinə xidmət edir.

Materiallarda hər bölgə üzrə məzunların buraxılış imtahanındakı göstəriciləri bölgənin tam seçməsi üzrə təqdim edilmişdir. Bölgənin məzunlarının qəbul imtahanlarında ümumi və fənlər üzrə ayrılıqda əldə etdikləri nəticələr kimi isə onların I–IV qruplar üzrə keçirilən imtahanlarda topladıqlar ballar götürülmüşdür. V qrup üzrə müsabiqə buraxılış imtahanının nəticəsi əsasında aparıldığı üçün bu qrup üzrə abituriyentlərin göstəriciləri ayrıca verilməmişdir.

Bakı şəhəri:

2020-ci ildə şəhərin ümumtəhsil müəssisələrini 19628 şagird bitirib və onların 19172 nəfəri buraxılış imtahanında iştirak edib.

Şəhərin məzunlarının buraxılış imtahanında topladıqları orta bal respublika üzrə orta göstəricidən tədris dili fənni üzrə (59.44) 19.61%, riyaziyyat fənni üzrə (33.96) 15.35%, xarici dil fənni üzrə (45.23) 22.93%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (138.64) isə respublika üzrə orta göstəricidən 19.67% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 12.42%-i 30 və daha az, 50.09%-i 30-70 intervalında, 37.48%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 55.53%, 31.69% və 12.78%, xarici dil fənni üzrə isə 37.90%, 39.32% və 22.78% olmuşdur. Ümumilikdə 19421 nəfər attestat alıb.

Attestat alanların 82.33%-i (15989 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 61.21%-i (11888 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib.

Respublika üzrə rayonun (şəhərin) fərqlənən məktəblərini müəyyən etmək üçün aşağıdakı meyarlar əsas götürülmüşdür:

- Ali təhsil müəssisələrinə I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən məzunlarının sayı 10-dan və iştiraketmə faizi 50-dən az olmamalı və yaxud məzunlarının sayı 5-dən və iştiraketmə faizi 80-dən az olmamalı;
- Rayon və şəhər məktəblərinin məzunlarının I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal müvafiq olaraq 300 və 350 baldan az olmamalı;
- Məktəbin məzunlarının buraxılış imtahanında ana dili və riyaziyyat fənləri üzrə birlikdə və ayrı-ayrılıqda topladıqları orta bal ən azı respublika üzrə orta göstəriciyə bərabər olmalıdır.

Rayon (şəhər) üzrə fərqlənən məktəbləri müəyyən etmək üçün aşağıdakı meyarlar əsas götürülmüşdür:

- Ali təhsil müəssisələrinə I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən məzunlarının sayı 10-dan və iştiraketmə faizi 50-dən az olmamalı və yaxud məzunlarının sayı 5-dən və iştiraketmə faizi 80-dən az olmamalı;
- Rayon (şəhər) məktəblərinin məzunlarının I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal ən azı respublika üzrə orta göstəriciyə bərabər olmalı;
- Məktəbin məzunlarının buraxılış imtahanında ana dili və riyaziyyat fənləri üzrə birlikdə və ayrı-ayrılıqda topladıqları orta bal ən azı rayon (şəhər) üzrə orta göstəriciyə bərabər olmalıdır.

Hər il respublikada bütün fənlər üzrə ən yüksək nəticələri liseylərin məzunları əldə edirlər və onların nəticələri bölgələrin məzunlarının nəticələrindən kəskin şəkildə fərqlənir. Qeyd olunan hal respublikadakı real mənzərəni görməyə imkan vermir və bu səbəbdən fənlər üzrə respublikanın ən yüksək nəticə göstərən bölgələri haqqında məlumat müəyyən edilərkən TN tabeli və özəl liseylərin göstəriciləri nəzərə alınmır.

Qəbul imtahanlarının nəticələrinə əsasən şəhərin 9971 məzunu (imtahanlarda iştirak edənlərin 55.47%-i) tələbə adını qazanıb. Onların 55.06%-i (5490 nəfəri) dövlət, 2.35%-i (234 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 33.11%-i (3301 nəfəri) dövlət, 9.49%-i (946 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Şəhərin məzunlarının 2010 nəfəri 500-dən, o cümlədən 573 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olub.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 10.58% (1692 nəfər), 100-200 intervalında 23.44% (3748 nəfər), 200-300 intervalında 22.38% (3578 nəfər), 300-500 intervalında 31.03% (4961 nəfər), 500-dən yuxarı 12.57% (2010 nəfər). Beləliklə, şəhərin abituriyentlərinin yalnız 43.60%-i 300-dən yuxarı bal toplayıb.

Şəhərin attestat qiymətləri əla olan abituriyentlərindən 4.67%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 45.53%-dir.

Qəbul imtahanlarında 304 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən 185 saylı və 105 saylı tam orta məktəblərin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il şəhərin 54, 108, 129, 145, 270, 290, 313, 327 saylı tam orta məktəbləri, 20, 62, 72, 83 və 220 saylı məktəb-liseyləri, Texniki humanitar lisey, 291 saylı Ekologiya liseyi, 160 saylı klassik gimnaziya və 287 saylı "Zəkalar" liseyi daxil olub.

Azərbaycan bölməsi:

Şəhərin abituriyentlərinin I-IV qruplarda kimya və tarix fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq kimyadan - 0.32%, tarixdən - 0.79% təşkil edir.

Ana dili, ədəbiyyat, riyaziyyat, fizika, biologiya və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Abituriyentlərin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 292.632-yə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 4.9% yuxarıdır.

Rus bölməsi:

Şəhərin abituriyentlərinin göstəriciləri I-IV qruplarda ana dili, ədəbiyyat, fizika və tarix fənləri üzrə respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 0.02%, ədəbiyyatdan - 1.37%, fizikadan - 0.63%, tarixdən - 6.86% təşkil edir.

Şəhərin riyaziyyat, kimya, biologiya və coğrafiya fənləri üzrə göstəriciləri respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Riyaziyyat, biologiya və coğrafiya fənləri üzrə şəhərin göstəriciləri respublika üzrə ən yüksək göstəriciyə bərabərdir.

Abituriyentlərin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 284.253-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 1.2% yuxarıdır.

Naxçıvan şəhəri:

2020-ci ildə şəhərin ümumtəhsil müəssisələrini 720 şagird bitirib və onların 719 nəfəri buraxılış imtahanında iştirak edib.

Şəhərin məzunlarının buraxılış imtahanında topladıqları orta bal respublika üzrə orta göstəricidən tədris dili fənni üzrə 56.75-ə, riyaziyyat fənni üzrə 32.27-yə, xarici dil fənni üzrə 42.23-ə, hər üç fənn üzrə birlikdə topladıqları orta bal 131.25-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 14.19%, 9.62%, 14.77%, 13.35% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 15.72%-i 30 və daha az, 49.65%-i 30-70 intervalında, 34.63%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 56.19%, 33.80% və 10.01%, xarici dil fənni üzrə isə 38.94%, 46.31% və 14.74% olmuşdur. Ümumilikdə 720 nəfər attestat alıb.

Attestat alanların 83.89%-i (604 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 78.89%-i (568 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 89.17%-i (642 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən şəhərin 457 məzunu (imtahanlarda iştirak edənlərin 71.18%-i) tələbə adını qazanıb. Onların 45.51%-i (208 nəfəri) dövlət, 0.22%-i (1 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 41.36%-i (189 nəfəri) dövlət, 12.91%-i (59 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Şəhərin abituriyentlərinin I-IV qruplarda ana dili fənni üzrə göstəricisi respublikanın orta göstəricisindən aşağıdır. Fərq 0.71% təşkil edir.

Ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Şəhərin məzunlarının 98 nəfəri 500-dən, o cümlədən 23 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutuna qəbul olub.

Şəhərin abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 313.23-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 12.3% yuxarıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 7.78% (47 nəfər), 100-200 intervalında 23.68% (143 nəfər), 200-300 intervalında 18.71% (113 nəfər), 300-500 intervalında 33.61% (203 nəfər), 500-dən yuxarı 16.23% (98 nəfər). Beləliklə, şəhərin abituriyentlərinin yalnız 49.83%-i 300-dən yuxarı bal toplayıb.

Şəhərin attestat qiymətləri əla olan abituriyentlərindən 3.85%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 50.00%-dir.

Qəbul imtahanlarında 20 məktəbin məzunları iştirak edib.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il şəhərin Naxçıvan şəhər qızlar liseyi, Naxçıvan Qarnizonu tam orta məktəbi və Heydər Əliyev adına tam orta məktəbi daxil olub.

Naxçıvan MR Babək rayonu:

2020-ci ildə rayonun ümumtəhsil müəssisələrini 492 şagird bitirib və onların 491 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında topladıqları orta bal respublika üzrə orta göstəricidən tədris dili fənni üzrə (46.44) 6.56%, riyaziyyat fənni üzrə (23.19) 21.24%, xarici dil fənni üzrə (32.48) 11.74%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (102.10) isə respublika üzrə orta göstəricidən 11.83% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 31.77%-i 30 və daha az, 47.45%-i 30-70 intervalında, 20.77%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 74.34%, 21.79% və 3.87%, xarici dil fənni üzrə isə 56.62%, 36.86% və 6.52% olmuşdur. Ümumilikdə 491 nəfər attestat alıb.

Attestat alanların 72.91%-i (358 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 60.08%-i (295 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 78.82%-i (387 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 231 məzunu (imtahanlarda iştirak edənlərin 59.69%-i) tələbə adını qazanıb. Onların 45.02%-i (104 nəfəri) dövlət ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 40.69%-i (94 nəfəri) dövlət, 14.29%-i (33 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, riyaziyyat, fizika və kimya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 6.08%, riyaziyyatdan - 9.76%, fizikadan - 0.11%, kimyadan - 1.81% təşkil edir.

Ədəbiyyat, biologiya, tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 34 nəfəri 500-dən, o cümlədən 9 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və "Naxçıvan" Universitetinə (Naxçıvan şəhəri) qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 277.956-ya bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 0.4% aşağıdır.

0-100 intervalında 27.27% (99 nəfər), 100-200 intervalında 23.97% (87 nəfər), 200-300 intervalında 21.21% (77 nəfər), 300-500 intervalında 23.14% (84 nəfər), 500-dən yuxarı 4.41% (16 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 27.55%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 21.82%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 16.36%-dir.

Qəbul imtahanlarında 34 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Sarıcalı kənd 2 saylı tam orta məktəbinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

A.Həsənov adına Buruc kənd tam orta məktəbi abituriyentlərinin I-IV qruplar üzrə topladığı orta bal 100-dən aşağıdır.

Tovuz rayonu:

2020-ci ildə rayonun ümumtəhsil müəssisələrini 1480 şagird bitirib və onların 1466 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında topladıqları orta bal respublika üzrə orta göstəricidən tədris dili fənni üzrə (43.45) 12.56%, riyaziyyat fənni üzrə (26.58) 9.70%, xarici dil fənni üzrə (30.90) 16.01%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (100.94) isə respublika üzrə orta göstəricidən 12.83% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 35.40%-i 30 və daha az, 47.82%-i 30-70 intervalında, 16.78%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 66.71%, 24.62% və 8.66%, xarici dil fənni üzrə isə 60.44%, 32.20% və 7.37% olmuşdur. Ümumilikdə 1470 nəfər attestat alıb.

Attestat alanların 61.36%-i (902 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 58.30%-i (857 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 72.18%-i (1061 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 521 məzunu (imtahanlarda iştirak edənlərin 49.10%-i) tələbə adını qazanıb. Onların 62.57%-i (326 nəfəri) dövlət, 0.77%-i (4 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 29.37%-i (153 nəfəri) dövlət, 7.29%-i (38 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ədəbiyyat, biologiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ədəbiyyatdan - 0.29%, biologiyadan - 11.55% təşkil edir.

Ana dili, riyaziyyat, fizika, kimya, tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 93 nəfəri 500-dən, o cümlədən 23 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 280.251-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 0.5% yuxarıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 10.75% (97 nəfər), 100-200 intervalında 22.84% (206 nəfər), 200-300 intervalında 25.61% (231 nəfər), 300-500 intervalında 30.49% (275 nəfər), 500-dən yuxarı 10.31% (93 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 40.80%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 10.73%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 28.29%-dir.

Qəbul imtahanlarında 64 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Yanıxlı kənd 2 saylı, M.Yusifov adına Məşədivəllər kənd, C.Abdullayev adına Ağbaşlar kənd, Səfərli kənd və Əhmədabad kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun N.Tusi adına Təbiət və texniki təmayüllü məktəb-liseyi daxil olub.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında Z.Yusifov adına Bayramlı kənd, Y.Sadıqov adına Bozalqanlı kənd və Azaflı kənd tam orta məktəblərini qeyd etmək olar.

Ucar rayonu:

2020-ci ildə rayonun ümumtəhsil müəssisələrini 602 şagird bitirib və onların 600 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında topladıqları orta bal respublika üzrə orta göstəricidən tədris dili fənni üzrə 41.87-yə, riyaziyyat fənni üzrə 23.22-yə, xarici dil fənni üzrə 26.11-ə, hər üç fənn üzrə birlikdə topladıqları orta bal 91.21-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 15.74%, 21.12%, 29.04%, 21.23% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 35.67%-i 30 və daha az, 51.17%-i 30-70 intervalında, 13.17%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 73.33%, 21.00% və 5.67%, xarici dil fənni üzrə isə 74.17%, 21.83% və 4.00% olmuşdur. Ümumilikdə 600 nəfər attestat alıb.

Attestat alanların 62.00%-i (372 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 64.33%-i (386 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 70.17%-i (421 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 171 məzunu (imtahanlarda iştirak edənlərin 40.62%-i) tələbə adını qazanıb. Onların 56.73%-i (97 nəfəri) dövlət, 3.51%-i (6 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 28.65%-i (49 nəfəri) dövlət, 11.11%-i (19 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, tarix və coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 5.73%, ədəbiyyatdan - 14.50%, riyaziyyatdan - 11.05%, fizikadan - 19.90%, kimyadan - 11.17%, biologiyadan - 18.57%, tarixdən - 20.11%, coğrafiyadan - 11.61% təşkil edir.

Rayonun məzunlarının 21 nəfəri 500-dən, o cümlədən 4 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 236.512-yə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 15.2% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 14.78% (55 nəfər), 100-200 intervalında 34.68% (129 nəfər), 200-300 intervalında 20.16% (75 nəfər), 300-500 intervalında 24.73% (92 nəfər), 500-dən yuxarı 5.65% (21 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 30.38%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 11.43%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 20.00%-dir.

Qəbul imtahanlarında 36 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən S.Salmanov adına Bağman kənd, T.Cavadov adına Yuxarı Şilyan kənd, Rəstəcə kənd və Pirkənd kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında Qazıqumlaq kənd 2 saylı tam orta məktəbini qeyd etmək olar.

Yardımlı rayonu:

2020-ci ildə rayonun ümumtəhsil müəssisələrini 478 şagird bitirib və onların 469 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında topladıqları orta bal respublika üzrə orta göstəricidən tədris dili fənni üzrə 32.66-ya, riyaziyyat fənni üzrə 24.35-ə, xarici dil fənni üzrə 23.21-ə, hər üç fənn üzrə birlikdə topladıqları orta bal 80.21-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 34.29%, 17.30%, 36.93%, 30.73% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 54.16%-i 30 və daha az, 41.15%-i 30-70 intervalında, 4.69%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 66.31%, 28.14% və 5.54%, xarici dil fənni üzrə isə 78.25%, 17.48% və 4.26% olmuşdur. Ümumilikdə 471 nəfər attestat alıb.

Attestat alanların 53.08%-i (250 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 41.83%-i (197 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 59.45%-i (280 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 128 məzunu (imtahanlarda iştirak edənlərin 45.71%-i) tələbə adını qazanıb. Onların 55.47%-i (71 nəfəri) dövlət, 2.34%-i (3 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 34.38%-i (44 nəfəri) dövlət, 7.81%-i (10 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, ədəbiyyat, fizika və kimya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 15.28%, ədəbiyyatdan - 11.48%, fizikadan - 1.03%, kimyadan - 1.00% təşkil edir.

Riyaziyyat, tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 12 nəfəri 500-dən, o cümlədən 3 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Dövlət Universiteti və Lənkəran Dövlət Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 249.856-ya bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 10.4% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 18.40% (46 nəfər), 100-200 intervalında 28.00% (70 nəfər), 200-300 intervalında 18.40% (46 nəfər), 300-500 intervalında 30.40% (76 nəfər), 500-dən yuxarı 4.80% (12 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 35.20%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 29.21%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 10.11%-dir.

Qəbul imtahanlarında 46 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Yolocaq kənd, Alar kənd, Porsova kənd, Perinbel kənd və Separadi kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Yolocaq kənd tam orta məktəbi abituriyentlərinin I-IV qruplar üzrə topladığı orta bal 100-dən aşağıdır.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında Şəhər 1 saylı və Çayüzü kənd tam orta məktəblərini qeyd etmək olar.

Yevlax rayonu:

2020-ci ildə rayonun ümumtəhsil müəssisələrini 1090 şagird bitirib və onların 1042 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında topladıqları orta bal respublika üzrə orta göstəricidən tədris dili fənni üzrə 41.58-ə, riyaziyyat fənni üzrə 19.81-ə, xarici dil fənni üzrə 29.93-a, hər üç fənn üzrə birlikdə topladıqları orta bal 91.33-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 16.33%, 32.70%, 18.65%, 21.13% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 41.84%-i 30 və daha az, 39.16%-i 30-70 intervalında, 19.00%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 75.62%, 22.65% və 1.73%, xarici dil fənni üzrə isə 62.00%, 31.19% və 6.81% olmuşdur. Ümumilikdə 1044 nəfər attestat alıb.

Attestat alanların 58.52%-i (611 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 50.77%-i (530 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 66.57%-i (695 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 308 məzunu (imtahanlarda iştirak edənlərin 44.32%-i) tələbə adını qazanıb. Onların 52.60%-i (162 nəfəri) dövlət, 1.30%-i (4 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 39.94%-i (123 nəfəri) dövlət, 6.17%-i (19 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, riyaziyyat, fizika, kimya, biologiya, tarix və coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 0.25%, riyaziyyatdan - 23.04%, fizikadan - 14.19%, kimyadan - 19.25%, biologiyadan - 1.25%, tarixdən - 1.09%, coğrafiyadan - 22.47% təşkil edir.

Ədəbiyyat fənni üzrə göstərici respublika üzrə orta göstəricidən yuxarıdır.

Rayonun məzunlarının 45 nəfəri 500-dən, o cümlədən 9 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti və Mingəçevir Dövlət Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 246.407-yə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 11.7% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 16.86% (103 nəfər), 100-200 intervalında 30.11% (184 nəfər), 200-300 intervalında 18.82% (115 nəfər), 300-500 intervalında 26.84% (164 nəfər), 500-dən yuxarı 7.36% (45 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 34.21%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 21.08%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 15.20%-dir.

Qəbul imtahanlarında 40 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Nemətabad kənd və Rüstəmli kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında 8 saylı şəhər tam orta məktəblərini qeyd etmək olar.

Zaqatala rayonu:

2020-ci ildə rayonun ümumtəhsil müəssisələrini 897 şagird bitirib və onların 894 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında topladıqları orta bal respublika üzrə orta göstəricidən tədris dili fənni üzrə (47.68) 4.05%, riyaziyyat fənni üzrə (24.84) 15.64%, xarici dil fənni üzrə (33.43) 9.15%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (105.95) isə respublika üzrə orta göstəricidən 8.50% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 26.73%-i 30 və daha az, 55.03%-i 30-70 intervalında, 18.23%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 71.81%, 20.58% və 7.61%, xarici dil fənni üzrə isə 61.07%, 26.62% və 12.30% olmuşdur. Ümumilikdə 894 nəfər attestat alıb.

Attestat alanların 57.94%-i (518 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 47.43%-i (424 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 65.44%-i (585 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 310 məzunu (imtahanlarda iştirak edənlərin 52.99%-i) tələbə adını qazanıb. Onların 61.94%-i (192 nəfəri) dövlət, 8.39%-i (26 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 23.55%-i (73 nəfəri) dövlət, 6.13%-i (19 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, ədəbiyyat, tarix və coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 6.93%, ədəbiyyatdan - 5.49%, tarixdən - 9.95%, coğrafiyadan - 2.46% təşkil edir.

Riyaziyyat, fizika, kimya və biologiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 60 nəfəri 500-dən, o cümlədən 21 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Azərbaycan Dövlət İqtisad Universiteti və Bakı Dövlət Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 275.919-a bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 1.1% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 11.58% (60 nəfər), 100-200 intervalında 27.61% (143 nəfər), 200-300 intervalında 21.24% (110 nəfər), 300-500 intervalında 27.99% (145 nəfər), 500-dən yuxarı 11.58% (60 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 39.58%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 9.87%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 33.55%-dir.

Qəbul imtahanlarında 49 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Uzuntala kənd, Kəpənəkçi kənd, Yolayrıc kənd və Zəyəm kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun Akademik Z.Əliyeva adına Texniki fənlər liseyi daxil olub.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında 2 saylı şəhər tam orta məktəbini qeyd etmək olar.

Zəngilan rayonu:

2020-ci ildə rayonun ümumtəhsil müəssisələrini 453 şagird bitirib və onların 448 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında topladıqları orta bal respublika üzrə orta göstəricidən tədris dili fənni üzrə 59.59-a, riyaziyyat fənni üzrə 35.24-ə, xarici dil fənni üzrə 44.33-ə, hər üç fənn üzrə birlikdə topladıqları orta bal 139.16-ya bərabərdir. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 19.91%, 19.70%, 20.49%, 20.18% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 14.06%-i 30 və daha az, 47.54%-i 30-70 intervalında, 38.39%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 52.23%, 33.71% və 14.06%, xarici dil fənni üzrə isə 37.28%, 42.19% və 20.54% olmuşdur. Ümumilikdə 448 nəfər attestat alıb.

Attestat alanların 83.93%-i (376 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 66.52%-i (298 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 91.96%-i (412 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 246 məzunu (imtahanlarda iştirak edənlərin 59.71%-i) tələbə adını qazanıb. Onların 41.46%-i (102 nəfəri) dövlət, 1.22%-i (3 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 48.78%-i (120 nəfəri) dövlət, 8.54%-i (21 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 51 nəfəri 500-dən, o cümlədən 14 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 307.652-yə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 10.3% yuxarıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 6.12% (23 nəfər), 100-200 intervalında 24.47% (92 nəfər), 200-300 intervalında 21.28% (80 nəfər), 300-500 intervalında 34.57% (130 nəfər), 500-dən yuxarı 13.56% (51 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 48.14%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 10.71%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 26.79%-dir.

Qəbul imtahanlarında 31 məktəbin məzunları iştirak edib.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun 4, 5, 6, 9 və 26 saylı tam orta məktəbləri daxil olub.

Zərdab rayonu:

2020-ci ildə rayonun ümumtəhsil müəssisələrini 419 şagird bitirib və onların 418 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında topladıqları orta bal respublika üzrə orta göstəricidən tədris dili fənni üzrə (38.76) 22.01%, riyaziyyat fənni üzrə (24.71) 16.05%, xarici dil fənni üzrə (26.23) 28.71%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (89.70) isə respublika üzrə orta göstəricidən 22.53% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 41.87%-i 30 və daha az, 47.85%-i 30-70 intervalında, 10.29%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 69.86%, 23.68% və 6.46%, xarici dil fənni üzrə isə 71.77%, 25.36% və 2.87% olmuşdur. Ümumilikdə 418 nəfər attestat alıb.

Attestat alanların 64.11%-i (268 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 69.62%-i (291 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 73.44%-i (307 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 141 məzunu (imtahanlarda iştirak edənlərin 45.93%-i) tələbə adını qazanıb. Onların 50.35%-i (71 nəfəri) dövlət, 7.80%-i (11 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 26.95%-i (38 nəfəri) dövlət, 14.89%-i (21 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, ədəbiyyat, riyaziyyat, tarix, coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 10.33%, ədəbiyyatdan - 2.39%, riyaziyyatdan - 15.73%, tarixdən - 3.50%, coğrafiyadan - 12.98% təşkil edir.

Fizika və kimya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 19 nəfəri 500-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Azərbaycan Dövlət Pedaqoji Universiteti və Bakı Dövlət Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 243.779-a bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 12.6% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 18.28% (49 nəfər), 100-200 intervalında 30.60% (82 nəfər), 200-300 intervalında 17.91% (48 nəfər), 300-500 intervalında 26.12% (70 nəfər), 500-dən yuxarı 7.09% (19 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 33.21%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər cəmi 35.29%-dir.

Qəbul imtahanlarında 28 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən C.Azayev adına Şahhüseynli kənd və C.Məmmədquluzadə adına Yuxarı Seyidlər kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

C.Azayev adına Şahhüseynli kənd tam orta məktəbi abituriyentlərinin I-IV qruplar üzrə topladığı orta bal 100-dən aşağıdır.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında İ.Nəsimi adınaYarməmmədbağı kənd tam orta məktəbini qeyd etmək olar.

Liseylər (TN tabeli və özəl):

2020-ci ildə TN tabeli və özəl liseyləri 2143 şagird bitirib və onların 1983 nəfəri buraxılış imtahanında iştirak edib.

Bu liseylərin məzunlarının buraxılış imtahanında topladıqları orta bal tədris dili fənni üzrə 72.95-ə, riyaziyyat fənni üzrə 52.52-yə, xarici dil fənni üzrə 68.33-ə, hər üç fənn üzrə birlikdə topladıqları orta bal 195.28-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 46.78%, 78.42%, 85.69%, 68.36% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 3.40%-i 30 və daha az, 32.16%-i 30-70 intervalında, 64.44%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 27.45%, 39.79% və 32.76%, xarici dil fənni üzrə isə 11.68%, 30.43% və 57.89% olmuşdur. Ümumilikdə 2132 nəfər attestat alıb.

Attestat alanların 70.26%-i (1498 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 32.88%-i (701 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib.

Qəbul imtahanlarının nəticələrinə əsasən liseylərin 1138 məzunu (imtahanlarda iştirak edənlərin 69.43%-i) tələbə adını qazanıb. Onların 63.01%-i (717 nəfəri) dövlət, 1.93%-i (22 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 30.93%-i (352 nəfəri) dövlət, 4.13%-i (47 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Liseylərin məzunlarının 457 nəfəri 500-dən, o cümlədən 191 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olub.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 2.20% (33 nəfər), 100-200 intervalında 10.21% (153 nəfər), 200-300 intervalında 18.49% (277 nəfər), 300-500 intervalında 38.58% (578 nəfər), 500-dən yuxarı 30.51% (457 nəfər). Beləliklə, liseylərin abituriyentlərinin yalnız 69.09%-i 300-dən yuxarı bal toplayıb.

Liseylərin attestat qiymətləri əla olan abituriyentlərindən 3.64%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 55.13%-dir.

Qəbul imtahanlarında 49 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Avropa Azərbaycan məktəbi, ADA Universitetinin nəzdində "ADA" məktəbi, Azərbaycan Dövlət Dəmir Yolu Liseyi, "Oxbridge Academy" ümumi təhsil müəssisəsi, Zərdabi kənd yetim və valideyn hüququndan məhrum uşaqlar üçün internat tam orta məktəbinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Azərbaycan Dövlət Dəmir Yolu Liseyi abituriyentlərinin I-IV qruplar üzrə topladığı orta bal 100-dən aşağıdır.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il Bakı Türk liseyi (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi), Akademik Z.Əliyeva adına lisey, Kimya-biologiya təmayüllü lisey, BDU-nun nəzdində "Gənc istedadlar" liseyi, Fizika, riyaziyyat və informatika təmayüllü lisey, Humanitar fənlər təmayüllü məktəb-lisey, Bakı Avropa liseyi, Fizika-riyaziyyat təmayüllü lisey, Kaspi liseyi, S.C.Pişəvəri adına Humanitar fənlər gimnaziyası, "Evrika" liseyi, 289 saylı tam orta məktəb "Zəngi" liseyi, Azərbaycan Respublikası Təhsil Nazirliyi, Heydər Əliyev adına lisey, "Kaspi" liseyinin Xətai filialı, İ.Hacıyev adına "Tərəqqi" liseyi, İ.Əfəndiyev adına "Elitar" gimnaziya, "İdrak" liseyinin Bakı filialı, S.Bəhlulzadə adına Xarici dillər təmayüllü gimnaziya daxil olub.

Azərbaycan bölməsi:

Ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Abituriyentlərin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 409.255-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 46.7% yuxarıdır.

Rus bölməsi:

Ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, tarix və coğrafiya fənləri üzrə göstəriciləri respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Abituriyentlərin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 368.555-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 31.2% yuxarıdır.

2. ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL

Azərbaycan Respublikası Prezidentinin 6 aprel 2005-ci il tarixli 219 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamə"yə uyğun olaraq, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq ölkəmizin bütün ali təhsil müəssisələrinin magistratura səviyyəsinə qəbul 2005-2015-ci illərdə TQDK tərəfindən həyata keçirilib. 2016-cı ildən isə ali təhsilin bu səviyyəsi üzrə qəbulu Dövlət İmtahan Mərkəzi mərkəzləşdirilmiş qaydada həyata keçirir.

Hər il magistratura səviyyəsinə qəbul imtahanlarına hazırlıq məqsədi ilə ali təhsil müəssisələrinin ixtisaslarının tədris planları təhlil olunur və onların klasterləşdirilməsi aparılır. Müəyyən edilmiş hər bir ixtisaslaşma istiqaməti üzrə qəbul proqramları hazırlanır, test sualları tərtib edilir və onların qapalı şəraitdə ekspertizası keçirilir. Qəbul proqramları "Magistr" jurnalında çap edilərək bakalavrların istifadəsinə verilir. İmtahanların məzmununu təşkil edən bütün bu materialları DİM-in mütəxəssislərinin təşkilatçılığı ilə respublikanın ali təhsil müəssisələrinin müvafiq ixtisas kafedralarının professor-müəllim heyəti hazırlayır.

Azərbaycan Respublikası Prezidentinin "Ali təhsil müəssisələrində yeni maliyyələşdirmə mexanizminin tətbiq edilməsi barədə" 10 fevral 2010-cu il tarixli Fərmanına əsasən, 2010/2011-ci tədris ilindən başlayaraq respublikanın ali təhsil müəssisələrində magistr hazırlığına sərf olunan dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirmə dövlət sifarişi əsasında adambaşına maliyyələşdirmə prinsipi ilə reallaşdırılır. Bu prinsipə əsasən, müəyyən bir ixtisaslaşma üzrə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən tələbə yerlərinə müsabiqə ayrı-ayrı ali təhsil müəssisələri çərçivəsində deyil, bütövlükdə həmin ixtisaslaşma üzrə dövlət sifarişini yerinə yetirən bütün ali təhsil müəssisələri üzrə birlikdə həyata keçirilir. Bu o deməkdir ki, müəyyən ixtisaslaşma üzrə dövlət sifarişi əsasında kadr hazırlığı üçün ali təhsil müəssisəsinə dövlət büdcəsindən ayrılan maliyyə vəsaiti yalnız birgə müsabiqədən keçərək həmin ali təhsil müəssisəsinin magistraturasına qəbul olan bakalavrların sayından asılı olaraq verilir. Beləliklə, ali təhsil müəssisəsinə dövlət sifarişi üzrə qəbul olan bakalavrın təhsili üçün nəzərdə tutulan vəsait həmin ali təhsil müəssisəsinin hesabına köçürülür.

2020-ci ildə respublikanın 33 dövlət və 11 özəl ali təhsil müəssisəsinin magistratura səviyyəsinə qəbul imtahanı keçirilib. Qəbul aparılan ixtisaslaşmalar 74 proqram üzrə qruplaşdırılıb. Qəbul "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul qaydaları" ilə tənzimlənib. Qaydalara əsasən magistratura səviyyəsinə qəbul olmaq hüququna bakalavrlar və digər ali təhsilli şəxslər malikdirlər.

Magistratura səviyyəsinə sənədlərin qəbulu internet vasitəsilə aparılıb. İmtahanda iştirak etmək üçün bakalavrlar 2020-ci il fevralın 3-dən 13-dək DİM-in internet saytının *ekabinet.dim.gov.az* səhifəsində "Şəxsi kabinet" yaradıblar. Bundan sonra onlar ərizə vermək üçün tələb olunan məbləği (müsabiqə ödənişli olub) "Şəxsi kabinet"lərindəki hesablarına əlavə ediblər. Daha sonra bakalavrlar "Şəxsi kabinet"lərinin istfadəçi adı və parolundan istifadə etməklə DİM-in internet saytının müvafiq səhifəsinə (*http://eservices.dim.gov.az/erizemag/erize*) daxil olub "Bakalavrın elektron ərizəsi" formasını doldurub təsdiq ediblər.

Cari ildə ilk dəfə olaraq magistraturaya qəbul imtahanı bir mərhələli formada keçirilmişdir. İmtahan DİM tərəfindən mərkəzləşdirilmiş qaydada, bakalavrların ümumi intellekt səviyyəsinin (məntiqi təfəkkürünün), informatika və xarici dil biliklərinin qiymətləndirilməsi üzrə keçirilib. Bakalavrlara məntiqi təfəkkür üzrə 50, xarici dil üzrə 25 və informatika üzrə 25 test tapşırığı təqdim olunub. Hər bir blok üzrə son 5 sual açıq formalı test tapşırıqlarından ibarət olub. İmtahan suallarının cavablandırılmasına 3 saat vaxt ayrılıb. Bakalavrların hər düzgün cavabı bir balla qiymətləndirilib. Tədrisi Azərbaycan dilində olan ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrlara ingilis, alman, fransız və ya rus dilini, tədrisi rus dilində olan ixtisaslaşmalara qəbul olmaq istəyənlərə ingilis, alman və ya fransız dilini, tədrisi ingilis (alman) dilində olan ixtisaslaşmalara qəbul olmaq istəyənlərə isə qəbul imtahanında xarici dil kimi yalnız ingilis (alman) dilini seçmək imkanı verilib.

Filologiya ixtisasının Azərbaycan dili və Azərbaycan ədəbiyyatı, eləcə də və tarix ixtisasının tədrisi Azərbaycan dilində olan ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlara (HS 020100 Azərbaycan dili, HS 020200 Azərbaycan dili və ədəbiyyatı, 050101 Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, HS 070100 Tarix, 050206 Tarix və 050113 Tarix müəllimliyi ixtisasları üzrə bakalavr dərəcəsi olanlara) xarici dil kimi ərəb və ya fars dilini də seçmək imkanı verilib.

Filologiya (xarici dil və ədəbiyyat), xarici dil və ədəbiyyat müəllimliyi, xarici dil müəllimliyi və tərcümə ixtisasları üzrə ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrlara (HS 020000 Filologiya (xarici dil və ədəbiyyat) və HS 040000 Dilşünaslıq (xarici dillər üzrə) istiqamətləri üzrə, həmçinin 050201 Filologiya (xarici dil və ədəbiyyat), 050102 Xarici dil və ədəbiyyat müəllimliyi, 050103 Xarici dil müəllimliyi və 050203 Tərcümə ixtisasları üzrə bakalavr dərəcəsi olanlar nəzərdə tutulur), ixtisaslaşma dili istisna olmaqla, xarici dil kimi yuxarıda göstərilən digər xarici dillərdən birini seçmək imkanı verilib.

Regionşünaslıq (Amerikaşünaslıq), regionşünaslıq (ABŞ və Kanada üzrə), ölkəşünaslıq (Böyük Britaniyaşünaslıq) ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlar xarici dil kimi yalnız ingilis dilini, ölkəşünaslıq (Almaniyaşünaslıq) ixtisaslaşmasına qəbul olmaq istəyən bakalavrlar yalnız alman dilini, ölkəşünaslıq (Fransaşünaslıq) ixtisaslaşmasına qəbul olmaq istəyən bakalavrlar isə yalnız fransız dilini seçə bilərdilər.

Qəbul imtahanının nəticələrinə görə DİM tərəfindən müəyyən olunmuş şərtləri (bax: cədvəl 2.1) ödəyən bakalavrlar ixtisaslaşma seçiminə buraxılıblar.

Qəbul aparılan ixtisaslaşmalar qəbul proqramları üzrə qruplaşdırılıb. Hər bir bakalavrın seçdiyi magistr ixtisaslaşması onun bitirdiyi bakalavr ixtisasına müvafiq olub. İxtisaslaşma seçiminə kömək məqsədi ilə "Magistratura səviyyəsi üzrə ixtisaslaşma seçimi cədvəli" tərtib edilərək "Magistr" jurnalının 3-cü sayında çap olunub və bununla hər bir bakalavrın bitirdiyi ixtisasa uyğun olaraq verilən ixtisaslaşma seçimi imkanlarından istifadə etməsinə şərait yaradılıb.

Artıq ikinci ildir ki, qəbul imtahanında bakalavrlara xarici dil fənnindən dinləmə mətnləri üzrə test tapşırıqları təqdim olunmuşdur. Hər bir xarici dil fənni üzrə dinləmə mətnləri əvvəlcədən DİM-in səsyazma studiyasında səsləndirilmiş və arxivləşdirilmişdir. İmtahanda bakalavrlara 1 dinləmə mətni və bu mətnə aid 5 test tapşırığı təqdim olunmuşdur. Dinləmə mətninin audiofaylı bir audioqurğuya yazılmış və hər audioqurğu yalnız bir imtahan zalına aid olmuşdur. Dinləmə mətni bütün imtahan zallarında imtahanın əvvəlində səsləndirilmişdir. İmtahan başlandıqda audioqurğu yerləşdiyi zərfdən çıxarılmış və işə salınmışdır. 2 dəqiqə ərzində imtahan zallarındakı bakalavrlar həmin dinləmə mətni üzrə onlara təqdim olunan tapşırıqlarla tanış olmuşlar. Dinləmə mətni bütün zallarda arada 2 dəqiqəlik fasilə olmaqla 2 dəfə səsləndirilmişdir. Bundan sonra isə bakalavrlar həm dinləmə mətni üzrə onlara təqdim olunan, həm də digər tapşırıqları cavablandırmışlar.

Cari ildə Koronavirus (COVID-19) pandemiyasına görə ölkədə tətbiq olunun tədbirlərlə əlaqədar olaraq bir sıra xüsusi qabiliyyət tələb edən ixtisaslaşmalar üzrə qabiliyyət imtahanları ləğv edilmişdir. Yalnız 44 saylı proqramda jurnalistika və 70 saylı proqramda Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının xüsusi qabiliyyət tələb edən ixtisaslaşmaları üzrə qabiliyyət imtahanları keçirilmişdir. Beləliklə, 68, 69 və 70 saylı (ADRA-nın ixtisaslaşmaları istisna olmaqlar) proqramlara daxil olan xüsusi qabiliyyət tələb edən ixtisaslaşmalar üzrə qabiliyyət imtahanları keçirilməmiş və müsabiqə test imtahanının nəticəsi əsasında aparılmışdır. ADRA-nın 70 saylı proqrama daxil olan ixtisaslaşmaları və 44 saylı proqrama daxil olan ixtisaslaşmalar üzrə müsabiqə həm test, həm də qabiliyyət imtahanlarının nəticələri əsasında aparılmışdır.

Jurnalistika üzrə ixtisaslaşmalara qəbul olmaq istəyən və qəbul imtahanında ən azı 50 bal toplayan bakalavrlar 2020-cu il iyunun 4-dən 8-dək DİM-in internet saytının müvafiq səhifəsində (eservices.dim.gov.az/erizemag/erize) jurnalistika üzrə ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrların qeydiyyatı üçün nəzərdə tutulmuş bölməyə daxil olaraq anket sorğusunu doldurmaqla qeydiyyatdan keçiblər. Qeydiyyatdan keçən bakalavrlar DİM-in elan etdiyi vaxtda "Bakalavrın qabiliyyət imtahanına buraxılış vərəqəsi"ni çap edərək iyunun 12-də vərəqədə göstərilən vaxtda qabiliyyət imtahanında iştirak ediblər. Bitirdikləri bakalavr ixtisasından asılı olmayaraq bütün bakalavrlara jurnalistika ixtisaslaşmaları üzrə təhsil almaq imkanı yaradılıb.

Qabiliyyət imtahanı onlayn formada keçirilib. Hər bir bakalavr Qabiliyyət İmtahanı Komissiyası (QİK) qarşısında cavab verib. Şifahi sualları cavablandırarkən və ya yazılı tapşırıqları yerinə yetirərkən bakalavrlar intellektual səviyyələrini, dünyagörüşlərini, jurnalistika sahəsində nəzəri və təcrübi biliklərini, ədəbi dili, dil və nitq normalarını bilməsini nümayiş etdiriblər. Qabiliyyət imtahanından "məqbul" qiymət alan bakalavrlar ixtisaslaşma seçimi zamanı jurnalistika üzrə magistratura ixtisaslaşmalarını seçmək hüququ qazanıblar. Ümumilikdə 6 nəfər jurnalistika üzrə ixtisaslaşmaları seçmək məqsədilə qabiliyyət imtahanında iştirak etmək üçün müraciət edib. Qabiliyyət imtahanının nəticələrinə əsasən, onların hamısı "məqbul" alaraq 44-cü proqramı seçmək hüququ əldə edib və jurnalistika ixtisaslaşması üzrə magistraturaya qəbul olub. Qeyd edək ki, qəbul olan bakalavrların hamısı bakalavriat səviyyəsində təhsilini "Jurnalistika" ixtisası üzrə bitirib.

Dövlət İmtahan Mərkəzi və Təhsil Nazirliyinin birgə razılığına əsasən, cari ildə bütün ixtisas qrupları üzrə magistraturaya qəbul imtahanında iştirak edərək minimal bal tələbini ödəyən, lakin ayrı-ayrı fənlər üzrə minimal tələbləri ödəməyən bakalavrların ödənişli plan yerlərinin müsabiqəsində iştirak etmələrinə icazə

verilib. Hər bir bakalavra ərizəsində göstərdiyi imtahan proqramına aid və bitirdiyi bakalavr ixtisasına müvafiq 20-dək ixtisaslaşma kodunu seçmək imkanı verilib. Bakalavrlar seçdikləri ixtisaslaşmaları müəyyən olunmuş tarixdə istədikləri ardıcıllıqla öz elektron ərizə formalarına daxil edib, hər bir ixtisaslaşma üzrə dövlət sifarişi əsasında və ya ödənişli əsaslarla təhsil almaq istədiklərini qeyd edərək təsdiqləyiblər. Seçilmiş ixtisaslaşmaların ərizə formalarında göstərilən ardıcıllığı müsabiqə zamanı hüquqi əsas kimi qəbul olunub və bakalavrlar topladıqları ballara əsasən müsabiqədən keçdikləri ixtisaslaşmaların birincisinə yerləşdiriliblər.

Magistraturada dövlət hesabına təhsil almış magistrlər, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, qüvvədə olan qanunvericilikdə və dövlətlərarası razılaşmalarda digər hallar nəzərdə tutulmayıbsa, dövlət sifarişi üzrə ayrılmış yerləri seçə bilməzdilər.

Müsabiqə zamanı ümumi balı eyni olan iki və daha çox bakalavrı fərqləndirmək üçün aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilər nəzərə alınıb:

- bakalavriat səviyyəsi üzrə ümumi orta müvəfəqiyyət göstəricisi (ÜOMG);
- ümumi intellekt səviyyəsini *(məntiqi təfəkkürü)* yoxlayan testdən toplanılan bal;
- xarici dil üzrə testdən toplanılan bal.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının magistraturasının tədrisi ingilis dilində olan ixtisaslaşmalarına, "ADA" Universitetinin, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının, Birgə Azərbaycan-Fransız Universitetinin (UFAZ), İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialının və M.V.Lomonosov adına MDU-nun Bakı filialının magistraturasına qəbul olunmaq istəyən bakalavrlar qəbul imtahanından sonra həmin ali təhsil müəssisələrinin müəyyən etdiyi qəbul prosedurlarından keçiblər.

Cədvəl 2.1

Müsabiqə şərtləri

Magistratura üzrə ixtisaslar qrupunun (ixtisasın) adı	**İmtahanın nəticəsinə qoyulan minimal tələblər***		
	Fənlər üzrə minimal tələb		**İmtahan üzrə minimal bal**
	Fənnin adı	**Minimal bal**	
Təhsil ixtisasları qrupu Texniki və texnoloji ixtisaslar qrupu Səhiyyə, rifah və xidmət ixtisasları qrupu (Bədən tərbiyəsi və idman ixtisasından başqa)	Ümumi intellekt səviyyəsi (məntiqi təfəkkür)	15	**40 bal**
	İnformatika	5	
	Xarici dil	5	
Humanitar və sosial ixtisaslar qrupu*	Ümumi intellekt səviyyəsi (məntiqi təfəkkür)	15	**50 bal**
	İnformatika	5	
	Xarici dil	5	
Təbiət ixtisasları qrupu İqtisadiyyat və idarəetmə ixtisasları qrupu	Ümumi intellekt səviyyəsi (məntiqi təfəkkür)	15	**45 bal**
	İnformatika	5	
	Xarici dil	5	
Mədəniyyət və incəsənət ixtisasları qrupu* Kənd təsərrüfatı ixtisasları qrupu Xüsusi təyinatlı ixtisaslar qrupu Bədən tərbiyəsi və idman ixtisası	Ümumi intellekt səviyyəsi (məntiqi təfəkkür)	10	**30 bal**
	İnformatika	5	
	Xarici dil	5	

*** Tədrisi ingilis (alman) dilində olan ixtisaslaşmaların müsabiqəsində, bunlarla yanaşı, aşağıdakı şərtləri ödəyən bakalavrlar iştirak ediblər:**

- təhsili ödənişli əsaslarla həyata keçirilən ixtisaslaşmalar üzrə – qəbul imtahanında ingilis (alman) dilindən topladıqları bal 15-dən az olmayan bakalavrlar;
- təhsili dövlət sifarişi əsasında həyata keçirilən ixtisaslaşmalar üzrə – qəbul imtahanında ingilis (alman) dilindən topladıqları bal 20-dən az olmayan bakalavrlar.

Bu il ali təhsil müəssisələrinin magistratura səviyyəsinə ümumilikdə 9393 plan yeri ayrılmışdı. Bunlardan 7100 yer (75.59%) Azərbaycan bölməsi, 315 yer (3.35%) rus bölməsi, qalan 1978 yer (21.06%) isə hər iki bölmənin birgə müsabiqəsi üçün nəzərdə tutulmuşdu. Əvvəlki illə müqayisədə magistraturaya qəbul planı 14.49% (1189 yer) artmışdır. Dövlət sifarişi əsasında qəbul aparılan yerlər (3163 yer) qəbul planının 33.67%-ni təşkil etmişdir (şəkil 2.1). Qəbul planı üzrə yerlərin 8226-sı dövlət, 1167-si isə özəl ali təhsil müəssisələrinin payına düşmüşdür (şəkil 2.2).

QƏBUL PLANI



Şəkil 2.1



Şəkil 2.2

Plan yerlərinin təhsil formaları üzrə bölgüsünün müqayisəsi göstərir ki, 2020-ci ildə Azərbaycan bölməsi üçün ayrılan yerlərin nisbi sayı əsasən hər iki bölmənin birgə müsabiqəsi üçün ayrılan yerlərin hesabına artıb. Belə ki, ötən illə müqayisədə Azərbaycan bölməsində plan yerlərinin ümumi plandakı nisbi çəkisi 69.66%-dən 75.59%-ə qədər artıb. Rus bölməsində plan yerlərin nisbi çəkisi 3.39%-dən 3.35%-ə, hər iki bölmənin birgə müsabiqəsi üçün isə 26.95%-dən 21.06%-ə qədər azalıb.

Aşağıdakı cədvəldən göründüyü kimi, magistraturaya qəbul planında ən çox yer Azərbaycan Dövlət İqtisad Universitetinin payına düşüb. Bu təhsil müəssisəsinin qəbul planı dövlət ali təhsil müəssisələri üzrə ümumilikdə ayrılmış plan yerlərinin 20.96%-ni təşkil edib. Azərbaycan Dövlət İqtisad Universitetinin magistraturasına ayrılmış qəbul planı bu təhsil müəssisəsinin bakalavriat səviyyəsinə ayrılmış plan yerlərinin 45.94%-nə bərabər olub. Bu, həmin təhsil müəssisəsində magistr hazırlığının, həm də müxtəlif beynəlxalq layihələr əsasında aparılması ilə bağlıdır.

Cədvəl 2.2

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURA SƏVİYYƏSİ ÜZRƏ QƏBUL PLANLARI

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	QƏBUL PLANI			
		Azərbaycan bölməsinin bakalavrları üçün	Rus bölməsinin bakalavrları üçün	Hər iki bölmənin bakalavrlarının birgə müsabiqəsi üçün	Cəmi
1	Bakı Dövlət Universiteti	730	52	174	956
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	695	41	277	1013
3	Azərbaycan Texniki Universiteti	710	10	61	781
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	336	6	21	363
5	Azərbaycan Tibb Universiteti	0	0	35	35
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	336	0	0	336
7	Azərbaycan Dövlət İqtisad Universiteti	1168	121	435	1724
8	Azərbaycan Dillər Universiteti	283	4	37	324
9	Bakı Slavyan Universiteti	114	19	8	141
10	Bakı Mühəndislik Universiteti	210	0	65	275

Cədvəl 2.2 (ardı)

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	QƏBUL PLANI			
		Azərbaycan bölməsinin bakalavrları üçün	Rus bölməsinin bakalavrları üçün	Hər iki bölmənin bakalavrlarının birgə müsabiqəsi üçün	Cəmi
11	Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	99	30	15	144
12	Bakı Musiqi Akademiyası	0	0	52	52
13	Azərbaycan Milli Konservatoriyası	0	0	45	45
14	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	91	0	66	157
15	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	0	0	68	68
16	Azərbaycan Turizm və Menecment Universiteti	104	0	10	114
17	Bakı Xoreoqrafiya Akademiyası	10	0	20	30
18	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası	0	0	50	50
19	Milli Aviasiya Akademiyası	36	5	17	58
20	Azərbaycan Dövlət Dəniz Akademiyası	16	1	6	23
21	Bakı Ali Neft Məktəbi	0	0	75	75
22	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	15	0	0	15
23	Azərbaycan Milli Elmlər Akademiyası	59	0	0	59
24	Naxçıvan Dövlət Universiteti	248	0	0	248
25	Naxçıvan Müəllimlər İnstitutu	50	0	0	50
26	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	257	2	6	265
27	Gəncə Dövlət Universiteti	234	0	0	234
28	Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	107	0	50	157
29	Sumqayıt Dövlət Universiteti	173	2	0	175
30	Mingəçevir Dövlət Universiteti	50	0	0	50
31	Lənkəran Dövlət Universiteti	184	0	0	184
32	Azərbaycan Respublikası Daxili İşlər Naziyliyinin Polis Akademiyası	10	0	0	10
33	Fövqəladə Hallar Nazirliyinin Akademiyası	15	0	0	15
34	Azərbaycan İlahiyyat İnstitutu	8	0	0	8
35	Azərbaycan Kooperasiya Universiteti	127	0	70	197
36	Azərbaycan Universiteti	115	0	20	135
37	Qərbi Kaspi Universiteti	0	0	104	104
38	Xəzər Universiteti	97	0	156	253
39	Bakı Avrasiya Universiteti	83	0	0	83
40	Bakı Qızlar Universiteti	25	0	0	25
41	Odlar Yurdu Universiteti	158	17	25	200
42	Bakı Biznes Universiteti	121	5	10	136
43	Naxçıvan Universiteti (Naxçıvan şəhəri)	21	0	0	21
44	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	5	0	0	5
	Cəmi	**7100**	**315**	**1978**	**9393**

Magistraturaya bütövlükdə 15738 nəfər bakalavr ərizə verib (2019-cu ildə bu rəqəm 12684 olub). Ərizələrin 91.71%-i (14434-ü) Azərbaycan, 8.29%-i (1304-ü) isə rus bölməsi üzrə olub. Sənəd verənlərin 45.36%-ni (7139 nəfər) oğlanlar, 54.64%-ni (8599 nəfər) isə qızlar təşkil edib. Onların da 8352 nəfəri (53.07%-i) bakalavriat səviyyəsinin builki məzunlarıdır və ali təhsil müəssisələrinə, əsasən, 2016-cı ildə daxil olanlardır. Həmin ildə 33572 nəfər gənc tələbə adını qazanmışdı.

Magistraturaya qəbul imtahanı fevralın 23-də Bakı, Naxçıvan, Gəncə, Mingəçevir və Lənkəran şəhərlərində keçirilib. Sual kitabçaları hər bir bakalavr üçün xüsusi avtomatlaşdırılmış xətt vasitəsilə (bu xətt xüsusi olaraq DİM-in keçirdiyi imtahanlarda sual kitabçalarının çapı və komplektləşdirilməsini həyata keçirir) fərdi qaydada çap olunub və imtahan zalları üzrə komplektləşdirilib. Sual kitabçasının "Dil fənni blokundakı xarici dil" bölməsində seçilən xarici dil üzrə test tapşırıqları təqdim olunub. Bütün fənlər üzrə tapşırıqlar 4 variantda hazırlanıb.

İmtahanda 15552 nəfər bakalavr iştirak edib. İmtahan materialları iki gün ərzində emal edilib. Nəticələr fevralın 25-də DİM-in internet saytında elan olunub.

Bakalavrlar iyunun 8-dən 21-dək qəbul aparılan ixtisaslaşmaların müsabiqəsində iştirak etmək üçün DİM-in internet saytının müvafiq səhifəsində öz ərizələrinə daxil olaraq ixtisaslaşma seçimi aparıblar. Proqram və ixtisaslaşma seçimində 11366 nəfər (qəbul imtahanında iştirak edənlərin 73.08%-i) iştirak edib. Onların 44.62%-ni oğlanlar, 55.38%-ni isə qızlar təşkil ediblər. İxtisaslaşma seçimində iştirak edənlərin 58.24%-i (6619 nəfər) bakalavriat səviyyəsinin builki məzunlarıdır.

Qəbulun nəticələri iyunun 26-da DİM-in internet saytında elan olunub və "Magistr" jurnalının 5-ci sayında dərc edilib. Qəbulun nəticələrinə əsasən 8324 bakalavr magistraturaya qəbul olunub, onlardan 641-i qeydiyyatdan keçməyib. Bu səbəbdən avqustun 25-dən 31-dək boş qalan yerlərə ixtisaslaşma seçimi aparılıb. Bu mərhələdə 2465 nəfər (onlardan 58-i birinci ixtisaslaşma seçimində iştirak etməyən olub) iştirak edib və onların 587-si magistraturaya qəbul olub. Beləliklə, bütövlükdə 11424 nəfər ixtisaslaşma seçimində (qəbul imtahanında iştirak edənlərin 73.46%-i) iştirak edib (bax: şəkil 2.3) və magistraturaya 8270 nəfər (ixtisaslaşma seçimində iştirak edənlərin 72.39%-i) qəbul olub (bax: şəkil 2.4).

İXTİSASLAŞMA SEÇİMİ VƏ QƏBULUN NƏTİCƏLƏRİ

Qəbul imtahanından sonra	İxtisaslaşma seçimindən sonra
	
Şəkil 2.3	Şəkil 2.4

Bakalavrların 1337 nəfəri ərizələrində yalnız dövlət sifarişi əsasında ayrılan yerləri, 3578 nəfəri isə yalnız ödənişli ixtisaslaşmaları seçib. Sonunculardan 32 nəfəri ərizələrində yalnız özəl ali təhsil müəssisələrinin ixtisaslaşmalarını göstərib. 6509 nəfər ərizəsində həm ödənişli təhsil forması üzrə olan, həm də dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən ixtisaslaşmaları qeyd edib.

İxtisaslaşma seçimində iştirak edən bakalavrların Azərbaycan bölməsi üzrə 72.02%-i, rus bölməsi üzrə isə 77.10%-i qəbul olub. Ümumilikdə isə qəbul planı 88.04% dolub. Qəbul olanların 46.88%-ni (3877 nəfər) oğlanlar, 53.12%-ni (4393 nəfər) isə qızlar təşkil edib, 62.65%-i (5181 nəfər – 55.57% (2879 nəfər) oğlan, 44.43% (2302 nəfər) qız) cari ilin məzunlarıdır.

Magistraturaya dövlət sifarişi üzrə ayrılmış yerlərə qəbul olan 3076 nəfərin 45.58%-ni (1402 nəfər) oğlanlar, 54.42%-ni (1674 nəfər) qızlar təşkil ediblər, 72.76%-i (2238 nəfər – 51.65% (1156 nəfər) oğlan, 48.35% (1082 nəfər) qız) cari ilin məzunlarıdır.

Qəbul olan bakalavrların ayrı-ayrı təhsil formaları üzrə paylanması 2.5 saylı şəkildə və 2.3 saylı cədvəldə təqdim olunur. 2.3 saylı cədvəldən göründüyü kimi, qəbul planı dövlət ali təhsil müəssisələri üzrə 90.14%, özəl ali təhsil müəssisələri üzrə isə 73.26% dolub.

QƏBUL OLAN BAKALAVRLARIN TƏHSİL FORMALARI ÜZRƏ PAYLANMASI



Şəkil 2.5

Cədvəl 2.3

MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL OLAN BAKALAVRLARIN SAYI HAQQINDA MƏLUMAT

Ali TƏHSİL MÜƏSSİSƏLƏRİ	Qəbul planı	Qəbul edilibdir (o cümlədən dövlət sifarişi əsasında)			Qəbulolma faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
Dövlət	8226	6836 (2783)	579 (179)	7415 (2962)	90.14
Özəl	1167	791 (109)	64 (5)	855 (114)	73.26
C Ə M İ	**9393**	**7627 (2892)**	**643 (184)**	**8270 (3076)**	**88.04**

142	Yer quruluşu, torpaq və şəhər kadastrı	26	25	96.15	42	Bakı Dövlət Universiteti	6
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	10
						Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	9
143	Yerüstü nəqliyyat vasitələrinin mühəndisliyi	17	17	100.00	51	Azərbaycan Texniki Universiteti	14
						Azərbaycan Memarlıq və İnşaat Universiteti	1
						Mingəçevir Dövlət Universiteti	2
144	Zootexniklik	5	5	100.00	36	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	5

2.7 saylı cədvəldə ali təhsil müəssisələrinin magistraturalarına qəbul planları, bu planların qəbul prosesində formalaşan tərkib hissələri və ödənişli təhsil forması üzrə qəbulun nəticələri təqdim edilib. Cədvəldən göründüyü kimi, ali təhsil müəssisələrinin magistraturalarına ödənişli təhsil forması üzrə tələbə qəbulunda 29 dövlət və 10 özəl ali təhsil müəssisəsi iştirak edib, 4 təhsil müəssisəsi üzrə tələbə qəbulu yalnız dövlət sifarişi əsasında aparılıb. Bütövlükdə götürdükdə, ödənişli təhsil forması üzrə qəbul olanların sayı dövlət sifarişi əsasında ayrılmış yerlərə qəbul olanların sayından 1.69 dəfə çoxdur. Magistraturada dövlət sifarişi və ödənişli əsaslarla təhsil almaq hüququ qazananların sayları arasında yaranan bu cür fərq heç də bütün ali təhsil müəssisələri üçün xarakterik deyil. Məsələn, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Turizm və Menecment Universiteti, Azərbaycan Dövlət Dəniz Akademiyası, Bakı Musiqi Akademiyası, Milli Aviasiya Akademiyası, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası və Azərbaycan Dövlət Aqrar Universitetində dövlət sifarişi əsasında ayrılmış yerlərə qəbul üstünlük təşkil edib.

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Bakı Qızlar Universiteti, Bakı Avrasiya Universiteti və Bakı Biznes Universitetinə qəbul olanların hamısı yalnız ödənişli təhsil forması üzrə təhsil almaq hüququ qazanıblar.

Dövlət ali təhsil müəssisələri arasında ödənişli təhsil forması üzrə sayca ən çox qəbul Azərbaycan Dövlət İqtisad Universitetinə (1264 nəfər), özəl ali təhsil müəssisələri arasında isə Odlar Yurdu Universitetinə (179 nəfər) olub.

Cədvəl 2.7

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI, QƏBUL PLANLARININ QƏBUL PROSESİNDƏ FORMALAŞAN TƏRKİB HİSSƏLƏRİ VƏ ÖDƏNİŞLİ TƏHSİL FORMASI ÜZRƏ QƏBULUN NƏTİCƏLƏRİ

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	Ümumi plan yerləri	Dövlət sifarişi üzrə qəbul olanların sayı	Ödənişli təhsil forması üzrə qəbul aparılan yerlərin sayı	Ödənişli təhsil forması üzrə qəbul olanların	
					sayı	qəbulolma faizi
1	Bakı Dövlət Universiteti	956	571	385	294	76.36
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	1013	523	490	444	90.61
3	Azərbaycan Texniki Universiteti*	781	222	553	359	64.92
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	363	149	214	182	85.05
5	Azərbaycan Tibb Universiteti	35	13	22	22	100.0
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	336	105	231	221	95.67
7	Azərbaycan Dövlət İqtisad Universiteti	1724	440	1284	1264	98.44
8	Azərbaycan Dillər Universiteti	324	88	236	188	79.66
9	Bakı Slavyan Universiteti	141	18	123	80	65.04
10	Bakı Mühəndislik Universiteti	275	45	230	213	92.61
11	Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	144	108	36	33	91.67
12	Bakı Musiqi Akademiyası	52	29	23	17	73.91
13	Azərbaycan Milli Konservatoriyası	45	11	34	26	76.47
14	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	157	58	99	68	68.69
15	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	68	34	34	24	70.59
16	Azərbaycan Turizm və Menecment Universiteti	114	66	48	47	97.92
17	Bakı Xoreoqrafiya Akademiyası	30	1	29	5	17.24
18	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası	50	23	27	24	88.89
19	Milli Aviasiya Akademiyası	58	32	26	21	80.77

* Yalnız dövlət sifarişi əsasında qəbul aparılan Azərbaycan İlahiyyat İnstitutunun ixtisaslaşmaları üzrə 5 yer, Azərbaycan Texniki Universitetinin ixtisaslaşmaları üzrə 6 yer, Polis Akademiyasının ixtisaslaşmaları üzrə 10 yer və Azərbaycan Milli Elmlər Akademiyasının ixtisaslaşmaları üzrə 3 yer boş qalıb. Bu ixtisaslaşmalara qəbulun yalnız dövlət sifarişi əsasında aparılması səbəbindən qalan boş yerlərə ödənişli əsaslarla qəbul aparılmayıb.

Cədvəl 2.7 (ardı)

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	Ümumi plan yerləri	Dövlət sifarişi üzrə qəbul olanların sayı	Ödənişli təhsil forması üzrə qəbul aparılan yerlərin sayı	Ödənişli təhsil forması üzrə qəbul olanların	
					sayı	qəbulolma faizi
20	Azərbaycan Dövlət Dəniz Akademiyası	23	19	4	4	100.0
21	Bakı Ali Neft Məktəbi	75	15	60	49	81.67
22	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	15	15	0	0	---
23	Azərbaycan Milli Elmlər Akademiyası*	59	56	0	0	---
24	Naxçıvan Dövlət Universiteti	248	40	208	167	80.29
25	Naxçıvan Müəllimlər İnstitutu	50	4	46	39	84.78
26	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	265	129	136	119	87.50
27	Gəncə Dövlət Universiteti	234	47	187	158	84.49
28	Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	157	9	148	121	81.76
29	Sumqayıt Dövlət Universiteti	175	47	128	114	89.06
30	Mingəçevir Dövlət Universiteti	50	7	43	37	86.05
31	Lənkəran Dövlət Universiteti	184	23	161	113	70.19
32	Azərbaycan Respublikası Daxili İşlər Naziyliyinin Polis Akademiyası*	10	0	0	0	---
33	Fövqəladə Hallar Nazirliyinin Akademiyası*	15	15	0	0	---
34	Azərbaycan İlahiyyat İnstitutu*	8	3	0	0	---
35	Azərbaycan Kooperasiya Universiteti	197	4	193	123	63.73
36	Azərbaycan Universiteti	135	25	110	68	61.82
37	Qərbi Kaspi Universiteti	104	27	77	48	62.34
38	Xəzər Universiteti	253	53	200	111	55.50
39	Bakı Avrasiya Universiteti	83	0	83	45	54.22
40	Bakı Qızlar Universiteti	25	0	25	20	80.00
41	Odlar Yurdu Universiteti	200	1	199	179	89.95
42	Bakı Biznes Universiteti	136	0	136	130	95.59
43	Naxçıvan Universiteti (Naxçıvan şəhəri)	21	1	20	12	60.00
44	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	5	0	5	5	100.0
	Cəmi	**9393**	**3076**	**6293***	**5194**	**82.22**

Magistraturaya qəbul olanların ali təhsil müəssisələri üzrə sayı 2.8 saylı cədvəldə təqdim olunub. Cədvəldən görünür ki, bu il Azərbaycan Tibb Universiteti, Azərbaycan Dövlət Dəniz Akademiyası, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası, Fövqəladə Hallar Nazirliyinin Akademiyası və Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında plan yerləri tam dolub. Azərbaycan Turizm və Menecment Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Biznes Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbulolma faizi 95, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Bakı Mühəndislik Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri), Sumqayıt Dövlət Universiteti, Milli Aviasiya Akademiyası, Azərbaycan Memarlıq və İnşaat Universiteti və Bakı Dövlət Universitetinə qəbulolma faizi 90%-dən yuxarıdır. "Odlar Yurdu" Universitetinə ayrılan yerlərə qəbulolma faizi 90%-ə bərabər olub.

Azərbaycan Respublikası Daxili İşlər Naziyliyinin Polis Akademiyasına ayrılan 10 yerin hamısına yalnız dövlət sifarişi əsasında qəbul aparılıb və bu yerlərin hamısı boş qalmışdır. Magistraturaya qəbulda plan yerlərinin dolma göstəricisi üzrə zəif nəticələrdən biri də Bakı Xoreoqrafiya Akademiyasına (20.00%) aiddir.

Cədvəl 2.8

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN (DÖVLƏT VƏ ÖZƏL) MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL OLAN BAKALAVRLARIN SAYI HAQQINDA MƏLUMAT

№	Ali təhsil müəssisəsinin adı	Qəbul planı	Qəbul edilibdir (o cümlədən dövlət sifarişi əsasında)			Qəbulolma faizi
			Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
1	Bakı Dövlət Universiteti	956	785 (534)	80 (37)	865 (571)	90.48
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	1013	844 (482)	123 (41)	967 (523)	95.46
3	Azərbaycan Texniki Universiteti	781	554 (215)	27 (7)	581 (222)	74.39
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	363	316 (143)	15 (6)	331 (149)	91.18
5	Azərbaycan Tibb Universiteti	35	35 (13)	0 (0)	35 (13)	100.00
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	336	326 (105)	0 (0)	326 (105)	97.02
7	Azərbaycan Dövlət İqtisad Universiteti	1724	1485 (395)	219 (45)	1704 (440)	98.84
8	Azərbaycan Dillər Universiteti	324	264 (83)	12 (5)	276 (88)	85.19
9	Bakı Slavyan Universiteti	141	82 (17)	16 (1)	98 (18)	69.50
10	Bakı Mühəndislik Universiteti	275	249 (44)	9 (1)	258 (45)	93.82
11	Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	144	107 (97)	34 (11)	141 (108)	97.92
12	Bakı Musiqi Akademiyası	52	42 (25)	4 (4)	46 (29)	88.46
13	Azərbaycan Milli Konservatoriyası	45	36 (11)	1 (0)	37 (11)	82.22
14	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	157	126 (58)	0 (0)	126 (58)	80.25
15	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	68	52 (28)	6 (6)	58 (34)	85.29
16	Azərbaycan Turizm və Menecment Universiteti	114	104 (64)	9 (2)	113 (66)	99.12
17	Bakı Xoreoqrafiya Akademiyası	30	6 (1)	0 (0)	6 (1)	20.00
18	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası	50	46 (23)	1 (0)	47 (23)	94.00
19	Milli Aviasiya Akademiyası	58	45 (26)	8 (6)	53 (32)	91.38
20	Azərbaycan Dövlət Dəniz Akademiyası	23	21 (18)	2 (1)	23 (19)	100.00
21	Bakı Ali Neft Məktəbi	75	59 (13)	5 (2)	64 (15)	85.33
22	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	15	15 (15)	0 (0)	15 (15)	100.00
23	Azərbaycan Milli Elmlər Akademiyası	59	56 (56)	0 (0)	56 (56)	94.92
24	Naxçıvan Dövlət Universiteti	248	207 (40)	0 (0)	207 (40)	83.47
25	Naxçıvan Müəllimlər İnstitutu	50	43 (4)	0 (0)	43 (4)	86.00
26	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	265	243 (125)	5 (4)	248 (129)	93.58
27	Gəncə Dövlət Universiteti	234	205 (47)	0 (0)	205 (47)	87.61
28	Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	157	129 (9)	1 (0)	130 (9)	82.80
29	Sumqayıt Dövlət Universiteti	175	159 (47)	2 (0)	161 (47)	92.00
30	Mingəçevir Dövlət Universiteti	50	44 (7)	0 (0)	44 (7)	88.00
31	Lənkəran Dövlət Universiteti	184	136 (23)	0 (0)	136 (23)	73.91
32	Azərbaycan Respublikası Daxili İşlər Naziyliyinin Polis Akademiyası	10	0 (0)	0 (0)	0 (0)	0.00
33	Fövqəladə Hallar Nazirliyinin Akademiyası	15	15 (15)	0 (0)	15 (15)	100.00
34	Azərbaycan İlahiyyat İnstitutu	8	3 (3)	0 (0)	3 (3)	37.50
35	Azərbaycan Kooperasiya Universiteti	197	121 (4)	6 (0)	127 (4)	64.47
36	Azərbaycan Universiteti	135	90 (25)	3 (0)	93 (25)	68.89
37	Qərbi Kaspi Universiteti	104	64 (26)	11 (1)	75 (27)	72.12

Cədvəl 2.8 (ardı)

№	Ali təhsil müəssisəsinin adı	Qəbul planı	Qəbul edilibdir (o cümlədən dövlət sifarişi əsasında)			Qəbulolma faizi
			Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
38	Xəzər Universiteti	253	154 (49)	10 (4)	164 (53)	64.82
39	Bakı Avrasiya Universiteti	83	45 (0)	0 (0)	45 (0)	54.22
40	Bakı Qızlar Universiteti	25	20 (0)	0 (0)	20 (0)	80.00
41	Odlar Yurdu Universiteti	200	153 (1)	27 (0)	180 (1)	90.00
42	Bakı Biznes Universiteti	136	123 (0)	7 (0)	130 (0)	95.59
43	Naxçıvan Universiteti (Naxçıvan şəhəri)	21	13 (1)	0 (0)	13 (1)	61.90
44	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	5	5 (0)	0 (0)	5 (0)	100.00
	C Ə M İ	**9393**	**7627 (2892)**	**643 (184)**	**8270 (3076)**	**88.04**

Magistraturaya qəbul imtahanının nəticələri əsasında bakalavrların topladıqları balların paylanmasının ədədi xarakteristikaları müəyyənləşdirilib. Paylanmanın variasiya sırası (cədvəl 2.9) tərtib olunub və qrafiki (qrafik 2.1) qurulub. Qrafikdə bakalavrların topladıqları balların riyazi gözləməsi (orta qiyməti) (M), bakalavrlar seçməsini sayca iki bərabər hissəyə ayıran medianası (Me) və balların paylanma histoqramları təsvir edilib. Təhlil göstərir ki, bakalavrların ballarının paylanma histoqramı, demək olar ki, simmetrikdir və normal paylanmaya yaxındır.

Xatırladaq ki, magistratura səviyyəsinə qəbul imtahanında toplanıla bilən maksimal bal 100-ə bərabər olub. Bakalavrlardan heç biri 100 bal toplaya bilməyib. Toplanılan ən yüksək bal 95-ə bərabər olub. Bakalavrların yarısı 48.96 baldan yüksək nəticə göstərib. Ayrı-ayrı fənlər üzrə orta göstəricilər belədir: məntiq üzrə 54.51%, informatika üzrə 34.67%, ingilis dili üzrə 40.27%, fransız dili üzrə 34.98%, alman dili üzrə 38.63%, rus dili üzrə 47.73%.

Cədvəl 2.9

Bal intervalları	Baka-lavrların sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0	0	0.00	0.00
1 - 5	8	0.05	0.05
6 - 10	4	0.03	0.08
11 - 15	41	0.26	0.34
16 - 20	167	1.07	1.41
21 - 25	416	2.67	4.09
26 - 30	805	5.18	9.27
31 - 35	1148	7.38	16.65
36 - 40	1619	10.41	27.06
41 - 45	1914	12.31	39.36
46 - 50	2086	13.41	52.78
51 - 55	1933	12.43	65.21
56 - 60	1729	11.12	76.32
61 - 65	1397	8.98	85.31
66 - 70	1001	6.44	91.74
71 - 75	668	4.30	96.04
76 - 80	364	2.34	98.38
81 - 85	166	1.07	99.45
86 - 90	71	0.46	99.90
91 - 95	15	0.10	100.00
96 - 100	0	0.00	100.00

Magistraturaya qəbul imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları

Riyazi gözləmə :	49.82	Minimal bal :	1
Ortakvadratik meyil :	14.38	Maksimal bal :	95
Moda :	47	Bakalavrların sayı :	15552
Mediana :	48.96		

Qrafik 2.1



Magistraturaya qəbulun nəticələri əsasında ayrı-ayrı ali təhsil müəssisələrini bitirən məzunların imtahanda topladıqları ballar təhlil olunub. İmtahanda Azərbaycan Respublikasının 59 ali təhsil müəssisəsinin məzunları iştirak ediblər. Onların göstəriciləri aşağıdakı 2.10 saylı cədvəldə təqdim edilir. Cədvəldən göründüyü kimi, imtahanda ən azı 10 məzunu iştirak edən ali təhsil müəssisələri arasında ən yüksək nəticəni Bakı Ali Neft Məktəbinin məzunları göstəriblər. Bu təhsil müəssisəsinin məzunlarının qəbul imtahanında bütün fənlər üzrə birlikdə topladıqları orta bal göstəricisi 78.4 olub. Xarici dil, informatika və məntiq fənləri üzrə də ən yüksək nəticələri Bakı Ali Neft Məktəbinin məzunları göstəriblər: xarici dil üzrə - 21.0, informatika üzrə - 15.3, məntiq üzrə - 42.1 bal. Bundan başqa, xarici dil üzrə ADA Universiteti (20.2), Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (18.0), Moskva Dövlət Universitetinin Bakı filialı (17.0), informatika üzrə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (13.5), Azərbaycan Tibb Universiteti (11.3), Bakı Mühəndislik Universiteti (11.1), məntiq üzrə isə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (35.9), Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası (32.9), "ADA" Universiteti (32.1) və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (32.0) məzunları fərqlənib lər.

Qəbul imtahanında ən zəif nəticəni Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası və Bakı Xoreoqrafiya Akademiyasının məzunları göstəriblər. İmtahanda bu təhsil müəssisələrinin, müvafiq olaraq, 247, 128 və 12 məzunu iştirak edib. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin məzunlarının bütün fənlərdən topladıqları balların orta qiyməti 33.4-ə, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının məzunlarının bütün fənlərdən topladıqları balların orta qiyməti 33.3-ə və Bakı Xoreoqrafiya Akademiyasının məzunlarının bütün fənlərdən topladıqları balların orta qiyməti isə 31.6-ya bərabərdir.

2.10 saylı cədvəldə ali təhsil müəssisələri üzrə bakalavriat səviyyəsini başa vurmuş məzunların magistratura səviyyəsinə qəbulolma göstəriciləri də təqdim edilmişdir. Təhlil göstərir ki, magistratura səviyyəsinə ən yüksək qəbulolma faizi Bakı Ali Neft Məktəbi, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Bakı Mühəndislik Universitetinin məzunlarına məxsusdur. Bakı Ali Neft Məktəbinin 54 nəfər məzunundan 46-sı, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının hər 100 nəfər məzunundan 83-84-ü, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin hər 100 nəfər məzunundan 66-67-si, Azərbaycan Dövlət İqtisad Universitetinin və Bakı Mühəndislik Universitetinin hər 100 nəfər məzunundan 64-65-i magistraturaya qəbul olmuşdur.

Moskva Dövlət Universitetinin Bakı filialı və ADA Universiteti üzrə magistraturaya qəbul təhsil müəssisələrinin özləri tərəfindən həyata keçirildiyi üçün 2.10 saylı cədvəldə bu təhsil müəssisələrinə qəbul olan bakalavrların sayı öz əksini tapmayıb. Bununla belə, Moskva Dövlət Universitetinin Bakı filialının məzunlarından 27-nin, ADA Universitetinin məzunlarından isə 35-nin öz ali təhsil müəssisələrinə qəbul olduğunu nəzərə alsaq, Moskva Dövlət Universitetinin Bakı filialının 71 məzunundan 47-sinin, ADA Universitetinin 141 məzunundan 107-sinin magistraturaya qəbulolma faktı ortaya çıxar.

Cədvəl 2.10

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MƏZUNLARININ (BAKALAVRLARIN) MAGİSTRATURAYA QƏBUL İMTAHANININ NƏTİCƏLƏRİ

№	Ali təhsil müəssisəsi	Baka-lavrların ümumi sayı	Ümumi bal	Xarici dil üzrə orta bal	İnfor-matika üzrə orta bal	Məntiq üzrə orta bal	İxtisaslaşma seçimində iştirak edənlərin		Qəbul olan bakalavrların	
							sayı	faizi	sayı	faizi
1	Bakı Dövlət Universiteti	2659	53.6	12.5	10.5	30.6	2206	82.96	1506	56.64
2	Azərbaycan Dövlət İqtisad Universiteti	1759	54.6	13.4	10.4	30.7	1389	78.97	1135	64.53
3	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	1479	55.9	13.2	10.7	32.0	1204	81.41	981	66.33
4	Azərbaycan Dövlət Pedaqoji Universiteti	1119	47.9	10.3	9.7	27.9	846	75.60	476	42.54
5	Azərbaycan Dillər Universiteti	909	52.6	15.0	10.4	27.2	722	79.43	552	60.73
6	Azərbaycan Texniki Universiteti	748	47.9	9.8	9.6	28.5	554	74.06	440	58.82
7	Azərbaycan Memarlıq və İnşaat Universiteti	585	46.3	10.3	8.6	27.3	412	70.43	313	53.50
8	Azərbaycan Dövlət Aqrar Universiteti	528	43.4	9.6	8.3	25.5	386	73.11	297	56.25
9	Gəncə Dövlət Universiteti	514	44.0	9.4	8.7	25.9	338	65.76	229	44.55
10	Bakı Mühəndislik Universiteti	427	58.3	15.4	11.1	31.8	357	83.61	275	64.40
11	Sumqayıt Dövlət Universiteti	421	44.6	8.8	8.6	27.1	287	68.17	169	40.14
12	Naxçıvan Dövlət Universiteti	386	45.2	9.3	9.8	26.1	249	64.51	194	50.26
13	Bakı Slavyan Universiteti	284	44.2	12.3	8.2	23.7	168	59.15	113	39.79

Cədvəl 2.10 (ardı)

№	Ali təhsil müəssisəsi	Bakalavrların ümumi sayı	Ümumi bal	Xarici dil üzrə orta bal	İnformatika üzrə orta bal	Məntiq üzrə orta bal	İxtisaslaşma seçimində iştirak edənlərin		Qəbul olan bakalavrların	
							sayı	faizi	sayı	faizi
14	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	247	33.4	8.3	6.3	18.9	136	55.06	91	36.84
15	Lənkəran Dövlət Universiteti	229	48.0	8.5	9.7	29.9	172	75.11	127	55.46
16	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	227	67.3	18.0	13.5	35.9	212	93.39	189	83.26
17	Azərbaycan Texnologiya Universiteti	198	39.7	8.6	7.4	23.7	99	50.00	61	30.81
18	Milli Aviasiya Akademiyası	164	53.9	12.7	10.7	30.5	130	79.27	99	60.37
19	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	162	34.7	10.1	6.0	18.6	92	56.79	68	41.98
20	Azərbaycan Kooperasiya Universiteti	144	41.4	10.1	7.7	23.6	70	48.61	47	32.64
21	Xəzər Universiteti	143	48.3	13.4	9.2	25.7	91	63.64	55	38.46
22	Azərbaycan Turizm və Menecment Universiteti	141	49.1	12.1	9.8	27.2	108	76.60	75	53.19
23	ADA Universiteti	141	62.9	20.2	10.7	32.1	102	72.34	72	51.06
24	Bakı Biznes Universiteti	136	43.0	9.0	8.7	25.3	77	56.62	50	36.76
25	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası	128	33.3	8.0	6.6	18.7	62	48.44	49	38.28
26	Azərbaycan Müəllimlər İnstitutu	120	41.4	10.0	7.5	23.9	62	51.67	25	20.83
27	Mingəçevir Dövlət Universiteti	114	44.3	8.6	9.2	26.4	74	64.91	47	41.23
28	Bakı Musiqi Akademiyası	113	37.8	11.6	6.4	19.9	78	69.03	61	53.98
29	Azərbaycan Universiteti	104	43.5	9.9	8.8	24.7	58	55.77	27	25.96
30	Odlar Yurdu Universiteti	93	39.3	11.0	7.4	20.9	44	47.31	25	26.88
31	Bakı Qızlar Universiteti	89	42.3	9.0	8.9	24.5	51	57.30	26	29.21
32	Bakı Avrasiya Universiteti	80	39.7	9.6	7.8	22.3	38	47.50	14	17.50
33	Qərbi Kaspi Universiteti	75	41.0	11.1	7.9	22.0	37	49.33	27	36.00
34	Moskva Dövlət Universitetinin Bakı filialı	71	55.7	17.0	9.1	29.6	39	54.93	20	28.17
35	Azərbaycan Dövlət Dəniz Akademiyası	70	48.9	10.9	9.3	28.8	51	72.86	43	61.43
36	Naxçıvan Özəl Universiteti	69	40.7	7.7	8.9	24.1	37	53.62	28	40.58
37	Azərbaycan Milli Konservatoriyası	64	34.0	7.8	6.7	19.4	35	54.69	30	46.88
38	Azərbaycan Tibb Universiteti	60	55.0	12.4	11.3	31.4	51	85.00	26	43.33
39	Qafqaz Universiteti	58	50.0	14.2	8.9	26.9	37	63.79	25	43.10
40	Fövqəladə Hallar Nazirliyinin Akademiyası	55	52.7	10.6	10.9	31.2	36	65.45	17	30.91
41	Bakı Ali Neft Məktəbi	54	78.4	21.0	15.3	42.1	49	90.74	46	85.19
42	Elm və təhsil Mərkəzi "Təfəkkür" Universiteti	50	37.9	9.2	7.1	21.5	19	38.00	12	24.00
43	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	48	41.8	8.6	8.5	24.7	24	50.00	15	31.25
44	Naxçıvan Müəllimlər İnstitutu	45	39.7	7.8	8.6	23.4	20	44.44	19	42.22
45	Azərbaycan Beynəlxalq Universiteti	28	40.0	12.4	6.5	21.0	13	46.43	7	25.00
46	Bakı İslam Universiteti	23	34.8	8.0	7.0	19.8	4	17.39	4	17.39
47	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	21	59.0	15.4	10.7	32.9	17	80.95	10	47.62
48	Azərbaycan İctimai Siyasi Universiteti	13	42.3	13.1	7.8	21.4	6	46.15	4	30.77
49	Bakı Xoreoqrafiya Akademiyası	12	31.6	7.0	6.6	18.0	3	25.00	3	25.00
50	Bakı "Asiya" Universiteti	11	36.9	9.8	6.0	21.1	4	36.36	1	9.09
51	Milli Təhlükəsizlik Nazirliyinin H.Əliyev adına Akademiyası	11	46.0	10.5	10.1	25.4	2	18.18	1	9.09
52	Dövlət Sərhəd Xidmətinin Akademiyası	11	39.4	7.7	6.8	24.8	0	0.00	0	0.00
53	H.Əliyev adına Ali Hərbi Məktəb	8	36.5	9.4	7.0	20.1	3	37.50	3	37.50
54	Azərbaycan İlahiyyat İnstitutu	7	40.4	8.3	7.7	24.4	1	14.29	1	14.29
55	Polis Akademiyası	4	45.5	10.5	7.8	27.3	2	50.00	1	25.00
56	Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu	2	43.5	12.0	7.0	24.5	2	100.00	1	50.00
57	Müstəqil Azərbaycan Universiteti	2	40.0	12.5	7.0	20.5	1	50.00	0	0.00
58	Gəncə Elm-Təhsil Mərkəzi	2	44.0	15.5	8.5	20.0	2	100.00	2	100.00
59	Bakı Əmtəəşünaslıq-Kommersiya İnstitutu	1	55.0	17.0	11.0	27.0	1	100.00	1	100.00

Ayrılıqda hər bir ali təhsil müəssisəsini təmsil edən bakalavrların diplom üzrə orta balları ilə magistraturaya qəbul imtahanında topladıqları ballar arasında statistik əlaqəni əks etdirən korrelyasiya göstəricisi hesablanmışdır. Ali təhsil müəssisələri üzrə ayrılıqda hesablanan korrelyasiya əmsallarının təhlili göstərir ki, bütövlükdə götürdükdə, bal göstəriciləri arasında korrelyasiya (0.58) nisbətən zəifdir. Ali təhsil müəssisələrinin çoxunu təmsil edən bakalavrların müvafiq bal göstəriciləri arasındakı korrelyasiya əmsalının qiyməti 0.34-0.67 diapazonunda yerləşir (ən yüksək göstərici (0.67) Naxçıvan Dövlət Universitetinin bakalavrlarına aiddir).

Aşağıdakı 2.11 saylı cədvəldə hər bir ali təhsil müəssisəsinin magistraturasına qəbul olan bakalavrların ümumi sayı, o cümlədən qəbul olan builki və əvvəlki illərin məzunlarının sayı, həmçinin onların Bakı şəhərində və regionlarda yerləşən dövlət ali təhsil müəssisələri və özəl ali təhsil müəssisələri üzrə tərkibi verilib. Cədvəldən görünür ki, ümumilikdə, ali təhsil müəssisələrinə qəbul olanların, orta hesabla, 43.43%-ni öz məzunları, 45.71%-ni Bakı şəhərində yerləşən dövlət ali təhsil müəssisələrinin, 6.77%-ni regionlarda yerləşən dövlət ali təhsil müəssisələrinin, 3.76%-ni özəl ali təhsil müəssisələrinin, 0.33%-ni isə xarici ölkələrdəki ali təhsil müəssisələrinin məzunları təşkil edir. Qəbul olanların 62.65%-i cari ilin, 37.35%-i isə əvvəlki illərin məzunlarıdır. Bakı Xoreoqrafiya Akademiyası, Naxçıvan Müəllimlər İnstitutu, Mingəçevir Dövlət Universiteti, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Azərbaycan İlahiyyat İnstitutu, Azərbaycan Kooperasiya Universiteti, Qərbi Kaspi Universiteti, Bakı Qızlar Universiteti və Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasından qəbul olan bakalavrlar arasında əvvəlki illərin məzunları üstünlük təşkil edirlər.

Ali təhsil müəssisələri üzrə orta respublika göstəricilərini ayrılıqda ali təhsil müəssisələrinin göstəriciləri ilə müqayisə etdikdə məlum olur ki, Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Musiqi Akademiyası, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Bakı şəhərində yerləşən texniki ali təhsil müəssisələri, qəbul aparılan ixtisaslaşmalar üzrə inhisarçı olan ali təhsil müəssisələri, eləcə də Lənkəran Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Gəncə Dövlət Universiteti və Azərbaycan Dövlət Aqrar Universitetinin magistraturalarına qəbul olan bakalavrlar, əsasən, həmin ali təhsil müəssisələrinin öz məzunlarıdır.

Bakı Slavyan Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Turizm və Menecment Universiteti, Bakı Xoreoqrafiya Akademiyası, Bakı Ali Neft Məktəbi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası və Bakı şəhərində yerləşən özəl ali təhsil müəssisələrinin magistraturalarına qəbulda Bakı şəhərində yerləşən digər dövlət ali təhsil müəssisələrinin məzunları üstünlük təşkil etmişlər.

Regionlarda yerləşən dövlət ali təhsil müəssisələrinin məzunları daha çox öz ali təhsil müəssisələrinə və regionlarda yerləşən digər ali təhsil müəssisələrinin magistraturalarına qəbul olmuşlar.

Özəl universitetlərin məzunları ali təhsil müəssisələrinə qəbul olanların çox az hissəsini təşkil ediblər - cəmi 372 nəfər. Onların 55 nəfəri Azərbaycan Dövlət İqtisad Universitetinə, 61 nəfəri bitirdiyi ali təhsil müəssisəsinə, 22 nəfəri Bakı Dövlət Universitetinə, 20 nəfəri Azərbaycan Dövlət Pedaqoji Universitetinə, 20 nəfəri Azərbaycan Dillər Universitetinə, 17 nəfəri Azərbaycan Texniki Universitetinə, 17 nəfəri Bakı Mühəndislik Universitetinə, 70 nəfəri digər özəl ali təhsil müəssisələrinə, 47 nəfəri regionlarda yerləşən dövlət ali təhsil müəssisələrinə və 43 nəfəri Bakıda yerləşən digər dövlət ali təhsil müəssisələrinə qəbul olub.

Cədvəl 2.11

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL OLMUŞ BAKALAVRLARIN BİTİRDİKLƏRİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ TƏRKİBİ

№	Ali təhsil müəssisəsi	Qəbul olan-ların sayı	Öz məzunları		Digər ali təhsil müəssisələrinin məzunları							
			sayı	faizi	Bakı şəhərinin dövlət a.t.m.		Regionların dövlət a.t.m.		Özəl a.t.m.		Xarici a.t.m.	
					sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi
1	**Bakı Dövlət Universiteti**	865	530	61.27	267	30.87	46	5.32	22	2.54	0	0.00
	cari ilin məzunları	553	356	41.16	163	18.84	28	3.24	6	0.69	0	0.00
	əvvəlki illərin məzunları	312	174	20.12	104	12.02	18	2.08	16	1.85	0	0.00
2	**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**	967	557	57.60	366	37.85	28	2.90	13	1.34	3	0.31
	cari ilin məzunları	668	425	43.95	223	23.06	15	1.55	5	0.52	0	0.00
	əvvəlki illərin məzunları	299	132	13.65	143	14.79	13	1.34	8	0.83	3	0.31

Cədvəl 2.11 (ardı)

№	Ali təhsil müəssisəsi	Qəbul olanların sayı	Öz məzunları		Digər ali təhsil müəssisələrinin məzunları							
			sayı	faizi	Bakı şəhərinin dövlət a.t.m.		Regionların dövlət a.t.m.		Özəl a.t.m.		Xarici a.t.m.	
					sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi
3	**Azərbaycan Texniki Universiteti**	581	274	47.16	257	44.23	31	5.34	17	2.93	2	0.34
	cari ilin məzunları	423	205	35.28	188	32.36	22	3.79	8	1.38	0	0.00
	əvvəlki illərin məzunları	158	69	11.88	69	11.88	9	1.55	9	1.55	2	0.34
4	**Azərbaycan Memarlıq və İnşaat Universiteti**	331	195	58.91	107	32.33	18	5.44	11	3.32	0	0.00
	cari ilin məzunları	229	127	38.37	81	24.47	14	4.23	7	2.11	0	0.00
	əvvəlki illərin məzunları	102	68	20.54	26	7.85	4	1.21	4	1.21	0	0.00
5	**Azərbaycan Tibb Universiteti**	35	11	31.43	17	48.57	5	14.29	2	5.71	0	0.00
	cari ilin məzunları	18	5	14.29	10	28.57	3	8.57	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	17	6	17.14	7	20.00	2	5.71	2	5.71	0	0.00
6	**Azərbaycan Dövlət Pedaqoji Universiteti**	326	108	33.13	165	50.61	33	10.12	20	6.13	0	0.00
	cari ilin məzunları	196	68	20.86	106	32.52	19	5.83	3	0.92	0	0.00
	əvvəlki illərin məzunları	130	40	12.27	59	18.10	14	4.29	17	5.21	0	0.00
7	**Azərbaycan Dövlət İqtisad Universiteti**	1704	678	39.79	891	52.29	68	3.99	55	3.23	12	0.70
	cari ilin məzunları	1120	500	29.34	570	33.45	35	2.05	15	0.88	0	0.00
	əvvəlki illərin məzunları	584	178	10.45	321	18.84	33	1.94	40	2.35	12	0.70
8	**Azərbaycan Dillər Universiteti**	276	175	63.41	71	25.72	9	3.26	20	7.25	1	0.36
	cari ilin məzunları	142	91	32.97	42	15.22	6	2.17	3	1.09	0	0.00
	əvvəlki illərin məzunları	134	84	30.43	29	10.51	3	1.09	17	6.16	1	0.36
9	**Bakı Slavyan Universiteti**	98	16	16.33	72	73.47	7	7.14	3	3.06	0	0.00
	cari ilin məzunları	55	7	7.14	43	43.88	5	5.10	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	43	9	9.18	29	29.59	2	2.04	3	3.06	0	0.00
10	**Bakı Mühəndislik Universiteti**	258	41	15.89	181	70.16	19	7.36	17	6.59	0	0.00
	cari ilin məzunları	161	35	13.57	102	39.53	14	5.43	10	3.88	0	0.00
	əvvəlki illərin məzunları	97	6	2.33	79	30.62	5	1.94	7	2.71	0	0.00
11	**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası**	141	53	37.59	81	57.45	4	2.84	3	2.13	0	0.00
	cari ilin məzunları	117	51	36.17	61	43.26	4	2.84	1	0.71	0	0.00
	əvvəlki illərin məzunları	24	2	1.42	20	14.18	0	0.00	2	1.42	0	0.00
12	**Bakı Musiqi Akademiyası**	46	40	86.96	6	13.04	0	0.00	0	0.00	0	0.00
	cari ilin məzunları	23	20	43.48	3	6.52	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	23	20	43.48	3	6.52	0	0.00	0	0.00	0	0.00
13	**Azərbaycan Milli Konservatoriyası**	37	22	59.46	15	40.54	0	0.00	0	0.00	0	0.00
	cari ilin məzunları	24	16	43.24	8	21.62	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	13	6	16.22	7	18.92	0	0.00	0	0.00	0	0.00
14	**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**	126	59	46.83	54	42.86	7	5.56	6	4.76	0	0.00
	cari ilin məzunları	65	31	24.60	25	19.84	5	3.97	4	3.17	0	0.00
	əvvəlki illərin məzunları	61	28	22.22	29	23.02	2	1.59	2	1.59	0	0.00
15	**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**	58	48	82.76	9	15.52	1	1.72	0	0.00	0	0.00
	cari ilin məzunları	29	25	43.10	4	6.90	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	29	23	39.66	5	8.62	1	1.72	0	0.00	0	0.00
16	**Azərbaycan Turizm və Menecment Universiteti**	113	10	8.85	78	69.03	20	17.70	5	4.42	0	0.00
	cari ilin məzunları	82	8	7.08	54	47.79	18	15.93	2	1.77	0	0.00
	əvvəlki illərin məzunları	31	2	1.77	24	21.24	2	1.77	3	2.65	0	0.00

Cədvəl 2.11 (ardı)

№	Ali təhsil müəssisəsi	Qəbul olanların sayı	Öz məzunları		Digər ali təhsil müəssisələrinin məzunları							
			sayı	faizi	Bakı şəhərinin dövlət a.t.m.		Regionların dövlət a.t.m.		Özəl a.t.m.		Xarici a.t.m.	
					sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi
17	**Bakı Xoreoqrafiya Akademiyası**	6	1	16.67	5	83.33	0	0.00	0	0.00	0	0.00
	cari ilin məzunları	2	1	16.67	1	16.67	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	4	0	0.00	4	66.67	0	0.00	0	0.00	0	0.00
18	**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası**	47	40	85.11	3	6.38	4	8.51	0	0.00	0	0.00
	cari ilin məzunları	31	27	57.45	2	4.26	2	4.26	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	16	13	27.66	1	2.13	2	4.26	0	0.00	0	0.00
19	**Milli Aviasiya Akademiyası**	53	35	66.04	17	32.08	1	1.89	0	0.00	0	0.00
	cari ilin məzunları	40	26	49.06	14	26.42	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	13	9	16.98	3	5.66	1	1.89	0	0.00	0	0.00
20	**Azərbaycan Dövlət Dəniz Akademiyası**	23	21	91.30	1	4.35	0	0.00	0	0.00	1	4.35
	cari ilin məzunları	19	18	78.26	1	4.35	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	4	3	13.04	0	0.00	0	0.00	0	0.00	1	4.35
21	**Bakı Ali Neft Məktəbi**	64	17	26.56	47	73.44	0	0.00	0	0.00	0	0.00
	cari ilin məzunları	39	13	20.31	26	40.63	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	25	4	6.25	21	32.81	0	0.00	0	0.00	0	0.00
22	**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası**	15	2	13.33	11	73.33	2	13.33	0	0.00	0	0.00
	cari ilin məzunları	12	1	6.67	9	60.00	2	13.33	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	3	1	6.67	2	13.33	0	0.00	0	0.00	0	0.00
23	**Azərbaycan Milli Elmlər Akademiyası**	56	0	0.00	52	92.86	4	7.14	0	0.00	0	0.00
	cari ilin məzunları	32	0	0.00	30	53.57	2	3.57	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	24	0	0.00	22	39.29	2	3.57	0	0.00	0	0.00
24	**Naxçıvan Dövlət Universiteti**	207	128	61.84	46	22.22	16	7.73	16	7.73	1	0.48
	cari ilin məzunları	112	78	37.68	19	9.18	10	4.83	5	2.42	0	0.00
	əvvəlki illərin məzunları	95	50	24.15	27	13.04	6	2.90	11	5.31	1	0.48
25	**Naxçıvan Müəllimlər İnstitutu**	43	11	25.58	11	25.58	14	32.56	7	16.28	0	0.00
	cari ilin məzunları	20	5	11.63	8	18.60	4	9.30	3	6.98	0	0.00
	əvvəlki illərin məzunları	23	6	13.95	3	6.98	10	23.26	4	9.30	0	0.00
26	**Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)**	248	166	66.94	48	19.35	29	11.69	5	2.02	0	0.00
	cari ilin məzunları	157	123	49.60	22	8.87	12	4.84	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	91	43	17.34	26	10.48	17	6.85	5	2.02	0	0.00
27	**Gəncə Dövlət Universiteti**	205	113	55.12	73	35.61	15	7.32	4	1.95	0	0.00
	cari ilin məzunları	103	67	32.68	27	13.17	7	3.41	2	0.98	0	0.00
	əvvəlki illərin məzunları	102	46	22.44	46	22.44	8	3.90	2	0.98	0	0.00
28	**Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)**	130	26	20.00	43	33.08	56	43.08	4	3.08	1	0.77
	cari ilin məzunları	71	16	12.31	21	16.15	33	25.38	1	0.77	0	0.00
	əvvəlki illərin məzunları	59	10	7.69	22	16.92	23	17.69	3	2.31	1	0.77
29	**Sumqayıt Dövlət Universiteti**	161	50	31.06	91	56.52	14	8.70	6	3.73	0	0.00
	cari ilin məzunları	91	34	21.12	48	29.81	7	4.35	2	1.24	0	0.00
	əvvəlki illərin məzunları	70	16	9.94	43	26.71	7	4.35	4	2.48	0	0.00
30	**Mingəçevir Dövlət Universiteti**	44	17	38.64	19	43.18	6	13.64	2	4.55	0	0.00
	cari ilin məzunları	17	12	27.27	4	9.09	1	2.27	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	27	5	11.36	15	34.09	5	11.36	2	4.55	0	0.00

Cədvəl 2.11 (ardı)

№	Ali təhsil müəssisəsi	Qəbul olanların sayı	Öz məzunları		Digər ali təhsil müəssisələrinin məzunları							
			sayı	faizi	Bakı şəhərinin dövlət a.t.m.		Regionların dövlət a.t.m.		Özəl a.t.m.		Xarici a.t.m.	
					sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi
31	**Lənkəran Dövlət Universiteti**	136	72	52.94	44	32.35	17	12.50	3	2.21	0	0.00
	cari ilin məzunları	71	51	37.50	11	8.09	8	5.88	1	0.74	0	0.00
	əvvəlki illərin məzunları	65	21	15.44	33	24.26	9	6.62	2	1.47	0	0.00
32	**Fövqəladə Hallar Nazirliyinin Akademiyası**	15	15	100.00	0	0.00	0	0.00	0	0.00	0	0.00
	cari ilin məzunları	6	6	40.00	0	0.00	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	9	9	60.00	0	0.00	0	0.00	0	0.00	0	0.00
33	**Azərbaycan İlahiyyat İnstitutu**	3	0	0.00	0	0.00	0	0.00	3	100.00	0	0.00
	cari ilin məzunları	0	0	0.00	0	0.00	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	3	0	0.00	0	0.00	0	0.00	3	100.00	0	0.00
34	**Azərbaycan Kooperasiya Universiteti**	127	7	5.51	87	68.50	16	12.60	17	13.39	0	0.00
	cari ilin məzunları	52	4	3.15	31	24.41	11	8.66	6	4.72	0	0.00
	əvvəlki illərin məzunları	75	3	2.36	56	44.09	5	3.94	11	8.66	0	0.00
35	**"Azərbaycan" Universiteti**	93	7	7.53	67	72.04	8	8.60	11	11.83	0	0.00
	cari ilin məzunları	60	5	5.38	44	47.31	5	5.38	6	6.45	0	0.00
	əvvəlki illərin məzunları	33	2	2.15	23	24.73	3	3.23	5	5.38	0	0.00
36	**Qərbi Kaspi Universiteti**	75	7	9.33	53	70.67	7	9.33	6	8.00	2	2.67
	cari ilin məzunları	34	3	4.00	24	32.00	4	5.33	3	4.00	0	0.00
	əvvəlki illərin məzunları	41	4	5.33	29	38.67	3	4.00	3	4.00	2	2.67
37	**Xəzər Universiteti**	164	9	5.49	147	89.63	4	2.44	3	1.83	1	0.61
	cari ilin məzunları	84	5	3.05	78	47.56	1	0.61	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	80	4	2.44	69	42.07	3	1.83	3	1.83	1	0.61
38	**Bakı Avrasiya Universiteti**	45	2	4.44	28	62.22	5	11.11	9	20.00	1	2.22
	cari ilin məzunları	27	1	2.22	18	40.00	3	6.67	5	11.11	0	0.00
	əvvəlki illərin məzunları	18	1	2.22	10	22.22	2	4.44	4	8.89	1	2.22
39	**Bakı Qızlar Universiteti**	20	0	0.00	15	75.00	4	20.00	1	5.00	0	0.00
	cari ilin məzunları	7	0	0.00	5	25.00	2	10.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	13	0	0.00	10	50.00	2	10.00	1	5.00	0	0.00
40	**"Odlar Yurdu" Universiteti**	180	4	2.22	144	80.00	17	9.44	13	7.22	2	1.11
	cari ilin məzunları	90	2	1.11	72	40.00	10	5.56	6	3.33	0	0.00
	əvvəlki illərin məzunları	90	2	1.11	72	40.00	7	3.89	7	3.89	2	1.11
41	**Bakı Biznes Universiteti**	130	20	15.38	86	66.15	18	13.85	6	4.62	0	0.00
	cari ilin məzunları	91	18	13.85	58	44.62	12	9.23	3	2.31	0	0.00
	əvvəlki illərin məzunları	39	2	1.54	28	21.54	6	4.62	3	2.31	0	0.00
42	**"Naxçıvan" Universiteti (Naxçıvan şəhəri)**	13	4	30.77	2	15.38	7	53.85	0	0.00	0	0.00
	cari ilin məzunları	7	2	15.38	1	7.69	4	30.77	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	6	2	15.38	1	7.69	3	23.08	0	0.00	0	0.00
43	**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası**	5	1	20.00	3	60.00	0	0.00	1	20.00	0	0.00
	cari ilin məzunları	1	0	0.00	1	20.00	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	4	1	20.00	2	40.00	0	0.00	1	20.00	0	0.00
	Bütövlükdə	**8270**	**3592**	**43.43**	**3780**	**45.71**	**560**	**6.77**	**311**	**3.76**	**27**	**0.33**
	cari ilin məzunları	5181	2488	30.08	2258	27.30	328	3.97	107	1.29	0	0.00
	əvvəlki illərin məzunları	3089	1104	13.35	1522	18.40	232	2.81	204	2.47	27	0.33

Fənlər üzrə elmi-metodiki təhlil və tövsiyələr

2020/2021-ci tədris ili üçün magistraturaya qəbul imtahanının ayrı-ayrı fənləri üzrə qəbul proqramları "Magistr" jurnalının 2020-ci il tarixli birinci sayında, bakalavrlara metodiki kömək göstərmək məqsədilə təqdim olunan test tapşırıqlarının modeli isə həmin jurnalın ikinci sayında dərc edilmiş, bakalavrlara qəbul imtahanında hansı tipdə və çətinlik dərəcəsində test tapşırıqlarının təqdim ediləcəyi barədə məlumat verilmişdir. Artıq bir neçə ildir ki, bakalavrların qəbul imtahanına müstəqil hazırlaşmalarına kömək göstərmək məqsədi ilə "Məntiq testləri" və "İnformatika" adlı vəsaitlərin təkmilləşdirilmiş nəşrləri onların istifadəsinə verilmişdir.

Fənlər üzrə test banklarındakı tapşırıqlar üzərində təkmilləşdirmə işləri müntəzəm olaraq aparılmışdır. İmtahanda təqdim edilən test bloklarında bakalavrların qazandıqları bilik və bacarıqların praktiki tətbiqinin yoxlanılmasına üstünlük verilmişdir.

Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən göstərilən xidmətlərin tariflərinin tənzimlənməsi barədə" 6 mart 2017-ci il tarixli qərarı ilə imtahanda iştirak üçün təsdiq edilmiş tariflərə uyğun məbləğdə xidmət haqqı ödənilməsinin tələb olunması ilə əlaqədar olaraq, son illər imtahanda əsas etibarilə daha hazırlıqlı və həqiqətən də magistr təhsili almağı qarşısına məqsəd qoyan bakalavrların iştirak etmələri, nisbətən zəif hazırlıqlı bakalavrların isə imtahanda, necə deyərlər, "bəxtəbəxt" iştirak etməkdən çəkinmələri müşahidə olunurdu. Xatırladaq ki, magistraturaya qəbul imtahanında iştirak üçün müvafiq ödənişin tələb olunması səbəbindən imtahan verən bakalavrların sayı 2017-ci ildə 2016-cı illə müqayisədə 9437 nəfər az olmuşdu. Belə ki, 2016-cı ildə magistraturaya qəbul imtahanının I mərhələsində 22409 nəfər bakalavr iştirak etmişdisə, 2017-ci ildə onların sayı 41.11% azalaraq 12972 nəfərə düşmüşdü. 2018-ci ildə isə I mərhələ iştirakçılarının sayı daha 5.68% azalaraq 12235 nəfər təşkil etmişdi. Göründüyü kimi, 2018-ci ildə iştirakçıların sayında azalmanın dinamikası əhəmiyyətli dərəcədə zəifləmiş, 2019-cu ildə isə artım müşahidə olunaraq 12545 nəfərə qalxmışdı. 2020-ci ildə magistraturaya qəbul imtahanında 15546 bakalavr iştirak etmişdir. Bu, 2019-cu ildə imtahanın birinci mərhələsində iştirak edənlərdən 3001 nəfər və ya 23.92% çoxdur.

Artıq qeyd olunduğu kimi, 2020-ci ildə imtahanda ayrı-ayrı fənn blokları üzrə test tapşırıqlarının düzgün cavablandırılmasının orta göstəriciləri belə olmuşdur: məntiqi təfəkkür bloku üzrə 54.51%, informatika üzrə 34.67%, ingilis dili üzrə 40.27%, alman dili üzrə 38.63%, fransız dili üzrə 34.98%, rus dili üzrə 47.73%. Statistik göstəricilərə əsasən, düzgün cavablandırmanın orta göstəriciləri 2019-cu ildəkinə nisbətən məntiqi təfəkkür bloku üzrə 0.26%, rus dili üzrə isə 0.78% artmış, təəssüf ki, digər fənlər üzrə aşağı düşmüşdür.

Xarici dilləri bilmə səviyyəsini yoxlayan test tapşırıqlarına verilən cavabların elmi-metodiki təhlili və tövsiyələr

2020-ci ildə magistratura səviyyəsinə qəbul imtahanının birinci mərhələsində xarici dillər üzrə test bloklarında bakalavrların məntiqi təfəkkür qabiliyyətlərinin üzə çıxarılması məqsədini daşıyan, ünsiyyət prosesində xarici dildən istifadə zamanı mühüm əhəmiyyət kəsb edən, xarici dil üzrə bilik və bacarıqların praktiki tətbiqi ilə bağlı tapşırıqlara üstünlük verilmişdir.

Xarici dil üzrə test blokuna daxil edilmiş tapşırıq tipləri əvvəlcədən xarici dillər üzrə elmi-metodik seminarda müzakirə olunub bəyənilmiş, "Magistr" jurnalında dərc edilmiş, sınaq imtahanında tətbiq edilmiş, daha sonra isə qəbul imtahanında istifadə olunmuşdur. Test blokuna daha çox kommunikativ yönlü, məntiqi yanaşma bacarığı tələb edən tapşırıqlar daxil edilmişdir. Tapşırıqlar bakalavrların xarici dil üzrə qazandıqları bilik, bacarıq və vərdişlərin üzə çıxarılmasına imkan vermişdir.

İmtahanda Azərbaycan bölməsinin bakalavrlarına ingilis, alman, fransız, rus, ərəb və ya fars dilini, rus bölməsinin bakalavrlarına isə ingilis, alman və ya fransız dilini xarici dil kimi seçmək hüququ verilmişdir.

İmtahanda iştirak edən və ayrı-ayrı xarici dilləri seçən bakalavrların sayı aşağıdakı cədvəldə göstərildiyi kimi olmuşdur.

Qəbul imtahanında iştirak etmiş bakalavrların xarici dillər üzrə sayı

	İngilis dili	Alman dili	Fransız dili	Rus dili
Azərbaycan bölməsi	11322	224	348	2363
Rus bölməsi	1258	14	10	–
Cəmi	12580	238	358	2363

Magistraturaya qəbul imtahanında iştirak etmiş 15546 bakalavrdan 80.92%-i (12580 nəfəri) xarici dil kimi ingilis dilini, 15.20%-i (2363 nəfəri) isə rus dilini seçmişdir. Xarici dil kimi ingilis və rus dillərini seçən bakalavrlar imtahan verən kontingentin mütləq əksəriyyətini təşkil etmişlər. Digər xarici dilləri seçənlər imtahan verən kontingentin təxminən 3.88%-ni təşkil etmişlər.

İndi isə 2020-ci ildə bakalavrların **xarici dil (ingilis, alman, fransız və rus dilləri)** fənləri üzrə test tapşırıqlarına cavablarının bəzi mühüm məqamlarına dair ekspert şərhlərinə diqqət yetirək.

İmtahan nəticələrinin bütün xarici dil fənləri və bölmələr (Azərbaycan və rus bölmələri) üzrə, habelə test tapşırıqlarının çətinlik dərəcəsi və qabiliyyət göstəriciləri üzrə aparılmış elmi-metodiki təhlili bunu deməyə əsas verir ki, bakalavrların əksəriyyətinin xarici dil üzrə bilik səviyyəsi orta səviyyəyə yaxındır. Lakin ayrı-ayrı dillər və fəndaxili mövzular üzrə nəticələr fərqlidir.

İstifadə olunmuş test tapşırıqlarının çətinlik dərəcələri üzrə təhlili göstərir ki, bakalavrların əksəriyyəti asan və orta çətinlikli faktoloji test tapşırıqlarının cavablandırılmasında yaxşı, tətbiqyönlü, məntiqi düşüncə, ümumiləşdirmə bacarığı tələb edən orta çətinlikli və çətin test tapşırıqlarının cavablandırılmasında isə nisbətən zəif nəticə göstərmişdir.

Xarici dillər üzrə test bloklarındakı tapşırıqların mövzu və bölmələr üzrə paylanması zamanı onların, əsasən, praktiki və kommunikativ yönlü olması nəzərdə tutulmuşdur. Təklif edilən test tapşırıqlarının məzmunu bakalavrların nəzəri materialı necə mənimsədiyini, praktiki dil bacarıq və vərdişlərinə hansı səviyyədə yiyələndiyini müəyyənləşdirməyə, onların söz ehtiyatını, oxuyub-anlama və dinləyib-anlama bacarıqlarını üzə çıxarmağa imkan vermişdir. Bakalavrlara hər bir xarici dil üzrə təqdim edilən test blokunda 25 tapşırıqdan 20-si qapalı formalı, 5-i isə açıq formalı idi. Hər bir xarici dil üzrə test blokuna daxil edilən 25 test tapşırığından 5-i dialoq əsasında tərtib edilmiş və dinləyib-anlama bacarığını yoxlayan tapşırıqlardan, 5-i mətn əsasında tərtib edilmiş və oxuyub-anlama bacarığını yoxlayan tapşırıqlardan, 15-i isə leksik-qrammatik tapşırıqlardan ibarət olmuşdur.

Test blokundakı 20 qapalı formalı test tapşırığına bakalavrların cavabları qənaətbəxş hesab oluna bilər. Belə ki, qapalı test tapşırıqlarının düzgün cavablandırılma göstəricisi ingilis dili üzrə 50.87% (o cümlədən Azərbaycan bölməsində 49.68%, rus bölməsində 61.56%), alman dili üzrə 48.32% (o cümlədən Azərbaycan bölməsində 47.68%, rus bölməsində 58.67%), fransız dilindən 43.73% (o cümlədən Azərbaycan bölməsində 43.33%, rus bölməsində 57.50%), rus dilindən isə Azərbaycan bölməsində 59.65%-dir. Rus bölməsində bakalavrların qapalı test tapşırıqlarını düzgün cavablandırma göstəricisi Azərbaycan bölməsindəkindən ingilis dili üzrə 11.88%, fransız dili üzrə 14.17%, alman dili üzrə isə 10.89% yuxarıdır.

Bakalavrların qapalı formalı 20 test tapşırığını düzgün cavablandırma faizləri aşağıdakı cədvəldə göstərilmişdir:

Bakalavrların qapalı formalı tapşırıqları düzgün cavablandırma faizləri (ortastatistik göstəricilər)

	İngilis dili	Alman dili	Fransız dili	Rus dili
Azərbaycan bölməsi	49.68	47.68	43.33	59.65
Rus bölməsi	61.56	58.57	57.50	–
Fənn üzrə ümumi	50.87	48.32	43.73	59.65

Bu nəticələri bakalavrların 2019-cu ildə keçirilmiş qəbul imtahanındakı nəticələri ilə müqayisə etdikdə, qapalı sualların düzgün cavablandırılma göstəricisinin rus dili üzrə bir qədər yüksəlməsi, digər dillər üzrə aşağı düşməsi aşkara çıxır.

Xarici dil üzrə test blokuna daxil edilən açıq formalı test tapşırıqlarına bakalavrların cavabları o qədər də qənaətbəxş olmamışdır. Belə ki, açıq formalı test tapşırıqlarının düzgün cavablandırılma göstəricisi ingilis dili üzrə 20.62% (o cümlədən Azərbaycan bölməsində 19.76%, rus bölməsində 28.41%), alman dili üzrə 19.58% (o cümlədən Azərbaycan bölməsində 18.30%, rus bölməsində 40.00%), fransız dili üzrə 16.48% (o cümlədən Azərbaycan bölməsində 15.75%, rus bölməsində 42.00%), rus dili üzrə isə Azərbaycan bölməsində 22.19% olmuşdur. Bakalavrların xarici dillər üzrə açıq formalı test tapşırıqlarını düzgün cavablandırma faizləri 2019-cu ildəkinə nisbətən bir qədər aşağı düşmüşdür.

Bakalavrların açıq formalı tapşırıqları düzgün cavablandırma faizləri (ortastatistik göstəricilər)

	İngilis dili	Alman dili	Fransız dili	Rus dili
Azərbaycan bölməsi	19.76	18.30	15.75	22.19
Rus bölməsi	28.41	40.00	42.00	–
Fənn üzrə ümumi	20.62	19.58	16.48	22.19

Cədvəldən göründüyü kimi, rus bölməsində imtahan verən bakalavrların açıq formalı test tapşırıqlarını düzgün cavablandırma göstəriciləri Azərbaycan bölməsinin bakalavrlarınkından ingilis dili üzrə 8.65%, fransız dili üzrə 26.25%, alman dili üzrə isə 21.70% yüksək olmuşdur. Açıq formalı test tapşırıqlarının cavablandırılmasında ən yaxşı nəticəni rus və ingilis dillərindən, ən zəif nəticəni isə fransız dilindən imtahan verən bakalavrlar nümayiş etdirmişlər.

Xarici dil üzrə test blokuna daxil olan qapalı və açıq formalı test tapşırıqlarının birlikdə düzgün cavablandırılma faizləri aşağıdakı kimi olmuşdur:

Bakalavrların qapalı və açıq formalı tapşırıqları düzgün cavablandırma faizləri (ortastatistik göstəricilər)

	İngilis dili	Alman dili	Fransız dili	Rus dili
Azərbaycan bölməsi	43.44	41.80	37.82	52.16
Rus bölməsi	54.65	54.86	54.40	–
Fənn üzrə ümumi	44.57	42.57	38.28	52.16

Cədvəldən göründüyü kimi, 2020-ci ildə rus bölməsində imtahan verən bakalavrların bütün xarici dillərdən test tapşırıqlarını düzgün cavablandırma faizləri Azərbaycan bölməsinin bakalavrlarınkından daha yüksək olmuşdur.

Məlum olduğu kimi, xarici dillər üzrə test bloklarına ənənəvi olaraq oxuyub-anlama bacarığını yoxlayan bir mətn əsasında tərtib edilmiş 5 qapalı formalı tapşırıqdan ibarət oxu bloku daxil olunur. Ötən ildən isə oxu bloku ilə yanaşı, dinləyib-anlama bacarığını yoxlayan bir mətn (dialoq) əsasında tərtib olunmuş 5 qapalı formalı tapşırıqdan ibarət dinləmə bloku da daxil edilmişdir. Aşağıdakı cədvəldə həmin iki blokun cavablandırılma göstəriciləri əks olunur:

Bakalavrların oxu və dinləmə blokları üzrə tapşırıqları düzgün cavablandırma faizləri (ortastatistik göstəricilər)

	İngilis dili		Alman dili		Fransız dili		Rus dili	
	Oxu bloku	Dinləmə bloku	Oxu bloku	Dinləmə bloku	Oxu bloku	Dinləmə bloku	Oxu bloku	Dinləmə bloku
Azərbaycan bölməsi	43.51	35.19	49.55	28.57	33.16	30.92	59.31	61.29
Rus bölməsi	65.41	49.70	61.43	44.29	56.00	42.00	-	-
Bölmələr üzrə ümumi	45.70	36.64	50.25	29.50	33.80	31.23	-	-

Cədvəldən göründüyü kimi, oxuyub-anlama bloku üzrə düzgün cavablandırma göstəriciləri 33.80-59.31% intervalında, dinləyib-anlama bloku üzrə isə 29.50-61.29% intervalında olmuşdur. Oxuyub–anlama blokları üzrə nəticələr fransız dili istisna olmaqla digər dillər üzrə ümumi test blokları üzrə nəticələrdən yüksəkdir. Dinləyib-anlama blokunun ikinci ildir ki, tətbiq olunduğunu nəzərə alsaq, həmin blok üzrə nəticələri də qənaətbəxş saymaq olar, lakin bakalavrların dinləmə bacarıqları oxu bacarıqlarından xeyli aşağı səviyyədədir.

İndi isə 2019-cu və 2020-ci illərin qəbul imtahanlarının nəticələri əsasında Azərbaycan və rus bölmələrindən olan bakalavrların xarici dil üzrə test bloklarını düzgün cavablandırma göstəricilərini müqayisə edək.

Bakalavrların xarici dil bloku üzrə tapşırıqları düzgün cavablandırma faizlərinin müqayisəsi (2019-cu və 2020-ci illər, faizlə)

Dillər / İllər	İngilis dili	Alman dili	Fransız dili	Rus dili
2019	51.06	46.18	47.11	46.95
2020	44.57	42.57	38.28	52.16
Fərq	6.49	3.61	8.83	5.21

Göründüyü kimi, bakalavrların nəticələri 2019-cu ildə ingilis və fransız dilləri üzrə, 2020-ci ildə isə rus və ingilis dilləri üzrə o biri dillərə nisbətən daha yüksək olmuşdur.

İngilis və rus dilləri ilə yanaşı, alman və fransız dillərini seçən bakalavrların da test tapşırıqlarını cavablandırmalarında müşahidə olunan spesifik cəhətlər, onların cavablandırmaqda çətinlik çəkdikləri ayrı-ayrı mövzulara aid test tapşırıqları üzərində bir qədər ətraflı dayanmağı, müvafiq statistik göstəricilər əsasında elmi-metodik təhlil aparmağı, nəticələr çıxarmağı və bəzi tövsiyələr verməyi məqsədəuyğun hesab edirik.

2020-ci ildə magistraturaya qəbul imtahanında xarici dil kimi ***ingilis dilini*** seçən bakalavrların sayı 12580 nəfər olmuşdur ki, bunun da 11322-si Azərbaycan bölməsinin, 1258-i isə rus bölməsinin payına düşür. İngilis dili fənnindən təklif olunmuş test tapşırıqları bloku, əsasən, bakalavrların kommunikativ bacarıqlarını, leksika və qrammatika sahəsində biliklərini yoxlayan, tətbiqyönümlü tapşırıqlardan, o cümlədən verilmiş sözlərin sinonim və antonimlərinin, eləcə də düzgün izahının tapılması, dialoq tərtibi, verilmiş cümlələrdən kiçik hekayənin tərtib edilməsi kimi kommunikativ tapşırıqlardan və feilin məchul növü, inkar söz və cümlə, əvəzlik, bağlayıcı, feilin zaman formaları kimi qrammatik əsaslı tapşırıqlardan ibarət olmuşdur. Bunlarla

yanaşı, qəbul imtahanında bakalavrlara oxuyub-anlama və dinləyib-anlama bacarığını yoxlayan test tapşırıqları blokları da təqdim olunmuşdur.

Statistik göstəricilərə əsasən, bakalavrlar oxuyub-anlama bacarığını yoxlayan test tapşırıqları ilə yanaşı, sinonim, antonim, əvəzlik, zaman formaları, mətn yaratma, sual cümləsi, inkar cümlə və məchul növ ilə bağlı test tapşırıqlarını da yaxşı cavablandırmışlar.

İmtahan nəticələrinin təhlili göstərir ki, bakalavrların oxu mətni əsasında tərtib olunmuş test tapşırıqlarına cavabları qənaətbəxş hesab edilə bilər. Belə ki, ingilis dili üzrə mətn əsasında beş tapşırıqdan ibarət test blokunu bakalavrların, orta hesabla, 45.70%-i, o cümlədən Azərbaycan bölməsi üzrə 43.51%-i, rus bölməsi üzrə isə 65.41%-i düzgün cavablandırmışdır. Göründüyü kimi, rus bölməsində imtahan verən bakalavrların oxu mətni üzrə test blokunu cavablandırma göstəricisi Azərbaycan bölməsində imtahan verən bakalavrların müvafiq göstəricisindən 21.90% yüksək olmuşdur.

Ümumilikdə, ingilis dili üzrə test blokunda təqdim edilən tapşırıqlardan 4-nün düzgün cavablandırılma göstəricisi 0-20%, 6-nınkı 21-40%, 15-ninki isə 41-90% intervalında olmuşdur.

2020-ci ildə iki bölmə üzrə ümumilikdə bakalavrların 44.57%-i test tapşırıqlarını düzgün cavablandırmışdır. Müvafiq göstərici Azərbaycan bölməsində 43.44%, rus bölməsində isə 54.65% olmuşdur. Azərbaycan bölməsi üzrə bakalavrların 49.68%-i, rus bölməsi üzrə isə 61.56%-i qapalı test tapşırıqlarına doğru cavab vermişdir. İki bölmə üzrə ümumi göstərici 50.87%-dir. Açıq formalı test tapşırıqlarının cavablandıılrmasında Azərbaycan bölməsi üzrə 19.76%, rus bölməsi üzrə isə 28.41%, iki bölmə üzrə ümumilikdə isə 20.62% nəticə qeydə alınmışdır.

İndi isə imtahanda istifadə edilmiş bir neçə test tapşırığına və onların cavablandırılmasının statistik göstəricilərinə nəzər salaq.

Dinləyib-anlama dialoqu ilə bağlı verilmiş *A variantında 3 saylı (C, B və D variantlarında 3 saylı)* test tapşırığına diqqət yetirək:

Complete the sentence according to the dialogue.

You can always find a place in the country when you want to … .

A) concentrate on work B) do your best C) reflect on something

D) live by yourself E) feel alone

Test tapşırığının aid olduğu dialoq şəhərlə kənd həyatının fərqlərindən bəhs edir. Dialoqda belə bir fikir qeyd edilir ki, düşünmək istəyəndə hər zaman tək qala biləcəyin bir yer vardır. Burada söhbət təbii ki, kənddən gedir. Test tapşırığının düzgün cavabı C bəndidir. 11.11% bakalavr sualı doğru cavablandıra bilmişdir. Bakalavrlardan 38.61%-i E, 18.51%-i A, 18.37%-i isə D bəndini seçməklə test tapşırığını yalnış cavablandırmışdır.

A variantında 6 saylı test tapşırığı isə düzgün sözönünün seçilməsi ilə bağlıdır. 31.45% bakalavr A bəndini seçməklə test tapşırığını doğru cavablandırsa da, 43.48% bakalavr B bəndini seçmişdir. Bu da ondan irəli gəlir ki, bakalavrlar verilmiş kontekstdə hansı sözönlərinin işlənməsini bilməmişlər.

Choose the correct prepositions.

I looked … her eyes. There was a strange expression … them, quite unknown … me.

A) into, in, to B) at, on, for C) through, of, of D) into, at, – E) at, on, –

A variantı 21, 23 və 25 saylı açıq formalı test tapşırıqları isə çətin və ya çox çətin tapşırıqlar kimi dəyərləndirilir. Belə ki, A variantı 21 saylı test tapşırığını 7.23% bakalavr doğru cavablandıra bilmişdir.

Choose the correct variants.

1. so many poultry farms 2. a lot of poultry
3. a poultry market 4. such a poultry
5. such poultry 6. so good poultry

Burada düzgün cavab 1, 2, 3, 5 variantlarıdır.

D variantı 22 saylı açıq formalı test tapşırığı da bu qəbildəndir. 3.53% bakalavr test tapşırığını doğru cavablandıra bilmişdir. Doğru cavab 1, 3, 4, 5-dir.

Choose the correct variants.

1. so few cattle farms 2. so large cattle
3. a lot of cattle 4. cattle food
5. such cattle 6. such a cattle

A və D variantlarındakı bu iki analoji test tapşırığını birləşdirən cəhət ondan ibarətdir ki, hər iki tapşırıqda toplu isimlər olan *cattle* və *poultry* sözlərinin işlədilməsinə diqqət yetirilir.

Rus bölməsinin bakalavrları üçün də bu tipli tapşırıq çətinlik yaratmış və nəticədə D variantı 22 saylı eyni test tapşırığı rus bölməsinin 1.90% bakalavrı tərəfindən doğru cavablandırılmışdır ki, bu da aşağı göstərici hesab edilir.

Növbəti çətin hesab edilən tapşırıq isə aşağıda göstərilən *A variantındakı 23 saylı* açıq formalı test tapşırığıdır. Burada düzgün bağlayıcıların seçilməsi tələb olunur.

Choose the correct conjunctions.

I had … tried to concentrate on my test … the instructor interrupted me.

1. no sooner … than 2. not only … but also
3. hardly … when 4. neither … nor
5. either … or

Bu cümlədə "no sooner … than" və "hardly … when" bağlayıcıları işlədilməlidir. Beləliklə, doğru cavab 1-ci və 3-cü variantlardır. Təəssüf ki, bakalavrların cəmi 15.94%-i sualı doğru cavablandırmağa müvəffəq olmuşdur.

A variantında 25 saylı test tapşırığı isə leksika bölməsinə aiddir. Burada verilmiş əlamət bildirən 3 sözün izahının tapılması tələb olunur.

Choose the correct definition for the given words.

1. accessible 2. immediate 3. gradual

a. happening or done without delay

b. able to think and make decisions based on reason

c. that can be reached or used

d. difficult to understand, not clear

e. happening slowly over a long period

Sözlərin mənasını bilməklə bu tapşırığı asanlıqla cavablandırmaq mümkün idi. Düzgün cavab 1-c, 2-a, 3-e şəklində olmalıdır.

Bu test tapşırığının analoqu olan *B variantı 25 saylı* test tapşırığı da çətin tapşırıq kimi qiymətləndirilə bilər. Belə ki 19.13 % bakalavr test tapşırığını düzgün cavablandırmışdır. Tapşırıq aşağıdakı kimidir:

Choose the correct definition for the given words.

1. flexible 2. furious 3. obvious

a. extremely angry b. slow or unwilling to understand

c. able to suit new conditions d. causing amusement or laughter

e. easy to see or understand

Leksika bölməsinə aid bu tapşırığın düzgün cavabı belədir: 1-c; 2-a; 3-e.

Oxuyub-anlama üzrə mətn blokunda verilmiş *B variantı 17 saylı test tapşırığına* nəzər salaq:

All of the followings are mentioned in the passage EXCEPT:

A) notions of formal and informal learning.

B) being an education agent of different generations.

C) not being able to find out the truth about political problems.

D) education as an integral part of one's life.

E) attending school at a definite age.

Verilmiş test tapşırığında mətnə əsasən doğru olmayan fikrin seçilməsi tələb olunur. Bu test tapşırığında qeyd olunmuş fikirlərdən biri mətndə verilməmişdir. Bu tapşırığı doğru cavablandırmaq üçün bakalavrlar mətni diqqətlə oxumalı, mətndə əksini tapmış məlumatın verilmiş cümlələrlə uyğunluq təşkil edib-etməməsini araşdırmalıdırlar. Bakalavrların 22.28%-i E bəndini seçməklə tapşırığı doğru cavablandırmağa müvəffəq olmuşdur. 25.64% bakalavr isə D distraktorunu seçmişdir. D distraktorunda təhsil insan həyatının ayrılmaz hissəsi kimi verilib. Bu mətnin məzmununa tam uyğundur. Burada isə mətnin məzmununa uyğun olmayan fikir tapılmalıdır. Bu isə E bəndidir. Mətndə məktəbin təhsildə rolu qeyd olunsa da, yaş məsələsinə toxunulmur.

2020-ci ildə magistraturaya qəbul imtahanında Azərbaycan bölməsində xarici dil kimi ***rus dilini*** seçən bakalavrlar 2363 nəfər olmuşdur. Bu fəndən təqdim edilən test tapşırıqları bakalavrların, əsasən, linqvistik bilik, bacarıq və vərdişlərinin, məntiqi təfəkkürlərinin, dildən kommunikativ məqsədlə istifadə etmək qabiliyyətlərinin üzə çıxarılmasını nəzərdə tutmuşdur. Test blokunda rus dilinin spesifik xüsusiyyətlərinə dair bilikləri və bu bilikləri tətbiq etmək bacarığını yoxlayan ümumiləşdirici tapşırıqlara, eləcə də dilə praktiki cəhətdən yiyələnmə səviyyəsini üzə çıxarmaq məqsədi daşıyan tapşırıqlara üstünlük verilmişdir.

Bakalavrlar test blokundakı sözönü, mətn tərtibi, məntiqi tamamlama, antonimlər və digər mövzulara aid tapşırıqlara yaxşı cavab vermişlər. Məsələn, yuxarıda sadalanan mövzulara aid A variantındakı 8 (72.28%), 11 (86.90%), 13 (68.71%) və digər variantlardakı analoji test tapşırıqlarına verilən cavabları buna misal göstərmək olar.

Bakalavrların mətn əsasında tərtib edilmiş beş tapşırıqdan ibarət oxuyub-anlama blokuna cavabları qənaətbəxş, yəni orta hesabla, 59.31% olmuşdur.

2019-cu ildən etibarən ilk dəfə olaraq Ümumavropa Çərçivə Sənədinin tələblərinə əsasən dil öyrənmənin ən vacib komponentlərindən hesab edilən dinləmə bacarığının yoxlanılmasına yönəlmiş test tapşırıqları bloku da qəbul imtahanında yer almışdır. Bakalavrlara dinləyib-anlama üçün mətn və mətnlə bağlı olan 5 test tapşırığı təqdim olunmuşdur. Mətn bakalavlar üçün iki dəfə səsləndirilmişdir. Tapşırıqlar isə mətnin əsas ideyasının müəyyən edilməsi, verilmiş cümlənin mətnə əsasən tamamlanması, mətnə görə düzgün fikirlərin seçilməsi istiqamətində olmuşdur. Hər bir xarici dil öyrənən bakalavr həmin dildə ona təqdim olunmuş yazılı məlumatı oxuyub anlaya bilməli, öz fikrini yazılı və şifahi şəkildə sərbəst ifadə etməli, eşitdiyi informasiyanı adekvat şəkildə qavramağı bacarmalıdır. Bu məzmunda olan test tapşırıqları onların oxuyub-anlama, dinləyib-anlama, yazı və danışıq qabiliyyətlərini qiymətləndirməkdə əhəmiyyətli rol oynayır. Ümumi nəticəyə nəzər salsaq, dinləyib-anlama ilə bağlı olan test tapşırıqlarının statistik nəticələri qənaətbəxş hesab edilə bilər. 61.29% bakalavr dinləmə blokuna aid test tapşırıqlarının öhdəsindən lazımınca gəlmişdir.

Test tapşırıqlarının çətinlik dərəcəsi, qabiliyyət göstəriciləri baxımından təhlilinə və statistik göstəricilərinə əsaslanaraq demək olar ki, bakalavrların rus dili üzrə nəticələri ümumilikdə qənaətbəxşdir. Rus dili üzrə test blokundakı tapşırıqların düzgün cavablandırılma faizi, orta hesabla, 52.16% olmuşdur.

Aşağıdakı cədvəldə 2019-cu və 2020-ci illərdə qəbul imtahanının birinci mərhələsində imtahan verən bakalavrların rus dilini bilmə səviyyəsini müəyyən edən test tapşırıqlarının düzgün cavablandırılma faizləri (ortastatistik göstəricilər) verilmişdir:

İl	Azərbaycan bölməsi üzrə	Bakalavrların sayı	Qapalı formalı sualların düzgün cavablandırılma faizi	Açıq formalı sualların düzgün cavablandırılma faizi	Qapalı və açıq formalı sualların (birlikdə) düzgün cavablandırılma faizi
2019		1794	52.02	26.66	46.95
2020		2363	59.65	22.19	52.16

Cədvəldən göründüyü kimi, bakalavrların 2020-ci ildə rus dili üzrə açıq formalı test tapşırıqlarını düzgün cavablandırmalarının ortastatistik göstəricisi 2019-cu illə müqayisədə aşağıdır.

Bakalavrların 2020-ci ildə qapalı və açıq formalı test tapşırıqlarını düzgün cavablandırmalarının ortastatistik göstəricisində 2019-cu illə müqayisədə artım müşahidə olunmuşdur. Cədvəldən göründüyü kimi, qapalı və açıq formalı test tapşırıqlarının birlikdə düzgün cavablandırılma göstəricisi ötənilkinə nisbətən 5.21% artmışdır.

Tapşırıqların statistik təhlili bakalavrların nitq konstruksiyalarından istifadə etmək bacarığının hələ arzuedilən səviyyədə olmadığını göstərir. Təhlildən aydın olur ki, bakalavrlar, əsasən, mətn tərtibi, feili sifətə aid xüsusiyyətlərin müəyyən edilməsi, paronim sözlər, sözlərin uzlaşması, nitq səhvlərinin tapılması, sözün leksik mənasının müəyyənləşdirilməsi və bəzi digər mövzularda çətinlik çəkirlər.

Statistik göstəricilərə əsasən, qəbul imtahanında bakalavrların çətinlik çəkdiyi mövzulardan biri leksika bölməsi olmuşdur. Bu mövzuya aid olan bir neçə test tapşırığına nəzər salaq.

A variantı, 25 saylı test tapşırığı.

Установите соответствие.

1. Толкование дано неверно
2. Толкование дано верно

a. Брифинг – короткое информационное сообщение для журналистов

b. Архитектура – сооружение для зрелищ

c. Инцидент – случай, происшествие, недоразумение

d. Компания – организация мероприятий с какой-то целью

e. Ансамбль – исполнительский коллектив певцов и музыкантов

Test tapşırığı mürəkkəblik dərəcəsinə görə çətin hesab edilə bilər. Bu test tapşırığına bakalavrların yalnız 8.16% düzgün cavab vermiş, 73.30% isə yalnış cavablandırmışdır. Bu nəticə onların verilmiş sözlərin leksik mənalarını bilməmələri ilə izah olunur. Test tapşırığında verilən məna "компания" sözünə deyil, . "кампания" sözünə aiddir. Bu sözlər paronim adlandırılır. Bu nəticə bakalavrların nitqdə paronimlərin

mənalarını fərqləndirə bilməmələrindən irəli gəlir. Bakalavrlar bilməlidirlər ki, "brifinq", "arxitektura" və "ansambl" sözləri Azərbaycan dilində də işlənir, buna görə də düzgün cavabı tapmaq bir o qədər də çətin olmamalı idi. Bu test tapşırığını düzgün cavablandırmaq üçün ilk növbədə paronimlərin tələffüzcə yaxın, mənaca fərqli, eyniköklü sözlər olmasını bilmək lazımdır. Bu test tapşırığının cavablandırılma nəticələri göstərir ki, imtahan edilənlərin sözlərin mənaları ilə bağlı bilikləri, başqa sözlə, söz ehtiyatı qənaətbəxş deyildir. Düzgün cavab belədir: 1 – b, d; 2 – a, c, e.

Leksika bölməsinə aid olan digər bir test tapşırığına diqqət yetirək.

B variantı, 25 saylı test tapşırığı.

Установите соответствие.

1. Толкование дано неверно
2. Толкование дано верно

a. Шквал – сильный и резкий порыв ветра

b. Экспозиция – заключительная часть произведения

c. Цивилизация – определенная ступень развития общества

d. Миниатюра – графическое или скульптурное украшение

e. Колорит – сочетание красок, цветов в картине

Bu tapşırıqda çoxmənalı sözlərin düzgün izahını tapmaq üçün müvafiq sözlərin leksik mənasını başa düşmək, çoxmənalı sözlərin birdən çox mənasının olmasını bilmək tələb olunur. Adətən, bu mövzuya aid tapşırıqlar qapalı formada təqdim edilərkən yüksək cavablandırılma faizi ilə seçildiyi halda, açıq formada təqdim olunan bu tapşırığın düzgün cavabını bakalavrların yalnız 7.63%-i müəyyənləşdirmiş, 66.61%-i yanlış cavablandırmış, 25.76%-i isə cavablandırmaqdan imtina etmişdir. Görünür, bakalavrların söz ehtiyatlarının məhdud olması ilə yanaşı, bu tapşırığın açıq formalı olması da onun zəif cavablandırılmasının səbəblərindən biridir.

Düzgün cavab belədir: 1 – b, d; 2 – a, c, e.

Verilmiş test tapşırığının cavablandırma nəticələri göstərir ki, imtahan edilənlərin sözlərin mənaları ilə bağlı bilikləri qənaətbəxş deyildir.

Statistik nəticələr göstərir ki, bu bölməyə aid olan bütün test tapşırıqları bakalavrlar üçün eyni çətinlikdə olmuşdur.

Digər iki test tapşırığı paronim bölməsinə aiddir.

B variantı, 22 saylı test tapşırığı.

В каких предложениях вместо слова **невежа** нужно употребить слово **невежда**?

1. Тот, кто не учится, рискует остаться невежей.
2. Постоянные грубости по отношению к окружающим сделали его полным невежей.
3. Как легче жить: невежей или знающим человеком?
4. Непочтительность к старшим характеризует человека как невежу.
5. Никогда он не искал популярности в научном споре с невежами.

Test tapşırığı mürəkkəblik dərəcəsinə görə çətin hesab oluna bilər. Açıq formalı bu test tapşırığını bakalavrların cəmi 13.73%-i doğru cavablandırmış, 62.20%-i yanlış olan digər cavabları qeyd etmiş, 24.07%-i isə müvafiq test tapşırığını cavablandırmaqdan imtina etmişdir.

Bu nəticə onların nitqdə paronimlərin mənalarını fərqləndirə bilməmələrindən irəli gəlir. Paronim sözlərin düzgün işlənməməsi leksik normanın pozulması ilə nəticələnir. Bakalavrlar bu test tapşırığını düzgün cavablandırmaq üçün paronimlərin tələffüzcə yaxın, mənaca fərqli eyniköklü sözlər olmasını bilməlidirlər. Cavab variantları ilə tanış olaq. "невежа" sözünün mənası "kobud, tərbiyyəsiz insandır", "невежда" isə "savadsız insan" deməkdir. Bu test tapşırığının cavablandırma nəticələri göstərir ki, imtahan edilənlərin paronimlərin mənaları ilə bağlı bilikləri qənaətbəxş deyildir.

C variantı, 22 saylı test tapşırığı.

В каких предложениях вместо слова **удачный** нужно употребить слово **удачливый**?

1. Благодаря любви человек становится удачным в жизни.
2. Удачный охотник и на этот раз вернулся с большой добычей.
3. Он считает, что это очень удачная шутка.
4. В этих обстоятельствах никак нельзя было надеяться на удачное завершение миссии.
5. Книги этого автора выходили такими гигантскими тиражами, что ему мог бы позавидовать любой самый удачный литератор.

Test tapşırığı çətinlik dərəcəsinə görə mürəkkəb hesab edilə bilər. Bu test tapşırığına bakalavrların yalnız 18.78%-i düzgün cavab vermiş, 64.64%-i isə yanlış cavablar olan digər bəndləri seçmişdir.

Bildiyimiz kimi, "удачный" sözü nitq hissəsi olaraq sifətdir, Azərbaycan dilinə tərcümədə "uğurlu" deməkdir və bu sifət cümlədə yalnız cansız isimlərlə işlənə bilər. "Удачливый" isə ancaq canlı isimlərlə işlənir, mənası isə "hər şeyə nail olan insan, bəxti gətirən insan" deməkdir. Düzgün cavab belədir: 1, 2, 5.

Ümumiyyətlə, zəruri biliklərə, söz ehtiyatına və məntiqi təfəkkürə malik olan bakalavrlar istənilən test tapşırığına asanlıqla cavab verə bilirlər.

İndi isə dinləyib-anlama blokunda bakalavrlar üçün çətinlik törətmiş test tapşırığına diqqət yetirək.

B variantı, 77 saylı test tapşırığı (D variantı, 78 saylı test tapşırığı).

Выберите верное утверждение по тексту.

A) Парниковый эффект существовал с тех пор, как на Земле появилась атмосфера.

B) Климатическая система Земли охватывает атмосферу, океан и сушу.

C) Нефтяные пятна в водной среде приводят к вымиранию живых существ.

D) Таяние ледников приводит к изменению климата.

E) Мировые ледники постепенно тают и поэтому водных ресурсов на планете становится больше.

Nümunədə verilmiş test tapşırığı dinləmə blokuna aid olan beş tapşırıqdan biridir. Bakalavrlar dinlədikləri mətndə verilmiş məlumata əsasən mətnin məzmununa uyğun gələn düzgün cümləni seçməlidirlər. Bu tapşırığı bakalavrların 22.11%-i D bəndini seçməklə düzgün cavablandırmış, 77.04%-i yanlış bəndləri seçmişdir. E bəndinə bakalavrlar daha çox üstünlük vermişlər (31.63%). Mətndəki iştirakçılar dialoqda dünya buzlaqlarının əriməsi və havanın hətta qışda belə isti keçməsi barədə söhbət edirlər. Lakin test tapşırığında deyilir ki, dünya buzlaqları əriyir və buna görə də dünyada su ehtiyatları artır. Dialoqdakı və test tapşırığındakı fikirlər üst-üstə düşmür. Bir məsələ xüsusi vurğulanmalıdır ki, mətn əsasında tərtib edilmiş tapşırıqları yerinə yetirmək üçün bakalavrlardan geniş söz ehtiyatına malik olmaq və səslənən mətnə diqqətlə qulaq asmaq tələb olunur.

Təhlillər göstərir ki, eyni çətinlikli qapalı formalı test tapşırıqlarına verilən cavabların statistik göstəriciləri açıq formalı test tapşırıqlarına verilən cavablarınkından xeyli yüksəkdir. Əslində, açıq formalı test tapşırıqlarına cavab vermək üçün tələb olunan bilik və bacarıqlar qapalı formalı test tapşırıqlarını cavablandırmaqdan ötrü lazım olan bilik və bacarıqlardan mahiyyətcə heç də fərqlənmir. Zəruri biliklərə, söz ehtiyatına və məntiqi təfəkkürə malik olan bakalavrlar bu tipli test tapşırıqlarına asanlıqla cavab verə bilirlər. Söz ehtiyatı və qrammatik bilikləri kifayət qədər olan bakalavrlar tapşırığın qapalı və ya açıq formalı olmasından asılı olmayaraq, düzgün cavabı asanlıqla təyin edə bilirlər.

Qəbul imtahanında xarici dil kimi ***alman dilini*** seçən bakalavrların sayı 238 nəfər olmuşdur ki, bunun da 224-ü Azərbaycan bölməsinin, 14-ü isə rus bölməsinin payına düşür.

İmtahan nəticələrindən bu qənaətə gəmək olar ki, düzgün cavablandırma Azərbaycan bölməsi üzrə 41.80%, rus bölməsi üzrə isə 54.86% olmuşdur. İki bölmə üzrə ümumi göstərici 42.57% təşkil edir. Açıq formalı test tapşırıqlarının cavablandırılmasında Azərbaycan bölməsi üzrə 18.30%, rus bölməsi üzrə 40%, ümumilikdə isə 19.58% nəticə qeydə alınmışdır. Azərbaycan bölməsi qapalı formalı test tapşırıqlarını 47.68%, rus bölməsi isə 58.57% düzgün cavablandırmağa müvəffəq olmuşdur. İki bölmə üzrə ümumi göstərici 48.32% təşkil edir.

2019-cu ildən ilk dəfə tətbiq olunan dinləyib-anlama bacarığının qiymətləndirilməsinə aid test tapşırıqlarının cavablandırılma göstəricisinə nəzər salaq. 2020-ci ildə dinləmə bloku üzrə Azərbaycan bölməsi üzrə 28.57%, rus bölməsi üzrə isə 44.29% nəticə qeydə alınmışdır. İki bölmə üzrə bakalavrların 29.50%-i test tapşırıqlarını doğru cavablandırmışdır.

Oxu blokuna dair statistik göstəricilərə nəzər salarkən görürük ki, Azərbaycan bölməsi bakalavrlarının 49.55%-i, rus bölməsi bakalavrlarının 61.43%-i test tapşırıqlarını doğru cavablandırmışdır. İki bölmə üzrə ümumilikdə 50.25% bakalavr uğurlu nəticə göstərə bilmişdir.

Bakalavrlar tərəfindən çətinliklə cavablandırılmış bir neçə test tapşırığına nəzər salaq.

Azərbaycan bölməsi, A variantı, 21 saylı test tapşırığı.

Wählen Sie aus diesen Sätzen diejenigen, in denen die Handlung im Moment passiert:

1. Der Ausflug fand am Nachmittag statt.
2. Alle Studenten nehmen an der Besprechung dieses Buches teil.
3. Die Reiseleiterin hat mir seine Telefonnummer genannt.
4. Ich bezahle den Schweinebraten und den Apfelsalat.
5. Die Mutter wird Brot und Milch kaufen.

Şərtə əsasən, bakalavrlardan hərəkətin hal-hazırda baş verdiyi cümlələri seçmək tələb olunur. Belə ki, feilin zaman formalarını mənimsəmiş bakalavr Präsens-də verilmiş cümlələri asanlıqla seçə bilər. Cavablara baxsaq, 1-ci cümlənin Präteritum-da, 2-ci cümlənin Präsens, 3-cü cümlənin Perfekt, 4-cünün Präsens və 5-cinin Futurum-da olduğunu görərik. Bakalavrların 17.54%-i tapşırığı düzgün cavablandırmış, 52.63%-i isə cavablandırmaqda çətinlik çəkmişlər. Test tapşırığının həllində çətinlik çəkmələrinə səbəb, çox güman ki, bakalavrların test tapşırığının şərtini düzgün başa düşməmələri olmuşdur.

Azərbaycan bölməsi, A variantı, 23 saylı test tapşırığı.

Wählen Sie die widersprechenden Redemittel für die Diskussion aus.

1. Ich bin Ihrer Meinung.
2. Ich kann Ihnen nicht zustimmen.
3. Da muss ich Ihnen recht geben.
4. Darüber habe ich leider keine Ahnung.
5. Ich bin ganz anderer Ansicht.
6. Ich bin ganz dagegen.

Bu açıq formalı test tapşırığında müzakirə zamanı əks fikir bildirən ifadələri seçmək tələb olunur. Zəngin söz ehtiyatına yiyələnən bakalavr doğru cavabı asanlıqla seçə bilərdi.

Doğru cavab: 2, 5, 6. Təəssüf ki, 15.79% bakalavr tapşırığı doğru cavablandırmışdır. Bakalavrların 56.14%-i doğru cavablandıra bilməmiş, 28.07%-i isə cavab verməkdən imtina etmişdir.

Azərbaycan bölməsi, A variantı, 25 saylı test tapşırığı.

Setzen Sie die Präpositionen ein!

1. … seiner Ausbildung zum Mechatroniker hatte Max viele interessante Dinge gelernt.
2. … des Krimis werde ich heute den Roman lesen.
3. Alle Menschen haben … ihrer ethnischen Herkunft die gleichen Rechte.

a. wegen b. anstelle c. während
d. entsprechend e. ungeachtet

Sözönülər bəhsinə aid açıq formalı test tapşırığıdır. Verilmiş cümlələri müvafiq sözönülər vasitəsilə tamamlamaq tələb olunur. Tapşırığı düzgün cavablandırmaq üçün qrammatik biliklə yanaşı (Genitiv halını tələb edən sözönülər), leksik bilik, yəni söz ehtiyatı da tələb olunur. Təəssüf ki, bakalavrların 68.42%-i bu test tapşırığını səhv cavablandırmış, 31.58% bakalavr isə cavablandırmaqdan imtina etmişdir.

Düzgün cavab: 1-c; 2-b; 3-e.

Dinləyib-anlama mətni ilə bağlı test tapşırıqlarının cavablandırılmasında müşahidə etdiyimiz mənzərə heç də ürəkaçan deyil. Dialoqla bağlı verilmiş 2, 3, 4 və 5-ci test tapşırıqlarına nəzər salaq.

Azərbaycan bölməsi, A variantı, 2 saylı test tapşırığı.

Wählen Sie die richtige Aussage zum Text aus.

A) Petra genießt ihren Urlaub in Italien. B) Martina verbringt ihren Urlaub in Italien.
C) Jörg verbringt seinen Urlaub in Spanien. D) Die Kälte gefällt Martina.
E) In Italien regnet es fast jeden Tag.

Bu test tapşırığında doğru cavab A bəndi olduğu halda, bakalavrların çox hissəsi (47.37%-i) B bəndini seçmişdir. Tapşırıqda mətnə uyğun düzgün cavabı seçmək tələb olunmuşdur. Martina və Jörg arasında gedən dialoqdan belə aydın olur ki, Martina Jörgdan Petradan email aldığını və onun (yəni Petranın) İtaliyada tətili necə keçirdiyini soruşur. Cavablarda A bəndində Petranın tətilini İtaliyada, B bəndində isə Martinanın İtaliyada tətilini keçirməsi deyilir. Deməli, doğru cavab A bəndidir.

Azərbaycan bölməsi, A variantı, 3 saylı test tapşırığı.

Ergänzen Sie den Satz.

Wenn das Wetter kalt ist, … .

A) wartet Martina auf den Temperaturanstieg B) fühlt sich Martina unwohl
C) freut sich Martina D) macht Martina Spaziergang
E) geht Martina ans Meer

Bu test tapşırığında verilmiş cümləni mətnə uyğun cümlə ilə tamamlamaq tələb olunur. Dialoqda Martinanın hər gün yağış yağmasını, temperaturun 10 dərəcə olduğunu, soyuq havanı sevmədiyini, Jörgün isə hava haqqında məlumatda havanın yuksələcəyini eşitdiyini görürük. Wenn das Wetter kalt ist, … (Hava soyuq olanda, …) cümləsini B bəndi (Martina özünü narahat hiss edir) düzgün tamamlayır. Bu test tapşırığına 17.54% bakalavr doğru cavab verə bilmiş, 57.89% bakalavr isə A bəndini seçməklə tapşırığı yanlış cavablandırmışdır.

Azərbaycan bölməsi, A variantı, 4 saylı test tapşırığı.

Wie findet Martina die Kälte?

A) Martina beschwert sich über die Kälte.

B) Martina hat die Kälte gern.

C) Martina möchte immer in Deutschland leben.

D) Martina möchte den Urlaub im Norden verbringen.

E) Martina hat sonniges Wetter nicht gern.

Bu tapşırıqda da Martinanın soyuğa münasibəti haqqında soruşulur. Dialoqdan Martinanın soyuğu sevmədiyini, hər gün yağış yağmasından şikayət etdiyini, Almaniyada havanın o qədər də xoş olmadığını, isti ölkədə yaşamaq istədiyini anlayırıq. Bakalavrların 24.56%-i doğru cavab olan A bəndini seçə bilmiş, 12.28%-i B, 17.54%-i D, 15.79%-i E, 28.07%-i isə C bəndini seçmişdir.

Azərbaycan bölməsi, A variantı, 5 saylı test tapşırığı.

Welche Aussage zum Text ist ***falsch***?

A) Jörg hat die Hitze gern. B) İn İtalien ist das Wetter meistens sonnig.

C) Jörg hat die Kälte gern. D) Martina ist wetterfühlig.

E) Das Klima in Deutschland gefällt Martina nicht.

Test tapşırığında mətnə aid olan fikirlərdən hansının səhv olduğu soruşulur. Dialoqda Martina isti, Jörg isə soyuq havanı sevdiyini söyləyir. Odur ki, dialoqu diqqətlə dinləyib anlayan bakalavr doğru cavabı asanlıqla seçə bilərdi. B bəndini 28.07%, C bəndini 24.56%, D bəndini 5.26%, E bəndini isə 21.05% bakalavr seçmişdir. Cəmi 19.30% bakalavr doğru cavab olan A bəndini seçməklə test tapşırığını düzgün cavablandırmağa müvəffəq olmuşdur.

Bir daha qeyd edək ki, dinləmə mətni ilə bağlı tapşırıqları dügün cavablandırmaq üçün mətni diqqətlə dinləyib, orada nədən bəhs olunmasını anlamağa çalışmaq lazımdır. Bundan ötrü geniş söz ehtiyatına malik olmaq, dildə işlənən frazeoloji birləşmələri, ifadələri, sinonim və antonimləri, müxtəlif sözlərin və söz birləşmələrinin məna çalarlarını və s. bilmək vacibdir. Bundan savayı, məntiqi nəticə çıxarmaq, ümumiləşdirmə aparmaq bacarığına da malik olmaq tələb olunur.

Azərbaycan bölməsi, A variantı, 13 saylı test tapşırığına nəzər salaq.

Wählen Sie die richtige Variante aus.

Die Studenten beschwerten sich ... der Institutsleitung ... die Zensuren.

A) von, für B) bei, über C) zu, durch D) um, ohne E) an, um

Bu test tapşırığı feilin idarəsi mövzusuna aiddir. Alman dilində bir sıra feillər var ki, onların idarələri sözönülüdür. Tapşırığı həll etmək üçün *sich beschweren* (*şikayət etmək*) feilinin idarəsini bilmək lazımdır. Bildiyimiz kimi, adıçəkilən feilin tələbi cümlədə əlaqəyə girdiyi ismi və ya əvəzliyi bei+Dat. və über+Akk. ilə yanaşı işlətməkdir. Doğru cavab olan B bəndini 24.56% bakalavr seçə bilmiş, 33.33% bakalavr A, 10.53% bakalavr C, 7.02% D, 22.81% isə E bəndini seçmişdir. Buna səbəb onların *sich beschweren* feilinin idarəsini bilməmələri olmuşdur.

Azərbaycan bölməsi, A variantı, 18 saylı test tapşırığına nəzər salaq.

Ergänzen Sie den Satz.

Wenn ein Kind die Realschule besucht hat, ...

A) kann es mit dem Realschulabschluss an die Fachoberschule gehen.

B) geht es mit dem Hauptschulabschluss in einen praxisorientierten Beruf.

C) kann es nach einem Jahr das allgemeine Abitur machen.

D) kann es mit dem Realschulabschluss an die Universität gehen.

E) kann es in jedem Bundesland sein Studium weitermachen.

Bu test tapşırığı oxu mətni ilə bağlıdır. Verilmiş cümləni oxu mətninin məzmununa uyğun şəkildə tamamlamaq tələb olunur. *„Wenn ein Kind die Realschule besucht hat“* cümləsini A bəndində verilmiş *„kann es mit dem Realschulabschluss an die Fachoberschule gehen“* cavabı tamamlayır. Bakalavrların 24.56%-i A, 14.04%-i B, 15.79%-i C, 26.32%-i D, 14.04%-i isə E bəndini seçmişdir.

2020-ci ildə 358 bakalavr magistraturaya qəbul imtahanı verərkən xarici dil kimi ***fransız dilini*** seçmişdir. Bunlardan 348 nəfər Azərbaycan bölməsində, 10 nəfər isə rus bölməsində imtahan verərək öz biliklərini nümayiş etdirmişdir.

Bir qayda olaraq, hər il keçirilmiş imtahanda bakalavrlar tərəfindən yerinə yetirilən test tapşırıqlarının nəticələri mütəxəssislərin iştirakı ilə təhlil edilir və imtahan zamanı zəif nöqtələr və çatışmazlıqlar üzə çıxarılır. Əvvəlki illərdə olduğu kimi, 2020-ci ildə də bakalavrların imtahan zamanı nümayiş etdirdikləri bilik və bacarıqlarının və göstərdikləri nəticələrin heç də ürəkaçan olmaması ortaya çıxmışdır. Nəticələrin bu

formada təzahürü, zənnimizcə, müəyyən səbəblərlə bağlıdır və bu təhlilimizdə həmin səbəblərin nədən qaynaqlandığını üzə çıxarmağa və təhlil etməyə çalışacağıq. Beləliklə, xarici dili lazımınca mənimsəməyən, kifayət qədər qrammatik və leksik bilik əldə edə bilməyən bakalavrlar onlara təqdim edilən test tapşırıqlarını yerinə yetirərkən yanlışlıqlara yol verir, bir çox hallarda zəif nəticələr nümayiş etdirirlər. Əlbəttə, imtahanda bakalavrların müəyyən bir hissəsinin zəif nəticə göstərməsinin bir sıra məntiqi və subyektiv səbəbləri var. Belə səbəblər sırasında aşağıdakıları göstərmək olar:

- bəzi bakalavrlar universitet təhsili zamanı ikinci xarici dil kimi tədris olunan dillərə elə də önəm vermir və nəticə etibarilə imtahana hazırlaşarkən vaxtın az olmasını əsas gətirərək qəbul imtahanında lazımi bilik və bacarıq nümayiş etdirə bilmirlər. Bakalavrların əksər hissəsi universitetin son kursunda magistr dərəcəsi əldə etmək qərarına gəlirlər və hazırlıq prosesinə gec start verirlər, buna görə də iki işi bir arada görə bilmədiklərinə görə zəif nəticələr əldə edirlər;
- bir çox hallarda bakalavr lazımi qədər diqqətli ola bilmir, test tapşırıqlarının şərtini belə düzgün başa düşmür və belə olan halda nəticə də, məntiqi olaraq, ürəkaçan olmur; məsələn, seçim və uyğunluq tipli test tapşırıqlarında düzgün cavabları sona qədər araşdırmır və deyək ki, üç cavab tələb olunduğu halda, ikisini seçir və nəticəsi mənfi olur;
- imtahan üçün ayrılmış müddətdən düzgün istifadə olunmur və sonra test tapşırıqları tələm-tələsik yerinə yetirilir və bəllidir ki, belə şəraitdə yüksək nəticədən danışmaq mümkün deyil;
- müqayisə və ümumiləşdirmə tələb edən test tapşırıqlarının yerinə yetirilməsi zamanı ana dili ilə müqayisədə fransız dilində cümlədə söz sırasının və cümlə strukturunun fərqli olması bakalavrların imtahan nəticəsinə mənfi təsirini göstərir.

Builki imtahan nəticələrinin təhlilindən bəlli olur ki, bakalavrların müəyyən qismi oxuyub-anlama mətni əsasında tərtib olunmuş test tapşırıqlarını cavablandırarkən yüksək nəticə əldə edə bilməmişdir və bu hal, şübhəsiz, təəssüf doğurur.

Magistraturaya qəbul imtahanında bakalavrların xarici dillər üzrə dinləyib-anlama bacarıqlarını yoxlamaq üçün istifadə olunan mətn əsasında hazırlanmış test tapşırıqları onların bu istiqamətdəki bacarıqlarını qiymətləndirməkdə əhəmiyyətli rol oynayır. Bakalavrlara mətn və mətnlə bağlı olan beş test tapşırığı təqdim olunmuşdur. Tapşırıqlar mətnin məzmun və ideyası ilə bağlı idi. Bununla yanaşı, cümlə tamamlama, doğru fikrin seçilməsi kimi tapşırıqlar da mətnlə əlaqələndirilmişdir.

Artıq ikinci ildir ki, tətbiq olunan dinləyib-anlama ilə bağlı olan test tapşırıqlarının statistik nəticələri qənaətbəxş hesab edilə bilər. Demək olar ki, bakalavrlar öz üzərlərində işləyə bilmiş və sonda nəticə müsbət olmuşdur. Ümumi nəticəyə nəzər salanda mənzərə daha aydın nəzərə çarpır, bununla belə, bakalavrlar bir sıra test tapşırıqlarını cavablandırarkən yanlışlığa yol vermiş və tələb olunan düzgün cavabı tapmaqda çətinlik çəkmişlər. Bu qəbildən olan test tapşırıqlarından bir neçəsinə nəzər yetirək:

Azərbaycan bölməsi, A variantı, 2 saylı test tapşırığı.

Choisissez la bonne série selon le dialogue.

A) Lucie prend l'avion parce qu'il est plus confortable que la voiture.

B) Lucie prend l'avion parce qu'il est plus rapide que le train.

C) Lucie écarte l'avion parce qu'en comparaison avec la voiture c'est plus cher.

D) Lucie prend le train et change à Montpellier pour aller à Toulouse.

E) Lucie prend le train parce qu'il n'est pas plein tarif pour les enfants.

Bu, dinləyib-anlama blokuna aid test tapşırığıdır və bakalavrların verdiyi cavablar bəndlər üzrə aşağıdakı kimi olmuşdur: A bəndi 4.60%, B bəndi 27.59%, C bəndi 20.69%, D bəndi 22.99%, E bəndi isə 22.99%. A bəndi istisna olmaqla, digər bəndlərin seçilməsi faiz etibarilə bir-birinə yaxındır və bu hal bakalavrların kifayət qədər diqqətli olmamaları və yaxud mətni düzgün başa düşməmələri ilə əlaqədar olmuşdur, nəticədə, ixtiyari bir cavab seçilmişdir. Düzgün cavab C bəndi (20.69%) olduğu halda, faiz etibarilə üstünlük B bəndinə (27.59%) verilmişdir. Test tapşırığının şərtinə əsasən, bakalavrlar dinlədikləri mətnə uyğun düzgün cavabı seçməli idilər, görünən nəticə onu deməyə əsas verir ki, cavab mexaniki seçilmiş və yanlış olmuşdur. Birmənalı olaraq deyə bilərik ki, dinləmə mətni bakalavrların bir qismi tərəfindən lazımınca anlanmamışdır və tələsik istənilən bir cavab variantı seçilmişdir.

Azərbaycan bölməsi, A variantı, 16 saylı test tapşırığı.

Choisissez la bonne série.

«Ennuyer qqn» veut dire:

A) préoccuper qqn B) mettre qqn en bonne humeur C) consoler qqn

D) complimenter qqn E) encourager qqn

Test tapşırığı oxuyub-anlama blokuna aiddir və bakalavrlardan yaxşı lüğət ehtiyatı tələb edir. Əslində, kifayət qədər söz ehtiyatına malik olan bakalavrlar üçün bu tip tapşırıqların yerinə yetirilməsi o qədər də çətinlik yaratmamalıdır. Leksik yönümlü olan test tapşırığının şərtinə əsasən, bakalavrlardan oxunmuş mətn üzrə "ennuyer qqn" ifadəsinin antonomini tapmaq tələb edilir və şübhəsiz, yetərincə söz ehtiyatı olmayan bakalavr bu cür testləri həll etməkdə problemlə qarşılaşmalıdır. Bakalavrlardan 21.84%-i tapşırığın doğru cavabı kimi haqlı olaraq A bəndini seçmişdir və lazımi söz ehtiyatına malik olduqlarını sübut etmişlər. Verilmiş ifadənin mənası "kimisə qayğılandırmaq, sıxıntıya salmaq" anlamına gəlir və ifadəyə əks fikir kimi "preoccuper qqn", yəni "kimisə tələşlandırmaq" seçilib və bu, düzgün seçimdir. Digər bəndlər, müvafiq olaraq, "kiminsə əhvalını yüksəltmək", "təsəlli vermək", "tərif etmək" və "ürək-dirək vermək, ruhlandırmaq" mənaları verir və doğru cavab kimi götürülə bilməz. Cavab bəndləri üzrə faizlər belə paylanmışdır: A - 21.84% (doğru cavab), B - 22.99%, C - 29.89% (yeri gəlmişkən, daha çox bakalavr bu cavabı seçmişdir, halbuki doğru cavabla heç bir bağlılığı yoxdur), D - 11.49% və E - 11.29%. Birmənali olaraq vurğulamaq lazımdır ki, zəngin söz ehtiyatına malik olmdan bu tip tapşırıqları icra etmək qeyri-mümkündür.

Azərbaycan bölməsi, A variantı, 20 nömrəli test tapşırığı.

Choisissez de bonnes idées pour être en bonne santé.

1. Il faut faire attention à ce qu'on mange.
2. Faire le bon choix ne dépend pas du type d'aliments.
3. Se nourrir de la soupe fait mincir plus vite.
4. On risque de grossir en bougeant tous les jours.
5. On doit s'écarter des aliments qui provoquent la calorie.

A) 1, 3, 5 B) 3, 4, 5 C) 1, 2 D) 1, 2, 4 E) 1, 5

Bu test tapşırığı da oxuyub-anlama blokuna aiddir və mətn üzrə doğru fikirləri seçmək tələb olunur. Bakalavrların 29.89%-i E bəndini seçməklə onu düzgün cavablandırmış, digər bəndlər üzrə faiz bölgüsü belə olmuşdur : A - 31.03%, B - 2.30%, C - 13.79% və D - 18.39%. Bu test tapşırığını düzgün cavablandırmaq üçün mətn diqqətlə oxunmalı, hər bir fikir ayrılıqda qavranmalı və bundan sonra doğru olan fikirlər ayırd edilməli idi. Bu cür tapşırıqların həllini asanlaşdıran məqamlardan biri düzgün cavabın mətnin içərisində olmasıdır, bakalavrdan diqqətli olmaq, fikirləri tutuşdurmaq və düzgün olanları seçmək kimi bacarıq və məntiqi yanaşma qabiliyyəti tələb olunur. Burada da söz ehtiyatının zənginliyi birmənalı olaraq köməyə gəlir. Test tapşırığında E bəndindəki 1 və 5-ci cümlələr ("Qidalanmaya fikir verilməlidir" və "Kalori yaradan yeməklərdən uzaq durmaq gərəkdir") düzgün fikirlərdir.

Azərbaycan bölməsi, A variantı, 21 saylı test tapşırığı.

Choisissez les conjonctions qui conviennent.

Tu dois aller voir cette exposition … tu aimes visiter les musées.

1. puisque 2. parce que
3. c'est pourquoi 4. car
5. de sorte que

Verilmiş test tapşırığı bağlayıcılar bölməsinə aiddir və burada bakalavrlardan uyğun gələn bağlayıcıları seçmək tələb olunur. Əlbəttə, tabeli mürəkkəb cümlə bəhsini lazımınca mənimsəməyən bakalavr üçün bu tip tapşırıqların cavablandırılması çox çətin olur və göstərilən nəticə də bunu əyani olaraq sübut edir. Belə ki, bakalavrların yalnız 12.64%-i bu tapşırığı düzgün cavablandırmışdır. olan 3 bağlayıcı səbəb ifadə etdiyindən test tapşırığında verilmiş səbəb budaq cümləsində işlənə bilir və nöqtələrin yerinə tam uyğun gəlir.

Azərbaycan bölməsi, A variantı, 23 saylı test tapşırığı.

Choisissez les bonnes séries.

«*Ce journal a paru il y a deux mois*» veut dire:

1. Ce journal s'est vendu il y a deux mois.
2. Ce journal avait seulement deux pages il y a deux mois.
3. Ce journal a vu le jour il y a deux mois.
4. Ce journal vient d'être publié il y a deux mois.
5. Ce journal va être financé par une personne riche.

Bu, açıq formalı olmaqla seçim tipli test tapşırıqlarındandır və imtahan nəticələrinə görə çox çətin test hesab edilmişdir (cəmi 2.30% bakalavr onu doğru cavablandırmışdır), əslində isə o qədər də mürəkkəb deyil və leksik savad tələb etməklə bakalavrdan variantları diqqətlə oxuyub cavablandırmaq tələb olunur. Aydın məsələdir ki, məhdud söz ehtiyatina malik olanlar bu tapşırığı düzgün cavablandıra bilməzlər. Tapşırığın şərtinə görə, verilmiş cümlənin mümkün ekvivalentlərini tapmaq lazımdır.

Cümlələrə diqqət yetirdikdə məlum olur ki, düzgün cavablar 3 və 4-cü cümlələrdir və digərləri uyğun deyildir. Bu cür tapşırıqların nə üçün çətinliklə cavablandırılması çoxlu suallar doğurur və bakalavrların kifayət qədər hazırlıqlı olmamasını üzə çıxarır. Bəs nə üçün əksəriyyət bu tapşırığı düzgün cavablandıra bilməmişdir? Sualın çox sadə bir cavabı var: söz ehtiyatının kasadlığı.

Azərbaycan bölməsi, C variantı, 25 saylı test tapşırığı

Trouvez l'antonyme des verbes suivants.

1. s'amuser	2. attaquer	3. ignorer
a. savoir	b. s'ennuyer	c. défendre
d. être triste	e. connaître	

Bu, açıq formalı uyğunluq tipli test tapşırığıdır. Bakalavrların çox az bir faizi (2.27%) düzgün cavabı tapmışdır. Test tapşırığında verilmiş feillərə antonimlik təşkil edən feilləri tapmaq tələb olunur. 3 bənd üzrə verilmiş feillərə cavab variantlarının hansının və ya hansıların uyğun gəldiyinin seçilməsi şərt kimi qoyulmuşdur. Bəlli məsələdir ki, leksik biliyi yetərincə olmayan hər bir bakalavr üçün bu cür tapşırıqların düzgün cavablandırılması praktik olaraq qeyri-mümkündür və verilən cavab bunu əyani olaraq sübut edir. Tapşırıqda verilmiş feillərin mənasını bilməklə onlara hansı cavab variantlarının uyğun gəldiyini asanlıqla təyin etmək olar. Odur ki, bu tapşırığın statistikaya görə çox çətin hesab edilməsi təəssüf doğurur. Əminliklə demək olar ki, verilmiş feil və ifadələrin kəsb etdikləri mənaları bilən bakalavrlar heç bir vəchlə yanlış cavab variantı seçməməli idilər.

Düzgün cavab: 1-b,d; 2-c; 3-a,e.

Beləliklə, fransız dili üzrə test tapşırıqlarının təhlilindən sonra aşağıdakı nəticələrə gəlmək olar:

- bakalavrların əksər hissəsinin leksik-qrammatik bilikləri və təhliletmə səriştələri yetərli deyildir;
- əksər hallarda söz ehtiyatının zəif olması və məntiqi nəticə çıxarmaq bacarığının aşağı səviyyədə olması test tapşırıqlarını düzgün cavablandırmağa imkan vermir;
- istənilən xarici dili öyrənərkən ana dili ilə fərqli və oxşar olan məqamları diqqət mərkəzində saxlamaq və onları qarışdırmamaq tələb olunur;
- test tapşırıqları yetərincə təhlil edilmir, tələskənliyə yol verilir;
- test tapşırıqlarına ayrılan vaxt düzgün bölünmür və s.

İnformatika üzrə bilikləri yoxlayan test tapşırıqlarına verilən cavabların elmi-metodiki təhlili və tövsiyələr

2020-ci ildə magistratura səviyyəsinə qəbul imtahanında informatika üzrə istifadə olunmuş test tapşırıqları bu fənnə aid qəbul proqramında nəzərdə tutulan bütün mövzuları əhatə etmişdir. Bu imtahanda informatika fənni üzrə istifadə olunan 20 test tapşırığı qapalı, 5 test tapşırığı isə 2-si hesablama, 2-si seçim, 1-i isə uyğunluq tipli olmaqla açıq formalı olmuşdur.

Qeyd edək ki, informatika fənni üzrə test tapşırıqlarının düzgün cavablandırılma göstəricilərinə görə, Azərbaycan bölməsində bakalavrlar 3 tapşırığa asanlıqla, 17 tapşırığa orta səviyyədə cavab vermiş, 5 tapşırığı yalnız yüksək hazırlıqlı bakalavrlar cavablandırmışlar. Rus bölməsində isə bakalavrlar 3 tapşırığa asanlıqla, 16 tapşırığa orta səviyyədə cavab vermiş, 6 tapşırığı isə yalnız yüksək hazırlığı olanlar cavablandırmışlar.

Aşağıdakı cədvəldə 2020-ci ildə qəbul imtahanında bakalavrların informatika fənnini bilmə səviyyəsini müəyyən edən test tapşırıqlarının düzgün cavablandırılma faizləri (ortastatistik göstəricilər) verilmişdir:

İl	Bölmə	Bakalavrların sayı	Qapalı formalı sualların düzgün cavablandırılma faizi	Açıq formalı sualların düzgün cavablandırılma faizi	Qapalı və açıq formalı sualların (birlikdə) düzgün cavablandırılma faizi
2020	Azərbaycan	14264	43.55	20.85	39.01
	Rus	1282	41.05	16.04	36.05
	Ümumi	15546	43.34	20.45	38.76

Test tapşırıqlarının çətinlik dərəcəsi, qabiliyyət göstəriciləri baxımından təhlilinə və ortastatistik göstəricilərinə əsaslanaraq demək olar ki, bakalavrların informatika üzrə nəticələri ümumilikdə qənaətbəxş hesab oluna bilər.

Statistik nəticələr göstərir ki, Azərbaycan bölməsi üzrə bakalavrların əksər hissəsi "EHM-lərin yaranması və tarixi inkişaf mərhələləri", "Alqoritmin əsas xassələri və təsvir üsulları", "Sistem proqram təminatı. Tətbiqi proqram təminatı. İnstrumental proqram təminatı" və digər mövzulara, rus bölməsi üzrə bakalavrların əksər hissəsi isə "Sistem proqram təminatı. Tətbiqi proqram təminatı. İnstrumental proqram təminatı", "Əməliyyat sistemlərinin təsnifatı. Faylların əsas xarakteristikaları. Fayl sistemləri", "Microsoft Windows 7 əməliyyat sistemi", "Microsoft Word 2010 mətn prosessoru. Fayl əməliyyatları (Backstage View)", "Microsoft PowerPoint 2010 elektron təqdimat proqramında təqdimatların hazırlanması" və digər mövzulara aid tapşırıqlara daha yaxşı cavab vermişlər.

İndi isə imtahanda istifadə edilmiş bir neçə test tapşırığına və onların cavablandırılmasının statistik göstəricilərinə nəzər salaq.

A variantı, 27 saylı test tapşırığı.

Aşağıdakı mülahizələrdən hansılar doğrudur (MS PowerPoint 2010)?

1. Bir slayda bir neçə keçid effekti vermək mümkündür.
2. Təqdimatın nümayişi zamanı slayda flomasterlə daxil edilmiş elementləri çap etmək mümkün deyildir.
3. Slayda verilmiş keçid effektlərinə önbaxışı həyata keçirmək üçün vəziyyət sətrində ayrıca düymə nəzərdə tutulmamışdır.
4. Slayd mətnlərindəki simvollararası məsafəni dəyişmək üçün hər hansı bir əmr nəzərdə tutulmamışdır.
5. Təqdimata yeni slaydı Home (Главная/Ev) lent tabının əmri vasitəsilə əlavə etmək mümkündür.
6. Slaydlara fərqli sərlövhə vermək mümkündür.

A) 2, 4, 5 (11.48%) B) 1, 5, 6 (48.57%) C) 1, 3, 4 (5.55%)
D) 1, 2, 6 (14.65%) E) 3, 5, 6 (**18.54%**)

B variantı, 42 saylı test tapşırığı.

Aşağıdakı mülahizələrdən hansılar doğru ***deyildir*** (MS PowerPoint 2010)?

1. Bir slayda bir neçə keçid effekti vermək mümkündür.
2. Təqdimatın nümayişi zamanı slayda flomasterlə daxil edilmiş elementləri çap etmək mümkün deyildir.
3. Slayda verilmiş keçid effektlərinə önbaxışı həyata keçirmək üçün vəziyyət sətrində ayrıca düymə nəzərdə tutulmamışdır.
4. Slayd mətnlərindəki simvollararası məsafəni dəyişmək üçün hər hansı bir əmr nəzərdə tutulmamışdır.
5. Təqdimata yeni slaydı Home (Главная/Ev) lent tabının əmri vasitəsilə əlavə etmək mümkündür.
6. Slaydlara fərqli sərlövhə vermək mümkündür.

A) 3, 5, 6 (14.09%) B) 1, 3, 4 (44.02%) C) 2, 5, 6 (10.80%)
D) 1, 2, 4 (**16.81%**) E) 1, 3, 5 (12.63%)

Bu test tapşırıqları "Microsoft PowerPoint 2010" mövzusuna aiddir. Birinci test tapşırığında düzgün cavab olan E bəndini 18.54% bakalavr seçərkən, B distraktorunu 48.57% bakalavr seçmişdir. Buna səbəb bakalavrların animasiya effekti ilə keçid effektini səhv salması olmuşdur. İkinci test tapşırığında isə D bəndinin düzgün olmasına baxmayaraq, bakalavrların əksəriyyəti (44.02%) B distraktorunu seçmişdir. Belə ki, slayda verilmiş keçid effektlərinə önbaxışı həyata keçirmək üçün lent tabında əmr nəzərdə tutulsa da, vəziyyət sətrində ayrıca düymə nəzərdə tutulmamışdır. Bakalavrların bu faktları qarışdırması distraktorun doğru cavab kimi seçilməsinə gətirib çıxarmışdır.

A variantı, 48 saylı test tapşırığı.

Elektron təqdimat proqramında hansı lent qruplarından slaydlara obyektlər əlavə etmək olar (MS PowerPoint 2010)?

1. Pages (Страницы/Səhifələr)
2. Text (Текст /Mətn)
3. Charts (Диаграммы/Diaqramlar)
4. Links (Связи /Əlaqələr)
5. Sparkliners (Спарклайны/Yanma xətləri)
6. Illustrations (Иллюстрации/Şəkillər)
7. Media (Мультимедиа/Media)
8. Header & Footer (Колонтитулы/Yuxarı və Aşağı sərlövhələr)

Düzgün cavab: 2, 4, 6, 7.

B variantı, 47 saylı test tapşırığı.

Elektron təqdimat proqramında slaydlara müxtəlif obyektləri əlavə etmək üçün hansı lent qruplarından istifadə edilir (MS PowerPoint 2010)?

1. Tables (Таблицы/Cədvəllər)
2. Pages (Страницы/Səhifələr)
3. Images (Рисунки/Təsvirlər)
4. Charts (Диаграммы/Diaqramlar)
5. Illustrations (Иллюстрации/Şəkillər)
6. Animations (Анимация/Animasiyalar)
7. Header & Footer (Колонтитулы/Yuxarı və Aşağı sərlövhələr)
8. Symbols (Символы/Simvollar)

Düzgün cavab: 1, 3, 5, 8.

Bakalavrların cavablandırmaqda çətinlik çəkdikləri bu test tapşırıqları "Microsoft PowerPoint 2010. Slayda müxtəlif obyektlərin əlavə edilməsi" mövzusuna aiddir. Seçim tipində verilmiş bu test tapşırıqlarının yanlış bəndlərində MS Office paketinin digər proqramlarının lent qrupları verilmişdir. Görünür, test tapşırıqlarının açıq formalı olması da nəticəyə təsir göstərmişdir.

A variantı, 42 saylı test tapşırığı.

Cədvəldə ASCII kod cədvəlindən bir hissə verilmişdir:

Simvol	**4**	**5**	**A**	**Y**	**Z**	**a**	**z**
Onluq kod	52	53	65	89	90	97	122

"1" simvolunun onaltılıq kodu hansıdır?

A) 31 (**23.00%**) B) 10 (14.09%) C) 94 (14.51%)
D) 49 (23.56%) E) 13 (18.24%)

B variantı, 36 saylı test tapşırığı.

Cədvəldə ASCII kod cədvəlindən bir hissə verilmişdir:

Simvol	**1**	**3**	**A**	**Y**	**Z**	**a**	**z**
Onluq kod	49	51	65	89	90	97	122

"9" simvolunun onaltılıq kodu hansıdır?

A) 75 (14.09%) B) 11 (12.91%) C) 39 (**22.87%**)
D) 93 (18.21%) E) 57 (25.42%)

Birinci test tapşırığında düzgün cavab olan A bəndini 23.00% bakalavr seçərkən, D distraktorunu 23.56% bakalavr seçmişdir. İkinci test tapşırığında isə C bəndinin düzgün olmasına baxmayaraq, bakalavrların xeyli hissəsi (25.42%) E distraktorunu seçmişdir. Belə ki, bakalavrların bir qismi simvolların onluq kodlarını düzgün tapsalar da, tapşırığın şərtində onaltılıq kod istənmişdir. Bunun nəzərdən qaçırılması yanlış bəndin seçilməsinə gətirib çıxarmışdır.

A variantı, 50 saylı test tapşırığı.

Uyğunluğu müəyyən edin.

1. Qida bloku 2. Mikroprosessor 3. Kontroller

a. Prosessor, yaddaş və periferiya qurğuları arasında informasiya axınını idarə edir.
b. Ədədlər üzərində hesab əməliyyatlarını yerinə yetirir.
c. Xarici qurğuların işini idarə edən mikrosxemdir.
d. Ədədlər üzərində məntiqi əməliyyatları yerinə yetirir.
e. Qurğular arasında enerjini paylayır.

Düzgün cavab: 1-e; 2-b, d; 3-c

B variantı, 50 saylı test tapşırığı.

Uyğunluğu müəyyən edin.

1. RAM 2. ROM 3. CMOS

a. Test proqramlarını yadda saxlayır.
b. Kompüterin konfiqurasiyalarını yadda saxlayır.
c. BIOS proqramını yadda saxlayır.
d. Emal edilən informasiyanı yadda saxlayır.
e. Vaxtı və tarixi yadda saxlayır.

Düzgün cavab: 1-d; 2-a, c; 3-b, e

Bu test tapşırıqları "Kompüter və onun texniki təminatı" mövzusuna aiddir. Açıq formalı uyğunluq tipli bu tapşırıqlarda əsas çətinlik bir variant üçün bir neçə bəndin seçilməsinin zəruri olmasıdır. Bunun nəzərə alınmaması isə bəzən bakalavrların səhv etmələrinə gətirib çıxarır.

B variantı, 28 saylı test tapşırığı.

Prosessorun daxili oyuqları necə adlanır?

A) port (33.31%) B) şlüz (9.71%) C) şin (15.32%)

D) trigger (7.58%) E) registr (**33.28%**)

"Kompüter və onun texniki təminatı" mövzusuna aid bu test tapşırığında düzgün cavab olan E bəndini və A distraktorunu təxminən eyni sayda bakalavr seçmişdir. Belə ki, prosessorun daxili oyuqları registr adlanır və orada verilənlər emal olunur. Öz növbəsində xarici qurğular sistem blokuna portlar vasitəsilə qoşulur.

A variantı, 45 saylı test tapşırığı.

Sistemdə əvvəlcədən təyin edilmiş qrafik əsasında hər hansı tapşırığın icrasını, sistemin yenidən yüklənməsini və başqa əməliyyatları həyata keçirən proqram hansıdır (MS Windows 7)?

A) System Restore (Восстановление системы/Sistemin bərpası) (49.36%)

B) Command Prompt (Командная строка/Komanda sətri) (7.59%)

C) Task Scheduler (Планировщик заданий/Tapşırıq planlaşdırıcı) (**24.51%**)

D) Disk Defragmenter (Дефрагментация диска/Disk Defraqmentləyicisi) (5.38%)

E) System Tools (Служебные/Sistem Alətləri) (11.18%)

B variantı, 39 saylı test tapşırığı.

Control Panel (Панель управления/İdarəetmə paneli) – Programs (Программы/Proqramlar) - Uninstall a program (Удаление программы/Proqramın silinməsi) pəncərəsi vasitəsilə silinmiş proqramı necə bərpa etmək mümkündür (MS Windows 7)?

A) System Restore (Восстановление системы/Sistemin bərpası) proqramı ilə (**33.02%**)

B) Recycle bin (Корзина/Səbət) qovluğundan bərpa edilə bilər. (22.73%)

C) Ctrl + Z düymələr kombinasiyası ilə (7.63%)

D) Tasks Scheduler (Планировщик заданий/Tapşırıq planlaşdırıcı) proqramı ilə (2.53%)

E) Yalnız silinmiş fayllar və qovluqlar bərpa edilə bilər. (33.02%)

Bu test tapşırıqları "Microsoft Windows 7 əməliyyat sistemi" mövzusuna aiddir. Birinci test tapşırığında düzgün cavabın C bəndi olmasına baxmayaraq, tapşırığın şərtində verilmiş sistemin yenidən yüklənməsi ifadəsi bakalavrları çaşdırmış və onların əksəriyyəti səhvən A distraktorunu seçmişdir. Lakin nəzərə almaq lazımdır ki, System Restore (Восстановление системы/Sistemin bərpası) sistemin təyin edilmiş tarixə bərpasını yerinə yetirir. Bu da öz növbəsində onu göstərir ki, əgər hər hansı proqram silinibsə, onu əvvəlki tarixə bərpa edərək geri qaytarmaq olar. Beləliklə, ikinci test tapşırığının düzgün cavabının A bəndi olduğu aydın olur.

A variantı, 40 saylı test tapşırığı.

NTFS fayl sisteminin FAT fayl sistemi ilə müqayisədə əsas üstünlüklərini müəyyən edin.

1. Nasaz klasterlər təkrar istifadə edilir.

2. Disk 512 baytlı sektorlardan təşkil olunur.

3. Hər bir klaster üçün 4 baytdan istifadə olunur.

4.Faylların fraqmentasiyası azalır.

5. Hər bir istifadəçi üçün ayrıca bir Recycle Bin (Корзина/Səbət) təmin olunur.

A) 4, 5 (**21.32%**) B) 1, 2 (14.45%) C) 1, 5 (24.12%)

D) 2, 3 (20.76%) E) 3, 4 (15.91%)

"Əməliyyat sistemlərinin təsnifatı. Faylların əsas xarakteristikaları. Fayl sistemləri" mövzusuna aid bu test tapşırığında düzgün cavab A bəndi olsa da, bakalavrların daha çox hissəsi C distraktorunu seçmişdir. Lakin bakalavrlar nəzərə almalıdırlar ki, nasaz klasterlər meydana gələrkən onlar yenisi ilə əvəzlənir. Bu isə, 1-ci bəndin səhv olduğunu göstərir.

A variantı, 28 saylı test tapşırığı.

Sənədin səhifələrini nömrələmək, ona sərlövhələr yerləşdirmək üçün əmrlər hansı tabdan seçilir (MS Word 2010)?

A) View (Вид/Görünüş) (3.47%)

B) Home (Главная/Ev) (6.16%)

C) Insert (Вставка/Əlavə et) (**41.26%**)

D) Page Layout (Разметка страницы/Səhifə düzəni) (45.60%)

E) References (Ссылки/İstinadlar) (2.77%)

A variantı, 29 saylı test tapşırığı.

File (Файл/Fayl) tabında yerləşən əmr adlarını göstərin (MS Word 2010):

1. Open (Открыть/Aç)
2. New (Создать/Yeni)
3. Options (Параметры/Seçimlər)
4. Close (Закрыть/Bağla)
5. Info (Сведения/Məlumat)
6. Print (Печать/Çap)
7. Recent (Последние/Son istifadə faylları)
8. Save as (Сохранить как/Fərqli Saxla)

A) 2, 5, 6, 8 (36.88%) B) 1, 4, 5, 8 (22.49%) C) 2, 5, 6, 7 (7.82%)
D) 2, 3, 4, 7 (4.12%) E) 1, 3, 4, 8 (**27.56%**)

A variantı, 30 saylı test tapşırığı.

Page Borders (Границы страниц/Səhifə Sərhədləri) və Page Color (Цвет страницы/Səhifə Rəngi) əmrləri hansı lent qrupuna aiddir (MS Word 2010)?

A) Pages (Страницы/Səhifələr) (7.23%)
B) Page Setup (Параметры страницы/Səhifə Parametrləri) (52.38%)
C) Arrange (Упрояд очить/Nizamlama) (5.57%)
D) Page Background (Фон страницы/Səhifənin Arxa Planı) (**26.27%**)
E) Editing (Редактирование/Redaktə) (7.70%)

Təqdim edilən test tapşırıqları "Microsoft Word 2010 mətn prosessoru" mövzusuna aiddir. Birinci test tapşırığında sənədin səhifələrini nömrələmək, ona sərlövhələr yerləşdirmək Insert (Вставка/Əlavə et) tabının əmrləri vasitəsilə həyata keçirilir. "Səhifə" sözü bakalavrların əksəriyyətini (45.60%) çaşdırmış və onlar Page Layout (Разметка страницы/Səhifə düzəni) tabını seçmişlər. İkinci test tapşırığında isə bakalavrların əksəriyyəti File (Файл/Fayl) tabının əmrlərini deyil, kateqoriyalarını seçimşlər. Üçüncü test tapşırığında bakalavrların əksəriyyətinin (52.38%) seçdiyi B distraktorunda səhifənin ölçülərini, səmtini, boşluqları və s təyin etmək olur. Page Borders (Границы страниц/Səhifə Sərhədləri) və Page Color (Цвет страницы/Səhifə Rəngi) əmrləri isə səhifənin arxa fonunu təşkil etdiyindən Page Background (Фон страницы/Səhifənin Arxa Planı) lent qrupundan istifadə olunur.

B variantı, 46 saylı test tapşırığı.

View (Вид/Görünüş) tabının əmrləri vasitəsilə icrası mümkün olan əməliyyatları seçin (MS Excel 2010):

1. İş kitabını gizlətmək/göstərmək
2. Sənədin görünüş rejimlərini dəyişmək
3. İş vərəqini gizlətmək/göstərmək
4. İş kitabını yadda saxlamaq
5. Düstur sətrini gizlətmək/göstərmək
6. İş vərəqinin adını dəyişmək
7. İş vərəqinin tor xətlərini gizlətmək/göstərmək

Düzgün cavab: 1, 2, 5, 7 (**3.68%**).

C variantı, 46 saylı test tapşırığı.

View (Вид/Görünüş) tabının Window (Окно/Pəncərə) lent qrupuna daxil olan düymə və əmrlər vasitəsilə icrası mümkün olan əməliyyatları seçin (MS Excel 2010):

1. Pəncərəni müxtəlif ölçülü bir neçə sahəyə ayırmaq
2. Cədvəlin birinci sətrini dondurmaq
3. İş vərəqini gizlətmək/göstərmək
4. İş sahəsini yadda saxlamaq
5. Cədvəli yadda saxlamaq
6. İş kitabını gizlətmək/göstərmək
7. İş vərəqinin tor xətlərini gizlətmək/göstərmək

Düzgün cavab: 1, 2, 4, 6 (**0.37%**).

Bu test tapşırıqları “Microsoft Excel 2010 cədvəl prosessoru” mövzusuna aiddir. Birinci test tapşırığında bakalavrlar View (Вид/Görünüş) tabının əmrləri vasitəsilə icrası mümkün olan əməliyyatları seçərkən daha çox “gizlətmək/göstərmək” olan bəndlərə üstünlük vermişlər. Bu isə onların səhv cavablandırmasına səbəb olmuşdur. İkinci test tapşırığında isə bakalavrların əksəriyyəti View (Вид/Görünüş) tabının Window (Окно/Pəncərə) lent qrupuna daxil olan düymə və əmrlər vasitəsilə icrası mümkün olan əməliyyatları seçərkən View (Вид/Görünüş) tabında olan, lakin Window (Окно/Pəncərə) lent qrupuna daxil olmayan əməliyyatları seçərək yanlışlığa yol vermişlər. Öncədən də qeyd etdiyimiz kimi, görünür, test tapşırıqlarının açıq formalı olması da öz növbəsində bakalavrlara müəyyən çətinlik yaratmışdır.

A variantı, 31 saylı test tapşırığı.

Sayğac sahəsi nə üçün nəzərdə tutulub (MS Access 2010)?

A) tam ədədlərin saxlanılması (10.67%)

B) sorğuların nömrələnməsi (27.42%)

C) yazıların nömrələnməsi (**24.79%**)

D) sahələrin nömrələnməsi (25.38%)

E) həqiqi ədədlərin saxlanılması (9.66%)

A variantı, 36 saylı test tapşırığı.

Doğru mülahizələri seçin (MS Access 2010):

1. Verilənin qiyməti onun mənasını ifadə edir.

2. Verilənlər bazası informasiyanın saxlanılması, emalı və axtarışını təmin etmək üçün nəzərdə tutulmuş tətbiqi proqramdır.

3. Yazılar bir-birindən, heç olmazsa, bir sahənin qiymətinə görə fərqlənirlər.

4. Cədvəlin hər bir yazısı eyni struktura malik olan sahələrdən ibarətdir.

5. Nisbətin gücü domenlərin sayı ilə ifadə olunur.

6. Cədvəldə yazıların ardıcıllığı istənilən qaydada ola bilər.

A) 2, 4, 5 (23.45%) B) 1, 3, 6 (22.86%) C) 1, 5, 6 (11.15%)

D) 1, 2, 4 (24.45%) E) 3, 4, 6 (**15.94%**)

Bu test tapşırıqları “Microsoft Access 2010 VBİS” mövzusuna aiddir. Birinci test tapşırığında verilmiş sayğac cədvəlin sətirlərini avtomatik olaraq nömrələyir. Verilənlər bazasında yazı dedikdə, cədvəlin sətri, sahə dedikdə isə, sütun başa düşülür. İkinci test tapşırığında isə, verilənin adı onun mənasını ifadə edir, verilənlər bazası informasiyanın saxlanılması, emalı və axtarışını təmin etmək üçün nəzərdə tutulmuş xüsusi formatlı fayldır, nisbətin gücü isə kortejlərin sayı ilə ifadə olunur. Bu bilgilərə yiyələnməklə bakalavrlar bu test tapşırığını asanlıqla cavablandıra bilərdilər.

Açıq formalı test tapşırıqları informatika testləri üzrə beynəlxalq təcrübə nəzərə alınmaqla tərtib edilib, proqram tələblərinə tam cavab verir. Tapşırıqların aid olduğu mövzular DİM-in “İnformatika” vəsaitində və dərsliklərdə kifayət qədər ətraflı izah olunmuşdur. Bəzi tapşırıqların açıq test tapşırığı formasında təqdim olunması bakalavrların biliklərinin daha dəqiq yoxlanılmasına imkan verir.

Yuxarıda təhlil olunan test tapşırıqlarından belə nəticəyə gəlmək olar ki, bakalavrların xeyli hissəsi “Microsoft Word 2010 mətn prosessoru”, “Kompüter və onun texniki təminatı (Hardware)”, “Microsoft Access 2010 VBİS”, “Microsoft Excel 2010 cədvəl prosessoru” bölmələrinə aid tapşırıqlarda çətinlik çəkmişdir. Bu da onu göstərir ki, bakalavrlar bu bölmələri nəzəri cəhətdən yaxşı mənimsəməmiş, praktiki səviyyədə isə kifayət qədər tətbiq etməmişlər.

Qəbul imtahanı göstəricilərinin təhlilindən çıxan əsas nəticə bundan ibarətdir ki, ali təhsilin bakalavriat səviyyəsində informatikanın və informasiya-kommunikasiya texnologiyalarının tədrisi yaxşılaşdırılmalı, müasir dövrün tələblərinə uyğunlaşdırılmalı və daha çox tətbiqyönlü olmalı, eləcə də bu tələblərə cavab verən keyfiyyətli dərslik və dərs vəsaitləri hazırlanmalıdır.

Magistraturaya qəbula hazırlaşanlara metodiki kömək göstərmək məqsədi ilə DİM tərəfindən nəşr edilən "İnformatika" vəsaiti bu fənn üzrə qəbul proqramına uyğun hazırlanmışdır. Vəsaitdə bütün mövzuların nəzəri şərhi test tapşırıqları ilə müşayiət olunur. Bu da qəbula hazırlaşanlara imtahana təkcə nəzəri cəhətdən hazırlaşmağa deyil, həmçinin öz bilik və bacarıq səviyyələrini mövzular üzrə ümumiləşdirici test tapşırıqları vasitəsilə yoxlamağa və təkmilləşdirməyə imkan verir.

Ümumi intellektin (məntiqi təfəkkürün) inkişaf səviyyəsini yoxlayan test tapşırıqları üzrə elmi-metodiki təhlil və tövsiyələr

2020-ci ildə magistraturaya qəbul imtahanında ümumi intellektin (məntiqi təfəkkürün) inkişaf səviyyəsini yoxlamaq məqsədi ilə bakalavrlara 14 verbal (sözlə bağlı), 15 fiqurlarla bağlı və 21 məntiqi-riyazi test tapşırığı təqdim edilmişdi. Verbal test tapşırıqları ilə bakalavrların sözlə ifadə olunmuş məlumatı təhliletmə, sintezetmə, müqayisəetmə, ümumiləşdirmə, mücərrədləşdirmə, müxtəlif sözlərin istifadəsində incəlikləri hissetmə qabiliyyətləri, fiqurlarla bağlı olan test tapşırıqları ilə onların fəza təfəkkürü, vizual məlumatı təhliletmə qabiliyyəti yoxlanılır. Məntiqi-riyazi test tapşırıqları bakalavrların ədədlər arasındakı qanunauyğunluğu aşkar etmək, praktiki riyazi məsələləri məntiqlə həll edə bilmək qabiliyyətini yoxlayır.

2020-ci ildə qəbul imtahanında istifadə edilən 45 test tapşırığı (1-45-ci tapşırıqlar) qapalı (çoxseçimli), 5 test tapşırığı isə (46-50-ci tapşırıqlar) açıq formalı (2-si "hesablama", 1-i "seçim", 1-i "ardıcıllıq", 1-i "uyğunluq" tipli) olmuşdur. Cavab variantları verilmədən təqdim olunan bu tapşırıqların üçü məntiqi-riyazi, biri fiqurlarla bağlı, biri isə verbal tapşırıq idi. Çətinlik dərəcəsinə görə test tapşırıqlarının 14-ü asan, 22-si orta çətinlikdə və 14-ü çətin olmuşdur.

Məntiqi təfəkkürün inkişaf səviyyəsini müəyyən edən test tapşırıqları üzrə bakalavrların imtahan nəticələrinin statistik təhlili göstərir ki, 50 tapşırıqdan 16-sını bakalavrların 70%-dən çoxu düzgün cavablandıra bilmişdir. 28 test tapşırığı üzrə bu göstərici 20-70% aralığında olmuşdur. Tapşırıqlardan 6-nın düzgün cavablandırılma göstəricisi isə 20%-dən aşağıdır.

	Təqdim olunan test tapşırıqlarının sayı	**Düzgün cavablandırılma göstəricisi**		
		20%-dən aşağı	**20-70%**	**70%-dən yuxarı**
Verbal (sözlə bağlı) test tapşırıqları	14	2	8	4
Fiqurla bağlı test tapşırıqları	15	2	6	7
Məntiqi-riyazi test tapşırıqları	21	2	13	5
CƏMİ	**50**	**6**	**28**	**16**

Bu blokdakı tapşırıqları düzgün cavablandıran bakalavrların ortastatistik göstəricisi 56,59% olub ki, bu da ötənilki müvafiq göstəricidən 2.34% yüksəkdir.

Aşağıdakı cədvəldə 2016-cı, 2017-ci, 2018-ci, 2019-cu və 2020-ci illərdə qəbul imtahanında iştirak edən bakalavrların məntiqi təfəkkür səviyyəsini müəyyən edən test tapşırıqlarını düzgün cavablandırma faizləri (ortastatistik göstəricilər) verilmişdir:

		Bakalavrların sayı	**Qapalı formalı sualların düzgün cavablandırılma faizi**	**Açıq formalı sualların düzgün cavablandırılma faizi**	**Qapalı və açıq formalı sualların (birlikdə) düzgün cavablandırılma faizi**
2016	Azərbaycan bölməsi üzrə	20312	44.42	14.11	41.39
	Rus bölməsi üzrə	2097	44.35	11.86	41.10
	Hər iki bölmə üzrə birlikdə	22409	44.42	13.90	41.37
2017	Azərbaycan bölməsi üzrə	11733	61.08	23.52	57.29
	Rus bölməsi üzrə	1239	58.80	19.94	54.88
	Hər iki bölmə üzrə birlikdə	12972	60.86	23.18	57.06

		Bakalavrların sayı	Qapalı formalı sualların düzgün cavablandırılma faizi	Açıq formalı sualların düzgün cavablandırılma faizi	Qapalı və açıq formalı sualların (birlikdə) düzgün cavablandırılma faizi
2018	Azərbaycan bölməsi üzrə	11079	57.64	9.85	52.86
	Rus bölməsi üzrə	1156	55.2	8.97	50.79
	Hər iki bölmə üzrə birlikdə	12235	57.41	9.77	52.67
2019	Azərbaycan bölməsi üzrə	11382	58.44	20.72	54.67
	Rus bölməsi üzrə	1163	53.74	17.16	50.08
	Hər iki bölmə üzrə birlikdə	12545	58.01	20.39	54.25
2020	Azərbaycan bölməsi üzrə	14264	60.89	21.13	56.91
	Rus bölməsi üzrə	1282	56.93	17.66	53.01
	Hər iki bölmə üzrə birlikdə	15546	60.56	20.84	56.59

Artıq qeyd olunduğu kimi, 2017-ci ildən başlayaraq magistraturaya qəbul imtahanında iştirak üçün müvafiq ödənişin tələb olunması səbəbindən imtahan verən bakalavrların sayı 2017-ci ildə 2016-cı illə müqayisədə 9437 nəfər az olmuşdur. 2018-ci ildə bu azalmanın dinamikası əhəmiyyətli dərəcədə zəifləmiş və imtahan verən bakalavrların sayı 2017-ci illə müqayisədə 737 nəfər azalmışdır. 2019-cu ildə isə imtahan verən bakalavrların sayı 2018-ci illə müqayisədə 310 nəfər çox olmuşdur. Bu artımın dinamikası 2020-ci ildə də davam etmiş və imtahan verən bakalavrların sayı 2019-cu illə müqayisədə 3001 nəfər çox olmuşdur.

Statistika göstərir ki, bu il məntiqi təfəkkürün inkişaf səviyyəsini yoxlayan qapalı formalı test tapşırıqlarını düzgün cavablandırma göstəricisi, orta hesabla, 60.56% olduğu halda, açıq formalı test tapşırıqlarını düzgün cavablandırma göstəricisi cəmi 20.84% olub. Bunlar ötənilki müvafiq göstəricilərdən 2.55% və 0.45% yuxarıdır.

Bakalavrların cavablandırmaqda çətinlik çəkdikləri test tapşırıqlarından bəziləri üzrə nəticələrə nəzər salaq.

2020-ci il, magistraturaya qəbul imtahanı. A variantı, 98 saylı test tapşırığı:

14 fiquru ***fırlatmamaq*** şərti ilə verilmiş şəkildəki formada elə yığın ki, müxtəlif fiqurlara aid qonşu rəqəmlər eyni olsun. Şəkildə göstərilən hərflərin yerlərinə düşəcək rəqəmləri həmin hərflərin ***abcd*** ardıcıllığına uyğun düzün.



Tapşırığın cavablandırılma statistikası belədir:

	Variantlar üzrə cavablandırma, %-lə							
	Azərbaycan bölməsi				Rus bölməsi			
	A variantı	**B** variantı	**C** variantı	**D** variantı	**A** variantı	**B** variantı	**C** variantı	**D** variantı
Düzgün cavablandıranlar	11.15	11.76	12.56	10.64	10.63	10.25	10.34	12.15
Səhv cavablandıranlar	42.66	41.61	43.21	41.53	45.94	41.61	40.76	38.94
Cavablandırmayanlar	46.19	46.63	44.23	47.83	43.44	48.14	48.90	48.91

Bu test tapşırığı bakalavrın vizual məlumatı (fiqur və ya şəkil formasında verilənləri) təhliletmə, sintezetmə, müqayisəetmə, ümumiləşdirmə, mücərrədləşdirmə qabiliyyətlərini yoxlayır.

Tapşırığın şərtində verilən "üçbucaqların ümumi təpə nöqtələri ətrafında eyni ədədlərin yerləşməsi" tələbinə görə fiqurlar aşağıdakı kimi düzülməlidir:



Göründüyü kimi, rənglənmiş üçbucaqlar eynidir. Verilənlər arasında göstərilən formaya malik təkrarlanan üçbucaq yalnız  üçbucağıdır. Bu iki üçbucağı müvafiq yerlərə qoyduqdan sonra digərlərini şərtə uyğun yığdıqda aşağıdakı düzülüş alınacaq:



Cavablandırılma statistikası göstərir ki, bakalavrların 80%-dən çoxu tapşırığı həll edə bilməyib, lakin cavablandıranların Azərbaycan bölməsinin A variantı üzrə 20.72%-i (11.15/(100–46.19)=0.2072), B variantı üzrə 22.03%-i (11.76/(100–46.63)=0.2203), C variantı üzrə 22.52%-i (12.56/(100–44.23)=0.2252), D variantı üzrə 24.84%-i (12.15/(100–51.09)=0.2484) və rus bölməsinin A variantı üzrə 18.79%-i (10.63/(100–43.44)=0.1879), B variantı üzrə 19.76%-i (10.25/(100–48.14)=0.1976), C variantı üzrə 20.23%-i (10.34/(100–48.90)=0.2023), D variantı üzrə 23.78%-i (12.15/(100–48.91)=0.2378) bu test tapşırığının düzgün cavabını müəyyən edə bilmişdir.

Analoji test tapşırığının izahı ilə birlikdə 2018-2019-cu illərdə "Magistr" jurnalının 1-ci saylarında verilməsinə baxmayaraq, bakalavrların düzgün cavablandırma faizi aşağıdır.

Bu test tapşırığı üzrə bakalavrların zəif nəticə göstərmələrinin səbəbi tapşırığın yeni tipli olması və geniş yayılmamasıdır.

Hərflərə uyğun rəqəmləri hərflərin ***abcd*** ardıcıllığı ilə düzəndə 1113 alınır.

Beləliklə, doğru cavab 1113-dür.

2020-ci il, magistraturaya qəbul imtahanı. A variantı, 100 saylı test tapşırığı:

Verilmiş beş sözün- ***misra, mayis, mersi, miyan*** və ***mayor*** sözlərinin hərfləri şəkildəki ədədlərlə şifrələnmişdir. Hər bir dairə üzərində bir sözün hərfləri şifrələnmişdir.

Hərflərin yerlərini müəyyən edərək uyğunluğu tapın.



Ədədlər	Hərflər
1.	a. n
2.	b. m
3.	c. e
	d. o
	e. a

Tapşırığın cavablandırılma statistikası belədir:

	Variantlar üzrə cavablandırma, %-lə							
	Azərbaycan bölməsi				**Rus bölməsi**			
	A variantı	**B** variantı	**C** variantı	**D** variantı	**A** variantı	**B** variantı	**C** variantı	**D** variantı
Düzgün cavablandıranlar	4.73	4.26	4.38	4.26	4.38	4.97	3.45	3.12
Səhv cavablandıranlar	58.12	57.52	59.01	57.97	64.06	58.39	59.56	56.39
Cavablandırmayanlar	37.15	38.22	36.61	37.77	31.56	36.64	36.99	40.49

Bu test tapşırığı bakalavrın vizual məlumatı təhliletmə, sintezetmə, müqayisəetmə, ümumiləşdirmə, mücərrədləşdirmə qabiliyyətlərini yoxlayır.

Tapşırığa aid şəkildəki 5 dairə ədədlərdən ibarət çoxluqları əmələ gətirir. "m" hərfinin verilmiş 5 sözün, "2" ədədinin isə 5 dairənin tərkibində olması "m" hərfinin "2" ədədi ilə şifrələndiyini göstərir. "e", "n" və "o" hərflərinin hər birinin yalnız bir sözə və "1", "3" və "4" ədədlərinin hər birinin yalnız bir dairəyə aid olduğu kimi, "s", "r" və "y" hərflərinin hər biri üç sözə və "6", "8" və "9" ədədlərinin hər biri üç dairəyə aiddir. "4" ədədinin "6", "8" və "9" ədədlərindən yalnız "6" ədədi ilə bir çoxluqda olması və "n" hərfinin "s", "r" və "y" hərflərindən yalnız "y" hərfi ilə bir çoxluqda olması "n" hərfinin "4" ədədi ilə və "y" hərfinin "6" ədədi ilə şifrələndiyini göstərir.

"1" ədədinin "8" və "9" ədədlərindən yalnız "9" ədədi ilə bir çoxluqda olması və "o" hərfinin "s" və "r" hərflərindən yalnız "r" hərfi ilə bir çoxluqda olması "o" hərfinin "1" ədədi ilə və "r" hərfinin "9" ədədi ilə şifrələndiyini göstərir. Buradan da, "e" hərfinin "3" ədədi ilə və "s" hərfinin "8" ədədi ilə şifrələndiyi məlum olur. Ardınca, "***mayor"*** sözünün hərflərini şifrələyən ədədlərin yerləşdiyi dairədəki "5" ədədinin "a" hərfini şifrələdiyi və "***misra"*** sözünün hərflərini şifrələyən ədədlərin yerləşdiyi dairədəki "7" ədədinin isə "i" hərfini şifrələdiyi aşkar olur.



Cavablandırılma statistikası göstərir ki, bakalavrların 90%-dən çoxu tapşırığı həll edə bilməyib. Cavablandıranların Azərbaycan bölməsinin A variantı üzrə 7.53%-i (4.73/(100–37.15)=0.0753), B variantı üzrə 6.90%-i (4.26/(100–38.22)=0.0690), C variantı üzrə 6.91%-i (4.38/(100–36.61)=0.0691), D variantı üzrə 6.85%-i (4.26/(100–37.77)=0.0685) və rus bölməsinin A variantı üzrə 6.40%-i (4.38/(100–31.56)=0.0640), B variantı üzrə 7.84%-i (4.97/(100–36.64)=0.0784), C variantı üzrə 5.75%-i (3.45/(100–36.99)=0.0575), D variantı üzrə 5.24%-i (3.12/(100–40.49)=0.0524) bu test tapşırığının düzgün cavabını müəyyən edə bilmişdir.

Analoji test tapşırığının 2018-2019-cu illərdə "Magistr" jurnalının 2-ci saylarında verilməsinə baxmayaraq, bakalavrların düzgün cavablandırma faizi çox aşağıdır.

Bu test tapşırığı üzrə bakalavrların zəif nəticə göstərmələrinin səbəbi də tapşırığın yeni tipli olması və geniş yayılmamasıdır.

Doğru cavab: 1–d; 2–b; 3–c.

2020-ci il, magistraturaya qəbul imtahanı. B variantı, 96 saylı test tapşırığı:

Variantlardan hansı(lar) aşağıdakı kimi dörd qatlanıb kəsilmiş vərəqin açılışı ola bilər (qırıq xətlərlə kağızın qatlanmış hissələri göstərilib)?





Tapşırığın cavablandırılma statistikası belədir:

	Variantlar üzrə cavablandırma, %-lə			
	Azərbaycan bölməsi		**Rus bölməsi**	
	B variantı	**D** variantı	**B** variantı	**D** variantı
Düzgün cavablandıranlar	17.37	18.15	19.57	18.69
Səhv cavablandıranlar	66.64	62.78	60.25	61.68
Cavablandırmayanlar	15.99	19.07	20.18	19.63

Bu test tapşırığı bakalavrın vizual məlumatı (fiqur və ya şəkil formasında verilənləri) təhliletmə, sintezetmə, müqayisəetmə, ümumiləşdirmə, mücərrədləşdirmə qabiliyyətlərini yoxlayır.

Qatlanıb kəsilmiş vərəqin açılışında görünən fiqurlar qatlanma xəttindən keçən simmetriya oxlarına nəzərən simmetrik olmalıdır.



1. 2. 3. 4. 5. 6.

1, 3 və 4-cü şəkillərdə bəzi fiqurların simmetrik olmadığı görünür.

Cavablandırılma statistikası göstərir ki, bakalavrların 80%-dən çoxu tapşırığı həll edə bilməyib, lakin cavablandıranların Azərbaycan bölməsinin B variantı üzrə 20.68%-i (17.37/(100–15.99)=0.2068), D variantı üzrə 22.43%-i (18.15/(100–19.07)=0.2243) və rus bölməsinin B variantı üzrə 24.52%-i (19.57/(100–20.18)=0.2452), D variantı üzrə 23.25%-i (18.69/(100–19.63)=0.2325) bu test tapşırığının düzgün cavabını müəyyən edə bilmişdir.

Güman etmək olar ki, oxşar test tapşırıqlarının çox hallarda qapalı test tapşırıqları kimi verilməsi bakalavrlarda cavab olaraq yalnız bir şəkli seçmək vərdişini formalaşdırmışdır. Bu səbəbdən də yuxarıda adı çəkilən açıq tipli test tapşırığının cavablandırılmasında bakalavrlar yaxşı nəticələr göstərməmişlər.

Beləliklə, doğru cavab 2, 5 və 6 alınır.

Cavablandırılma statistikasına görə bakalavrların 90%-dən çoxunun həll edə bildiyi test tapşırıqlarına nəzər salaq.

2020-ci il, magistraturaya qəbul imtahanı. B variantı, 60 saylı test tapşırığı (C variantı, 57 saylı test tapşırığı):

Birinci iki söz arasındakı məntiqi əlaqəyə əsaslanaraq, analogiyaya görə "?" əvəzinə uyğun olan variantı seçin.

təhlükə – qorxu; ? – inamsızlıq

A) aldanma B) əməkdaşlıq C) tələş

D) sağlamlıq E) təvazökarlıq

Tapşırığın cavablandırılma statistikası belədir:

Bəndlər	**B variantı**	
	Azərbaycan bölməsi üzrə	**Rus bölməsi üzrə**
A	**91.98%**	1.25%
B	0.81%	0.31%
C	5.98%	0.62%
D	0.17%	**97.51%**
E	0.51%	0.00%
İmtina	0.55%	0.31%

Bu test tapşırığı ilə bakalavrların söz ehtiyatının zənginliyi, sözlə ifadə olunmuş məlumatı təhliletmə, sintezetmə, müqayisəetmə, ümumiləşdirmə, mücərrədləşdirmə, müxtəlif sözlərin istifadəsində incəlikləri hissetmə qabiliyyətləri yoxlanılır.

Bakalavrların hazırlıq səviyyəsinin daim artdığını nəzərə alaraq, belə test tapşırıqlarının magistraturaya qəbul imtahanlarına keyfiyyətcə müvafiqliyinin və etibarlılığının olmaması səbəbindən növbəti analoji imtahanlarda istifadə edilməməsini tövsiyə olunur.

İndi isə problemli distraktorların yer aldığı test tapşırıqlarını nəzərdən keçirək.

2020-ci il, magistraturaya qəbul imtahanı. B variantı, 66 saylı test tapşırığı (D variantı, 70 saylı test tapşırığı):

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun olan variantı seçin.

3	5	8	4			
5	9	6	7			
4	2	0	1			
9	8	6	3	6	4	9
			1	0	?	4
			7	3	9	5
			4	4	5	3

A) 1 B) 4 C) 2 D) 5 E) 3

Tapşırığın cavablandırılma statistikası belədir:

	B variantı		**D variantı**	
	Azərbaycan bölməsi üzrə	**Rus bölməsi üzrə**	**Azərbaycan bölməsi üzrə**	**Rus bölməsi üzrə**
A bəndi	**21.63%**	**24.22%**	9.33%	8.10%
B bəndi	10.55%	14.60%	31.25%	37.07%
C bəndi	38.10%	32.61%	**25.34%**	**23.68%**
D bəndi	11.98%	13.66%	17.47%	15.89%
E bəndi	12.63%	9.32%	10.19%	8.41%
İmtina	5.11%	5.59%	6.42%	6.85%

Bu test tapşırığı ilə bakalavrların ədədlər arasındakı qanunauyğunluğu aşkar etmək qabiliyyəti yoxlanılır.

Ədədlər mərkəzi xanaya nəzərən üzbəüz yerləşmişlər. Solda və yuxarıda yerləşən toplunun hər sətrində yalnız 1 ədəd özü ilə üzbəüz (sağda və aşağıda) yerləşən ədəddən 2 dəfə böyükdür, yəni 8=2*x*4, 6=2*x*3, 2=2*x*?=2 *x*1.

3	5		4			
5	9	6	7			
4	2	0	1			
9	8	6	3	6	4	9
			1	0	?	4
			7	3	9	5
			4		5	3

Güman etmək olar ki, "?" işarəsinin də yer aldığı sətirdəki 10?4 yazısının yuxarı hissədəki 4201 yazısına oxşaması səbəbindən bakalavrların 38.10%-i "?" işarəsinin yerinə "2" ədədinin yazılmalı olduğunu düşünərək **C** bəndini seçmişlər.

Beləliklə, doğru cavab A bəndidir.

3. REZİDENTURAYA QƏBUL

Rezidentura tibb ixtisasları üzrə əsas (baza ali) tibb təhsili əsasında həkim-mütəxəssis hazırlığı formasıdır. Burada təhsil dövlət standartı və proqramına uyğun olaraq hazırlanmış baza ali tibb təhsili proqramları əsasında, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 iyun 95 nömrəli qərarı ilə təsdiq edilmiş "Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların təsnifatı"nda qeyd olunan həkim-mütəxəssis ixtisasları üzrə aparılır. Rezidenturada ayrı-ayrı həkim-mütəxəssis ixtisasları üzrə təhsil müddəti 2 ildən 5 ilə qədərdir. Rezidenturada həkim-mütəxəssis hazırlığı klinik baza olaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş elm, təhsil müəssisələri və klinikalarda aparılır. Azərbaycan Respublikasının vətəndaşları üçün rezidenturada təhsil dövlət sifarişi əsasında həyata keçirilir.

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2009-cu il tarixli, 156 nömrəli fərmanı rəhbər tutulmaqla və "Rezidentura təhsilinin məzmunu və təşkili qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 mart 2010-cu il tarixli 50 nömrəli və 2013-cü il 21 noyabr tarixli 330 nömrəli qərarları əsas götürülməklə rezidenturaya qəbul 2020-ci ildə də DİM tərəfindən mərkəzləşdirilmiş şəkildə test üsulu ilə keçirilmişdir. Qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral 41 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rezidenturaya qəbul qaydaları" ilə tənzimlənib.

2010-cu ilin oktyabr ayından başlayaraq Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında (indiki Dövlət İmtahan Mərkəzi) rezidenturaya qəbul imtahanlarının keçirilməsi ilə bağlı baza və ixtisas fənləri üzrə elmi-metodik seminarlar təşkil olunmuşdur. Növbəti illərdə seminarlarda qəbul proqramları müzakirə edilmiş, test tərtibi metodikası üzrə treninqlər keçirilmiş, mövcud test bankı yeni test tapşırıqları ilə zənginləşdirilmişdir. 2020-ci ildə də əsas (baza ali) tibb təhsilinin bütün istiqamətləri üzrə baza və ixtisas fənlərindən qəbul proqramları əlavə və düzəlişlər edilməklə təkmilləşdirilmiş, müvafiq kafedraların əməkdaşlarının iştirakı ilə müzakirə edilmiş, kafedra müdirləri ilə razılaşdırılmış və institut rəhbərliyi tərəfindən təsdiqlənmişdir.

Rezidenturaya qəbul qaydaları və baza fənləri üzrə qəbul proqramları, test tapşırıqlarının elmi-metodik izahı və tövsiyələr, test tapşırığı nümunələri 2020-ci ilin yanvar ayında "Rezidentura" jurnalının 1-ci nömrəsində dərc olunaraq ictimaiyyətə çatdırılmışdır. Rezidenturaya qəbul elanı və ixtisas fənləri üzrə qəbul proqramları, test tapşırıqlarının elmi-metodik izahı və tövsiyələr, test tapşırığı nümunələri "Rezidentura" jurnalının 2-ci nömrəsində, qəbul imtahanının II mərhələsi və ixtisas seçimi haqqında elan, qəbul aparılan ixtisasların siyahısı, qəbul imtahanının I mərhələsinin nəticələri, qəbul planı və namizədlər üçün tövsiyələr, 2019-cu ildə rezidenturaya qəbul müsabiqəsində baza tibb təhsili müəssisələrinin ixtisasları üzrə formalaşmış keçid balları isə jurnalın 3-cü nömrəsində dərc edilmişdir. Jurnalın 4-cü nömrəsində rezidenturaya qəbul olanların adlı siyahısı və cari ildə klinik bazalar üzrə formalaşmış keçid balları verilmişdir.

2020-ci ildə rezidenturaya qəbulla bağlı müsabiqə şərtlərində bəzi dəyişikliklər edilib. Belə ki, imtahanın I mərhələsinin nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilib, imtahandan 40 və daha çox bal toplayan əsas (baza ali) tibb təhsilli namizədlər "məqbul" alaraq imtahanın II mərhələsində iştirak etmək hüququ qazanıblar. Bundan başqa, imtahanın I mərhələsində "məqbul" alanların nəticəsi 5 (beş) il qüvvədə qalır, yəni onlar 5 (beş) il ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına buraxılırlar. Rezidenturaya qəbulun I mərhələsinə əsas (baza ali) tibb təhsilinin III kursunu tam bitirmiş (IV və V kurs) tələbələr də buraxılıblar. Bu imtahandan "məqbul" alan tələbələr isə ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanına rezidenturaya qəbul olunmaq hüququ əldə etdikdən sonra buraxılacaqlar.

Rezidenturaya qəbul aparılan ixtisaslar əsas (baza ali) tibb təhsilinə uyğun olaraq istiqamətlər üzrə qruplaşdırılıb. 3.1 saylı cədvəldə həm bu istiqamətlərin, həm də hər bir istiqamət üzrə imtahan verilən baza və ixtisas fənlərinin siyahısı təqdim edilib.

Cədvəl 3.1

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ İMTAHAN VERİLƏN BAZA VƏ İXTİSAS FƏNLƏRİ

İstiqamətin adı	Baza fənləri	İxtisas fənləri
I. Müalicə işi, pediatriya	İnsan anatomiyası Histologiya Mikrobiologiya Farmakologiya Biokimya Patologiya (patoloji anatomiya və patoloji fiziologiya) İnsan fiziologiyası	Daxili xəstəliklər (kardiologiya, pulmonologiya, qastroenterologiya, endokrinologiya, nefrologiya, hematologiya, nevrologiya, yoluxucu xəstəliklər, psixiatriya) Cərrahlıq (ümumi cərrahlıq, cərrahi xəstəliklər, uşaq cərrahlığı) Mamalıq və ginekologiya Uşaq xəstəlikləri (uşaq xəstəliklərinin propedevtikası, neonatologiya)
II. Stomatologiya	İnsan anatomiyası Histologiya Mikrobiologiya Farmakologiya Biokimya Patologiya (patoloji anatomiya və patoloji fiziologiya) İnsan fiziologiyası	Ortopedik stomatologiya Üz-çənə cərrahiyyəsi Uşaq stomatologiyası Terapevtik stomatologiya
III. Tibbi profilaktika	İnsan anatomiyası Histologiya Mikrobiologiya Farmakologiya Biokimya Patologiya (patoloji anatomiya və patoloji fiziologiya) İnsan fiziologiyası	Yoluxucu xəstəliklər Gigiyena (ümumi gigiyena, kommunal gigiyena, qidalanma gigiyenası, əmək gigiyenası) Epidemiologiya

2020-ci ildə rezidenturaya qəbul Səhiyyə Nazirliyi sistemi üzrə 3 klinik bazaya aparılıb. Rezidenturaya ümumilikdə Azərbaycan və rus bölmələrinin birgə müsabiqəsi üçün 508 plan yeri ayrılmışdı (onlardan 48 plan yeri Hərbi tibb fakültəsi üçün nəzərdə tutulmuşdur). 3.2 saylı cədvəldən də göründüyü kimi, rezidenturaya ən çox qəbul planı Azərbaycan Tibb Universitetinin payına düşüb (360 yer – Hərbi tibb fakültəsi də daxil olmaqla). Bu təhsil müəssisəsinin qəbul planı bütövlükdə rezidentura üçün ayrılmış qəbul planının 70.87%-ni təşkil edib.

Cədvəl 3.2

QƏBUL PLANININ KLİNİK BAZALAR ÜZRƏ PAYLANMASI

№	Müəssisənin adı	İstiqamətlər*					Bütöv-lükdə
		I	II	III	I, II, III	I, III	
1.	Azərbaycan Tibb Universiteti	261	20	17	2	12	312
	Hərbi Tibb Fakültəsi (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi sistemi üçün)	9	0	0	0	1	10
	Hərbi Tibb Fakültəsi (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sistemi üçün)	34	0	0	3	1	38
2.	Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu	102	10	4	5	7	128
3.	Naxçıvan Dövlət Universiteti	12	2	1	1	4	20
C Ə M İ		**418**	**32**	**22**	**11**	**25**	**508**

*(İstiqamətlər: I – Müalicə işi, pediatriya; II – Stomatologiya; III – Tibbi-profilaktika)

Ötən illə müqayisədə qəbul planı müalicə işi, pediatriya istiqaməti üzrə 11 yer, tibbi profilaktika istiqaməti üzrə 33 yer, yoluxucu xəstəliklər və tibbi mikrobiologiya ixtisasları (I, III istiqamətlər) üzrə isə 18 yer azalmış, stomatologiya istiqaməti üzrə 1 yer artmış, sosial gigiyena və səhiyyənin təşkili ixtisasında (I, II və III istiqamətlər üzrə birgə müsabiqə) isə plan yerlərinin sayı dəyişməmişdir.

Qəbul imtahanlarında iştirak etmək üçün ərizələrin qəbulu 2020-ci il fevralın 13-dən martın 2-dək internet vasitəsilə aparılıb. Namizədlər *ekabinet.dim.gov.az* internet səhifəsində "Şəxsi kabinet"lərini yaratdıqdan sonra, "Şəxsi kabinet"lərininin istifadəçi adı və parolundan istifadə edərək DİM-in internet saytının müvafiq səhifəsinə (eservices.dim.gov.az/erizerez/erize) daxil olaraq "Namizədin elektron ərizəsi" formasını doldurub, təsdiq ediblər. Müsabiqədə iştirak ödənişli olmuşdur. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici ölkələrdə ali təhsil almış Azərbaycan Respublikasının vətəndaşları imtahanda iştirak etmək üçün "Namizədin elektron ərizəsi" formasını doldurduqdan sonra tələb olunan sənədlərin əslini şəxsən təqdim edərək elektron ərizələrini DİM-də yaradılmış Sənəd Qəbulu Komissiyalarında təsdiq etdiriblər.

Rezidenturada təhsil almaq üçün 1267 namizəd ərizə verib. Onların 37.49%-ni (475 nəfər) oğlanlar, 62.51%-ni (792 nəfər) qızlar təşkil edib. Sənəd verənlərin 447 nəfəri (35.28%) əsas (baza ali) tibb təhsilini bu il başa vurub. Onlardan 142 nəfəri oğlan (31.77%), 305 nəfəri isə qız (68.23%) olub.

Baza ali tibb təhsili istiqamətləri üzrə qəbul planı, imtahanda iştirak etmək üçün təqdim edilən ərizələrin sayı və ərizə qəbulu mərhələsində müsabiqə vəziyyəti 3.3 saylı cədvəldə göstərilir.

Cədvəl 3.3

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ VƏ BÖLMƏLƏR ÜZRƏ QƏBUL PLANI, NAMİZƏDLƏRİN ƏRİZƏLƏRİNİN PAYLANMASI VƏ MÜSABİQƏ VƏZİYYƏTİ

İstiqamət	Qəbul planı*	Ərizələrin sayı			Müsabiqə vəziyyəti
		Azərbaycan bölməsi	Rus bölməsi	Cəmi	
I. Müalicə işi, pediatriya	454 (418)	936	112	1048	2.3
II. Stomatologiya	43 (32)	75	9	84	2.0
III. Tibbi profilaktika	58 (22)	131	4	135	2.3
C Ə M İ	**508****	**1142**	**125**	**1267**	**2.5**

* Mötərizədə yalnız bu istiqamət üzrə ayrılan plan yerlərinin (digər istiqamətlərlə birgə olan plan yerləri istisna olunmaqla) sayı göstərilib.

** Müalicə işi, pediatriya, stomatologiya və tibbi profilaktika istiqamətləri üzrə 11 yer (sosial gigiyena və səhiyyənin təşkili ixtisası üzrə), müalicə işi, pediatriya və tibbi profilaktika istiqamətləri üzrə 25 yer (tibbi mikrobiologiya və yoluxucu xəstəliklər ixtisasları üzrə) üçün birgə müsabiqə aparılıb.

3.3 saylı cədvəldən görünür ki, imtahanda iştirak etmək üçün ən çox ərizə müalicə işi, pediatriya və tibbi profilaktika istiqamətləri üzrə təqdim edilib. Ümumiyyətlə, ərizələrin sayı ötən illə müqayisədə müalicə işi, pediatriya, stomatologiya və tibbi profilaktika istiqamətləri üzrə uyğun olaraq 1.34, 1.68 və 1.42 dəfə, bütün istiqamətlər üzrə isə bütövlükdə 1.36 dəfə artmışdır.

İstiqamətlər üzrə ən yüksək müsabiqə vəziyyəti müalicə işi, pediatriya və tibbi profilaktika istiqamətləri üzrə (bir yerə orta hesabla 2.3 ərizə), ən aşağı müsabiqə vəziyyəti isə stomatologiya istiqaməti üzrə (bir yerə orta hesabla 2.0 ərizə) müşahidə olunub. Ümumilikdə ötən illə müqayisədə müsabiqə vəziyyəti 1.6-dan 2.5-ə qədər artmışdır. Müsabiqə vəziyyətinin yuxarı olması plan yerlərinin sayının azalması və ərizə verənlərin sayının çoxalması ilə əlaqədardır.

Cari ildə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkədə tətbiq olunan tədbirlərlə əlaqədar imtahanlar həmişə olduğundan gec tarixlərdə keçirilmişdir. Rezidenturaya qəbul imtahanı iki mərhələdə – I mərhələ avqustun 5-də, II mərhələ isə sentyabrın 18-də keçirilib. Qəbul imtahanının hər iki mərhələsi Bakı və Naxçıvan şəhərlərində keçirilib. II mərhələyə imtahanın I mərhələsində nəticələri "məqbul" olan (40 və daha çox bal toplayan) və müsabiqədə iştirak etmək hüququ olan namizədlər buraxılıblar. İmtahanın birinci mərhələsində namizədlərin baza ali tibb təhsili istiqamətinə müvafiq olaraq baza fənləri üzrə, ikinci mərhələsində isə ixtisas fənləri üzrə bilikləri yoxlanılıb. Namizədlərə hər mərhələdə ayrılıqda 100 test tapşırığı təqdim olunub. Hər bir test tapşırığına düzgün cavab bir balla qiymətləndirilib, səhv cavablar

namizədin imtahan nəticələrinə təsir göstərməyib. Hər bir mərhələdə imtahan suallarının cavablandırılmasına 2.5 saat vaxt ayrılıb.

İmtahanın I mərhələsində baza ali tibb təhsilinin bütün istiqamətləri üzrə patologiya bloku (patoloji anatomiya və patoloji fiziologiya) və insan fiziologiyası fənnindən son 5 sual açıq tipli test tapşırığı olub. İmtahanın II mərhələsində müalicə işi, pediatriya istiqaməti üzrə daxili xəstəliklər blokundan, stomatologiya istiqaməti üzrə terapevtik stomatologiya fənnindən və tibbi profilaktika istiqaməti üzrə epidemiologiya fənnindən son 5 sual açıq tipli test tapşırığı olub. Hər iki mərhələdə sual kitabçaları fərdi qaydada çap olunub və imtahan zalları üzrə komplektləşdirilib. Sual kitabçaları imtahanın hər iki mərhələsində müalicə işi, pediatriya istiqaməti üzrə 2 variantda, digər istiqamətlər üzrə isə 1 variantda, Azərbaycan və rus dillərində hazırlanıb. Bütövlükdə, imtahanlarda 16 sual kitabçasından və 1600 test tapşırığından istifadə edilib.

Qəbul imtahanının I mərhələsi üzrə nəticələr avqustun 6-da, II mərhələsi üzrə isə sentyabrın 18-də DİM-in internet saytında elan olunub.

İmtahanın I mərhələsində 1184 (439 nəfər oğlan, 745 nəfər qız) namizəd iştirak etmiş və 633-ü (195 nəfər oğlan, 438 nəfər qız) məqbul alaraq II mərhələdə iştirak etmək hüququ əldə etmişdir. İmtahanın I mərhələsində iştirak edən oğlanların 44.42%-i, qızların isə 58.79%-i məqbul almışdır.

Qeyd etdiyimiz kimi cari ildə ilk dəfə olaraq əsas (baza ali) tibb təhsilinin III kursunu tam bitirmiş tələbələrə də (IV və V kurs tələbələri) baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında (I mərhələdə) iştirak etmək hüququ verilmişdir. Bu imkandan faydalanmaq üçün 259 tələbə (64 nəfər oğlan, 195 nəfər qız) müraciət etmiş, onlardan 244-ü (61 nəfər oğlan, 183 nəfər qız) baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında iştirak etmiş və 131-i (37 nəfər oğlan, 94 nəfər qız) "məqbul" almışdır.

Aşağıdakı cədvəldə əsas (baza ali) tibb təhsili istiqamətləri üzrə imtahanın I mərhələsində iştirak edən cari ilin məzunlarının nəticələrinin IV və V kurs tələbələrinin nəticələri ilə müqayisəsi təqdim olunmuşdur. Cədvəldən də göründüyü kimi imtahanda iştirak edən cari ilin məzunlarının bütövlükdə 67.82%-i, IV və V kurs tələbələrinin isə 53.69%-i "məqbul" almışdır. Göründüyü kimi IV və V kurs tələbələrinin imtahandakı nəticələri daha zəifdir. Nəzərə alsaq ki, rezidenturaya qəbul proqramları ATU-nun tədris proqramları əsasında tərtib olunub, bu nəticə heç də qənaətbəxş deyil. Buradan belə nəticəyə gəlmək olar ki, əsas (baza ali) tibb təhsilli namizədlər imtahana fərdi qaydada hazırlaşdıqları üçün IV və V kurs tələbələrindən daha yaxşı nəticə əldə ediblər.

Cədvəl 3.4

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ İMTAHANIN I MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏNLƏRİN NƏTİCƏLƏRİNİN MÜQAYİSƏSİ

İstiqamət	İmtahanda iştirak edənlərin sayı		Məqbul alanların sayı və faizi			
			Cari ilin məzunları		IV və V kurs tələbələri	
	Cari ilin məzunları	IV və V kurs tələbələri	sayı	faizi	sayı	faizi
I. Müalicə işi, pediatriya	334	204	237	70.96	117	57.35
II. Stomatologiya	35	10	12	34.29	2	20.00
III. Tibbi profilaktika	66	30	46	69.70	12	40.00
C Ə M İ	**435**	**244**	**295**	**67.82**	**131**	**53.69**

Əsas (baza ali) tibb təhsili istiqamətləri üzrə imtahanın II mərhələsində iştirak etmək hüququ qazanan 633 namizədin 600 nəfəri (185 nəfər oğlan, 415 nəfər qız) imtahanın II mərhələsində iştirak etmişdir. İmtahanın II mərhələsində iştirak edən namizədlərin çoxu (460 nəfər – 76.67%) müsabiqədə iştirak etmək hüququ qazanıb. Onlardan 135 nəfəri oğlan (60 nəfər cari ilin məzunu), 325 nəfəri qız (172 nəfər cari ilin məzunu) olub.

İmtahanda və müsabiqədə iştirak etmək hüququ qazanan namizədlərin istiqamətlər üzrə sayı barədə məlumat 3.5 saylı cədvəldə təqdim olunur.

Cədvəl 3.5

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ QƏBUL PLANI, İMTAHANIN II MƏRHƏLƏSİNDƏ VƏ MÜSABİQƏDƏ İŞTİRAK ETMƏK HÜQUQU QAZANAN NAMİZƏDLƏRİN PAYLANMASI

İstiqamət	Qəbul planı*	İmtahanda iştirak edən namizədlərin sayı		Müsabiqədə iştirak etmək hüququ qazanmış namizədlərin sayı
		I mərhələ	II mərhələ**	
I. Müalicə işi, pediatriya	454 (48)	971 (136)	493 (43)	370 (25)
II. Stomatologiya	43 (3)	81 (0)	28 (0)	17 (0)
III. Tibbi profilaktika	58 (5)	132 (0)	79 (0)	73 (0)
C Ə M İ	**508 (48)**	**1184 (136)**	**600 (43)**	**460 (25)**

* mötərizədə o cümlədən, hərbi tibb fakültəsi üzrə məlumat verilmişdir.

** II mərhələdə I mərhələ üzrə ən azı 40 bal toplayan namizədlər iştirak ediblər.

3.1-3.3 saylı şəkillərdə qəbul imtahanının I mərhələsində iştirak edən əvvəlki illərin məzunlarının, cari ilin məzunlarının, IV və V kurs tələbələrinin ayrı-ayrılıqda topladıqları balların paylanma diaqramı təqdim edilib. Diaqramlar göstərir ki, cari ilin məzunlarının nəticələri digər imtahan iştirakçılarından yüksək, əvvəlki illərin məzunlarının nəticələri isə digərlərindən zəifdir. Cari ilin məzunlarının 15.17%-i, IV və V kurs tələbələrinin və əvvəlki illərin məzunlarının, müvafiq olaraq, cəmi 5.33% və 3.60%-i 60 bal və daha yüksək nəticə göstərib. Cari ilin məzunlarının böyük hissəsi (67.81%-i) imtahanın I mərhələsində ən azı 40 bal toplayıb. Belə iştirakçılar IV və V kurs tələbələri arasında 53.69%, əvvəlki illərin məzunları arasında isə 45.12% təşkil edib. Əvvəlki illərin məzunlarının yarıdan çoxu (54.87%-i) 40 baldan az toplayaraq, məqbul nəticə əldə edə bilməmişlər. Təhlil zamanı bu namizədlərin hazırlıq səviyyəsinin digər imtahan iştirakçılarından aşağı olduğunu görürük. Fikrimizcə, bunun əsas səbəbi belə imtahan iştirakçıları arasında daha çox əvvəlki illərdə rezidenturaya qəbul ola bilməyənlərin üstünlük təşkil etməsidir.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNDƏ (BAZA FƏNLƏRİ ÜZRƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İMTAHANI) İŞTİRAK EDƏN ƏVVƏLKİ İLLƏRİN MƏZUNLARININ TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.1

QƏBUL İMTAHANININ
I MƏRHƏLƏSİNDƏ
(BAZA FƏNLƏRİ ÜZRƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İMTAHANI)
İŞTİRAK EDƏN
CARİ İLİN MƏZUNLARININ
TOPLADIQLARI BALLARIN
PAYLANMA DİAQRAMI



Şəkil 3.2

QƏBUL İMTAHANININ
I MƏRHƏLƏSİNDƏ
(BAZA FƏNLƏRİ ÜZRƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İMTAHANI)
İŞTİRAK EDƏN
IV VƏ V KURS TƏLƏBƏLƏRİNİN
TOPLADIQLARI BALLARIN
PAYLANMA DİAQRAMI



Şəkil 3.3

3.4 və 3.5 saylı şəkillərdə rezidenturaya qəbul olmaq üçün imtahanda iştirak edən cari və əvvəlki illərin məzunlarının I və II mərhələ üzrə topladıqları balların paylanma diaqramları təqdim edilib. I mərhələdə "məqbul"la qiymətləndirilmək üçün qoyulan tələbi (40 və daha yüksək bal) namizədlərin 53.46%-i ödəyib və bu namizədlər II mərhələdə iştirak etmək hüququ qazanıblar. Ötən il bu göstərici 50.49%-ə bərabər olub. Bu il imtahanın II mərhələsində iştirak etmək hüququ qazanan namizədlərin nisbi sayı ötən illə müqayisədə artmışdır.

Qəbul imtahanının II mərhələsində iştirak edən namizədlərin topladıqları balların paylanma diaqramından (şəkil 3.5) onların böyük hissəsinin (67.00%-i) 50-69 bal diapazonunda nəticə göstərdiyini görürük. Namizədlərin 23.33%-i isə 50 baldan aşağı nəticə göstərdiyi üçün ixtisas seçiminə buraxılmayıb.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNDƏ (BAZA FƏNLƏRİ ÜZRƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İMTAHANI) İŞTİRAK EDƏN NAMİZƏDLƏRİN (CARİ VƏ ƏVVƏLKİ İLLƏRİN MƏZUNLARI) TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI	QƏBUL İMTAHANININ II MƏRHƏLƏSİNDƏ (İXTİSAS FƏNLƏRİ ÜZRƏ BİLİKLƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ İMTAHANI) İŞTİRAK EDƏN NAMİZƏDLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
 Şəkil 3.4	 Şəkil 3.5

Qəbul imtahanının nəticələri əsasında reprezentativ seçməyə malik olan müalicə işi, pediatriya istiqaməti üzrə I və II mərhələdə iştirak edən namizədlərin ayrılıqda topladıqları balların paylanmasının ədədi xarakteristikaları və histoqramları müəyyənləşdirilib (3.6, 3.7 saylı cədvəllərə və 3.1, 3.2 saylı qrafiklərə bax). Qrafiklərdə namizədlərin topladıqları balların paylanma histoqramı, riyazi gözləmə (orta) qiyməti (M) və namizədlər seçməsini sayca iki bərabər hissəyə ayıran mediana (Me) qiymətləri təsvir edilib. Balların paylanma histoqramı həm I mərhələdə, həm də II mərhələdə demək olar ki, simmetrikdir və normal paylanmaya yaxındır.

Müalicə işi, pediatriya istiqaməti
(*I mərhələ, IV və V kurs tələbələri də nəzərə alınmaqla*)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları

Riyazi gözləmə :	41.20	Minimal bal :	10
Ortakvadratik meyil :	12.31	Maksimal bal :	82
Moda :	42	Namizədlərin sayı :	1175
Mediana :	40.54		

Cədvəl 3.6

Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	0	0.00	0.00	31 - 35	151	12.85	34.55	66 - 70	13	1.11	98.98
1 - 5	0	0.00	0.00	36 - 40	162	13.79	48.34	71 - 75	11	0.94	99.91
6 - 10	1	0.09	0.09	41 - 45	180	15.32	63.66	76 - 80	0	0.00	99.91
11 - 15	6	0.51	0.60	46 - 50	150	12.77	76.43	81 - 85	1	0.09	100.00
16 - 20	34	2.89	3.49	51 - 55	110	9.36	85.79	86 - 90	0	0.00	100.00
21 - 25	80	6.81	10.30	56 - 60	94	8.00	93.79	91 - 95	0	0.00	100.00
26 - 30	134	11.40	21.70	61 - 65	48	4.09	97.87	96 - 100	0	0.00	100.00

Qrafik 3.1



Müalicə işi, pediatriya istiqaməti
(*II mərhələ*)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları

Riyazi gözləmə :	56.05	Minimal bal :	31
Ortakvadratik meyil :	9.05	Maksimal bal :	80
Moda :	57	Namizədlərin sayı :	493
Mediana :	55.73		

Cədvəl 3.7

Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tezliklərin cəmi, %-lə	Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tezliklərin cəmi, %-lə	Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tezliklərin cəmi, %-lə
0 - 0	0	0.00	0.00	31 - 35	4	0.81	0.81	66 - 70	51	10.34	95.13
1 - 5	0	0.00	0.00	36 - 40	16	3.25	4.06	71 - 75	18	3.65	98.78
6 - 10	0	0.00	0.00	41 - 45	45	9.13	13.18	76 - 80	6	1.22	100.00
11 - 15	0	0.00	0.00	46 - 50	73	14.81	27.99	81 - 85	0	0.00	100.00
16 - 20	0	0.00	0.00	51 - 55	94	19.07	47.06	86 - 90	0	0.00	100.00
21 - 25	0	0.00	0.00	56 - 60	100	20.28	67.34	91 - 95	0	0.00	100.00
26 - 30	0	0.00	0.00	61 - 65	86	17.44	84.79	96 - 100	0	0.00	100.00

Qrafik 3.2



Rezidenturaya qəbul imtahanında iştirak edənlər və qəbul olanlar seçmələri üzrə ayrılıqda ortastatistik namizədin portreti müəyyənləşdirilib. I mərhələ üzrə Azərbaycan bölməsində imtahanda iştirak edənlər seçməsini təmsil edən ortastatistik namizədin topladığı bal 41.35-ə, rus bölməsində 37.04-ə, II mərhələ üzrə Azərbaycan bölməsində 56.81-ə, rus bölməsində 59.26-ya bərabərdir. Azərbaycan bölməsində rezidenturaya qəbul olanlar seçməsini təmsil edən ortastatistik namizədin topladığı bal 61.17-yə, rus bölməsində isə 62.58-ə bərabərdir. Təqdim edilən rəqəmlərdən də göründüyü kimi, bölmələr üzrə ayrılıqda namizədlərin imtahana hazırlığı və imtahan nəticələri çox az fərqlənir.

Müsabiqəyə buraxılan namizədlər malik olduqları əsas (baza ali) tibb təhsilinin istiqamətinə uyğun olaraq sentyabrın 21-dən 25-dək ixtisas seçimi aparıblar. İxtisas seçiminə rezidenturaya qəbul imtahanındakı nəticələri Mərkəz tərəfindən müəyyən edilmiş müsabiqə şərtini ödəyən – ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında 50 və daha çox bal toplayan namizədlər buraxılıblar.

İxtisas seçiminə kömək məqsədilə "Rezidentura" jurnalının 3-cü sayında "Rezidentura üzrə ixtisas seçimi cədvəli" dərc olunub (cədvəl 3.8). Bununla da hər bir namizədə bitirdiyi istiqamətə uyğun olaraq səmərəli ixtisas seçimi imkanı yaradılıb.

Cədvəl 3.8

REZİDENTURA ÜZRƏ İXTİSAS SEÇİMİ CƏDVƏLİ

Əsas (baza ali) tibb təhsili üzrə istiqamətlər (fakültələr)	**Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisaslar**
I. Müalicə işi, pediatriya	060901 - Anesteziologiya-reanimatologiya 060902 - Ümumi cərrahiyyə 060903 - Neyrocərrahiyyə 060904 - Plastik cərrahiyyə 060905 - Ürək-damar cərrahiyyəsi 060906 - Uşaq cərrahiyyəsi 060907 - Otorinolarinqologiya 060908 - Travmatologiya-ortopediya 060909 - Onkologiya 060910 - Urologiya 060911 - Oftalmologiya 060912 - Mamalıq-ginekologiya 060913 - Psixiatriya 060914 - Nevrologiya 060915 – Daxili xəstəliklər 060916 - Kardiologiya 060917 - Nefrologiya 060918 - Qastroenterologiya 060919 - Hematologiya 060920 - Dermatovenerologiya 060922 – Allerqologiya və immunologiya 060923 - Yoluxucu xəstəliklər 060924 - Revmatologiya 060925 - Endokrinologiya 060926 - Narkologiya 060927 - Fizioterapiya və tibbi bərpa 060928 - Ftiziatriya 060929 - Patoloji anatomiya, məhkəmə-tibbi ekspertiza 060930 - Pediatriya 060931 - Şüa terapiyası 060932 - Şüa diaqnostikası 060935 - Sosial gigiyena və səhiyyənin təşkili 060937 – Tibbi mikrobiologiya 060939 - Tibbi genetika 060941 - Ailə təbabəti 060942 - Nüvə təbabəti 060949 - Uşaq və yeniyetmə psixiatriyası 060950 - Neonatologiya

Əsas (baza ali) tibb təhsili üzrə istiqamətlər (fakültələr)	Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisaslar
	060951 - Uşaq endokrinologiyası 060952 - Uşaq kardiologiyası 060953 - Uşaq nefrologiyası 060954 - Uşaq nevrologiyası 060955 - Uşaq qastroenterologiyası 060956 - Uşaq urologiyası 060957 - Uşaq yoluxucu xəstəlikləri 060958 - Uşaq ürək-damar cərrahiyyəsi
II. Stomatologiya	060934 - Üz-çənə cərrahiyyəsi 060935 - Sosial gigiyena və səhiyyənin təşkili 060943 - Endodontiya 060944 - Parodontologiya 060945 - Restorativ stomatologiya 060946 - Ortopedik stomatologiya 060947 - Uşaq stomatologiyası 060948 - Ortodontiya
III. Tibbi profilaktika	060935 - Sosial gigiyena və səhiyyənin təşkili 060936 - Gigiyena 060937 – Tibbi mikrobiologiya 060938 - Laboratoriya işi 060940 - Epidemiologiya 060923 - Yoluxucu xəstəliklər

Seçilmiş ixtisasların ərizə formasında ardıcıllığını namizəd özü müəyyənləşdirib və o, topladığı ballara əsasən müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilib.

Müsabiqə zamanı ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında topladığı bal eyni olan iki və daha çox namizədi fərqləndirmək üçün aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilər nəzərə alınıb:

– əsas (baza ali) tibb təhsili üzrə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG);

– baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından toplanılan bal.

Müsabiqənin nəticələri sentyabrın 28-də elan edilmişdir.

Müsabiqədə iştirak edən namizədlərin ərizələrinin rezidentura təhsilini həyata keçirən klinik bazalar üzrə paylanması 3.9 saylı cədvəldə təqdim edilmişdir.

Cədvəl 3.9

MÜSABİQƏDƏ İŞTİRAK EDƏN NAMİZƏDLƏRİN ƏRİZƏLƏRİNİN KLİNİK BAZALAR ÜZRƏ PAYLANMASI

№	Müəssisənin adı	Ərizələrin sayı			
		Müalicə işi, pediatriya istiqaməti üzrə	Stomatologiya istiqaməti üzrə	Tibbi-profilaktika istiqaməti üzrə	Bütövlükdə
1	Azərbaycan Tibb Universiteti	342	17	70	429
	Hərbi Tibb Fakültəsi (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi sistemi üçün)	8	0	0	8
	Hərbi Tibb Fakültəsi (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sistemi üçün)	17	0	0	17
2	Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu	316	16	65	397
3	Naxçıvan Dövlət Universiteti	26	1	17	44
	C Ə M İ	**368**	**17**	**71**	**456**

Cədvəldən göründüyü kimi, müsabiqədə iştirak edən 456 namizədin 80.70%-i (368 nəfər) müalicə işi, pediatriya, 3.73%-i (17 nəfər) stomatologiya və 15.57%-i (71 nəfər) tibbi profilaktika istiqaməti üzrə imtahan verənlərdir.

Müsabiqədə iştirak edən namizədlərin 94.08%-i (429 nəfər) öz ərizəsində Azərbaycan Tibb Universitetinə (hərbi tibb fakültəsi ilə birlikdə 99.56% (454 nəfər)), 87.06%-i (397 nəfər) Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutuna aid olan ixtisasları qeyd edib.

İmtahanlarda iştirak üçün qeydiyyatdan keçən namizədlərin 32.99%-i rezidenturaya qəbul olub. Baza ali tibb təhsili istiqamətləri üzrə rezidenturaya qəbul olan namizədlərin sayı haqqında statistik məlumat 3.10 saylı cədvəldə təqdim edilib.

Cədvəl 3.10

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ QƏBUL OLANLARIN SAYI HAQQINDA MƏLUMAT

İstiqamət	Qəbul planı*	Qəbul olanların sayı			Qəbul olub (%)
		Azərbaycan bölməsi	Rus bölməsi	Cəmi	
I. Müalicə işi, pediatriya	423 (48)**	320 (25)	28 (0)	348 (25)	82.27 (52.08)
II. Stomatologiya	32 (0)	14 (0)	3 (0)	17 (0)	53.13 (---)
III. Tibbi profilaktika	53 (0)	53 (0)	0 (0)	53 (0)	100.00 (---)
C Ə M İ	**508 (48)**	**387 (25)**	**31 (0)**	**418 (25)**	**82.28 (52.08)**

*Birgə müsabiqə aparılan ixtisaslar üzrə qəbul olanların paylanması nəzərə alınaraq əsas (baza ali) tibb təhsili istiqamətlərinin qəbul planları dəqiqləşdirilib (bax: cədvəl 3.3).

**Mötərizədə o cümlədən hərbi tibb fakültəsi üzrə məlumat verilmişdir.

Cədvəldən göründüyü kimi, yalnız tibbi profilaktika istiqaməti üzrə qəbul planı tam dolub. Qəbul planı ümumilikdə 82.28%, o cümlədən müalicə işi, pediatriya istiqaməti üzrə 82.27%, stomatologiya istiqaməti üzrə 53.13% dolub.

Rezidenturaya sənəd verənlərin 447 nəfərini əsas (baza ali) tibb təhsilini cari ildə başa vuranlar (31.77%-i oğlanlar, 68.23%-i qızlar) təşkil edib. Tibb təhsili istiqamətləri üzrə onların paylanması belədir: Müalicə işi, pediatriya – 346 nəfər, stomatologiya – 35 nəfər və tibbi profilaktika – 66 nəfər. Cari ilin məzunlarından qəbul imtahanının I mərhələsində 435, II mərhələsində isə 280 nəfər iştirak edib və onların 217 nəfəri (istiqamətlər üzrə, müvafiq olaraq, 178, 8 və 31 nəfər) rezidenturaya qəbul olub. Cari ilin məzunlarının rezidenturaya qəbulolma göstəriciləri tam seçməyə nəzərən yüksək olub – 49.89%. Rezidenturaya qəbul olan məzunların 27.65%-ni oğlanlar, 72.35%-ni isə qızlar təşkil ediblər.

Əsas (baza ali) təhsili istiqamətləri üzrə rezidenturaya sənəd verən və qəbul olan oğlan və qız namizədlərin sayı barədə məlumat 3.11 saylı cədvəldə göstərilib. Rezidenturaya sənəd verən və qəbul olan namizədlərin seçmələrində oğlan və qızların sayca nisbi çəkilərində qismən dəyişiklik baş verib. Belə ki, rezidenturaya sənəd verən namizədlərin 37.49%-ni oğlanlar, 62.51%-ni qızlar təşkil etdiyi halda, qəbul olanlar seçməsində namizədlərin 32.06%-i oğlanlar, 67.94%-i isə qızlardır. Qəbul imtahanında iştirak edən qız namizədlərin rezidenturaya qəbulolma göstəriciləri (38.12%), oğlan namizədlərin qəbulolma göstəricilərindən (30.52%) yüksəkdir.

Cədvəl 3.11

ƏSAS (BAZA ALİ) TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ ƏRİZƏ VERƏN VƏ QƏBUL OLAN OĞLAN VƏ QIZ NAMİZƏDLƏRİN SAYI HAQQINDA MƏLUMAT

İstiqamət	Ərizə verən				Qəbul olan			
	oğlanların		qızların		oğlanların		qızların	
	sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi
I. Müalicə işi, pediatriya	423	40.36	625	59.64	116	33.33	232	66.67
II. Stomatologiya	27	32.14	57	67.86	8	47.06	9	52.94
III, Tibbi-profilaktika	25	18.52	110	81.48	10	18.87	43	81.13
C Ə M İ	**475**	**37.49**	**792**	**62.51**	**134**	**32.06**	**284**	**67.94**

Rezidenturaya qəbul olan namizədlərin topladıqları balların paylanma diaqramı 3.6 saylı şəkildə təqdim olunub. Diaqramdan görünür ki, qəbul olanların 43.30%-nin topladığı bal 50-59, 55.98%-nin topladığı bal isə 60-79 bal diapazonlarında yerləşir. Qeyd edək ki, maksimal toplanıla bilən bal 100-ə bərabər olub.

QƏBUL OLAN NAMİZƏDLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.6

Klinik bazalar üzrə rezidenturaya qəbul olan namizədlərin sayı və orta bal göstəriciləri 3.12 saylı cədvəldə təqdim edilib. Cədvəldən aydın olur ki, Azərbaycan Tibb Universitetinə qəbul olan namizədlərin qəbul imtahanında topladıqları balların orta qiymətləri (həmin tibb müəssisələrinə qəbul olanları təmsil edən ortastatisik namizədlərin qəbul imtahanında topladıqları ballar) ən yüksəkdir. Bu klinik bazaya daxil olan ortastatistik namizədin balı 62.195-ə bərabər olub. Nisbətən zəif hazırlıqlı namizədlər Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinə (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi sistemləri üçün) qəbul olublar (ortastatistik namizədlərin qəbul imtahanında topladıqları ballar, müvafiq olaraq, 56.588 və 56.875-ə bərabərdir). Nəzərə almaq lazımdır ki, Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinin məzunlarından təyinatla müxtəlif hərbi hissələrdə, eləcə də cəbhə bölgələrində ən azı 3 il işləyənlər sənəd vermək hüququ əldə edirlər.

Azərbaycan Tibb Universitetində 40 yer (bu təhsil müəssisəsi üçün ayrılmış plan yerlərinin 12.82%), akademik Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda 23 yer (17.97%), Naxçıvan Dövlət Universitetində 4 yer (20.00%), Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsində (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi sistemi üçün) 2 yer (20.00%) və Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsində (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sistemi üçün) 21 yer (bu təhsil müəssisəsi üçün ayrılmış plan yerlərinin 55.26%) boş qalmışdır.

Cədvəl 3.12

KLİNİK BAZALAR ÜZRƏ REZİDENTURAYA QƏBUL OLAN NAMİZƏDLƏRİN SAYI VƏ ORTA BAL GÖSTƏRİCİLƏRİ

	Tibb müəssisələri	Qəbul planı	Qəbul olanların sayı			Orta bal
			oğlan	qız	cəmi	
1	Azərbaycan Tibb Universiteti	312	75	197	272	62.195
	Hərbi Tibb Fakültəsi (Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi sistemi üçün)	10	8	0	8	56.875
	Hərbi Tibb Fakültəsi (Azərbaycan Respublikasının Müdafiə Nazirliyi sistemi üçün)	38	17	0	17	56.588
2	Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu	128	29	76	105	60.295
3	Naxçıvan Dövlət Universiteti	20	5	11	16	59.188
C Ə M İ		**508**	**134**	**284**	**418**	**61.273**

Fənlər üzrə elmi-metodik təhlil və tövsiyələr

Dünyada tüğyan edən yeni növ koronavirus (COVID-19) pandemiyasının törətdiyi çətinliklərə baxmayaraq, Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələri nəzərə alınmaqla və profilaktik tədbirlərə riayət edilməklə Azərbaycan Tibb Universitetinin professor-müəllim heyətinin iştirakı ilə 2020/2021-ci tədris ili üçün rezidenturaya qəbul imtahanlarında istifadə olunmuş test tapşırıqlarının elmi-statistik təhlili aparılmışdır: ayrı-ayrı test tapşırıqları üzrə namizədlərin əldə etdikləri nəticələr təhlil edilib, onların cavablandırmaqda çətinlik çəkdikləri test tapşırıqları müzakirə olunub, tapşırıqların nisbətən çətin cavablandırılmasının səbəbləri araşdırılıb, bu səbəblərin aradan qaldırılması üçün müvafiq təklif və tövsiyələr hazırlanıb. Təhlillərdən əldə olunan nəticələr test bankının təkmilləşdirilməsi və zənginləşdirilməsi sahəsində işlər aparılarkən nəzərə alınır.

Qeyd etmək lazımdır ki, rezidenturaya qəbul imtahanı proqramları, eləcə də qəbul imtahanında istifadə olunacaq test tapşırıqlarının tipi və mürəkkəblik dərəcəsi haqqında məlumat (test tapşırığı nümunələri) ilin əvvəlində "Abituriyent" jurnalının xüsusi buraxılışı olan "Rezidentura" jurnalının 1-ci və 2-ci saylarında dərc edilmişdir.

2020/2021-ci tədris ili üçün rezidenturaya qəbul imtahanlarında da ayrı-ayrı fənlər üzrə istifadə olunan test tapşırıqlarının mövzu və bölmələr üzrə paylanmasında onların nəzəri və praktiki əhəmiyyəti nəzərə alınmışdır. Bütün istiqamətlər üzrə test blokuna terminoloji, faktoloji, ümumiləşdirmə, izahat tələb edən, uyğunluğun müəyyən edilməsi və təklif olunan fəaliyyət kateqoriyalı, çətinlik dərəcəsinə görə sadə, orta və mürəkkəb olan test tapşırıqları daxil edilmiş, bununla da namizədlərin qəbul proqramı üzrə materialı necə mənimsədiyini dəqiq qiymətləndirmək, eləcə də bilik və bacarıqlarını tətbiq etmək qabiliyyətlərini yoxlamaq mümkün olmuşdur.

Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında istifadə olunan 100 (yüz) test tapşırığından 10 test tapşırığı (insan fiziologiyası fənni və patologiya bloku – patoloji fiziologiya və patoloji anatomiya – üzrə) açıq tipli olmuşdur.

İxtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında da istifadə olunan 100 (yüz) test tapşırığından 5-i (müalicə işi, pediatriya istiqaməti üzrə daxili xəstəliklər blokundan, stomatologiya istiqaməti üzrə terapevtik stomatologiya fənnindən, tibbi profilaktika istiqaməti üzrə epidemiologiya fənnindən) açıq tipli olmuşdur.

Baza fənləri üzrə namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri bəzi test tapşırıqlarının izahını təqdim edirik.

İnsan anatomiyası fənni üzrə "Damar sistemi haqqında məlumat", "Mərkəzi sinir sisteminin anatomiyası", "Gövdənin əzələlərinin və fassiyalarının morfofunksional anatomiyası", "Daxili orqanlar. Həzm sistemi orqanlarının morfofunksional anatomiyası", "Kiçik və böyük qan dövranı damarları", "Yuxarı və aşağı boş vena sistemləri", "Duyğu orqanlarının morfofunksional anatomiyası", "Dayaq hərəkət aparatı, sümük və birləşmələr sistemi", "Cinsiyyət və endokrin orqanlarının morfofunksional anatomiyası", "Limfa və immun sistemi orqanları", "Ətraf əzələlərinin və fassiyalarının morfofunksional anatomiyası", "Periferik

sinir sisteminin anatomiyası", "Yuxarı ətraf sümükləri və onların birləşmələri" bölmələri üzrə bilikləri yoxlayan test tapşırıqları təqdim edilmişdi. Elmi-metodik təhlil zamanı məlum olmuşdur ki, müalicə işi, pediatriya istiqaməti üzrə ***insan anatomiyası*** fənninin "Ətraf əzələlərinin və fassiyalarının morfofunksional anatomiyası" bölməsi üzrə təqdim olunan test tapşırığının cavablandırılmasında namizədlər daha çox çətinlik çəkmişlər. Həmin test tapşırığının şərhini təqdim edirik.

B variantı, 1 saylı test tapşırığı

Dizaltı-baldır kanalının ön divarını əmələ gətirir:

A) baldır fassiyası

B) barmaqları açan uzun əzələ

C) arxa qamış əzələsi

D) ayaq baş barmağını bükən uzun əzələ

E) barmaqları bükən uzun əzələ

Namizədlərin 19,59%-i tərəfindən doğru cavablandırılan bu test tapşırığı orta çətinlik dərəcəsinə malikdir. (doğru cavab: C).

Dizaltı-baldır kanalı baldırın arxa qrup səthi və dərin əzələləri arasında yerləşir. Bu kanal əzələlərin arası ilə aşağı gedir, daban vətərinin yuxarı və içəri tərəfində tamamlanır. Bu kanaldan qamış siniri, arxa qamış arteriyası və venası keçir. Dizaltı-baldır kanalının ön və arxa divarları vardır. Ön divarını arxa qamış əzələsi, arxa divarını isə baldır fassiyası əmələ gətirir (bax: Şadlinski V.B., Qasımov Ş.İ., İsayev A.B., Hüseynov B.M. İnsan anatomiyası. Rezidenturaya hazırlaşanlar üçün vəsait. TQDK – "Abituriyent", Bakı: 2015, s. 164; Шадлинский В.Б., Касумов Ш.И., Исаев А.Б., Гусейнов Б.М. Анатомия человека /пособие для поступающих в резидентуру. ГЭЦ: Print House Poliqrafaz, Баку: 2020, с. 163).

Namizədlərin 17,36%-nin doğru cavab kimi seçdiyi barmaqları açan uzun əzələ (B cavab variantı) ön qamış əzələsindən içəridə yerləşir, qamış sümüyünün bayır kondilusundan, incik sümüyü cisminin başından və ön səthindən, sümükarası zardan və baldır fassiyasından başlayır, aşıq oynağına çatmamış dörd vətərə bölünür.

Ayaq baş barmağını bükən uzun əzələ (D cavab variantı) incik sümüyü cisminin aşağı 1/3 hissəsindən, sümükarası zardan, baldırın arxa əzələarası çəpərindən başlayır, aşağıda bükücüləri saxlayan bağın altındakı kanal ilə daban və aşıq sümükləri üzərindəki şırımdan ayaq altına keçir və baş barmağın distal falanqasına bağlanır. Bu cavab variantı namizədlərin 14,01%-i tərəfindən doğru cavab kimi qəbul edilmişdir.

E cavab variantında verilmiş və namizədlərin 14,97%-i tərəfindən doğru cavab hesab edilmiş barmaqları bükən uzun əzələ qamış sümüyünün arxa səthinin orta hissəsindən, baldır fassiyasının dərin səfhəsindən və əzələarası çəpərindən başlayır. Baldırın distal ucunda içəri topuğun arxasında eyniadlı kanaldan ayağın arxasına keçir, ayaqaltı əzələ ilə birləşir və dörd vətərə ayrılır.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, namizədlərin bu test tapşırığını cavablandırarkən səhvə yol vermələrinin səbəbi dizaltı-baldır kanalının topoqrafiyası barədə kifayət qədər məlumatlı olmamalarıdır.

2020-ci ildə də ***histologiya*** fənni üzrə sitologiya, embriologiya, ümumi və xüsusi histologiya üzrə 7 test tapşırığı təqdim edilmişdir. Bu tapşırıqlar "Hüceyrə, plazmolemma, sitoskelet, orqanellər və əlavələr. Nüvə. Hüceyrə tsikli. Mitoz", "Toxumalar: təsnifatı, quruluş-funksiya səciyyəsi", "Həzm, tənəffüs sistemi orqanlarının ümumi quruluş-funksiya səciyyəsi" və s. bölmələri əhatə etmişdir. Elmi-metodik təhlil zamanı aşkar olunmuşdur ki, bu il də namizədlər histologiya fənni üzrə təqdim olunan bir çox test tapşırıqlarının cavablandırılmasında çətinlik çəkmişlər. Bu fənn üzrə namizədlərin cavablandırmaqda daha çox çətinlik çəkdikləri (müalicə işi, pediatriya istiqaməti üzrə) test tapşırığının şərhini təqdim edirik:

B variantı, 19 saylı test tapşırığı

Spermatogenez prosesi zamanı I meyozun sonunda əmələ gələn hüceyrələr:

A) 1-ci dərəcəli spermatositlər

B) B tipli spermatoqonilər

C) A tipli açıq spermatoqonilər

D) spermatidlər

E) 2-ci dərəcəli spermatositlər

Test tapşırığı "Embriologiya bioloji inkişafın bir hissəsi kimi. Progenez. Meyoz. Hüceyrənin diferensiasiyası, ölümü" bölməsinə aiddir, çətinlik dərəcəsinə görə sadədir. Test tapşırığını namizədlərin 11,46%-i doğru cavablandırmışdır (doğru cavab: E). Namizədlərin 38,22%-i A, 11,15%-i B, 25,16%-i C və 14,01%-i isə D cavab variantlarını seçmişlər.



Spermatogenez kişi cinsi hüceyrələrinin yaranması prosesidir, cinsi yetkinlik dövründə başlayır. Spermatogenezin 3 mərhələsi ayırd edilir: spermatoqonilərin mitoz bölünməsi, spermatositlərin meyoz bölünməsi və spermiogenez (spermatidlərin spermatozoidlərin əmələ gəlməsi ilə nəticələnən diferensiasiyası).

Spermatogenezin başlanğıc mərhələsi spermatoqonilərin çoxalmasıdır. A və B tipli spermatoqonilər ayırd edilir, həmçinin, A tipli spermatoqonilər arasında açıq və tünd hüceyrələr müəyyən olunur. A tipli tünd hüceyrələr ləng yenilənən, rezerv (ehtiyat) kök hüceyrələrə aid edilir. A tipli açıq spermatoqonilərin mitoz bölünməsi nəticəsində B tipli spermatoqonilər əmələ gəlir. B tipli spermatoqonilər mitoz yolla bölünür, böyümə mərhələsinə daxil olaraq, 1-ci dərəcəli spermatositlərə (birincili spermatositlər) diferensiasiya edir. Birincili spermatositlər isə meyozun birinci bölünməsinə daxil olur və 2-ci dərəcəli spermatositlər (ikincili spermatositlər) əmələ gəlir. Meyozun ikinci bölünməsi zamanı 2-ci dərəcəli spermatositlərdən spermatidlər yaranır. Sonra spermiogenez nəticəsində spermatozoidlər formalaşır. Deyilənlər şəkildə sxematik olaraq göstərilmişdir.

Test tapşırığını düzgün cavablandırmaq üçün embriologiya, xüsusilə də meyoz bölünmə, eləcə də kişi cinsiyyət orqanları bölmələri üzrə bilikləri ümumiləşdirmək tələb olunur (bax: Xüsusi histologiya /prof. E.K Qasımovun redaktəsi ilə. Bakı: Azərnəşr, 2015, s.206; Султанова Т.А., Эюбова Г.М., Наджафова Т.М. Гистология (цитология, эмбриология, общая и частная гистология /пособие для поступающих в резидентуру. ГЭЦ: Print House Poliqrafaz, Баку: 2019, с. 516-517).

İnsan fiziologiyası fənnindən "Tənəffüs sisteminin fiziologiyası", "Ali sinir fəaliyyəti", "İfrazat sisteminin fiziologiyası", "Qan sisteminin fiziologiyası", "Orqanizmin inteqrativ fəaliyyəti", "Həzm sisteminin fiziologiyası", "Əzələlərin fiziologiyası", "Vegetativ funksiyaların sinir tənzimi", "Maddələr və enerji mübadiləsi. Qidalanma" və s. mövzular üzrə bilik və bacarıqları yoxlayan test tapşırıqları təqdim edilmişdir. Namizədlər müalicə işi, pediatriya istiqaməti üzrə daha çox "Orqanizmin inteqrativ fəaliyyəti" bölməsinə aid olan test tapşırığının həllində çətinlik çəkmişlər. Həmin test tapşırığının şərhini təqdim edirik.

B variantı, 87 saylı test tapşırığı

Afferent sintezin neyrofizioloji əsasını təşkil edən mexanizmlərə aid ***deyil***:

A) beyin qabığının qabıqaltı törəmələrə enən təsiri

B) beyin qabığı neyronlarında oyanmanın konvergensiyasının mexanizmi

C) beyin qabığına qabıqaltı törəmələrin qalxan aktivləşdirici təsiri

D) beyin qabığı ilə qabıqaltı törəmələr arasında oyanmaların reverberasiyası

E) retikulyar formasiyanın beyin qabığına tormozlayıcı təsiri

Test tapşırığı çətinlik dərəcəsinə görə mürəkkəbdir. Test tapşırığını namizədlərin 29,78%-i doğru cavablandırmışdır (doğru cavab: E). Namizədlərin 38,69%-i A, 7,01%-i B, 14,81%-i C və 7,80%-i D cavab variantlarını yanlış olaraq seçmişlər.

Test tapşırığının doğru cavablandırılması üçün "Davranış və psixi fəaliyyət" fəslində "Davranış aktlarının sistem arxitektonikası" mövzusu üzrə əldə olunmuş biliklərin tətbiqi tələb olunur. Afferent sintezin neyrofizioloji əsasını təşkil edən mexanizmlərə aiddir:

- qabıqaltı törəmələrin baş beyin qabığına qalxan oyandırıcı təsiri;
- qabıqaltı törəmələrə qabığın enən təsiri;

- qabıq və qabıqaltı törəmələr arasında oyanmaların reverberasiyası;
- baş beyin qabığının neyronlarında müxtəlif sensor və bioloji keyfiyyətli oyanmaların konvergensiyası;
- mərkəzi ləngimə mexanizmləri.

"Yuxunun neyrofizioloji əsasları" mövzusunda isə göstərilmişdir ki, retikulyar formasiyanın beyin qabığına fəallaşdırıcı təsiri aradan götürüldükdə yuxu törənir və bu zaman ətraf aləmlə hər hansı bir şərti reflektoru əlaqə olmur, o cümlədən afferent sintez baş vermir.

Fikrimizcə, dərsliklərdə və rezidenturaya hazırlaşanlara kömək məqsədi ilə DİM-də tərtib olunmuş vəsaitdə kifayət qədər məlumat verilməsinə baxmayaraq namizədlərin əksər hissəsi afferent sintezin neyrofizioloji əsasını təşkil edən mexanizmləri fərqləndirə bilməmişlər (bax: Məmmədov A.M., Sudakov K.V. Normal fiziologiya (2 cilddə). Bakı: Təbib, 2011, II cild s. 314; Судаков К.В. Нормальная физиология. М.: Мед.инф. агентство, 2006, с.617; Бахшиева З.Т., Рустам-заде А.Ш., Алиев А.Х., Гасанова Г.А. Нормальная физиология /пособие для поступающих в резидентуру. ГЭЦ: Print House Poliqrafaz, Баку: 2019, с. 505; Sudakov K.V. Normal fiziologiya. Bakı: Təbib, 2011, 560).

Patologiya bloku üzrə ***patoloji fiziologiya*** fənnində "Sinir sisteminin patofiziologiyası", "İrsiyyətin və konstitusiyanın patologiyada rolu", "Zülal mübadiləsinin pozulmaları", "Böyrəklərin patofiziologiyası", "Mikrosirkulyasiyanın və yerli qan dövranının pozulması", "Allergiya", "Həzm sisteminin patofiziologiyası", "Toxuma inkişafının patologiyası. Şişlər", "Koma və kollaps", "Qanın fiziki-kimyəvi xassələrinin pozulması" və s. mövzular üzrə bilik və bacarıqları yoxlamağa imkan verən test tapşırıqlarından istifadə edilmişdir. Aparılmış elmi-metodik təhlil zamanı aşkar olunmuşdur ki, müalicə işi, pediatriya istiqaməti üzrə "Həzm sisteminin patoloji fiziologiyası" bölməsinə aid olan test tapşırığının cavablandırılmasında da namizədlər çətinlik çəkmişlər. Həmin test tapşırığının şərhini təqdim edirik.

B variantı, 73 saylı test tapşırığı

Neyrodinamik anoreksiya müşahidə olunur:

A) mənfi emosiyalar zamanı

B) şizofreniya zamanı

C) xronik böyrək çatışmazlığı zamanı

D) depressiya zamanı

E) miokard infarktı zamanı

Təqdim olunan test tapşırığı orta çətinlik dərəcəsinə malikdir və namizədlərin 5,89%-i tərəfindən doğru cavablandırılmışdır (doğru cavab: E).

Anoreksiya iştahanın itməsinə deyilir. Anoreksiyanın aşağıdakı növləri ayırd edilir:

- intoksikasion anoreksiya - əsasını qida mərkəzinin oyanma qabiliyyətinin azalması təşkil edir. Kəskin və xronik zəhərlənmələr (məsələn, civə duzları, dərman preparatları: ürək qlikozidləri, yuxugətiricilər, narkotik maddələr ilə zəhərlənmələr və s.), ağır xəstəliklər (şişlər, infeksiyalar), xronik böyrək çatışmazlığı və s. zamanı inkişaf edir;
- dinamik (dispepsik) anoreksiya – mədə-bağırsaq traktı və hepatobiliar sistemin xəstəlikləri zamanı meydana çıxır. Əksər hallarda şərti-reflektor xarakter daşıyır;
- neyrogen anoreksiya – mənfi emosiyalar, stress vəziyyətlər, emosional gərginlik zamanı yaranır;
- neyrodinamik anoreksiya – limbik sistem strukturlarının həddən artıq oyanması fonunda iştaha mərkəzinin resiprok tormozlanması nəticəsində inkişaf edir. Anoreksiyanın bu növü qusma, ağrı (məsələn, qaraciyər, böyrək ağrıları, miokard infarktı) zamanı meydana çıxır;
- psixogen anoreksiya – psixi pozulmalar (şizofreniya və s.), həmçinin şüurlu surətdə qidadan imtina etmə zamanı (arıqlama məqsədi ilə) inkişaf edir;
- neyroendokrinopatik anoreksiya – mərkəzi sinir sisteminin üzvi zədələnmələri və endokrin xəstəliklər (hipofizar kaxeksiya, Addison xəstəliyi) zamanı müşahidə olunur.

Qeyd olunanlar belə nəticəyə gəlməyə əsas verir ki, test tapşırığının A cavab variantında göstərilən mənfi emosiyalar zamanı neyrogen, B cavab variantında qeyd olunan şizofreniya zamanı psixogen, C cavab variantında verilən xronik böyrək çatışmazlığında isə intoksikasion anoreksiya inkişaf edir. D cavab variantında göstərilən depressiyalar zamanı isə beyində serotoninin miqdarı azalır. Nəticədə aclıq mərkəzi oyanır, aclıq hissi yaranır, iştaha artır. Bu isə hiperfagiyanın (qida qəbulunun artması) inkişafına səbəb olur. Test tapşırığının E cavab variantında göstərilən miokard infarktı isə neyrodinamik anoreksiya ilə müşayiət olunur (bax: Новицкий В.В., Гольдберг Е.Д., Уразова О.И. Патофизиология. Том 2. М.: ГЭОТАР-

Медиа, 2010, с.318). Test tapşırığı aydın və lakonik şəkildə tərtib edilmiş, cavablar elmi cəhətdən düzgün əsaslandırılmışdır.

Bu test tapşırığı haqqında qəbul proqramında verilmiş ədəbiyyat siyahısında olan yalnız bir dərslikdə (rus dilində) ətraflı məlumat verilmişdir. Namizədlərin bu tapşırığın cavablandırılmasında çətinlik çəkmələrini onların daha müasir məlumatları özündə əks etdirən xarici dillərdə olan dərslikləri az oxumaları, ya da ümumiyyətlə oxumamaları ilə izah etmək olar.

Patologiya blokunda ***patoloji anatomiya*** fənni üzrə "Revmatik xəstəliklər", "Həzm traktı xəstəlikləri", "Sepsis", "Qan və limfa dövranı pozğunluqları", "Daxili cinsiyyət üzvlərinin və süd vəzilərinin xəstəlikləri. Hamiləlik patologiyaları", "Ürək-damar sistemi xəstəlikləri", "Hüceyrə ölümü (nekroz və apoptoz). Ölüm, meyit əlamətləri", "Parenximatoz, mezenximal və qarışıq distrofiyalar", "Tənəffüs sistemi xəstəlikləri. Peşə xəstəlikləri" və s. bölmələr üzrə bilik və bacarıqları yoxlamağa imkan verən test tapşırıqlarından istifadə edilmişdir.

Müalicə işi, pediatriya istiqaməti üzrə namizədlərin cavab verməkdə çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik.

B variantı, 62 saylı test tapşırığı

Xronik qastritin morfoloji formaları:

1. Atrofik
2. Fleqmanoz
3. Fibrinoz
4. Səthi
5. Destruktiv

A) 2, 3 B) 1, 5 C) 3, 5 D) 2, 4 E) 1, 4

Test tapşırığı "Həzm traktı xəstəlikləri" bölməsinə aiddir, çətinlik dərəcəsinə görə sadədir. Test tapşırığı namizədlərin 38,06%-i tərəfindən doğru cavablandırılmışdır (doğru cavab: E). Namizədlərin 39,17%-i B, 10,03%-i C, 2,87%-i D və 9,39%-i isə A cavab variantlarını yanlış olaraq seçmişlər.

Test tapşırığının həlli üçün iltihab prosesinin xarakterindən və morfoloji xüsusiyyətlərindən asılı olaraq kəskin və xronik qastritlərin formaları barədə biliklərin ümumiləşdirilməsi tələb olunur.

Kəskin qastritin formalarına aiddir:

- Kəskin kataral qastrit;
- Kəskin fibrinoz qastrit;
- Kəskin irinli (fleqmanoz) qastrit;
- Kəskin nekrotik (destruktiv) qastrit.

Xronik qastritin aşağıdakı morfoloji formaları ayırd edilir:

- Xronik səthi qastrit;
- Xronik atrofik qastrit;
- Xronik hipertrofik qastrit (hipertrofik qastropatiya).

Bundan əlavə, xronik qastritin nadir formalarına da (qranulomatoz, polipoz, kistoz, eozinofil qastritlər və s.) rast gəlinir.

Təhlil zamanı aydın olmuşdur ki, namizədlərin əksər hissəsi atrofik qastritin xronik qastritin morfoloji forması olduğunu bilsə də, səthi və destruktiv qastritlərin kəskin və ya xronik qastritə aid olduğunu müəyyən edə bilməmişlər. Nəticədə namizədlərin bir çoxu destruktiv qastriti xronik qastritə aid etmişdir. Kəskin nekrotik (destruktiv) qastrit, adətən, turşuların, qələvilərin və bu kimi aşılayıcı yerli destruktiv təsirə malik digər kimyəvi maddələrin təsirindən baş verir. Mədəyə daxil olan bu maddələrin miqdarından və qatılığından asılı olaraq mədə divarındakı nekrozun dərinliyi müxtəlif olur. Belə hallar, adətən, ölümlə nəticələnir, sağaldıqda isə mədə divarında eroziya və kəskin xoralara, kobud sklerotik dəyişikliklərə səbəb olur.

Test tapşırığının həllinin nəticələrinin statistik təhlili göstərir ki, bu mövzunun dərsliklərdə (bax: Həsənov Ə.B. Patoloji anatomiya. Dərslik. Bakı: Elm, 2003, s. 407; Серов В.В., Струков А.И. Патологическая анатомия. М.: Медицина 1995, с. 348) ətraflı işıqlandırılmasına baxmayaraq, biliklərini kifayət qədər ümumiləşdirə bilmədikləri üçün namizədlərin bir hissəsi xronik və kəskin qastritlərin ayrı-ayrı formalarını fərqləndirə bilməmişlər.

Mikrobiologiya fənni üzrə təqdim olunmuş test tapşırıqları ümumi və xüsusi mikrobiologiya, xüsusi virusologiya, tibbi mikologiya, tibbi parazitologiya, eləcə də klinik mikrobiologiya sahəsində namizədlərin bilik və bacarıqlarını yoxlamağa imkan vermişdir. Test tapşırıqları "RNT-tərkibli viruslar", "Aerob və fakultativ-anaerob qram müsbət çöpvari bakteriyalar", "Patogen rikketsiyalar. Patogen mikoplazmalar", "Qram mənfi aerob çöpvari bakteriyalar", "Mikroorqanizmlərin irsiyyəti", "Patogen və şərti-patogen mikobakteriyalar. Aktinomisetlər" və s. bölmələr üzrə bilik və bacarıqları yoxlamağa imkan vermişdir.

Təhlilə əsasən belə qənaətə gəlmək olar ki, namizədlər öz nəzəri biliklərini lazımi səviyyədə sistemləşdirə bilmir və nəticədə test tapşırıqlarının cavablandırılmasında çətinlik çəkirlər. Müalicə işi, pediatriya istiqaməti üzrə biliklərin ümumiləşdirilməsini tələb edən test tapşırığının cavablandırılmasında namizədlər daha çox çətinlik çəkmişlər. Həmin test tapşırığının şərhini təqdim edirik.

B variantı, 28 saylı test tapşırığı

Actinomyces israelii üçün ***yanlış*** mülahizədir.

A) Qram müsbət şaxələnən çöp şəklində aşkar edilir.

B) Kapnofildir. C) Katalaza müsbətdir.

D) Penisillinə həssasdır. E) Hifləri arakəsməsizdir.

Bu test tapşırığı "Patogen və şərti-patogen mikobakteriyalar. Aktinomisetlər" bölməsinə aiddir, çətinlik dərəcəsinə görə mürəkkəbdir. Test tapşırığı namizədlərin 19,75%-i tərəfindən doğru cavablandırılmışdır (doğru cavab: C). Namizədlərin 17,68%-i A, 18,63%-i B, 20,06%-i D və 23,09%-i isə E cavab variantlarını yanlış olaraq seçmişlər.

Test tapşırığının həlli üçün aktonomisetlərin bir növü olan *Actinomyces israelii*-nin xüsusiyyətləri haqqında biliklərin ümumiləşdirilməsi tələb olunur. Məlumdur ki, aktinomisetlər qram müsbət çöpvari bakteriyalardır (bax: Qarayev Z.Ö., Qurbanov A.İ. Tibbi mikrobiologiya və immunologiya. Bakı: Təbib, 2010, s. 538-541). Aktinomisetlərin səciyyəvi xüsusiyyəti yaxşı inkişaf etmiş miselilər əmələ gətirmələridir. Miselilərinin hifləri bir sıra dərialtı mikozların (sporotrixoz, xromomikoz) törədicilərindən fərqli olaraq arakəsməsizdir. Namizədlərin əksər hissəsi aktinomisetlərin dərialtı mikozların törədicilərində olduğu kimi arakəsməli miselilərə malik olduğunu hesab etmişlər. Bütün morfoloji formalar həqiqi şaxələnməyə malikdirlər. Aktinomisetlər fakultativ anaerobdurlar, karbon qazı ilə zəngin mühitdə yaxşı inkişaf edirlər (kapnofildirlər). Aktinomisetlərin müxtəlif növlərini diferensiasiya etmək üçün onların biokimyəvi aktivliyinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Məsələn, *Actinomyces israelii* katalaza mənfi, aktinomisetlərin digər bir növü olan *Actinomyces viscosus* isə katalaza müsbətdir. C cavab variantında verilənləri doğru mülahizə hesab etmiş namizədlər aktinomisetlərin növlərini bir-birindən fərqləndirə bilməmiş və səhvə yol vermişlər. Aktinomisetlər penisillinə həssasdır və bu preparat aktinomiset infeksiyası zamanı geniş istifadə olunur (uzunmüddətli tətbiqi qənaətbəxş nəticə verir).

Farmakologiya fənni üzrə təqdim olunmuş test tapşırıqları ötən illərdə olduğu kimi farmakokinetika, farmakogenetika və xronofarmakologiya, qan sisteminə və həzm sistemi orqanlarının motor funksiyasına təsir göstərən dərman maddələri sahəsində, eləcə də dərman maddələrinin təsir mexanizminə dair namizədlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi daşımışdır. Müalicə işi, pediatriya istiqaməti üzrə namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik.

B variantı, 37 saylı test tapşırığı

β_2-adrenomimetik:

A) ipradol B) tolazolin C) tamsulosin

D) dobutamin E) tropafen

Test tapşırığı "Avtonom sinir sisteminə təsir göstərən dərman maddələri" bölməsinə aiddir, çətinlik dərəcəsinə görə sadədir. Test tapşırığı namizədlərin 28,18%-i tərəfindən doğru cavablandırılmışdır (doğru cavab: A). Namizədlərin 7,48%-i B, 13,85%-i C, 44,11%-i D və 6,05%-i isə E cavab variantlarını yanlış olaraq seçmişlər.

Farmakologiya dərsliklərində göstərilən təsnifatlarda İpradol preparatı β_2-adrenomimetiklərə aiddir. Preparatın beynəlxalq adı heksaprenalindir, lakin dərs vəsaitlərində daha çox İpradol kimi qeyd olunur. Məhz β_2-adrenomimetik təsirinə görə preparat bronxial astma, bronxit, bronxoobstruktiv vəziyyətlər zamanı, ginekologiya praktikasında isə tokolitik maddə kimi istifadə olunur.

Namizədlərin əksər hissəsinin seçdiyi Dobutamin isə β_1-adrenomimetikdir və bu preparat tibb praktikasında yalnız kardiotonik maddə kimi istifadə olunur. Dobutaminin β_2-adrenoreseptorlara təsiri zəif və əsas deyil, klinik praktikada bronxolitik və tokolitik kimi istifadə olunmur, β_2-adrenomimetiklər qrupuna daxil deyil. Digər preparatlardan Tamsulozin α_1-adrenomimetik, Tolazolin isə α-adrenoblokatordur.

Test tapşırığının sadəliyini və lakonikliyini nəzərə alaraq, bir daha namizədlərin diqqətinə çatdırmaq istərdik ki, "Farmakologiya" dərsliyindən (bax:Qəniyev M.M. Farmakologiya. Dərslik, 2 cilddə, Bakı: Təbib, 2013, I cild, s.236) istifadə etməklə dərman maddələrinin təsnifatına dair biliklərə yiyələnmək zəruridir. Qeyd etmək lazımdır ki, namizədlər 2019-cu ilin qəbul imtahanında onkoloji xəstəliklərin kimyəvi terapiyasında tətbiq olunan dərman maddələrinin təsnifatına dair olan test tapşırığını da cavablandırmaqda çətinlik çəkmişlər.

Biokimya fənni üzrə statik, dinamik və funksional biokimya sahəsində namizədlərin bilik və bacarıqlarını yoxlayan test tapşırıqları təqdim edilmişdir. Cari ildə biokimya fənni üzrə "Maddələr mübadiləsinin əsas qanunauyğunluqları. Enerji mübadiləsi", "Ağız suyunun və sümük toxumasının biokimyası", "Lipid mübadiləsi", "Karbohidrat mübadiləsi", "Zülal mübadiləsi", "Fermentlər", "Hormonlar", "Nuklein turşularının mübadiləsi", "Qanın biokimyası", "Zülalların kimyası və funksiyası", "Lipidlərin kimyası və funksiyası" və s. mövzuları əhatə edən 13 test tapşırığı təqdim olunmuşdur. Namizədlər "Lipidlərin kimyası və funksiyası" və "Karbohidratların kimyası və funksiyası" bölməsinə aid olan test tapşırıqlarını (müalicə işi, pediatriya istiqaməti) doğru cavablandırmaqda çətinlik çəkmişlər.

Həmin test tapşırıqlarının şərhini təqdim edirik.

B variantı, 56 saylı test tapşırığı

Tərkibində α-vəziyyətlərdə palmitin və araxin, β-vəziyyətdə isə linolen turşuları olan triasilqliserində ikiqat rabitələrin (**a**) və karbon atomlarının (**b**) sayı:

	a	**b**
A)	2	39
B)	4	35
C)	3	54
D)	2	42
E)	3	57

Test tapşırığı "Lipidlərin kimyası və funksiyası" bölməsinə aiddir, çətinlik dərəcəsinə görə mürəkkəbdir. "Baza fənləri üzrə test toplusu"nda nəşr olunmasına baxmayaraq, test tapşırığı namizədlərin 17,04%-i tərəfindən doğru cavablandırılmışdır (doğru cavab: E). Namizədlərin 11,46%-i A, 11,15%-i B, 45,54%-i C və 13,54%-i D cavab variantlarını yanlış olaraq seçmişlər.

Triasilqliserol molekulunda piy turşularının α- və β-vəziyyətdə yerləşmələri bu turşuların tərkibindəki ikiqat rabitələrin və karbon atomlarının sayına təsir göstərmir. Bu turşulardan linolen turşusu doymamış turşu olub, molekul strukturunda 3 ikiqat rabitəyə malikdir. Doymuş turşuların nümayəndələri olan palmitin və araxin turşularında isə ikiqat rabitə yoxdur (İslamzadə F., Əfəndiyev A. və b. İnsan biokimyasının əsasları: Dərslik, I cild, Bakı: Müəllim, 2015, s.67-68; Гасанова Ш.И., Азизова Г.И. Биологическая химия /пособие для поступающих в резидентуру. ГЭЦ: Print House Poliqrafaz, Баку: 2019, с. 86-87). Deməli, test tapşırığında qeyd olunan ikiqat rabitələrin sayı 3-dür. Palmitin, araxin və linolen turşularının quruluşlarında, müvafiq olaraq, 16, 20 və 18 karbon atomu vardır. Qliserin molekulunda 3 karbon atomunun olduğunu da nəzərə alsaq, karbon atomlarının ümumi sayı 57 (16+20+18+3=57) olacaqdır.

B variantı, 55 saylı test tapşırığı

Saxarozanın tərkibinə daxildir:

A) 3→4-qlikozid rabitəsi

B) 1→6-qlikozid rabitəsi

C) 1→2-qlikozid rabitəsi

D) peptid rabitəsi

E) 1→4-qlikozid rabitəsi

Test tapşırığı “Karbohidratların kimyası və funksiyası” bölməsinə aiddir, çətinlik dərəcəsinə görə sadədir. Test tapşırığı namizədlərin 30,10%-i tərəfindən doğru cavablandırılmışdır (Doğru cavab: C). Namizədlərin 7,12%-i A, 28,18%-i B, 3,66%-i D və 30,41%-i isə E cavab variantlarını yanlış olaraq seçmişlər.

Saxarozanın molekul strukturu α-D-qlükopiranoza və β-D-fruktofuranozadan ibarətdir. Qlükozanın 1-ci, fruktozanın 2-ci vəziyyətdə olan karbon atomları funksional karbonil qrupuna malikdir (bax: İslamzadə F., Əfəndiyev A. və b. İnsan biokimyasının əsasları: Dərslik, I cild, Bakı: Müəllim, 2015, s.46; Qarayev A.N. Bioloji kimya. Rezidenturaya hazırlaşanlar üçün vəsait. TQDK – “Abituriyent”, Bakı: 2016, s. 20, 73-74). Onlar 1→2 qlikozid rabitəsi vasitəsilə birləşdiyindən saxaroza kimyəvi quruluşuna görə α-D-qlükopiranozil-(1→2)-β-D-fruktofuranozid adlanır.



Saxaroza

α-D-qlükopiranozil-(1→2)-β-D-fruktofuranozid

Cari ildə də baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında patoloji fiziologiya və normal fiziologiya fənləri üzrə ayrılıqda 5 test tapşırığı (cəmi 10 test tapşırığı) açıq tipli olmuşdur. Açıq tipli test tapşırıqlarından hər fənn üzrə ayrılıqda 2-si uyğunluğun müəyyən edilməsi, 3-ü isə seçim tipli test tapşırıqlarına aid olmuşdur. İmtahanlarda açıq formalı test tapşırıqlarından istifadə olunması əzbərçiliyin və verilmiş cavablardan birinin təsadüfi şəkildə seçilməsinin qarşısını almaq məqsədi daşıyır. Açıq tipli test tapşırıqları mürəkkəblik dərəcəsinə görə orta və çətin olmuşdur. Qeyd etmək lazımdır ki, belə test tapşırıqları namizədlərdən nəzəri biliklərini tətbiq etməklə nəticə çıxarmağı tələb edir.

Təhlillər göstərmişdir ki, namizədlər açıq tipli test tapşırıqlarının həllində hər il olduğu kimi cari ildə də çətinlik çəkmişlər. Buna misal olaraq (müalicə işi, pediatriya istiqaməti), patologiya bloku üzrə ***patoloji fiziologiya*** fənnindən təqdim olunmuş və namizədlərin cavab verməkdə çətinlik çəkdikləri seçim tələb edən test tapşırığının şərhini təqdim edirik.

B variantı, 82 saylı test tapşırığı

İrsi koaqulopatiyaları müəyyən edin:

1. Rozental xəstəliyi
2. Qlansman-Negeli trombasteniyası
3. Randyu-Osler sindromu
4. Kristmas xəstəliyi
5. Verlhof xəstəliyi

Açıq tipli test tapşırığı “Qan sisteminin patoloji fiziologiyası” bölməsinə aid olub, orta çətinlik dərəcəsinə malikdir. Namizədlərin yalnız 9,39%-i tərəfindən doğru cavablandırılmışdır (doğru cavab: 1,4).

Orqanizmdə hemostaz sisteminin funksional vəziyyətini damar divarı, trombositlər və laxtalanma-əks-laxtalanma-fibrinoliz sistemi müəyyən edir. Hemostaz sisteminin patologiyalarına məhz bu 3 komponentin pozulması ilə müşayiət olunan xəstəliklər zamanı rast gəlinir.

Hemostaz pozulmalarının böyük bir qrupu laxtalanma-əks-laxtalanma-fibrinoliz sisteminin (koaqulyasion hemostaz) zədələnməsi ilə əlaqədardır. Bu sistemin patologiyalarının irsi və qazanılmış olmaqla iki qrupu ayırd edilir. İrsi koaqulopatiyalara hemofiliya A, B, C, afibrinogenemiya və s. aiddir. Hemofiliya A qanda VIII, hemofiliya B (Kristmas xəstəliyi) IX, hemofiliya C (Rozental xəstəliyi) isə XI laxtalanma amilinin çatışmazlığı nəticəsində yaranır. Koaqulopatiyaların qazanılmış formaları isə K hipo- və avitaminozu, qaraciyər xəstəlikləri və s. fonunda inkişaf edir.

Beləliklə, test tapşırığında göstərilən Rozental xəstəliyi (hemofiliya C) və Kristmas xəstəliyi (hemofiliya B) irsi koaqulopatiyalara aiddir. Test tapşırığının digər cavab variantlarında göstərilən Qlansman-Negeli trombasteniyası, Verlhof xəstəliyi, Randyu-Osler sindromu isə hemostazın damar-trombosit mexanizminin zədələnməsi ilə müşayiət olunan irsi patologiyalara aiddir (bax: Əliyev S.C., Əliyev M.X., Əliyeva C.T., Pənahova S.R. Patoloji fiziologiya /dərs vəsaiti. DİM: Print House Poliqrafaz, Bakı: 2020, s.329; Алиев С.ДЖ., Алиев М.Х., Панахова С.Р., Алиева Дж.Т. Патологическая физиология /пособие для

поступающих в резидентуру. ГЭЦ: Print House Poliqrafaz, Баку: 2019, с. 333; Новицкий В.В., Гольдберг Е.Д., Уразова О.И. Патофизиология. Том 2. М.: ГЭОТАР-Медиа, 2010, с.140; Литвицкий П.Ф. Патофизиология. Том 2. М.: ГЭОТАР-Медиа, 2006, с.71).

Statistik təhlil göstərmişdir ki, namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri yuxarıda şərhini təqdim etdiyimiz test tapşırıqlarının etibarlılığı normaldır. Belə ki, imtahanda yüksək bal toplamış namizədlər bu tapşırıqları doğru cavablandırmışlar.

Təhlillər nəticəsində aydın olmuşdur ki, həzm sisteminə aid biliklərin tətbiqini tələb edən test tapşırıqlarını doğru cavablandırmaqda namizədlərin böyük əksəriyyəti çətinlik çəkmişlər. Dərsliklərdə həzm sistemi orqanlarının quruluşu, funksiyası, fiziologiyası və patologiyaları haqqında ətraflı məlumatlar verilməsinə baxmayaraq, namizədlərin bu mövzular üzrə test tapşırıqlarının cavablandırılmasında çətinlik çəkmələrinin səbəbləri araşdırılmalıdır. Bu hal müvafiq kafedraların professor-müəllim heyəti tərəfindən tədris zamanı nəzərə alınmalı, problemin həlli istiqamətində lazımi işlər görülməlidir.

Proqramı tam mənimsəmiş, güclü məntiqi təfəkkürə malik namizədlərin hazırlıq səviyyələrinin yoxlanılmasına, müstəqil araşdırma bacarıqlarının aşkara çıxarılmasına və qiymətləndirilməsinə imkan verən, seçim xarakterli açıq tipli tapşırıqlarına DİM-in nəşr etdiyi vəsaitlərdə kifayət qədər yer ayrılmasına baxmayaraq, çox təəssüf ki, namizədlər cari ildə də belə test tapşırıqlarının həllində çətinlik çəkmişlər. Əslində, açıq tipli test tapşırıqlarına cavab vermək üçün tələb olunan bacarıqlar çoxseçimli test tapşırıqlarına cavab vermək üçün tələb olunan bacarıqlardan mahiyyətcə fərqlənmir. Kifayət qədər biliyə və məntiqi təfəkkürə malik olan namizədlər bu tapşırıqlara asanlıqla cavab verə bilərlər. Namizədlərin bilik, bacarıq və vərdişlərində olan çatışmazlıqların bir qismi onların praktikyönlü biliyinin dərin olmaması ilə bağlıdır ki, bu da, əsasən, tədris prosesində həmin istiqamətə az diqqət yetirilməsinin göstəricisidir.

Aparılan təhlillərdən belə nəticəyə gəlmək olar ki, rezidenturaya qəbul imtahanlarında uğur qazanmaq üçün namizədlərdən dərslikdəki materialları öyrənməklə yanaşı, həm də ümumiləşdirmə aparmaq, mənimsədikləri bilikləri sistemləşdirmək və tətbiq etmək bacarığını da inkişaf etdirmək tələb olunur. Əsas (baza ali) tibb təhsili verən ali təhsil müəssisələrində isə tələbələrin məntiqi düşünmə, nəzəri bilikləri tətbiqetmə bacarıqlarının inkişaf etdirilməsinə diqqət artırılmalı, təhsilin səviyyəsi müasir tələblərə uyğunlaşdırılmalı və daha çox tətbiqyönlü olmalı, eləcə də bu tələblərə cavab verən dərsliklər və dərs vəsaitləri hazırlanmalıdır. DİM rezidenturaya qəbul imtahanına hazırlaşanlara elmi-metodik kömək göstərilməsini həmişə diqqət mərkəzində saxlayır. Ötən illərdə bu istiqamətdə baza fənlərindən "İnsan anatomiyası" və "Bioloji kimya", eləcə də rus dilində "Биологическая химия", "Патологическая физиология","Нормальная физиология", Гистология (цитология, эмбриология, общая и частная гистология)", ixtisas fənlərindən isə ilk dəfə olaraq stomatologiya istiqaməti üzrə "Terapevtik stomatologiya (Parodont və oral mukoza xəstəlikləri)" adlı elmi-metodik vəsaitlər işlənib-hazırlanmışdır. Cari ildə isə "Патологическая анатомия" və "Фармакология" adlı elmi-metodik vəsaitlər işlənib-hazırlanmış, eləcə də "Terapevtik stomatologiya (Parodont və oral mukoza xəstəlikləri)" elmi-metodik vəsaiti rus dilinə tərcümə edilərək elektron kitab formasında namizədlərə təqdim edilmişdir. Hazırlanmış vəsaitlər rezidenturaya qəbul proqramları əsasında tərtib olunmuşdur. Sevindirici haldır ki, yuxarıda adı çəkilən vəsaitlər Azərbaycan Tibb Universitetinin Elmi Şurasında müzakirə edilərək dərs vəsaiti kimi nəşrə tövsiyə olunmuşdur. Bu silsilədən olan işlər davam etdirilir. Qeyd etmək istəyirik ki, yuxarıda adı çəkilən rus dilində tərtib olunmuş vəsaitlər İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin müvafiq kafedralarında da müzakirə olunmuş və onlara mütəxəssislər tərəfindən müsbət rəy verilmişdir.

Ümidvarıq ki, təqdim olunan vəsaitlər həm rezidenturaya hazırlaşan namizədlər, həm də praktik fəaliyyətlə məşğul olan həkim-mütəxəssislər üçün faydalı olacaqdır.

4. ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU

4.1 Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu

Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ərizələrin qəbulu "Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu qaydaları"na uyğun olaraq mayın 12-dən iyunun 12-dək internet vasitəsilə aparılıb. Cari ildə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkədə tətbiq olunun tədbirlərlə əlqədar ərizə qəbulu həmişə olduğundan gec tarixdə həyata keçirilmişdir. Abituriyentlər ekabinet.dim.gov.az internet səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə Dövlət İmtahan Mərkəzinin müvafiq internet səhifəsinə (eservices.dim.gov.az/erizebak/erize) daxil olub, "Abituriyentin elektron ərizəsi" formasını doldurub və təsdiq ediblər (etdiriblər). Müsabiqədə iştirak ödənişli olmuşdur. Orta ixtisas təhsili müəssisələrinə qəbulla bağlı ilk dəfə müraciət etmiş Azərbaycan Respublikası vətəndaşlarının (ümumi təhsil müəssisələrini bitirən) cari ildə keçirilən imtahanda iştirakı dövlət büdcəsinin vəsaiti hesabına (pulsuz) olmuşdur.

Ərizənin təsdiqi DİM-in məlumat bazalarında abituriyent barədə olan məlumatların yetərli olub-olmamasından asılı olaraq iki üsulla həyata keçirilib:

1. Aşağıda göstərilən kateqoriyalardan olan abituriyentlər elektron ərizələrini Sənəd Qəbulu Komissiyalarına (SQK) müraciət etmədən özləri təsdiq ediblər:

1.1. Azərbaycan Respublikasının tam orta təhsil müəssisələrini cari ildə bitirən abituriyentlər;

1.2. Azərbaycan Respublikasının tam orta təhsil müəssisələrini 2012-ci və ondan sonrakı illərdə bitirən abituriyentlər;

1.3**.** Azərbaycan Respublikasının ilk peşə-ixtisas təhsili müəssisələrini 2013-cü və ondan sonrakı illərdə bitirən abituriyentlər;

1.4. 2012-ci və ondan sonrakı illərdə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə verib onu təsdiq etdirmiş abituriyentlər.

2. 1.1, 1.2, 1.3 və 1.4 -ci yarımbəndlərdə göstərilən abituriyentlərdən başqa digər abituriyentlər elektron ərizələrini doldurduqdan sonra 2020-ci il mayın 18-dən iyunun 12-dək DİM-in internet saytından onlayn növbə götürərək tələb olunan sənədləri şəxsən təqdim etməklə elektron ərizələrini müvafiq Sənəd Qəbulu Komissiyalarında (SQK) təsdiq etdiriblər. Ərizə qəbulu elanının tam mətni DİM-in internet saytında ictimaiyyətə təqdim olunub və ərizə qəbulu ilə bağlı bütün digər lazımi məlumatlar da müntəzəm və operativ şəkildə saytda yerləşdirilib.

Azərbaycanda təhsil almış Azərbaycan Respublikasının vətəndaşları (1.1, 1.2, 1.3 və 1.4-cü bəndlərdə göstərilən abituriyentlər istisna olmaqla) tələb olunan sənədləri təqdim etməklə elektron ərizələrini aşağıdakı SQK-larda təsdiq etdiriblər:

Bakı şəhərində:

DİM-in Bakı şəhərində yerləşən inzibati binaları:

- *Bakı ş, Yasamal r, Mikayıl Müşfiq küç., 1M*
- *Bakı ş, Nəsimi r, Abdulvahab Salamzadə küç., 28*
- *Bakı ş, Nərimanov r, Koroğlu Rəhimov küç., 108A*

Digər şəhər və rayonlarda:

Naxçıvan ş.	*DİM-in Regional Bölməsi;*
Gəncə ş.	*DİM-in Regional Bölməsi*
Lənkəran ş.	*DİM-in Regional Bölməsi;*
Şəki r-nu.	*DİM-in Regional Bölməsi;*
Xaçmaz r-nu.	*DİM-in Regional Bölməsi;*
Şirvan ş.	*DİM-in Regional Bölməsi;*
Göyçay r-nu.	*DİM-in Regional Bölməsi;*
Bərdə r-nu.	*DİM-in Regional Bölməsi;*
Şəmkir r-nu.	*DİM-in Regional Bölməsi.*

Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu müsabiqəsi ali təhsil müəssisələrinə V ixtisas qrupu üzrə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında toplanılan ballar əsasında aparılıb. Tam orta təhsil səviyyəsini əvvəlki illərdə bitirən və təhsil haqqında sənəd alan, yaxud tam orta təhsil səviyyəsini Azərbaycan Respublikasının hüdudlarından kənarda bitirən abituriyentlər müsabiqədə iştirak etmək üçün Azərbaycan və ya rus dili, riyaziyyat və xarici dil fənlərindən qəbul imtahanı veriblər. Cari ildə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkədə yaranmış şəraitə uyğun olaraq DİM tərəfindən imtahanların təşkili zamanı Nazirlər Kabineti yanında operativ qərargahın tələb və tövsiyələri nəzərə alınmışdır. İmtahanlar bölgələr üzrə aşağıdakı tarixlərdə keçirilmişdir:

- 03.07.2020 - Naxçıvan MR;
- 10.07.2020 - Ağdaş, Göyçay, Qazax, Qobustan, Qusar, Ağstafa, Ağsu, Kürdəmir, Qəbələ, Şabran, Ağdam, Beyləqan, Gədəbəy, Hacıqabul, Lerik, Sabirabad, Salyan, Tovuz, Astara, Biləsuvar, Füzuli, İmişli, Neftçala, Şəmkir, Tərtər, Yardımlı, İsmayıllı, Qax, Ucar, Xızı, Zaqatala, Balakən, Oğuz, Quba, Şamaxı, Zərdab, Ağcabədi, Daşkəsən, Şirvan, Naftalan, Saatlı;
- 23.07.2020 - Bakı-Binəqədi, Bakı-Suraxanı, Bakı-Qaradağ, Gəncə-Kəpəz, Cəlilabad, Bərdə, Xaçmaz, Lənkəran, Yevlax;
- 24.07.2020 - Bakı-Səbail, Bakı-Yasamal, Bakı-Xəzər, Bakı-Pirallahı, Gəncə-Nizami, Masallı, Şəki, Siyəzən;
- 29.07.2020 - Bakı-Nizami, Bakı-Nəsimi, Bakı-Nərimanov, Sumqayıt, Goranboy, Mingəşevir;
- 30.07.2020 - Bakı-Sabunçu, Bakı-Xətai, Abşeron, Göygöl, Samux.

Qeyd: Məcburi köçkün rayonlarından olan şagirdlər buraxılış imtahanını ümumtəhsil müəssisəsinin yerləşdiyi şəhərdə (rayonda) yuxarıda göstərilən qrafikə uyğun veriblər.

2019-cu ildə keçirilmiş qəbul (buraxılış) imtahanlarının nəticələri 2 il qüvvədə olduğundan, abituriyentlər cari il üzrə müsabiqə şərtlərini ödədikləri halda, həmin nəticə əsasında cari tədris ilində orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında keçirilən tələbə qəbulu üzrə müsabiqədə iştirak edə biliblər.

Tam orta təhsil səviyyəsini Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində cari ildə bitirən abituriyentlər müsabiqədə qəbul imtahanı vermədən buraxılış imtahanında (11-ci siniflər üzrə) tədris dilindən, riyaziyyat və xarici dil fənlərindən əldə etdikləri nəticələr əsasında iştirak ediblər. Lakin aşağıdakı xüsusi hallarda bu abituriyentlər əlavə olaraq bəzi fənn və yaxud fənlərdən imtahan veriblər:

- Tədris dili Azərbaycan və rus dillərindən fərqli olan ümumi təhsil müəssisələrinin məzunları orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə təqdim etdikləri halda ərizədə qeyd etdikləri bölməyə uyğun olaraq Azərbaycan dili və ya rus dili fənnindən əlavə olaraq imtahan veriblər.
- Tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər orta ixtisas təhsili müəssisələrinin tədris rus dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq rus dili fənnindən, tədris rus dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər isə orta ixtisas təhsili müəssisələrinin tədris Azərbaycan dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq Azərbaycan dili fənnindən imtahan veriblər.
- Qəbul imtahanında buraxılış imtahanı çərçivəsində verdikləri xarici dil fənnindən fərqli xarici dil fənni üzrə imtahan vermək istəyən məzunlar müsabiqədə iştirak etmək üçün həmin xarici dildən imtahan veriblər.

– Xarici dil fənni tədris olunmayan təhsil müəssisələrinin məzunları istədikləri halda qəbul imtahanında xarici dil fənni üzrə imtahan verə biliblər. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində istədikləri xarici dili seçiblər. Qeyd olunan kateqoriyadan olan məzunlar xarici dil fənnindən imtahan vermək istəmədikləri halda "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində "Xarici dildən imtahan vermək istəmirəm" bəndini seçiblər. Bu zaman onların imtahandan toplaya biləcəkləri maksimal ümumi balları iki fənn (Azərbaycan və ya rus dili və riyaziyyat) üzrə toplanan balların cəmlənməsi əsasında müəyyənləşməklə 200 bal təşkil edib.

İmtahanda abituriyentlərə Azərbaycan (rus) dili fənnindən 30, riyaziyyat fənnindən 25 və xarici dil fənnindən 30 olmaqla, ümumilikdə 85 tapşırıq təqdim olunmuş, test tapşırıqlarının cavablandırılmasına ümumilikdə 3 saat vaxt ayrılmışdı. İmtahan fənləri üzrə tapşırıqların strukturu aşağıdakı kimi olmuşdur:

- ***Xarici dil***
  - Dinləyib-anlamaya dair mətn (publisistik və ya dialoq formalı) və mətnə aid 6 tapşırıq: qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 1 tapşırıq;
  - Qapalı tipli 16 tapşırıq;
  - Oxuyub-anlamaya dair mətn və mətnə aid 8 tapşırıq; qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 3 tapşırıq.
- ***Azərbaycan (rus) dili***
  - Dil qaydalarına dair 10 qapalı tipli tapşırıq;
  - Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik formalı) və hər mətnə aid 10 tapşırıq (cəmi 20 tapşırıq): qapalı tipli 8 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 2 tapşırıq.
- ***Riyaziyyat***
  - Qapalı tipli 13 tapşırıq;
  - Cavabların kodlaşdırılması tələb olunan açıq tipli 8 tapşırıq;
  - Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 4 tapşırıq.

Qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının qanununa əsasən Azərbaycan dili fənnindən test imtahanı veriblər. İmtahanın nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilib. Bu imtahanda abituriyentlərə 30 test tapşırığı təqdim edilib. Hər düzgün cavab bir balla qiymətləndirilib. Səhv cavablar yekun bala təsir göstərməyib. Abituriyentin "məqbul" alması üçün onun topladığı bal 15-dən az olmamalıdır.

"Azərbaycan dili" (dövlət dili kimi) fənnindən test imtahanı iki dəfə keçirilib. Ötən ildən fərqli olaraq bu il "Azərbaycan dili" (dövlət dili kimi) fənni üzrə I (birinci) imtahan bir gündə deyil, Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar kütləviliyin və təmas hallarının qarşısını almaq məqsədilə müxtəlif tarixlərdə (iyulun 10, 23, 24, 29 və 30-da) keçirilmişdir.

Azərbaycan Respublikasının tədris Azərbaycan dilindən fərqli dillərdə aparılan tam orta təhsil müəssisələrini cari ildə bitirən abituriyentlərin buraxılış imtahanı çərçivəsində verdikləri "Azərbaycan dili" (dövlət dili kimi) fənni imtahanı üzrə nisbi balı ən azı 50 olduqda, onların həmin nəticələri əsas götürülüb və "məqbul" almış hesab olunublar. Həmin imtahanda nisbi balı 50-dən az olan abituriyentlər isə "qeyri-məqbul" almış hesab olunublar və "Azərbaycan dili" (dövlət dili kimi) fənnindən yenidən imtahan veriblər.

I imtahanda iştirak etməyən və yaxud "qeyri-məqbul" alan abituriyentlər, həmçinin buraxılış imtahanı çərçivəsində bu fənn üzrə verdikləri imtahanda nisbi balı 50-dən az olan cari il məzunları, avqustun 27-də keçirilən (ikinci) imtahanda iştirak etmişlər. "Azərbaycan dili" (dövlət dili kimi) fənni imtahanından "məqbul" ala bilməyən abituriyentlər müsabiqəyə buraxılmayıblar.

2019-cu ildə keçirilmiş Azərbaycan dili fənni üzrə imtahandan "məqbul" alan abituriyentlər cari ildə ali təhsil müəssisələri və tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün müsabiqəyə cari ildə keçirilən "Azərbaycan dili" (dövlət dili kimi) fənni üzrə müvafiq imtahanda iştirak etmədən buraxılmışlar.

İxtisas seçimi ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələri elan olunduqdan sonra aparılıb. İxtisas seçiminə qəbul imtahanında topladıqları ümumi balı 50-dən, Azərbaycan dili (rus dili) və riyaziyyat fənlərinin hər biri üzrə balı 10-dan az olmayan abituriyentlər buraxılıb (xarici dil fənni üzrə bal məhdudiyyəti tətbiq edilmir). Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ixtisas seçimi ali

təhsil müəssisələrinin boş qalan yerlərinə ixtisas seçimi ilə eyni vaxtda – sentyabrın 26-dan oktyabrın 5-dək internet vasitəsi ilə aparılıb. Abituriyentlərə eyni zamanda həm ali təhsil müəssisələrinin boş qalan yerlərinin, həm də orta ixtisas təhsili müəssisələrinin ixtisaslarının müsabiqəsində iştirak etmək imkanı verilib. Abituriyentlər elektron ərizələrində hər iki təhsil pilləsindən 20-dək ixtisas kodunu istəklərinə uyğun ardıcıllıqla göstərib.

Xüsusi qabiliyyət tələb edən ixtisasların müsabiqəsinə ümumi balı 40-dan az olmayan abituriyentlər buraxılıblar (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilmir). "Xoreoqrafiya sənəti" və "Rəqs müəllimliyi" ixtisaslarının müsabiqəsində isə ümumi balı 30-dan az olmayan abituriyentlər iştirak edə bilmişlər (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilmir). Onlara xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslarla yanaşı, müsabiqə şərtlərini ödədikləri halda digər ixtisasların da kodlarını seçmək imkanı verilmişdi. Cari ildə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar xüsusi qabiliyyət tələb edən ixtisasların bəziləri üzrə qabiliyyət imtahanları ləğv edilmişdir.

Oktyabrın 16-dan 19-dək tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə əlavə müsabiqə elan olunmuşdu. Müsabiqə cari ilin məzunları üçün buraxılış imtahanının, digər abituriyentlər üçün keçirilmiş qəbul imtahanının nəticələrinə əsasən aparılmışdır. Müsabiqədə iştirak edən abituriyentlər elektron ərizələrində yalnız orta ixtisas təhsili müəssisələrinin 20-dək ixtisas kodunu istəklərinə uyğun ardıcıllıqla göstərmişlər.

Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ümumilikdə 10677 tələbə qəbulu nəzərdə tutulmuşdu. Bu yerlərin 1895-i özəl orta ixtisas təhsili müəssisələrinə (600 yer Bakı Biznes və Kooperasiya Kollecinə, 455 yer Odlar Yurdu Universitetinin "Odlar Yurdu" Kollecinə, 330 yer Bakı Avrasiya Kollecinə, 510 yer isə Qərbi Kaspi Universitetinin orta ixtisas təhsili pilləsinə) ayrılmışdı. Plan yerlərinin sayı ötən illə müqayissədə 2.84% (295 yer) artmışdı. Yerlərin 28.64%-i ödənişsiz, 71.36%-i isə ödənişli təhsil forması üçün ayrılmışdı. Ümumi plan yerlərinin 84.76%-i Azərbaycan, 3.84%-i rus, 11.40%-i isə Azərbaycan və rus bölmələri abituriyentlərinin birgə müsabiqəsi üçün nəzərdə tutulmuşdu.

Bu il 52 dövlət orta ixtisas təhsili müəssisəsinə tələbə qəbulu aparılıb. Ən çox plan yerləri 2 nömrəli Bakı Baza Tibb Kollecinə (598 yer), ən az isə Naxçıvan Musiqi Kollecinə (6 yer) ayrılmışdı. Orta ixtisas təhsili müəssisələrinin qəbul planları haqqında məlumat aşağıdakı cədvəldə verilir:

Cədvəl 4.1.1

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI (TAM ORTA TƏHSİL BAZASINDA)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
1	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci	100	10	0	110	220	15	0	235	345
2	Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci	60	0	0	60	70	0	0	70	130
3	Bakı Qida Sənayesi Kolleci	32	24	0	56	73	26	0	99	155
4	Bakı Dövlət Sosial-İqtisad Kolleci	62	7	0	69	173	18	0	191	260
5	Bakı İdarəetmə və Texnologiya Kolleci	82	21	0	103	186	44	0	230	333
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci	110	30	0	140	260	45	0	305	445
7	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	53	28	0	81	119	42	0	161	242
8	1 nömrəli Bakı Tibb Kolleci	20	0	138	158	0	0	282	282	440
9	2 nömrəli Bakı Baza Tibb Kolleci	54	0	149	203	111	0	284	395	598
10	Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi	0	0	0	0	0	0	26	26	26
11	Bakı Humanitar Kolleci	70	10	0	80	92	10	0	102	182

Cədvəl 4.1.1 (ardı)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
12	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci	0	0	24	24	0	0	40	40	64
13	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	0	0	49	49	0	0	15	15	64
14	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci	30	0	0	30	160	0	0	160	190
15	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci	0	0	0	0	100	0	0	100	100
16	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	52	0	0	52	133	0	0	133	185
17	Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Azərbaycan Dənizçilik Kolleci	30	0	0	30	15	0	0	15	45
18	Naxçıvan Tibb Kolleci	102	0	0	102	138	0	0	138	240
19	Naxçıvan Dövlət Texniki Kolleci	7	0	0	7	5	0	0	5	12
20	Naxçıvan Musiqi Kolleci	0	0	0	0	6	0	0	6	6
21	Gəncə Tibb Kolleci	120	0	0	120	190	0	0	190	310
22	Gəncə Dövlət Regional Kolleci	136	0	0	136	294	0	0	294	430
23	Gəncə Musiqi Kolleci	0	0	5	5	0	0	47	47	52
24	Qazax Dövlət Sosial-İqtisadi Kolleci	30	0	0	30	90	0	0	90	120
25	Tovuz Dövlət Sosial-İqtisadi Kolleci	10	0	0	10	35	0	0	35	45
26	Ə.Əliyev adına Sumqayıt Tibb Kolleci	85	0	0	85	135	0	0	135	220
27	Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci	55	0	0	55	120	0	0	120	175
28	Sumqayıt Musiqi Kolleci	0	0	15	15	0	0	4	4	19
29	Quba Dövlət Sosial-İqtisadi Kolleci	8	0	0	8	32	0	0	32	40
30	Quba Tibb Kolleci	30	0	0	30	35	0	0	35	65
31	Şamaxı Dövlət Regional Kolleci	132	0	0	132	242	0	0	242	374
32	Mingəçevir Tibb Kolleci	85	0	0	85	120	0	0	120	205
33	Mingəçevir Turizm Kolleci	46	0	0	46	184	0	0	184	230
34	Şəki Tibb Kolleci	45	0	0	45	55	0	0	55	100
35	Şəki Dövlət Texniki Kolleci	20	0	0	20	20	0	0	20	40
36	Şəki Dövlət Regional Kolleci	0	0	58	58	0	0	48	48	106
37	Şuşa Humanitar Kolleci	43	0	0	43	76	0	0	76	119
38	Ağdam Dövlət Sosial-İqtisadi Kolleci	45	0	0	45	125	0	0	125	170
39	Ağdam Musiqi Kolleci	0	0	17	17	0	0	16	16	33
40	Ağdaş Dövlət Humanitar Kolleci	33	0	0	33	67	0	0	67	100
41	Ağcabədi Pedaqoji Kolleci	77	0	0	77	103	0	0	103	180
42	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	78	0	0	78	128	0	0	128	206
43	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	63	0	0	63	112	0	0	112	175
44	Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci	20	0	0	20	80	0	0	80	100
45	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	85	0	0	85	121	0	0	121	206
46	Lənkəran Tibb Kolleci	75	0	0	75	105	0	0	105	180

Cədvəl 4.1.1 (ardı)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
47	Lənkəran Dövlət Humanitar Kolleci	95	0	0	95	124	0	0	124	219
48	Astara Pedaqoji Kolleci	49	0	0	49	102	0	0	102	151
49	İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci	76	0	0	76	141	0	0	141	217
50	Saatlı Tibb Kolleci	20	0	0	20	20	0	0	20	40
51	Cəlilabad Tibb Kolleci	20	0	0	20	20	0	0	20	40
52	Masallı Dövlət Regional Kolleci	28	0	0	28	25	0	0	25	53
53	Bakı Biznes və Kooperasiya Kolleci	0	0	0	0	520	80	0	600	600
54	Odlar Yurdu Kolleci	0	0	0	0	455	0	0	455	455
55	Bakı Avrasiya Kolleci	0	0	0	0	330	0	0	330	330
56	Qərbi Kaspi Universitetinin orta ixtisas təhsili pilləsi	0	0	0	0	510	0	0	510	510
	Cəmi	**2473**	**130**	**455**	**3058**	**6577**	**280**	**762**	**7619**	**10677**

Orta ixtisas təhsili müəssisələrinə qəbul üçün ümumilikdə 64183 abituriyent ərizəsi daxil olub, onlardan ixtisas seçimi mərhələsində 21967 nəfər iştirak edib. Ötən illə müqayisədə cari ildə ixtisas seçimi mərhələsində iştirak edənlərin sayı 43.60% artıb (6670 nəfər).

Sənəd verənlərin 49.99%-ni (32085 nəfər) oğlanlar, 50.01%-ni (32098 nəfər) qızlar, ixtisas seçimi mərhələsində iştirak edənlərin isə 43.97%-ni (9658 nəfər) oğlanlar, 56.03%-ni (12309 nəfər) qızlar təşkil edib. İxtisas seçimi mərhələsində daxil olmuş ərizələrin 96.82%-i Azərbaycan, 3.18%-i rus bölməsinə aid olub.

Dövlət orta ixtisas təhsili müəssisələrinin qəbul planı və abituriyent ərizələrinin sayının illər üzrə dinamikası 4.1.1 saylı şəkildəki diaqramlarda təqdim edilir. Şəkildən göründüyü kimi, 1993 və 1994-cü illərdə abituriyent ərizələrinin sayı plan yerlərinin sayından xeyli çox olub. Əslində, bu həmin illərdə abituriyentlərin orta ixtisas təhsili müəssisələrinə istəklərinin artmasının nəticəsi deyil, həmin təhsil müəssisələrinə qəbul imtahanlarının ali təhsil müəssisələri ilə birgə aparılmasının nəticəsi idi. O illərdə abituriyentlərə ali təhsil müəssisələri ilə yanaşı, orta ixtisas təhsili müəssisələrinin də ixtisaslarını göstərmək imkanı verildiyindən, onlar əksər hallarda ərizələrində ilk yerlərdə ali təhsil müəssisələrinin, sonrakı yerlərdə isə orta ixtisas təhsili müəssisələrinin ixtisaslarını göstərirdilər. Nəticədə, onların böyük əksəriyyəti ali təhsil müəssisələrinə qəbul olduğundan orta ixtisas təhsili müəssisələrinin planı dolmurdu. Buna görə də bu təhsil pilləsi üzrə qəbul planının dolma faizi 1993-cü ildə cəmi 34.96, 1994-cü ildə isə 52.79% təşkil etmişdi. Qeyd etmək lazımdır ki, orta ixtisas təhsili müəssisələrinə qəbulun ali təhsil müəssisələri ilə birgə aparıldığı illərdə yalnız orta ixtisas təhsili müəssisələrinin ixtisaslarını 1992-ci ildə 5466, 1993-cü ildə 848, 1994-cü ildə isə cəmi 454 nəfər abituriyent seçmişdi.

1995–1997-ci illərdə abituriyent ərizələrinin sayı qəbul planından az olmuş və planın yalnız 72-77%-ni təşkil etmişdi. 1998, 1999-cu illərdə bu fərq azalmış, 2000–2004-cü illərdə ərizələrin sayı qəbul planından bir qədər artıq olmuşdu. Bununla belə, ixtisaslar üzrə abituriyentlərin istəkləri qeyri-bərabər paylandığından bəzi ixtisaslarda yüksək müsabiqə vəziyyəti yaranmış, digərlərinə isə heç planın yarısı qədər də ərizə verilməmişdi. 2005, 2006, 2007, 2008, 2009 və 2010-cu illərdə, nəhayət, ərizələrin sayı plan yerlərinin sayını əhəmiyyətli dərəcədə (göstərilən illərə uyğun olaraq 2.3, 2.9, 3.9, 5.2, 4.5 və 3.5 dəfə) üstələmişdi. Lakin 2011-ci ildə müsabiqədə iştirak etmək üçün ümumi bala qoyulan tələb 50-dən 100-ə qaldırıldığı üçün abituriyentlərin ərizələrinin sayı əvvəlki ilə nəzərən azalmışdı. Son altı ildə abituriyent ərizələrinin sayında kəskin artım müşahidə olunub. Bu orta ixtisas təhsili müəssisələrinə qəbulun buraxılış imtahanlarının nəticəsi əsasında aparılması (əvvəlki illərin məzunları müsabiqədə buraxılış imtahanı modelinə uyğun verdikləri imtahanın nəticəsi, cari ilin məzunları isə buraxılış imtahanlarında əldə etdikləri nəticə əsasında iştirak etmişlər) və cari ilin məzunları üçün müsabiqənin pulsuz olması ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, son beş ildə qəbul planı üzrə də artım həyata keçirilib. Xüsusilə 2018-ci ildə plan yerlərinin sayı 2017-ci illə müqayisədə birdən-birə 20.74% artmışdır. 2020-ci ildə də bu tendensiya davam etmiş və ötən illə müqayisədə plan yerləri 3.11% artmışdır.

QƏBUL PLANI VƏ ƏRİZƏLƏRİN* SAYI (DÖVLƏT ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN ÖDƏNİŞSİZ VƏ ÖDƏNİŞLİ TƏHSİL FORMALARI ÜZRƏ)



Şəkil 4.1.1

Dövlət orta ixtisas təhsili müəssisələrinin ödənişli və ödənişsiz təhsil formalarının 1992–2020-ci illər üzrə qəbul planlarının dinamikası 4.1.2 saylı şəkildəki diaqramda təqdim edilib. Bu təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul 1995-ci ildən aparıldığından diaqramda ondan əvvəlki illər üçün yalnız ödənişsiz təhsil formasının qəbul planı göstərilib.

Diaqramdan göründüyü kimi, 1995–2001-ci illər ərzində ödənişsiz təhsil forması üçün ayrılan plan yerləri sayca böyük üstünlüyə malik olub. Lakin 2002-ci ildən ödənişli və ödənişsiz təhsil formaları üzrə qəbul planları, demək olar ki, bərabərləşdirilib. 2011-ci ildən isə artıq ödənişli təhsil forması üzrə qəbul planı üstünlüyə malik olub.

DÖVLƏT ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN ÖDƏNİŞSİZ VƏ ÖDƏNİŞLİ TƏHSİL FORMALARI ÜZRƏ QƏBUL PLANLARI



Şəkil 4.1.2

* 2008-ci ildən etibarən ixtisas seçimi mərhələsində yalnız müsabiqə şərtlərini yerinə yetirən abituriyentlər iştirak edib.

2020-ci ildə orta ixtisas təhsili müəssisələrinə qəbul üçün ayrılmış plan yerləri və ərizə vermiş abituriyentlərin sayı, təhsil bölmələri və ixtisaslar üzrə paylanma spektri, uyğun olaraq, 4.1.2, 4.1.3 və 4.1.4 saylı cədvəllərdə göstərilib.

Təqdim olunan ərizələrin paylanmasının təhlili göstərir ki, abituriyentlərin 73.99%-i texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisasları, 40.92%-i xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisaslarını, 34.35%-i tibb ixtisaslarını, 3.94%-i kimya-texnoloji ixtisasları, 12.40%-i baytarlıq və aqronomluq ixtisaslarını, 33.17%-i humanitar ixtisasları və 37.19%-i isə xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisaslarını seçib. Qəbul planının bölgüsü isə belədir: plan yerlərinin 57.84%-i texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslara, 2.73%-i xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisaslarına, 23.12%-i tibb ixtisaslarına, 0.37%-i kimya-texnoloji ixtisaslara, 2.79%-i baytarlıq və aqronomluq ixtisaslarına, 8.01%-i humanitar ixtisaslara və 5.14%-i isə xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisaslarına aiddir.

4.1.4 saylı cədvəldən göründüyü kimi, abituriyentlərin 11.29%-i (2480 nəfər) ərizələrində yalnız texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisasları, 6.13%-i (1346 nəfər) isə yalnız tibb ixtisaslarını qeyd edib.

Müsabiqə vəziyyəti 4.1.5 saylı cədvəldə təqdim edilib. Ən yüksək müsabiqə xüsusi qabiliyyət tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları üzrə olub. Bu ixtisaslar üzrə bir tələbə yerinə, 17-18 abituriyent sənəd verib. Cari ildə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar xüsusi qabiliyyət tələb edən müəyyən ixtisaslar üzrə qabiliyyət imtahanları ləğv edilmişdir. Bu da xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə vəziyyətinə təsir göstərmişdir və ötən illərlə müqayisədə xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə vəziyyəti dəfələrlə artmışdır. 2019-cu ildə ixtisas seçimi mərhələsində ərizələrin sayı xüsusi qabiliyyət tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları üzrə 602, incəsənət və musiqi ixtisasları üzrə 469 olduğu halda, cari ildə bu göstərici müvafiq olaraq, 8988 və 8170 olmuşdur. Yəni, bu ixtisaslar üzrə ərizələrin sayı müvafiq olaraq, 14.93 və 17.42 dəfə artmışdır.

Ümumilikdə, bütün ixtisasları götürdükdə, müsabiqə vəziyyəti 2.057-yə bərabər olub, yəni bir yerə 2-3 abituriyent sənəd verib. Ötən illə müqayisədə müsabiqə vəziyyəti yuxarı olub. Plan yerlərinin dolma faizi isə 93.62%-dən 97.85%-ə qədər artıb.

Cədvəl 4.1.2

QƏBUL PLANLARI VƏ İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYI

№	İstiqamətlər	QƏBUL PLANI				ƏRİZƏLƏRİN SAYI		
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə	Azərb. bölməsi	Rus Bölməsi	Bütövlükdə
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	5801	335	40	6176	15638	616	16254
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	291	0	0	291	8988	0	8988
3	Tibb ixtisasları	1615	0	853	2468	7264	281	7545
4	Kimya-texnoloji ixtisaslar	40	0	0	40	866	0	866
5	Baytarlıq və aqronomluq	298	0	0	298	2725	0	2725
6	Humanitar ixtisaslar	740	75	40	855	6979	307	7286
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	265	0	284	549	8111	59	8170
	C Ə M İ	**9050**	**410**	**1217**	**10677**	**21268**	**699**	**21967**

Cədvəl 4.1.3

İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ
ABİTURİYENT ƏRİZƏLƏRİNİN PAYLANMASI

№	İstiqamətlər	Azərb. bölməsi		Rus Bölməsi		Bütövlükdə	
		ərizələrin sayı	ərizələrin faizi	ərizələrin sayı	ərizələrin faizi	ərizələrin sayı	ərizələrin faizi
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	15638	73.53	616	88.13	16254	73.99
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	8988	42.26	0	0.00	8988	40.92
3	Tibb ixtisasları	7264	34.15	281	40.20	7545	34.35
4	Kimya-texnoloji ixtisaslar	866	4.07	0	0.00	866	3.94
5	Baytarlıq və aqronomluq	2725	12.81	0	0.00	2725	12.40
6	Humanitar ixtisaslar	6979	32.81	307	43.92	7286	33.17
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	8111	38.14	59	8.44	8170	37.19
	C Ə M İ	**21268**	**100.00**	**699**	**100.00**	**21967**	**100.00**

Cədvəl 4.1.4

İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ
ƏRİZƏLƏRİN İXTİSASLAR ÜZRƏ PAYLANMASI

№	ABİTURİYENT ƏRİZƏLƏRİNİN BÖLGÜSÜ	ƏRİZƏLƏRİN	
		mütləq sayı	**nisbi sayı, %**
1	Yalnız texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslarının qeyd edildiyi ərizələr	2480	11.29
2	Yalnız xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisaslarının qeyd edildiyi ərizələr	891	4.06
3	Yalnız tibb ixtisaslarının qeyd edildiyi ərizələr	1346	6.13
4	Yalnız kimya-texnoloji ixtisaslarının qeyd edildiyi ərizələr	2	0.01
5	Yalnız baytarlıq və aqronomluq ixtisaslarının qeyd edildiyi ərizələr	33	0.15
6	Yalnız humanitar ixtisaslarnın qeyd edildiyi ərizələr	18	0.08
7	Yalnız xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisaslarının qeyd edildiyi ərizələr	778	3.54
8	Müxtəlif ixtisaslarının qeyd edildiyi ərizələr	16419	74.74
	Cəmi	**21967**	**100.00**

Cədvəl 4.1.5

İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ MÜSABİQƏ VƏZİYYƏTİ

№	İstiqamətlər	Azərb. bölməsi	Rus Bölməsi	Birgə	Bütövlükdə
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	1.624	1.334	2.677	1.606
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	17.467			17.467
3	Tibb ixtisasları	2.508		3.031	2.418
4	Kimya-texnoloji ixtisaslar	4.283			4.283
5	Baytarlıq və aqronomluq	2.100			2.100
6	Humanitar ixtisaslar	2.853	1.720	3.099	2.709
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	12.976		2.766	7.160
	C Ə M İ	**2.131**	**1.254**	**2.853**	**2.057**

Orta ixtisas təhsili müəssisələrinin əyani şöbələrinin ixtisasları arasında ən yüksək müsabiqə texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar istiqaməti üzrə Mingəçevir Turizm Kollecinin "Turizmin iqtisadiyyatı" (bir yerə 24.63 ərizə), Gəncə Dövlət Regional Kolleci və Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kollecinin "Mühasibat uçotu" (bir yerə, müvafiq olaraq, 23.16 və 20.83 ərizə), Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "Sosial iş" (bir yerə 20.72 ərizə), xüsusi qabiliyyət tələb edən dizayn və idman ixtisasları istiqaməti üzrə Bakı Humanitar Kolleci və Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "Fiziki tərbiyə müəllimliyi (ümumi orta təhsil bazası üçün)" (bir yerə, müvafiq olaraq, 92.84, 90.81 ərizə), tibb ixtisasları istiqaməti üzrə 1 nömrəli Bakı Tibb Kollecinin "Müalicə işi" (bir yerə 20.66 ərizə), Naxçıvan Tibb Kollecinin "Laboratoriya diaqnostikası" (bir yerə 15.45 ərizə), 2 nömrəli Bakı Baza Tibb Kollecinin "Tibbi profilaktika" (bir yerə 15.03 ərizə), kimya-texnoloji ixtisaslar istiqaməti üzrə Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kollecinin "Kimyəvi birləşmələrin keyfiyyətinə analitik nəzarət" (bir yerə 3.43 ərizə), baytarlıq və aqronomluq istiqaməti üzrə Şamaxı Dövlət Regional Kolleci, Gəncə Dövlət Regional Kolleci və Ağcabədi Pedaqoji Kollecinin "Baytarlıq" (bir yerə, müvafiq olaraq, 9.79, 9.55 və 9.06 ərizə), humanitar ixtisaslar istiqaməti üzrə Bakı Humanitar Kolleci və Bakı Dövlət İqtisadiyyat və Humanitar Kollecinin "Məktəbəqədər təlim və tərbiyə" (bir yerə, müvafiq olaraq, 14.96 və 14.40 ərizə), xüsusi qabiliyyət tələb edən incəsənət və musiqi ixtisasları istiqaməti üzrə Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kollecinin "Dizayn" (bir yerə 151.96 ərizə), Bakı Humanitar Kollecinin "Bədii yaradıcılıq işi" (bir yerə 51.57 ərizə), Bakı Humanitar Kollecinin "Dekorativ tətbiqi incəsənət və xalq sənəti" (bir yerə 45.81 ərizə), Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin "Təsviri incəsənət müəllimliyi" (bir yerə 43.63 ərizə) ixtisaslarında olub.

Qəbul planı 20-dən az olmayan orta ixtisas təhsili müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisasları üzrə ən yüksək müsabiqə vəziyyəti Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci (bir yerə 24.3 ərizə), Bakı Humanitar Kolleci (bir yerə 17.1 ərizə) və Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində (bir yerə 13.9 ərizə) yaranıb. Təhsili ödənişli əsaslarla olan ixtisaslar üzrə isə ən yüksək müsabiqə Bakı Humanitar Kolleci (bir yerə 13.5 ərizə), Tovuz Dövlət Sosial-İqtisadi Kolleci (bir yerə 10.8 ərizə), Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci (bir yerə 9.0 ərizə), Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində (bir yerə 8.2 ərizə) olub.

Xüsusi qabiliyyət tələb edən ixtisaslara ümumilikdə 840 plan yeri ayrılmışdı. 12247 abituriyent ixtisas seçimində bu ixtisasları öz ərizəsində göstərib, onlardan 4911-i ərizəsində həm dizayn və bədən tərbiyəsi ixtisaslarını, həm də musiqi və incəsənət ixtisaslarını qeyd edib. Qeyd edək ki, ötən il xüsusi qabiliyyət tələb edən ixtisasları cəmi 1064 abituriyent öz ərizəsində göstərib, cari ildə isə bu ixtisasları öz ərizələrində göstərənlərin sayı birdən-birə ən azı 11 dəfə artmışdır. Bunun da başlıca səbəbi koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar olaraq, bəzi ixtisaslar üzrə qabiliyyət imtahanlarının ləğv edilməsi və bu ixtisaslar üzrə müsabiqənin yalnız test imtahanı nəticələri əsasında aparılmasıdır.

Xüsusi qabiliyyət tələb edən ixtisasların qəbul planları və həmin ixtisaslar üzrə ərizə vermiş abituriyentlərin sayı aşağıdakı cədvəldə təqdim olunur:

Cədvəl 4.1.6

XÜSUSİ QABİLİYYƏT TƏLƏB EDƏN İXTİSASLAR ÜZRƏ MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN SAYI

İXTİSAS	Qəbul planı	İxtisas seçimində ərizə vermiş abituriyentlərin sayı
Xüsusi qabiliyyət tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	291	8988
Xüsusi qabiliyyət tələb edən musiqi və incəsənət ixtisasları	549	8170

Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulunun nəticələri haqqında məlumat oktyabrın 5-də DİM-in internet saytında yerləşdirilib və «Abituriyent» jurnalının 10-cu sayında dərc olunub. Qəbul olanların qeydiyyatı aparıldıqdan sonra boş qalan yerlərə əlavə yerləşdirmə aparılıb və nəticələr oktyabrın 20-də elan olunub. Müsabiqədə iştirak edənlərin 10447 nəfəri tələbə adını qazanıb. Bunlardan 3017 nəfəri dövlət ödənişsiz, 5557 nəfər dövlət ödənişli təhsil forması üzrə qəbul olub. 1873 nəfər özəl orta ixtisas təhsili müəssisələrinə qəbul olub. Qəbul olanların 37.63%-i oğlan (3931 nəfər), 62.37%-i isə (6516 nəfər) qız abituriyent olub.

Qəbul imtahanında iştirak edən və qəbul olan abituriyentlərin ballarının paylanma diaqramı 4.1.3 və 4.1.4 saylı şəkillərdə təqdim edilib. Xatırladaq ki, qəbul imtahanında toplanıla biləcək maksimal bal 300-ə bərabər olub.

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 4.1.3

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 4.1.4

Qəbul imtahanında iştirak edən abituriyentlərin 13.68%-i 50-dən az, 6.48%-i isə 200-dən çox bal toplayıb.

Qəbul olan abituriyentlərin əksəriyyətinin (95.54%) imtahan nəticəsi 50-150 bal diapazonunda yerləşir. 50-100 bal intervalında nəticə göstərənlər qəbul olanların 45.92%-ni, 100-150 bal intervalında nəticə göstərənlər isə 49.62%-ni təşkil edib. İmtahan nəticələri ən yuxarı (200-249) bal diapazonunda nəticə göstərən abituriyentlərin nisbi sayı 0.16 faizdir. Qəbul olan abituriyenlərin yalnız 0.19%-i 36-50 bal diapazonunda nəticə göstərib.

İxtisas seçimində iştirak edənlərin 14571 nəfəri (66.33%) cari ilin məzunlarıdır. Onlardan 7412 nəfəri tələbə olmaq arzusunu reallaşdıra bilib. Beləliklə, cari il məzunlarının qəbulolma göstəricisi 50.87%, bütövlükdə orta ixtisas təhsili müəssisələrinə sənəd verənlərin qəbulolma göstəricisi isə 47.56% olub.

Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisasları üzrə plan yerlərinin 5801-i Azərbaycan bölməsinin, 335-i rus bölməsinin, 40-ı isə hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində Azərbaycan bölməsində 15638, rus bölməsində 616 nəfər abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərin Azərbaycan bölməsində 5714, rus bölməsində 328 nəfəri qəbul olub. Qəbul planı 97.83% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisaslarında 98.63%, ödənişli əsaslarla olan ixtisaslarında isə 96.86% olub. Özəl təhsil müəssisələrinə qəbul planı 98.86% yerinə yetirilib.

Orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları üzrə plan yerlərinin hamısı (291 yer) Azərbaycan bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində 8988 nəfər abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərdən 285 nəfəri qəbul olub. Qəbul planı 97.94% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin ödənişsiz ixtisaslarında 99.05%, ödənişli ixtisaslarında isə 97.31% olub.

Tibb ixtisasları üzrə plan yerlərinin 1615-i Azərbaycan bölməsinin abituriyentləri üçün, 853-ü hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün ayrılmışdı. Ərizələrində bu ixtisasları Azərbaycan bölməsində 7264, rus bölməsində isə 281 abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərin Azərbaycan bölməsində 2401, rus bölməsində 64 nəfəri qəbul olub. Qəbul planı 99.88% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisaslarında 100.00%, ödənişli əsaslarla olan ixtisaslarında isə 99.80% olub.

Kimya-texnoloji ixtisaslar üzrə plan yerlərinin hamısı (40 yer) Azərbaycan bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində 866 nəfər abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərdən 38 nəfəri qəbul olub. Qəbul planı 95.00% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin ödənişsiz ixtisaslarında 100.00%, ödənişli ixtisaslarında isə 93.33% olub.

Baytarlıq və aqronomluq ixtisasları üzrə plan yerlərinin hamısı (298 yer) Azərbaycan bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində 2725 nəfər abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərdən 282 nəfəri qəbul olub. Qəbul planı 94.63% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin ödənişsiz ixtisaslarında 99.18%, ödənişli ixtisaslarında isə 91.48% olub.

Humanitar ixtisaslar üzrə plan yerlərinin 740-ı Azərbaycan bölməsinin abituriyentləri üçün, 75-i rus bölməsinin abituriyentləri üçün, 40-ı isə hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində Azərbaycan bölməsində 6979, rus bölməsində isə 307 nəfər abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərin Azərbaycan bölməsində 770, rus bölməsində 74 nəfəri qəbul olub. Qəbul planı 98.71% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisaslarında 99.22%, ödənişli əsaslarla olan ixtisaslarında isə 98.25% olub. Özəl təhsil müəssisələrində qəbul planı 100.00% yerinə yetirilib.

Xüsusi qabiliyyət tələb edən incəsənət və musiqi ixtisasları üzrə plan yerlərinin 265-i Azərbaycan bölməsinin abituriyentləri üçün, 284-ü isə hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində Azərbaycan bölməsində 8111, rus bölməsində isə 59 nəfər abituriyent göstərmişdir. Müsabiqədə iştirak edənlərin Azərbaycan bölməsində 477, rus bölməsində 14 nəfəri qəbul olub. Qəbul planı 89.44% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisaslarında 91.63%, ödənişli əsaslarla olan ixtisaslarında isə 86.38% olub. Özəl təhsil müəssisələrində qəbul planı 96.36% yerinə yetirilib.

Ötən illə müqayisədə plan yerlərinin yerinə yetirilmə faizi bütövlükdə 93.62%-dən 97.85%-ə qədər artıb, qəbul olanların mütləq sayı isə 9720 nəfərdən 10447 nəfərədək (727 nəfər) artıb. Müsabiqə və yerləşdirmənin nəticələri 4.1.7 – 4.1.9 saylı cədvəllərdə verilib.

Cədvəl 4.1.7

TAM ORTA TƏHSİL BAZASINDA ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT

№	İstiqamətlər	Plan	Qəbul olub			Qəbulolma faizi (%)
			Azərbaycan bölməsi	Rus bölməsi	Bütövlükdə	
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	6176	5714	328	6042	97.83
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	291	285	0	285	97.94
3	Tibb ixtisasları	2468	2401	64	2465	99.88
4	Kimya-texnoloji ixtisaslar	40	38	0	38	95.00
5	Baytarlıq və aqronomluq	298	282	0	282	94.63
6	Humanitar ixtisaslar	855	770	74	844	98.71
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	549	477	14	491	89.44
	C Ə M İ	**10677**	**9967**	**480**	**10447**	**97.85**

Cədvəl 4.1.8

TAM ORTA TƏHSİL BAZASINDA DÖVLƏT ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN TƏHSİLİ ÖDƏNİŞSİZ ƏSASLARLA OLAN İXTİSASLARINA QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT

№	İstiqamətlər	Plan	Qəbul olub			Qəbulolma faizi (%)
			Azərbaycan bölməsi	Rus bölməsi	Bütövlükdə	
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	1391	1271	101	1372	98.63
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	105	104	0	104	99.05
3	Tibb ixtisasları	958	938	20	958	100.00
4	Kimya-texnoloji ixtisaslar	10	10	0	10	100.00
5	Baytarlıq və aqronomluq	122	121	0	121	99.18
6	Humanitar ixtisaslar	257	226	29	255	99.22
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	215	192	5	197	91.63
	C Ə M İ	**3058**	**2862**	**155**	**3017**	**98.66**

Cədvəl 4.1.9

TAM ORTA TƏHSİL BAZASINDA DÖVLƏT ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN TƏHSİLİ ÖDƏNİŞLİ ƏSASLARLA OLAN İXTİSASLARINA QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT

№	İstiqamətlər	Plan	Qəbul olub			Qəbulolma faizi (%)
			Azərbaycan bölməsi	Rus bölməsi	Bütövlükdə	
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	3030	2786	149	2935	96.86
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	186	181	0	181	97.31
3	Tibb ixtisasları	1510	1463	44	1507	99.80
4	Kimya-texnoloji ixtisaslar	30	28	0	28	93.33
5	Baytarlıq və aqronomluq	176	161	0	161	91.48
6	Humanitar ixtisaslar	513	459	45	504	98.25
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	279	232	9	241	86.38
	C Ə M İ	**5724**	**5310**	**247**	**5557**	**97.08**

Abituriyentlərin Azərbaycan və rus bölmələri üzrə ayrılıqda topladıqları ballar hesablanmış, onların əsasında balların paylanma histoqramları təyin edilmişdir. Hər iki bölmədə abituriyentlərin topladıqları balların paylanma histoqramı demək olar ki, sağtərəfli asimmetriyaya malikdir.

Azərbaycan bölməsini təmsil edən ortastatistik abituriyent 103.93, rus bölməsini təmsil edən isə 113.29 bal toplayıb. Azərbaycan bölməsində abituriyentlərin yarısı 93.26-dan, rus bölməsində isə 103.35-dən çox bal toplaya bilməyib. Azərbaycan bölməsində maksimal bal 300.0, rus bölməsində isə 284.8 olub.

Ərizə verən ortastatistik abituriyent Azərbaycan bölməsində Azərbaycan dilindən tapşırıqların 46.95, riyaziyyatdan 24.69, ingilis dilindən 31.65, rus dilindən tapşırıqların 33.91%-nə, rus bölməsində rus dilindən tapşırıqların 49.68, riyaziyyatdan 23.70, ingilis dilindən 39.81%-nə düzgün cavab verib. Qəbul olan ortastatistik abituriyent Azərbaycan bölməsində Azərbaycan dilindən tapşırıqların 50.35, riyaziyyatdan 22.83, ingilis dilindən 29.89, rus dilindən 40.84%-nə, rus bölməsində rus dilindən tapşırıqların 48.79, riyaziyyatdan 20.49, ingilis dilindən 33.70%-nə düzgün cavab verib.

Yuxarıda da qeyd edildiyi kimi, orta ixtisas təhsili müəssisələrinin ixtisaslarının müsabiqəsində cari ilin məzunları buraxılış imtahanının nəticələri əsasında, digərləri isə buraxılış imtahanının modelinə uyğun keçirilən qəbul imtahanının nəticələri əsasında iştirak ediblər. Müsabiqədə iştirak etmək üçün qoyulan tələbləri nəzərə alsaq, görərik ki, imtahanda iştirak edən 62679 abituriyentin 19.72%-i (12360 nəfər) Azərbaycan (rus) dili və riyaziyyat fənlərindən biri üzrə nisbi balı 10 baldan aşağı olduğu üçün, 4.90%-i (3071 nəfər) isə ümumi balı 50-dən az olduğu üçün ixtisas seçiminə buraxılmamışdır. Digər abituriyentlər isə minimal tələbi ödədikləri üçün ixtisas seçimində iştirak etmək hüququ qazanıblar və belə abituriyentlər imtahanda iştirak edənlərin 75.38%-ni təşkil edib.

Təhlilin nəticələri göstərir ki, ixtisas seçimində iştirak edənlərin çox az hissəsi (3.09%) həm Azərbaycan (rus) dili, həm də riyaziyyat fənlərinin hər biri üzrə 40 bal və daha yüksək nəticə göstərib. Orta ixtisas təhsili müəssisələrinə qəbul olan abituriyentlərin isə 6.26%-i hər iki fənn üzrə 40 bal və daha yüksək nəticə göstərib. Göründüyü kimi həm Azərbaycan (rus) dili, həm də riyaziyyat fənlərinin hər biri üzrə ən azı 40 bal toplayanların qəbul olanlar arasındakı nisbi çəkisi ixtisas seçimində iştirak edənlər arasındakı nisbi çəkisinə nəzərən 2.03 dəfə çox olub.

İxtisas seçimində iştirak edən abituriyentlərin 5.03%-i xarici dil fənni üzrə 10-dan az bal toplayıb. Orta ixtisas təhsili müəssisələrinə qəbul olan abituriyentlərin arasında isə xarici dil fənni üzrə 10-dan az bal toplayanların nisbi çəkisi cəmi 1.68-ə bərabər olub. Nəzərinizə çatdıraq ki, müsabiqədə iştirak etmək üçün xarici dil fənnindən toplanılan ballara heç bir məhdudiyyət qoyulmamışdır.

4.1.10 saylı cədvəldə orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerləri haqqında məlumat təqdim edilir. Cədvəldən göründüyü kimi, bu təhsil müəssisələrinin 18-də plan yerləri 100% dolub. 34 orta ixtisas təhsili müəssisəsində boş qalan yerlər 10 faizədək, 4-də isə 10%-dən yuxarıdır. Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsinə tam orta təhsili bazasında tələbə qəbulunda plan yerlərinin 53.85 faizi, Sumqayıt Musiqi Kollecinə 26.32 faizi, Quba Dövlət Sosial-İqtisadi Kollecinə 20.00 faizi, Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinə 15.63 faizi boş qalıb.

Cari ildə Naxçıvan Tibb Kollecindən başqa respublika üzrə bütün tibb kolleclərində plan yerlərinin hamısı dolub. Naxçıvan Tibb Kollecində isə plan yerlərinin dolma faizi 98.75 olub.

Cədvəl 4.1.10

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİ ÜZRƏ BOŞ QALAN YERLƏR HAQQINDA MƏLUMAT

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	Plan	Boş yerlərin	
			sayı	faizi
1	Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi	26	14	53.85
2	Sumqayıt Musiqi Kolleci	19	5	26.32
3	Quba Dövlət Sosial-İqtisadi Kolleci	40	8	20.00
4	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	64	10	15.63
5	Ağdam Musiqi Kolleci	33	3	9.09
6	Naxçıvan Dövlət Texniki Kolleci	12	1	8.33
7	Bakı Humanitar Kolleci	182	15	8.24
8	Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci	100	8	8.00
9	Masallı Dövlət Regional Kolleci	53	4	7.55
10	Şuşa Humanitar Kolleci	119	8	6.72
11	Bakı Qida Sənayesi Kolleci	155	10	6.45
12	Lənkəran Dövlət Humanitar Kolleci	219	11	5.02
13	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci	100	5	5.00

Cədvəl 4.1.10 (ardı)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	Plan	Boş yerlərin	
			sayı	faizi
14	Qərbi Kaspi Universitetinin orta ixtisas təhsili pilləsi	510	22	4.31
15	Mingəçevir Turizm Kolleci	230	9	3.91
16	Şamaxı Dövlət Regional Kolleci	374	14	3.74
17	İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci	217	8	3.69
18	Astara Pedaqoji Kolleci	151	5	3.31
19	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	242	8	3.31
20	Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci	175	5	2.86
21	Ağcabədi Pedaqoji Kolleci	180	5	2.78
22	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	206	5	2.43
23	Bakı İdarəetmə və Texnologiya Kolleci	333	8	2.40
24	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	175	4	2.29
25	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	185	4	2.16
26	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	206	4	1.94
27	Gəncə Dövlət Regional Kolleci	430	7	1.63
28	Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci	130	2	1.54
29	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci	345	5	1.45
30	Naxçıvan Tibb Kolleci	240	3	1.25
31	Ağdam Dövlət Sosial-İqtisadi Kolleci	170	2	1.18
32	Bakı Dövlət Sosial-İqtisad Kolleci	260	3	1.15
33	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci	190	2	1.05
34	Ağdaş Dövlət Humanitar Kolleci	100	1	1.00
35	Şəki Dövlət Regional Kolleci	106	1	0.94
36	Qazax Dövlət Sosial-İqtisadi Kolleci	120	1	0.83
37	Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci	445	2	0.45
38	Bakı Biznes və Kooperasiya Kolleci	600	2	0.33
39	1 nömrəli Bakı Tibb Kolleci	440	0	0.00
40	2 nömrəli Bakı Baza Tibb Kolleci	598	0	0.00
41	Azərbaycan Dövlət Dəniz Akademiyasının nəzdində Azərbaycan Dənizçilik Kolleci	45	0	0.00
42	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci	64	0	0.00
43	Naxçıvan Musiqi Kolleci	6	0	0.00
44	Gəncə Tibb Kolleci	310	0	0.00
45	Gəncə Musiqi Kolleci	52	0	0.00
46	Tovuz Dövlət Sosial-İqtisadi Kolleci	45	0	0.00
47	Ə.Əliyev adına Sumqayıt Tibb Kolleci	220	0	0.00
48	Quba Tibb Kolleci	65	0	0.00
49	Mingəçevir Tibb Kolleci	205	0	0.00
50	Şəki Tibb Kolleci	100	0	0.00
51	Şəki Dövlət Texniki Kolleci	40	0	0.00
52	Lənkəran Tibb Kolleci	180	0	0.00
53	Saatlı Tibb Kolleci	40	0	0.00
54	Cəlilabad Tibb Kolleci	40	0	0.00
55	Odlar Yurdu Kolleci	455	0	0.00
56	Bakı Avrasiya Kolleci	330	0	0.00
	C Ə M İ	**10677**	**234**	**2.19**

4.2 Orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında tələbə qəbulu

Orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında tələbə qəbulunu 1995-1998-ci illərdə mərkəzləşdirilmiş qaydada Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, 1999-2004-cü illərdə isə orta ixtisas təhsili müəssisələrinin özləri aparıb. 2005-ci ildən etibarən bu təhsil pilləsinə qəbul imtahanlarının keçirilməsi yenidən TQDK-ya (indiki DİM) həvalə olunub.

Bu il ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün ərizə qəbulu fevralın 21-dən martın 11-dək internet vasitəsilə aparılmışdır. Qəbul qaydaları və qəbul haqqında elan DİM-in internet saytında yerləşdirilmiş, qəbul aparılan ixtisasların siyahısı və plan yerləri haqqında məlumat isə "Abituriyent" jurnalının 3-cü sayında dərc olunub. Abituriyentlər ekabinet.dim.gov.az internet səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə Dövlət İmtahan Mərkəzinin müvafiq internet səhifəsinə (eservices.dim.gov.az/erizetex/erize) daxil olub, "Abituriyentin elektron ərizəsi" formasını doldurublar və təsdiq ediblər (etdiriblər). Müsabiqədə iştirak ödənişli olmuşdur. Orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət etmiş Azərbaycan Respublikasının vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) imtahanda iştirakı dövlət büdcəsinin vəsaiti hesabına (pulsuz) olmuşdur.

Ərizənin təsdiqi DİM-in məlumat bazalarında abituriyent barədə olan məlumatların yetərli olub-olmamasından asılı olaraq iki üsulla həyata keçirilib:

– Ümumi orta təhsil səviyyəsini Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində 2013-cü və ondan sonrakı illərdə bitirən abituriyentlər elektron ərizələrini Sənəd Qəbulu Komissiyalarına (SQK) müraciət etmədən elektron ərizə səhifəsindəki müvafiq düyməni basmaqla özləri təsdiq ediblər;

– Ümumi orta təhsil səviyyəsini Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində 2013-cü ildən əvvəl və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda yerləşən təhsil müəssisələrində bitirən abituriyentlər DİM-in internet saytından onlayn növbə götürərək elektron ərizələrini, tələb olunan sənədləri təqdim etməklə müvafiq SQK-larda təsdiq ediblər.

Ümumi orta təhsil (9 illik) səviyyəsini cari ildə bitirən abituriyentlər qəbul imtahanı verməmiş, müsabiqədə Azərbaycan (rus) dili, riyaziyyat və xarici dil fənlərindən buraxılış imtahanında (9-cu siniflər üzrə) əldə etdikləri nəticələr əsasında iştirak etmişlər. 1 mart 2020-ci il tarixdə buraxılış imtahanının birinci mərhələsində iştirak etmiş cari ilin məzunları isə müsabiqədə imtahanın ikinci mərhələsinin modeli əsasında keçirilən qəbul imtahanında əldə etdikləri nəticələr əsasında iştirak etmişlər. Bu təhsil səviyyəsini əvvəlki illərdə bitirən abituriyentlər müsabiqədə iştirak etmək üçün Azərbaycan (rus) dili, riyaziyyat və xarici dil fənlərindən bir mərhələdə qəbul imtahanı vermişlər. İmtahanların təşkili zamanı Nazirlər Kabineti yanında operativ qərargahın tələb və tövsiyələri nəzərə alınmışdır. İmtahanlar bölgələr üzrə aşağıdakı tarixlərdə keçirilmişdir:

- 10.06.2020 - Bakı-Qaradağ, Goranboy, Göygöl, Daşkəsən, Salyan, Saatlı, Bərdə (I hissə), Ağcabədi, Beyləqan, Siyəzən, Xızı, Şirvan;
- 11.06.2020 - Bakı-Pirallahı, Mingəçevir, Samux, Naftalan, Neftçala, Hacıqabul, Tərtər, Ağdam, Füzuli;
- 18.06.2020 - Bakı-Xətai, Sumqayıt (I hissə), Zaqatala, Qax, Göyçay, Ağdaş, Xaçmaz, Qobustan;
- 19.06.2020 - Bakı-Nərimanov, Abşeron (I hissə), Balakən, Oğuz, Kürdəmir, Ağsu, Quba;
- 24.06.2020 - Sabirabad, Qazax;
- 25.06.2020 - İmişli, Ağstafa, Bərdə (II hissə), Astara, Biləsuvar;
- 02.07.2020 - Tovuz, Gədəbəy, Şəki, Lerik, Şamaxı, Ucar, Qusar;
- 03.07.2020 - Şəmkir, Qəbələ, Yardımlı, İsmayıllı, Zərdab, Şabran, Naxçıvan MR;
- 23.07.2020 - Bakı-Binəqədi, Bakı-Suraxanı, Gəncə-Kəpəz, Cəlilabad, Lənkəran, Yevlax;
- 24.07.2020 - Bakı-Yasamal, Bakı-Xəzər, Gəncə-Nizami, Masallı;

- 29.07.2020 - Bakı-Nizami, Bakı-Nəsimi, Sumqayıt (II hissə);
- 30.07.2020 - Bakı-Sabunçu, Bakı-Səbail, Abşeron (II hissə).

Qeyd 1: Bəzi şəhər və rayonlar üzrə şagirdlərin hərəkət intensivliyinin azaldılması məqsədilə onlar 2 hissəyə ayrılmış və müxtəlif günlərdə imtahan vermişlər. Cədvəldə bu hal müvafiq olaraq, hissələrlə adlandırılıb.

Qeyd 2: Məcburi köçkün rayonlarından olan şagirdlər buraxılış imtahanını ümumtəhsil müəssisəsinin yerləşdiyi şəhərdə (rayonda) yuxarıda göstərilən qrafikə uyğun veriblər.

Ümumi orta təhsil səviyyəsini Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində cari ildə bitirən abituriyentlər müsabiqədə qəbul imtahanı vermədən buraxılış imtahanında (9-cu siniflər üzrə) topladıqları ballar əsasında iştirak ediblər. Lakin aşağıdakı xüsusi hallarda bu abituriyentlər əlavə olaraq yuxarıda göstərilən tarixlərdə bəzi fənn və yaxud fənlərdən imtahan veriblər:

- Tədris dili Azərbaycan və rus dillərindən fərqli olan ümumi təhsil müəssisələrinin məzunları orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə təqdim etdikləri halda ərizədə qeyd etdikləri bölməyə uyğun olaraq Azərbaycan dili və ya rus dili fənnindən əlavə olaraq imtahan veriblər.

- Tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər orta ixtisas təhsili müəssisələrinin tədris rus dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq rus dili fənnindən, tədris rus dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər isə orta ixtisas təhsili müəssisələrinin tədris Azərbaycan dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq Azərbaycan dili fənnindən imtahan veriblər. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən, müsabiqəsində iştirak etmək istədikləri ixtisasların tədris dilinə uyğun olaraq ərizənin "Test imtahanı verəcəyi dil (Bölmə)" bölməsində Azərbaycan və ya rus dilini seçiblər.

- Qəbul imtahanında buraxılış imtahanı çərçivəsində verdikləri xarici dil fənnindən fərqli xarici dil fənni üzrə imtahan vermək istəyən məzunlar müsabiqədə iştirak etmək üçün həmin xarici dildən imtahan veriblər. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində istədikləri xarici dili seçiblər.

- Xarici dil fənni tədris olunmayan təhsil müəssisələrinin məzunları istədikləri halda qəbul imtahanında xarici dil fənni üzrə imtahan verə biliblər. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində istədikləri xarici dili seçiblər. Qeyd olunan kateqoriyadan olan məzunlar xarici dil fənnindən imtahan vermək istəmədikləri halda "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində "Xarici dildən imtahan vermək istəmirəm" bəndini seçiblər. Bu zaman onların imtahandan toplaya biləcəkləri maksimal ümumi balları iki fənn (Azərbaycan və ya rus dili və riyaziyyat) üzrə toplanan balların cəmlənməsi əsasında müəyyənləşməklə 200 bal təşkil edib.

Koronavirus (COVID-19) pandemiyasının ölkənin təhsil müəssisələrində təhsil prosesinə mənfi təsirinin aradan qaldırılması ilə bağlı bəzi tədbirlər barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 18 may 2020-ci il tarxili 179 nömrəli qərarına əsasən "Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında tələbə qəbulu Qaydaları"nda edilən dəyişikliyə uyğun olaraq cari ildə ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanı bir mərhələdə keçirilmişdir. İmtahanda abituriyentlərə hər bir fənn üzrə 30 olmaqla, ümumilikdə 90 qapalı tipli test tapşırığı təqdim edilmişdir.

İxtisas seçimi sentyabrın 3-dən 14-dək internet vasitəsilə həyata keçirilib. İxtisas seçiminə qəbul (buraxılış) imtahanında ümumi balı 50-dən, Azərbaycan dili və ya rus dili fənni üzrə balı 20-dən və riyaziyyat fənni üzrə balı 10-dan az olmayan abituriyentlər buraxılıblar (xarici dil fənni üzrə nisbi bal məhdudiyyəti tətbiq edilməyib). Hər bir abituriyent müxtəlif təhsil müəssisələrinin təhsili dövlət büdcəsinin vəsaiti hesabına və ödənişli olan 12-yə qədər ixtisas kodunu seçib. İxtisas kodlarının ardıcıllığını abituriyent özü müəyyənləşdirib. Qəbul qaydalarına əsasən müsabiqə zamanı həmin ardıcıllıq hüquqi əsas kimi nəzərə alınıb və abituriyent müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilib.

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə təhsil almaq istəyən abituriyentlər, imtahanda topladıqları ümumi balları müvafiq müsabiqə şərtlərini ödədiyi halda imtahanların nəticəsi elan olunduqdan sonra, avqustun 4-dən 18-dək eservices.dim.gov.az/erizetex/qabiliyyet internet səhifəsinə daxil olaraq seçdiyi xüsusi qabiliyyət tələb edən ixtisasın aid olduğu komissiya üzrə qeydiyyatdan keçiblər. Qeyd edək ki, cari

ildə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar xüsusi qabiliyyət tələb edən müəyyən ixtisaslar üzrə qabiliyyət imtahanları ləğv edilmişdir. Dövlət İmtahan Mərkəzi orta ixtisas təhsili müəssisələrinin aşağıdakı ixtisasları üzrə qabiliyyət imtahanları təşkil etmişdir:

- Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində İncəsənət Kollecinin ixtisaslarına;
- Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin ixtisaslarına ("Musiqi nəzəriyyəsi" və "Xor dirijorluğu" ixtisasları istisna olmaqla);
- Bakı Xoreoqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsinin "Xoreoqrafiya sənəti" və "Rəqs müəllimliyi" ixtisaslarına;
- Naxçıvan Musiqi Kollecinin "Xanəndəlik", "Vokal sənəti", "Aşıq sənəti", "Xoreoqrafiya sənəti" və "Rəngkarlıq" ixtisaslarına;
- Digər orta ixtisas təhsili müəssisələrinin "Xanəndəlik" və "Vokal sənəti" ixtisaslarına.

Qabiliyyət imtahanlarında iştirak ödənişli olmuşdur. Orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikasının vətəndaşlarının cari ildə ilk seçdiyi (qeydiyyatdan keçdiyi) komissiya üzrə (yalnız bir ixtisas üzrə) qabiliyyət imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına (pulsuz) olmuşdur. Qabiliyyət imtahanının nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilib və müvafiq xüsusi qabiliyyət tələb edən ixtisasları qabiliyyət imtahanından "məqbul" alan abituriyentlər seçə biliblər. Qabiliyyət imtahanları ləğv edilmiş xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olmaq istəyən abituriyentlər müsabiqədə kolleclərə qəbul imtahanından (cari ilin məzunları buraxılış imtahanından) topladıqları bal əsasında iştirak ediblər. Qəbul qaydalarına əsasən abituriyentlərə xüsusi qabiliyyət tələb edən ixtisaslarla yanaşı, digər ixtisasları da seçmək imkanı verilib.

Qəbul planı (9885 yer) ötən illə müqayisədə 3.15% (321 yer) azalıb. Plan yerlərinin 4215-i (42.64%) ödənişsiz, 5670-i (57.36%) isə ödənişli təhsil forması üzrə olub. Qəbul planının 88.18%-i Azərbaycan, 2.33%-i rus, 9.49%-i isə hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün ayrılıb. Qəbul planının 16.66%-i (1647 yer) xüsusi qabiliyyət tələb edən ixtisasların payına düşürdü.

43 orta ixtisas təhsili müəssisəsinə tələbə qəbulu aparılıb. Sayca ən çox plan yeri Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinə (685 yer), ən az isə Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsinə (54 yer) ayrılmışdı. Orta ixtisas təhsili müəssisələrinin qəbul planları haqqında məlumat aşağıdakı cədvəldə verilir:

Cədvəl 4.2.1

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI (ÜMUMİ ORTA TƏHSİL BAZASINDA)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
1	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci	80	0	0	80	120	0	0	120	200
2	Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci	99	0	0	99	141	0	0	141	240
3	Bakı Qida Sənayesi Kolleci	108	12	0	120	127	13	0	140	260
4	Bakı Dövlət Sosial-İqtisad Kolleci	75	0	0	75	150	0	0	150	225
5	Bakı İdarəetmə və Texnologiya Kolleci	116	41	0	157	168	64	0	232	389
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci	265	30	0	295	365	25	0	390	685
7	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	143	0	0	143	245	0	0	245	388
8	Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi	0	0	49	49	0	0	5	5	54
9	Bakı Humanitar Kolleci	184	0	0	184	174	0	0	174	358
10	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci	0	0	21	21	0	0	35	35	56

Cədvəl 4.2.1 (ardı)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
11	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	0	0	186	186	0	0	63	63	249
12	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci	38	0	0	38	122	0	0	122	160
13	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci	170	0	0	170	170	0	0	170	340
14	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	146	0	0	146	203	0	0	203	349
15	Naxçıvan Dövlət Texniki Kolleci	59	0	0	59	87	0	0	87	146
16	Naxçıvan Musiqi Kolleci	80	0	0	80	64	0	0	64	144
17	Gəncə Dövlət Regional Kolleci	118	0	0	118	197	0	0	197	315
18	Gəncə Musiqi Kolleci	0	0	49	49	0	0	55	55	104
19	Qazax Dövlət Sosial-İqtisadi Kolleci	120	0	0	120	135	0	0	135	255
20	Tovuz Dövlət Sosial-İqtisadi Kolleci	121	0	0	121	150	0	0	150	271
21	Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci	120	0	0	120	130	0	0	130	250
22	Sumqayıt Musiqi Kolleci	0	0	80	80	0	0	12	12	92
23	Quba Dövlət Sosial-İqtisadi Kolleci	107	0	0	107	138	0	0	138	245
24	Şamaxı Dövlət Regional Kolleci	162	0	0	162	207	0	0	207	369
25	Mingəçevir Turizm Kolleci	46	0	0	46	184	0	0	184	230
26	Şəki Dövlət Texniki Kolleci	38	0	0	38	37	0	0	37	75
27	Şəki Dövlət Regional Kolleci	0	0	137	137	0	0	141	141	278
28	Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci	54	0	0	54	50	0	0	50	104
29	Şuşa Humanitar Kolleci	73	0	0	73	83	0	0	83	156
30	Ağdam Dövlət Sosial-İqtisadi Kolleci	115	0	0	115	140	0	0	140	255
31	Ağdam Musiqi Kolleci	0	0	56	56	0	0	49	49	105
32	Ağdaş Dövlət Humanitar Kolleci	94	0	0	94	126	0	0	126	220
33	Ağcabədi Pedaqoji Kolleci	101	0	0	101	119	0	0	119	220
34	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	103	0	0	103	129	0	0	129	232
35	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	50	0	0	50	50	0	0	50	100
36	Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci	93	0	0	93	92	0	0	92	185
37	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	130	0	0	130	127	0	0	127	257
38	Lənkəran Dövlət Humanitar Kolleci	75	0	0	75	80	0	0	80	155
39	Astara Pedaqoji Kolleci	108	0	0	108	119	0	0	119	227
40	İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci	82	0	0	82	93	0	0	93	175
41	Masallı Dövlət Regional Kolleci	81	0	0	81	91	0	0	91	172
42	Bakı Biznes və Kooperasiya Kolleci	0	0	0	0	310	45	0	355	355
43	Qərbi Kaspi Universitetinin orta ixtisas təhsili pilləsi	0	0	0	0	240	0	0	240	240
	Cəmi	**3554**	**83**	**578**	**4215**	**5163**	**147**	**360**	**5670**	**9885**

1995–1998-ci illərdə ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün abituriyent ərizələrinin sayı plan yerlərindən 30-40% az olub. Qəbul imtahanlarının yenidən mərkəzləşdirilmiş qaydada keçirildiyi 2005-2006-cı illərdə bu təhsil müəssisələrində, zəif də olsa, müsabiqə vəziyyəti mövcud olub. Bu illərdə orta ixtisas təhsili müəssisələrinə sənəd qəbulunu həmin məktəblərdə yaradılmış Sənəd Qəbulu Komissiyaları həyata keçirirdi. Sənəd qəbulu prosesində abituriyentlərin və onların valideynlərinin rahatlığını təmin etmək məqsədilə 2007-2012-ci illərdə respublikanın bütün regionlarının təhsil şöbələrində Sənəd Qəbulu Komissiyaları yaradılmışdı. Artıq səkkiz ildir ki, barələrində DİM-in informasiya bazasında yetərli məlumatlar olan abituriyentlərə ərizələrini Sənəd Qəbulu Komissiyalarına müraciət etmədən internet vasitəsilə bilavasitə özlərinin təsdiq etməsinə imkan yaradılıb.

Cari ildə müsabiqənin nəticələri sentyabrın 15-də DİM-in internet saytında və "Abituriyent" jurnalının xüsusi buraxılışında yerləşdirilərək ictimaiyyətə çatdırılıb. Bundan sonra sentyabrın 29-dan oktyabrın 5-dək orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə əlavə müsabiqə elan olunub. Müsabiqədə iştirak edən abituriyentlər elektron ərizələrində orta ixtisas təhsili müəssisələrinin 12-dək ixtisas kodunu istəklərinə uyğun ardıcıllıqla göstəriblər. Boş qalan plan yerlərinə əlavə yerləşdirmənin nəticələri oktyabrın 6-da elan olunub.

Qəbul (buraxılış) imtahanlarında 17312 nəfər abituriyent iştirak edib. Onların 7357-si oğlan (42.50%), 9955-i isə qız abituriyent (57.50%) olub.

İmtahan verən abituriyentlərin 11088-i (64.05%) ixtisas seçimində iştirak etmək üçün ərizə verib. Ayrı-ayrı təhsil formaları üzrə qəbul planı, abituriyent ərizələrinin sayı və müsabiqə vəziyyəti 4.2.2 və 4.2.3 saylı cədvəllərdə təqdim olunur.

İxtisas seçimində iştirak etmək üçün ərizələrin 98.06%-i (10873-ü) Azərbaycan, 1.94%-i (215-i) isə rus bölməsinə verilmişdi. Abituriyentlərin 39.80%-ni oğlanlar, 60.20%-ni isə qızlar təşkil edibdir.

Cədvəl 4.2.2

QƏBUL PLANLARI VƏ İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYI

№	TƏHSİL FORMASI	QƏBUL PLANI				ƏRİZƏLƏRİN SAYI*		
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə	Azərb. bölməsi	Rus bölməsi	Bütövlükdə
1	**Dövlət ödənişsiz**	**3554**	**83**	**578**	**4215**	**8856**	**197**	**9053**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	3131	83	80	3294	6889	153	7042
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	423	0	498	921	4761	65	4826
2	**Dövlət ödənişli**	**4613**	**102**	**360**	**5075**	**9297**	**172**	**9469**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	4162	102	85	4349	7735	135	7870
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	451	0	275	726	5163	58	5221
2	**Özəl**	**550**	**45**	**0**	**595**	**1364**	**60**	**1424**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	550	45	0	595	1364	60	1424
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	0	0	0	0	0	0	0
	Bütövlükdə	**8717**	**230**	**938**	**9885**	**10873**	**215**	**11088**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	7843	230	165	8238	9378	171	9549
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	874	0	773	1647	6209	72	6281

* İxtisas seçimində iştirak edənlər

Cədvəl 4.2.3

İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ MÜSABİQƏ VƏZİYYƏTİ

№	TƏHSİL FORMASI	Plan yerləri üzrə müsabiqə vəziyyəti			
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Bütövlükdə
1	**Dövlət ödənişsiz**	**1.978**	**1.615**	**1.850**	**1.890**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	1.680	1.615	1.674	1.660
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	5.910	---	1.941	3.554
2	**Dövlət ödənişli**	**1.025**	**0.438**	**1.491**	**1.004**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	0.866	0.438	1.014	0.846
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	4.039	---	1.733	2.949
3	**Özəl**	**0.712**	**0.377**	**---**	**0.687**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	0.712	0.377	---	0.687
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	---	---	---	---
	Bütövlükdə	**1.157**	**0.690**	**1.336**	**1.122**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	1.001	0.690	1.173	0.983
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	4.019	---	1.437	2.631

Müsabiqədə iştirak edən 11088 nəfər abituriyentdən 8691-i, o cümlədən 4068-i dövlət ödənişsiz, 4288-i dövlət ödənişli, 335-i isə özəl təhsil müəssisəsinə ödənişli təhsil forması üzrə qəbul olub. Qəbul planı ümumilikdə 87.92% yerinə yetirilib. Dövlət ödənişsiz təhsil forması üzrə qəbul planının dolma göstəricisi 96.51, dövlət ödənişli təhsil forması üzrə 84.49, özəl təhsil müəssisəsi üzrə isə 56.30% olub. Qəbul olan abituriyentlərin 3446-sə (39.65%) oğlan, 5245-i isə (60.35%) qız olub.

Qəbulda iştirak edən və qəbul olan abituriyentlərin bal göstəriciləri aşağıdakı diaqramlarda təsvir edilib. Hər bir fənn üzrə 100 bal olmaqla, maksimum toplanıla bilən bal 300-ə bərabər olmuşdur.

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 4.2.1

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 4.2.2

Diaqramların müqayisəli təhlili göstərir ki, əgər qəbul (buraxılış) imtahanında iştirak edənlər seçməsində 100-dən çox bal toplayan abituriyentlərin nisbi sayı 35.02% təşkil edibsə, qəbul olanlar seçməsində belə abituriyentlərin nisbi sayı 49.28%-ə bərabər olub. İmtahanda toplanılan maksimal bal 290.000-a bərabər olub.

Təhsil formaları üzrə aparılan müsabiqə və yerləşdirmənin nəticələri 4.2.4 saylı cədvəldə təqdim olunur.

Cədvəl 4.2.4

ÜMUMİ ORTA TƏHSİL BAZASINDA ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT

№	TƏHSİL FORMASI	Qəbul planı	Qəbul olub			Qəbulolma faizi
			Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
1	**Dövlət ödənişsiz**	**4215**	**3948**	**120**	**4068**	**96.51**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	3294	3083	84	3167	96.14
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	921	865	36	901	97.83
2	**Dövlət ödənişli**	**5075**	**4226**	**62**	**4288**	**84.49**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	4349	3605	50	3655	84.04
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	726	621	12	633	87.19
3	**Özəl**	**595**	**325**	**10**	**335**	**56.30**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	595	325	10	335	56.30
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	0	0	0	0	---
Bütövlükdə		**9885**	**8499**	**192**	**8691**	**87.92**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	8238	7013	144	7157	86.88
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	1647	1486	48	1534	93.14

Orta ixtisas təhsili müəssisələri arasında daha yüksək müsabiqə vəziyyəti Lənkəran Dövlət Humanitar Kolleci və Bakı Humanitar Kollecində yaranıb. Bu təhsil müəssisələrinin orta hesabla bir plan yerinə təqdim edilən ərizələrin sayı müvafiq olaraq, 3.8 və 3.5 olub.

Orta ixtisas təhsili müəssisələri arasında ən aşağı müsabiqə vəziyyəti Qazax Dövlət Sosial-İqtisadi Kolleci, Bakı Biznes və Kooperasiya Kolleci, Qərbi Kaspi Universitetinin orta ixtisas təhsili pilləsi və Tovuz Dövlət Sosial-İqtisadi Kollecində yaranıb. Bu təhsil müəssisələrində 1 plan yerinə 1-dən az ərizə verilib.

Abituriyentlərin Azərbaycan və rus bölmələri üzrə ayrılıqda topladıqları ballar hesablanaraq, onların əsasında balların paylanma histoqramları təyin edilib. Hər iki bölmədə histoqram bir qədər asimmetrikdir. Asimmetriya müsbət, yaxud sağtərəflidir. Bu onu göstərir ki, ortastatistik nəticə göstərən abituriyentlərə nəzərən zəif nəticə göstərən abituriyentlərin rastgəlmə ehtimalı daha yüksəkdir.

Azərbaycan bölməsini təmsil edən ortastatistik abituriyent 92.63, rus bölməsini təmsil edən isə 103.80 bal toplayıb. Azərbaycan bölməsində abituriyentlərin yarısı 85.29-dan, rus bölməsində isə 93.75-dən çox bal toplaya bilməyib. Azərbaycan bölməsində maksimal bal 290, rus bölməsində isə 270 olub.

Azərbaycan bölməsində ortastatistik abituriyent Azərbaycan dili fənnindən 36.04, riyaziyyatdan 30.56, xarici dildən 26.02, rus bölməsində isə rus dilindən 41.82, riyaziyyatdan 30.68, xarici dildən 31.30 bal toplayıb.

Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul 9-cu sinif üzrə buraxılış imtahanı standartları əsasında aparılıb. İmtahanda iştirak edən 17312 nəfər abituriyentin 45.81%-i, heç olmasa, bir fənn üzrə 20 baldan, 93.26%-i 40 baldan, 85.58%-i xarici dil fənni üzrə 40 baldan aşağı nəticə göstərib. Hər bir fənn üzrə 138 abituriyent ən azı 60 bal, 11 abituriyent isə ən azı 80 bal toplayıb. Qəbul olan 8691 nəfər abituriyentin, 29.28%-i heç olmasa, bir fənn üzrə 20 baldan, 90.84%-i 40 baldan aşağı nəticə göstərib. Qəbul olan abituriyentlərin arasında 86-sı hər bir fənn üzrə ən azı 60 bal, 4-ü isə ən azı 80 bal toplayıb.

Yuxarıda qeyd olunduğu kimi, bu il ümumi orta təhsil bazasında 43 orta ixtisas təhsili müəssisəsinə qəbul aparılıb. Cədvəldən göründüyü kimi, 4 orta ixtisas təhsili müəssisəsində plan yerləri 100% dolub. 22 orta ixtisas təhsili müəssisəsində boş qalan plan yerləri 10 faizədəkdir, qalan 17 orta ixtisas təhsili müəssisəsində isə 10%-dən yuxarıdır.

Orta ixtisas təhsili müəssisələri arasında qəbul planının ən az dolma göstəricisi Qərbi Kaspi Universitetinin orta ixtisas təhsili pilləsindədir. Cədvəldən göründüyü kimi, bu orta ixtisas təhsili müəssisəsinin plan yerlərinin 52.08 %-i boş qalıb.

Son illər ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbulla bağlı göstəricilər əvvəlki illərlə müqayisədə xeyli yaxşılaşıb. Müqayisə üçün qeyd edək ki, 1998-ci ildə orta ixtisas təhsili müəssisələrindən yalnız birində plan yerləri tam dolmuş, yarısına qədərində isə 50%-dən çox kəsirdə qalmışdı.

Orta ixtisas təhsili müəssisələrinin boş qalmış plan yerləri haqqında məlumat 4.2.5 saylı cədvəldə təqdim olunur.

Cədvəl 4.2.5

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİ ÜZRƏ BOŞ QALAN PLAN YERLƏRİ HAQQINDA MƏLUMAT

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	Plan	Boş yerlərin	
			sayı	faizi
1	Qərbi Kaspi Universitetinin orta ixtisas təhsili pilləsi	240	125	52.08
2	Tovuz Dövlət Sosial-İqtisadi Kolleci	271	131	48.34
3	Bakı Biznes və Kooperasiya Kolleci	355	135	38.03
4	Mingəçevir Turizm Kolleci	230	55	23.91
5	Bakı Qida Sənayesi Kolleci	260	61	23.46
6	İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci	175	41	23.43
7	Qazax Dövlət Sosial-İqtisadi Kolleci	255	54	21.18
8	Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi	54	10	18.52
9	Şəki Dövlət Texniki Kolleci	75	13	17.33
10	Şəki Dövlət Regional Kolleci	278	44	15.83
11	Sumqayıt Musiqi Kolleci	92	14	15.22
12	Bakı İdarəetmə və Texnologiya Kolleci	389	58	14.91
13	Şuşa Humanitar Kolleci	156	21	13.46
14	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci	340	44	12.94
15	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	349	43	12.32
16	Bakı Humanitar Kolleci	358	37	10.34
17	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	388	39	10.05
18	Ağdaş Dövlət Humanitar Kolleci	220	20	9.09
19	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	257	23	8.95

Cədvəl 4.2.5 (ardı)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	Plan	Boş yerlərin	
			sayı	faizi
20	Şamaxı Dövlət Regional Kolleci	369	33	8.94
21	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	249	20	8.03
22	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	100	8	8.00
23	Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci	104	8	7.69
24	Masallı Dövlət Regional Kolleci	172	13	7.56
25	Quba Dövlət Sosial-İqtisadi Kolleci	245	17	6.94
26	Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci	250	17	6.80
27	Bakı Dövlət Sosial-İqtisad Kolleci	225	14	6.22
28	Ağcabədi Pedaqoji Kolleci	220	11	5.00
29	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci	200	9	4.50
30	Astara Pedaqoji Kolleci	227	10	4.41
31	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci	160	7	4.38
32	Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci	185	7	3.78
33	Ağdam Dövlət Sosial-İqtisadi Kolleci	255	9	3.53
34	Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci	240	8	3.33
35	Naxçıvan Musiqi Kolleci	144	4	2.78
36	Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci	685	18	2.63
37	Lənkəran Dövlət Humanitar Kolleci	155	4	2.58
38	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	232	4	1.72
39	Gəncə Dövlət Regional Kolleci	315	5	1.59
40	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci	56	0	0.00
41	Naxçıvan Dövlət Texniki Kolleci	146	0	0.00
42	Gəncə Musiqi Kolleci	104	0	0.00
43	Ağdam Musiqi Kolleci	105	0	0.00
	C Ə M İ	**9885**	**1194**	**12.08**

5. ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ BURAXILIŞ İMTAHANLARININ NƏTİCƏLƏRİ

"Ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsinin (attestasiyasının) aparılması Qaydaları"na əsasən şagirdlər 9-cu və 11-ci siniflər üzrə buraxılış imtahanını tədris dili (Azərbaycan bölməsinin şagirdləri üçün – Azərbaycan dili, rus bölməsinin şagirdləri üçün – rus dili, gürcü bölməsinin şagirdləri üçün – gürcü dili), riyaziyyat və xarici dil fənlərindən vermişlər. Tədris dili Azərbaycan, rus və ya gürcü dillərindən fərqli olan ümumtəhsil müəssisələrinin şagirdləri yalnız riyaziyyat və xarici dil fənləri üzrə imtahan vermişlər. 9-cu və 11-ci siniflər üzrə buraxılış imtahanında üzrsüz səbəbdən iştirak etməyən şagirdlərə attestat verilməmişdir.

Koronavirus (COVID-19) pandemiyasının ölkənin təhsil müəssisələrində təhsil prosesinə mənfi təsirinin aradan qaldırılması ilə bağlı bəzi tədbirlər barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 may 2020-ci il tarixli 179 nömrəli qərarına əsasən "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu qaydaları"nda edilən dəyişikliyə uyğun olaraq cari ildə ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı bir mərhələdə (buraxılış imtahanının II mərhələsinin formatında olmaqla) keçirilmişdir. Buraxılış imtahanları iki mərhələli olduğu zaman, 1 mart 2020-ci il tarixdə Naxçıvan MR, Bakı və Şirvan şəhərləri üzrə imtahanın birinci mərhələsində iştirak etmiş şagirdlərin birinci mərhələdə əldə etdikləri nəticələri buraxılış imtahanı aparılan fənlər üzrə DİM tərəfindən 30 ballıq şkaladan 100 ballıq şkalaya keçirilmişdir.

Həm 9, həm də 11-ci siniflər üzrə buraxılış imtahanlarında tədris dili Azərbaycan dilindən fəqli olan şagirdlər yuxarıda qeyd olunan fənlərdən əlavə dövlət dili kimi Azərbaycan dili fənnindən də imtahan veriblər.

İmtahanlar bölgələr üzrə aşağıdakı tarixlərdə keçirilmişdir:

- **Ümumi təhsil səviyyəsi üzrə buraxılış imtahanı:**
  - 10.06.2020-ci il tarixdə: Goranboy, Göygöl, Daşkəsən, Salyan, Saatlı, Bərdə (I hissə), Ağcabədi, Beyləqan, Siyəzən, Xızı;
  - 11.06.2020-ci il tarixdə: Mingəçevir, Samux, Naftalan, Neftçala, Hacıqabul, Tərtər, Ağdam, Füzuli;
  - 18.06.2020-ci il tarixdə: Sumqayıt (I hissə), Zaqatala, Qax, Göyçay, Ağdaş, Xaçmaz, Qobustan;
  - 19.06.2020-ci il tarixdə: Abşeron (I hissə), Balakən, Oğuz, Kürdəmir, Ağsu, Quba;
  - 24.06.2020-ci il tarixdə: Sabirabad, Qazax;
  - 25.06.2020-ci il tarixdə: İmişli, Ağstafa, Bərdə (II hissə), Astara, Biləsuvar;
  - 02.07.2020-ci il tarixdə: Tovuz, Gədəbəy, Şəki, Lerik, Şamaxı, Ucar, Qusar;
  - 03.07.2020-ci il tarixdə: Şəmkir, Qəbələ, Yardımlı, İsmayıllı, Zərdab, Şabran, Naxçıvan MR;
  - 23.07.2020-ci il tarixdə: Gəncə-Kəpəz, Cəlilabad, Lənkəran, Yevlax;
  - 24.07.2020-ci il tarixdə: Gəncə-Nizami, Masallı;
  - 29.07.2020-ci il tarixdə: Sumqayıt (II hissə), Çilov adası;
  - 30.07.2020-ci il tarixdə: Abşeron (II hissə).

  Qeyd 1: Bəzi şəhər və rayonlar üzrə şagirdlərin hərəkət intensivliyinin azaldılması məqsədilə onlar 2 hissəyə ayrılmış və müxtəlif günlərdə imtahan vermişlər. Cədvəldə bu hal müvafiq olaraq, hissələrlə adlandırılıb.

  Qeyd 2: Məcburi köçkün rayonlarından olan şagirdlər buraxılış imtahanını ümumtəhsil müəssisəsinin yerləşdiyi şəhərdə (rayonda) yuxarıda göstərilən qrafikə uyğun veriblər.

  Qeyd 3: Müxtəlif tipli xüsusi hallar olan ümumtəhsil müəssisələrində buraxılış imtahanları 23.07.2020 tarixdə keçirilib.

  Qeyd 4: Tədris dili ingilis və ya fransız dilində olan ümumtəhsil müəssisələrində buraxılış imtahanı 30.07.2020-ci il tarixdə keçirilib.

- **Tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı:**
  - 10.06.2020-ci il tarixdə: Bakı-Xətai, Sumqayıt (I hissə), Qazax, Şəki, Cəlilabad, Göyçay, Ağdaş, Qusar, Qobustan, Heydər Əliyev adına hərbi lisey;
  - 11.06.2020-ci il tarixdə: Bakı-Nərimanov, Abşeron (I hissə), Ağstafa, Qəbələ, Masallı, Kürdəmir, Ağsu, Şabran;
  - 18.06.2020-ci il tarixdə: Bakı-Qaradağ, Goranboy, Göygöl, Sabirabad, Salyan, Tovuz, Gədəbəy, Lənkəran, Lerik, Ağdam, Beyləqan, Hacıqabul;
  - 19.06.2020-ci il tarixdə: Bakı-Pirallahı, Mingəçevir, Samux, İmişli, Neftçala, Şəmkir, Astara, Yardımlı, Tərtər, Füzuli, Biləsuvar;

- 24.06.2020-ci il tarixdə: Zaqatala, Qax, İsmayıllı, Ucar, Xaçmaz, Siyəzən, Xızı;
- 25.06.2020-ci il tarixdə: Balakən, Oğuz, Şamaxı, Zərdab, Quba;
- 02.07.2020-ci il tarixdə: Daşkəsən, Şirvan, Ağcabədi, Bərdə;
- 03.07.2020-ci il tarixdə: Naftalan, Saatlı, Naxçıvan MR;
- 23.07.2020-ci il tarixdə: Bakı-Nizami, Bakı-Nəsimi, Sumqayıt (II hissə);
- 24.07.2020-ci il tarixdə: Bakı-Sabunçu, Bakı-Səbail, Abşeron (II hissə);
- 29.07.2020-ci il tarixdə: Bakı-Binəqədi, Bakı-Suraxanı, Gəncə-Kəpəz, Çilov adası;
- 30.07.2020-ci il tarixdə: Bakı-Yasamal, Bakı-Xəzər, Gəncə-Nizami, Yevlax.

Qeyd 1: Bəzi şəhər və rayonlar üzrə şagirdlərin hərəkət intensivliyinin azaldılması məqsədilə onlar 2 hissəyə ayrılmış və müxtəlif günlərdə imtahan vermişlər. Cədvəldə bu hal müvafiq olaraq, hissələrlə adlandırılıb.

Qeyd 2: Məcburi köçkün rayonlarından olan şagirdlər buraxılış imtahanını ümumtəhsil müəssisəsinin yerləşdiyi şəhərdə (rayonda) yuxarıda göstərilən qrafikə uyğun veriblər.

Qeyd 3: Müxtəlif tipli xüsusi hallar olan ümumtəhsil müəssisələrində buraxılış imtahanları 29.07.2020 tarixdə keçirilib.

Qeyd 4: Tədris dili ingilis və ya fransız dilində olan ümumtəhsil müəssisələrində buraxılış imtahanı 19.06.2020-ci il tarixdə keçirilib.

Buraxılış imtahanları həm 9-cu siniflər, həm də 11-ci siniflər üzrə tədris dili, riyaziyyat və xarici dil fənləri üzrə keçirilmişdir. Cari ildə Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar 9-cu siniflər üzrə buraxılış imtahanlarının bir mərhələdə keçirilməsi ilə yanaşı, 11-ci siniflər üzrə buraxılış imtahanlarının keçirilməsində də sadələşdirilmələr aparılmışdır. Belə ki, cari ildə 11-ci siniflər üzrə buraxılış imtahanında təqdim olunan yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqların sayı 24-dən 12-yə salınmışdır.

İmtahanda şagirdlərə təqdim olunan sualların strukturu aşağıdakı cədvəldə verilib:

Cədvəl 5.1

Fənlər	**9-cu siniflər üzrə buraxılış imtahanı**		**11-ci siniflər üzrə buraxılış imtahanı**
	I mərhələ	**II mərhələ**	
Xarici dil	Dinləyib-anlamaya dair mətn (publisistik və ya dialoq formalı) və mətnə aid 6 tapşırıq (qapalı tipli 4 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 2 tapşırıq); Oxuyub-anlamaya dair mətn və mətnə aid 9 tapşırıq (qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 4 tapşırıq); Cəmi 15 tapşırıq	30 qapalı tipli tapşırıq	Dinləyib-anlamaya dair mətn (publisistik və ya dialoq formalı) və mətnə aid 6 tapşırıq: qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 1 tapşırıq; Qapalı tipli 16 tapşırıq; Oxuyub-anlamaya dair mətn və mətnə aid 8 tapşırıq: qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 3 tapşırıq. Cəmi 30 tapşırıq
Tədris dili	Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik) və hər mətn üzrə 10 tapşırıq (qapalı tipli 5 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 5 tapşırıq); Cəmi 20 tapşırıq	30 qapalı tipli tapşırıq	Dil qaydalarına dair 10 qapalı tipli tapşırıq; Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik formalı) və hər mətnə aid 10 tapşırıq: qapalı tipli 8 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 2 tapşırıq (cəmi 20 tapşırıq). Cəmi 30 tapşırıq
Riyaziyyat	Həllinin ətraflı şəkildə yazılması tələb olunan 10 açıq tipli tapşırıq	30 qapalı tipli tapşırıq	Qapalı tipli 13 tapşırıq; Cavabların kodlaşdırılması tələb olunan açıq tipli 8 tapşırıq; Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 4 tapşırıq; Cəmi 25 tapşırıq
Cəmi	45 tapşırıq (19 qapalı tipli və yazılı şəkildə cavablandırılması tələb olunan 26 açıq tipli tapşırıq)	90 qapalı tipli tapşırıq	85 tapşırıq (65 qapalı tipli, yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 12 və cavabların kodlaşdırılması tələb olunan 8 açıq tipli tapşırıq)

Balların hesablanması qaydaları aşağıdakı cədvəllərdə təqdim olunub:

Cədvəl 5.2

9-cu sinif buraxılış imtahanı üzrə balların hesablanma qaydası

Fənn	Maksimal bal	Test tapşırıqlarının sayı	Bal
Xarici dil (ingilis, alman, fransız, rus, ərəb, fars dilləri)	**100**	30 (qapalı)	$10/3* n_{d(qapalı)}$
Tədris dili (Azərbaycan, rus və ya gürcü)	**100**	30 (qapalı)	$10/3* n_{d(qapalı)}$
Riyaziyyat	**100**	30 (qapalı)	$10/3* n_{d(qapalı)}$

Qeyd 1: $n_{d\ (qapalı)}$ - qapalı tipli test tapşırıqları üzrə toplanılan balların cəmi.

Qeyd 2: Buraxılış imtahanları ikimərhələli olduğu zaman imtahanın birinci mərhələsində iştirak etmiş şagirdlərin həmin mərhələdə hər bir fənn üzrə topladıqları balları DİM tərəfindən son bir neçə ilin imtahan nəticələri əsasında statistik metodlardan istifadə edilərək 30 ballıq şkaladan 100 ballıq şkalaya keçirilmişdir.

Cədvəl 5.3

11-ci sinif buraxılış imtahanı üzrə balların hesablanma qaydası

Fənnin adı	Maksimal bal	Tapşırıqların sayı	Bal
Tədris dili (Azərbaycan, rus və ya gürcü)	100	**30 tapşırıq** (qapalı tipli 26 tapşırıq və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 4 tapşırıq)	$\frac{50}{17} \cdot (2n_{d(açıq,yazılı)} + n_{d(qapalı)})$
Riyaziyyat	100	**25 tapşırıq** (qapalı tipli 13 tapşırıq, cavabların kodlaşdırılması tələb olunan açıq tipli 8 tapşırıq, həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 4 tapşırıq)	$\frac{100}{29}(2n_{d(açıq,yazılı)} + n_{d(açıq,kod)} + n_{d(qapalı)})$
Xarici dil (ingilis, alman, fransız, rus, ərəb və ya fars dili)	100	**30 tapşırıq** (qapalı tipli 26 tapşırıq və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 4 tapşırıq)	$\frac{50}{17}(2n_{d(açıq,yazılı)} + n_{d(qapalı)})$

Qeyd 1: $n_{d(açıq,\ kod)}$ - cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi;

$n_{d(qapalı)}$ - qapalı tipli tapşırıqlar üzrə balların cəmi;

$n_{d(açıq,\ yazılı)}$ - yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi.

Qeyd 2: Qapalı tipli və cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqların hər birinə verilən düzgün cavab 1 balla qiymətləndirilir.

Qeyd 3: Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar markerlər tərəfindən meyarlar əsasında 0, $\frac{1}{3}$, $\frac{1}{2}$, $\frac{2}{3}$ və ya 1 balla qiymətləndirilə bilərlər.

Ötən ildə olduğu kimi, bu il də həm 9-cu (9-cu siniflər üzrə bu il yalnız 01.03.2020-ci il tarixdə keçirilmiş buraxılış imtahanının birinci mərhələsində dinləmə mətnlərinə aid test tapşırıqlarından istifadə olunub), həm də 11-ci siniflər üzrə buraxılış imtahanında dinləmə mətnlərinə aid test tapşırıqlarından istifadə olunub. Həmin mətnlər DİM-in səsyazma studiyasında səsləndirilib və arxivləşdirilib.

İmtahanda şagirdlərə hər bir xarici dil fənni üzrə 1 dinləmə mətni təqdim olunub. Audioqurğuya yazılmış həmin mətn bütün imtahan zallarına hərəsində bir audioqurğu olmaqla paylanıb. İmtahan başlandıqda audioqurğu yerləşdiyi zərfdən çıxarılıb və işə salınıb. Dinləmə mətni üzrə təqdim olunan tapşırıqlarla tanış olmaları üçün şagirdlərə 2 dəqiqə vaxt ayrılıb və bundan sonra arada 2 dəqiqəlik fasilə ilə mətn 2 dəfə səsləndirilib.

Yazılı və ətraflı şəkildə cavablandırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə şagirdlərin işləri markerlər tərəfindən kompüterlərdə yoxlanılıb. Yoxlama prosesində DİM-in əməkdaşlarının hazırladığı "Onlayn Marker Sistemi" proqram təminatından istifadə olunmuşdur. İstifadə olunan proqram sayəsində Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar tətbiq olunan xüsusi karantin rejimi dövründə markerlər DİM-ə gəlmədən onlayn şəkildə yoxlama prosesində iştirak etmişlər. Yoxlama prosesinin mümkün bütün mərhələləri avtomatlaşdırılmış və bütün təhlükəsizlik tədbirləri görülmüşdür. Belə ki, bir şagirdin cavab

vərəqi proqram vasitəsilə tapşırıq-tapşırıq bölünərək fərqli markerlərə göndərilib və markerin qarşısında oturduğu kompüterin ekranında şagird haqqında heç bir məlumat olmamış, yəni tapşırığı kimin cavablandırdığı tam məxfi saxlanılmışdır. Bundan başqa, yoxlanan tapşırıq üzrə eyni bir iş ən azı iki marker tərəfindən yoxlanılmış, bu markerlərin qiymətləri üst-üstə düşmədiyi halda növbəti markerə müraciət olunmuş, proses ən azı 2 markerin eyni işə verdikləri qiymətlər üst-üstə düşənə qədər davam etdirilmişdir.

Aşağıda təqdim olunan 5.4 və 5.5 saylı cədvəllərdə açıq tipli test tapşırıqlarının yoxlanılması prosesi haqqında statistik məlumat verilib:

Cədvəl 5.4

Açıq tipli test tapşırıqlarının yoxlanılması haqqında statistik məlumat (9-cu siniflər üzrə buraxılış imtahanı)

	İmtahan fənləri				Bütövlükdə
	Azərbaycan dili	**Rus dili**	**Riyaziyyat**	**Xarici dil**	
Tapşırıqların ümumi sayı	343550	56110	399660	239772	1039092
Cavablandırılmayan tapşırıqların sayı *(faizlə)*	76389 (22.24)	7259 (12.94)	199144 (49.83)	111594 (46.54)	394386 (37.95)
Markerlər tərəfindən qiymətləndirilən tapşırıqların sayı	267161	48851	200516	128178	644706
Yoxlamaların ümumi sayı *(bir tapşırıq iki fərqli marker tərəfindən yoxlanılır və qiymətlərin üst-üstə düşmədiyi halda, başqa marker(lər) tərəfindən də yoxlanılır)*	582046	107895	422498	262845	1375284
Orta hesabla bir tapşırığı yoxlayan markerlərin sayı	2.2	2.2	2.1	2.1	2.1
Yoxlama prosesində iştirak edən markerlərin sayı	215	31	127	146	519
Orta hesabla bir markerə düşən tapşırıqların sayı	2707.2	3480.5	3326.8	1800.3	2649.9

Cədvəl 5.5

Açıq tipli test tapşırıqlarının yoxlanılması haqqında statistik məlumat (11-ci siniflər üzrə buraxılış imtahanı)

	İmtahan fənləri					Bütövlükdə
	Azərbaycan dili	**Rus dili**	**Gürcü dili**	**Riyaziyyat**	**Xarici dil**	
Tapşırıqların ümumi sayı	405988	31652	356	438544	445804	1322344
Cavablandırılmayan tapşırıqların sayı *(faizlə)*	166094 (40.91)	9230 (29.16)	177 (49.72)	320892 (73.17)	257707 (57.81)	754100 (57.03)
Markerlər tərəfindən qiymətləndirilən tapşırıqların sayı	239894	22422	179	117652	188097	568244
Yoxlamaların ümumi sayı *(bir tapşırıq iki fərqli marker tərəfindən yoxlanılır və qiymətlərin üst-üstə düşmədiyi halda, başqa marker(lər) tərəfindən də yoxlanılır)*	535008	53131	376	250383	388297	1227195
Orta hesabla bir tapşırığı yoxlayan markerlərin sayı	2.2	2.4	2.1	2.1	2.1	2.2
Yoxlama prosesində iştirak edən markerlərin sayı	234	32	3	149	179	597
Orta hesabla bir markerə düşən tapşırıqların sayı	2286.4	1660.3	125.3	1680.4	2169.3	2055.6

İmtahanın ümumi müddəti həm 9, həm də 11-ci siniflər üzrə 3 saat (tədris dili Azərbaycan, rus və gürcü dillərindən fərqli olan ümumtəhsil müəssisələrinin şagirdləri üçün imtahanın müddəti 2 saat) müəyyən edilmişdir.

Buraxılış imtahanlarından əvvəl şagirdlərə kömək məqsədilə tədris dili (Azərbaycan bölməsinin şagirdləri üçün – Azərbaycan dili, rus bölməsinin şagirdləri üçün – rus dili, gürcü bölməsinin şagirdləri üçün – gürcü dili), riyaziyyat və xarici dil fənlərindən tapşırıq nümunələri hazırlanmış, yazı işinin qiymətləndirilməsi üçün meyarlar müəyyənləşdirilmiş və DİM-in internet saytında yerləşdirilmişdir.

Şagirdlərin rahatlığının təmin olunması üçün imtahanlar yalnız rayon mərkəzlərində deyil, ucqar kənd məktəblərində də keçirilmişdir. Cari ildə 9-cu və 11-ci siniflərin buraxılış imtahanları 419 imtahan mərkəzində təşkil olunmuşdur. İmtahanın təhlükəsizliyinin təmin olunması məqsədilə binalara buraxılış rejimini təşkil etmək üçün 1376 nəfər kişi polis əməkdaşı və Təhsil Nazirliyinin və Gənclər və İdman Nazirliyinin xətti ilə 1302 nəfər qadın əməkdaş cəlb edilmişdir.

İmtahanın idarə olunması üçün hər bir rayonda yerli məktəblərin müəllimlərindən ibarət nəzarətçilər seçilmiş, DİM-in əməkdaşları imtahandan əvvəl onlar üçün yerlərdə təlimlər keçmişdir. Ümumiyyətlə, imtahan prosesində respublikanın ümumi təhsil müəssisələrinin müəllimləri arasından 20327 nəzarətçi, ayrı-ayrı dövlət strukturlarının mütəxəssisləri arasından 2474 imtahan rəhbəri qismində iştirak etmişdir.

Hər buraxılış imtahanından sonra DİM-də və onun regional bölmələrində vətəndaşların buraxılış imtahanları ilə bağlı müraciətlərinə baxılmış və müvafiq qərarlar qəbul edilmişdir.

Buraxılış imtahanlarında cari ilin 195870 məzunu iştirak etmişdir. Onların 116827-si (10 nəfər yalnız Azərbaycan dili (dövlət dili kimi) imtahanında iştirak edib) 9-cu, 79043-ü (20 nəfər yalnız Azərbaycan dili (dövlət dili kimi) imtahanında iştirak edib) isə 11-ci sinif şagirdləri olub. Qeyd edək ki, 2020-ci ildə respublika üzrə 9-cu və 11-ci sinif şagirdlərinin ümumi sayı, müvafiq olaraq, 119000 və 79842 nəfər idi. Göründüyü kimi, buraxılış imtahanlarında bu və ya digər səbəblərdən 2972 nəfər (9-cu və 11-ci siniflər üzrə, müvafiq olaraq, 2173 və 799 nəfər) iştirak etməmişdir.

DİM qəbul imtahanlarının məzmununu və test tapşırıqlarının çətinlik dərəcəsini imtahanın məqsədinə uyğun olaraq maksimum dərəcədə asanlaşdırmışdı. Belə ki, bütün imtahan fənləri üzrə tədris planında çətin sayılan bir sıra mövzulara aid test tapşırıqları imtahana salınmamışdı. İmtahanların keçirilmə tarixləri ilə əlaqədar olaraq da bir sıra mövzular imtahan proqramlarına daxil edilməmişdir. Koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarına əsasən tədris prosesinin dayandırılması, bu səbəbdən respublikanın ümumtəhsil müəssisələrində qüvvədə olan tədris proqramlarına əsasən mart-iyun aylarında tədrisi nəzərdə tutulan mövzuların tədris olunmaması və onlayn qaydada keçilən dərslərin bütün şagirdlər üçün əlçatan olmaması nəzərə alınaraq müəyyən mövzular imtahana salınmamışdır. Cari ildə imtahan proqramlarından çıxarılan mövzular aşağıda təqdim olunmuşdur:

Çətinlik dərəcəsinin asanlaşdırılması və imtahanların keçirilmə tarixləri ilə əlaqədar buraxılış imtahanlarının proqramlarına daxil edilməyən mövzular.

9-cu siniflər üzrə

- **Riyaziyyat:** İkidəyişənli xətti bərabərsizliklər. İkidəyişənli xətti bərabərsizliklər sistemi.
- **Rus dili:** Frazeologiya. Atalar sözləri

11-ci siniflər üzrə

- **Riyaziyyat:** Binomial açılışlar. Bernuli sınaqlar. Çoxhədli funksiya. Rasional funksiya. Müstəvinin tənliyi. Sferanın tənliyi. İkinci tərtib törəmə. Qeyri-müəyyən inteqral. Əyrinin əhatə etdiyi sahə. Müəyyən inteqral və sahə. Nyuton-Leybnis düsturu. Müəyyən inteqralın xassələri. Əyrilərlə hüdudlanmış fiqurun sahəsi. Fırlanmadan alınan fiqurların həcmi. Statistik göstəricilər. Məlumatların paylanma formaları. Normal paylanma. Qutu-qulup diaqramı. Təsadüfi hadisələr və ehtimal. İrrasional tənliklər və bərabərsizliklər. Üstlü tənliklər sistemi. Loqarifmik tənliklər sistemi. Triqonometrik tənliklər sistemi.
- **Rus dili:** Frazeologiya. Atalar sözləri
- **İngilis dili:** Sifətin sıralanması (The order of adjective). Miqdar bildirən sözlər (Quantifier: a great deal of, a majority of).

Koronavirus (COVİD-19) pandemiyası ilə əlaqədar
buraxılış imtahanları proqramlarından ixtisar edilən mövzular.

9-cu siniflər üzrə

- **Azərbaycan dili (tədris dili):** Tabeli mürəkkəb cümlənin tərkib hissələrini bir-birinə bağlayan vasitələr (intonasiya, tabelilik bağlayıvıları, digər vasitələr). Tabeli mürəkkəb cümlələrdə vergül işarəsindən istifadə edilməsi. Tabeli mürəkkəb cümlələrdə bağlayıcı sözlər. Baş və budaq cümlələrin sıralanması. Vasitəsiz nitq. Vasitəsiz nitqdə durğu işarələri (qoşa nöqtə, dırnaq, tire). Vasitəli nitq.
- **Rus dili (tədris dili):** Сложноподчинённые предложения с несколькими придаточными и пунктуация в них.

  Бессоюзные сложные предложения. Знаки препинания между частями бессоюзного сложного предложения. Запятая и точка с запятой, двоеточие и тире в бессоюзном сложном предложении.
- **Riyaziyyat:** Ədədi ardıcıllıq. Ədədi silsilə. Ədədi silsilənin n-ci həddinin və ilk n həddinin cəmi düsturları. Həndəsi silsilə. Həndəsi silsilənin n-ci həddinin və ilk n həddinin cəmi düsturları. Sonsuz həndəsi silsilənin $(|q|<1)$ cəmi.

  Koordinat müstəvisində vektorlar. Vektorun uzunluğu (mütləq qiyməti, modulu). Vektorların toplanması və çıxılması. Vektorun ədədə vurulması. Vektorun komponentləri. Komponentlərinə görə vektorun uzunluğunun hesablanması. Komponentləri verilmiş vektorlar üzərində əməllər. Vektorların kollinearlıq şərti.

  Birləşmələr nəzəriyyəsinin elementləri (permutasiya, kombinezon).
- **Rus dili: Союзы и союзные слова:** и, а, но, пока, так как, потому что, чтобы, если, хотя, как, где, куда, откуда, когда, какой, который и др.

  Сложное предложение.

  Сложные предложения с союзами и союзными словами и, а, но, пока, так как, потому что, чтобы, если, хотя, как, где, куда, откуда, когда, какой, который и др.
- **Fars dili:** Mürəkkəb cümlə. Tabeli və tabesiz mürəkkəb cümlələr.

11-ci siniflər üzrə

- **Riyaziyyat:** Funksiyanın böhran və ekstrmum nöqtələri, törəmənin köməyi ilə onların tapılması. Funksiyanın parçada ən böyük və ən kiçik qiymətləri. Funksiyanın tədqiq sxemi.
- **Fransız dili:** Vasitəsiz və vasitəli nitq. Vasitəsiz nitqin vasitəli nitqə çevrilməsi.
- **Ərəb dili:** İdiomlar, alınma sözlər.
- **Fars dili:** Tabeli mürəkkəb cümlənin tərkib hissələri olan baş və budaq cümlələr. Təyin, tamamlıq, zaman, şərt, səbəb, məqsəd və güzəşt budaq cümləli tabeli mürəkkəb cümlələr və onların yaranma üsulları.

Yuxarıda qeyd olunanlara baxmayaraq, təəssüf ki, 9-cu və 11-ci siniflərin şagirdləri arasında nəinki tədris proqramını minimum mənimsəməyənlər, hətta oxuyub-yazmaqda çətinlik çəkənlər və ya ümumiyyətlə, oxuyub-yazmağı bacarmayanlar da aşkar olunmuşdur. Beləliklə 11-ci sinif şagirdləri arasında 2 nəfər, 9-cu sinif şagirdləri arasında isə 34 nəfərdir. Bu cür halların imtahan rəhbərlərinin əksəriyyətinin protokollarında qeyd olunmamasını nəzərə alsaq, yuxarıda göstərilən faktların, əslində, daha çox olduğunu ehtimal etmək olar. 9-cu siniflər üzrə oxumağı və yazmağı bacarmayan şagirdlərin sayı belədir: Bərdə rayonunda 4 nəfər, Bakı şəhərində 3 nəfər, Goranboy rayonunda 3 nəfər, Gədəbəy, Göygöl, Lənkəran, Lerik, Sabirabad, Şəki və Yardımlı rayonlarının hərəsində 2 nəfər, Ağdaş, Ağsu, Astara, İsmayıllı, Kəlbəcər, Masallı, Oğuz, Qazax, Salyan və Şəmkir rayonlarının hərəsində 1 nəfər. 11-ci siniflər üzrə belə hallara yalnız Gəncə şəhərində və Kəlbəcər rayonunda (hərəsində 1 nəfər) rast gəlinmişdir.

Ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları iki mərhələli olduğu zaman şagirdlər hər fəndən imtahanın I mərhələsində maksimum 30 bal, II mərhələsində 70 bal, cəmi 100 bal toplaya bilərdilər. Cari ildə buraxılış imtahanı koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar NK-nin müvafiq qərarına əsasən əvvəlki illərdə keçirilən buraxılış imtahanlarının II mərhələsinin formatında keçirilmiş və bir mərhələli buraxılış imtahanında hər fənn üzrə maksimal toplanıla bilən bal 100-ə bərabər olmuşdur. 01.03.2020-ci il tarixdə buraxılış imtahanının birinci mərhələsində iştirak etmiş şagirdlərin həmin mərhələdə hər bir fənn üzrə topladıqları balları son bir neçə ilin imtahan nəticələri əsasında statistik metodlardan istifadə edilərək 30

ballıq şkaladan 100 ballıq şkalaya keçirilmişdir. Bütövlükdə buraxılış imtahanında iştirak edən ortastatistik şagird I mərhələdə tədris dili fənni üzrə 49.07, riyaziyyat fənni üzrə 15.97, xarici dil fənni üzrə 28.60, II mərhələdə isə müvafiq olaraq 40.52, 36.48 və 30.45 nisbi bal toplayıb. Hər iki mərhələ üzrə birlikdə göstəricilər belə olub: tədris dili – 45.61, riyaziyyat – 41.18, xarici dil – 34.02 bal. Ortastatik şagirdin ümumi balı 120.69-a bərabər olub. Bir daha nəzərinizə çatdıraq ki, birinci mərhələ üzrə imtahan yalnız Naxçıvan MR-də, Bakı və Şirvan şəhərlərində keçirilmişdir.

Aşağıdakı diaqramlarda hər bir fənn üzrə ayrılıqda şagirdlərin buraxılış imtahanında əldə etdikləri nəticələr göstərilib. Diaqramlarda I mərhələ üzrə təqdim olunan bölgüdə 01.03.2020-ci il tarixdə buraxılış imtahanının birinci mərhələsində iştirak etmiş şagirdlərin, II mərhələ üzrə təqdim olunan bölgüdə isə buraxılış imtahanının II mərhələsinin formatında keçirilən birmərhələli buraxılış imtahanında iştirak edən şagirdlərin nəticələri əks olunmuşdur. Bütövlükdə təqdim olunan bölgüdə isə buraxılış imtahanında iştirak etmiş bütün şagirdlərin nəticələri əks olunmuşdur (01.03.2020-ci il tarixdə buraxılış imtahanının birinci mərhələsində iştirak etmiş şagirdlərin nəticələri 30 ballıq şkaladan 100 ballıq şkalaya keçirilməklə).



Şəkil 5.1



Şəkil 5.2



Şəkil 5.3



Şəkil 5.4

I mərhələdə tədris dili və xarici dil fənlərindən qapalı və açıq tipli tapşırıqların nəticələrini müqayisə etdikdə görürük ki, bu göstəricilər arasında böyük fərq var. Belə ki, I mərhələdə ortastatistik şagirdin tədris dili fənnindən açıq tipli test tapşırıqları üzrə balı (faizlə) 43.57-yə, qapalı tipli test tapşırıqları üzrə isə 60.06-ya, xarici dil fənni üzrə bu göstəricilər müvafiq olaraq 19.68-ə və 40.49-a bərabər olub.

Aşağıdakı cədvəldə ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında hər bir xarici dil fənni üzrə şagirdlərin imtahan nəticələri və tədrisi dili Azərbaycan dilindən fərqli olan şagirdlər üçün dövlət dili kimi Azərbaycan dili fənni üzrə onların imtahan nəticələri də təqdim edilmişdir.

Cədvəl 5.6

Fənlər	Buraxılış imtahanı (I mərh., II mərh., bütövlükdə)	İmtahanda iştirak edənlərin sayı (faizi)	Nisbi ballar üzrə intervallar					
			0	0-20	20-40	40-60	60-80	80-100
İngilis	I mərhələ	37013	1917	16941	8806	4533	2780	2036
		(100.00)	5.18	45.77	23.79	12.25	7.51	5.50
	II mərhələ	61968	463	22903	25245	7622	3782	1953
		(100.00)	0.75	36.96	40.74	12.30	6.10	3.15
	Bütövlükdə	**98981**	**463**	**22903**	**46890**	**16252**	**8484**	**3989**
		(100.00)	**0.47**	**23.14**	**47.37**	**16.42**	**8.57**	**4.03**
Fransız	I mərhələ	377	15	155	114	48	31	14
		(100.00)	3.98	41.11	30.24	12.73	8.22	3.71
	II mərhələ	1777	12	655	677	235	143	55
		(100.00)	0.68	36.86	38.10	13.22	8.05	3.10
	Bütövlükdə	**2154**	**12**	**655**	**882**	**343**	**193**	**69**
		(100.00)	**0.56**	**30.41**	**40.95**	**15.92**	**8.96**	**3.20**
Alman	I mərhələ	206	12	73	42	38	22	19
		(100.00)	5.83	35.44	20.39	18.45	10.68	9.22
	II mərhələ	730	7	212	306	126	59	20
		(100.00)	0.96	29.04	41.92	17.26	8.08	2.74
	Bütövlükdə	**936**	**7**	**212**	**406**	**174**	**98**	**39**
		(100.00)	**0.75**	**22.65**	**43.38**	**18.59**	**10.47**	**4.17**
Ərəb	I mərhələ	23	0	2	2	2	4	13
		(100.00)	0.00	8.70	8.70	8.70	17.39	56.52
	II mərhələ	17	0	10	4	2	0	1
		(100.00)	0.00	58.82	23.53	11.76	0.00	5.88
	Bütövlükdə	**40**	**0**	**10**	**6**	**5**	**5**	**14**
		(100.00)	**0.00**	**25.00**	**15.00**	**12.50**	**12.50**	**35.00**
Rus	I mərhələ	1363	113	620	233	205	114	78
		(100.00)	8.29	45.49	17.09	15.04	8.36	5.72
	II mərhələ	13237	160	5570	5462	1390	491	164
		(100.00)	1.21	42.08	41.26	10.50	3.71	1.24
	Bütövlükdə	**14600**	**160**	**5570**	**6269**	**1650**	**709**	**242**
		(100.00)	**1.10**	**38.15**	**42.94**	**11.30**	**4.86**	**1.66**
Azərbaycan dili (dövlət dili kimi)	**Bütövlükdə**	**9154**	**12**	**658**	**1975**	**2679**	**2972**	**858**
		(100.00)	**0.13**	**7.19**	**21.58**	**29.27**	**32.47**	**9.37**

11-ci sinif üzrə buraxılış imtahanında şagirdlərin nəticələri hər bir fənn üzrə 100 ballıq şkalada qiymətləndirilib. Bütövlükdə buraxılış imtahanında iştirak edən ortastatistik şagird tədris dili fənni üzrə 49.70, riyaziyyat fənni üzrə 29.44, xarici dil fənni üzrə 36.80 bal toplayıb və ümumi balı 115.82-yə bərabər olub. Aşağıdakı diaqramlarda hər bir fənn üzrə ayrılıqda şagirdlərin buraxılış imtahanında əldə etdikləri nəticələr göstərilib. Şəkillərdən də göründüyü kimi, şagirdlərin imtahanda əldə etdikləri nəticələr qənaətbəxş deyil. 9-cu sinfin buraxılış imtahanında olduğu kimi, 11-ci siniflər üzrə buraxılış imtahanında da şagirdlərin bacarıq və vərdişlərinin inkişaf etdirilməsi üzərində qurulan tapşırıqları yerinə yetirməkdə çətinlik

çəkdiklərini görürük. Fənlər üzrə qapalı və açıq tipli tapşırıqların nəticələrini müqayisə etdikdə müəyyən olur ki, bu göstəricilər arasında böyük fərq var. Xüsusilə riyaziyyat fənni üzrə bu fərq daha böyükdür. Belə ki, ortastatistik şagirdin yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə balı (faizlə) tədris dili fənnindən 38.33, xarici dil fənnindən 19.96, riyaziyyat fənnindən 11.56-dır. Qapalı tipli test tapşırıqları üzrə isə bu göstərici tədris dili fənnindən 53.20-yə, xarici dil fənnindən 41.98-ə və riyaziyyat fənnindən 45.19-a bərabər olub. Riyaziyyat fənnindən cavabların kodlaşdırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə orta bal (faizlə) 21.76-dır. Bütün bu təhlillərdən belə qənaətə gəlmək olar ki, ümumtəhsil məktəblərində kurikulumun tətbiqi çox zəifdir və şagirdlərə aşılanan bacarıq və vərdişlər lazımi səviyyədə deyil.



Şəkil 5.5

Aşağıdakı cədvəldə tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında hər bir xarici dil fənni üzrə şagirdlərin imtahan nəticələri və tədrisi dili Azərbaycan dilindən fərqli olan şagirdlər üçün dövlət dili kimi Azərbaycan dili fənni üzrə onların imtahan nəticələri də təqdim edilmişdir.

Cədvəl 5.7

Fənlər	İmtahanda iştirak edənlərin sayı (faizi)	Nisbi ballar üzrə intervallar					
		0	0-20	20-40	40-60	60-80	80-100
İngilis	66832	481	18510	21724	12191	8374	5552
	(100.00)	0.72	27.70	32.51	18.24	12.53	8.31
Fransız	1299	11	387	363	248	183	107
	(100.00)	0.85	29.79	27.94	19.09	14.09	8.24
Alman	693	6	193	254	123	87	30
	(100.00)	0.87	27.85	36.65	17.75	12.55	4.33
Ərəb	16	2	5	3	2	0	4
	(100.00)	12.50	31.25	18.75	12.50	0.00	25.00
Rus	10148	316	3997	3214	1540	782	299
	(100.00)	3.11	39.39	31.67	15.18	7.71	2.95
Azərbaycan dili (dövlət dili kimi)	6323	1	246	1053	1765	2147	1111
	(100.00)	0.02	3.89	16.65	27.91	33.96	17.57

Klassik test nəzəriyyəsi əsasında buraxılış imtahanlarında istifadə edilən testlərin etibarlılığı təhlil olunmuşdur. 9-cu siniflər üzrə buraxılış imtahanının II mərhələsində fənlər üzrə testlərin etibarlılıq əmsalları 0.75-0.98 (Küder-Riçardson (KR-20) və Split-Half), 11-ci siniflər üzrə buraxılış imtahanında isə fənlər üzrə testlərin etibarlılıq əmsalları 0.89-0.95 (KR-20 və Split-Half) hüdudlarında yerləşir. Göründüyü kimi, bu il buraxılış imtahanlarında fənlər üzrə istifadə edilən testlər kifayət qədər etibarlı olmuşdur. Bundan başqa, hər bir imtahan zonasında istifadə edilən buraxılış imtahanı testlərinin Split-Half metodu və Mosye (Mosier) düsturu əsasında bütövlükdə etibarlılıq əmsalları da hesablanmışdır. İmtahan zonaları üzrə ayrı-ayrılıqda aparılmış hesablamalar nəticəsində məlum olmuşdur ki, buraxılış imtahanı testlərinin etibarlılıq əmsalları 9-cu siniflər üzrə buraxılış imtahanının II mərhələsində 0.80-0.98, 11-ci siniflər üzrə 0.83-0.98 intervallarında yerləşir. Təqdim edilən rəqəmlər sübut edir ki, 2020-ci ildə buraxılış imtahanlarında hər bir imtahan zonası üzrə tərtib edilmiş testlər çox yüksək etibarlılıq xassəsinə malikdir.

DİM buraxılış imtahanlarında şagirdlərə təqdim olunan testlərin məzmununu elə layihələşdirmişdi ki, aşağı və orta qabiliyyətlərin ölçülməsində maksimal dəqiqlik təmin edilsin. 5.1 saylı qrafikdə şagirdlərin Azərbaycan dili fənni üzrə bilik və bacarıq səviyyələrinə görə paylanması və hər bir test tapşırığına düşən informasiya əyrisi təqdim edilib. Təqdim olunan informasiya əyrisini və histoqramı müqayisə etdikdə, test tapşırıqlarının qabiliyyət səviyyələrinə görə daha çox şagirdin cəmləşdiyi hissədə bizə daha çox informasiya verdiyini görürük. Bu isə bizə maksimum dəqiqliklə imtahan verən şagirdlərin çoxunun qabiliyyətinin ölçülməsinə imkan verir. Qeyd olunan xüsusiyyətlər riyaziyyat fənni üzrə testlərdə özünü göstərmir. 5.3 saylı qrafikdən də göründüyü kimi, kurikulumun tələbləri səviyyəsində tərtib edilmiş bu testlər 0.50 loqitdə yerləşən şagirdlərin bilik və bacarıqları haqqında maksimal informasiya əldə etməyə imkan verir. Qrafikdəki histoqrama nəzər saldıqda isə, demək olar ki, şagirdlərin yarısının qabiliyyət səviyyələrinin -.60 loqitdən aşağıda yerləşdiyinin şahidi oluruq. Bunun başlıca səbəbi orta məktəblərdə kurikulum üzrə dərslərin hələ də qənaətbəxş şəkildə tədris olunmamasıdır. 5.2 saylı qrafikdə Azərbaycan dili fənni, 5.4 saylı qrafikdə riyaziyyat fənni və 5.5 saylı qrafikdə ingilis dili fənni üzrə şagirdlərin buraxılış imtahanında müxtəlif tipli test tapşırıqları üzrə əldə etdikləri nəticələr arasındakı əlaqə göstərilib. Qrafiklərdən də göründüyü kimi riyaziyyat fənni üzrə qapalı tipli və cavabları kodlaşdırılan açıq tipli test tapşırıqları üzrə orta nəticə göstərən şagirdlər belə, yazılı şəkildə cavablandırılması tələbə olunan açıq tipli test tapşırıqları üzrə çox zəif nəticə göstəriblər. Azərbaycan dili və ingilis dili fənləri üzrə buna bənzər mənzərənin şahidi olsaq da, burada vəziyyət nisbətən daha yaxşıdır.

AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN İNFORMASİYA ƏYRİSİ VƏ ŞAGİRDLƏRİN QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI (11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.1

AZƏRBAYCAN DİLİ FƏNNİ ÜZRƏ ŞAGİRDLƏRİN MÜXTƏLİF TİPLİ TEST TAPŞIRIQLARI ÜZRƏ ƏLDƏ ETDİKLƏRİ NƏTİCƏLƏR ARASINDAKI ƏLAQƏ

(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.2

RİYAZİYYAT FƏNNİNDƏN İNFORMASİYA ƏYRİSİ VƏ ŞAGİRDLƏRİN QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI

(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.3

RİYAZİYYAT FƏNNİ ÜZRƏ ŞAGİRDLƏRİN MÜXTƏLİF TİPLİ TEST TAPŞIRIQLARI ÜZRƏ ƏLDƏ ETDİKLƏRİ NƏTİCƏLƏR ARASINDAKI ƏLAQƏ

(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.4

İNGİLİS DİLİ FƏNNİ ÜZRƏ ŞAGİRDLƏRİN MÜXTƏLİF TİPLİ TEST TAPŞIRIQLARI ÜZRƏ ƏLDƏ ETDİKLƏRİ NƏTİCƏLƏR ARASINDAKI ƏLAQƏ

(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.5

Buraxılış və qəbul imtahanlarının nəticələri əsasında eyni bir məzunun həm buraxılış, həm də qəbul imtahanlarındakı nəticələri arasında stoxastik əlaqənin xarakteri də araşdırılmışdır (5.8 saylı cədvələ bax).

Cədvəl 5.8

BURAXILIŞ VƏ QƏBUL İMTAHANLARININ NƏTİCƏLƏRİ ARASINDA KORRELYASİYA ƏMSALLARI

İXTİSAS QRUPU	Ana dili	Riyaziyyat
I	---	0.872
II	---	0.841
III	0.783	---

Cədvəldən göründüyü kimi, buraxılış və qəbul imtahanının nəticələri arasında əhəmiyyətli sayıla bilən statistik əlaqə mövcuddur. Korrelyasiya əmsalının bu göstəricilərini əsas götürdükdə ortaya belə bir sual çıxır: yalnız eyni bir testin nəticələrindən həm yekun attestasiyanın, həm də ali təhsil müəssisələrinə tələbə qəbulunun aparılmasında istifadə etmək olarmı? Fikrimizcə, bu cür istifadə heç bir halda düzgün deyil. Belə ki, qəbul imtahanı testləri aşağı qabiliyyət intervalında qiymətləndirmədə yüksək dəqiqliyi təmin etmir. Buraxılış imtahanı testləri isə orta və yüksək qabiliyyət intervalında qiymətləndirmədə kifayət qədər effektiv deyil. Başqa sözlə, əgər biz qəbul imtahanı testlərini buraxılış imtahanında iştirak edən məzunlara təqdim etsək, o zaman məzunların çoxu müsbət qiymət ala bilməz və qiymətləndirmənin də keyfiyyəti aşağı olar. Buraxılış imtahanı testlərinin ali təhsil müəssisələrinə qəbul imtahanlarında istifadəsi isə orta və yüksək qabiliyyət səviyyəsinə malik olan abituriyentlərin diferensiasiyasının (bir-birindən fərqləndirilməsinin) keyfiyyətli aparılmasına mənfi təsir göstərər. Nəzərə alınmalıdır ki, keyfiyyətli aparılan qəbul imtahanı sistemi təhsilin keyfiyyətinin yüksəlməsinə təsir göstərən ən mühüm stimullaşdırıcı faktorlardan biridir.

5.6 saylı qrafikdə ali təhsil müəssisələrinə qəbul imtahanlarının nəticəsi əsasında müsabiqədə iştirak edən abituriyentlərin buraxılış imtahanı testləri üzrə düzgün cavablarının paylanması (histoqramı) təqdim edilmişdir. Qrafikdən göründüyü kimi, riyaziyyat və xarici dil fənlərindən fərqli olaraq, ana dili fənni üzrə balların paylanma histoqramları soltərəfli asimmetriyaya malikdir. Riyaziyyat və xarici dil fənləri üzrə şagirdlərin bacarıq və vərdişlərin inkişaf etdirilməsi üzərində qurulan kurikuluma əsaslanan tapşırıqların yerinə yetirilməsindəki çətinlikləri onların nəticələrinə də öz təsirini göstərib. Bu fənlər üzrə şagirdlərin ballarının paylanma histoqramı normal paylanmaya yaxındır. Məlum olduğu kimi, yüksək hazırlıqlı abituriyentləri fərqləndirmək üçün paylanma sağtərəfli asimmetriyaya malik olmalıdır, yəni düzgün cavablandırılan test tapşırıqlarının sayı artdıqca yüksək bal toplayan abituriyentlərin sayı azalmalıdır.

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARININ NƏTİCƏLƏRİ ƏSASINDA MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN BURAXILIŞ İMTAHANI TESTLƏRİ ÜZRƏ DÜZGÜN CAVABLARININ PAYLANMASI



Qrafik 5.6

5.9 və 5.10 saylı cədvəllərdə 9-cu və 11-ci sinif şagirdlərinin buraxılış imtahanlarında təhsil şöbələri üzrə göstərdikləri nəticələr təqdim edilmişdir. Göründüyü kimi, buraxılış imtahanlarında həm 9-cu, həm də 11-ci sinif şagirdləri arasında ən yüksək nəticələri Təhsil Nazirliyi (TN) tabeli və özəl liseylərin şagirdləri əldə etmişlər. 9-cu və 11-ci siniflərin buraxılış imtahanlarında TN tabeli və özəl liseylərin şagirdlərinin bütün fənlər üzrə topladıqları orta bal, müvafiq olaraq, 193.9-a və 195.3-ə bərabər olub. Xatırladaq ki, maksimal toplanıla biləcək bal həm 9, həm də 11-ci siniflər üzrə 300-ə bərabərdir.

9-cu siniflər üzrə buraxılış imtahanında bölgələr arasında ən yüksək nəticəni Naxçıvan, Bakı, Sumqayıt və Naftalan şəhərlərinin, Şahbuz və Ordubad rayonlarının şagirdləri göstərmişlər. Bu bölgələrin ortastatistik şagirdlərinin göstəriciləri, müvafiq olaraq, 147.2, 146.1, 140.2, 139.2, 131.1 və 130.4 bala bərabər olmuşdur. Ən aşağı göstəricilər isə Zərdab və Sabirabad rayonlarının şagirdlərinə (müvafiq olaraq, 89.4 və 88.4 bal) məxsus olub.

11-ci siniflər üzrə buraxılış imtahanında ən yüksək nəticəni Qubadlı rayonunun, Sumqayıt şəhərinin, Zəngilan rayonunun, Bakı şəhərinin şagirdləri əldə etmişlər (müvafiq olaraq, 146.3, 146.2, 139.2 və 138.6 bal). Ən aşağı göstəricilər isə Tərtər, Samux və Yardımlı rayonlarının şagirdlərinə (müvafiq olaraq 80.9, 80.5 və 80.2 bal) məxsusdur.

9-cu və 11-ci sinif şagirdlərinin ayrı-ayrı fənlər üzrə nəticələrinə nəzər salsaq, görərik ki, ən yaxşı nəticələri TN tabeli və özəl liseylərin şagirdləri göstərmişlər. TN tabeli və özəl liseylərin 9-cu sinif şagirdlərinin tədris dili fənni üzrə orta bal 67.5%-ə, riyaziyyat fənni üzrə 67.0%-ya, xarici dil fənni üzrə 59.3%-ə bərabər olmuşdur. 11-ci sinif şagirdlərinin isə tədris dili fənni üzrə düzgün cavabların faizi 73.0, riyaziyyat fənni üzrə 52.5, xarici dil fənni üzrə 68.3 təşkil etmişdir.

Regionlar üzrə 9-cu sinif şagirdləri arasında tədris dili fənnindən ən yaxşı nəticələri Naxçıvan (56.7), Bakı (55.6), Sumqayıt (54.0), Naftalan (53.0), Mingəçevir (50.3) şəhərlərinin, riyaziyyat fənnindən Naxçıvan (51.1), Bakı (49.8) şəhərlərinin, Şahbuz (48.1), Ordubad (46.2) rayonlarının, Sumqayıt (45.7) şəhərinin, Culfa (45.6) rayonunun, Naftalan (45.4) şəhərinin, xarici dil fənnindən isə Naftalan (40.9), Bakı (40.7), Sumqayıt (40.5) şəhərlərinin şagirdlərinə məxsusdur. Tədris dili fənni üzrə ən aşağı nəticələri Ağsu (33.6), Zərdab (33.6) və Sabirabad (32.7) rayonlarının, riyaziyyat fənni üzrə Xaçmaz (31.8), Yevlax (31.8), Sabirabad (31.5), Saatlı (31.2), Zərdab (30.7), Cəlilabad (30.6) rayonlarının, xarici dil fənni üzrə isə Ağsu (24.0), Qobustan (23.8), Yardımlı (23.2) rayonlarının şagirdləri göstərmişlər.

11-ci sinif şagirdləri arasında tədris dili fənni üzrə ən yaxşı göstəricilər Qubadlı (65.0) rayonunun, Sumqayıt (60.0) şəhərinin, Zəngilan (59.6) rayonunun, Bakı (59.4) şəhərinin, Abşeron (59.0) rayonunun, riyaziyyat fənni üzrə Sədərək (49.7), Qubadlı (37.3) rayonlarının, Sumqayıt (37.1) şəhərinin, xarici dil fənni üzrə Sumqayıt (49.1) və Bakı (45.2) şəhərlərinin, Zəngilan (44.3) və Qubadlı (44.0) rayonlarının, Naxçıvan (42.2) şəhərinin, Şahbuz (41.4) və Abşeron (40.0) rayonlarının şagirdlərinə məxsusdur. Tədris dili fənni üzrə ən aşağı göstərici Tərtər (33.6), Samux (33.3), Yardımlı (32.7) rayonlarının, riyaziyyat fənni üzrə Yevlax (19.8), Daşkəsən (19.7) rayonlarının, xarici dil fənni üzrə Lerik (24.8), Yardımlı (23.2), Ağsu (22.1) rayonlarının şagirdlərinə aiddir.

Cədvəl 5.9

9-CU SİNİF ŞAGİRDLƏRİNİN BURAXILIŞ İMTAHANINDAKI GÖSTƏRİCİLƏRİ

№	Təhsil şöbəsi	Məzunların sayı	Orta bal	Tədris dili fənni üzrə imtahan iştirakçılarının sayı	Tədris dili (orta bal, %-lə)					Riyaziyyat fənni üzrə imtahan iştirakçılarının sayı	Riyaziyyat (orta bal, %-lə)			Xarici dil fənni üzrə imtahan iştirakçılarının sayı	Xarici dil (orta bal, %-lə)				
					I m., qapalı	I m., açıq	I m., cəmi	II m.	Cəmi		I m.	II m.	Cəmi		I m., qapalı	I m., açıq	I m., cəmi	II m.	Cəmi
1	Liseylər (TN tabeli və özəl)	3533 (3205)	193.86	3217 (2641;576)	77.80	64.62	69.01	46.93	67.49	3529 (2641;888)	40.79	51.15	67.00	3517 (2641;876)	66.88	48.44	56.34	47.45	59.28
2	Naxçıvan	931	147.23	931 (929;2)	60.87	44.94	50.25	61.65	56.72	931 (929;2)	16.00	50.00	51.11	931 (929;2)	39.11	16.72	26.32	55.00	39.40
3	Bakı	30468	146.08	30468 (29173; 1295)	60.22	43.64	49.17	50.48	55.61	30468 (29173;1295)	15.15	42.99	49.78	30468 (29173; 1295)	39.88	19.07	28.00	40.36	40.69
4	Sumqayıt	4185	140.19	4184 (1;4183)	50.00	45.00	46.67	53.99	53.99	4184 (1;4183)	0.00	45.69	45.69	4184 (1;4183)	33.33	25.00	28.67	40.51	40.52
5	Naftalan	104	139.23	104 (0;104)	-	-	-	53.01	53.01	104 (0;104)	-	45.36	45.36	104 (0;104)	-	-	-	40.87	40.87
6	Şahbuz	148	131.13	148 (147;1)	49.73	36.09	40.63	100.00	49.28	148 (147;1)	10.96	93.30	48.14	148 (147;1)	30.16	10.60	18.98	90.00	33.70

Cədvəl 5.9 (ardı)

№	Təhsil şöbəsi	Məzun-ların sayı	Orta bal	Tədris dili fənni üzrə imtahan iştirakçıları-nın sayı	Tədris dili (orta bal, %-lə)					Riyaziyyat fənni üzrə imtahan iştirakçıları-nın sayı	Riyaziyyat (orta bal, %-lə)			Xarici dil fənni üzrə imtahan iştirakçıları-nın sayı	Xarici dil (orta bal, %-lə)				
					I m., qapalı	I m., açıq	I m., cəmi	II m.	Cəmi		I m.	II m.	Cəmi		I m., qapalı	I m., açıq	I m., cəmi	II m.	Cəmi
7	Ordubad	372 (368)	130.41	372 (371;1)	53.45	36.09	41.88	30.00	49.72	372 (371;1)	12.60	53.30	46.22	368 (367;1)	32.03	11.47	20.30	0.00	34.25
8	Mingə-çevir	1201	129.37	1201 (0;1201)	-	-	-	50.27	50.27	1201 (0;1201)	-	41.64	41.64	1201 (0;1201)	-	-	-	37.45	37.45
9	Qubadlı	836	129.10	836 (160;676)	56.25	43.75	47.92	48.15	49.42	836 (160;676)	12.45	41.91	42.95	836 (160;676)	36.11	14.38	23.70	36.66	36.72
10	Zəngilan	499	128.46	499 (378;121)	52.49	39.40	43.77	42.10	49.24	499 (378;121)	10.91	38.07	44.02	499 (378;121)	34.39	12.96	22.15	32.75	35.20
11	Culfa	385	127.43	385 (385;0)	51.17	32.64	38.81	-	47.22	385 (385;0)	11.20	-	45.56	385 (385;0)	33.97	10.35	20.48	-	34.65
12	Şirvan	1004	124.73	1004 (982;22)	52.48	35.63	41.25	53.03	49.32	1004 (982;22)	7.21	36.81	40.84	1004 (982;22)	31.64	12.20	20.54	38.48	34.57
13	Cəbrayıl	816	122.14	816 (393;423)	52.67	39.80	44.09	41.98	46.67	816 (393;423)	11.40	37.37	41.39	816 (393;423)	34.15	13.21	22.19	32.35	34.07
14	Abşeron	4172	122.12	4172 (2;4170)	60.00	27.50	38.33	46.01	46.01	4172 (2;4170)	13.33	41.03	41.04	4172 (2;4170)	22.22	0.00	9.67	35.07	35.07
15	Şuşa	322	121.67	322 (258;64)	53.64	36.26	42.05	39.22	47.80	322 (258;64)	7.69	35.00	40.03	322 (258;64)	33.20	11.05	20.56	30.78	33.84
16	Gəncə	3359	118.56	3356 (0;3356)	-	-	-	44.78	44.78	3356 (0;3356)	-	37.15	37.15	3356 (0;3356)	-	-	-	36.63	36.63
17	Babək	639	118.44	639 (636;3)	48.62	29.30	35.74	78.90	44.91	639 (636;3)	7.65	80.03	41.95	639 (636;3)	29.94	6.77	16.72	50.00	31.58
18	Oğuz	518	118.05	518 (0;518)	-	-	-	44.06	44.06	518 (0;518)	-	41.72	41.72	518 (0;518)	-	-	-	32.27	32.27
19	Şəki	2015	117.60	2015 (0;2015)	-	-	-	44.12	44.12	2015 (0;2015)	-	42.81	42.81	2015 (0;2015)	-	-	-	30.67	30.67
20	Laçın	1060	115.08	1060 (446;614)	54.17	38.23	43.54	39.40	44.34	1060 (446;614)	10.72	34.89	39.34	1060 (446;614)	33.03	12.74	21.45	28.50	31.40
21	İsmayıllı	955 (953)	114.80	955 (0;955)	-	-	-	43.28	43.28	955 (0;955)	-	39.39	39.39	953 (0;953)	-	-	-	32.13	32.13
22	Neftçala	800	114.76	800 (0;800)	-	-	-	45.27	45.27	800 (0;800)	-	37.71	37.71	800 (0;800)	-	-	-	31.78	31.78
23	Şərur	698	114.33	698 (697;1)	47.58	25.75	33.03	0.00	42.41	698 (697;1)	6.76	0.00	40.34	698 (697;1)	30.16	6.81	16.83	0.00	31.58
24	Kəngərli	236	114.30	236 (235;1)	49.28	26.89	34.35	30.00	43.38	236 (235;1)	7.72	6.70	40.76	236 (235;1)	28.51	5.50	15.37	40.00	30.16
25	Xocavənd	155	113.74	155 (37;118)	51.08	41.89	44.95	41.36	44.00	155 (37;118)	15.99	32.96	37.35	155 (37;118)	38.14	13.06	23.83	30.79	32.40
26	Qax	569	113.65	569 (0;569)	-	-	-	45.04	45.04	569 (0;569)	-	38.53	38.53	569 (0;569)	-	-	-	30.08	30.08
27	Xocalı	145	113.43	145 (19;126)	50.53	37.63	41.93	44.63	45.31	145 (19;126)	9.74	34.97	36.30	145 (19;126)	38.60	10.09	22.30	31.27	31.83
28	Qazax	1044	112.94	1044 (0;1044)	-	-	-	40.41	40.41	1044 (0;1044)	-	39.62	39.62	1044 (0;1044)	-	-	-	32.92	32.92
29	Siyəzən	515	112.62	515 (0;515)	-	-	-	42.93	42.93	515 (0;515)	-	40.48	40.48	515 (0;515)	-	-	-	29.20	29.20
30	Füzuli	1179	109.77	1179 (256;923)	53.44	35.23	41.30	41.64	43.31	1179 (256;923)	9.33	32.80	35.24	1179 (256;923)	32.86	12.76	21.38	30.11	31.22
31	Kəlbəcər	1351 (1345)	109.50	1351 (269;1082)	51.93	32.66	39.08	39.70	41.27	1351 (269;1082)	9.29	34.96	36.85	1345 (269;1076)	33.66	11.46	20.99	30.41	31.33
32	Sədərək	74	108.90	74 (74;0)	46.22	23.31	30.95	-	40.51	74 (74;0)	5.43	-	39.51	74 (74;0)	25.53	5.29	13.99	-	28.89
33	Ağdam	1782	108.83	1782 (322;1460)	53.85	39.50	44.29	41.15	43.10	1782 (322;1460)	10.94	32.92	35.14	1782 (322;1460)	34.85	13.61	22.72	29.32	30.60
34	Salyan	1501	107.07	1501 (0;1501)	-	-	-	41.01	41.01	1501 (0;1501)	-	37.54	37.54	1501 (0;1501)	-	-	-	28.53	28.53

Cədvəl 5.9 (ardı)

№	Təhsil şöbəsi	Məzun-ların sayı	Orta bal	Tədris dili fənni üzrə imtahan iştirakçıları-nın sayı	Tədris dili (orta bal, %-lə)					Riyaziyyat fənni üzrə imtahan iştirakçıları-nın sayı	Riyaziyyat (orta bal, %-lə)			Xarici dil fənni üzrə imtahan iştirakçıları-nın sayı	Xarici dil (orta bal, %-lə)				
					I m., qapalı	I m., açıq	I m., cəmi	II m.	Cəmi		I m.	II m.	Cəmi		I m., qapalı	I m., açıq	I m., cəmi	II m.	Cəmi
35	Göygöl	820	106.95	820 (0;820)	-	-	-	39.84	39.84	820 (0;820)	-	36.04	36.04	820 (0;820)	-	-	-	31.07	31.07
36	Tərtər	845	106.43	845 (0;845)	-	-	-	42.03	42.03	845 (0;845)	-	34.63	34.63	845 (0;845)	-	-	-	29.77	29.77
37	Balakən	966	106.43	966 (0;966)	-	-	-	39.02	39.02	966 (0;966)	-	37.89	37.89	966 (0;966)	-	-	-	29.52	29.52
38	Zaqatala	1279	106.18	1279 (0;1279)	-	-	-	40.87	40.87	1279 (0;1279)	-	35.39	35.39	1279 (0;1279)	-	-	-	29.92	29.92
39	Biləsuvar	1140	105.95	1140 (0;1140)	-	-	-	40.18	40.18	1140 (0;1140)	-	35.05	35.05	1140 (0;1140)	-	-	-	30.72	30.72
40	Bərdə	1775	105.31	1775 (0;1775)	-	-	-	40.07	40.07	1775 (0;1775)	-	34.03	34.03	1775 (0;1775)	-	-	-	31.20	31.20
41	Goranboy	1204	104.71	1204 (0;1204)	-	-	-	39.91	39.91	1204 (0;1204)	-	35.01	35.01	1204 (0;1204)	-	-	-	29.79	29.79
42	Tovuz	1963	104.63	1963 (0;1963)	-	-	-	38.35	38.35	1963 (0;1963)	-	38.32	38.32	1963 (0;1963)	-	-	-	27.96	27.96
43	Lənkəran	2485	104.44	2485 (0;2485)	-	-	-	40.41	40.41	2485 (0;2485)	-	34.32	34.32	2485 (0;2485)	-	-	-	29.72	29.72
44	Qusar	1104 (1094)	104.35	1104 (0;1104)	-	-	-	36.69	36.69	1104 (0;1104)	-	37.60	37.60	1094 (0;1094)	-	-	-	29.98	29.98
45	Ağstafa	933	103.91	933 (0;933)	-	-	-	39.14	39.14	933 (0;933)	-	35.29	35.29	933 (0;933)	-	-	-	29.48	29.48
46	Qəbələ	1315	103.75	1315 (0;1315)	-	-	-	38.52	38.52	1315 (0;1315)	-	36.66	36.66	1315 (0;1315)	-	-	-	28.58	28.58
47	Xızı	184	103.39	184 (0;184)	-	-	-	39.73	39.73	184 (0;184)	-	39.09	39.09	184 (0;184)	-	-	-	24.57	24.57
48	Hacıqabul	816	102.70	816 (1;815)	30.00	15.00	20.00	40.80	40.79	816 (1;815)	0.00	33.35	33.35	816 (1;815)	22.22	33.33	28.67	28.55	28.57
49	Lerik	591 (570)	102.46	591 (1;590)	100.00	25.00	50.00	37.39	37.43	591 (1;590)	11.67	40.25	40.28	570 (1;569)	66.67	33.33	47.67	24.53	24.59
50	Şamaxı	1029 (1024)	102.23	1029 (0;1029)	-	-	-	38.47	38.47	1029 (0;1029)	-	37.49	37.49	1024 (0;1024)	-	-	-	26.21	26.21
51	Astara	1347	101.74	1347 (0;1347)	-	-	-	37.09	37.09	1347 (0;1347)	-	35.34	35.34	1347 (0;1347)	-	-	-	29.30	29.30
52	Göyçay	1438	101.69	1438 (0;1438)	-	-	-	38.23	38.23	1438 (0;1438)	-	33.96	33.96	1438 (0;1438)	-	-	-	29.50	29.50
53	Masallı	2266	101.66	2265 (0;2265)	-	-	-	38.30	38.30	2265 (0;2265)	-	34.50	34.50	2265 (0;2265)	-	-	-	28.86	28.86
54	Ucar	906	101.55	906 (0;906)	-	-	-	37.73	37.73	906 (0;906)	-	36.83	36.83	906 (0;906)	-	-	-	26.99	26.99
55	Samux	700	101.09	700 (0;700)	-	-	-	39.46	39.46	700 (0;700)	-	32.14	32.14	700 (0;700)	-	-	-	29.49	29.49
56	Daşkəsən	274 (263)	100.59	274 (0;274)	-	-	-	37.43	37.43	274 (0;274)	-	33.99	33.99	263 (0;263)	-	-	-	27.98	27.98
57	Beyləqan	1105	100.21	1105 (0;1105)	-	-	-	38.43	38.43	1105 (0;1105)	-	34.61	34.61	1105 (0;1105)	-	-	-	27.17	27.17
58	Yevlax	1354	99.73	1353 (0;1353)	-	-	-	38.50	38.50	1353 (0;1353)	-	31.77	31.77	1353 (0;1353)	-	-	-	29.46	29.46
59	Ağcabədi	1543	98.95	1543 (0;1543)	-	-	-	37.13	37.13	1543 (0;1543)	-	34.16	34.16	1543 (0;1543)	-	-	-	27.66	27.66
60	Quba	1986 (1963)	98.27	1986 (0;1986)	-	-	-	35.69	35.69	1986 (0;1986)	-	35.72	35.72	1963 (0;1963)	-	-	-	26.83	26.83
61	Şəmkir	2637 (2619)	97.22	2619 (0;2619)	-	-	-	35.39	35.39	2637 (0;2637)	-	32.70	32.70	2637 (0;2637)	-	-	-	29.49	29.49
62	Ağdaş	1251	97.13	1251 (0;1251)	-	-	-	37.67	37.67	1251 (0;1251)	-	32.63	32.63	1251 (0;1251)	-	-	-	26.83	26.83

Cədvəl 5.9 (ardı)

№	Təhsil şöbəsi	Məzun-ların sayı	Orta bal	Tədris dili fənni üzrə imtahan iştirakçıları-nın sayı	Tədris dili (orta bal, %-lə)					Riyaziyyat fənni üzrə imtahan iştirakçıları-nın sayı	Riyaziyyat (orta bal, %-lə)			Xarici dil fənni üzrə imtahan iştirakçıları-nın sayı	Xarici dil (orta bal, %-lə)				
					I m., qapalı	I m., açıq	I m., cəmi	II m.	Cəmi		I m.	II m.	Cəmi		I m., qapalı	I m., açıq	I m., cəmi	II m.	Cəmi
63	Şabran	653	96.94	653 (0;653)	-	-	-	37.03	37.03	653 (0;653)	-	33.74	33.74	653 (0;653)	-	-	-	26.18	26.18
64	Xaçmaz	2296	96.17	2296 (0;2296)	-	-	-	36.67	36.67	2296 (0;2296)	-	31.84	31.84	2296 (0;2296)	-	-	-	27.66	27.66
65	İmişli	1213	95.75	1213 (0;1213)	-	-	-	35.89	35.89	1213 (0;1213)	-	32.02	32.02	1213 (0;1213)	-	-	-	27.84	27.84
66	Gədəbəy	905	95.56	905 (0;905)	-	-	-	34.52	34.52	905 (0;905)	-	35.33	35.33	905 (0;905)	-	-	-	25.71	25.71
67	Kürdəmir	1227	93.94	1227 (0;1227)	-	-	-	34.64	34.64	1227 (0;1227)	-	34.58	34.58	1227 (0;1227)	-	-	-	24.72	24.72
68	Yardımlı	570	93.75	570 (0;570)	-	-	-	34.95	34.95	570 (0;570)	-	35.58	35.58	570 (0;570)	-	-	-	23.22	23.22
69	Qobustan	400	93.12	400 (0;400)	-	-	-	36.05	36.05	400 (0;400)	-	33.27	33.27	400 (0;400)	-	-	-	23.80	23.80
70	Ağsu	661	92.80	661 (0;661)	-	-	-	33.59	33.59	661 (0;661)	-	35.20	35.20	661 (0;661)	-	-	-	24.01	24.01
71	Saatlı	1055	92.69	1055 (0;1055)	-	-	-	35.47	35.47	1055 (0;1055)	-	31.18	31.18	1055 (0;1055)	-	-	-	26.04	26.04
72	Cəlilabad	2239	90.09	2239 (0;2239)	-	-	-	34.96	34.96	2239 (0;2239)	-	30.55	30.55	2239 (0;2239)	-	-	-	24.58	24.58
73	Zərdab	605	89.35	605 (0;605)	-	-	-	33.55	33.55	605 (0;605)	-	30.74	30.74	605 (0;605)	-	-	-	25.05	25.05
74	Sabirabad	1908	88.37	1908 (0;1908)	-	-	-	32.68	32.68	1908 (0;1908)	-	31.46	31.46	1908 (0;1908)	-	-	-	24.23	24.23

Cədvəl 5.10

11-Cİ SİNİF ŞAGİRDLƏRİNİN BURAXILIŞ İMTAHANINDAKI GÖSTƏRİCİLƏRİ

№	Təhsil şöbəsi	Məzunların sayı	Orta bal	Tədris dili fənni üzrə imtahan iştirakçıla-rının sayı	Tədris dili (orta bal, %-lə)			Riyaziyyat fənni üzrə imtahan iştirakçıla-rının sayı	Riyaziyyat (orta bal, %-lə)				Xarici dil fənni üzrə imtahan iştirakçıla-rının sayı	Xarici dil (orta bal, %-lə)		
					qapalı	açıq	Cəmi		qapalı	açıq (kod-laşdırılan)	açıq (yazılı)	Cəmi		qapalı	açıq	Cəmi
1	Liseylər (TN tabeli və özəl)	1983 (1766)	195.28	1763	74.98	66.34	72.95	1978	66.07	47.92	35.12	52.52	1978	72.18	55.80	68.33
2	Qubadlı rayonu	550	146.27	550	66.54	60.11	65.03	550	54.04	26.73	20.49	37.25	550	49.73	25.39	44.00
3	Sumqayıt şəhəri	2688	146.21	2687	61.55	54.83	59.97	2687	53.16	26.74	21.41	37.11	2687	53.67	34.40	49.13
4	Zəngilan rayonu	448	139.16	448	61.23	54.27	59.59	448	51.67	26.59	17.22	35.24	448	49.99	25.95	44.33
5	Bakı şəhəri	19172	138.64	19163	62.06	50.94	59.44	19163	49.77	26.02	16.23	33.96	19163	50.58	27.85	45.23
6	Sədərək rayonu	71	131.44	71	60.40	30.99	53.48	71	71.40	54.75	9.39	49.71	71	35.64	4.23	28.25
7	Abşeron rayonu	2381	131.35	2379	60.14	55.42	59.03	2379	46.71	25.77	15.70	32.37	2379	45.08	23.27	39.95
8	Naxçıvan şəhəri	719	131.25	719	59.83	46.73	56.75	719	47.65	26.86	12.71	32.27	719	49.27	19.35	42.23
9	Ordubad rayonu	276 (274)	124.58	276	58.42	45.29	55.33	276	49.16	28.26	11.81	33.09	274	43.11	14.01	36.26
10	Qax rayonu	416	124.42	416	57.81	46.00	55.03	416	50.54	24.49	13.10	33.01	416	41.87	18.51	36.37
11	Şahbuz rayonu	151	124.41	151	57.26	42.05	53.68	151	45.19	23.43	9.49	29.33	151	48.04	19.87	41.41
12	Şuşa rayonu	176	123.24	176	60.77	48.13	57.80	176	42.96	20.88	12.38	28.42	176	41.52	22.37	37.02
13	Cəbrayıl rayonu	675	122.45	675	56.76	37.38	52.20	675	50.10	25.09	11.33	32.50	675	42.96	20.83	37.75
14	Siyəzən rayonu	356	121.74	356	52.40	40.55	49.61	356	53.98	26.79	12.59	35.06	356	42.88	18.22	37.08
15	Naftalan şəhəri	68	120.94	68	60.12	47.06	57.05	68	43.67	23.90	8.21	28.42	68	41.18	16.91	35.47
16	Oğuz rayonu	430	118.80	430	53.76	40.09	50.54	430	47.87	25.87	14.17	32.50	430	41.58	16.86	35.76
17	Qəbələ rayonu	1137	118.76	1137	54.30	55.00	54.46	1137	45.04	25.89	12.05	30.65	1137	39.67	14.12	33.65
18	Gəncə şəhəri	2428	117.78	2426	55.69	39.65	51.91	2426	41.15	20.48	9.91	26.82	2426	44.77	20.47	39.05

Cədvəl 5.10 (ardı)

№	Təhsil şöbəsi	Məzunların sayı	Orta bal	Tədris dili fənni üzrə imtahan iştirakçılarının sayı	Tədris dili (orta bal, %-lə)			Riyaziyyat fənni üzrə imtahan iştirakçılarının sayı	Riyaziyyat (orta bal, %-lə)				Xarici dil fənni üzrə imtahan iştirakçılarının sayı	Xarici dil (orta bal, %-lə)		
					qapalı	açıq	Cəmi		qapalı	açıq (kodlaşdırılan)	açıq (yazılı)	Cəmi		qapalı	açıq	Cəmi
19	Mingəçevir şəhəri	794	117.53	794	53.13	22.92	46.02	794	52.26	27.05	10.27	33.71	794	41.78	24.86	37.80
20	Ağstafa rayonu	675	116.70	675	52.25	46.54	50.90	675	46.58	27.43	8.93	30.90	675	39.34	20.46	34.90
21	Laçın rayonu	880	116.32	880	54.73	43.74	52.14	880	44.72	21.29	9.20	28.45	880	41.46	17.09	35.73
22	İsmayıllı rayonu	710	115.55	710	54.38	44.38	52.02	710	44.88	19.19	13.69	29.18	710	39.27	18.36	34.35
23	Hacıqabul rayonu	336	115.18	336	58.24	31.81	52.02	336	49.45	23.18	8.85	30.99	336	37.40	15.18	32.17
24	Balakən rayonu	645	112.62	645	49.92	34.86	46.38	645	47.35	26.94	12.44	32.08	645	40.17	14.65	34.16
25	Şirvan şəhəri	571	111.98	571	51.84	37.59	48.49	571	46.94	20.56	7.79	28.85	571	39.41	19.18	34.65
26	Kəlbəcər rayonu	1265 (1256)	110.81	1265	53.34	34.56	48.92	1265	43.36	21.13	9.31	27.82	1256	39.45	16.12	33.96
27	Qazax rayonu	735	109.44	735	46.68	30.97	42.98	735	44.95	19.06	10.67	28.34	735	42.74	23.10	38.11
28	Quba rayonu	1247	108.17	1247	49.19	36.55	46.22	1247	44.64	22.33	12.40	29.59	1247	38.22	13.36	32.37
29	Şərur rayonu	522	107.97	522	50.84	35.23	47.16	522	40.75	18.99	6.11	25.18	522	41.91	15.23	35.63
30	Ağdam rayonu	1323	107.17	1323	53.51	32.26	48.51	1323	42.76	17.73	7.01	25.98	1323	37.89	15.76	32.68
31	Culfa rayonu	294	107.12	294	51.11	32.78	46.80	294	42.46	20.07	8.36	26.87	294	40.21	11.48	33.45
32	Kəngərli rayonu	158	106.61	158	50.95	35.36	47.28	158	39.05	17.41	6.43	24.07	158	41.82	13.92	35.26
33	Zaqatala rayonu	894	105.95	894	50.13	39.74	47.68	894	39.67	15.59	10.01	24.84	894	38.58	16.71	33.43
34	Masallı rayonu	1327	105.53	1327	48.85	43.22	47.53	1327	41.79	21.69	8.40	27.03	1327	36.62	12.69	30.98
35	Şamaxı rayonu	571	104.78	571	49.82	34.26	46.16	571	46.01	23.05	9.78	29.67	571	34.83	9.87	28.96
36	Xocalı rayonu	121	104.02	121	55.75	33.40	50.50	121	42.09	14.36	6.89	24.71	121	34.20	11.26	28.80
37	Salyan rayonu	945	103.87	945	50.94	24.99	44.83	945	47.91	22.63	8.37	30.02	945	34.45	11.36	29.02
38	Xocavənd rayonu	74	103.22	74	50.68	28.77	45.53	74	43.87	19.43	8.56	27.37	74	35.97	11.99	30.32
39	Bərdə rayonu	1295	102.78	1295	47.94	31.31	44.03	1295	42.56	17.45	5.86	25.50	1295	38.47	16.33	33.26
40	Lənkəran rayonu	1637	102.74	1637	52.50	28.02	46.74	1637	41.63	17.01	7.76	25.49	1637	35.75	13.51	30.51
41	Babək rayonu	491	102.10	491	50.23	34.12	46.44	491	37.88	16.34	6.19	23.19	491	38.39	13.26	32.48
42	Şəki rayonu	1705	101.82	1705	44.59	36.53	42.69	1705	39.66	16.53	11.86	25.60	1705	37.55	20.44	33.53
43	Tovuz rayonu	1466	100.94	1466	49.88	22.57	43.45	1466	43.31	18.66	7.37	26.58	1466	36.30	13.38	30.90
44	Beyləqan rayonu	707	99.74	707	50.53	23.51	44.17	707	46.48	18.86	4.33	27.22	707	34.13	9.58	28.35
45	Goranboy rayonu	806	98.78	806	50.03	24.24	43.97	806	40.78	15.43	5.72	24.10	806	35.49	15.18	30.71
46	Xızı rayonu	128	98.20	128	45.52	34.86	43.01	128	46.57	20.80	10.42	29.48	128	31.04	8.40	25.70
47	Biləsuvar rayonu	778	98.03	778	44.49	15.42	37.65	778	45.98	23.52	7.13	29.06	778	35.22	18.67	31.32
48	Göygöl rayonu	657	97.70	657	49.64	23.46	43.47	657	41.62	15.41	5.30	24.36	657	35.70	10.90	29.86
49	Qobustan rayonu	255	97.57	255	43.50	31.37	40.65	255	43.23	15.44	10.64	26.56	255	34.90	15.59	30.36
50	Gədəbəy rayonu	696	97.22	696	48.23	23.46	42.40	696	42.45	20.37	8.12	26.88	696	33.44	10.08	27.94
51	Füzuli rayonu	1169	97.19	1169	47.71	24.41	42.23	1169	39.96	16.49	6.63	24.28	1169	35.71	14.36	30.68
52	Neftçala rayonu	591	97.08	591	44.16	14.11	37.09	591	47.33	22.53	6.91	29.32	591	35.13	16.16	30.66
53	Şabran rayonu	488	96.03	488	45.09	41.21	44.18	488	38.38	17.03	6.66	23.73	488	32.41	14.22	28.13
54	Ağdaş rayonu	796	95.51	796	42.76	35.27	41.00	796	37.41	13.47	9.40	23.07	796	35.46	18.42	31.45
55	Lerik rayonu	389	94.86	389	50.22	22.65	43.73	389	43.70	18.25	6.30	26.35	389	30.11	7.46	24.77
56	Qusar rayonu	810	94.80	810	39.93	26.93	36.87	810	36.72	11.71	8.91	22.14	810	39.46	23.87	35.79
57	Şəmkir rayonu	1599 (1586)	93.19	1585	43.29	12.98	36.15	1598	43.76	18.62	5.22	26.18	1598	35.69	16.69	31.22
58	Xaçmaz rayonu	1490 (1470)	92.82	1490	45.49	35.44	43.12	1490	37.19	12.19	8.23	22.29	1470	32.52	10.51	27.34
59	Ağcabədi rayonu	1159	91.80	1159	43.58	24.98	39.20	1159	41.42	15.12	4.41	23.94	1159	34.15	10.80	28.65
60	Göyçay rayonu	924	91.60	924	40.71	29.78	38.14	924	37.20	13.79	8.23	22.74	924	35.36	15.68	30.73
61	Yevlax rayonu	1042	91.33	1042	46.57	25.37	41.58	1042	31.87	16.51	3.57	19.81	1042	35.22	12.74	29.93
62	Ucar rayonu	600	91.21	600	44.54	33.21	41.87	600	38.74	14.00	7.26	23.22	600	31.30	9.25	26.11
63	Astara rayonu	806	90.28	806	40.90	12.31	34.18	806	46.11	20.61	6.73	28.20	806	32.10	14.28	27.90
64	Kürdəmir rayonu	886	90.23	886	42.55	36.68	41.17	886	37.78	17.35	7.77	23.86	886	30.82	6.98	25.21
65	Zərdab rayonu	418	89.70	418	42.91	25.30	38.76	418	39.16	17.91	8.07	24.71	418	32.26	6.64	26.23

Cədvəl 5.10 (ardı)

№	Təhsil şöbəsi	Məzunların sayı	Orta bal	Tədris dili fənni üzrə imtahan iştirakçılarının sayı	Tədris dili (orta bal, %-lə)			Riyaziyyat fənni üzrə imtahan iştirakçılarının sayı	Riyaziyyat (orta bal, %-lə)				Xarici dil fənni üzrə imtahan iştirakçılarının sayı	Xarici dil (orta bal, %-lə)		
					qapalı	açıq	Cəmi		qapalı	açıq (kodlaşdırılan)	açıq (yazılı)	Cəmi		qapalı	açıq	Cəmi
66	Sabirabad rayonu	1130	86.50	1130	45.08	19.16	38.98	1130	37.92	14.89	5.21	22.53	1130	30.31	7.72	24.99
67	İmişli rayonu	891	86.14	891	42.54	14.96	36.04	891	41.07	18.24	5.46	24.94	891	29.19	12.08	25.16
68	Saatlı rayonu	665	85.16	665	41.21	28.36	38.19	665	33.95	12.80	4.84	20.07	665	32.51	8.68	26.90
69	Ağsu rayonu	450	83.00	450	41.68	36.11	40.36	450	34.50	13.58	4.89	20.55	450	27.35	5.00	22.09
70	Cəlilabad rayonu	1546	82.72	1546	37.92	26.41	35.21	1546	36.09	12.62	6.31	21.39	1546	30.59	11.63	26.12
71	Daşkəsən rayonu	200	81.90	200	38.69	19.00	34.06	200	35.73	10.38	3.08	19.72	200	33.48	10.75	28.13
72	Tərtər rayonu	588	80.85	588	40.80	10.23	33.60	588	36.09	11.46	3.22	20.21	588	31.67	11.99	27.03
73	Samux rayonu	459	80.47	459	39.85	11.96	33.29	459	36.92	14.11	3.72	21.45	459	30.10	11.55	25.73
74	Yardımlı rayonu	469	80.21	469	39.72	9.70	32.66	469	41.13	16.66	4.80	24.35	469	27.46	9.38	23.21

Həm 9-cu, həm 11-ci siniflər üzrə buraxılış imtahanlarında tədris dili Azərbaycan dilindən fərqli olan şagirdlər dövlət dili kimi Azərbaycan dilindən imtahan veriblər. Aşağıdakı cədvəldə imtahanın nəticələrini regionlar üzrə göstəriciləri təqdim edilib. Diqqəti daha çox cəlb edən məqam, ölkənin şimal və şimal-qərb hissəsindəki bir çox bölgələrin şagirdlərinin zəif nəticələridir. İsmayıllı, Qax, Qəbələ, Zaqatala, Xaçmaz və Qusar rayonlarının 9-cu sinif ortastatistik şagirdləri təqdim olunan 30 sualın heç yarısına belə cavab verə bilməyiblər. Göründüyü kimi, ölkənin bu hissəsində məktəblərdə Azərbaycan dilindən fərqli dildə tədris alan şagirdlərin dövləti dili üzrə bilik və bacarıqları zəifdir. Hətta qeyd olunan rayonlarda şagirdlərin dövlət dilini mənimsəməyə o dərəcədə də meyilli olmadıqları müşahidə olunur. Bu bölgələrin bəzilərinin 11-ci sinif şagirdlərinin nəticələrinin 9-cu sinif şagirdlərinə nisbətən yaxşı olsa da, bu daha çox ali təhsil müəssisələrinə qəbul olmaq istəyən məzunların hesabınadır. Belə ki, artıq 10 ildən çoxdur ki, ali təhsil müəssisələrinə rus bölməsi üzrə qəbul olmaq istəyən abituriyentlər əlavə olaraq dövlət dili kimi Azərbaycan dili fənnindən də imtahan verirlər.

Cədvəl 5.11

TƏDRİS DİLİ AZƏRBAYCAN DİLİNDƏN FƏRQLİ OLAN ŞAGİRDLƏRİN DÖVLƏT DİLİ KİMİ AZƏRBAYCAN DİLİ FƏNNİ ÜZRƏ BURAXILIŞ İMTAHANINDAKI GÖSTƏRİCİLƏRİ

№	Təhsil şöbəsi	9-CU SİNİF		11-Cİ SİNİF	
		İmtahan iştirakçılarının sayı	(Orta bal, %-lə)	İmtahan iştirakçılarının sayı	(Orta bal, %-lə)
1	Beyləqan rayonu	10	69.68	12	71.11
2	Samux rayonu	11	68.79	8	62.49
3	Naxçıvan şəhəri	19	68.78	21	62.21
4	Salyan rayonu	29	68.27	16	72.30
5	Tərtər rayonu	22	65.30	21	54.44
6	Naftalan şəhəri	9	64.81	4	55.00
7	Ağstafa rayonu	16	62.69	12	72.22
8	Liseylər (TN tabeli və özəl)	1062	62.67	574	70.87
9	Zərdab rayonu	10	62.66	11	76.36
10	Neftçala rayonu	9	62.21	6	49.43
11	Tovuz rayonu	53	61.83	32	61.87
12	Daşkəsən rayonu	14	61.19	8	66.25
13	Astara rayonu	25	60.94	18	49.27
14	Göyçay rayonu	57	60.64	37	69.64
15	Quba rayonu	102	60.42	69	65.17
16	Mingəçevir şəhəri	79	60.17	72	59.30
17	Gəncə şəhəri	565	59.63	393	58.40
18	Şəki rayonu	55	59.15	48	59.86
19	Oğuz rayonu	17	58.64	13	58.22

Cədvəl 5.11 (ardı)

№	Təhsil şöbəsi	9-CU SİNİF		11-Cİ SİNİF	
		İmtahan iştirakçılarının sayı	(Orta bal, %-lə)	İmtahan iştirakçılarının sayı	(Orta bal, %-lə)
20	Şəmkir rayonu	70	58.57	47	70.99
21	Yevlax rayonu	62	57.79	58	56.26
22	Lənkəran rayonu	110	56.06	65	55.69
23	Abşeron rayonu	248	55.99	184	58.43
24	Bərdə rayonu	46	55.65	26	63.85
25	Sabirabad rayonu	47	55.11	25	60.80
26	Hacıqabul rayonu	8	54.59	6	42.78
27	Göygöl rayonu	17	54.51	13	63.32
28	Gədəbəy rayonu	6	54.45	2	58.35
29	Şabran rayonu	8	53.75	6	62.78
30	Şamaxı rayonu	41	53.58	30	50.56
31	Şirvan şəhəri	38	53.42	34	66.76
32	Bakı şəhəri	4852	53.41	3374	62.14
33	İmişli rayonu	21	53.01	16	65.21
34	Sumqayıt şəhəri	351	52.86	243	56.19
35	Goranboy rayonu	20	52.84	23	63.77
36	Balakən rayonu	117	51.40	75	53.60
37	Ucar rayonu	15	50.67	16	52.29
38	Siyəzən rayonu	12	50.28	0	---
39	Ağdaş rayonu	20	50.16	20	53.34
40	Masallı rayonu	30	49.44	40	54.83
41	Qazax rayonu	27	49.26	26	62.68
42	Kürdəmir rayonu	8	48.34	12	55.55
43	Biləsuvar rayonu	12	47.78	12	66.67
44	Qəbələ rayonu	49	47.75	69	47.68
45	Zaqatala rayonu	114	46.55	80	48.79
46	Ağcabədi rayonu	26	46.41	31	66.98
47	Saatlı rayonu	10	44.34	8	80.00
48	Xaçmaz rayonu	220	43.02	163	42.23
49	Qusar rayonu	227	42.20	130	50.57
50	İsmayıllı rayonu	28	39.27	30	33.89
51	Qax rayonu	87	38.92	80	37.00
52	Şərur rayonu	1	16.70	2	60.00

Rayonlar üzrə buraxılış və qəbul imtahanlarının nəticələrinin müqayisəli təhlili göstərir ki, bir çox rayonların məzunlarının buraxılış və qəbul imtahanları üzrə göstəriciləri arasında uyğunluq mövcuddur. Lakin bəzi rayonların göstəricilər arasında nisbi uyğunsuzluq vardır. Bu, buraxılış və qəbul imtahanında iştirak edən seçmələrin müxtəlifliyi ilə izah olunur. Məlum olduğu kimi, buraxılış imtahanında, demək olar ki, bütün məzunlar iştirak edir. Amma qəbul imtahanlarında mənzərə bir qədər dəyişir. Məzunların qəbul imtahanlarında iştiraketmə faizi rayondan-rayona dəyişdiyi üçün qabiliyyət göstəriciləri üzrə müvafiq rayonun məzunlar seçməsinin strukturunda müəyyən dəyişikliklər baş verir. Buna görə də rayonlar üzrə imtahan nəticələrinin təhlili zamanı məzunların həm buraxılış, həm də qəbul imtahanlarındakı nəticələri nəzərə alınmalıdır.

9-cu siniflər üzrə buraxılış imtahanında şagirdləri yüksək nəticə göstərən məktəblər sırasında Bakı və Sumqayıt şəhərlərində yerləşən ümumi təhsil müəssisələri üstünlük təşkil edir ki, bunların da bir çoxu liseylərdir (bax: cədvəl 5.12). Lakin imtahan göstəriciləri ilə diqqəti ən çox cəlb edən məktəb Biləsuvar rayonunda yerləşən M.İbrahimov adına lisey-məktəb kompleksidir. Cənub regionunu təmsil edən məktəblərin bütövlükdə buraxılış imtahanlarında zəif nəticə göstərmələrinə baxmayaraq, bu liseyin məzunları ölkə üzrə ən yüksək nəticələrdən birinə nail olmuşlar.

Cədvəl 5.12

ŞAGİRDLƏRİ BURAXILIŞ İMTAHANINDA HƏR ÜÇ FƏNN ÜZRƏ BİRLİKDƏ YÜKSƏK NƏTİCƏ GÖSTƏRƏN MƏKTƏBLƏR

(9-cu sinif)

№	M Ə K T Ə B L Ə R	Şagirdlərin sayı	Orta bal
1	Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya	97	276.44
2	Bakı Türk liseyi (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi)	145	260.28
3	Bakı Avropa liseyi	73	250.54
4	Akademik Z.Əliyeva adına lisey	207	245.71
5	Fizika, riyaziyyat və informatika təmayüllü lisey	132	243.72
6	Kimya-biologiya təmayüllü lisey	114	237.36
7	Humanitar fənlər təmayüllü məktəb-lisey	58	230.62
8	Bakı şəhəri 291 saylı Ekologiya liseyi	55	228.38
9	Sumqayıt şəhəri "İstedad" liseyi	61	228.10
10	Sumqayıt şəhəri Texniki və təbiət elmləri liseyi	94	226.46
11	BDU-nun nəzdində «Gənc istedadlar» liseyi	81	225.58
12	H.Əliyev adına Müasir Təhsil Kompleksi	19	224.01
13	Xəzər Universitetinin nəzdində «Dünya» məktəbi	27	223.99
14	Sumqayıt şəhəri "Təfəkkür" liseyi	93	219.57
15	Bakı şəhəri 160 saylı klassik gimnaziya	152	218.99
16	Bakı şəhəri 287 saylı "Zəkalar" liseyi	124	218.09
17	Fizika,riyaziyyat və informatika təmayüllü Respublika liseyinin Gəncə şəhərindəki sinifləri	42	212.30
18	Bakı MODERN məktəbi	45	211.19
19	ERA tam orta məktəbi	14	209.83
20	«İntellekt» məktəb-liseyi	172	209.47
21	«Kaspi» liseyinin Xətai filialı	39	209.44
22	Atatürk liseyi	37	208.92
23	Bakı Slavyan Universitetinin Məktəb-Lisey kompleksi	106	207.83
24	Heydər Əliyev adına lisey	80	207.68
25	Hədəf liseyi MMC	16	207.26
26	Bakı şəhəri 147 saylı texniki-humanitar təmayüllü lisey	62	207.03
27	Şəki şəhər Kimya biologiya təmayüllü Respublika liseyi	20	205.67
28	Kaspi liseyi	44	204.19
29	Bakı şəhəri 23 saylı tam orta məktəb	184	203.89
30	"Elitar" gimnaziya	97	202.65
31	Bakı şəhəri Texniki humanitar lisey	200	202.32
32	«Tərəqqi» liseyi	60	201.87
33	«Ankara Məktəbi» məktəb-liseyi	114	201.57
34	«İdrak» liseyinin Bakı filialı	40	201.23
35	XXI əsr - Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi	19	200.62
36	Bakı şəhəri 62 saylı məktəb-lisey	89	200.44
37	Bakı şəhəri Bakı Türk Anadolu liseyi	42	199.96
38	«Evrika» liseyi	18	197.87
39	Biləsuvar rayonu M. İbrahimov adına Biləsuvar lisey-məktəb kompleksi	63	197.52
40	«UNİSER» MMC-nin nəzdində əsas ümumtəhsil məktəbi	15	197.14

Qeyd: Seçim aparıldıqda yalnız imtahan iştirakçılarının sayı 10-dan az olmayan məktəblərin nəticələri nəzərə alınmışdır.

11-ci siniflər üzrə buraxılış imtahanında da şagirdləri yüksək nəticə göstərən təhsil müəssisələrinin çoxu Bakı və Sumqayıt şəhərlərində yerləşir və bu təhsil müəssisələrinin əksəriyyəti liseylərdir (bax: cədvəl 5.13).

Cədvəl 5.13

ŞAGİRDLƏRİ BURAXILIŞ İMTAHANINDA HƏR ÜÇ FƏNN ÜZRƏ BİRLİKDƏ YÜKSƏK NƏTİCƏ GÖSTƏRƏN MƏKTƏBLƏR

(11-ci sinif)

№	M Ə K T Ə B L Ə R	Şagirdlərin sayı	Orta bal
1	Bakı Türk liseyi (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi)	134	274.34
2	Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya	59	266.31
3	Biləsuvar rayonu M. İbrahimov adına Biləsuvar lisey-məktəb kompleksi	36	242.53
4	Kimya-biologiya təmayüllü lisey	56	238.31
5	Sumqayıt şəhəri "İstedad" liseyi	39	237.12
6	Sumqayıt şəhəri Texniki və təbiət elmləri liseyi	57	235.52
7	Akademik Z.Əliyeva adına lisey	163	235.21
8	Bakı Avropa liseyi	58	227.85
9	BDU-nun nəzdində «Gənc istedadlar» liseyi	37	224.21
10	H.Əliyev adına Müasir Təhsil Kompleksi	10	223.86
11	Sumqayıt şəhəri "Təfəkkür" liseyi	36	218.74
12	Fizika,riyaziyyat və informatika təmayüllü lisey	70	218.02
13	Bakı şəhəri 160 saylı klassik gimnaziya	133	212.95
14	Bakı şəhəri 62 saylı məktəb-lisey	51	211.78
15	«Ankara Məktəbi» məktəb-liseyi	67	209.31
16	«Evrika» liseyi	15	208.30
17	Kaspi liseyi	36	208.12
18	Bakı şəhəri 291 saylı Ekologiya liseyi	29	205.04
19	Bakı şəhəri Texniki humanitar lisey	92	203.35
20	289 saylı tam orta məktəb – "Zəngi" liseyi	86	196.09
21	Qubadlı rayonu Çaytumas kənd tam orta məktəbi	41	195.71
22	Bakı Slavyan Universitetinin Məktəb-Lisey kompleksi	41	195.56
23	Humanitar fənlər təmayüllü məktəb-lisey	24	195.54
24	Bakı şəhəri 54 saylı tam orta məktəb	64	195.15
25	«Kaspi» liseyinin Xətai filialı	22	194.21
26	Atatürk liseyi	20	193.16
27	Heydər Əliyev adına lisey	61	192.90
28	Bakı şəhəri 23 saylı tam orta məktəb	61	191.85
29	Sumqayıt şəhəri 11 saylı tam orta məktəb	70	190.55
30	Qubadlı rayonu Qəzyan kənd tam orta məktəbi	13	189.55
31	Bakı şəhəri 313 saylı tam orta məktəb	40	189.50
32	Bakı şəhəri 129 saylı tam orta məktəb	67	189.48
33	«İntellekt» məktəb-liseyi	91	189.47
34	Bakı MODERN məktəbi	22	188.79
35	"Elitar" gimnaziya	36	188.71
36	Bakı şəhəri 145 saylı tam orta məktəb	96	188.01
37	XXI əsr - Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi	17	187.04
38	Bakı şəhəri 287 saylı "Zəkalar" liseyi	72	186.97
39	S.C.Pişəvəri adına Humanitar fənlər gimnaziyası	49	185.68
40	Bakı şəhəri 240 saylı tam orta məktəb	51	184.16

Qeyd: Seçim aparıldıqda yalnız imtahan iştirakçılarının sayı 10-dan az olmayan məktəblərin nəticələri nəzərə alınmışdır.

5.14-5.29 saylı cədvəllərdə 9-cu və 11-ci siniflər üzrə buraxılış imtahanında ayrı-ayrı fənlər üzrə ən yaxşı nəticə göstərən məktəblərin siyahısı təqdim edilmişdir. Qeyd etmək lazımdır ki, seçim aparıldıqda yalnız imtahan iştirakçılarının sayı 10-dan az olmayan məktəblərin nəticələri nəzərə alınmışdır.

ŞAGİRDLƏRİ BURAXILIŞ İMTAHANI FƏNLƏRİ ÜZRƏ YÜKSƏK NƏTİCƏ GÖSTƏRƏN MƏKTƏBLƏR (9-cu sinif)

Fənn : **Tədris (Azərbaycan) dili** Cədvəl 5.14

№	MƏKTƏBLƏR	Şagirdlərin sayı	Orta bal (%-lə)		
			Bütöv-lükdə	I mərhələ	II mərhələ
1	Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya	97	95.57	---	95.57
2	Sumqayıt şəhəri "İstedad" liseyi	61	83.29	---	83.29
3	Bakı Türk liseyi (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi)	145	82.23	82.46	---
4	Sumqayıt şəhəri Texniki və təbiət elmləri liseyi	94	81.32	---	81.32
5	Akademik Z.Əliyeva adına lisey	125	80.69	79.06	90.61
6	Bakı Avropa liseyi	42	80.52	79.35	96.70
7	Kimya-biologiya təmayüllü lisey	114	79.67	78.04	88.59
8	Humanitar fənlər təmayüllü məktəb-lisey	58	78.93	77.02	98.35
9	Fizika,riyaziyyat və informatika təmayüllü lisey	132	78.30	77.28	65.00
10	Sumqayıt şəhəri «Təfəkkür» liseyi	65	77.90	---	77.90
11	Bakı şəhəri 291 saylı Ekologiya liseyi	34	77.76	76.67	---
12	Xəzər Universitetinin nəzdində «Dünya» məktəbi	19	77.60	75.96	---
13	Bakı şəhəri 160 saylı klassik gimnaziya (əvvəlki 160 saylı tam orta məktəb)	26	76.53	73.87	96.70
14	BDU-nun nəzdində «Gənc istedadlar» liseyi	51	76.51	72.70	95.85
15	Fizika,riyaziyyat və informatika təmayüllü Respublika liseyinin Gəncə şəhərindəki sinifləri	42	75.79	---	75.79
16	«İdrak» liseyinin Bakı filialı	23	75.17	72.46	---
17	H.Əliyev adına Müasir Təhsil Kompleksi	19	75.16	72.16	86.65
18	Bakı şəhəri 287 saylı «Zəkalar» liseyi	124	75.12	72.62	75.53
19	Bakı şəhəri 147 saylı texniki-humanitar təmayüllü lisey	43	74.90	71.83	96.70
20	Atatürk liseyi	37	74.12	72.02	74.15

Fənn : **Azərbaycan dili (dövlət dili kimi)** Cədvəl 5.15

№	MƏKTƏBLƏR	Şagirdlərin sayı	Orta bal (%-lə)
1	Akademik Z.Əliyeva adına lisey	82	76.95
2	Avropa Azərbaycan məktəbi	30	75.88
3	Xəzər Universitetinin nəzdində "Dünya" məktəbi	49	74.96
4	"UNİSER" MMC-nin nəzdində əsas ümumtəhsil məktəbi	11	73.64
5	Bakı Avropa liseyi	31	72.91
6	Bakı şəhəri Texniki humanitar lisey	60	71.61
7	Gəncə şəhəri 17 saylı şəhər orta məktəbi	11	70.61
8	Bakı şəhəri 291 saylı Ekologiya liseyi	21	70.49
9	"Ankara Məktəbi" məktəb-liseyi	43	70.16
10	Beyləqan rayonu 4 saylı şəhər orta məktəbi	10	69.68
11	"Tərəqqi" liseyi	21	69.36
12	Şəmkir rayonu Bakı Oksford məktəbinin Dəllər qəsəbəsindəki filialı	18	69.07

Cədvəl 5.15 (ardı)

№	MƏKTƏBLƏR	Şagirdlərin sayı	Orta bal (%-lə)
13	Samux rayonu İnstitut qəsəbə orta məktəbi	11	68.79
14	Naxçıvan şəhəri 3 saylı orta məktəb	19	68.78
15	Mingəçevir şəhəri 3 saylı şəhər orta məktəbi	31	68.71
16	Sumqayıt şəhəri 'Təfəkkür' liseyi	29	68.51
17	Salyan rayonu Humanitar fənlər təmayüllü 1 saylı məktəb-liseyi	29	68.27
18	Gəncə şəhəri 19 saylı şəhər orta məktəbi	12	68.03
19	BDU-nun nəzdində "Gənc istedadlar" liseyi	30	67.77
20	Bakı MODERN məktəbi	22	67.13

Fənn : **Riyaziyyat**

Cədvəl 5.16

№	MƏKTƏBLƏR	Şagirdlərin sayı	Orta bal (%-lə)		
			Bütövlükdə	I mərhələ	II mərhələ
1	Bakı Türk liseyi (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi)	145	96.27	83.37	---
2	Fizika, riyaziyyat və informatika təmayüllü lisey	132	95.34	80.83	88.35
3	Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya	97	92.34	---	92.34
4	Kimya-biologiya təmayüllü lisey	114	90.49	65.03	80.00
5	Akademik Z.Əliyeva adına lisey	207	90.02	68.66	73.89
6	Bakı Avropa liseyi	73	88.04	60.23	83.30
7	Bakı şəhəri 291 saylı Ekologiya liseyi	55	85.20	55.99	93.30
8	BDU-nun nəzdində «Gənc istedadlar» liseyi	81	80.79	47.69	87.22
9	Humanitar fənlər təmayüllü məktəb-lisey	58	80.71	51.82	81.70
10	Bakı şəhəri 287 saylı «Zəkalar» liseyi	124	78.02	44.49	66.67
11	Bakı şəhəri 160 saylı klassik gimnaziya	152	76.92	40.68	93.30
12	Sumqayıt şəhəri Texniki və təbiət elmləri liseyi	94	76.66	---	76.66
13	Sumqayıt şəhəri «İstedad» liseyi	61	76.29	---	76.29
14	Hədəf liseyi MMC	16	75.78	35.52	---
15	«LANDAU School» ümumi təhsil müəssisəsi MMC	30	75.78	---	75.78
16	Dövlət Sərhəd Xidmətinin xüsusi məktəbi	41	75.74	35.98	---
17	Şəki şəhər Kimya biologiya təmayüllü Respublika liseyi	20	75.67	---	75.67
18	Bakı şəhəri Texniki humanitar lisey	200	75.28	41.61	78.57
19	Bakı MODERN məktəbi	45	74.52	42.70	---
20	Atatürk liseyi	37	74.11	41.41	63.33

Fənn : **İngilis dili**

Cədvəl 5.17

№	MƏKTƏBLƏR	Şagirdlərin sayı	Orta bal (%-lə)		
			Bütövlükdə	I mərhələ	II mərhələ
1	Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziya	97	88.53	---	88.53
2	Bakı Türk liseyi (BDU-nun nəzdində, təsisçi Türkiyə Dəyanət Vəqfi)	145	81.79	80.96	---
3	Bakı Avropa liseyi	73	81.23	80.09	73.30
4	Xəzər Universitetinin nəzdində «Dünya» məktəbi	27	78.00	76.16	---
5	Akademik Z.Əliyeva adına lisey	207	75.77	72.95	75.28

Cədvəl 5.17 (ardı)

№	MƏKTƏBLƏR	Şagirdlərin sayı	Orta bal (%-lə)		
			Bütöv-lükdə	I mərhələ	II mərhələ
6	H.Əliyev adına Müasir Təhsil Kompleksi	19	73.03	68.61	78.35
7	XXI əsr - Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi	19	71.16	66.42	---
8	Humanitar fənlər təmayüllü məktəb-lisey	58	70.97	65.49	85.00
9	Fizika,riyaziyyat və informatika təmayüllü lisey	132	70.08	65.45	53.35
10	Sumqayıt şəhəri «Təfəkkür» liseyi	93	69.89	---	69.89
11	BDU-nun nəzdində «Gənc istedadlar» liseyi	81	69.06	61.65	91.12
12	Sumqayıt şəhəri «İstedad» liseyi	61	68.52	---	68.52
13	Sumqayıt şəhəri Texniki və təbiət elmləri liseyi	94	68.48	---	68.48
14	ERA tam orta məktəbi	14	68.36	63.60	---
15	Bakı şəhəri 23 saylı tam orta məktəb	184	67.46	62.84	51.67
16	Kimya-biologiya təmayüllü lisey	114	67.19	61.19	70.94
17	Bakı MODERN məktəbi	45	67.03	61.37	---
18	«İntellekt» məktəb-liseyi	172	66.92	61.81	35.00
19	«Təlim» firmasının nəzdində tam orta məktəb	38	65.52	59.13	---
20	Bakı şəhəri 160 saylı klassik gimnaziya	107	65.36	58.53	86.70

Fənn : **Fransız dili**

Cədvəl 5.18

№	MƏKTƏBLƏR	Şagirdlərin sayı	Orta bal (%-lə)		
			Bütöv-lükdə	I mərhələ	II mərhələ
1	Bakı şəhəri 87 saylı tam orta məktəb	19	57.92	52.33	20.00
2	«Baku Oksford Skul» orta ümumtəhsil məktəbi	11	57.87	---	57.87
3	Naxçıvan MR Şərur rayonu Yengicə kənd tam orta məktəbi	12	52.91	42.83	---
4	Goranboy rayonu Quşçular kənd tam orta məktəbi	11	50.92	---	50.92
5	İsmayıllı rayonu 1 saylı şəhər tam orta məktəbi	35	46.86	---	46.86
6	Biləsuvar rayonu Çaylı kənd tam orta məktəbi	18	44.27	---	44.27
7	Naxçıvan MR Şərur rayonu Cəlilkənd kənd tam orta məktəbi	21	43.99	31.08	---
8	Qazax rayonu Hüseynbəyli kənd tam orta məktəbi	24	43.18	---	43.18
9	Goranboy rayonu Dəliməmmədli şəhər tam orta məktəbi	38	42.99	---	42.99
10	Naxçıvan MR Şərur rayonu Çomaxtur kənd tam orta məktəbi	13	42.94	30.00	---

Fənn : **Alman dili**

Cədvəl 5.19

№	MƏKTƏBLƏR	Şagirdlərin sayı	Orta bal (%-lə)		
			Bütöv-lükdə	I mərhələ	II mərhələ
1	Bakı şəhəri 160 saylı klassik gimnaziya	45	69.59	63.28	---
2	«Baku Oksford Skul» orta ümumtəhsil məktəbi	10	66.33	---	66.33
3	Xəzər Universitetinin nəzdində «Dünya» məktəbi	25	65.47	---	65.47
4	Bakı şəhəri Məktəb-Lisey Kompleksi	59	56.12	46.30	76.70
5	«LANDAU School» ümumi təhsil müəssisəsi MMC»	23	50.43	---	50.43
6	Avropa Azərbaycan məktəbi	10	47.35	---	47.35
7	Oğuz rayonu 1 saylı şəhər tam orta məktəbi	37	42.16	---	42.16
8	Zaqatala rayonu Bəhmədli kənd tam orta məktəbi	18	39.07	---	39.07

Fənn : **Rus dili** Cədvəl 5.20

№	M Ə K T Ə B L Ə R	Şagirdlərin sayı	Orta bal (%-lə)		
			Bütöv-lükdə	I mərhələ	II mərhələ
38	Göygöl rayonu	216	89	175	33	208	50	40	6
39	Naxçıvan şəhəri	203	65	136	21	200	33	72	11
40	Balakən rayonu	202	125	175	44	192	73	59	8
41	Lerik rayonu	192	78	151	30	181	38	87	10
42	Cəbrayıl rayonu	186	86	102	7	176	63	75	16
43	Şərur rayonu	184	58	124	21	180	25	90	12
44	Saatlı rayonu	183	83	144	26	178	51	64	6
45	Şabran rayonu	178	81	119	17	160	46	93	18
46	Ağstafa rayonu	175	102	133	36	163	55	48	11
47	Ucar rayonu	175	90	131	34	159	40	66	16
48	Ağsu rayonu	170	64	127	17	166	40	47	7
49	Oğuz rayonu	169	92	151	45	135	41	37	6
50	Babək rayonu	165	45	126	17	161	20	61	8
51	Samux rayonu	160	52	121	13	154	33	27	6
52	Tərtər rayonu	159	68	99	16	151	48	31	4
53	Gədəbəy rayonu	159	62	115	12	154	40	64	10
54	Yardımlı rayonu	156	51	124	15	148	30	46	6
55	Neftçala rayonu	142	78	99	24	123	40	62	14
56	Culfa rayonu	141	40	99	9	139	22	56	9
57	Zərdab rayonu	134	56	97	17	124	30	60	9
58	Siyəzən rayonu	133	82	106	27	114	32	68	23
59	Qubadlı rayonu	129	69	79	15	122	39	59	15
60	Qax rayonu	122	70	102	24	112	41	26	5
61	Hacıqabul rayonu	122	61	89	27	102	26	38	8
62	Zəngilan rayonu	111	61	66	9	104	39	53	13
63	Ordubad rayonu	79	28	62	10	74	14	42	4
64	Qobustan rayonu	77	38	55	16	74	20	28	2
65	Kəngərli rayonu	72	22	53	9	72	10	31	3
66	Daşkəsən rayonu	65	27	48	7	62	20	16	0
67	Şahbuz rayonu	61	19	43	7	61	12	10	0
68	Şuşa rayonu	54	32	29	7	48	20	14	5
69	Sədərək rayonu	45	22	30	10	42	7	29	5
70	Xocalı rayonu	43	17	24	5	43	10	10	2
71	Xızı rayonu	39	24	28	2	35	13	22	9
72	Xocavənd rayonu	39	17	15	2	38	11	13	4
73	Naftalan şəhəri	31	19	26	6	30	13	5	0
	Cəmi	**22064**	**10432**	**15903**	**3015**	**20348**	**5545**	**8604**	**1872**

BÖLGƏLƏR ÜZRƏ MƏZUNLARIN **TƏDRİS DİLİ** FƏNNİNDƏN
ORTA BALLARININ (%-LƏ) PAYLANMASI (9-cu siniflər üzrə buraxılış imtahanı)



Şəkil 6.29

BÖLGƏLƏR ÜZRƏ MƏZUNLARIN **RİYAZİYYAT** FƏNNİNDƏN
ORTA BALLARININ (%-LƏ) PAYLANMASI (9-cu siniflər üzrə buraxılış imtahanı)



Şəkil 6.30

BÖLGƏLƏR ÜZRƏ MƏZUNLARIN **XARİCİ DİL** FƏNNİNDƏN
ORTA BALLARININ (%-LƏ) PAYLANMASI (9-cu siniflər üzrə buraxılış imtahanı)



Şəkil 6.31

BÖLGƏLƏR ÜZRƏ MƏZUNLARIN **ORTA BALLARININ PAYLANMASI**
(9-cu siniflər üzrə buraxılış imtahanı)



Şəkil 6.32

BÖLGƏLƏR ÜZRƏ **OĞLAN VƏ QIZ MƏZUNLARIN NİSBİ SAYI**
(9-cu siniflər üzrə buraxılış imtahanı)



BÖLGƏ MƏZUNLARININ ÜMUMİ SAYINDA OĞLAN MƏZUNLARIN PAYI (%-LƏ)

- 46 - 48
- 48 - 50
- 50 - 52
- 52 - 54
- 54 - 56
- 56 - 58
- 58 - 60
- 60 - 62
- >62

Şəkil 6.33

BÖLGƏLƏR ÜZRƏ ORTASTATİSTİK MƏZUNUN **TƏDRİS DİLİ** FƏNNİ ÜZRƏ ORTA BALLARININ (%-LƏ) PAYLANMASI (11-ci siniflər üzrə buraxılış imtahanı)



- <33
- 33 - 37
- 37 - 41
- 41 - 45
- 45 - 49
- 49 - 53
- 53 - 57
- 57 - 61
- >61

Şəkil 6.34

BÖLGƏLƏR ÜZRƏ ORTASTATİSTİK MƏZUNUN **RİYAZİYYAT** FƏNNİ ÜZRƏ
ORTA BALLARININ (%-LƏ) PAYLANMASI (11-ci siniflər üzrə buraxılış imtahanı)



Şəkil 6.35

BÖLGƏLƏR ÜZRƏ ORTASTATİSTİK MƏZUNUN **XARİCİ DİL** FƏNNİ ÜZRƏ
ORTA BALLARININ (%-LƏ) PAYLANMASI (11-ci siniflər üzrə buraxılış imtahanı)



Şəkil 6.36

BÖLGƏLƏR ÜZRƏ MƏZUNLARIN **ORTA BALLARININ PAYLANMASI**
(11-ci siniflər üzrə buraxılış imtahanı)



Şəkil 6.37

BÖLGƏLƏR ÜZRƏ **OĞLAN VƏ QIZ MƏZUNLARIN NİSBİ SAYI**
(11-ci siniflər üzrə buraxılış imtahanı)



Şəkil 6.38

ƏLAVƏLƏR

Ali təhsil müəssisələrinə qəbul imtahanlarının II mərhələsində iştirak edən nəzarətçilərin fəaliyyəti

A.H.Bağırov, A.E.Həbibov

İmtahanların təşkili və idarə edilməsi prosesində mühüm amillərdən biri zal nəzarətçilərinin işinin səmərəli qurulmasıdır. Bu prosesə cəlb olunan şəxslərin seçimi, təyinatı, fəaliyyətinin qiymətləndirilməsi, nəzarətçi bazasının təkmilləşdrilməsi DİM-in müəyyən etdiyi müəyyən meyar və prinsiplərə əsaslanır. Zal nəzarətçisi cavab kartlarının (vərəqlərinin) və sual kitabçalarının düzgün paylanmasına və yığılmasına görə məsuliyyət daşıyan, imtahan prosesində obyektivliyin və şəffaflığın təminatçısı olan, imtahan verənlərin davranış qaydalarına riayət etməsinə birbaşa nəzarəti həyata keçirən şəxsdir. Müvafiq bazanın yaradılması məqsədilə zal nəzarətçilərinin seçilməsi iki formada həyata keçirilir:

1) Zal nəzarətçilərinin könüllülük və müqavilə əsasında seçilməsi. Bir neçə mərhələdən ibarət olan bu seçimdə müxtəlif qiymətləndirmə meyarları və prinsipləri əsas götürülür. Birinci mərhələdə bazaya yeni nəzarətçilərin əlavə olunması məqsədilə ümumtəhsil müəssisələri və digər təşkilatlarla iş aparılır, nəzarətçilərə aid şəxsi məlumatlar dəqiqləşdirildikdən sonra onlar xüsusi hazırlanmış internet proqramı vasitəsi ilə nəzarətçilər bazasına daxil edilir.

Növbəti mərhələ imtahanların idarə olunmasına cəlb edilməsi nəzərdə tutulan şəxslərlə təlimlərin – seminar-məşğələlərin keçirilməsidir. Təlimlərdə imtahanın texnologiyasına dair prosedur qaydalarının mənimsənilməsi üçün interaktiv üsullara, sorğu-suallara əsaslanan öyrənmə formasına, dialoqlara, izahat işinin videomaterialların müşayiəti ilə aparılmasına üstünlük verilir. Seminar-məşğələlərin keçirilməsi zamanı qarşıya aşağıdakı məqsədlər qoyulur:

– *nəzarətçilərin fərdi keyfiyyətləri ilə yaxından tanış olmaq,*
– *şəxsi anket məlumatlarını dəqiqləşdirmək,*
– *onlara imtahan texnologiyalarını və imtahanın gedişi ilə bağlı prosedur qaydalarını mənimsətmək,*
– *abituriyent auditoriyasının – imtahan zalının idarə olunmasında professionallığın əldə olunması baxımından mühüm olan məqamları izah etmək,*
– *imtahanın gedişində rast gəlinəcək problemlərin həlli yollarını izah etmək,*
– *nəzarətçi–abituriyent, nəzarətçi–imtahan rəhbəri münasibətlərinin tənzimlənməsində əsas tutulmalı qaydaları onların diqqətinə çatdırmaq,*
– *xüsusi hallarda onların operativ qərar qəbuletmə qabiliyyətlərini interaktiv üsullarla – sorğu-suallarla ortaya çıxarmaq.*

Seminar-məşğələlər ayrı-ayrı rayonlar (şəhərlər) üzrə 25–30 nəfərlik qruplarla real imtahan zalında həyata keçirilir. Qarşıya qoyulan məqsədə nail olunması üçün onlara imtahanın gedişi – abituriyentlərin imtahan zalına buraxılması zamanı sənədlərin yoxlanılması, öz sıra və yerlərində oturmaları, cavab kartlarının (vərəqlərinin), sual kitabçalarının paylanmasında diqqət etməli olduqları məqamlar, nəzarətçi protokolunun düzgün doldurulması, abituriyentlərin davranış qaydalarına uyğun davranması, imtahan rəhbərləri ilə koordinasiyalı fəaliyyətin qurulması və imtahan zalının idarə olunması qaydası izah olunur. Bunların yaddaşda möhkəmləndirilməsi məqsədi ilə imtahanın bütün mərhələlərini özündə əks etdirən videoçarx nümayiş etdirilir. Bu mərhələdə hər bir nəzarətçinin test imtahanlarının prosedur qaydalarını nəzəri baxımdan mənimsəmə səviyyəsi müəyyənləşdirilməklə yanaşı, onun fərdi keyfiyyətlərinin də nəzarətçi üçün tələb olunan aşağıdakı meyarlara cavab verməsi dəyərləndirilir:

– imtahan rəhbəri və abituriyentlərlə ünsiyyət qura bilməsi;
– təmkinlilik nümayiş etdirməsi və emosional olmaması;
– fiziki göstəricilərinin (hərəkətlilik-dinamiklik, sağlamlıq imkanlarının məhdud olmaması və s.) nəzarətçilik fəaliyyətini yerinə yetirməsinə uyğun olması;

– auditoriyanı idarəetmə qabiliyyətinə malik olması;

– informasiyanı imtahan iştirakçılarına doğru çatdırması və təlqinetmə keyfiyyətlərinə malik olması;

– abituriyentin imtahanda davranışı ilə bağlı xüsusi hallarda doğru qərar qəbul edə bilməsi;

– təlimati qaydalara riayət olunması, sənədləşmənin aparılması baxımından ciddilik nümayiş etdirməsi;

– imtahanın texnologiyası ilə əlaqədar meydana çıxan suallar qarşısında operativlik nümayiş etdirməsi.

Növbəti seçim mərhələsi DİM tərəfindən keçirilən sınaq imtahanları mərhələsini əhatə edir. Sınaq imtahanları nəzarətçilər bazasına yeni daxil edilmiş şəxslərin qəbul imtahanlarına yararlılığı səviyyəsinin yoxlanılması baxımından xüsusilə mühüm əhəmiyyət daşıyır. Bu mərhələdə nəzarətçinin **yuxarıda sadalanan fərdi keyfiyyətlərə malik olub-olmaması bir daha nəzərdən keçirilir, onun qəbul və buraxılış imtahanlarına hazır olub-olmaması haqda rəy dəqiqləşdirilir.**

Sınaq imtahanları yekunlaşdıqdan sonra hansı nəzarətçilərin sınaqlara cəlb olunduğu, aldıqları qiymətlər, sınaq imtahanlarında baş vermiş xüsusi hallar ayrıca araşdırma mövzusu olur. Beləliklə, biz qəbul və buraxılış imtahanlarına hazırlığa dair kəmiyyət və keyfiyyət göstəricilərini nəzərdən keçirmək imkanı əldə edirik.

Nəzarətçilərin seçimi mərhələlərində əsas götürülən tələblər və meyarlar nəticə etibarı ilə imtahan iştirakçılarının öz bilik səviyyəsini dolğun nümayiş etdirməsi üçün lazımi şəraitin yaradılmasına, şəffaflığın və obyektivliyin təmin olunmasına hesablanır.

2) Zal nəzarətçisinin fəaliyyətinin sertifikatlaşdırılması .

Dövlət İmtahan Mərkəzi model, texnologiya və məzmun baxımından müxtəlif imtahanlar həyata keçirir. Bu müxtəliflik zal nəzarətçilərinin fəaliyyətinin təkmilləşdirilməsini və peşəkarlıq səviyyəsinin yüksəldilməsini zəruriləşdirir. Zal nəzarətçisinin fəaliyyətinin sertifikatlaşdırılması qaydaları birinci növbədə bu məqsədlərə nail olmağa xidmət edir. Digər tərəfdən, bu yolla işdə rəqabətlilik artırılaraq daha keyfiyyətli idarəetmə reallaşır, ictimaiyyətin daha geniş hissəsi imtahanlara cəlb edilərək idarəetmədə şəffaflıq təmin edilir. Zal nəzarətçisi kimi sertifikat almaq istəyənlər üçün aşağıdakı tələblər qoyulur:

- ali təhsilli,
- tabeliyindən və mülkiyyət növündən asılı olmayaraq hər hansı bir təşkilatda hazırda işləyən (və ya iş yerinin olub-olmamasından asılı olmayaraq pedaqoji profilli ixtisaslar üzrə bakalavr ali peşə-ixtisas dərəcəsi olanlar),
- yaşı 25-45 (cari zal nəzarətçiləri bazasında olanlar üçün 25-55) arasında olan
- məhkumluğu olmayan və fiziki cəhətdən sağlam olan şəxslər müraciət edə bilərlər.

Bunun üçün namizəd elektron qeydiyyatdan keçir, müsahibəyə və psixometrik testə dəvət olunur, ümumi intellekt səviyyəsi yoxlanılır, iki günlük ***səmərəli ünsiyyət texnikaları*** və ***imtahanların texnologiyaları*** adlı intensiv təlimlərə cəlb edilir, imtahanların texnologiyası ilə bağlı yekun imtahandan keçir. Mərhələləri uğurla başa vuran namizədlər A və B kateqoriya sertifikat əldə edə bilir. Onlara, imtahanların texniki tələbləri gözlənilməklə, təyinat zamanı üstünlük verilir və stimullaşdırıcı tədbir kimi əmək haqları müəyyən çəki əmsalına vurulmaqla hesablanır.

Nəzarətçilərlə təcrübi işin yekun mərhələsi imtahanlar mərhələsidir. Hər bir imtahandan

öncə:

- nəzarətçilər bazasından əvvəlki imtahanda fəaliyyəti "qeyri-kafi" qiymətləndirilən;
- proqram tərəfindən və ya imtahan rəhbəri tərəfindən köçürməyə şərait yaratdığı müəyyənləşdirilən;
- imtahan sənədləri ilə iş və auditoriyanın idarə edilməsi ilə bağlı haqqında neqativ rəy olan;
- üzrsüz olaraq imtahana gəlməyən nəzarətçilər cari bazadan çıxarılır, sonra kompüter proqramı vasitəsi ilə təsadüfi seçim qaydasında nəzarətçilərin binalar və zallar üzrə təyinatı aparılır, vəsiqələri hazırlanır və əlaqələndiricilər vasitəsi ilə nəzarətçilərə paylanır.
- imtahana bir neçə gün qalmış hər bir rayon (şəhər) üzrə həmin cəlb edilən nəzarətçilərlə müvafiq imtahanın idarə edilməsi və texnologiyasına dair təlimlər keçirilir.
- sağlamlıq imkanları məhdud iştirakçılara təhkim edilmiş nəzarətçilərə də ayrıca təlim keçirilir.

sonra:

- imtahanın gedişi haqqında protokol qeydləri zal nəzarətçisi bazası proqramına daxil edilir;
- imtahanın gedişi haqqında protokollar nəzərdən keçirilərək imtahana gəlməyənlərin, imtahandan xaric olunanların, imtahan binasına buraxılmayanların siyahısı hazırlanır, imtahan zamanı baş vermiş xüsusi hallar araşdırılaraq müvafiq formada protokollaşdırılır və bunlara imtahan nəticələrinin emalı zamanı etibarlı hüquqi sənəd kimi müraciət edilir.

Hər bir imtahandan sonra zal nəzarətçilərinin fəaliyyəti barədə rəy və qiymətlər bazaya daxil edilir. Bu qiymətləndirmə iki istiqamətdə aparılır:

1) İmtahan sənədləri (imtahan rəhbərinin protokolu, imtahanın gedişi haqqında protokol, aktlar və s.), imtahan rəhbərləri və DİM nümayəndələrinin rəyləri, abituriyentlərin, valideynlərin, ictimaiyyətin, müxtəlif hökumət və qeyri-hökumət təşkilatlarının müraciəti əsasında aparılan araşdırma və qiymətləndirmə. Bu istiqamətdə aparılan qiymətləndirmə nəticəsində

- imtahana üzrsüz səbəbdən gəlməyən;
- imtahan zamanı imtahan rəhbərinin nəzarətçinin fəaliyyətini qiymətləndirməsinə dair rəyinə əsasən
  - imtahan texnologiyasını və prosedur qaydalarını qeyri-qənaətbəxş bilən;
  - auditoriyanı idarəetmə qabiliyyəti zəif olan;
  - imtahan sənədləri ilə iş aparması lazımi səviyyədə olmayan;
  - abituriyentlər və imtahan rəhbəri ilə ünsiyyətində təlimat qaydalarını pozan;
- imtahanın gedişi haqqında protokolun doldurulmasında ciddi səhvlərə yol verən;
- abituriyentlərin bir-birindən köçürmə hallarına bilərəkdən şərait yaratdığı müəyyənləşdirilən nəzarətçilər cari bazadan çıxarılır, araşdırma aparıldıqdan sonra onlar növbəti imtahana cəlb olunacaq nəzarətçilər bazasından çıxarılır və ya xəbərdarlıq edilir. İmtahan rəhbərləri bu qiymətləndirmələri apararkən "zal nəzarətçilərinin qiymətləndirmə meyarları"na uyğun hərəkət edir. Bu meyarlar imtahan rəhbərinin zal nəzarətçisini obyektiv şəkildə qiymətləndirməsinə imkan verir.

2) Birinci istiqamətdə aparılan araşdırma və qiymətləndirmədə müəyyən subyektiv yanaşmaların ortaya çıxması mümkün olduğundan ikinci istiqamətdə imtahan zalında baş verən və imtahan rəhbərlərinin diqqətindən yayınan faktiki köçürmələrin müəyyənləşdirilməsində kompüter proqramına müraciət olunur. Kontingentin tərkibi, köçürülən fənnin sayı, köçürmədə iştirak edən abituriyentlərin sayı ilə bağlı parametrlər də təhlilə daxil edilərək nəzarətçinin köçürməyə hansı dərəcədə yol verdiyi müəyyənləşdirilir. Nəzarətçilər tərəfindən yol verilən qayda pozuntuları ağır, orta və zəif dərəcə olmaqla üç səviyyədə qiymətləndirilir.

Qəbul imtahanları yekunlaşdırıldıqdan sonra hər iki istiqamətdə aparılan qiymətləndirmələr ümumiləşdirilir.

- Nəzarətçilərin növbəti imtahanlara cəlb olunmasında əsas rol oynayan yekun qiymətlər bazaya daxil edilir.
- Fəaliyyəti qeyri-kafi qiymətləndirilən nəzarətçilər isə müəyyən dövr üçün və ya həmişəlik olaraq bazadan çıxarılır.

Qiymətləndirmənin yekun mərhələsində yuxarıdakı parametrlərlə yanaşı qəbul imtahanında 600-dən yüksək bal toplayan abituriyentlərin sorğu-anketlərində nəzarətçinin fəaliyyətinə verilən qiymətlərə də baxılır.

İmtahanlar yekunlaşdıqdan sonra zal nəzarətçilərinin fəaliyyətlərinin qiymətləndirilməsi və keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi ilə bağlı xüsusi araşdırma aparılır və hesabat-arayış hazırlanır.

Bunların nəticəsində imtahana cəlb edilmiş nəzarətçilər aşağıdakı kateqoriyalara ayrılır:

– fəaliyyəti əla qiymətləndirilənlər, o cümlədən fəxri fərmanlarla təltif olunanlar;

– fəaliyyəti yaxşı qiymətləndirilənlər;

– fəaliyyəti kafi qiymətləndirilənlər;

– fəaliyyəti qeyri-kafi hesab olunanlar, ciddi təlimat pozuntularına və köçürmə hallarına yol verənlər.

İl ərzində keçirilən müxtəlif imtahanlara, ilk növbədə fəaliyyəti yüksək qiymətləndirilən nəzarətçilər cəlb olunurlar. Bu da digər nəzarətçilərin daha yaxşı fəaliyyət göstərməsini stimullaşdırır. Araşdırmanın nəticələri ilə bağlı müvafiq rayon (şəhər) təhsil şöbələrinə, ümumtəhsil müəssisələrinə məktublar ünvanlanır.

İndi isə nəzarətçilərin fəaliyyəti haqqında statistik məlumatlara diqqət yetirək. 2020-ci ildə keçirilən test imtahanlarına cəlb edilməsi nəzərdə tutulan nəzarətçilər bazası 15657 nəfərdən ibarət olmuşdur. Cari ildə nəzarətçilər bazası ümumi təhsil müəssisələrinin pedaqoji işçilərindən, ali təhsil müəssisələrinin, AMEA-nın müxtəlif institutlarının və bir çox dövlət orqanlarının əməkdaşlarından formalaşmışdır. Belə ki, imtahan prosesinə Bakı və Sumqayıt şəhərlərində məskunlaşmış məcburi köçkün rayonlarının (Qubadlı, Laçın, Şuşa və Zəngilan) məktəbləri də daxil olmaqla respublikanın 2344 ümumi təhsil müəssisəsinin, 47 ali təhsil müəssisəsinin, Dövlət İmtahan Mərkəzinin və bir neçə dövlət orqanının əməkdaşları cəlb edilmişdir. Bunlardan əlavə 48 rayon üzrə müxtəlif özəl strukturlarda işləyən və ya iş yeri olmayan, lakin ali pedaqoji təhsili olduğu üçün zal nəzarətçisi sertifikatı alaraq imtahanlara cəlb olunan şəxslər də bu bazada yer alır. Belə nəzarətçilərin ümumi sayı 1058 nəfərdir.

Bu təhlildə I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinin keçirilən qəbul imtahanlarına cəlb olunan nəzarətçilərin fəaliyyəti onların buraxılış, orta ixtisas təhsili müəssisələrinə qəbul və s. digər bütün imtahanlardakı fəaliyyətləri də nəzərə alınmaqla qiymətləndirilib.

2020-ci ildə qəbul imtahanlarına cəlb olunan nəzarətçilərin rayonlar üzrə və ümumilikdə sayı haqqında məlumat aşağıdakı kimidir:

Cədvəl 1

QƏBUL İMTAHANLARINA CƏLB OLUNMUŞ NƏZARƏTÇİLƏRİN RAYONLAR ÜZRƏ SAYI

Rayonlar (Şəhərlər)	İmtahanlara cəlb olunmuş nəzarətçilərin sayı	Bazada nəzarətçilərin ümumi sayı	İmtahanlara cəlbolunma faizi (illərə görə)									
			2020	2019	2018	2017	2016	2015	2014	2013	2012	2011
AMEA	105	220	47,7	45,2	62,7	57,0	16,8	57.0	82,9	59,6	50.4	97.7
Bakı	2139	3934	54,4	55,2	73,4	77,4	60,0	73.1	76,2	62,9	64.7	88.3
Naxçıvan MR	291	473	61,5	47,0	70,8	72,3	50,2	59.3	75,8	69,5	99.2	45.0
Gəncə	414	697	59,4	77,8	80,1	81,6	83,0	84.5	98,2	94,6	77.0	53.1
Şəmkir	166	322	51,6	0,6	--	--	--	--	--	--	--	--
Qazax	120	155	77,4	--	--	--	--	--	--	--	--	--
Ağstafa	103	132	78,0	--	--	--	--	--	--	--	--	--
Sumqayıt	321	629	51,0	44,8	75,3	70,2	57,9	77.2	88,8	82,8	53.9	53.2
Abşeron	213	389	54,8	58,4	83,2	78,2	45,3	60.5	73,3	61,3	59.4	85.4
Şamaxı	80	146	54,8	0,8	--	--	--	--	--	--	--	--
Mingəçevir	196	227	86,3	95,4	80,6	91,5	77,7	93.3	99,1	90,5	--	73,4
Şəki	293	375	78,1	84,2	85,5	98,0	89,2	89.3	98,4	93,9	72.3	25.0
Zaqatala	137	151	90,7	--	--	--	--	--	--	--	--	--
Bərdə	242	323	74,9	77,3	68,1	72,4	--	--	--	18.7	--	--
Şuşa	4	12	33,3	54,5	85,7	80,0	62,5	85.7	78,3	65,4	82.1	88.6
Ağcabədi	173	272	63,6	0,4	66.1	55.4	58,9	54.0	97.4	68.4	--	--
Göyçay	164	248	66,1	91,4	91,8	68,4	85,5	79.7	98,1	86,8	--	--
Kürdəmir	141	184	76,6	0,6	--	--	--	--	--	--	--	--
Qubadlı	22	79	27,8	81,1	71,8	76,5	48,5	77.6	91,5	85,1	51.6	48.8
Laçın	4	18	22,2	75,0	95,7	80,0	38,5	86.7	91,2	63,2	58.5	91.5
Zəngilan	11	27	40,7	47,6	92,3	68,6	73,7	71.4	79,1	41,5	51.7	91.9
Şirvan	123	228	53,9	93,8	80,6	79,9	76,7	72.6	96,9	91,5	--	--
Sabirabad	193	259	74,5	0,4	--	--	--	--	--	--	--	--
Salyan	161	193	83,4	0,6	--	--	--	--	--	--	--	--
Lənkəran	229	367	62,4	91,4	93,2	90,5	90,2	83.9	99,0	95,3	68.9	7.6
Cəlilabad	123	248	49,6	1,3	--	--	--	--	--	--	21.8	--
Masallı	153	217	70,5	0,4	--	--	--	--	--	--	19.8	10.8
Quba	183	265	69,1	2,1	--	--	--	--	--	79.3	--	--
Xaçmaz	196	319	61,4	91,6	85,9	76,9	80,9	77.0	100,0	--	--	--
CƏMİ	**6700**	**11109**	**60,3**	**43,4**	**76,2**	**75,3**	**64,5**	**74.5**	**83,6**	**67,9**	**63,6**	**73,8**

Qeyd-1: Qarşısında "--" işarəsi olan rayonlar müvafiq illərdə qəbul imtahanlarına cəlb edilməmişdir.

Qeyd-2: Cədvəldə adları italik formada verilən rayonlar üzrə 2019-cu ildə yalnız zal nəzarətçisi sertifikatı almış nəzarətçilər qəbul imtahanlarına cəlb edilmişdir.

Qeyd-3: Naxçıvan MR üzrə imtahanlara pandemiya şəraiti nəzərə alınaraq yalnız Naxçıvan şəhər və Babək rayonunun nəzarətçiləri cəlb edilmişdir.

Qeyd-4: AMEA – Azərbaycan Milli Elmlər Akademiyasının elmi-tədqiqat institutlarından cəlb edilmiş əməkdaşları bildirir.

2015-ci ildən başlayaraq ali təhsil müəssisələrinin qabiliyyət tələb edən ixtisaslarına (V ixtisas qrupu) və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanları ayrı günlərdə həyata keçirildiyi üçün I-IV ixtisas qrupları üzrə abituriyent sayı azalmış və bu da öz növbəsində qəbul imtahanlarına cəlb olunan nəzarətçi sayında azalmaya səbəb olmuşdu. Belə ki, 2014-ci ildə imtahan prosesinə 6558 nəfər nəzarətçinin cəlb edilməsinə baxmayaraq, 2015-ci ildə bu say 12,5% azalaraq 5737 nəfər olmuş, 2016-cı ildə isə abituriyent kontingentinin təxminən 5000 nəfər azalması ilə bu say 12,6 % də azalaraq 5012 nəfərə düşmüşdü. Lakin 2017-ci ildə hər bir abituriyentə qəbul imtahanlarında iki dəfə iştirak etmə şansı verildiyindən kontingentin sayında kəskin artım (78,2%) baş vermiş, bu da öz növbəsində 2016-cı ilə nəzərən 1780 nəfər (35,5%) daha çox nəzarətçinin prosesə cəlb edilməsinə səbəb olmuşdur. 2018-ci ildə cəlb edilən nəzarətçi sayı isə 2017-ci ilə nəzərən 2,7 % az olmuşdur. 2019-cu ildə bu imtahanlarda iştirak edənlərin sayı əvvəlki ilə nəzərən təxminən 6% azaldığından cari ildə imtahanlara cəlb edilən nəzarətçilərin sayı buna uyğun olaraq azalmış (5605 nəfər) və imtahanlara cəlb edilən bazanın (8948 nəfər, sertifikatlıların təmsil olunduğu rayonun bazası nəzərə alınmadan) 62,6%-nə bərabər olmuşdur. Cari ildə pandemiya ilə əlaqədar olaraq ali təhsil müəssisələrinə qəbul imtahanının II mərhələsi bir dəfə keçirilmişdir. Bu imtahanlarda keçən ilin yaz imtahanlarına nəzərən (müqayisənin doğru alınması üçün keçən ilin yaz qəbul imtahalarında iştirak edən abituriyent sayı götürülür) təxminən 4000 nəfər (təxminən 6% çox) daha çox abituriyent iştirak etmişdir. İmtahanlar 4 gündə keçirildiyindən keçən illə müqayisədə daha çox nəzarətçini imtahanlara cəlb etmək mümkün olmuşdur. Yəni imtahanlara cəlb edilən nəzarətçi bazasında olan hər 5 müəllimdən 3-ü nəzarətçi qismində cəlb edilmişdir. Belə ki, bunlardan 6131 nəfəri 1 dəfə, yalnız 569 nəfəri 2 dəfə cəlb edilmişdir. Yəni prosesə cəlb edilən nəzarətçilərin 84,3%-i yalnız bir dəfə cəlb edilmişdir.

Aşağıdakı 2 saylı cədvəldə qəbul imtahanlarında nəzarətçilərin iştirakını əks edən rəqəmlər təqdim edilmişdir.

Cədvəl 2

NƏZARƏTÇİLƏRIN İMTAHANLARDA İŞTİRAKI

Rayonun, təşkilatın adı	İmtahanlara cəlb edilmiş nəzarətçi sayı (təkrarla, 2020-ci il)	İmtahanda iştirak etməyən nəzarətçilər (illərə görə)											
		2020		2019	2018	2017	2016	2015	2014	2013	2012	2011	Üzrsüz (2020)	
		Nəfər	%-lə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	Nəfər	%-lə (cəlb olunan-ların sayına nəzərən)
AMEA	114	5	4,4	8,8	2.3	8.3	7,9	14.0	12,6	20,9	14.3	4.9	2	1,8
Yasamal	169	10	5,9	5,6	3.9	5.2	2,6	2.4	5,1	6,9	5.3	7.1	4	2,4
Binəqədi	293	15	5,1	5,8	6.9	10.7	4,6	9.7	7,4	6,4	3.3	6.1	12	4,1
Səbail	126	7	5,6	3,8	4.8	10.2	9,0	6.8	7,5	8,3	11.9	7.0	3	2,4
Xətai	380	15	3,9	5,2	3.5	8.1	1,7	5.8	6,9	6,0	7.9	4.0	11	2,9
Xəzər	146	12	8,2	7,8	8.1	9.9	8,4	9.7	9,1	3,9	5.5	4.1	8	5,5
Nərimanov	182	12	6,6	3,0	5.8	4.9	4,6	4.3	6,9	3,5	5.7	4.5	8	4,4
Suraxanı	230	16	7,0	6,1	5.7	8.9	6,7	4.9	5,4	7,0	7.8	4.5	13	5,7
Sabunçu	360	11	3,1	6,0	2.7	6.5	2,5	5.7	4,3	4,4	5.8	5.7	9	2,5
Nəsimi	166	24	14,5	7,5	3.6	7.3	2,5	3.6	6,6	5,5	7.3	2.4	23	13,9
Qaradağ	89	3	3,4	3,7	6.8	8.2	5,1	2.8	3,3	12,6	10.6	9.2	1	1,1
Nizami	230	16	7,0	4,7	5.5	9.1	4,9	3.6	7,0	9,0	6.9	5.1	12	5,2
Naxçıvan MR	297	1	0,3	1,2	1.2	1.6	0,0	0.0	1,4	2,5	2.0	4.4	1	0,3
Gəncə	476	14	2,9	1,6	2.9	1.8	1,3	1.0	3,9	2,8	3.8	1.9	11	2,3
Şəmkir	172	5	2,9	0,0	--	--	--	--	--	--	--	--	5	2,9
Qazax	123	1	0,8	--	--	--	--	--	--	--	--	--	1	0,8
Ağstafa	110	2	1,8	--	--	--	--	--	--	--	--	--	2	1,8
Sumqayıt	323	26	8,0	5,5	2.5	4.1	0,6	2.6	4,0	4,3	6.5	3.9	17	5,3
Abşeron	229	6	2,6	5,0	6.2	3.5	3,3	4.9	5,4	7,0	4.3	4.4	4	1,7

Cədvəl 2 (ardı)

Rayonun, təşkilatın adı	İmtahanlara cəlb edilmiş nəzarətçi sayı (təkrarla, 2020-ci il)	İmtahanda iştirak etməyən nəzarətçilər (illərə görə)												
		2020		2019	2018	2017	2016	2015	2014	2013	2012	2011	Üzrsüz (2020)	
		Nəfər	%-lə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	Nəfər	%-lə (cəlb olunan-ların sayına nəzərən)
Şamaxı	88	1	1,1	0,0	--	--	--	--	--	--	--	--	1	1,1
Mingəçevir	250	6	2,4	3,8	4.4	2.0	2,9	3.3	4,6	3,8	--	6,9	5	2,0
Şəki	307	5	1,6	1,0	2.4	1.3	2,1	0.6	2,8	3,4	3.5	5.8	3	1,0
Zaqatala	160	1	0,6	--	--	--	--	--	--	--	--	--	1	0,6
Bərdə	257	6	2,3	1,5	1.2	1.9	--	--	--	3.3	--	--	6	2,3
Şuşa	4	0	0,0	16,7	5.9	7.7	9,1	0.0	5,6	0,0	4.0	1.9	0	0,0
Ağcabədi	178	6	3,4	0,0	--	2.5	1.9	1.2	4.1	2.5	--	--	6	3,4
Göyçay	172	3	1,7	3,5	0.9	0.5	1,4	1.5	3,1	4,0	--	--	3	1,7
Kürdəmir	143	3	2,1	0,0	--	--	--	--	--	--	--	--	2	1,4
Qubadlı	24	0	0,0	0,7	4.5	3.6	0,0	0.0	4,6	4,5	0.0	0.0	0	0,0
Laçın	4	0	0,0	5,9	7.1	0.0	7,7	3.8	6,5	14,3	6.9	4.1	0	0,0
Zəngilan	13	0	0,0	6,3	3.2	6.9	2,9	3.3	2,9	0,0	0.0	2.0	0	0,0
Şirvan	131	3	2,3	2,2	1.5	1.3	1,2	1.5	2,8	1,6	--	--	2	1,5
Sabirabad	204	3	1,5	0,0	--	--	--	--	--	--	--	--	3	1,5
Salyan	204	4	2,0	0,0	--	--	--	--	--	--	--	--	3	1,5
Lənkəran	240	2	0,8	1,2	2.1	1.0	1,7	1.0	2,8	3,1	3.2	4.5	2	0,8
Cəlilabad	127	4	3,1	0,0	--	--	--	--	--	--	9.3	--	4	3,1
Masallı	154	2	1,3	0,0	--	--	--	--	--	--	6.6	0.0	2	1,3
Quba	189	2	1,1	0,0	--	--	--	--	--	5.3	--	--	2	1,1
Xaçmaz	205	7	3,4	2,4	2.8	2.3	1,2	0.3	3,0	--	--	--	5	2,4
Ümumi	**7269**	**259**	**3,6**	**3,5**	**3.4**	**4.1**	**2,6**	**3,0**	**4,6**	**4,8**	**5,9**	**4,8**	**197**	**2,7**

Qeyd-1: Qarşısında "--" işarəsi olan rayonlar müvafiq illərdə qəbul imtahanlarına cəlb edilməmişdir.

Qeyd-2: Cədvəldə adları italik formada verilən rayonlar üzrə 2019-cu ildə yalnız zal nəzarətçisi sertifikatı almış nəzarətçilər qəbul imtahanlarına cəlb edilmişdir.

Qeyd-3: Naxçıvan MR üzrə imtahanlara pandemiya şəraiti nəzərə alınaraq yalnız Naxçıvan şəhər və Babək rayonunun nəzarətçiləri cəlb edilmişdir.

Cədvəldən göründüyü kimi cari ilin qəbul imtahanlarında 259 nəfər (cəlb olunanların 3,6%-i) imtahanda iştirak etməmişdir. Onlardan 197 nəfər (cəlb olunanların 2.7%-i) üzürsüz səbəbdən imtahanda iştirak etməyənlərdir.

İmtahanlara cəlb olunduğu halda iştirak etməyənlərin faizi ən çox Bakı şəhərinin Xəzər, Suraxanı, Nəsimi və Nizami rayonları üzrə qeydə alınmışdır. Belə ki, bu rayonlar üzrə imtahanda iştirak etməyənlərin faizi respublika üzrə orta göstəricidən təxminən iki dəfədən də yüksəkdir.

İmtahan rəhbərləri zal nəzarətçilərinin imtahanın texnologiyasını mənimsəmə səviyyələrini (abituriyentlərin imtahan zalına buraxılması zamanı sənədlərin yoxlanılması, sıra və yerlərində oturmaları, cavab kartlarının və sual kitabçalarının paylanması qaydası, imtahan sənədləri ilə iş və s.) və imtahan zalını idarəetmə bacarığını (abituriyentlərin davranış qaydalarına əməl etmələrinə nəzarət edilməsi, köçürmə hallarına şərait yaratmaması, sakitliyin təmin olunması və s.) nəzərə alaraq onların fəaliyyətini qiymətləndirmişlər (3 saylı cədvələ bax). Yuxarıda da qeyd olunduğu kimi, imtahan rəhbərləri bu qiymətləndirmələri apararkən "zal nəzarətçilərinin qiymətləndirmə meyarları"nı əsas götürürlər.

Cədvəl 3

İMTAHAN RƏHBƏRLƏRİNİN NƏZARƏTÇİLƏRİN İŞİNİ QİYMƏTLƏNDİRMƏSİNƏ DAİR MƏLUMAT

Rayonun, təşkilatın adı	İmtahanlara cəlb edilən nəzarətçi sayı	Qeyri-kafi		Kafi		Yaxşı		Əla		Qiyməti olmayan	
		Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%
AMEA	109	0	0	1	0,9	6	5,5	100	91,7	2	1,8
Yasamal	159	0	0	1	0,6	15	9,4	141	88,7	2	1,3
Binəqədi	278	0	0	0	0,0	20	7,2	248	89,2	10	3,6
Səbail	119	0	0	0	0,0	11	9,2	108	90,8	0	0,0
Xətai	365	0	0	4	1,1	45	12,3	304	83,3	12	3,3
Xəzər	134	0	0	0	0,0	7	5,2	125	93,3	2	1,5
Nərimanov	170	0	0	1	0,6	14	8,2	154	90,6	1	0,6
Suraxanı	214	0	0	2	0,9	23	10,7	188	87,9	1	0,5
Sabunçu	349	0	0	3	0,9	24	6,9	314	90,0	8	2,3
Nəsimi	142	0	0	0	0,0	7	4,9	134	94,4	1	0,7
Qaradağ	86	0	0	0	0,0	6	7,0	78	90,7	2	2,3
Nizami	214	0	0	4	1,9	21	9,8	188	87,9	1	0,5
Naxçıvan MR	296	0	0	6	2,0	95	32,1	180	60,8	15	5,1
Gəncə	462	0	0	0	0,0	38	8,2	421	91,1	3	0,6
Şəmkir	167	2	1,2	7	4,2	51	30,5	106	63,5	1	0,6
Qazax	122	0	0,0	5	4,1	41	33,6	76	62,3	0	0,0
Ağstafa	108	0	0,0	8	7,4	38	35,2	62	57,4	0	0,0
Sumqayıt	297	0	0,0	2	0,7	42	14,1	250	84,2	3	1,0
Abşeron	223	0	0,0	2	0,9	28	12,6	182	81,6	11	4,9
Şamaxı	87	0	0,0	2	2,3	27	31,0	56	64,4	2	2,3
Mingəçevir	244	0	0,0	1	0,4	15	6,1	216	88,5	12	4,9
Şəki	302	0	0,0	1	0,3	39	12,9	260	86,1	2	0,7
Zaqatala	159	0	0,0	1	0,6	48	30,2	108	67,9	2	1,3
Bərdə	251	0	0,0	5	2,0	36	14,3	207	82,5	3	1,2
Şuşa	4	0	0,0	0	0,0	0	0,0	4	100,0	0	0,0
Ağcabədi	172	0	0,0	7	4,1	61	35,5	100	58,1	4	2,3
Göyçay	169	0	0,0	5	3,0	26	15,4	132	78,1	6	3,6
Kürdəmir	140	0	0,0	13	9,3	32	22,9	92	65,7	3	2,1
Qubadlı	24	0	0,0	0	0,0	3	12,5	20	83,3	1	4,2
Laçın	4	0	0,0	0	0,0	2	50,0	2	50,0	0	0,0
Zəngilan	13	0	0,0	0	0,0	2	15,4	11	84,6	0	0,0
Şirvan	128	0	0,0	2	1,6	25	19,5	100	78,1	1	0,8
Sabirabad	201	0	0,0	7	3,5	84	41,8	107	53,2	3	1,5
Salyan	200	0	0,0	4	2,0	75	37,5	118	59,0	3	1,5
Lənkəran	238	0	0,0	2	0,8	36	15,1	190	79,8	10	4,2
Cəlilabad	123	0	0,0	6	4,9	51	41,5	66	53,7	0	0,0
Masallı	152	0	0,0	5	3,3	55	36,2	87	57,2	5	3,3
Quba	187	0	0,0	5	2,7	38	20,3	139	74,3	5	2,7
Xaçmaz	198	0	0,0	5	2,5	34	17,2	155	78,3	4	2,0
Ümumi	**7010**	**2**	**0,03**	**117**	**1,7**	**1221**	**17,4**	**5529**	**78,9**	**141**	**2,0**

- İmtahanlara cəlb edilmiş 7010 nəzarətçidən 141 nəfəri imtahanda iştirak etməmişdir. Bunlardan 12 nəfəri ehtiyat nəzarətçi olmuş, 129 nəfəri isə zalda olduqları halda fəaliyyətləri qiymətləndirilməmişdir.

2008–2020-ci illərdə nəzarətçilərin qiymətləndirmə meyarları üzrə paylanması aşağıdakı şəkildəki diaqramda təqdim edilmişdir.



Şəkil 1

Qrafikdən göründüyü kimi, 2020-ci il istisna olmaqla fəaliyyəti "əla" qiymətləndirilənlərin faizi getdikcə artmış, fəaliyyəti "qeyri-kafi" və "kafi" qiymətləndirilənlərin faizi isə azalmışdır. 2020-ci ildə fəaliyyəti əla qiymətləndirilənlərin sayının azalmasının və "kafi" və "qeyri-kafi" qiymətləndirilənlərin sayının artmasının əsas səbəbi qəbul imtahanlarının yeni imtahan mərkəzlərində qəbul imtahanları təcrübəsi az olan müəllimlərlə keçirilməsidir. Digər illərdə fəaliyyəti "əla" qiymətləndirilən nəzarətçilərin sayının artmasını, qəbul imtahanları üçün nəzarətçi bazasının ən yaxşılarının seçilməsinə imkan verəcək şəkildə geniş olması, nəzarətçi-müəllimlərlə seminar-məşğələlərin kiçik qruplar şəkilində təşkil edilərək interaktiv üsullarla aparılması, müəllimlərin nəzarətçilik fəaliyyətlərinin yaxşılaşdırılması üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi (mükafatlandırılmaları, təltif olunmaları, fəaliyyətləri yüksək qiymətləndirilənlər barədə işlədikləri təhsil müəssisələrinin məlumatlandırılması) və "zal nəzarətçisi sertifikatı" alan nəzarətçilərin imtahanlarda öncəlikli iştirakının təmin edilməsi kimi faktorlarla izah etmək olar. Bu tendensiyanın səbəblərindən biri də "Zal nəzarətçilərinin fəaliyyətinin qiymətləndirilməsi meyarları"nın imtahan rəhbərləri tərəfindən getdikcə daha dəqiq tətbiq edilməsidir.

İmtahanda iştirak edən nəzarətçilər bazasının fənlər üzrə ümumi tərkibi ilə (şəkil 2) qayda pozuntusuna yol verən nəzarətçilərin fənlər üzrə tərkibi (şəkil 3) müqayisə edilərək cari ildəki qəbul imtahanlarında hansı ixtisas müəllimlərinin, ümumilikdə yol verilən qayda pozuntularında daha çox paya malik olması aşkarlanmışdır.

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN NƏZARƏTÇİLƏRİN İXTİSAS FƏNLƏRİ ÜZRƏ PAYLANMASI (FAİZLƏ)



Şəkil 2

QƏBUL İMTAHANLARINDA NƏZARƏTÇİLƏRİN QAYDA POZUNTUSUNA YOLVERMƏ FAİZİ (İXTİSASLAR ÜZRƏ)



Şəkil 3

Cari ildə qayda pozuntusuna yol verənlərin 34,5%-i ibtidai təhsil, 14%-i tarix müəllimləridir. 2019-cu ildə belə hallara yol verənlərin 20,9%-i ibtidai təhsil, 14,9%-i ingilis dili, 12,3%-i tarix, 9,8%-i ana dili və ədəbiyyat, 6,8%-i kimya, 3,8%-i əmək təlimi müəllimləri idi.

2010–2019-ci illərdə qəbul imtahanlarında iştirak edən ana dili və ədəbiyyat müəllimlərinin sayının nəzarətçilərin ümumi sayının kiçik bir hissəsini (2010-cu ildə 9,8%, 2011-ci ildə 12,2%, 2012-ci ildə 14,8%, 2013-cü ildə 17,4%, 2014-cü ildə 14,6%, 2015-ci ildə 16,3%, 2016-cı ildə 12,9%, 2017-ci ildə 10,7%, 2018-ci ildə 11,3%, 2019-cu ildə 8,5%) təşkil etməsinə baxmayaraq yol verilən qayda pozuntularının böyük bir hissəsi (uyğun olaraq 2010-cu ildə 18,4%, 2011-ci ildə 24,2%, 2012-ci ildə 16,1%, 2013-cü ildə 33,6%, 2014-cü ildə 25,1%, 2015-ci ildə 27,7%, 2016-cı ildə 20,6%, 2017-ci ildə 17,7% , 2018-ci ildə 12,7%, 2019-cu ildə 9,8%) onların payına düşürdü. Aradakı fərqin ilbəil azalması bazaya yeni ana dili və ədəbiyyat müəllimlərinini götürülməməsi və fəaliyyəti qeyri-qənaətbəxş hesab edilənlərin bazadan çıxarılması ilə əlaqədar idi. Nəhayət bu il ana dili və ədəbiyyat müəllimləri ilə bağlı bu tendensiya sona çatdı. Bənzər nəticələr ingilis dili, digər xarici dillər, əmək təlimi və ibtidai sinif müəllimləri üçün də təkrarlanır.

Bu nəticələrə görə demək olar ki, riyaziyyat, fizika, biologiya və coğrafiya müəllimləri imtahan zallarını daha yaxşı idarə edirlər. İdman müəllimlərinin son illərdəki nəticələrinin yaxşılaşmasını da bazaya bu ixtisas üzrə yeni nəzarətçilərin götürülməməsi və cari bazada ən bacarıqlıların qalması ilə izah etmək olar.

Aşağıdakı 4 saylı cədvəldə bölgələr üzrə nəzarətçilər tərəfindən qayda pozuntusu hallarının paylanması təqdim edilmişdir.

Cədvəl 4

QAYDA POZUNTUSU HALLARININ BÖLGƏLƏR ÜZRƏ PAYLANMASI

Rayonun, təşkilatın adı	2020		2019		2018		2017		2016		2015		2014		2013		2012		2011	
	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*
AMEA	1,6	1,4	1,7	2,1	2.2	2.9	2.0	4.2	0,5	0,0	0.7	0.5	1,0	0,8	1,2	2,2	1,3	1,8	1,8	1,6
Yasamal	2,8	0,7	2,5	1,7	2.8	4.4	2.6	4.9	2,8	3,5	2.9	1.5	2,9	2,3	2,8	3,9	5,3	5,9	6,2	7,0
Binəqədi	4,0	1,4	4,2	3,0	4.4	2.9	4.6	4.2	4,3	6,5	4.3	6.9	4,2	5,3	5,0	5,8	7,8	10,1	9,2	7,8
Səbail	1,7	2,1	1,9	1,7	2.1	1.8	2.0	2.8	2,6	4,7	2.1	4.0	2,4	1,5	2,9	4,9	3,9	5,9	5,4	8,6
Xətai	5,2	1,4	4,7	7,2	5.1	4.0	4.9	4.5	5,3	6,5	4.9	5.0	4,9	5,3	5,6	5,8	8,3	7,0	10,6	7,8
Xəzər	1,9	0	2,2	2,6	2.0	2.5	2.0	1.4	1,6	2,4	2.0	1.0	2,1	2,3	2,4	3,6	3,3	3,9	3,4	3,9
Nərimanov	2,4	0	3,1	0,9	3.5	4.4	3.6	5.9	4,3	7,1	3.8	4.0	3,5	5,0	4,2	5,1	5,8	7,8	6,4	4,7
Suraxanı	3,1	0,7	3,5	2,6	3.5	4.0	3.7	5.6	3,5	1,2	3.8	3.5	3,8	5,0	4,0	4,9	6,4	8,0	8,0	6,3
Sabunçu	5,0	2,1	4,5	5,5	4.1	3.6	3.9	4.5	4,1	4,7	3.5	5.4	3,8	6,1	3,6	4,9	6,2	5,7	6,9	8,6
Nəsimi	2,0	0,7	2,3	3,8	2.5	1.5	2.7	1.4	2,9	4,1	3.0	4.5	3,1	1,9	4,0	5,8	6,0	7,0	7,0	6,3
Qaradağ	1,2	0,7	1,4	1,3	1.4	2.2	1.3	1.4	1,4	2,4	1.5	0.0	1,5	1,1	1,8	1,7	2,6	3,4	2,6	3,9
Nizami	3,1	1,4	3	4,3	3.2	4.7	3.3	3.5	3,5	4,7	3.4	4.5	3,3	4,2	3,6	4,4	5,4	6,5	7,1	7,0
Naxçıvan MR	4,2	2,1	4.5	6.8	4.9	8.7	5.1	5.2	5,7	7,6	5.8	7.9	6,6	3,8	8,2	2,9	7,9	2,8	2,8	0,0
Gəncə	6,6	2,1	10,2	5,1	10.4	5.8	10.9	3.5	12,6	4,7	12.0	6.9	11,7	6,1	11,4	6,6	8,9	4,9	5,3	3,1
Şəmkir	2,4	9,9	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--
Qazax	1,7	9,9	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--
Ağstafa	1,5	13,4	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--
Sumqayıt	4,2	3,5	3,9	8,1	4.8	6.5	4.3	14.2	5,0	11,8	5.4	9.4	5,3	7,3	6,1	11,9	6,3	7,8	6,1	11,7
Abşeron	3,2	3,5	3,7	1,3	3.4	4.0	3.3	2.8	2,6	1,8	2.4	2.5	2,5	2,7	2,4	3,4	3,9	4,7	4,6	5,5
Şamaxı	1,2	2,1	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--
Mingəçevir	3,5	0,7	4,7	0,9	5.1	4.4	5.2	2.1	5,4	1,2	5.4	4.0	5,4	7,6	4,6	4,9	0,0	0,0	2,3	1,6
Şəki	4,3	0	6,6	0	6.7	0.7	7.0	1.4	6,3	0,0	6.8	0.0	6,7	1,5	6,6	1,5	4,0	0,8	0,6	0,0
Zaqatala	2,8	0,7	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--
Bərdə	3,6	2,8	4,1	14,5	2.4	7.3	2.7	6.3	--	--	--	--	--	--	--	--	--	--	--	--

Cədvəl 4 (ardı)

Rayonun, təşkilatın adı	2020		2019		2018		2017		2016		2015		2014		2013		2012		2011	
	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*
Şuşa	0,06	0	0,1	0	0.2	0.0	0.1	0.3	0,1	0,0	0.3	0.0	0,2	0,4	0,3	1,0	0,4	0,3	0,7	0,8
Ağcabədi	2,5	4,9	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--
Göyçay	2,4	0	4,2	3,4	4.5	4.0	4.2	2.1	4,2	1,8	4.5	2.0	4,5	3,1	3,9	3,6	--	--	--	--
Kürdəmir	2	4,2	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--
Qubadlı	0,3	1,4	1,5	5,5	0.7	1.5	0.6	1.0	0,6	2,9	0.7	1.5	0,8	1,1	0,9	2,7	0,5	0,5	0,5	1,6
Laçın	0,06	0	0,2	0	0.3	0.0	0.2	1.0	0,2	0,6	0.4	0.0	0,4	0,4	0,3	0,0	0,4	0,5	0,9	0,8
Zəngilan	0,2	0	0,2	0	0.3	0.7	0.3	0.7	0,5	0,6	0.4	0.5	0,4	0,4	0,3	0,5	0,5	0,5	1,3	1,6
Şirvan	1,8	1,4	4,8	2,6	5.6	3.6	4.7	2.1	3,6	7,1	3.7	4.0	3,7	8,0	3,3	5,1	--	--	--	--
Sabirabad	2,9	7,0	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--
Salyan	2,9	3,5	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--
Lənkəran	3,4	0	6,8	5,1	6.7	6.9	7.2	6.3	6,7	0,0	6.7	8.9	6,3	3,8	7,0	2,2	5,0	4,4	0,3	0,0
Cəlilabad	1,8	4,2	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--
Masallı	2,2	4,9	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--
Quba	2,7	2,1	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--
Xaçmaz	2,8	3,5	4,8	4,3	5.0	1.5	5.0	2.1	4,8	2,9	5.1	3.0	5,0	8,4	0,0	0,0	--	--	--	--

Qeyd: 1*.Rayon üzrə nəzarətçi sayının ümumi nəzarətçi sayına nisbətin faizlə ifadəsi ;

2*.Rayon üzrə qayda pozuntusuna yol verənlərin sayının qayda pozuntusuna yol verənlərin ümumi sayına nisbətinin faizlə ifadəsi.

Cədvəl 4-də 1-ci damadakı göstəricinin 2-cidən kiçik olması müvafiq rayon üzrə nəzarətçilərin daha çox qayda pozuntularına yol verdiyini göstərir. Burdan aydın görünür ki, ilk dəfə ali təhsil müəssisələrinə qəbul imtahanlarının keçirildiyi rayonlarda köçürmə hallarına daha çox şərait yaradılmışdır: Ağstafa, Qazax, Şəmkir, Sabirabad, Cəlilabad, Masallı, Kürdəmir. Qəbul imtahanlarına yeni cəlb olunan rayonların nəzarətçilərinin ilk iştirak etdiyi dövrlərdə qayda pozuntularına daha çox yol verdiklərini Gəncə (2010-cu il), Mingəçevir (2010-cu il), Şirvan (2013, 2014-cü il), Xaçmaz (2014-cü il) kimi rayonların timsalında demək olar.

Qayda pozuntusuna yol verən nəzarətçilərin ümumi sayı 142, ciddi qayda pozuntusuna yol verənlərin sayı isə 20 nəfərdir.

Yaş tərkibinə görə fərqli olan abituriyent kontingentinin yerləşdiyi zallar üzrə qayda pozuntusu (köçürmə) hallarının paylanması 5 saylı cəvdəldə təqdim edilmişdir.

Cədvəl 5

QAYDA POZUNTUSU HALLARININ PAYLANMASI (ABİTURİYENT KONTİNGENTİNİN YAŞ TƏRKİBİ ÜZRƏ)

Kontingentin yaş tərkibi	Yaş kontingentinə görə		Qayda pozuntusuna yol verilən zalların	
	Zalların Ümumi sayı	Faizi (ümumi zal sayına nəzərən)	sayı	faizi (qayda pozuntusuna yol verilən zalların ümumi sayına nəzərən)
ən çox 18	4578	81,8	136	71,6
18-20	438	7,8	22	11,6
20-dən çox	584	10,4	32	16,8

5 saylı cədvəldən göründüyü kimi cari ildə qəbul imtahanlarında əvvəlki illərin məzunlarının yerləşdiyi zallarda yol verilən qayda pozuntusu halları ilə cari il məzunlarının yerləşdiyi zallarda yol verilən qayda pozuntusu hallarının faiz nisbətində ciddi fərq var.

Araşdırmalar göstərir ki, imtahan təcrübəsi artdıqca nəzarətçilərin qayda pozuntusuna yolvermə hallarında da azalma müşahidə olunur (6 saylı cədvələ bax).

Cədvəl 6

NƏZARƏTÇİLƏRİN QAYDA POZUNTUSU HALLARI (İMTAHANLARDA İŞTİRAK SAYI ÜZRƏ)

İştirak sayı	İştirak edən nəzarətçilərin		Qayda pozuntusuna yol verən nəzarətçilərin	
	sayı	faizi (ümumi iştirak sayına nəzərən)	sayı	faizi (qayda pozuntusuna yol verənlərin cəminə nəzərən)
ən çox 5	1476	22,0	48	33,8
6 - 15	1723	25,7	46	32,4
16 - 35	2391	35,7	43	30,3
ən az 36	1110	16,6	5	3,5

Bu il buraxılış imtahanlarında və ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında iştirak etmiş nəzarətçilər arasından indiyə qədər iştirak etdiyi bütün imtahanlarda:

- təyin olunduğu zallarda köçürmə faktı aşkarlanmayan;
- bir qayda olaraq, cəlb olunduğu bütün imtahanlarda iştirak edən;
- qeyri-kafi qiymət almayan, yekun qiyməti 4-dən böyük olan və cari ildə yekun qiymətini daha da yaxşılaşdıran;
- heç bir təlimat pozuntusuna yol verməyən və cari ildə imtahan rəhbərinin protokollarında "yaxşı" və "əla" ilə qiymətləndirilən;
- 600-dən yuxarı bal toplayan abituriyentlərin fəaliyyətinə verdiyi rəyi "yaxşı" və "əla" olan;
- imtahanlarda ən azı 15 dəfə (son iki il ərzində 3 dəfə, o cümlədən qəbul imtahanlarında heç olmasa 1 dəfə) iştirak edən nəzarətçilər müəyyənləşdirilmiş və fəaliyyətləri yüksək qiymətləndirilmişdir. Belə nəzarətçilərin sayı 1178 nəfərdir.

TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ FƏALİYYƏTİ YÜKSƏK QİYMƏTLƏNDİRİLƏN NƏZARƏTÇİ-MÜƏLLİMLƏRİN SAYI

Cədvəl 7

1. Təhsil müəssisələri üzrə paylanma

S/s	Təhsil müəssisəsinin adı*	Nəzarətçi sayı
1.	Lənkəran şəhər 10 saylı tam orta məktəb	9
2.	Azərbaycan Dövlət Aqrar Universiteti	8
3.	Şəki şəhər 11 nömrəli tam orta məktəb	7
4.	Şəki şəhər 18 nömrəli tam orta məktəb	7
5.	Bakı şəhəri 306 nömrəli tam orta məktəb	6
6.	Naxçıvan şəhər 14 nömrəli tam orta məktəb	6
7.	Şamaxı şəhər 9 nömrəli tam orta məktəb	6
8.	Göyçay şəhər 7 saylı tam orta məktəb	6
9.	Xaçmaz şəhər 6 saylı tam orta məktəb	6

* Bu kateqoriyadan olan təhsil müəssisələrinin sayı ümumilikdə 674-dür.

Cədvəl 8

2. İxtisas fənləri üzrə paylanma

S/s	İxtisasın adı	Nəzarətçi sayı
1.	İbtidai təhsilin pedaqogika və metodikası	195
2.	Tarix	192
3.	Biologiya	135
4.	Fizika	123
5.	Coğrafiya	122
6.	Digər ixtisaslar	119
7.	Kimya	84
8.	Əmək təlimi	43
9.	Riyaziyyat	41
10.	İngilis dili	37
11.	Ana dili və ədəbiyyat	33
12.	İdman	28
13.	Digər xarici dillər	26

Bu siyahıda əlavə olaraq 13 məktəb 5 nəfərlə, 35 məktəb 4 nəfərlə, 60 məktəb 3 nəfərlə, 152 məktəb 2 nəfərlə, 189 məktəb 2 nəfərlə, 401 məktəb 1 nəfərlə təmsil olunur. Binəqədi və Abşeron rayonunun hər birindən 6 sertifikatlı nəzarətçi də bu il siyahıya daxil ola bilib.

YEKUN STATİSTİKA



Şəkil 4

Diaqramdan göründüyü kimi bu il ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarına cəlb edilmiş nəzarətçi-müəllimlərin 91,1%-nin fəaliyyəti nümunəvi və yaxşı, 1,5%-nin fəaliyyət kafi, 2,0%-nin fəaliyyəti isə qeyri-kafi qiymətləndirilmişdir.

Fəaliyyəti kafi qiymətləndirilən müəllimlərin nəzarətçi kimi hazırlıq səviyyəsinin artırılması məqsədi ilə hər il olduğu kimi, bu il də, seminar-məşğələlərin ayrı qruplarda təşkil olunması və onların növbəti ilin sınaq imtahanlarına cəlb olunması və fəaliyyətlərinin ayrıca izlənilməsi nəzərdə tutulur. Fəaliyyəti qeyri-kafi qiymətləndirilən müəllimlər isə cari ilin nəzarətçilər bazasından çıxarılmışdır.

DİM nümunəvi işi ilə seçilən və fəaliyyəti əla qiymətləndirilən müəllimləri ilboyu müxtəlif dövlət qurumlarına keçirilən işə qəbul imtahanlarına da öncəliklə dəvət edir, nəzarətçilər üçün keçirilən seminar-məşğələlərdə onların təcrübəsindən istifadə edir və onlar imtahan rəhbərliyinə namizədlər siyahısına daxil edilirlər.

Xatırladaq ki, cari il də daxil olmaqla (1178 nəfər) indiyə qədər DİM-in keçirdiyi imtahanlarda nümunəvi fəaliyyətinə görə fərqlənmiş 4422 nəfər nəzarətçiyə təşəkkür elan edilmiş, bunlardan 363 nəfəri fəxri fərmanlarla təltif edilmişdir.

Nəticə

2020-ci ildə I-IV ixtisas qrupları üzrə ali təhsili müəssisələrinə keçirilən qəbul imtahanlarının II mərhələsinə cəlb edilmiş nəzarətçilərin fəaliyyətinin təhlili ilə bağlı əldə olunan nəticələr:

- Qəbul imtahanları üçün nəzarətçi bazası ən yaxşıların seçilməsi üçün, əsasən, yetərli olmuşdur. Belə ki, cari ildə imtahana cəlb edilməsi nəzərdə tutulan bazanın 60,3%-dən istifadə edilmişdir. Lakin Zaqatala (90,7%), Mingəçevir (86,3%), Salyan (83,4%), Şəki (78,1%), Ağstafa (78,0%), Kürdəmir (76,6%) və Qazax (77,4%) üzrə nəzarətçilərin böyük bir hissəsi imtahanlara cəlb edilmişdir. Odur ki, növbəti ildə bu rayonları üzrə nəzarətçi sayının artırılmasına ehtiyac var.

- Əlaqələndiricilərin nəzarətçiləri imtahana cəlb etməsi işində müsbət tendensiya davam edir. Belə ki, imtahana gəlməyənlərin faizi həm pandemiya, həm də imtahanların avqust ayında keçirilməsi ilə əlaqədar qismən artsa da, 3,6%-i keçməmişdir.
- 2020-ci il istisna olmaqla fəaliyyəti "əla" qiymətləndirilənlərin faizi getdikcə artmış, fəaliyyəti "qeyri-kafi" və "kafi" qiymətləndirilənlərin faizi isə azalmışdır. 2020-ci ildə fəaliyyəti əla qiymətləndirilənlərin sayının azalmasının və "kafi" və "qeyri-kafi" qiymətləndirilənlərin sayının artmasının əsas səbəbi qəbul imtahanlarının yeni imtahan mərkəzlərində qəbul imtahanları təcrübəsi az olan müəllimlərlə keçirilməsidir.
- Əla qiymətləndirilən nəzarətçilərin faiz nisbətinin artması (2020-ci il istisna olmaqla) yalnız nəzarətçi kontingentinin yaxşıların seçiminə imkan verəcək şəkildə geniş olması, seminar-məşğələlərdə təlim metodlarının dəyişdirilməsi, stimullaşdırıcı tədbirlərin tətbiqi, sertifikatlı nəzarətçilərin cəlb edilməsi və s. bu kimi yuxarıda qeyd olunan səbəblərlə izah olunmur. Eyni zamanda təhlil onu göstərir ki, imtahan rəhbərlərinin nəzarətçiləri yaxşı və xüsusilə də əla qiymətlərlə qiymətləndirməyə meyilli olmaları da bu artıma təsir göstərmişdir. Odur ki, imtahan rəhbərləri ilə təlimlərdə bu məsələyə diqqətin artırılması nəzərdə tutulur.
- İmtahan rəhbərləri və nəzarətçilərlə ilboyu aparılan təlimat işinin nəticəsi kimi köçürmə hallarının azalması tendensiyası davam edir. Cari ildə nəzarətçilərin daha az hissəsi – 2,0%-i qayda pozuntularına yol vermişdir. Köçürmə hallarının azalmasında çoxvariantlılığın tətbiqi və abituriyentlərin imtahan zalında tək-tək əyləşdirilməsi faktorlarının da böyük təsiri var.
- Nəzarətçilərin ixtisasına görə qayda pozuntuları hallarının araşdırılması riyaziyyat, fizika, biologiya və coğrafiya ixtisaslı müəllimlərin qayda pozuntularına nisbətən daha az yol verdikləri tendensiyasının davam etdiyini göstərir.
- İlk dəfə ali təhsil müəssisələrinə qəbul imtahanlarının keçirildiyi rayonlarda köçürmə hallarına daha çox şərait yaradılmışdır: Ağstafa, Qazax, Şəmkir, Sabirabad, Cəlilabad, Masallı, Kürdəmir. Qəbul imtahanlarına yeni cəlb olunan rayonların nəzarətçilərinin ilk iştirak etdiyi dövrlərdə qayda pozuntularına daha çox yol verdiklərini Gəncə (2010-cu il), Mingəçevir (2010-cu il), Şirvan (2013, 2014-cü il), Xaçmaz (2014-cü il) kimi rayonların timsalında da demək olar.
- Abituriyent kontingentinin yaş tərkibinə görə köçürmə hallarının araşdırılması cari ildə qəbul imtahanlarında əvvəlki illərin məzunlarının yerləşdiyi zallarda yol verilən qayda pozuntusu halları ilə cari il məzunlarının yerləşdiyi zallarda yol verilən qayda pozuntusu hallarının faiz nisbətində ciddi bir fərq olduğunu göstərir.
- Nəzarətçilərin təcrübəsi artdıqca qayda pozuntularına yol verilməsi halları azalır.

Nəzarətçilərin fəaliyyətlərinin təhlilinin nəticələri barədə, bir qayda olaraq, hər il Təhsil Nazirliyinə, müvafiq rayon (şəhər) təhsil şöbələrinə və ümumtəhsil müəssisələrinə məlumat verilir.

Dövlət İmtahan Mərkəzinin 2020-ci il ərzində elektron informasiya sistemləri vasitəsi ilə dövlət qulluğu sahəsində fəaliyyətinin təhlili

M.M.Abbaszadə, B.B.Xəlilov, V.O.Əkbərov, S.A.Əliyev

Məlum olduğu kimi, 2019-cu ilin sonunda Çin Xalq Respublikasında meydana çıxmış COVID-19 virusunun sürətlə yayılması nəticəsində Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya elan edilmişdir. 2020-ci ilin birinci rübündən etibarən sözügedən virus Azərbaycan ərazisində də yayılmağa başlamışdır. Virusun yayılmasının qarşısının alınması məqsədilə ölkəmizdə karantin rejiminə uyğun olaraq bir sıra məhduduyyətlər tətbiq edilmişdir. Bu baxımdan Dövlət İmtahan Mərkəzi 2020-ci ildə fəaliyyətini mövcud şəraitə uyğunlaşdıraraq davam etdirmiş, öz Nizamnaməsi əsasında dövlət qulluğuna aid bütün sahələrdə - dövlət qulluğuna qəbulla bağlı sertifikatın əldə edilməsi üçün test imtahanlarının keçirilməsi, sertifikatların təqdim edilməsi, müsabiqə, ümumi müsahibə və daxili müsahibələrin keçirilməsi, dövlət qulluqçularının Reyestrinin aparılması, ehtiyat kadrlarla iş, qanunvericiliyin icra vəziyyətinin öyrənilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, 2019−2025-ci illər üçün Dövlət Strategiyasında nəzərdə tutulmuş bəndlərin yerinə yetirilməsi, etik davranış və qiymətləndirmə, müxtəlif analitik hesabatların hazırlanması, təqdim edilməsi, məlumat bazalarının və proqram sistemlərinin yaradılması və təkmilləşdirilməsi istiqamətində işləri həyata keçirmişdir.

Dövlət qulluğuna qəbul üzrə test imtahanında iştirak edərək sertifikat əldə etmiş şəxslərin qeydiyyatı, müsabiqənin müsahibəsi, ümumi müsahibə və daxili müsahibələrə buraxılma ilə bağlı namizədlərin məlumatlarının yoxlanılmasını təmin edən "Namizəd-müsahibə" avtomatlaşdırılmış proqram sisteminə imtahanda iştirak etmiş şəxslər, sertifikat əldə etmək hüququ qazanmış şəxslərin qeydiyyata alınması, sertifikatların namizədlərə təqdim edilməsi, verilmiş sertifikatların qüvvədə olma müddəti barədə məlumatlar daxil edilir. Proqram sisteminin köməyi ilə dövlət qulluğu vəzifəsini tutmaq məqsədilə müsahibələrdə iştirak etmək üçün qeydiyyatdan keçmiş namizədlərin qanunvericiliklə müəyyən edilmiş qaydada vəzifənin tutulması şərtlərinə uyğunluğu yoxlanılır. Həmin şərtlərə təhsil məlumatları, xarici dil, ixtisas və vəzifə tələblərinin və qulluq stajının uyğunluğu aiddir. "Namizəd-müsahibə" sistemi həm Mərkəzin, həm də bir sıra dövlət orqanlarının informasiya sistemləri ilə inteqrasiya edilmişdir. Sistemdən istifadə nəticəsində müsahibələrə buraxılma və müsahibələrin keçirilməsi üzrə işlərin aparılması daha operativ və rasional formada həyata keçirilir.

Aşağıdakı cədvəldə (Cədvəl 1) 2020-ci ildə dövlət qulluğu üzrə test imtahanlarında iştirak edərək sertifikat əldə etmək hüququ qazanmış şəxslər barədə məlumatlar təqdim edilir:

Cədvəl 1.

İl	Sertifikat təqdim edilib	Sertifikat təqdim edilməyib		Uğurlu nəticələrin sayı
		Namizəd qeydiyyatdan keçməyib	Təsdiq edilib, namizəd sertifikatı götürməyib	
“Tələbə-məzun” sistemində qanunvericilikdə müəyyən edilmiş qaydada əlavə təhsil (2-ci ixtisas təhsili) almaq üçün ali və orta ixtisas təhsili müəssisələri tərəfindən həyata keçirilən tələbə qəbulu haqqında məlumatlar mövcuddur. Bu məlumatların sistemə daxil edilməsinə nəzarət mexanizmi yaradılmışdır. Belə ki, hər hansı şəxsin əlavə təhsil məlumatları sistemə daxil edilərkən onun baza təhsilinə aid diplom rekvizitləri (seriyası, nömrəsi və qeydiyyat nömrəsi) avtomatik yoxlanılır. Diplom rekvizitləri sistemdə təkrar olunursa, istifadəçiyə bu barədə bildirilir və şəxsin qəbul məlumatlarının daxil edilməsinə sistem icazə vermir. Beləliklə, sistem həmin şəxs haqqında əlavə araşdırma aparılması və məlumatların dəqiqləşdirilməsinin vacibliyi barədə təhsil müəssisəsinin məsul şəxsi və operatorlarını xəbərdar edir. 2019/2020-ci tədris ilində əlavə təhsil almaq üçün təhsil müəssisələri tərəfindən mövcud qanunvericiliyə uyğun olaraq daxili əmrlə qəbul edilmiş 1527 tələbə haqqında məlumat “Tələbə-məzun” siateminə daxil edilmişdir.

“Tələbə-məzun” sisteminə təhsil müəssisələri tərəfindən 2020-ci ildə 63150-dən, ümumilikdə isə 661137-dən çox diplom məlumatları daxil edilmişdir.

2012-ci ildən əvvəlki illərdə təhsillərini başa vurmuş şəxslərin diplom məlumatlarının sistemə daxil edilməsinin zəruriliyi barədə Mərkəzin təhsil müəssisələrinə göndərdiyi məktublardan sonra 2020-ci ildə 12690 nəfərin diplom məlumatları sistemə daxil edilmişdir.

2020-ci ildə ali təhsil müəssisələrinə qəbul olmuş 42599 bakalavr, 8618 magistr, tam orta təhsil bazasından orta ixtisas təhsil müəssisələrinə qəbul olmuş 10448 subbakalavr və ümumi orta təhsil bazasından orta ixtisas təhsil müəssisələrinə qəbul olmuş 8693 subbakalavr barədə məlumatlar Mərkəz tərəfindən “Tələbə-məzun” sisteminə daxil edilmişdir.

Cədvəl 1-də 1992–2020-ci illər ərzində qəbul imtahanları nəticəsində tələbə statusu qazanmış şəxslər barədə məlumatlar, Cədvəl 2-də isə təhsil müəssisələri tərəfindən qanunvericilikdə müəyyənləşdirilmiş edilmiş qaydada daxili əmrlə qəbul olunmuş şəxslər barədə məlumatlar təqdim edilmişdir.

Cədvəl 1

Təhsil səviyyəsi	**Say**
Bakalavriat	813477
Magistratura	79500
Tam orta təhsil bazasından orta ixtisas təhsili	217606
Ümumi orta təhsil bazasından orta ixtisas təhsili	161648
Cəmi:	**1272231**

Cədvəl 2

Qəbul forması	Bakalavr	Magistr	Tam orta təhsil bazasından orta ixtisas təhsili təhsili	Ümumi orta təhsil bazasından orta ixtisas təhsili	Say
Təhsil müəssisəsi tərəfindən həyata keçirilimiş qəbul	4191	903	141	5681	**10916**
Xarici təhsil müəssisələrindən köçürmələr	12576	8	39	27	**12650**
Əcnəbi və vətəndaşlığı olmayan tələbələrin qəbulu	7157	854	22	24	**8057**
Əlavə təhsil almaq istəyən şəxslərin qəbulu	10404	1	1254	81	**11740**
Cəmi:	**34328**	**1766**	**1456**	**5813**	**43363**

Qeyd etmək lazımdır ki, sistemə 1992-ci ildən əvvəl ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmuş şəxslərin də məlumatlarını daxil etmək mümkündür. Hazırda bu kateqoriyadan olan 492 şəxs barədə təhsil məlumatları sistemə daxil edilmişdir.

"Tələbə-məzun" sistemində təhsil müəssisələri tərəfindən tələbələrin oxuduğu müddətdə baş vermiş hərəkətlər – xaricolma, bərpa, ixtisasdəyişmə, təhsil formasının dəyişməsi, ödəniş formasının dəyişməsi və s. bu kimi əməliyyatlar da qeyd edilir. Həmin məlumatların 2020-ci il üzrə statistikası Cədvəl 3-də təqdim edilir.

Cədvəl 3

Əməliyyatın adı	Təhsil səviyyələri üzrə saylar				
	Bakalavriat	Magistratura	Tam orta ixtisas bazası	Ümumi orta ixtisas bazası	Cəmi
Əcnəbi və vətəndaşlığı olmayan tələbələrin qəbulu	514	39	4	**5**	**562**
Əlavə təhsil almaq istəyən şəxslərin qəbulu	859	0	331	**13**	**1203**
Təhsil müəssisəsi tərəfindən həyata keçirilimiş qəbul	208	107	13	**976**	**1304**
Xarici təhsil müəssisələrindən köçürmələr	216	1	1	**3**	**221**
Ölkədaxili köçürmələr	814	25	98	168	**1105**
İxtisas dəyişmələri	713	69	80	134	**996**
İxtisas dəyişməklə ölkədaxili köçürmələr	919	2	45	51	**1017**
Təhsilalma forması dəyişmələri	1370	1	115	98	**1584**
Təhsilalma forması dəyişməklə ölkədaxili köçürmələr	68	0	19	2	**89**
Dövlət hesablı təhsildən ödənişli əsaslarla təhsilə keçməklə ixtisas dəyişmələri	1	0	0	1	**2**
Dövlət hesablı təhsildən ödənişli əsaslarla təhsilə keçməklə ölkədaxili köçürmələr	10	0	4	4	**18**
Akademik borca görə xaricedilmələr	355	14	42	86	**497**
Digər təhsil müəssisəsinə köçürülmə ilə əlaqədar xaricedilmələr	1630	17	167	196	**2010**
Təhsil haqqının ödənilməməsinə, dərs buraxmaya görə və ya öz xahişi ilə xaricedilmələr	2642	363	608	739	**4352**
Təhsil müəssisəsinin fəaliyyətinin dayandırılması ilə əlaqədar xaricedilmələr	83	2	2	8	**95**
Təkrar kursda saxlanılmalar	23	0	48	81	**152**
Akademik məzuniyyətin alınması (xaricdə təhsil almaq məqsədilə)	75	12	1	0	**88**
Akademik məzuniyyətin alınması (xəstəlik və digər səbəblərdən)	378	76	66	46	**566**
Akademik məzuniyyətin alınması (həqiqi hərbi xidmətə çağırışla əlaqədar)	391	153	1225	180	**1949**
Akademik məzuniyyətin alınması (təhsil haqqını ödəmək imkanının olmamasına görə)	20	1	5	4	**30**

Cədvəl 3 (ardı)

Əməliyyatın adı	Təhsil səviyyələri üzrə saylar				
	Bakalavriat	Magistratura	Tam orta ixtisas bazası	Ümumi orta ixtisas bazası	Cəmi
Bərpalar	1712	409	1050	426	**3597**
İxtisas dəyişməklə tələbələr sırasına bərpalar	109	5	51	44	**209**
Təhsilalma forması dəyişməklə tələbələr sırasına bərpalar	73	7	67	37	**184**
Dövlət sifarişi əsasında təhsildən ödənişli əsaslarla təhsilə keçməklə tələbələr sırasına bərpalar	183	24	0	0	**207**
Dövlət hesablı təhsildən ödənişli əsaslarla təhsilə keçməklə tələbələr sırasına bərpalar	36	2	72	114	**224**
Şəxsi məlumatların dəyişməsi	1272	217	325	315	**2129**
Ölüm halları	40	0	11	5	**56**
Diplomalma	40574	5771	7975	8830	**63150**
Cəmi:	**55288**	**7317**	**12425**	**12566**	**87596**

"Tələbə-məzun" sistemində istifadəçilər tərəfindən müxtəlif parametrlərə görə həyata keçirilən bütün növ axtarışların qeydiyyatı aparılır. 2020-ci il ərzində icra edlmiş axtarışların statistikası Cədvəl 4-də verilmişdir.

Cədvəl 4

Axtarışın növü	Ali təhsil müəssisələri	Orta ixtisas təhsili müəssisələri	Dövlət orqanları		Cəmi
			DİM	Digər orqanlar	
İdentifikasiya kodu və FİN-ə görə axtarış	10806	732	8908	2085	**22531**
Şəxsi məlumata görə axtarış	219124	117083	18737	7291	**362235**
Diplom məlumatına görə axtarış	788	76	967	1290	**3121**
İxtisasa görə axtarış	4349	28	4	23	**4404**
Təhsildə fasiləyə görə axtarış	26	14	0	0	**40**
Bərpaya görə axtarış	8	4	0	0	**12**
Cəmi:	**235101**	**117937**	**28616**	**10689**	**392343**

Cədvəl 4-dəki rəqəmlər göstərir ki, dövlət orqanları sistemdən aktiv istifadə edirlər.

Növbəti cədvəldə isə (Cədvəl 5) veb-servis vasitəsilə Mərkəzin məlumat bazalarından istifadə edən dövlət orqanları tərəfindən "Tələbə-məzun" sisteminə 2020-ci il ərzində edilmiş müraciətlərin statistikası verilmişdir.

Cədvəl 5

İstifadəçilər	Müraciət sayı
Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi	3836587
Elektron Hökumət Portalı	407050
Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi	4688
Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi	42
Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti	641692
Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	12563324
Azərbaycan Respublikasının Təhsil Nazirliyi	728795
"Yüksəliş" layihəsi	25499
Cəmi:	**18207677**

2020-ci ildə ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrini bitirmiş şəxslər barədə məlumatlar Cədvəl 6-da, tam və ümumi orta təhsil bazasında orta ixtisas təhsili səviyyələrini bitirmiş şəxslər barədə məlumatlar isə Cədvəl 7-də təqdim edilmişdir. Bu cədvəllərdəki statistik rəqəmlər təhsil müəssisələri tərəfindən sistemə daxil edilmiş məlumatlara əsaslanır.

Cədvəl 6

Qəbulolma ili	Təhsil səviyyəsi	Təhsilalma forması	Tələbələr sayı						B. Təhsilini davam etdirənlər	C. Təhsilə fasilə verənlər	Xaric olunanlar		O cümlədən tələbə kontingentinə daxildir			F. Diplom attestasiyasından keçməyənlər	E. Diplom alanlar		Məzunlardan diplom məlumatı daxil edilməyənlər	
			A. Cəmi (B+C+D+E+F)	o cümlədən							D. Cəmi	O cümlədən digər təhsil müəssisəsinə köçürülənlər	Digər təhsil müəssisəsindən köçürülənlər	İxtisasını dəyişənlər	Bərpa olunanlar		Ədədlə	Faizlə	Ədədlə	Faizlə
				DİM-in qəbulu	Təhsil müəssisəsinin öz qəbulu (özəl təhsil müəssisələri üçün 2005-ci ilə qədər)	Xarici təhsil müəssisələrindən köçürülənlər	Əcnəbi və vətəndaşlığı olmayan tələbələr	İkinci ixtisas təhsili alanlar												
1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15	16	17	18	19	20	21
2003/2004	M*	Ə*	1	0	1	0	0	0	1	0	0	0	0	0	1	0	0	0,00	0	0,00
2007/2008	B*	Ə*	1	2	0	0	0	0	0	0	0	0	0	0	1	0	1	100,00	0	0,00
2008/2009	B*	Ə*	13	22	0	1	0	0	1	0	0	0	0	2	2	0	12	92,31	5	41,67
2009/2010	B*	Ə*	13	32	0	3	1	0	0	0	1	0	0	1	4	0	12	100,00	9	75,00
2009/2010	B*	Q*	4	2	0	1	0	0	0	0	3	0	0	1	3	0	1	100,00	0	0,00
2010/2011	B*	Ə*	33	57	0	0	4	0	0	0	0	0	0	0	8	0	33	100,00	21	63,64
2010/2011	B*	Q*	37	37	0	0	0	1	17	0	10	0	0	4	9	5	5	22,73	1	20,00
2010/2011	M*	Ə*	1	1	0	0	0	0	1	0	0	0	0	0	1	0	0	0,00	0	0,00
2011/2012	B*	Ə*	57	121	0	3	2	0	3	0	6	0	0	1	6	0	48	94,12	29	60,42
2011/2012	B*	Q*	22	34	0	0	0	2	0	1	5	0	0	1	10	1	15	100,00	4	26,67
2011/2012	M*	Ə*	1	1	0	0	0	0	0	0	0	0	0	0	1	0	1	100,00	0	0,00
2012/2013	B*	Ə*	126	296	0	2	0	0	3	0	5	1	3	2	12	0	118	97,52	60	50,85
2012/2013	B*	Q*	82	22	0	4	2	13	13	3	25	0	3	10	23	3	38	74,51	4	10,53
2012/2013	M*	Ə*	4	4	0	0	0	0	0	0	0	0	0	1	3	0	4	100,00	1	25,00
2013/2014	B*	Ə*	431	665	0	3	12	1	39	1	24	1	25	9	47	2	365	90,35	133	36,44
2013/2014	B*	Q*	165	67	0	5	0	19	16	0	27	0	9	14	84	1	121	88,32	19	15,70
2013/2014	M*	Ə*	3	6	0	0	0	0	0	0	1	0	0	0	0	0	2	100,00	1	50,00
2013/2014	M*	Q*	5	3	0	0	0	0	0	0	1	0	0	0	4	0	4	100,00	1	25,00
2014/2015	B*	Ə*	1638	1785	0	10	47	3	56	4	87	2	106	35	121	0	1491	96,38	949	63,65
2014/2015	B*	Q*	163	122	0	3	1	26	13	1	20	0	11	13	45	1	128	90,78	16	12,50
2014/2015	M*	Ə*	7	13	0	0	0	0	0	0	2	0	0	0	5	0	5	100,00	2	40,00
2014/2015	M*	Q*	1	0	0	0	0	0	0	0	0	0	0	0	1	0	1	100,00	0	0,00
2015/2016	B*	Ə*	4301	4058	0	22	78	49	429	61	335	10	1128	154	263	9	3467	88,99	507	14,62
2015/2016	B*	Q*	1899	1196	0	16	16	344	344	21	166	0	38	55	191	1	1367	79,89	99	7,24
2015/2016	M*	Ə*	30	61	0	0	1	0	2	0	5	0	1	0	16	0	23	92,00	10	43,48
2015/2016	M*	Q*	1	0	0	0	0	0	0	0	0	0	0	0	1	0	1	100,00	1	100,00
2016/2017	B*	Ə*	28902	27273	0	58	313	269	2428	188	947	33	886	451	904	41	25302	91,24	4663	18,43
2016/2017	B*	Q*	97	29	0	0	1	75	12	0	3	0	3	4	8	0	82	87,23	8	9,76
2016/2017	M*	Ə*	66	76	0	0	0	0	11	0	12	0	5	0	31	0	43	79,63	16	37,21
2017/2018	B*	Ə*	59	6	0	1	0	2	1	1	1	0	6	1	54	0	56	98,25	33	58,93
2017/2018	B*	Q*	10	0	0	0	0	1	4	0	0	0	0	0	7	0	6	60,00	1	16,67
2017/2018	M*	Ə*	379	527	0	0	7	0	77	5	64	0	8	4	60	0	233	75,16	49	21,03
2017/2018	M*	Q*	2	0	0	0	0	0	2	0	0	0	0	0	2	0	0	0,00	0	0,00
2018/2019	M*	Ə*	6375	6022	0	0	44	1	739	59	297	2	31	4	324	5	5275	87,71	1804	34,20
Cəmi B*			***38053***	***35826***	***0***	***132***	***477***	***805***	***3379***	***281***	***1665***	***47***	***2218***	***758***	***1802***	***64***	***32668***	**90,63**	***6561***	**20,08**
Cəmi M*			***6876***	***6714***	***1***	***0***	***52***	***1***	***833***	***64***	***382***	***2***	***45***	***9***	***450***	***5***	***5592***	**87,04**	***1885***	**33,71**
Yekun cəm			**44929**	**42540**	**1**	**132**	**529**	**806**	**4212**	**345**	**2047**	**49**	**2263**	**767**	**2252**	**69**	**38260**	**90,08**	**8446**	**22,08**

Cədvəl 7

Qəbulolma ili	Təhsil səviyyəsi	Təhsilalma forması	Tələbələr sayı						B. Təhsilini davam etdirənlər	C. Təhsilə fasilə verənlər	Xaric olunanlar		O cümlədən tələbə kontingentinə daxildir			F. Diplom attestasiyasından keçməyənlər	E. Diplom alanlar		Məzunlardan diplom məlumatı daxil edilməyənlər	
			A. Cəmi (B+C+D+E+F)	o cümlədən							D. Cəmi	O cümlədən digər təhsil müəssisəsinə köçürülənlər	Digər təhsil müəssisəsindən köçürülənlər	İxtisasını dəyişənlər	Bərpa olunanlar		Ədədlə	Faizlə	Ədədlə	Faizlə
				DİM-in qəbulu	Təhsil müəssisəsinin öz qəbulu (özəl təhsil müəssisələri üçün 2005-ci ilə qədər)	Xarici təhsil müəssisələrindən köçürülənlər	Əcnəbi və vətəndaşlığı olmayan tələbələr	İkinci ixtisas təhsili alanlar												
1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15	16	17	18	19	20	21
2007/2008	UO*	Ə*	1	1	0	0	0	0	0	0	0	0	0	0	0	0	1	100,00	1	100,00
2011/2012	TO*	Ə*	1	1	0	0	0	0	0	0	0	0	0	0	0	0	1	100,00	0	0,00
2011/2012	UO*	Ə*	1	1	0	0	0	0	0	0	0	0	0	0	0	0	1	100,00	0	0,00
2012/2013	TO*	Ə*	1	2	0	0	0	0	0	0	0	0	0	0	0	0	1	100,00	1	100,00
2012/2013	UO*	Ə*	1	1	0	0	0	0	0	0	0	0	0	0	0	0	1	100,00	0	0,00
2013/2014	TO*	Ə*	2	2	0	0	0	0	1	0	0	0	0	0	1	0	1	50,00	0	0,00
2013/2014	UO*	Ə*	30	65	0	0	0	0	0	0	0	0	6	1	3	0	30	100,00	7	23,33
2014/2015	TO*	Ə*	3	6	0	0	0	1	0	0	0	0	0	0	0	0	3	100,00	0	0,00
2014/2015	TO*	Q*	7	27	0	0	0	0	0	0	0	0	1	1	1	0	7	100,00	5	71,43
2014/2015	UO*	Ə*	88	156	0	1	0	0	7	0	2	0	10	3	14	0	79	91,86	20	25,32
2015/2016	TO*	Ə*	32	260	0	0	0	0	1	0	2	0	0	2	5	0	29	96,67	7	24,14
2015/2016	TO*	Q*	19	44	0	0	0	1	0	0	0	0	1	0	4	0	19	100,00	4	21,05
2015/2016	UO*	Ə*	290	305	0	0	0	0	97	0	8	0	76	8	23	0	185	65,60	33	17,84
2016/2017	TO*	Ə*	160	375	0	0	0	7	21	0	0	0	6	18	65	0	139	86,88	54	38,85
2016/2017	TO*	Q*	478	322	0	2	0	1	35	25	111	0	31	35	136	0	307	89,77	50	16,29
2016/2017	UO*	Ə*	4812	4541	0	0	3	3	668	76	524	3	175	84	341	2	3542	84,13	756	21,34
2017/2018	TO*	Ə*	4116	3726	0	5	5	29	365	132	206	1	124	29	410	2	3411	90,33	332	9,73
2017/2018	TO*	Q*	695	549	0	0	0	21	86	33	95	0	21	18	94	0	481	84,83	341	70,89
2017/2018	UO*	Ə*	2937	2746	0	0	1	1	559	48	275	3	56	33	206	0	2055	78,62	723	35,18
2018/2019	TO*	Ə*	3129	2722	0	0	1	5	692	326	201	2	40	55	363	0	1910	73,41	965	50,52
2018/2019	TO*	Q*	354	305	0	0	0	0	284	37	16	1	0	5	48	0	17	5,65	13	76,47
2018/2019	UO*	Ə*	146	134	0	0	0	0	134	4	4	0	2	0	10	0	4	2,90	3	75,00
Cəmi TO*			***8997***	***8341***	***0***	***7***	***6***	***65***	***1485***	***553***	***631***	***4***	***224***	***163***	***1127***	***2***	***6326***	80,99	***1772***	28,01
Cəmi UO*			***8306***	***7950***	***0***	***1***	***4***	***4***	***1465***	***128***	***813***	***6***	***325***	***129***	***597***	***2***	***5898***	80,10	***1543***	26,16
Yekun cəm			**17303**	**16291**	**0**	**8**	**10**	**69**	**2950**	**681**	**1444**	**10**	**549**	**292**	**1724**	**4**	**12224**	80,56	**3315**	27,12

*** işarəsi qoyulmuş simvollarda B – bakalavriat, M – magistratura, TO – tam orta, UO – ümumi orta və Ə – əyani, Q – qiyabi kimi müəyyən edilmişdir.**

Buraxılış və qəbul imtahanlarının məzmunu ilə bağlı metodiki materialların hazırlanması, dərslik komplektlərinin elmi-metodiki monitorinqi (qiymətləndirilməsi) və hazırlıq kursları haqqında

A. Batıyeva

Metodika və dərsliklərin monitorinqi şöbəsi tərəfindən ötən illərdə olduğu kimi, əsasnaməyə uyğun olaraq ümumi təhsil pilləsi üzrə buraxılış imtahanlarının, bakalavriat səviyyəsi üzrə və hərbi liseylər üçün qəbul imtahanlarının məzmunu ilə bağlı materiallar (proqramlar, imtahan modelləri) hazırlanıb. Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişi ilə bütün ümumtəhsil müəssisələri üçün dərslik komplektlərinin nəşrəqədərki layihələrinin elmi-metodiki monitorinqi və qiymətləndirilməsi həyata keçirilib. Həmçinin imtahanlara hazırlaşanlara, şagirdlərə və müəllimlərə metodiki kömək baxımından materiallar (siniflər üzrə qiymətləndirmə vasitələri, vəsaitlər, tövsiyələr) hazırlanıb və nəşr edilib.

Qeyd edilən materiallar Dövlət İmtahan Mərkəzində (DİM) fəaliyyət göstərən elmi-metodiki seminarlarda ciddi müzakirə olunmaqla ümumtəhsil və ali təhsil müəssisələrinin müəllimləri, metodistlər, AMEA-nın müvafiq sahələr üzrə mütəxəssislərinin iştirakı ilə hazırlanıb. Seminarlarda bütün fənlər üzrə imtahanlarda yoxlanılması və qiymətləndirilməsi mümkün olan alt standartlar, dərsliklərdə həmin alt standartların tələblərinin reallaşdırılmasına imkan verən mövzular müəyyənləşdirilib, buraxılış və qəbul imtahanları üçün proqramlar hazırlanıb və təkmilləşdirilib. Qəbul qaydalarına əsasən tam orta təhsil səviyyəsi (11 illik) üzrə buraxılış imtahanı qəbul imtahanının birinci mərhələsi, ixtisas qrupları üzrə imtahan isə ikinci mərhələsi hesab edildiyindən, buraxılış və qəbul imtahanlarının həm birinci, həm də ikinci mərhələsi üçün proqramlar və imtahan modelləri hazırlanıb. Modellərə imtahan verənlərin hazırlıq səviyyəsinin hərtərəfli yoxlanılması məqsədilə müxtəlif çətinlik dərəcəli, nəzəri biliklərin tətbiqi tələb olunan, məntiqi düşüncəyə əsaslanan, səbəb-nəticə əlaqələri üzərində qurulan tapşırıqlar daxil edilib. Tapşırıqlar qapalı (verilənlərdən bir doğru cavabın seçilməsi), cavabı kodlaşdırılan açıq (hesablama, seçim, uyğunluğu müəyyən etmək) və cavabı yazı ilə ifadə edilən açıq tipli olub. Ümumi orta (9 illik) və tam orta (11 illik) təhsil səviyyələri üzrə buraxılış imtahanları üçün materiallar "Abituriyent" jurnalının xüsusi buraxılışlarında, qəbul imtahanı üçün materiallar isə "Abituriyent" jurnalının birinci sayında dərc olunub.

Buraxılış və qəbul imtahanlarında tətbiq ediləcək modellərlə tanış olmaları üçün 09.10.2019–04.03.2020-ci il tarixlərində Ağcabədi, Sabirabad, Saatlı rayonlarında və Bakı şəhərində müəllimlərin, metodistlərin iştirakı ilə Bakı şəhərində 295, rayonlarda 12 seminar keçirilib və müzakirələr aparılıb. Beləliklə, demək olar ki, imtahanların məzmunu ilə bağlı materialların hazırlanmasında respublikanın pedaqoji ictimaiyyətinin xeyli hissəsi iştirak edib. Seminarların plenar iclasları internet vasitəsilə canlı yayımlanıb. Video faylların linkləri "Dərslik portalı"nda *(derslik.edu.az)* yerləşdirilib. Hazırda "Dərslik portalı"na baxış sayı üç milyondan çoxdur.

Elmi-metodiki seminarlarda həmçinin ayrı-ayrı fənlər üzrə buraxılış və qəbul imtahanlarında istifadə olunmuş tapşırıqların hər biri imtahan nəticələrinin statistik göstəriciləri əsasında məzmun, relevantlıq kateqoriyası, çətinlik dərəcəsi baxımından təhlil edilib və zəif cavablandırılmış tapşırıqlar müəyyənləşdirilib. Həmin tapşırıqların izahlarına dair metodiki tövsiyələr hazırlanıb və "Abituriyent" jurnalının ikinci sayında dərc olunub.

Dövlət İmtahan Mərkəzi tərəfindən 1-11-ci sinif dərslikləri əsasında 126 "Qiymətləndirmə tapşırıqları" kitabçaları (Azərbaycan və rus dillərində), "Kimya", "Biologiya", "Riyaziyyat", "Fizika", "Coğrafiya", "Tarix", "Ədəbiyyat", "Azərbaycan dili", "Rus dili", "Literatura", "İngilis dili", "Fransız dili", "Alman dili", "Rus dili (xarici dil kimi)", "Azərbaycan dili (dövlət dili)" vəsaitləri, "İngilis dili lüğəti", "Azərbaycan dilinin orfoqrafiya lüğəti" müvafiq fənn kurikulumlarının təlim nəticələri nəzərə alınmaqla yenidən işlənib hazırlanıb.

Siniflər üzrə "Qiymətləndirmə tapşırıqları" kitabçalarında verilmiş materiallardan şagirdlər tapşırıqlarla işləmək bacarıqlarına yiyələnmək, müstəqil olaraq tədris prosesində mövzuları necə mənimsədiklərini yoxlamaq, müəllimlər məktəbdaxili (diaqnostik, formativ və summativ) qiymətləndirmə aparmaq üçün istifadə edə bilərlər. Valideynlər isə övladlarının fənn üzrə hazırlıq səviyyələrini yoxlaya bilərlər. Bu materiallarla buraxılış və qəbul imtahanlarına hazırlaşmaq da mümkündür. Qeyd etmək lazımdır ki, 9 və 11-ci siniflər üzrə kitabçaların sonunda buraxılış imtahanlarında istifadə edilmiş tapşırıq variantları və qiymətləndirmə meyarları da verilib.

COVID-19 pandemiyası ilə əlaqədar olaraq respublikanın ümumtəhsil müəssisələrində tədris prosesi onlayn formada həyata keçirildiyindən, mövcud vəziyyət nəzərə alınaraq abituriyentlərə metodik kömək məqsədilə bütün fənlər üzrə qəbul proqramlarının mövzularına dair video-mühazirələr (151 video) hazırlanıb və DİM-in *youtube* kanalına yerləşdirilib.

İmtahanlara hazırlaşanlar və tədris prosesində istifadə üçün 4-11-ci sinif dərsliklərinin hər bir tədris vahidi (8 800 tapşırıq), hər bir mövzusu (28 535 tapşırıq) üzrə onlayn sınaq variantları, eləcə də buraxılış və qəbul imtahanlarında tətbiq edilən tapşırıq modellərinə uyğun 4 (hər biri 1 variant olmaqla) onlayn sınaq variantları hazırlanıb və *otk.az.* portalına yerləşdirilib.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişi ilə ümumtəhsil məktəblərinin 1, 2, 5 və 9-cu sinifləri üçün yenidən təkmilləşdirilmiş 33 dərslik komplektinin (dərslik və müəllim üçün metodik vəsait) nəşrəqədərki layihələrinin (Azərbaycan və rus bölmələri üzrə birlikdə) elmi-metodiki monitorinqi və qiymətləndirilməsi aparılıb. Təhsil Nazirliyinin təsdiq etdiyi "Dərsliklərin qiymətləndirilməsi meyarları"na uyğun olaraq hər bir dərslik komplektinin layihəsi məzmun, dil və yazı üslubu, dizayn və bədii tərtibat, müəllim üçün metodik vəsaitin məzmunu baxımından təhlil edilərək qiymətləndirilib və hazırlanmış yekun rəylər Təhsil Nazirliyinə göndərilib.

Şöbə tərəfindən respublikanın ümumtəhsil məktəblərində 2019/2020-ci tədris ilində istifadədə olan 5-11-ci sinif dərsliklərinin elmi-metodiki monitorinqi də aparılıb. Monitorinq nəticəsində dərsliklərdəki mübahisəli məqamlar, məzmun uyğunsuzluqları, tərcümə qüsurları müəyyənləşdirilib və test bankının təkmilləşdirilməsində, imtahanlar üçün sual kitabçalarının formalaşdırılmasında xidməti istifadə üçün bütün fənlər üzrə metodiki tövsiyələr (19 tövsiyə) hazırlanıb. Tövsiyələr hazırlanarkən COVID-19 pandemiyası ilə bağlı tətbiq edilən xüsusi karantin qaydalarının tədris prosesinə təsiri nəzərə alınmış və tədrisi mart-iyun aylarına təsadüf edən mövzular proqramlardan çıxarılmışdır. Tövsiyələr kitabça şəklində nəşr edilərək müvafiq şöbələrə təqdim edilib.

Buraxılış və qəbul imtahanları üçün qiymətləndirmə materiallarının hazırlanması, ekspertizası və yoxlanılması ilə bağlı Azərbaycan dili, rus dili, riyaziyyat, kimya, fizika, biologiya, tarix, coğrafiya və ingilis dili fənləri üzrə hazırlıq kurslarının fəaliyyəti davam edib. Kurslarda elektron qeydiyyatdan keçmiş müəllimlər, metodistlər və pedaqoji profilli ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin müvafiq fənn üzrə təhsil alan axırıncı kurs tələbələri və həmin müəssisələrdə təhsil alan magistrlər iştirak ediblər. Bu müddət ərzində 50 kurs: Bakıda 13, bölgələrdə (Gəncə, Bərdə, Şirvan, Şəmkir) 28 və onlayn – "Zoom" platforması üzərindən isə 9 hazırlıq kursu təşkil olunub. Kursu müvəffəqiyyətlə keçmiş 348 (Bakı üzrə 243 bölgələr üzrə 105) nəfər sertifikat alıb. Onların şəxsi məlumatları "Elektron məlumat bazası"na daxil edilib. Həmin şəxslər imtahan materiallarının yoxlanılmasına marker kimi cəlb olunacaqlar.

Xüsusi qabiliyyət imtahanlarının təhlili

N.L.Əliyev, Z.M.Mustafayeva

Dövlət İmtahan Mərkəzi (DİM) 2020-ci ildə həm ali, həm də orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul üçün qabiliyyət imtahanları keçirmişdir. İl ərzində həyata keçirilmiş fəaliyyətə xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul proqramlarının hazırlanması, müsabiqə şərtlərinin müəyyənləşdirilməsi, imtahana hazırlıq prosesini asanlaşdırmaq məqsədilə abituriyentlər üçün "Xüsusi qabiliyyət imtahanları" jurnalının hazırlanması, istiqamətlər üzrə ekspertlər və müəllim-nəzarətçilərlə təlimat işlərinin aparılması daxildir. Bundan əlavə, yaradılmış xüsusi elektron sistem vasitəsilə respublika üzrə imtahan cədvəllərinin işlənməsi, regional bölmələr üzrə xüsusi qabiliyyət imtahanlarına hazırlıq işlərinin həyata keçirilməsi, Bakı, eləcə də respublikanın digər regionlarında xüsusi qabiliyyət imtahanlarının təşkil edilməsi, imtahan nəticələrinin analizi və əldə edilmiş statistikaya əsasən ilin yekunlarının elmi-metodiki təhlilinin həyata keçirilməsi də il ərzində görülən işlərə aiddir.

COVİD-19 pandemiyası ilə əlaqədar olaraq 2020/2021-ci tədris ili üçün keçirilən qabiliyyət imtahanlarında müvəqqəti şərtlər tətbiq edilmiş, yalnız cari il üçün xüsusi qabiliyyət tələb edən ixtisasların bəzilərinə keçirilmiş qabiliyyət imtahanları ləğv olunmuşdur. İmtahanların kütləviliyinin və infeksiyanın yayılmasının qarşısının alınması məqsədilə, eləcə də sosial təcridin gücləndirilməsini nəzərə alaraq 4 ixtisas – məşqçilik, fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi, təsviri incəsənət müəllimliyi və müsiqi müəllimliyi ixtisasları üzrə qabiliyyət imtahanları keçirilməmişdir. Əksər komissiyalarda abituriyentlər bir qabiliyyət imtahanı fənni üzrə imtahan vermişlər. Xüsusi qabiliyyət imtahanları təsviri sənət, musiqi, memarlıq və teatr, kino və xoreoqrafiya sənəti istiqamətləri üzrə keçirilmişdir.

"Xüsusi qabiliyyət imtahanları" jurnalında təqdim edilən materiallar həm məzmun, həm də metodik cəhətdən diqqəti cəlb edir. Onların mövzu dairəsi də xeyli genişdir. Burada xüsusi qabiliyyət tələb edən ixtisasların yığcam xarakteristikası, bu ixtisaslar üzrə müsabiqə şərtləri, onların hansı ali təhsil müəssisələrində mövcud olması haqqında məlumatlar, qabiliyyət imtahanlarının proqramları, qiymətləndirmə meyarları dərc olunub. Həmin jurnalda imtahanlara hazırlıqla bağlı tövsiyə və məsləhətlər, tapşırıq nümunələri, çalışmalar, əyani vəsaitlərdən reproduksiyalar, şəkillər, cədvəllər, normativlər, bir sözlə, xüsusi qabiliyyət tələb edən ixtisasları seçənlərin marağına uyğun olan, sorğularına aydınlıq gətirən, imtahana hazırlaşmalarına fayda verə bilən ən zəruri materiallar da əksini tapıb.

2020-ci ildə qabiliyyət imtahanları 27 avqust tarixindən 18 sentyabr tarixinədək Bakı və Naxçıvan şəhərlərində keçirilmişdir. Ümumilikdə ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə keçirilmiş qəbul imtahanlarında 5 mindən çox abituriyent iştirak etmişdir. Onlardan 2 minə qədəri məqbul qiymət almışdır (bax. Cədvəl 1). İmtahanların həyata keçirilməsi üçün ümumilikdə 34 Qabiliyyət İmtahanı Komissiyası fəaliyyət göstərmişdir. Komissiyalarda xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə mütəxəssis hazırlığını həyata keçirən ali təhsil müəssisələrindən və müxtəlif yaradıcılıq ittifaqlarından dəvət edilmiş ekspertlər təmsil olunmuşdur.

Abituriyentlərə 2 istiqamət üzrə ən çoxu 6 Qabiliyyət İmtahanı Komissiyası (QİK) üzrə qeydiyyatdan keçmək imkanı verilmişdir. Cari ildə 11489 abituriyent və 2597 subbakalavr öz elektron ərizəsində yalnız V ixtisas qrupunu qeyd etmişdir. Bundan əlavə 46280 abituriyent elektron ərizələrində I-IV qruplarla yanaşı V qrupu da qeyd etmişdir. Qabiliyyət imtahanlarında iştirak üçün 5153 abituriyent(subbakalavr) QİK-lər üzrə qeydiyyatdan keçmişdir. Ötən illə müqayisədə bütün QİK-lər üzrə qeydiyyatdan keçən abituriyentlərin sayında artım müşahidə olunmuşdur. Dizayn komissiyası üzrə qeydiyyatdan keçənlərin sayı digər komissiyalarla müqayisədə daha çox olmuşdur. Qabiliyyət imtahanları nəticəsində 1938 nəfər ixtisas seçiminə buraxılmışdır. İmtahanlar 15 xüsusi qabiliyyət tələb edən ixtisas üzrə aparılmışdır. Bu ixtisaslar, əsasən, V ixtisas qrupuna aid olsalar da, digər ixtisas qruplarına aid olanlar da vardır (III ixtisas qrupuna aid islamşünaslıq və jurnalistika, I ixtisas qrupuna aid memarlıq ixtisası). Xüsusi qabiliyyət tələb edən ixtisaslar 6 istiqamət üzrə qruplaşdırılmışdır:

1. Təsviri sənət
2. Musiqi sənəti
3. Memarlıq
4. Teatr, kino və xoreoqrafiya sənəti
5. Jurnalistika
6. Bədən tərbiyəsi və idman

Azərbaycan İlahiyyat İnstitutunun islamşünaslıq ixtisasına qəbul olmaq istəyən abituriyentlər Azərbaycan İlahiyyat İnstitutunda DİM tərəfindən yaradılan dini-psixoloji komissiya tərəfindən aparılan müsahibədə iştirak edirlər. Müsahibədən uğurla keçən ixtisas seçimi zamanı digər ixtisaslarla yanaşı, Azərbaycan İlahiyyat İnstitutunun islamşünaslıq ixtisasını da seçə bilərlər.

İslamşünaslıq ixtisasına qəbul üçün müsahibələrin keçirilməsi 9 sentyabr tarixindən başlamışdı. Müsahibələrdə iştirak üçün qeydiyyatdan keçmiş 174 abituriyentdən 75-i müvəffəqiyyət qazanaraq islamşünaslıq ixtisasını seçmək imkanına malik olub. Karantin rejiminin abituriyentlər üçün yaratdığı əlavə çətinlikləri nəzərə alaraq Naxçıvanda yaşayan abituriyentlərin müsahibədə iştirakını təmin etmək məqsədilə onlar üçün onlayn müsahibə keçirilib.

2020/2021-ci tədris ili üçün ali təhsil müəssisələrinə keçirilmiş qəbul imtahanlarının istiqamətlər üzrə statistikası Cədvəl 2 və Cədvəl 5-də verilmişdir. Cədvəl 5-də Qabiliyyət imtahanı komissiyaları üzrə abituriyentlərin imtahan nəticələri faizlərlə göstərilmişdir. Müsabiqə şərtlərinə görə komissiyalar üzrə tələb olunan minimal nəticə 6 bal olmuşdur. Müəllimlik ixtisasları üzrə imtahan nəticələri məqbul və ya qeyri-məqbulla qiymətləndirilmişdir.

Şəhərlər üzrə imtahan verən abituriyentlərin statistikası

Cədvəl 1

Şəhər	Qeydiyyatdan keçən abituriyentlərin sayı	Məqbul qiymət alanların sayı
Bakı	4405	1911
Naxçıvan	425	106

İstiqamətlər üzrə imtahan verən abituriyentlərin statistikası

Cədvəl 2

İstiqamətlər	Qeydiyyatdan keçən abituriyentlərin sayı	Məqbul qiymət alanların sayı
Təsviri sənət	2481	890
Musiqi	1140	693
Memarlıq	235	192
Teatr, kino və xoreoqrafiya	801	167
Jurnalistika		

İstiqamətlər üzrə imtahan verən abituriyentlərin statistikası

2020-ci il ali təhsil müəssisələrinə qəbulda cari ilin qəbul qaydalarına uyğun olaraq subbakalavrlara xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olmaq üçün I mərhələdə iştirak etmədən II mərhələdə – qabiliyyət imtahanlarında iştirak imkanı verilmişdi. Bu imtahanlarda 748 subbakalavr iştirak edib.

Bununla yanaşı ali təhsilin **magistratura səviyyəsinə** təsviri sənət, musiqi, teatr, kino və xoreoqrafiya sənətləri istiqamətləri üzrə qabiliyyət imtahanları keçirilib. COVİD-19 pandemiyası ilə əlaqədar olaraq 68-69-cu proqramlar üzrə qabiliyyət imtahanları keçirilməmiş, yalnız 70-ci proqram üzrə 5 Qabiliyyət İmtahanı Komissiyasında imtahan verən bakalavrlar magistratura səviyyəsinə aid xüsusi qabiliyyət tələb edən ixtisaslaşmalar üzrə imtahan vermişdir.

Orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq üçün abituriyentlər Bakıdan əlavə respublikanın 5 bölgəsində imtahan veriblər. İmtahanlar xüsusi qabiliyyət tələb edən ixtisasların xüsusiyyətlərinə uyğun olaraq 4 istiqamət üzrə keçirilib:

1. Təsviri sənət
2. Musiqi sənəti
3. Teatr, kino və xoreoqrafiya sənəti

Bu il DİM-in orta ixtisas təhsili müəssisələrinə

Şəhərlər üzrə imtahan verən (11 illik təhsil bazasında) abituriyentlərin sayı

Cədvəl 3

Şəhər	Məqbul qiymət alanların sayı
Bakı	456
Bərdə	2
Gəncə	6
Lənkəran	3
Şəki	1

keçirdiyi qabiliyyət imtahanlarında iştirak etmək üçün 900 abituriyent tam orta təhsil bazasından qeydiyyatdan keçmiş, onlardan 468-i məqbul qiymət almışdır.

Ümumi orta təhsil bazasından isə 928 abituriyent imtahanlarda iştirak etmək üçün qeydiyyatdan keçmişdir.

Yaradıcılıq Qabiliyyətinin Yoxlanılması Komissiyaları (YQYK) üzrə imtahanda iştirak edənlərin sayı Cədvəl 6-da verilmişdir. Paytaxta nisbətən bölgələrdə orta ixtisas təhsili müəssisələrinin sayı çox olduğuna görə Cədvəl 6-dan göründüyü kimi bölgələr üzrə qeydiyyatdan keçənlərin sayı daha çoxdur.

İstiqamətlər üzrə imtahan verən (11 illik təhsil bazasında) abituriyentlərin sayı

Cədvəl 4

İstiqamətlər	Məqbul qiymət alanların sayı
Təsviri sənət	380
Musiqi	72
Teatr, kino və xoreoqrafiya	5

Qabiliyyət imtahanları qurtardıqdan sonra 2021/2022-ci tədris ili üçün qəbul imtahanlarının keçirilməsini təkmilləşdirmək, eləcə də imtahanların elmi-metodiki təhlilini aparmaq məqsədilə bütün istiqamətlər üzrə seminarlar keçirilmişdir. Seminarlarda növbəti ilin müsabiqə şərtləri, qəbul proqramları və yeni imtahanların məzmunu ilə bağlı müzakirələr aparılmış, qəbul edilmiş qərarlar ictimaiyyətə vaxtında çatdırılmışdır. Seminarlar oktyabr ayından növbəti ilin yanvar ayına qədər davam etmişdir.

Abituriyentlərin yaradıcılıq qabiliyyətinin qiymətləndirilməsində şəffaflığın təmin edilməsi məqsədilə xüsusi qabiliyyət imtahanlarında ekspert kimi iştirak edən ali və orta ixtisas təhsili müəssisələrinin pedaqoji heyətinin vahid reyestri – QABİS yaradılmışdır.

Karantin rejiminin abituriyentlər üçün yaratdığı əlavə çətinlikləri nəzərə alaraq Naxçıvanda yaşayan abituriyentlərin(subbakalavrların) bütün qabiliyyət imtahanları onlayn keçirilmiş, Bakıda təşkil edilmiş QİK qiymətləndirməni həyata keçirmişdir. Rəngkarlıq (67), İnstrumental ifaçılıq (71,72 və 74-cü komissiyalar), Akademik vokal (68), Dirijorluq (75), Bəstəkarlıq (69), Musiqişünaslıq (73), Aktyor sənəti (80), Memarlıq (77) komissiyaları daxil olmaqla ümumilikdə 10 QİK üzrə qiymətləndirmə onlayn həyata keçirilmişdir.

Sektor il ərzində 900-dən çox elektron müraciətə yazılı cavab vermişdir.

2020/2021-ci tədris ili üçün ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul üçün keçirilmiş imtahanların nəticələri

(Qabiliyyət imtahanı komissiyaları üzrə)

Cədvəl 5

Komissiya kodu	Komissiyanın adı	Müsabiqə şərti		Komissiya üzrə	Qeydiyyatdan keçib	Məqbul qiymət alıb	10	9	8	7	6	Qeyri-məqbul alanlar, kəsilənlər
		Qabiliyyət imtahanının qiyməti	Test balı	plan								
** 10	Rəngkarlıq	6	60	35	157	57	2 (1.3%)	11 (7.0%)	10 (6.4%)	19 (12.1%)	15 (9.6%)	100 (63.7%)
** 11	Qrafika	6	60	20	274	70	1 (0.4%)	10 (3.6%)	18 (6.6%)	29 (10.6%)	12 (4.4%)	204 (74.5%)
** 12	Heykəltəraşlıq	6	60	10	53	16	0 (0.0%)	2 (3.8%)	5 (9.4%)	5 (9.4%)	4 (7.5%)	37 (69.8%)
* 14	Dizayn	6	60	210	1430	465	14 (1.0%)	40 (2.8%)	57 (4.0%)	96 (6.7%)	258 (18.0%)	965 (67.5%)
** 15	Dekorativ sənət	6	60	90	434	259	20 (4.6%)	66 (15.2%)	82 (18.9%)	73 (16.8%)	18 (4.1%)	175 (40.3%)
** 20	Fortepiano, orqan, klavesin (BMA)	6	60	0	104	74	7 (6.7%)	25 (24.0%)	18 (17.3%)	13 (12.5%)	11 (10.6%)	30 (28.8%)
** 21	Orkestr alətləri (BMA)	6	60	80	42	36	12 (28.6%)	10 (23.8%)	8 (19.0%)	4 (9.5%)	2 (4.8%)	6 (14.3%)
** 22	Xalq çalğı alətləri (AMK)	6	60	70	133	114	38 (28.6%)	34 (25.6%)	23 (17.3%)	15 (11.3%)	4 (3.0%)	19 (14.3%)

Cədvəl 5 (ardı)

Komissiya kodu	Komissiyanın adı	Müsabiqə şərti		Komissiya üzrə	Qeydiyyatdan keçib	Məqbul qiymət alıb	10	9	8	7	6	Qeyri-məqbul alanlar, kəsilənlər
		Qabiliyyət imtahanının qiyməti	Test balı	plan								
** 23	Xalq çalğı alətləri	6	60	10	137	90	34 (24.8%)	12 (8.8%)	22 (16.1%)	11 (8.0%)	11 (8.0%)	47 (34.3%)
** 24	Akademik vokal (BMA)	6	60	11	10	6	1 (10.0%)	1 (10.0%)	3 (30.0%)	1 (10.0%)	0 (0.0%)	4 (40.0%)
** 25	Xanəndəlik	6	60	45	145	114	19 (13.1%)	43 (29.7%)	27 (18.6%)	14 (9.7%)	11 (7.6%)	31 (21.4%)
** 26	Populyar musiqi və caz ifaçılığı (vokal)	6	60	15	30	17	2 (6.7%)	8 (26.7%)	4 (13.3%)	0 (0.0%)	3 (10.0%)	13 (43.3%)
** 27	Dirijorluq	6	60	13	22	19	5 (22.7%)	8 (36.4%)	4 (18.2%)	0 (0.0%)	2 (9.1%)	3 (13.6%)
** 28	Milli vokal	6	60	15	37	20	4 (10.8%)	7 (18.9%)	2 (5.4%)	4 (10.8%)	3 (8.1%)	17 (45.9%)
** 29	Bəstəkarlıq	6	60	5	4	3	1 (25.0%)	2 (50.0%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)	1 (25.0%)
** 30	Musiqişünaslıq	6	60	37	63	39	5 (7.9%)	11 (17.5%)	8 (12.7%)	7 (11.1%)	8 (12.7%)	24 (38.1%)
** 31	İnstrumental ifa	6	60	50	182	79	7 (3.8%)	14 (7.7%)	16 (8.8%)	26 (14.3%)	16 (8.8%)	103 (56.6%)
** 36	Populyar musiqi və caz ifaçılığı (alətlər)	6	60	18	17	10	1 (5.9%)	3 (17.6%)	4 (23.5%)	1 (5.9%)	1 (5.9%)	7 (41.2%)
* 40	Memarlıq	6	200	130	229	191	32 (14.0%)	39 (17.0%)	40 (17.5%)	42 (18.3%)	38 (16.6%)	38 (16.6%)
** 50	Aktyor sənəti	6	60	60	232	60	4 (1.7%)	11 (4.7%)	14 (6.0%)	16 (6.9%)	15 (6.5%)	172 (74.1%)
** 51	Rejissorluq	6	60	30	218	23	0 (0.0%)	0 (0.0%)	11 (5.0%)	9 (4.1%)	3 (1.4%)	195 (89.4%)
** 52	Operator sənəti	6	60	20	75	8	1 (1.3%)	2 (2.7%)	1 (1.3%)	1 (1.3%)	3 (4.0%)	67 (89.3%)
** 53	Xoreoqrafiya	6	30	90	203	66	6 (3.0%)	22 (10.8%)	15 (7.4%)	8 (3.9%)	15 (7.4%)	137 (67.5%)
** 67	Rəngkarlıq (NDU)	6	60	10	132	23	1 (0.8%)	5 (3.8%)	6 (4.5%)	5 (3.8%)	6 (4.5%)	109 (82.6%)
** 68	Akademik vokal (NDU)	6	60	10	45	11	1 (2.2%)	0 (0.0%)	3 (6.7%)	3 (6.7%)	4 (8.9%)	34 (75.6%)
** 69	Bəstəkarlıq (NDU)	6	60	5	13	3	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)	3 (23.1%)	10 (76.9%)
** 71	Fortepiano (NDU)	6	60	15	37	18	2 (5.4%)	2 (5.4%)	3 (8.1%)	4 (10.8%)	7 (18.9%)	19 (51.4%)
** 72	Orkestr alətləri (NDU)	6	60	10	10	5	1 (10.0%)	1 (10.0%)	2 (20.0%)	1 (10.0%)	0 (0.0%)	5 (50.0%)

Cədvəl 5 (ardı)

Komissiya kodu	Komissiyanın adı	Müsabiqə şərti		Komissiya üzrə	Qeydiyyatdan keçib	Məqbul qiymət alıb	10	9	8	7	6	Qeyri-məqbul alanlar, kəsilənlər
		Qabiliyyət imtahanının qiyməti	Test balı	plan								
** 73	Musiqişünaslıq (NDU)	6	60	25	58	11	0 (0.0%)	1 (1.7%)	0 (0.0%)	3 (5.2%)	7 (12.1%)	47 (81.0%)
** 74	Xalq çalğı alətləri (NDU)	6	60	10	36	21	6 (16.7%)	4 (11.1%)	5 (13.9%)	3 (8.3%)	3 (8.3%)	15 (41.7%)
** 75	Dirijorluq: xor (NDU)	6	60	5	15	3	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)	2 (13.3%)	1 (6.7%)	12 (80.0%)
* 77	Memarlıq (NDU)	6	200	15	6	1	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)	1 (16.7%)	0 (0.0%)	5 (83.3%)
** 80	Aktyor sənəti (NDU)	6	60	10	73	10	1 (1.4%)	2 (2.7%)	1 (1.4%)	3 (4.1%)	3 (4.1%)	63 (86.3%)

Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə qeydiyyatdan keçənlərin sayı

(Yaradıcılıq Qabiliyyətinin Yoxlanılması Komissiyaları üzrə)

Cədvəl 6

Komissiyanın kodu	Komissiyanın adı	Qeydiyyatdan keçən abituriyentlərin sayı	Məqbul qiymət alan abituriyentlərin sayı	Qeyri/məqbul qiymət alan abituriyentlərin sayı	İmtahana gəlməyən abituriyentlərin sayı
142	Xoreoqrafiya	41	33	2	6
143	Rəqs müəllimliyi	36	26	4	6
211	Təsviri sənət	381	202	47	132
212	Heykəltəraşlıq	17	13	2	2
221	İnstrumental ifaçılıq	190	118	18	54
222	Xalq çalğı alətləri ifaçılığı	167	97	15	55
223	Xanəndəlik	24	14	4	6
311	Rəngkarlıq	11	5	1	5
323	Xanəndəlik	4	3	0	1
324	Vokal sənəti	10	4	1	5
327	Aşıq sənəti	8	8	0	0
342	Xoreoqrafiya	12	8	2	2
423	Xanəndəlik	6	4	0	2
424	Vokal sənəti	6	2	1	3
623	Xanəndəlik	15	9	1	5
Cəmi		**928**	**546**	**98**	**284**

DİM-in vətəndaşlara göstərdiyi elektron xidmətlər

M.M.Abbaszadə, Ç.C.Xəlilov

DİM-də informasiya-kommunikasiya texnologiyalarının (İKT) kütləvi proseslərə tətbiqi istiqamətində işlər 2020-ci ildə də intensiv şəkildə davam etdirilmişdir. İKT istər ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrinə, istər rezidenturaya, istər orta ixtisas təhsili pilləsinə qəbul prosesinin, ümumi təhsil müəssisələri şagirdlərinin buraxılış imtahanlarının, istərsə də dövlət qulluğuna işə qəbulun bütün mərhələlərində tətbiq edilmişdir. Bununla da yüz minlərlə vətəndaşa elektron xidmət göstərilmişdir. Belə ki, 2020-ci ildə DİM tərəfindən göstərilən elektron xidmətlərdən 7 milyon 164 mindən artıq istifadə qeydə alınmışdır.

DİM tərəfindən 2020-ci ildə göstərilən elektron xidmətlərin təsnifatı:

№	Elektron xidmətin adı	Xidmətdən istifadələrin sayı				
		I rüb	II rüb	III rüb	IV rüb	Cəmi
1	Namizədlərin (abituriyentlərin, bakalavrların, namizədlərin (rezidenturaya sənəd verənlər) ərizələrinin onlayn qəbulu	39521	193443	10899	0	**243863**
2	Namizədlərə imtahana buraxılış vərəqələrinin internet vasitəsilə verilməsi	255274	482376	699981	366	**1437997**
3	Namizədlərin elektron ixtisas seçimi ərizələrinin onlayn qəbulu	0	22945	101823	8077	**132845**
4	Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi	226679	724641	2015820	93015	**3060155**
5	Namizədlərə onların cavab kartlarının qrafik təsvirlərinin internet vasitəsilə verilməsi	50244	281222	650895	5316	**987677**
6	Bakalavrların bakalavr pilləsinə qəbul olmaq üçün təqdim etdikləri ərizələrin iş nömrələrinin axtarışı	34536	3919	4705	1611	**44771**
7	Sınaq imtahanına yazılış	16308	0	0	112	**16420**
8	Onlayn sınaq imtahanının keçirilməsi	0	0	0	0	**0**
9	İnternetdə video–mühazirələr	165300	425600	384000	98453	**1073353**
10	DİM-in virtual ödəmə kartlarının onlayn və qısa mesaj (SMS) vasitəsilə satışı	0	0	0	0	**0**
11	DİM nəşrlərinin və onların elektron versiyalarının onlayn satışı	608	2080	5632	1289	**9609**
12	DİM-in yenilikləri barədə SMS məlumatlandırma	0	0	0	0	**0**
13	Vətəndaşların DİM rəhbərliyinin və məsul işçilərinin qəbuluna onlayn yazılması	18	0	0	0	**18**
14	Ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə biliyinin yekun qiymətləndirilməsi (attestasiyası) aparılan təhsilalanların DİM-in "Şagird-məzun sistemi"ndə özləri haqqında məlumatları internet vasitəsilə yoxlaması	2108	64479	60774	1904	**129265**

№	Elektron xidmətin adı	Xidmətdən istifadələrin sayı				
		I rüb	II rüb	III rüb	IV rüb	Cəmi
15	Müsabiqə və müsahibə nəticələri barədə məlumatların verilməsi	-	-	-	-	**0**
16	Dövlət qulluqçularının Reyestrindən məlumatların verilməsi	-	-	-	-	**28103**
17	Dövlət qulluqçularının etik davranış qaydalarına riayət etməsi barədə müraciətlərin qəbulu	-	-	-	-	**0**
18	Dövlət qulluğu stajı kalkulyatoru	-	-	-	-	**113**
	Cəmi	**790596**	**2200705**	**3934529**	**210143**	**7164189**

DİM-in 2020-ci ildə keçirdiyi imtahanlarda 391265 nəfər iştirak etmişdir

Dövlət İmtahan Mərkəzi tərəfindən 2020-ci ildə keçirilən imtahanlar

Ümumi təhsilin ümumi və tam orta təhsil səviyyələri üzrə imtahanlar	**Saylar**
Ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları	**122508**
Tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları	**88433**
Buraxılış imtahanları çərçivəsində Azərbaycan dili (dövlət dili kimi) imtahanı	**16815**
Cəmi:	**227756**

Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrinə qəbul	
Ali təhsilin bakalavriat səviyyəsinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul	**72968**
o cümlədən :	
"Hərbi həkim işi" ixtisasına qəbul	
H.Əliyev adına Ali Hərbi Məktəbə qəbul	
DİN-nin Polis Akademiyasına qəbul	
DİN-nin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul	
Dövlət Təhlükəsizliyi Xidmətinin Akademiyasına qəbul	
Dövlət Sərhəd Xidməti Akademiyasına qəbul	
Fövqaladə Hallar Nazirliyinin Akademiyasına qəbul	
Dövlət Gömrük Komitəsinin Akademiyasına qəbul	
Jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahan	**962**
Ali təhsilin bakalavriat səviyyəsinə və tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün ana dili və xarici dil üzrə fərq imtahanları (cari ilin məzunları üçün)	**1905**
Qəbul imtahanları çərçivəsində Azərbaycan dili (dövlət dili kimi) imtahanı	**2362**
Ali təhsilin bakalavriat səviyyəsinə V qrup üzrə və tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul (əvvəlki illərin məzunları üçün)	**24574**
Ali təhsilin bakalavriat səviyyəsinin və tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı	**5562**
Ümumi orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul (əvvəlki illərin məzunları üçün)	**9196**
Ümumi orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün ana dili və xarici dil üzrə fərq imtahanları (cari ilin məzunları üçün)	**61**

Azərbaycan Respublikasının ali və orta ixtisas təhsili müəssisələrinə qəbul	
Ümumi orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı	**928**
Ali təhsilin bakalavriat səviyyəsinə qəbul olmaq istəyən şəxslər üçün sınaq imtahanları	**15104**
Ali təhsilin magistratura səviyyəsinə qəbul	**15738**
Ali təhsilin magistratura səviyyəsinin xüsusi qabiliyyət tələb edən ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlar üçün qabiliyyət imtahanı	**56**
Ali təhsilin magistratura səviyyəsinə qəbul olmaq istəyən şəxslər üçün sınaq imtahanları	**847**
ADA Universitetinə magistratura səviyyəsi üzrə ikili diplom proqramına qəbul imtahanı	**39**
Cəmi:	**150302**

Baza ali tibb təhsili əsasında rezidenturaya qəbul	
Baza ali tibb təhsili əsasında rezidenturaya qəbul	**2127**
Cəmi:	**2127**

Doktoranturaya qəbul	
Doktoranturaya qəbul ilə bağlı xarici dil üzrə sınaq imtahanı (elektron)	**489**
Doktoranturaya qəbul ilə bağlı xarici dil imtahanı	**1519**
Cəmi:	**2008**

Hərbi təhsil müəssisələrinə qəbul	
Hərbi liseylərə qəbul	**1063**
Orta Hərbi Tibb Məktəbinə qəbul	**66**
Dövlət Sərhəd Xidmətinin xüsusi məktəbinə qəbul	**1150**
Cəmi:	**2279**

Dövlət qulluğuna və dövlət orqanlarına işə qəbul	
Dövlət qulluğuna işə qəbul	**3273**
Dövlət qulluğuna işə qəbul (elektron imtahan)	**359**
Dövlət qulluğuna işə qəbulla bağlı sınaq imtahanı (elektron imtahan)	**159**
Vəkillər Kollegiyasına üzv olmaq istəyən namizədlər üçün imtahan (elektron imtahan)	**240**
Aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatı almaq istəyən namizədlər üçün test imtahanı	**53**
Cəmi:	**4084**

Beynəlxalq imtahanlar	
SAT imtahanı	**251**
TOEFL IBT imtahanı	**166**
GRE imtahanı	**44**
Pearson VUE imtahanı	**162**
ACCA imtahanı	**2**
Cəmi:	**625**

Digər imtahanlar	
"Yüksəliş" müsabiqəsin çərçivəsində test imtahanı (elektron imtahan)	**220**
"SABAH" qruplarına qəbul imtahanının 2- ci mərhələsi	**1864**
Cəmi:	**2084**
Ümumi cəm:	**391265**

DİM-də aparılan elmi-metodiki işlər və fənn seminarları haqqında statistik məlumatlar

1992–2020-ci illərdə DİM-də (TQDK-da) APARILMIŞ ELMİ-METODİKİ İŞLƏR

ÜMUMİ TƏHSİL ÜZRƏ YOXLAMA-ÖLÇMƏ MATERİALLARININ HAZIRLANMASI ÜZRƏ

	1992	1993	1994	1995-1997	1998	1999-2000	2001-2003	2004-2009	2010-2020
FƏNN KURİKULUMLARI ÜZRƏ QƏBUL PROQRAMLARI									
METODİKİ VƏSAİTLƏR									
QİYMƏTLƏNDİRMƏ TAPŞIRIQLARI									
TEST TAPŞIRIĞI TOPLULARI									
STATİSTİK TƏDQİQATLAR									
TELEVİZİYA VERİLİŞLƏRİ									
SINAQ İMTAHANLARI									
PSİXOLOJİ KÖMƏK VƏ PEŞƏYÖNÜMÜ İŞİ									
İNTERNET VASİTƏSİLƏ İNFORMASİYA MÜBADİLƏSİ XİDMƏTİ									
ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜÇÜN VƏSAİTLƏR									
ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜÇÜN ELEKTRON VƏSAİTLƏR									
TƏCRÜBƏLİ EKSPERTLƏRİN FƏNLƏR ÜZRƏ VİDEO-MÜHAZİRƏLƏRİ									

ALİ TƏHSİL ÜZRƏ YOXLAMA-ÖLÇMƏ MATERİALLARININ HAZIRLANMASI (MAGİSTRATURA) ÜZRƏ

	2005-2006	2007-2008	2009	2010	2011	2012	2013	2014	2015-2020
QƏBUL PROQRAMLARI									
MODEL TESTLƏR									
TEST TAPŞIRIQLARININ ELMİ-METODİKİ İZAHI VƏ TÖVSİYƏLƏR									
MƏNTİQ TESTLƏRİ									
İNFORMATİKA ÜZRƏ VƏSAİT									
SINAQ İMTAHANLARI									
ONLAYN SINAQ İMTAHANLARI									

BAZA TİBB TƏHSİLİ ÜZRƏ (REZİDENTURA)

	2011	2012	2013	2014	2015	2016	2017	2018	2019	2020
QƏBUL PROQRAMLARI										
MODEL TESTLƏR										
TEST TAPŞIRIQLARININ ELMİ-METODİKİ İZAHI VƏ TÖVSİYƏLƏR										
SINAQ İMTAHANLARI										
ONLİNE SINAQ İMTAHANLARI										
BAZA FƏNLƏRİ ÜZRƏ TEST TOPLUSU (rezidenturaya hazırlaşanlar üçün vəsait)										
BAZA FƏNLƏRİ ÜZRƏ TEST TAPŞIRIĞI NÜMUNƏLƏRİ VƏ ONLARIN İZAHI (rezidenturaya hazırlaşanlar üçün vəsait)										
İNSAN ANATOMİYASI (rezidenturaya hazırlaşanlar ucun vəsait)										
BİOLOJİ KİMYA (rezidenturaya hazırlaşanlar ucun vəsait)										
TERAPEVTİK STOMATOLOGİYA (rezidenturaya hazırlaşanlar ucun vəsait)										
PATOLOJİ FİZİOLOGİYA (dərs vəsaiti)										
НОРМАЛЬНАЯ ФИЗИОЛОГИЯ (пособие для поступающих в резидентуру)										
БИОЛОГИЧЕСКАЯ ХИМИЯ (пособие для поступающих в резидентуру)										
АНАТОМИЯ ЧЕЛОВЕКА (пособие для поступающих в резидентуру)										
ПАТОЛОГИЧЕСКАЯ ФИЗИОЛОГИЯ (пособие для поступающих в резидентуру)										
ГИСТОЛОГИЯ (пособие для поступающих в резидентуру)										
Фармакология (пособие для поступающих в резидентуру, электронная версия)										
ПАТОЛОГИЧЕСКАЯ АНАТОМИЯ Фармакология (пособие для поступающих в резидентуру, электронная версия)										

DƏRSLİK VƏ DƏRS VƏSAİTLƏRİNİN ELMİ-METODİKİ MONİTORİNQİ ÜZRƏ

	2012	2013	2014	2015	2016	2017	2018	2019	2020
I-XI SİNİFLƏR ÜZRƏ DƏRSLİK VƏ DƏRS VƏSAİTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ									
DƏRSLİK PORTALI									
DİM-nin NƏŞRLƏRİNİN ELMİ-METODİKİ MONİTORİNQİ									

ELMİ-METODİKİ SEMİNARLARIN İŞTİRAKÇILARININ SAY TƏRKİBİ

ÜMUMİ TƏHSİL ÜZRƏ YOXLAMA-ÖLÇMƏ MATERİALLARININ HAZIRLANMASI ÜZRƏ

№	FƏNNİN ADI	Ümumi say tərkibi	Onlardan		
			professorlar	dosentlər	məktəb müəllimləri
1	Azərbaycan dili və ədəbiyyatı	238	7	15	216
2	Azərbaycan dili (rus bölməsi üçün)	46	1	5	40
3	Rus dili və ədəbiyyatı	108	2	9	97
4	Rus dili (Azərbaycan bölməsi üçün)	67	1	3	63
5	Riyaziyyat	302	4	25	273
6	Fizika	247	7	35	205
7	Kimya	205	6	23	176
8	Biologiya	185	3	19	163
9	Tarix	233	4	21	208
10	Coğrafiya	187	5	17	165
11	İngilis dili	184	0	6	178
12	Qərb dilləri (alman, fransız)	75	2	4	69
13	Şərq dilləri (ərəb, fars)	52	3	2	47
	Cəmi	*2129*	*45*	*184*	*1900*

ALİ TƏHSİL ÜZRƏ YOXLAMA-ÖLÇMƏ MATERİALLARININ HAZIRLANMASI: MAGİSTRATURA ÜZRƏ

№	FƏNNİN ADI	Ümumi say tərkibi	Onlardan		
			Professorlar, elmlər doctorları	Dosentlər, fəlsəfə doktorları	Ali təhsil müəssisələrinin müəllimləri, elmi mərkəzlərin mütəxəssisləri, doktorant və dissertantlar
1	Psixometriya (məntiq)	12	1	4	7
2	İnformatika	15	2	5	8
3	Xarici dillər	60	3	20	37

REZİDENTURA ÜZRƏ*

№	Rezidentura üzrə	Ümumi say tərkibi	Onlardan				
			professorlar	dosent	baş müəllim	assistent	həkim
1	Baza fənləri	56	8	31	6	11	-
2	İxtisas fənləri:						
	Müalicə işi, Pediatriya istiqaməti	61	3	39	7	7	5
	Stomatologiya istiqaməti	26	4	9	3	8	2
	Tibbi profilaktika istiqaməti	21	2	12	5	3	-

* Cədvəldə seminarlarda iştirak etmək hüququ olanlanların ümumi sayı verilmişdir. Pandemiya ilə əlaqədar olaraq seminarlar əsasən onlayn qaydada aparılmışdır.

DƏRSLİK VƏ DƏRS VƏSAİTLƏRİNİN ELMİ-METODİKİ MONİTORİNQİ ÜZRƏ

№	Seminarın adı	Ümumi say tərkibi		
		Bakı və Sumqayıt şəhərləri üzrə	Regionlar üzrə	Cəmi
1.	Azərbaycan dili və ədəbiyyatı	260	232	492
2.	Azərbaycan dili (rus bölməsi üçün)	46	0	46
3.	Rus dili və ədəbiyyatı	108	34	142
4.	Rus dili (Azərbaycan bölməsi üçün)	67	31	98
5.	Riyaziyyat	302	225	527
6.	Fizika	247	175	422
7.	Kimya	207	167	374
8.	Biologiya	185	156	341
9.	Tarix	233	163	396
10.	Coğrafiya	187	153	340
11.	İngilis dili	180	83	263
12.	Qərb dilləri (alman, fransız)	75	40	115
13.	Şərq dilləri (ərəb, fars)	52	0	52
14.	İbtidai siniflər	1541	158	1699

DİM-in beynəlxalq əməkdaşlıq və strateji inkişaf layihələrinin həyata keçirilməsi üzrə fəaliyyəti

Vəli Hüseyn, Pərviz Kazımov, Səbinə Hüseynova,
Günel Məmmədova, Vəfa Ələkbərova

DİM dövlət qulluğu, təhsilin qiymətləndirilməsi və tələbə qəbulu sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, Azərbaycan dövlət qulluğu modelinin və təhsilin qiymətləndirilməsi sahəsində Azərbaycan təcrübəsinin təbliği məsələsinə xüsusi önəm verir. Bu məqsədlə 2020-ci ildə "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Nizamnaməsi"nə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını rəhbər tutaraq təhsilin qiymətləndirilməsi, tələbə qəbulu və dövlət qulluğu məsələləri üzrə beynəlxalq təşkilatlar və xarici dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq, konfrans, seminar və digər tədbirlərin təşkili, beynəlxalq imtahanların Azərbaycan Respublikasında keçirilməsini təmin edilməsi, dövlət qulluğunun inkişafına yönəlmiş dövlət və beynəlxalq proqramların həyata keçirilməsi istiqamətində fəaliyyətlər reallaşdırılmışdır. Dünyada yayılan koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar 2020-ci ilin mart ayından etibarən il ərzində qeyd olunan bütün tədbirlər onlayn şəkildə təşkil edilmişdir.

Təhsilin qiymətləndirilməsi sahəsində beynəlxalq əməkdaşlıq:

1. 21-22 yanvar tarixlərində DİM-in Strateji inkişaf şöbəsinin müdiri Vəli Hüseyn Pearson təşkilatı tərəfindən Böyük Britaniyanın London şəhərində **Pearson Edexcel Qiymətləndirmə Konfransında** iştirak etmişdir. Konfransın keçirilməsində əsas məqsəd qiymətləndirmə sahəsində texnologiyaların istifadəsi üzrə ən son yenilikləri, onların praktiki tətbiqi və mövcud nəticələrini Pearson təşkilatının müxtəlif tərəfdaş ölkələrdən olan nümayəndələri ilə paylaşmaq və fikir mübadiləsi aparmaq olmuşdur. Tədbirdə Pearson akademik ingilis dili (Pearson Test of English Academic, PTE A) testinin digər ingilis dili üzrə testlərlə müqayisəsi, Pearson təşkilatı tərəfindən testlərin tərtib edilməsi, onların validliyi və etibarlılığı kimi mövzuları əhatə edən təqdimatlar nümayiş edilmişdir.
2. Fevral ayında DİM ABŞ-ın ETS (Educational Testing Service) təşkilatının **GRE (Graduate Record Examinations)** imtahanını keçirmək üçün lisenziya əldə etmişdir. GRE imtahanı riyazi və verbal məntiq, həmçinin analitik yazı (esse) hissələrindən ibarətdir. Bu imtahan dünyanın bir çox ali təhsil müəssisələrində magistr, MBA, doktorantura təhsilini almaq üçün tələb olunur və təqaüdlərin verilməsi zamanı diqqət yetirilən göstəricilərdən biridir.
3. İyun ayında DİM-in Strateji inkişaf və layihələrin idarə olunması sektorunun müdiri Pərviz Kazımov M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Bakı filialında magistr pilləsi üzrə dövlət imtahanlarının keçirilməsi və magistr dissertasiyalarının müdafiəsi üçün təşkil edilmiş **Dövlət İmtahan Komissiyalarının üzvü** olmuşdur.
4. 6-10 iyul tarixlərində DİM-in əməkdaşları IT sahəsində beynəlxalq səviyyədə aparıcı yer tutan Moodle platformasının təşkil etdiyi **"MoodleMoot Global Online 2020"** adlı onlayn konfransda iştirak etmişlər. Tədbirdə iştirakın əsas məqsədlərindən biri DİM tərəfindən yaradılan platformaların *(Moodle Öyrənmə İdarəetmə Sistemi (LMS) əsasında DİM-in əməkdaşları tərəfindən onlayn imtahanların keçirilməsi üçün "ProctorDİM", həmçinin Yüksəliş müsabiqəsinin imtahan platformaları hazırlanmışdır)* daha da təkmilləşdirilməsi idi. Eyni zamanda öyrənmə və qiymətləndirmə prosesinə texnologiyanın tətbiqi zamanı yol verilə bilən xətaların aradan qaldırılması, digər ölkələr və təşkilatların elektron qiymətləndirmə təcrübəsi, bulud texnologiya sistemləri və Moodle tətbiqlərindən istifadə, eləcə də plagin komponentlərinin qiymətləndirməyə tətbiqi barədə yeni məlumatların əldə edilməsi də hədəflər sırasına daxil idi. Moodle Komitəsi tərəfindən təşkil olunan "MoodleMoot Global Online 2020" tədbirinə 120-dən çox ölkə, 60-dan çox universitet, 1500-dən çox iştirakçı, tədqiqatçı və müvafiq sahə mütəxəssisləri cəlb olunmuşdur. 5 günlük tədbir üç fərqli istiqamət üzrə mövzuları əhatə etmişdir: təhsil, texnologiya və rəsmi MoodleMoots.

5. İyul ayında DİM ilə ACCA rəsmi tərəfdaşlığa başlamışdır. Əldə edilmiş razılığa əsasən, DİM-ə dünyanın bir çox ölkələrində tanınan **ACCA - (The Association of Chartered Certified Accountants – İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası)** beynəlxalq imtahanlarının keçirilməsi üçün lisenziya verilmişdir. Bu assosiasiyada 179 ölkədən 544 000 tələbə və 227 000 üzv qeydiyyatdadır. ACCA imtahanları beynəlxalq standartlara uyğun olaraq müvafiq sahələrdə kadrların formalaşdırılması, peşəkarlıq səviyyəsinin yüksəldilməsi və yerli mütəxəssislərə mühasibatlıq üzrə sertifikatların verilməsi məqsədi ilə təşkil edilir. Assosiasiya həm özəl, həm də dövlət sektorlarını dəstəkləyir.

6. Noyabr ayında DİM ilə ECDL arasında müqavilə imzalanmış və DİM Azərbaycanda "Kompüterdən İstifadəyə dair Beynəlxalq Lisenziya" – **"International Computer Driving Licence" (ICDL)** proqramını təklif edən yeganə akkreditasiya olunmuş test mərkəzi kimi qeydiyyata alınmışdır.

7. Noyabr ayında DİM distant tədris və onlayn qiymətləndirmə platformalarının inkişafı naminə yaradılan **Moodle İstifadəçiləri Assosiasiyasının (MIA)** üzvlüyünə qəbul edilmişdir. DİM-in MIA-ya üzvlüyü Moodle tətbiqindən istifadə edən DİM mütəxəssislərinə Moodle alətlərinin əlçatan olması üçün şərait yaradacaq və onlara Moodle platformasının üstünlükləri, habelə yenilənmiş versiyaları barədə sürətli məlumat əldə etməyə imkan verəcək. Bu üzvlük Öyrənmə və İdarəetmə Sisteminin (LMS – Learning Management System) yeniliklərindən yararlanmağa fürsət verərək Moodle platforması əsasında yaradılan distant tədris - OTK və onlayn qiymətləndirmə - "ProctorDİM" kimi platformalarının inkişafına da imkan verəcək.

Beynəlxalq qiymətləndirmə proqramları və ali məktəblərə müsabiqədənkənar tələbə qəbulu:

8. 2020-ci ildə DİM beynəlxalq imtahanlar üzrə ölkədə yeganə etibarlı test mərkəzi olmuş, Azərbaycan vətəndaşlarının xaricdə təhsil imkanlarını dəstəkləyərək pandemiya müddətində beynəlxalq təcrübə əsasında imtahanlar təşkil etmiş, həmçinin beynəlxalq imtahanların işğaldan azad olunmuş ərazilərdə keçirilməsi üzrə hazırlıq işlərinə başlamışdır. İmtahanlar Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) imtahan mərkəzlərində (zallarında) imtahan müddətində əməkdaşların və iştirakçıların sağlamlığının qorunmasına dair hazırladığı metodiki göstərişlərə və müvafiq sanitar-gigiyena qaydalarına uyğun olaraq inzibati binaların hər imtahan otağında 5-10 nəfər olmaqla və sosial məsafə gözlənilməklə təşkil olunmuşdur. 2020-ci il üçün DİM-də ümumilikdə 8 fərqli beynəlxalq imtahanlarının keçirilməsi nəzərdə tutulmuşdur.

8.1 Pandemiya müddətində davam etdirilən imtahanlar:



8.2 Pandemiya müddətində ilk dəfə keçirilməsinə dair müqavilə bağlanan imtahanlar:

№	İmtahanın adı	Formatı
1.	ACCA (İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiyasiyası)	kompüter əsaslı
2.	ТРКИ (Rus dili xarici dil kimi imtahanı)	onlayn
3.	ICDL (Kompüterdən İstifadəyə dair Beynəlxalq Lisenziya)	kompüter əsaslı
4.	Cambridge English Assessment (Kembric İngilis dili imtahanları)	kompüter əsaslı

8.3 2020-ci ildə keçirilmiş beynəlxalq imtahanlara dair statistik məlumatlar:





Qeyd: Mərkəz tərəfindən keçirilən beynəlxalq imtahanlarda ABŞ, Almaniya, Əfqanıstan, İran, Rusiyadan olan əcnəbilər də iştirak etmişlər.



SAT imtahanlarının müxtəlif növlərində iştirak edənlərin sayı



Keçirilmiş ixtisaslaşma imtahanların növlər üzrə % bölgüsü



8.4 Pearson VUE platforması vasitəsilə keçirilmiş ixtisaslaşma imtahanlarının aid olduğu qurumların siyahısı:

№	Qurumlar (istiqamətlər üzrə)
İnformasiya texnologiyaları	
1.	(ISC)2
2.	AVIXA
3.	Cisco
4.	CompTIA
5.	Fortinet
6.	Huawei
7.	IBM
8.	Microsoft
9.	Linux
10.	Oracle

№	Qurumlar (istiqamətlər üzrə)
Rəqəmsal marketinq	
11.	Digital Marketing Institute
Daxili audit	
12.	Institute of Internal Auditors
Hüquq	
13.	LNAT
Layihələrin idarə edilməsi	
14.	PMI - Project Management Institute
Tibb	
15.	Royal College of Obstetricians and Gynaecologists
Maliyyə və mühasibatlıq	
16.	ACAMS
17.	CIMA

9. Müsabiqədənkənar qəbul

Qəbul qaydalarına əsasən *beynəlxalq və respublika fənn olimpiadalarının*, *beynəlxalq müsabiqələrin və yarışların qalibləri*, həmçinin *beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları* - (Beynəlxalq Bakalavriat Diplom Proqramı (IB Diploma Programme), Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (Advanced Level of General Certificate of Education), Yüksək yerləşdirmə (Advanced Placement) üzrə təhsil alan abituriyentlər ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olmaq hüququna malikdirlər.

2020/2021-ci tədris ili üçün müsabiqədənkənar qəbulun göstəriciləri



Respublika fənn olimpiadasının qalibi olan 10 nəfər müvafiq fənnə aid seçə biləcəyi ixtisaslara müsabiqədənkənar qəbul olunmaqdan imtina etmiş və qəbul imtahanından topladıqları bal əsasında müsabiqədə iştirak etmişlər.

IB Diploma Programme məzunlarından ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin sayı (ali təhsil müəssisələri üzrə)*



** Müqayisə üçün qeyd: 2019-cu ildə ancaq 1 nəfər IB Diploma Programme üzrə müsabiqədənkənar qəbul olmuşdur.*

Bundan əlavə, SAT imtahanının nəticələrinə əsasən 160 nəfər "ADA" Universitetinə qəbul olunmuşdur.

SAT imtahanının nəticələrinə əsasən qəbul olan abituriyentlərin % bölgüsü (ixtisaslar üzrə)



Təhsilin qiymətləndirilməsi sahəsində beynəlxalq və strateji layihələr:

1. 5-6 yaşlı uşaqların təməl zehni və sosial bacarıqlarının, iradə gücünün inkişafı üçün **metodiki vəsait** işlənib hazırlanmışdır. Hal-hazırda vəsaitin həm rus, həm də Azərbaycan dilində olan mətnlərinin son redaktəsi həyata keçirilir. Birinci sinif şagirdləri üçün analoji vəsaitin hazırlanmasına 2020-ci ilin son rübündən etibarən başlanmışdır. 5-6 yaşlı uşaqların təməl zehni qabiliyyətlərinin vahid standartlar əsasında qiymətləndirilməsi üçün hazırlanmış testin sınaqdan çıxarılması pandemiya səbəbindən 2020-ci ildə mümkün olmamışdır. Bu prosesin 2021-ci ildə başa çatdırılması nəzərdə tutulmuşdur.
2. DİM ingilis dilinin qiymətləndirilməsi istiqamətində apardığı fəaliyyəti təkmilləşdirmək üçün ABŞ-ın Azərbaycandakı Səfirliyi ilə əməkdaşlıq çərçivəsində Səfirliyin **"English Language Specialist (ELS)"** proqramının bir hissəsi kimi üç mərhələli **"Müəllimlər üçün intensiv peşəkar inkişaf təlimi və konsultasiya"** adlı layihə təşkil etmişdir. Layihənin 1-ci, 2-ci və 3-cü mərhələləri müvafiq olaraq 1–12 aprel 2019-cu il, 30 sentyabr–11 oktyabr 2019-cu il və 5-17 yanvar 2020-ci il tarixlərində həyata keçirilmişdir.

   2.1 Üç mərhələli layihənin son mərhələsi üzrə təlim 6 yanvar 2020-ci il tarixində başlamışdır. Layihə çərçivəsində aşağıdakı fəaliyyətlər həyata keçirilmişdir:

   - 9 və 11-ci sinif buraxılış imtahanlarında ingilis dilinin qiymətləndirilməsi üzrə müxtəlif bacarıqların ölçülməsi üçün sualların hazırlanmasında istifadə olunan meyarlar müzarikə edilmiş, meyarların təkmilləşdirilməsi istiqamətində tövsiyələr hazırlanmışdır;
   - magistratura və doktorantura səviyyəsi üzrə ingilis dilinin qiymətləndirilməsi üçün sualların hazırlanmasında istifadə olunan meyarların təkmilləşdirilməsi istiqamətində tövsiyələr hazırlanmışdır;
   - məlumatların elmi-statistik təhlili üçün istifadə edilən metodlar və yeni metodların əlavə edilməsinin mümkünlüyü yolları müzakirə edilmişdir;
   - DİM-in ingilis dili fənni üzrə təşkil etdiyi təlimlərdə təlimçi kimi fəaliyyət göstərən şəxslərə "Təlimçilər üçün təlim" (TOT) keçirilmişdir. Burada DİM ilə gələcəkdə ingilis dili fənni üzrə sualların yazılması və yoxlanılması (marker) istiqamətində əməkdaşlıq edəcək şəxslərlə təlimlərdə keçiləcək mövzular müzakirə edilmiş, təlim modeli və nümunə tapşırıqlar hazırlanmışdır;
   - Bakı Amerika Mərkəzində bu mərkəzlə əməkdaşlıq edən ingilis dili müəllimləri ilə layihəyə dair ictimai hesabatlılıq xarakteri daşıyan görüş keçirilmişdir. Görüşdə DİM-nin fəaliyyəti, ingilis dili imtahanlarının təşkil edilməsi, sualların yazılması və yoxlanılması, layihənin məqsədi, əhəmiyyəti və layihədən gözlənilən nəticələrə dair təqdimat edilmiş, layihənin təlimçisi Neytn Kar müxtəlif dil bacarıqlarının ölçülməsinin dillər üzrə ümumavropa tövsiyə çərçivə sənədinə (CEFR) uyğunlaşdırılması mövzusunda iştirakçılarla fikir bölgüsü aparılmış, oxu, dinləmə bacarıqları, qrammatika və lüğət ehtiyatının qiymətləndirilməsi üçün ölçü meyarları müzakirə edilmiş və tövsiyələr səsləndirilmişdir.

3. Yanvar ayında Strateji inkişaf şöbəsinin əməkdaşları tərəfindən **doktorantura imtahanlarının ingilis dili blokunun** təkmilləşdirilməsinə dair təkliflər hazırlanmışdır.
4. DİM ilə **Sankt-Peterburq Dövlət Universiteti (SPDU)** arasında 2020-ci ilin əvvəlindən başlayan danışıqların nəticəsi olaraq aşağıdakı istiqamətlər üzrə layihələr hazırlanmış və onların icrasına başlanılmışdır:
   - SPDU-nun təcrübəsindən istifadə edərək "Rus dili" fənni üzrə DİM-in buraxılış imtahanlarında (9 və 11-ci siniflər) istifadə olunan yoxlama-ölçmə materiallarının ekspertizası və təkmilləşdirilməsi *(bu istiqamətdə işin bir hissəsi artıq görülmüşdür)*;
   - Azərbaycanda ТРКИ (Rus dili xarici dil kimi) imtahanlarının keçirilməsi üçün test mərkəzinin yaradılması *(ilk imtahan 2021-ci ilin əvvəlində artıq keçirilmişdir)*;
   - Azərbaycan məktəblərinin rus bölmələrində tədris aparan müəllimlərin ixtisasının artırılması üçün təlimlərin təşkili;
   - Rus dili ilə əlaqəli bilik yarışlarına və tədbirlərə marağın artırılması.

   Qeyd olunan fəaliyyətlərin həyata keçirilməsində Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı Səfirliyi, eləcə də Bakıda Rusiya İnformasiya və Mədəniyyət Mərkəzi (РИКЦ) tərəfindən DİM-ə dəstək göstərilir.
5. **DİM-in imtahanlarında nəzarətçi** qismində iştirak etmək üçün müraciət etmiş namizədlərlə müsahibələr aparılmış və imtahan nəzarətçilərinin psixoloji hazırlığı mövzusunda təlimlər keçirilmişdir.

6. Fevral ayında DİM **dillər üzrə ümumavropa çərçivə sənədinin (CEFR)** Azərbaycan dilinə tərcümə edilməsi üçün Avropa Şurasının müvafiq qurumu ilə əməkdaşlığa başlamışdır. Avropa Şurası ilə aparılan danışıqlara əsasən CEFR sənədinin son nəşrinin (2020-ci il versiyası) Azərbaycan dilinə tərcümə və uyğunlaşdırılması nəzərdə tutulur. CEFR-in Azərbaycan dilinə tərcümə edilməsi mövcud dil proqramlarının təkmilləşdirilməsi, qiymətləndirmə standartlarının beynəlxalq çərçivə sənədi əsasında tərtib olunması və müqayisə edilməsinə, həmçinin tədris prosesinin təsbit olunmuş dil standartları əsasında təşkil olunmasına xidmət edəcək. DİM 2019-cu ilin aprel ayından etibarən xarici dil imtahanlarının CEFR sənədinin səviyyələrinə uyğunlaşdırılması istiqamətində fəaliyyətə başlamışdır. Buna görə də, Nazirlər Kabinetinin 13 noyabr 2019-cu il tarixli Qərarı ilə doktoranturaya qəbul üzrə xarici dil imtahanının keçirilməsi DİM-ə həvalə edildikdə həmin imtahan CEFR-in B2 səviyyəsinə uyğunlaşdırılmışdır. Növbəti illərdə bütün xarici dil imtahanlarının da CEFR-in müvafiq səviyyələrinə uyğunlaşdırılması planlaşdırılır.
7. ADA Universitetinə müsabiqədənkənar qəbulda iştirak etmək üçün abituriyentlərin PTE A imtahanın nəticələrinin göndərilməsi üçün mart ayında Pearson-un **PTE Academic Score Reports** portalında DİM-in rəsmi hesabı yaradılmışdır.
8. Mart-aprel aylarında abituriyent və tələbələrin psixoloji maarifləndirilməsi məqsədilə **"Pozitiv Zəka"** sosial media bloqu çərçivəsində yeni videolar yaradılaraq hədəf auditoriya ilə paylaşılmışdır.
9. Aprel ayında cəmiyyətin **COVID-19 pandemiyası ilə əlaqədar maarifləndirilməsi** üçün Azərbaycan, ingilis və rus dillərində video materiallar, eləcə də vətəndaşların COVID-19-la bağlı biliklərini yoxlamaları üçün test hazırlanmış və DİM-in internet resurslarında yerləşdirilmişdir.
10. Aprel-avqust aylarında **College Board-ın Higher Education Reporting** portalı vasitəsilə ADA Universitetinə müsabiqədənkənar iştirak etmək üçün DİM-in hesabına abituriyentlərin SAT imtahanın nəticələri göndərilmiş və Strateji inkişaf şöbəsinin əməkdaşları tərəfindən ali təhsil müəssisələrinə qəbul zamanı nəzərə alınması üçün emal edilmiş və son siyahı müvafiq şöbəyə yönləndirilmişdir.
11. Aprel ayında DİM British Council ilə əməkdaşlıq çərçivəsində öz işçiləri və Mərkəzlə əməkdaşlıq edən ingilis dili müəllimləri üçün nəzərdə tutulan **"İngilis dili bacarıqlarının qiymətləndirilməsi üzrə beynəlxalq onlayn pilot təlimlər"**ni təşkil etmişdir. Bu təlimlərdə iştirakın əsas məqsədi DİM-in xarici dilin qiymətləndirilməsi istiqamətində institusional inkişafını davam etdirmək və pilot layihəyə töhfə vermək idi. 3 mərhələli, 6 həftəlik təlim proqramı uğurla başa çatmış və hazırda qarşılıqlı müzakirə nəticəsində təlim platformasının təkmilləşdirilməsi davam etdirilir. Təlim proqramı dilin qiymətləndirilməsi nəzəriyyəsi, test tapşırıqlarının tərtib edilməsində müasir yanaşmalar kimi aktual sahələri əhatə etmişdir. Təlimə Bakı (o cümlədən paytaxtda yerləşən məcburi köçkün məktəbləri) və Gəncə şəhərləri üzrə DİM ilə sıx əməkdaşlıq edən ingilis dili müəllimləri və Mərkəzin öz əməkdaşları cəlb edilmişlər.
12. May ayında ETS-in rəsmi internet səhifəsinin **TOEFL® ETS Data Manager** platformasında DİM-in hesabı yaradılmışdır. Həmin platforma beynəlxalq dil sertifikatına (TOEFL) malik olan, doktorantura səviyyəsinə müsabiqədənkənar qəbul və xarici dil üzrə fəlsəfə doktoru imtahanından azad olunmaq istəyən şəxslərin sertifikatlarının elektron nüsxəsinin onlayn şəkildə DİM-ə göndərilməsini təmin edir.
13. 20 may tarixində DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ilə **Gürcüstanın Milli Qiymətləndirmə və İmtahan Mərkəzinin (MQİM)** direktoru Sofia Qorqodze arasında hər iki tərəfin rəhbər şəxslərinin də iştirak etdiyi görüşdə Anlaşma Memorandumu imzalanmış və əməkdaşlıq istiqamətləri üzrə əldə olunmuş nəticələr müzakirə edilərək fəaliyyət planı nəzərdən keçirilmişdir:
    - DİM-in dəstəyi ilə Gürcüstanın tədrisi Azərbaycan dilində olan orta məktəblərində işləyən Azərbaycan dili və ədəbiyyatı müəllimləri üçün "Müəllimlərin peşə ixtisas imtahanı" üzrə qiymətləndirmə alətinə dair test bankının hazırlanması;
    - DİM-in gürcü dili üzrə buraxılış imtahanlarında (9 və 11-ci sinif üzrə) istifadə etdiyi test tapşırıqlarının MQİM tərəfindən ekspertizası;
    - Azərbaycan məktəblərində gürcü dili üzrə qiymətləndirmə alətlərinin hazırlanması üçün MQİM tərəfindən onlayn təlimin təşkili;
    - Gürcüstanın tədrisi Azərbaycan dilində olan orta məktəblərində işləyən azərbaycanlı müəllimlər üçün videodərslər, həmçinin təlim nəticələrinin yoxlanılması üçün qiymətləndirmə imkanlarının DİM tərəfindən təmin edilməsi;
    - DİM və MQİM ekspertləri tərəfindən hazırlanan müxtəlif sahələrə aid ingilis və ya rus dilində olan yoxlama-ölçmə materiallarının mübadiləsi;
    - DİM və MQİM arasında mütəmadi olaraq videokonfransların təşkili və təcrübə mübadiləsinin davam etdirilməsi.

14. İyun-dekabr aylarında yuxarı sinif şagirdləri və abituriyentlərin ixtisas seçiminə yardım etmək məqsədilə metod və alətlərin hazırlanmasına başlanılmışdır. **"İxtisas seçimi"** xidmətinin qurulması bir neçə mərhələdən ibarətdir:

14.1 1-ci mərhələdə minimum ixtisasların təsvirinin yaradılması (50) nəzərdə tutulmuşdur. Burada məqsəd informasiya boşluğunu aradan qaldırmaq və məlumatı auditoriyaya maraqlı şəkildə təqdim etməkdir. İxtisasların təsviri Azərbaycan və rus dillərində təqdim olunacaq. Mümkün olan halda peşə sahibləri ilə video müsahibələrin hazırlanması və ya müsahibə əsasında məqalələrin yazılması nəzərdə tutulmuşdur.

14.2 2-ci mərhələdə abituriyentin marağına və bacarığına uyğun metodlar araşdırılacaq. Seçilmiş metodların siyahısının müəyyənləşdirilməsi və ən effektiv hesab edilənlərin auditoriya üzərində sınaqdan keçirilməsi nəzərdə tutulmuşdur. Nəticədə ixtisas seçimi sahəsində işlək metodlar Azərbaycan və rus dillərində qruplaşdırılacaq.

14.3 Sonuncu mərhələdə artıq ödənişli "İxtisas seçimi" xidmətinin göstərilməsi və ixtisasların təsvirinin yazılmasının davam etdirilməsi nəzərdə tutulmuş, həmçinin ali məktəblər haqqında məlumatların verilməsi planlaşdırılmışdır.

Qeyd edək ki, hazırda layihə üzrə işlər davam etdirilir.

15. İyun-dekabr aylarında DİM-in hədəf auditoriyasına psixoloji dəstək göstərilməsi üçün ***e-psixoloq.az*** internet resursu (**"E-psixoloq onlayn xidmət və araşdırma platforması"**) işlənib hazırlanmışdır.

15.1 Bu resurs şagird və tələbələr, valideynlər və müəllimlər üçün müxtəlif maarifləndirici məqalələr, video mühazirələr və psixoloji testlər təqdim edir. Bununla yanaşı istifadəçilər onlayn söhbət pəncərəsi vasitəsilə psixoloqlara real vaxt ərzində müraciət edərək müvafiq məsləhətlər ala bilərlər. Hal-hazırda tam formatlı onlayn psixoloji məsləhət xidmətinin texniki, hüquqi və maliyyə tərəfləri həll olunur. Xidmət 2021-ci ilin yanvar ayında istifadəyə verilmişdir.

15.2 Abituriyentlərin ixtisas seçiminə dəstək vermək üçün 35 ixtisas üzrə ətraflı məlumatların əks olunduğu professioqramların hazırlanması üzrə işlər həyata keçirilmişdir. Material ***e-psixoloq.az*** internet səhifəsində 2020-ci ilin yanvarında yerləşdirilmişdir. Hal-hazırda digər ixtisaslar üzrə professioqramların hazırlanması prosesi davam edir.

16. İyun ayında IELTS təşkilatının rəsmi internet səhifəsinin **IELTS Test Report Form (TRF) Verification Service** platformasında DİM-in hesabı yaradılmışdır. Həmin platforma vasitəsilə müsabiqədənkənar qəbul üçün və xarici dil üzrə fəlsəfə doktoru imtahanından azad olunmaq üçün beynəlxalq dil sertifikatını (IELTS) təqdim edənlərin sertifikatlarının həqiqiliyi Strateji inkişaf şöbəsinin əməkdaşları tərəfindən yoxlanılır və qəbul prosesi üçün uyğunluğu təsdiqlənir.

17. DİM **Təhsildə Ölçmə İnstitutu – Cito (National Institute for Educational Measurement)** ilə birlikdə riyaziyyat ekspertlərinin peşəkar inkişafı üçün nəzərdə tutulan "PISA çərçivəsində funksional savadlılığın qiymətləndirilməsi və riyazi savadlılıq" lahiyəsinin hazırlıq işlərinə başlamışdır.

18. Xarici dil (ingilis dili) fənni üzrə imtahanların keçirilməsində aparılan davamlı islahatların bir hissəsi kimi qiymətləndirmənin beynəlxalq dil normalarına uyğunlaşdırılması, xarici dil (ingilis dili) fənninin tədrisinin təkmilləşdirilməsi məqsədilə DİM **"Xarici dil fənn kurikulumu, dərslikləri və qiymətləndirmə vəsaitlərinin (ingilis dili) təkmilləşdirilməsinə dəstək" layihəsinin** həyata keçirilməsi üçün "English Language Specialist" proqramı çərçivəsində ABŞ Səfirliyinin dəstəyini alaraq Təhsil İnstitutu ilə birlikdə həmin layihəni reallaşdırmağa başlamışdır. Layihə üç mərhələdən ibarətdir və ilk mərhələsi 24 avqust – 6 oktyabr 2020-ci il tarixlərində həyata keçirilmişdir. Layihənin mərhələləri müvafiq olaraq aşağıdakı məqsədləri daşıyır:

- I mərhələ - yerli xarici dil fənn kurikulumu, dərslik, qiymətləndirmə vəsaitlərinin təhlili və təkmilləşdirilməsi istiqamətində təkliflərin hazırlanması;
- II mərhələ (yanvar-mart ayları, 2021-ci il) – dərsliklərin CEFR səviyyələri əsasında təkmilləşdirilməsi məqsədi ilə dərsliklər üçün əlavə materialların hazırlanması;
- III mərhələ (avqust-sentyabr ayları, 2021-ci il) - xarici dil müəllimlərinin peşəkar inkişafı üçün təlim materiallarının hazırlanması.

Layihənin I mərhələsi çərçivəsində həyata keçirilən onlayn təlimə həm DİM, həm Təhsil Nazirliyi, eləcə də Təhsil İnstitutunun xarici dil (ingilis dili) fənn kurikulumu, dərslik və qiymətləndirmə vəsaitləri üzrə mütəxəssisləri cəlb edilmişdir. I mərhələ üzrə müəyyən edilmiş hədəflər uğurla tamamlanmış və "Xarici dil fənni üzrə kurikulum" CEFR əsasında təhlil edilmiş və təkmilləşdirilməsi istiqamətində sənəd hazırlanmışdır.

19. 25 noyabr tarixində DİM və **Yunus Əmrə İnstitutu** (YƏİ) arasında əməkdaşlıq protokolu imzalanmışdır. Protokola əsasən DİM bir neçə sahə üzrə Yunus Əmrə İnstitutu ilə əməkdaşlıq edir:
- Türkcə Yetərlik İmtahanının (TYS) Azərbaycan ictimaiyyətində tanıdılması, bu imtahanın etibarlı və təhlükəsiz qaydada keçirilməsi üçün texniki infrastrukturun yaradılması;
- Xaricilərə Azərbaycan dilinin öyrədilməsi məqsədilə dərslik vəsaitləri, onlayn tədris və imtahan platformasının hazırlanması;
- Azərbaycan Dili Xarici Dil kimi İmtahanının ərsəyə gətirilməsi. .

20. DİM Niderland Krallığında yerləşən və imtahanların keyfiyyətinin qiymətləndirilməsi üzrə aparıcı ekspertiza mərkəzi kimi fəaliyyət göstərən **RCEC (Research Centre for Examination and Certification, İmtahan və Sertifikatlaşdırma Tədqiqat Mərkəzi)** ilə qurumun auditi üçün hazırlıq işlərinə başlamışdır. Auditin məqsədi DİM-də yoxlama-ölçmə materiallarının hazırlığı, imtahanların keçirilməsi və təhlili üzrə qayda və proseslərin IOS-un (International Organization for Standardization - Standartlaşdırma üzrə Beynəlxalq Təşkilat) qaydalarına uyğun olaraq təkmilləşdirilməsidir. Audit DİM-in beş fəaliyyət istiqamətini (test suallarının yazılması və çapı, məlumat bazalarının yaradılması, imtahanın keçirilməsi, imtahan nəticələrinin yoxlanılması və təhlili) əhatə edəcəkdir. Auditin keçirilməsinə dair təklif, büdcə və müqavilə üzrə hazırlıq işləri 2020-ci ildə başa çatmışdır.

21. Strateji inkişaf şöbəsinin əməkdaşları tərəfindən **Buraxılış imtahanlarının İngilis dili komponentinin** beynəlxalq ingilis dili imtahanları ilə müqayisəli təhlili və təkmilləşdirilməsi istiqamətində hesabat hazırlanmışdır.

22. DAAD-ın Azərbaycandakı nümayəndəliyinin dəstəyi ilə **"Alman dili üzrə qiymətləndirilmə alətlərinin təkmilləşdirilməsi" layihəsinin** həyata keçirilməsi üzrə hazırlıq işlərinə başlanılmışdır.

23. İyul-avqust aylarında Strateji inkişaf şöbəsinin əməkdaşları tərəfindən Riyaziyyat fənni üzrə **DİM test vəsaitlərinin** təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanmışdır.

24. Bir sıra beynəlxalq imtahanlara qeydiyyat və ödənişlərin aparılması birbaşa DİM tərəfindən təşkil olduğuna görə avqust ayında beynəlxalq imtahanların tələblərini ödəyən **qeydiyyat və ödəniş platformasının** yaradılmasına başlanılmışdır.

25. Avqust ayında DİM-in rəsmi **LinkedIn səhifəsi** yaradılmışdır. Həmin səhifədə DİM-in fəaliyyəti mütəmadi olaraq sosial medianın izləyəciləri üçün *(2020-ci ildə izləyəcilərin sayı 800 nəfərə çatmışdır)* işıqlandırılır.

26. Beynəlxalq imtahanların keçirilməsinin keyfiyyət səviyyəsinin ölçülməsi və kandidat bazasının yaradılması üçün avqust ayından etibarən hazırlanmış **sorğular** vasitəsilə namizədlərin rəyinin toplanmasına və emalına başlanmışdır.

27. Avqust ayında DİM-in rəsmi Facebook səhifəsi **doğrulama nişanı** almışdır (Verification Badge).

28. Avqust ayından DİM Kanadanın **Vretta Inc təşkilatı** ilə onlayn öyrənmə və qiymətləndirmə platformasının Riyaziyyatın tədrisi və qiymətləndirilməsi sahəsində tətbiqi üçün danışıqların aparılması, lahiyənin hazırlanması işlərinə başlamışdır.

29. Beynəlxalq tərəfdaşlar ilə ilkin danışıqlar zamanı DİM-in fəaliyyətinin ingilis dilində daha geniş təqdim olunması üçün DİM-in bütün sahələrini əhatə edən **prezentasiyanın** (42 səhifəlik) hazırlanması işlərinə başlanılmışdır.

30. Oktyabr ayından süni intellektin imtahan nəticələrinin proqnozlaşdırılmasında tətbiqi ilə bağlı olaraq **Riiid Labs** ilə əlaqələrin yaradılmasına və ilkin danışıqların aparılmasına başlanılmışdır.

DİM-in fəaliyyətinin dünyada işıqlandırılması:

1. May ayında DİM-in beynəlxalq tərəfdaşlarından biri olan **Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya (IAEA)** rəsmi səhifəsində dünyanın əksər ölkələrində müşahidə olunan pandemiya səbəbindən böyük miqyaslı imtahanların keçirilməsi ilə bağlı çətinliklərlə üzləşən qiymətləndirmə qurumlarının bu sahədə həyata keçirdikləri təcrübələrini təqdim etmişdir. İmtahanların təşkili ilə bağlı təcrübəsi paylaşılan qiymətləndirmə qurumları arasında DİM də yer almışdır.

2. İyun ayında Rusiyanın Ali İqtisadiyyat Məktəbi Milli Tədqiqat Universiteti tərəfindən **"Postsovet ölkələrində ali təhsil müəssisələrinə qəbul: İmtahanlar dövlət məsələlərinin həlli aləti kimi" kollektiv monoqrafiya** nəşr olunmuşdur. Kollektiv müəlliflər tərəfindən hazırlanmış monoqrafiyada 6 postsovet (Azərbaycan, Ermənistan, Qazaxstan, Qırğızıstan, Rusiya, Tacikistan) ölkəsində dövlətin vəzifələri prizmasından çıxış edərək ali təhsil müəssisələrinə qəbul imtahanları barədə məlumat verilmişdir. Monoqrafiyada hər bir ölkənin təcrübəsinə əsasən milli qiymətləndirmə sistemləri müzakirə edilmişdir. Burada SSRİ-nin süqutundan sonra vahid qəbul imtahanlarının tətbiqinin səbəbləri, imtahanların əsas xarakteristikaları, imtahanların keçirilmə proseduru, imtahanlarda şəffaflığın və ictimai dəstəyin təmin edilməsi, imtahanların nəticələri və onların təhsil sisteminə və cəmiyyətə təsiri və digər məsələlər əksini tapmışdır.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 228 nömrəli Qərarına uyğun olaraq beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları (əsasən IB diplomu əsasında) üzrə təhsil almış abituriyentlər ali təhsil müəssisələrinə müsabiqədən kənar qəbul olunmasına dair yenilənmiş məlumat avqust ayında **The International Baccalaureate®** təşkilatının rəsmi internet səhifəsində yerləşdirilmişdir. DİM və The International Baccalaureate® təşkilatı 2019-cu ildən əməkdaşlıq edir və qurumun universitetlər üçün təsis etdiyi platformada nəticələrin qəbuluna dair DİM-in hesabı yaradılmışdır. Həmin hesab abituriyentlərin IB diplom üzrə nəticələrini (qiymətlərini) elektron formada DİM-ə göndərilməsini təmin edir.

4. DİM Azərbaycanda pandemiya şəraitində SAT imtahanlarını (SAT&SAT Subject) keçirən yeganə SAT Test Mərkəzi olduğuna görə **College Board (Ali təhsilə qəbul Şurası)** tərəfindən DİM-ə 29 avqust 2020-ci il tarixində imtahan iştirakçıları və imtahanı idarə edən əməkdaşlar üçün təhlükəsiz və effektiv şəraitin yaradılmasına görə təşəkkür ünvanlanmışdır.

Dövlət qulluğu sahəsində beynəlxalq əməkdaşlıq:

1. DİM **Avropa İttifaqının (Aİ) Şərq Tərəfdaşlığı (ŞT) proqramının "Demokratiya, Yaxşı İdarəçilik və Sabitlik" adlı I Platforması çərçivəsində Dövlət İdarəçiliyi İslahatları Paneli**ndə də fəaliyyətini davam etdirmişdir. Bu çərçivədə:

1.1 16 oktyabr tarixində Avropa İttifaqı (Aİ) Şərq Tərəfdaşlığı (ŞT) proqramının "Demokratiya, Yaxşı İdarəçilik və Sabitlik" adlı Platforması çərçivəsində ŞT-nın Dövlət İdarəçiliyi İslahatları panelinin onlayn formatda 18-ci görüşü keçirilmişdir. Görüşün əsas məqsədi "2020-ci il üçün 20 məqsəd" sənədinin hədəflərindən biri olan Dövlət İdarəçiliyi İslahatlarının tətbiqi və monitorinqi, eləcə də "2020-ci ildən sonra ŞT siyasəti: Dayanıqlığın gücləndirilməsi - bütün ölkələrdə özünü təsdiqləyən ŞT" ilə bağlı qərara dair müzakirələr aparmaq olmuşdur.

2. 2020-ci il ərzində DİM **Astanada yerləşən Dövlət Qulluğu üzrə Regional Xab (Regional Xab)** ilə əməkdaşlığı davam etdirmişdir. 2020-ci il ərzində Regional Xabla əməkdaşlıq çərçivəsində:

2.1 6 may tarixində "Koronavirus (COVID-19) pandemiyası dövründə dövlət qulluqçularının fəaliyyətinin distant formada təşkili" mövzusunda videokonfrans keçirilmişdir. Tədbirdə Mərkəzin Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov iştirak etmişdir.

2.2 17 sentyabr tarixində "Pandemiya dövründə dövlətlərin böhran kommunikasiyası" adlı beynəlxalq onlayn təlim təşkil edilmişdir. Tədbirdə Mərkəzin Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov və Strateji inkişaf şöbəsinin müdiri Vəli Hüseyn iştirak etmişdirlər.

2.3 15-16 oktyabr tarixlərində Nazarbayev Universitetinin Dövlət İdarəçiliyi Məktəbinin "Mərkəzi Asiyada dayanıqlı inkişaf məqsədləri və COVID-19-un yaratdığı çətinliklər" mövzusunda keçirdiyi onlayn beynəlxalq konfrans çərçivəsində "Yeni reallıqda idarəçilik və inam" adlı panel sessiya təşkil edilmişdir. Tədbirdə Mərkəzin Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov, icraçı direktoru Vəfadar Misirov, Strateji inkişaf, Dövlət qulluğu məsələləri və Hüquqi təminat və insan resursları şöbələrinin əməkdaşları iştirak etmişdirlər.

3. 2020-ci il ərzində DİM tərəfindən **Aİ ilə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) birgə təşəbbüsü olan SIGMA (Rəhbərlik və İdarəetmədə Təkmilləşdirməyə Dəstək) proqramı** çərçivəsində təlimlər təşkil edilmişdir. Builki fəaliyyət "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya"nın "5.4. Dövlət qulluğunda səriştə (kompetensiya) modelinin tətbiqi"nin həyata keçirilməsinə dəstək məqsədilə tədbirlərin keçirilməsini əhatə etmişdir.

3.1 28 may, 2-4 iyun tarixlərində "Dövlət qulluğunda vəzifələrin təhlili və səriştələrin müəyyən olunması"na dair onlayn təlimlər keçirilmişdir. Təlimlərin əsas məqsədi DİM əməkdaşları ilə hazırlanan ilkin fəaliyyət planını, vəzifələrin təhlili və kompetensiya modelinin tətbiqi ilə bağlı sualları müzakirə etmək olmuşdur.

3.2 12 noyabr tarixində Azərbaycan Respublikasının dövlət qulluğu sistemində səriştə (kompetensiya) modelinin tətbiqi məqsədilə beynəlxalq ekspertlər ilə onlayn təlim keçirilmişdir. Təlim Azərbaycan Respublikasının dövlət qulluğu sistemi üçün səriştə modelinin tətbiqi istiqamətində planlaşdırılmış fəaliyyətin hazırlıq mərhələsini əhatə etmişdir.

3.3 20 noyabr tarixində DİM-in əməkdaşları və SIGMA proqramının beynəlxalq ekspertləri arasında dövlət qulluğu sistemi üçün səriştə modelinin tətbiqi istiqamətində planlaşdırılmış fəaliyyətin müzakirə edildiyi onlayn konsultativ görüş keçirilmişdir. Müzakirədə əsasən səriştələrin siyahısı, səriştələrin təsvir edilmə dərəcəsi, dövlət qurumları ilə birgə təlimlər və vəzifə profilləri üzərində iş kimi mövzular əhatə olunmuş, fəaliyyət planına dair addımlar müəyyən edilmişdir.

3.4 2 dekabr tarixində dövlət qulluğunda səriştə əsaslı insan resurslarının idarə edilməsi (İRİE) sisteminə dair dövlət qurumları üçün onlayn praktiki-məşğələ keçirilmişdir. Tədbirin əsas məqsədi səriştə modelinin Azərbaycan Respublikasının dövlət qulluğu sistemində tətbiqinə dair təcrübə mübadiləsi və hazırlıq mərhələsinin müzakirə edilməsi olmuşdur. Tədbirdə 64 iştirakçı olmaqla 40 dövlət qurumunun insan resurslarına məsul nümayəndələri, beynəlxalq ekspertlər və yerli işçi qrupu iştirak etmişdir.

3.5 17-18 dekabr tarixlərində dövlət qulluğunda "Səriştə modelinin təsdiqlənməsi" üzrə pilot layihənin ilk onlayn təlimi keçirilmişdir. Dövlət qulluğunda "Səriştə modelinin təsdiqlənməsi" üzrə pilot layihənin iştirakçı qurumları olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi və Bakı Apelyasiya Məhkəməsi seçilmişdir.

4. Hesabat dövrü ərzində, həmçinin 25 sentyabr tarixində **Ukraynanın Dövlət Qulluğu üzrə Milli Agentliyi** tərəfindən "Richelieu forumu: Dövlət qulluğunda yeni era" adlı tədbir təşkil edilmişdir. Tədbirdə Mərkəzin Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov və icraçı direktoru Vəfadar Misirov iştirak etmişdirlər. Tədbirin əsas məqsədi dövlət idarəçiliyi və dövlət qulluğunda rəqəmsal infrastrukturun inkişafı, insan resurslarının idarə edilməsi üçün alət və prosedurların təkmilləşdirilməsi, xüsusilə şəffaf əmək haqqı sistemi və vəzifə təsnifatının həyata keçirilməsi, istedadın qorunması və şəxsi inkişaf, rəqəmsal ünsiyyət və mədəniyyətin dövlət qulluğunun yeni dəyərləri kimi təqdim olunması və digər məsələləri onlayn və ya oflayn formatda müzakirə etmək olmuşdur.

Dövlət qulluğu sahəsində beynəlxalq və strateji layihələr:

1. **"Səriştə modelinin təsdiqlənməsi" layihəsi**

   DİM Avropa İttifaqı və İƏİT ilə birgə SIGMA proqramı çərçivəsində beynəlxalq ekspertlərin dəstəyi ilə dövlət qulluğunda "Səriştə modelinin təsdiqlənməsi" üzrə pilot layihənin beş dövlət orqanının (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Qida Təhlükəsizliyi Agentliyi, Bakı Apellyasiya Məhkəməsi və DİM) rəhbər şəxslərinin cəlb olunması ilə keçirilməsinə başlamışdır.

   Layihənin əsas məqsədi dövlət qulluğunda vəzifə təhlili metodu ilə vəzifələr üzrə əmək fəaliyyətini effektiv edən davranışları müəyyən etmək və müvafiq vəzifələrin tutulmasında zəruri olan səriştələri təsdiqləməkdir. Vəzifələr üzrə davranışlar müxtəlif formatda olan müsahibələrin və fokus qruplar üzrə seçmə qrup üzvləri – respondentlər üçün onlayn görüşlərin təşkili ilə müəyyən edilir. Ümumi xarakter daşıyan struktur vahidlərinə (maliyyə, ümumi, insan resursları və s.) aid vəzifələrə dair davranışlar növbəti mərhələdə digər dövlət qurumlarının əməkdaşları ilə birlikdə ümumi görüş - fokus qrup metodu ilə müəyyən olunacaq.

2. **"Dövlət qurumlarında daxili nəzarət mexanizmlərinin təkmilləşdirilməsi" layihəsi**

   DİM Avropa İttifaqı və İƏİT ilə birgə SIGMA proqramı çərçivəsində "Dövlət qurumlarında daxili nəzarət mexanizmlərinin təkmilləşdirilməsi" layihəsinə başlamışdır.

   Layihənin məqsədi "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya"nın "5.1. Dövlət qulluğunda institusional islahatların həyata keçirilməsi" istiqamətində fəaliyyətin təşkili, dövlət qurumlarında idarəçiliyin inkişaf etdirilməsi və daxili nəzarət funksiyalarını yerinə yetirən struktur bölmələrin fəaliyyətinin səmərəliliyinin və effektivliyinin artırılması məqsədilə daxili nəzarətin həyata keçirilməsi üçün zəruri olan metod və alətlərin təqdim edilməsidir.

3. **"Azərbaycan Respublikasının dövlət qulluğu sistemində elektron qaydada işə qəbulun gələcək inkişafına dəstək" TAIEX layihəsi**

   Layihənin məqsədi Aİ-nin üzv dövlətlərinin ən yaxşı təcrübələrini öyrənməklə Azərbaycanda elektron qaydada işə qəbulun təkmilləşdirilməsinə töhfə verməkdir.

   DİM elektron qaydada işə qəbul prosesini tam şəkildə həyata keçirməyi planlaşdırır. Layihə DİM-ə və maraqlı tərəflərə elektron qaydada işə qəbul təcrübəsini Aİ-nin üzv ölkələrinin mütəxəssisləri ilə daha ətraflı müzakirə etməyə imkan verəcək, həmçinin hüquqi, texniki və təşkilati şərtlərin daha yaxşı anlaşılmasını təmin edəcək.

4. **"Yüksəliş" layihəsi**

   Azərbaycan Respublikası Prezidentinin "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında Sərəncamına əsasən intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə "Yüksəliş" müsabiqəsi təsis edilmiş və müsabiqənin keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılmışdır. Qeyd edək ki, DİM-in Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Komitənin üzvüdür. Müsabiqə ilə əlaqədar iyul-noyabr ayları ərzində Yüksəliş müsahibəsinin əyani mərhələsi üçün DİM tərəfindən aşağıdakı fəaliyyətlər icra edilmişdir:

   - Hərəsindən iki dəst olmaqla sosial intellekt, idarəetmə potensialı, layihələrin idarəolunması üzrə müvafiq testlər hazırlanmış;
   - şəxsi keyfiyyətlərin qiymətləndirilməsi üzrə psixoloji anket tərtib edilmiş;
   - hər bir alət üzrə standartlaşdırılmış geri bildirimlər hazırlanmış və müsabiqədə istifadə olunmuşdur.

DİM-in ictimaiyyətin istifadəsinə verdiyi nəşrlər

“Abituriyent” jurnalı özünün bütün sayları, xüsusi buraxılış və nəşrləri ilə ictimaiyyətin, xüsusilə də abituriyentlərin və təhsil işçilərinin maarifləndirilməsinə xidmət göstərir, qəbul kampaniyasının bütün gedişi, mərhələləri, istiqamətləri barədə dolğun, dəqiq və etibarlı informasiya mənbəyi rolunu oynayır.

Rəsmi, elmi-metodiki,
informativ nəşrlərin təsnifatı belədir:

Rəsmi materiallar

- təhsilin müxtəlif pillə və səviyyələrinə qəbul qaydaları;
- təhsilin müxtəlif pillə və səviyyələrinə qəbul qaydalarının təfsilatını açıqlayan qəbul elanları:
- ali təhsil müəssisələri, tam orta və ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul qaydaları, müsabiqə şərtləri və bunların təfsilatını açıqlayan normativ sənədlər:
- tələbə qəbulu prosesinin ayrı-ayrı istiqamət və mərhələləri üzrə ictimaiyyətə ünvanlanan elanlar:
- təhsilin müxtəlif pillə və səviyyələrinə qəbul imtahanı proqramları:
- ali təhsil müəssisələri, tam orta və ümumi orta təhsil müəssisələrinə qəbul aparılan ixtisaslar və plan yerləri:
- ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu;
- ali təhsil müəssisələrinə, tam orta və ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olan abituriyentlərin siyahısı:
- təhsilin müxtəlif pillə və səviyyələrinə tələbə qəbulunun və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanları nəticələrinin elmi-statistik təhlili.

Tədris-metodiki vəsaitlər

Bu vəsaitlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin ümümtəhsil məktəbləri üçün qüvvədə olan fənlər üzrə tədris proqramları və dərsliklər əsasında hazırlanmış DİM-in qəbul proqramlarına tam uyğundur və DİM-in qəbul imtahanları proqramı əsasında hazırlanmışdır.

Vəsaitlər şagirdlər, abituriyentlər, fənn müəllimləri üçün nəzərdə tutulsa da, universitetlərin müvafiq fakültələrinin tələbələri də istifadə edə bilərlər.

“Yeni təhsil proqramı (kurikulum) üzrə qiymətləndirmə tapşırıqları” vəsaitləri

Yeni təhsil proqramlarına (kurikulumlara) uyğun hazırlanmış bu vəsaitlərdən istifadə etməklə məktəblilərin təlim nailiyyətlərinin qiymətləndirilməsi həyata keçirilir. Vəsaitdən həm diaqnostik, həm formativ, həm də summativ qiymətləndirmədə istifadə olunur.



5-11-ci siniflər



10-11-ci siniflər



6-11-ci siniflər

6-11-ci siniflər



6-11-ci siniflər



5-11-ci siniflər



6-11-ci siniflər



7-11-ci siniflər

6-11-ci siniflər

5-11-ci siniflər

“İbtidai siniflər üçün qiymətləndirmə tapşırıqları” vəsaitləri

İstifadənizə təqdim olunan “İbtidai siniflər üçün qiymətləndirmə tapşırıqları” vəsaitləri Dövlət İmtahan Mərkəzi tərəfindən ibtidai sinif şagirdləri üçün fənn kurikulumunun təlim nəticələri əsasında hazırlanmışdır.

Vəsaitə daxil edilən tapşırıqların hər biri Təhsil Nazirliyinin ibtidai siniflərdə istifadə üçün təsdiq etdiyi mövcud dərsliklər əsasında hazırlanmış və şagirdlərin idrakyömümlü, məntiqi, nəzəri bilik və bacarıqlarını yoxlamağa imkan verir. Bu tapşırıqlarla tədris prosesində diaqnostik, formativ, summativ qiymətləndirmə aparmaq mümkündür.

Vəsaitdən ümumi təhsil müəssisələrində qiymətləndirmə vasitəsi kimi, həmçinin pedaqoji yönümlü ali təhsil müəssisələrində və müəllimlər üçün təlim kurslarında metodiki material kimi istifadə oluna bilər.

Test topluları

Bu toplulara DİM (əvvəlki TQDK) tərəfindən müxtəlif illərdə və müxtəlif təyinatlı imtahanlarda, habelə "Abituriyent" jurnalının ayrı-ayrı saylarında dərc edilmiş test modelləri daxildir. Bununla yanaşı, hər topludakı test tapşırıqlarının 25 faizini heç bir imtahanda istifadə olunmamış tapşırıqlar təşkil edir. Onlar test bankındakı tapşırıqların əsas modellərini əhatə edir və gələcəkdə imtahanlara düşməsi istisna olunmur.

Test topluları şagirdlər, abituriyentlər, müəllimlər, test tərtibi ilə məşğul olan mütəxəssislər və ümumiyyətlə, testologiyaya maraq göstərənlər üçün dəyərli örnəkdir. Eyni zamanda, təlim-tədris prosesində biliyin qiymətləndirilməsində istifadə üçün faydalı vəsaitdir.

"Xüsusi qabiliyyət imtahanları" buraxılışları

"Abituriyent" jurnalının xüsusi buraxılışı olan bu jurnalda ali və orta ixtisas təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarının yığcam xarakteristikası, ixtisaslar üzrə kadr hazırlığı aparan təhsil müəssisələri haqqında məlumatlar, bu ixtisaslar üzrə müsabiqə şərtləri, qabiliyyət imtahanlarının proqramları, qiymətləndirmə meyarları, imtahanlara hazırlıqla bağlı tövsiyə və məsləhətlər, tapşırıq nümunələri, çalışmalar, əyani vəsaitlərdən reproduksiyalar, şəkillər, cədvəllər, normativlər, bir sözlə, burada xüsusi qabiliyyət tələb edən ixtisasları seçənlərin marağına uyğun olan, sorğularına aydınlıq gətirən, imtahana hazırlaşmalarına fayda verə bilən ən zəruri materiallar əksini tapıb.

Peşəyönümü xarakterli vəsaitlər

DİM (TQDK) öz fəaliyyətinin xüsusiyyətinə uyğun olaraq hər zaman gənclərin peşə-ixtisas yönümünə kömək göstərilməsinə böyük önəm verib. Bu istiqamət üzrə nəşrləri mövzu dairəsinə görə belə qruplaşdırmaq olar:

- ali təhsil müəssisələri və onların ixtisaslar şəbəkəsi haqqında nəşrlər;
- peşə-ixtisas seçiminə dair psixoloq məsləhətləri, sahə mütəxəssislərinin tövsiyələri;
- beynəlxalq təhsil proqramları haqqında materiallar;
- tələbə qəbulu müsabiqəsində ali və orta ixtisas təhsili müəssisələrinin ixtisasları üzrə formalaşan keçid ballarına aid materiallar;
- "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı vəsaitlər;
- "Ali təhsil müəssisələrinin bakalavr ixtisasları" kitabları;
- "Abituriyentin məlumat kitabı".

Sonuncu iki nəşr ixtisas qruplarına uyğun olaraq 4 kitabdan ibarət hazırlanmışdır. Birinci kitabda (I qrup) 65 ixtisas, ikinci kitabda (II qrup) 19 ixtisas, üçüncü kitabda (III qrup) 43 ixtisas, dördüncü kitabda isə (IV qrup) 22 ixtisas haqqında məlumatlar əksini tapmışdır. Hər bir ixtisas haqqında informasiyada həmin

- ixtisas üzrə kadrların hansı təhsil müəssisəsində hazırlanması;
- ixtisasın xarakteristikası, təyinatı;
- ixtisas üzrə hazırlanan bakalavrlara təhsil müddətində tədris edilən peşə-ixtisas fənləri, həmin fənlər əsasında öyrədilən ixtisas bilik və bacarıqları;
- hazırlanan mütəxəssisin gələcək fəaliyyətinin əsas sahələri və iş yerləri barədə məlumat verilmişdir.

Magistraturaya və rezidenturaya qəbula aid xüsusi buraxılışlar

Bu məcmuələrdə qəbul qaydaları və elanları, qəbul aparılan ixtisaslar, plan yerləri, imtahanların təşkili və keçirilməsinə aid yeniliklər, qəbul olanların siyahısı, ixtisaslar üzrə keçid balları, DİM-in digər qərar, məlumat və elanları, eyni zamanda metodiki materiallar təqdim olunmuşdur.

Rezidenturaya qəbul imtahanlarına hazırlaşanlar üçün vəsaitlər

Vəsaitlər Azərbaycan Tibb Universitetinin tədris proqramı və rezidenturaya qəbul imtahanı proqramı əsasında hazırlanmışdır. Vəsaitlər tərtib olunarkən elmin müasir nailiyyətlərindən istifadə edilmiş, tədris prosesində qarşıya çıxan konkret problemlərə daha çox diqqət yetirilmişdir. Vəsaitlərdən Azərbaycan Tibb Universitetinin, eləcə də tibb təhsili verən digər tədris müəssisələrinin tələbələri və müvafiq fənləri tədris edən müəllimlər istifadə edə bilərlər.

Dövlət qulluğuna qəbul olmaq istəyənlər üçün "Dövlət qulluğu" xüsusi buraxılışları

Dövlətimiz tərəfindən dövlət qulluğu və digər kadr siyasəti məsələlərində daha mükəmməl və şəffaf modelə nail olmaq mədsədilə müntəzəm olaraq müvafiq tədbirlər həyata keçirilir, qanunvericilik bazasında zəruri dəyişikliklər edilir, yeni normativ hüquqi aktlar qəbul olunur. Dövlət İmtahan Mərkəzinin əsas fəaliyyət istiqamətlərindən biri də bu sahədə vahid dövlət siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək, dövlət qulluğuna qəbulu mərkəzləşdirilmiş qaydada, müsabiqə əsasında şəffaf şəraitdə aparmaqdan ibarətdir.



DİM ictimaiyyəti bu sahə ilə bağlı maarifləndirməyi və zəruri məlumatlarla təmin etməyi də əsas vəzifələrindən biri hesab edir. "Abituriyent" jurnalının xüsusi buraxılışı olan "Dövlət qulluğu" jurnalının nəşrlərində bilik sahələri üzrə hazırlanmış proqramlar, qanunvericilik bazasında baş verən dəyişikliklər, test tapşırığı nümunələri, müsabiqəyə təqdim olunmuş vakant vəzifələrin siyahısı və digər zəruri məlumatlar təqdim olunmuşdur.

Elmi-statistik araşdırmaların nəticələrinə dair vəsaitlər

Tələbə qəbulu sistemində müasir informasiya texnologiyalarından istifadə olunması həm də ölkədə təhsilin vəziyyətinə dair geniş məlumat bazasına yiyələnməyə imkan verir. Bu məlumatların təhlili, əldə olan materialların pedaqoji ictimaiyyətə çatdırılması, qabaqcıl təcrübənin yayılması, çatışmazlıqların aidiyyəti təşkilatların diqqətinə çatdırılması təhsilin inkişafı ilə bağlı strateji qərarların qəbul olunması üçün mühüm əhəmiyyət kəsb edir. Odur ki, hər il qəbul imtahanlarının nəticələrinə əsasən ölkədə məktəb təhsilinin vəziyyətinin elmi-statistik təhlili aparılır və araşdırmanın nəticələri çap edilib təhsil ictimaiyyətinə çatdırılır. Aparılan elmi-statistik təhlilin tərkib hissələri kimi "Tələbə qəbulunun gender aspektləri" ("Qadınlar statistikada"), "Kənd təsərrüfatı profilli ixtisaslar statistikada" və "Neft-qaz ixtisasları statistikada" adlı kitabçalar hazırlanır. Bunlarla bərabər, ölkənin hər bir rayonunun məzunlarının qəbul imtahanlarındakı göstəricilərini əks etdirən kitabçalar da çap edilib müvafiq təhsil orqanlarına göndərilir. Qəbulun nəticələrinin bu miqyasda, bu səviyyədə araşdırılmasını təhsilin vəziyyətinin monitorinqi də adlandırmaq olar.

Əvvəlki illərdə olduğu kimi, bu il də DİM ali və orta ixtisas təhsili məktəblərinə tələbə qəbulunun nəticələrinə əsasən təhsilin həm ümumilikdə ölkə səviyyəsində, həm də ayrı-ayrı bölgə və məktəblər üzrə göstəriciləri, eləcə də abituriyentlərin ayrı-ayrı fənlər üzrə nəticələri, onların müxtəlif ixtisas qruplarına meyil və maraqları, ali təhsil müəssisələrinə qəbulolma göstəriciləri, yüksək və zəif göstəricili rayon və məktəblər, ali məktəblərin reytinqi, magistraturaya və rezidenturaya qəbulun nəticələri, həmçinin ümumtəhsil müəssisələri şagirdlərinin buraxılış imtahanları üzrə nəticələri və s. məsələlərə dair əhatəli araşdırmalar aparılıb.

DİM 2020-ci ildə: görülmüş işlərin, tədbir və yeniliklərin xronologiyası

Redaksiyamız bu ənənəvi rubrikada Dövlət İmtahan Mərkəzinin cari ildəki fəaliyyətinin xronologiyasını təqdim edir. Burada Mərkəzin 2020-ci ildə gördüyü əsas işlər, həyata keçirdiyi tədbirlər, əldə etdiyi mühüm nailiyyətlər xronoloji ardıcıllıqla əks etdirilib.

♦ 6-16 yanvar tarixlərində ABŞ-ın Azərbaycandakı Səfirliyi ilə əməkdaşlıq çərçivəsində keçirilən "Müəllimlər üçün intensiv peşəkar inkişaf təlimi və konsultasiya" layihəsinin III mərhələsi təşkil edilib. Layihə çərçivəsində Bakı, Gəncə və Şəki şəhərlərində DİM əməkdaşları və DİM ilə əməkdaşlıq edən ingilis dili müəllimləri üçün intensiv təlim, DİM imtahanlarının statistik məlumatlarını emal edən əməkdaşlar üçün konsultativ görüş və Mərkəzin ingilis dili fənni üzrə təşkil etdiyi treninqlərdə təlimçi kimi fəaliyyət göstərən şəxslərə "təlimçilər üçün təlim" keçirilib.

♦ Yanvarın 7-dən fevralın 6-dək dövlət qulluğunda inzibati icraçı (B növü) vəzifələr üzrə müsabiqənin test imtahanına qeydiyyat aparılıb.

♦ 7 - 10 yanvar tarixlərində kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə növbəti elmi-metodiki seminarlar keçirilib.

♦ Yanvarın 9-dan fevralın 15-dək Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti Xüsusi Məktəbinin V sinfinə qəbul olmaq üçün qeydiyyat aparılıb.

♦ Yanvarın 10-da "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda təlim təşkil edilib. Təlimdə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşları və müsahibələrə müstəqil ekspert qismində cəlb olunacaq nümayəndələr iştirak ediblər.

♦ "Müəllimlər üçün intensiv peşəkar inkişaf və konsultasiya" layihəsinin III mərhələsinin gündəliyinə əsasən 10-11 yanvar tarixlərində DİM-in Gəncə Regional Bölməsinə səfər edilib. Gəncə şəhəri və ətraf regionların DİM ilə əməkdaşlıq edən ingilis dili müəllimləri üçün 2 günlük intensiv təlim keçirilib.

♦ Yanvarın 10-dan 20-dək 2019/2020-ci tədris ili üçün doktorantura və dissertanturaya xarici dil üzrə qəbul imtahanında iştirak etmək üçün qeydiyyat elan edilib.

♦ Yanvarın 11-də TOEFL imtahanı keçirilib. İmtahan DİM-in inzibati binasında təlimata uyğun təşkil olunub. İmtahanda 11 nəfər iştirak edib və imtahanın gedişi zamanı iştirakçılara bilik və bacarıqlarını nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

♦ "Müəllimlər üçün intensiv peşəkar inkişaf təlimi və konsultasiya" adlı layihənin son mərhələsində – 13-14 yanvar tarixlərində DİM-in ingilis dili fənni üzrə təşkil etdiyi təlimlərdə təlimçi kimi fəaliyyət göstərən şəxslərə "Təlimçilər üçün təlim" (TOT) keçirilib.

♦ Yanvarın 13-də mərkəzi icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanları olmaqla inzibati dövlət qulluğu vəzifələrinin 4-7-ci təsnifatı üzrə A və B növünə aid olan ümumilikdə 36 dövlət orqanında 703 vakant vəzifənin tutulması üçün müsabiqənin müsahibə mərhələsi elan edilib. Müsahibələrdə iştirak üçün namizədlərin qeydiyyat fevralın 11-dək aparılıb.

♦ "Müəllimlər üçün intensiv peşəkar inkişaf və konsultasiya" layihəsinin son mərhələsi çərçivəsində Bakı Amerika Mərkəzində bu mərkəzlə əməkdaşlıq edən ingilis dili müəllimləri ilə yanvarın 13-də layihəyə dair ictimai hesabatlılıq xarakteri daşıyan görüş keçirilib.

♦ 13-17 yanvar tarixlərində ingilis dili, ədəbiyyat, kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə növbəti elmi-metodiki seminarlar keçirilib.

♦ 14-31 yanvar tarixlərində nəzarətçi-müəllimlər ilə seminarlar keçirilib. DİM-in mərkəzi aparatının və regional bölmələrinin əməkdaşları tərəfindən aparılan seminarlara 70 rayon üzrə 3669 nəzarətçi-müəllim cəlb edilib. Seminar-məşğələlərdə ali təhsil müəssisələrinə qəbul imtahanlarının yeni modelindən irəli gələrək istifadə olunacaq cavab vərəqlərinin doldurulma qaydası, eləcə də xarici dil fənni üzrə imtahanda "dinləyib-anlama" bacarıqlarının yoxlanılması üçün istifadə olunacaq dinləmə qurğusundan istifadə qaydaları nəzarətçilərin diqqətinə çatdırılıb.

♦ Dövlət İmtahan Mərkəzinin ingilis dili üzrə bacarıqların qiymətləndirilməsini təkmilləşdirmək üçün ABŞ-ın Azərbaycandakı Səfirliyi ilə birgə Səfirliyin "İngilis dili mütəxəssisi" (ELS) proqramının xətti ilə təşkil etdiyi "Müəllimlər üçün intensiv peşəkar inkişaf və konsultasiya" layihəsinin son mərhələsi çərçivəsində Bakı Amerika Mərkəzində bu mərkəzlə əməkdaşlıq edən ingilis dili müəllimləri ilə 13 yanvar tarixində layihəyə dair ictimai hesabatlılıq xarakteri daşıyan görüş keçirilib.

♦ 15-16 yanvar tarixlərində fizika, rus dili, biologiya və tarix fənləri üzrə hazırlıq kurslarının ilk məşğələləri keçirilib.

♦ Yanvarın 15-dən aprelin 14-dək fənn kurikulumları əsasında qiymətləndirmə vasitələrinin işlənməsi və onların meyarlar əsasında yoxlanılmasına dair hazırlıq kurslarında iştirak etmək istəyənlərin qeydiyyatı aparılıb.

♦ "Müəllimlər üçün intensiv peşəkar inkişaf və konsultasiya" layihəsinin III mərhələsinin gündəliyinə əsasən 15-16 yanvar tarixlərində DİM-in Şəki Regional Bölməsinə səfər edilib. Şəki şəhəri və ətraf regionların DİM ilə əməkdaşlıq edən ingilis dili müəllimləri üçün 2 günlük intensiv təlim keçirilib.

♦ 17, 22 və 29 yanvar tarixlərində dövlət qulluğuna qəbul olmaq istəyən şəxslərin müsabiqənin test imtahanı mərhələsinə daha da səmərəli hazırlaşmalarına kömək məqsədilə AA, AB, AC, BA, BB qrupları üzrə DİM-də sınaq imtahanları keçirilib.

♦ Yanvarın 17-də DİM Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov şəhər və rayonlarda vətəndaşların mərkəzi icra hakimiyyəti və digər qurumların rəhbər şəxsləri tərəfindən qəbulu cədvəlinə uyğun olaraq Neftçalada vətəndaşları qəbul edib. Görüşdə, əsasən, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, namizədlərlə müsahibələrin keçirilməsi, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu və digər məsələlərlə əlaqədar vətəndaşlar tərəfindən müraciətlər edilib. Dövlət İmtahan Mərkəzi tərəfindən Neftçala rayonunda "Dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi" mövzusunda təlim keçirilib. Təlimdə Neftçala və ətraf rayonlarda yerləşən mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, yerli icra hakimiyyəti orqanları və məhkəmə orqanlarında çalışan 30-a yaxın dövlət qulluqçusu iştirak edib.

♦ Yanvarın 17-də Dövlət İmtahan Mərkəzində 20 Yanvar faciəsinə həsr olunan anım mərasimi keçirilib.

♦ Yanvarın 18-də saat 10.00 və 15.00-da DİM-də doktorantura və dissertanturaya qəbul olmaq istəyən şəxslərin xarici dil (ingilis, fransız, alman) fənləri üzrə imtahana daha da səmərəli hazırlaşmalarına kömək etmək məqsədilə elektron sınaq imtahanları keçirilib. İmtahanlarda 307 nəfər iştirak edib.

♦ Dövlət İmtahan Mərkəzində yanvarın 18-də TOEFL imtahanı keçirilib. İmtahan DİM-in inzibati binasında təlimata uyğun təşkil olunub. İmtahanda 2-si xarici vətəndaş olmaqla 5 nəfər iştirak edib və imtahanın gedişi zamanı iştirakçılara bilik və bacarıqlarını nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

♦ Yanvarın 21-də DİM-də Peşəkar mühasib sertifikatının verilməsi üçün keçiriləcək imtahanlara hazırlıq məqsədilə seminar-iclas keçirilib. Seminarda keçiriləcək imtahanlarda bilik və bacarıqların yoxlanılması məqsədilə istifadə olunacaq qiymətləndirmə alətləri və onların tərtib olunması qaydası barədə ekspertlərə məlumat verilib.

♦ 21-24 yanvar tarixlərində kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə növbəti elmi-metodiki seminarlar keçirilib.

♦ 21-22 yanvar tarixlərində Dövlət İmtahan Mərkəzinin Strateji inkişaf şöbəsinin müdiri Vəli Hüseyn Pearson təşkilatı tərəfindən Böyük Britaniyanın London şəhərində keçirilən "Pearson Edexcel" Qiymətləndirmə konfransında iştirak edib.

♦ Yanvarın 23-də "Magistr" xüsusi buraxılışının 1-ci nömrəsində ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul qaydaları, məntiqi təfəkkür, xarici dillər və informatika üzrə qəbul imtahanı proqramları Azərbaycan və rus dillərində çap edilib.

♦ Yanvarın 25-də dövlət qulluğunda inzibati vəzifələrin A növünə (inzibati rəhbər vəzifələr) aid olan AA, AB və AC qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib. İmtahanda 69 namizəd iştirak edib.

♦ Yanvarın 26-da doktorantura və dissertanturaya qəbul olmaq istəyən şəxslər üçün xarici dil fənləri üzrə imtahan keçirilib.

♦ 27 yanvar – 10 fevral tarixlərində ali təhsil müəssisələrinə qəbul imtahanlarının II mərhələsi üzrə sınaq imtahanına qeydiyyat aparılıb.

♦ 27-31 yanvar tarixlərində Azərbaycan dili, ingilis dili, kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə növbəti elmi-metodiki seminarlar keçirilib.

♦ Yanvarın 29-da Dövlət İmtahan Mərkəzi "Abituriyent" jurnalının xüsusi buraxılışında qəbul imtahanının I mərhələsi və tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı üçün fənlər üzrə alt standartlar, proqramlar, tapşırıq nümunələri və qiymətləndirmə meyarlarını və balların hesablanma qaydasını dərc edib (Azərbaycan və rus dilində).

♦ Yanvarın 30-da "Abituriyent" jurnalının xüsusi buraxılışında ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı üçün fənlər üzrə alt standartlar, proqramlar, hər iki mərhələ üzrə tapşırıq nümunələri və qiymətləndirmə meyarları, ümumi orta təhsil səviyyəsində yeni təhsil proqramları (kurikulumları) üzrə təhsilalanların biliyinin yekun qiymətləndirilməsi (attestasiyası) modeli dərc edilib.

♦ Yanvarın 31-də DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə şəhər və rayonlarda vətəndaşların mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərləri tərəfindən qəbulu cədvəlinə uyğun olaraq Saatlı rayonunda vətəndaşları qəbul edib. Görüşdə əsasən dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, magistratura və rezidenturaya qəbul, ali təhsil müəssisələrinə abituriyentlərin qəbulu və digər məsələlərlə əlaqədar DİM Direktorlar Şurasının sədrinə müraciət edilib.

♦ Dövlət İmtahan Mərkəzi Vəkillər Kollegiyası ilə birgə yanvarın 31-də Vəkillər Kollegiyasına üzv olmaq istəyən namizədlər üçün test imtahanı keçirib. İmtahan kompüter vasitəsilə elektron qaydada aparılıb. İmtahanda iştirak etmək üçün 240 namizəd qeydiyyatdan keçib. 7 namizəd imtahana gəlməyib. İmtahanda iştirak edən 233 namizəddən 135 nəfər müsabiqə şərtini ödəyərək 60 və daha yüksək bal toplamaqla ikinci mərhələyə – müsahibəyə buraxılıb.

♦ Dövlət İmtahan Mərkəzi tərəfindən 31 yanvarda Qida Təhlükəsizliyi Agentliyində "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi" mövzusunda təlim keçirilib. Təlimdə Agentlikdə çalışan 42 rəhbər vəzifəli şəxs (şöbə və sektor müdirləri) iştirak edib.

♦ Yanvarın 31-də Dövlət İmtahan Mərkəzi qəbul qaydaları ilə bağlı Saatlı rayonunda seminarlar keçirib. Plenar iclasda Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsi (buraxılış) imtahanının nəticələrinin regional təhlili, DİM-in yeni layihə və nəşr işləri haqqında ətraflı məlumat verib.

♦ Fevralın 1-də DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 7 nəfər iştirak edib və imtahanın gedişi zamanı iştirakçılara bilik və bacarıqlarını nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

♦ Fevralın 2-də ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul imtahanına hazırlaşanlar üçün sınaq imtahanı keçirilib. İmtahan Bakı, Naxçıvan və Gəncə şəhərlərində, ümumilikdə 4 binada təşkil olunub.

♦ 2-8 fevral tarixlərində Pearson VUE tərəfindən təqdim olunan bir sıra beynəlxalq imtahanlar keçirilib.

♦ Fevralın 3-dən 13-dək 2020/2021-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına sənəd qəbulu aparılıb.

♦ Fevralın 3-də "Magistr" jurnalının 2 nömrəli buraxılışı nəşr edilib. Jurnalda ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul haqqında elanın tam mətni, müsabiqə şərtləri, "Bakalavrın elektron ərizəsi" formasının doldurulma qaydası və onun nümunəsi, magistratura səviyyəsinə qəbul imtahanına hazırlaşan bakalavrlara kömək məqsədilə ümumi intellekt səviyyəsini (məntiqi təfəkkürü), informatika üzrə bilikləri, xarici dilləri bilmə səviyyəsini yoxlayan test tapşırığı nümunələri dərc edilib.

♦ 3-7 fevral tarixlərində Azərbaycan dili, ingilis dili, kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə növbəti elmi-metodiki seminarlar keçirilib.

♦ Fevralın 3-də magistraturaya qəbul olmaq istəyənlər üçün keçirilmiş sınaq imtahanının nəticələri elan edilib. Sınaq imtahanında iştirak etmək üçün qeydiyyatdan keçmiş 847 nəfərdən 19 nəfər imtahana gəlməyib. 1 nəfərin üzərində mobil telefon aşkar edildiyi üçün imtahandan xaric edilib.

♦ 5-6 fevral tarixlərində fizika, rus dili, biologiya, tarix fənləri üzrə hazırlıq kurslarının növbəti məşğələləri keçirilib.

♦ Fevralın 6-dan martın 13-dək dövlət qulluğunda inzibati rəhbər (A növü) vəzifələr üzrə müsabiqənin test imtahanına qeydiyyat aparılıb.

♦ Fevralın 6-da Şərur şəhər fizika riyaziyyat təmayüllü liseydə DİM tərəfindən keçirilmiş kurikulum əsasında qiymətləndirmə vasitələrinin işlənməsi və onların meyarlar əsasında yoxlanılmasına dair hazırlıq kurslarının müdavimlərinə sertifikatlar təqdim edilib.

♦ Fevralın 7-dən etibarən Dövlət İmtahan Mərkəzi dillər üzrə ümumavropa çərçivə sənədinin (CEFR) Azərbaycan dilinə tərcümə edilməsi üçün Avropa Şurasının müvafiq qurumu ilə əməkdaşlığa başlayıb. CEFR dil kurikulumlarının hazırlanması və təkmilləşdirilməsi, dil bacarıqlarının qiymətləndirilməsi sahəsində istinad edilən beynəlxalq səviyyəli çərçivə sənədidir.

♦ Fevralın 7-də "Rezidentura" xüsusi buraxılışının 1-ci nömrəsi çap edilib. Bu nömrədə rezidenturaya qəbul qaydaları, rezidentura üzrə ixtisas seçimi cədvəli, baza fənləri üzrə qəbul proqramları, qəbul imtahanında istifadə olunmuş bəzi test tapşırıqlarının izahı və tövsiyələr, test tapşırığı nümunələri və s. məlumatlar Azərbaycan və rus dillərində təqdim olunub.

♦ Fevral ayında DİM ETS təşkilatının xaricdə magistratura və doktoranturaya qəbul üçün tələb olunan GRE imtahanını keçirmək üçün lisenziya əldə edib.

♦ Fevralın 13-dən 27-dək DİM-in saytı vasitəsilə rezidenturaya sənəd qəbulu aparılıb.

♦ Fevralın 13-də "Rezidentura" jurnalının 2 nömrəli buraxılışı nəşr olunub. Jurnalda rezidenturaya qəbul elanının tam mətni, "Namizədin elektron ərizəsi"nin doldurulma qaydası, onun nümunəsi, rezidenturaya ixtisas fənləri üzrə qəbul imtahanı proqramları, test tapşırığı nümunələri və digər materiallar təqdim olunub.

♦ 10-14 fevral tarixlərində ingilis dili üzrə növbəti beynəlxalq imtahanlar keçirilib. 5 nəfər (1 yerli və 4 əcnəbi) "Pearson Test of English Academic" (PTE-Academic/PTE-A) imtahanını verib.

♦ 10-14 fevral tarixlərində Azərbaycan dili, ingilis dili, kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə növbəti elmi-metodiki seminarlar keçirilib.

♦ 14 fevralda Dövlət Miqrasiya Xidmətinin əməkdaşlarına "Dövlət qulluğunda etik qaydaların praktiki tətbiqi məsələləri" mövzusunda təlim keçirilib. Təlimdə Xidmətin qulluğa yeni qəbul olunmuş 20-yə yaxın əməkdaşı iştirak edib.

♦ 14-16 fevral tarixlərində zal nəzarətçisi fəaliyyətinin sertifikatlaşdırılması məqsədilə Gəncə şəhərində namizədlərlə təlim keçirilib. Təlimlərdə zal nəzarətçisi sertifikatı əldə etmək istəyən 105 namizəd iştirak edib.

♦ Fevralın 15-də TOEFL imtahanı keçirilib. İmtahan DİM-in Mikayıl Müşfiq küçəsi 1M ünvanında yerləşən inzibati binasında təlimata uyğun təşkil olunub. İmtahanda 13 yerli vətəndaş və 1 əcnəbi olmaqla 14 nəfər iştirak edib.

♦ Fevralın 16-da ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsi üzrə sınaq, ilk peşə-ixtisas təhsili müəssisələrinin sonuncu sinfində təhsil alan şagirdlər üçün buraxılış və dövlət qulluğuna qəbul imtahanları keçirilib. Ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsi üzrə sınaq imtahanında iştirak etmək üçün 15104 abituriyent qeydiyyatdan keçib. İlk peşə-ixtisas təhsili müəssisələrinin sonuncu sinfində təhsil alan şagirdlər üçün buraxılış imtahanı respublikanın 23 şəhər və rayonunda keçirilib. İmtahanda 3178 şagirdin iştirak edəcəyi nəzərdə tutulub. Dövlət qulluğunda inzibati vəzifələrin B növünə aid olan BA və BB qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanında iştirak etmək üçün BA qrupu üzrə 446, BB qrupu üzrə 1410 olmaqla, ümumilikdə isə 1856 namizəd qeydiyyatdan keçib.

♦ 16 və 21 fevral tarixlərində zal nəzarətçisi fəaliyyətinin sertifikatlaşdırılması məqsədilə Bərdə şəhərində namizədlərlə təlim keçirilib.

♦ Fevralın 16-da inzibati vəzifələrin B növünə aid olan vəzifə qrupları üzrə dövlət qulluğuna qəbul üçün keçirilən test imtahanının nəticələri elan olunub. İmtahanda 803 namizəd tələb olunan balı toplayaraq uğur qazanıb.

♦ 17-21 fevral tarixlərində Azərbaycan dili, ingilis dili, kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə növbəti elmi-metodiki seminarlar keçirilib.

♦ Fevralın 17-də ilk peşə-ixtisas təhsili müəssisələrinin tədrisi Azərbaycan dilindən fərqli dildə olan bölmələrinin şagirdləri üçün buraxılış imtahanı çərçivəsində Azərbaycan dili (dövlət dili) imtahanı keçirilib.

♦ 17-21 fevral tarixlərində Pearson VUE tərəfindən təqdim olunan növbəti beynəlxalq imtahanlar keçirilib. 7 xarici vətəndaş "Pearson Test of English Academic" (PTE-Academic/PTE-A) imtahanını verib.

♦ Fevralın 19-da Azərbaycan dili və riyaziyyat fənləri üzrə "3-cü sinif şagirdləri üçün qiymətləndirmə tapşırıqları"vəsaitləri nəşr olunub.

♦ 19-20 fevral tarixlərində fizika, rus dili, biologiya, tarix fənləri üzrə hazırlıq kurslarının növbəti məşğələləri keçirilib.

♦ Fevralın 20-də DİM Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov şəhər və rayonlarda vətəndaşların mərkəzi icra hakimiyyəti və digər qurumların rəhbər şəxsləri tərəfindən qəbulu cədvəlinə uyğun olaraq Ağsuda vətəndaşları qəbul edib.

♦ 20 fevralda Dövlət İmtahan Mərkəzi tərəfindən Ağsu rayonunda "Dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi" mövzusunda təlim keçirilib. Təlimdə Ağsu və ətraf rayonlarda yerləşən mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, yerli icra hakimiyyəti orqanları və məhkəmə orqanlarında çalışan 35 dövlət qulluqçusu iştirak edib.

♦ Fevralın 21-dən martın 11-dək internet vasitəsilə orta ixtisas təhsili müəssisələrinə ümumi (9 illik) orta təhsil bazasında qəbul olmaq üçün sənəd qəbulu aparılıb.

♦ Fevralın 21-də ilk peşə-ixtisas təhsili müəssisələrinin sonuncu sinfində təhsil alan şagirdlərinin ayın 16-da keçirilmiş buraxılış imtahanının nəticələri elan olunub. İştirakı nəzərdə tutulan 3178 nəfərdən 54-ü imtahana gəlməyib.

♦ Fevralın 21-də "Abituriyent" jurnalının xüsusi buraxılışında dövlət qulluğuna hazırlaşanlar üçün "DÖVLƏT QULLUĞU" jurnalının 2020-ci il 1-ci nömrəsi çap edilib. Bu nömrədə "Dövlət qulluğuna qəbulun test imtahanı mərhələsində yoxlanılan bilik sahələri üzrə test tapşırıqlarının elmi-metodik təhlili", "Dövlət qulluğuna qəbul üzrə keçirilən test imtahanları barədə statistik məlumatlar", "2019-cu il ərzində dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə keçirilmiş müsahibələrə aid statistik təhlil" və digər zəruri məlumatlar dərc olunub.

♦ Fevralın 21-də «Abituriyent» jurnalının 1-ci nömrəsi nəşr olunub. Jurnalda qəbul proqramını tam mənimsəmiş, hazırlıqlı abituriyentlərin öyrəndiklərini yoxlaya bilmələri və idraki bacarıqlarını inkişaf etdirmələri üçün tapşırıq nümunələri təqdim olunub. Jurnalda ali təhsil müəssisələrinə tələbə qəbulu qaydaları, qəbul imtahanının ikinci mərhələsi üçün I, II, III və IV ixtisas qruplarına daxil olan fənlər üzrə qəbul imtahanı proqramları, ədəbiyyat siyahısı, tapşırıq nümunələri, balların hesablanma qaydası, xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul elanları və digər zəruri materiallar dərc olunub.

♦ Fevralın 23-də ali təhsil müəssisələrinin magistraturalarına qəbul imtahanı keçirilib. İmtahan respublikanın 5 şəhərində - Bakı, Naxçıvan, Gəncə, Mingəçevir və Lənkəranda, ümumilikdə 49 binada təşkil edilib. İmtahanda iştirak üçün 15738 bakalavr ərizə təqdim edib.

♦ 24-28 fevral tarixlərində Azərbaycan dili, ingilis dili, kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə növbəti elmi-metodiki seminarlar keçirilib.

♦ Fevralın 24-də 13 yanvar 2020-ci il tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsinin keçirilmə qrafiki müəyyən edilib. Elana çıxarılan vəzifələr üzrə qeydiyyatdan keçmiş 857 namizədlə 2637 müsahibənin keçirilməsi planlaşdırılıb.

♦ 24-28 fevral tarixlərində ingilis dili üzrə Pearson VUE imtahanları keçirilib. İmtahanlarda 9 əcnəbi iştirak edib.

♦ Fevralın 25-də ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına fevralın 23-də keçirilmiş qəbul imtahanının nəticələri elan edilib.

♦ Fevralın 25-də “Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları” mövzusunda təlim təşkil edilib. Təlimdə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları iştirak ediblər.

♦ Fevralın 26-da Dövlət İmtahan Mərkəzində Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilib. Tədbirdə DİM-in Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Xocalı faciəsinin başvermə səbəblərindən danışıb, bu qətliamın təcavüzkar erməni millətçilərinin əsrlər boyu xalqımıza qarşı apardığı etnik təmizləmə və soyqırımı siyasətinin nəticəsi olduğunu qeyd edib.

♦ Fevralın 28-də 8 dövlət orqanında inzibati vəzifələrin 4-7-ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə ümumi müsahibə elanı verilib.

♦ Fevralın 28-də DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Kürdəmir rayonunda vətəndaşları qəbul edib. Qəbulda Kürdəmir və Ucar rayon sakinləri, həmçinin bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər.

♦ Fevralda 29-da DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 11 yerli vətəndaş və 1 əcnəbi olmaqla 12 nəfər iştirak edib və imtahanın gedişi zamanı iştirakçılara bilik və bacarıqlarını nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

♦ Martın 1-də ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanının birinci mərhələsi keçirilib. Həmin gün 39966 şagirdin imtahan verəcəyi nəzərdə tutulub. İmtahanların idarə olunmasına 87 ümumi imtahan rəhbəri, 258 imtahan rəhbəri, 3145 nəzarətçi‑müəllim, 268 buraxılışı təşkil edən əməkdaş, 87 bina nümayəndəsi ayrılıb.

♦ Martın 2-də ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsi üzrə fevralın 16-da keçirilmiş sınaq imtahanının nəticələri elan edilib.

♦ Martın 3-dən etibarən koronavirus infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə həyata keçirilən təxirəsalınmaz tədbirlərə uyğun olaraq DİM tərəfindən keçirilməsi nəzərdə tutulan müxtəlif təyinatlı imtahanlar və tədbirlər təxirə salınıb.

♦ DİM tərəfindən otk.az portalında 9 və 11-ci sinif şagirdləri üçün yerləşdirilmiş bütün buraxılış və qəbul imtahanları, həmçinin magistratura, rezidentura və dövlət qulluğuna qəbul imtahanları (sınaq) 2020-ci il martın sonlarından iyul ayınadək ödənişsiz edilib.

♦ Mart-aprel aylarında Dövlət İmtahan Mərkəzi tərəfindən “British Council” ilə olan əməkdaşlıq çərçivəsində Mərkəzin öz işçiləri və onunla əməkdaşlıq edən ingilis dili müəllimləri üçün nəzərdə tutulan “İngilis dili bacarıqlarının qiymətləndirilməsi üzrə beynəlxalq onlayn pilot təlimlər” təşkil edilib. Təlimin I mərhələsi 1-15 mart tarixlərində həyata keçirilib, II mərhələyə isə martın 30-da start verilib və bu mərhələ aprelin 12-dək davam edib.

♦ Aprel ayından etibarən Dövlət İmtahan Mərkəzi əməkdaşlarına sosial təcrid üçün əlverişli şərait yaratmaqla fəaliyyətini məsafədən təşkil etməyə başlayıb. Rəhbərlik və struktur bölmələr arasında məsləhətləşmələr məsafədən ünsiyyət üçün nəzərdə tutulmuş müəyyən proqramlar vasitəsilə onlayn qaydada keçirilib.

♦ Aprelin 7-də Dövlət İmtahan Mərkəzinin rəhbər şəxsləri arasında növbəti 3-cü videokonfrans keçirilib. Videokonfransların keçirilməsində əsas məqsəd fəaliyyətin onlayn təşkili, cari işlər, onlayn imtahanlar, onların layihələndirilməsi, nəzarət sistemi və digər İT məsələlərinin həlli imkanlarının müzakirəsindən ibarət olub.

♦ Aprelin 14-də DİM tərəfindən koronavirus (COVİD-19) infeksiyasının yayılmasının qarşısının alınması ilə bağlı həyata keçirilən maarifləndirici tədbirlərə dəstək məqsədilə videoçarx və infeksiya barədə bilikləri yoxlamaq üçün “COVİD-19 haqqında məlumatlılıq” testi hazırlanıb və ictimaiyyətə təqdim olunub.

♦ Aprelin 17-də Dövlət İmtahan Mərkəzinin “Fərdi inkişafa dəstək” layihəsi çərçivəsində yeni maarifləndirici video-çarx təqdim olunub. Videomaterial psixologiya elmi tarixinin ən məşhur eksperimentlərindən biri – Piqmalion effekti barədə olub.

♦ Aprel ayı ərzində Dövlət İmtahan Mərkəzinin “Youtube” kanalına "vizuallaşdırılmış dərs"lərin yerləşdirilməsi davam edib. Xüsusi karantin rejimi müddətində müxtəlif fənlər üzrə 200-ə yaxın yeni dərs portala əlavə edilib.

♦ Aprelin 21-də koronavirus pandemiyası dövründə Mərkəzin fəaliyyəti ilə əlaqədar onlayn mətbuat konfransı keçirilib. Onlayn konfransa kütləvi informasiya vasitələrinin 30-dək nümayəndəsi qoşulub. DİM Direktorlar Şurasının sədri M. Abbaszadə DİM-in fəaliyyət istiqamətləri, Mərkəz tərəfindən keçiriləcək imtahanlar, onlayn və oflayn imtahanların keçirilməsi üçün şərtlər, imtahanların qrafiki və s. məsələlər haqqında jurnalistlərin suallarını cavablandırıb.

♦ Aprelin 22-də "Fərdi inkişafa dəstək" layihəsi çərçivəsində növbəti video-çarx təqdim olunub. "Öyrənilmiş çarəsizlik" adlanan video-çarx psixoloq Martin Seliqmanın rəhbərliyi ilə həyata keçirilən eksperiment haqqında olub.

♦ Aprelin 28-də "Fərdi inkişafa dəstək" layihəsi çərçivəsində stereotiplər haqqında yeni video-çarx təqdim olunub.

♦ Mayın 6-da DİM Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov Astana Dövlət Qulluğu üzrə Regional Xabın üzvlərinin videokonfransında iştirak edib. Video-konfransda iştirakçı ölkələrin nümayəndələri pandemiya dövründə dövlət orqanları və dövlət qulluqçularının fəaliyyətinin təşkil edilməsi ilə bağlı təcrübələrini bölüşüb, o cümlədən qarşılaşdıqları çətinliklər haqqında geniş məlumat veriblər.

♦ Mayın 7-də Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqi keçirilib. Brifinqdə Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri M. Abbaszadə və Azərbaycan Respublikasının Təhsil naziri C.Bayramov tərəfindən mövcud vəziyyətlə əlaqədar təhsil ictimaiyyətini maraqlandıran məsələlərə aydınlıq gətirilib.

♦ Mayın 12-dən iyunun 5-dək 2020/2021-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu elan edilib.

♦ Mayın 12-də Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ilə "British Council" Azərbaycan təmsilçiliyinin sədri Summer Xia və "British Council Global Assessment" komandasının rəhbəri Victoriya Klark arasında onlayn görüş keçirilib. Görüşdə qurumlar arasında yeni əməkdaşlıq perspektivləri, qiymətləndirmə sahəsində yeniliklər, onların tətbiqindəki çətinliklər və bu çətinliklərin aradan qaldırılması yolları müzakirə edilib, yeni fəaliyyət istiqamətləri üzrə gələcək əməkdaşlıq imkanlarına dair razılıq əldə olunub.

♦ Mayın 14-də ali təhsil müəssisələrinə və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün "Abituriyentin elektron ərizəsi"ni təsdiq etmiş, lakin hər hansı səbəbdən ərizənin təsdiqini ləğv etmək istəyənlər üçün yeni elektron xidmət istifadəyə verilib.

♦ 18-22 may tarixlərində DİM-də Pearson VUE tərəfindən təqdim olunan beynəlxalq imtahanlar keçirilib. İmtahanlarda 6 nəfər iştirak edib.

♦ Mayın 18-dən etibarən DİM-in Bakı şəhərində yerləşən inzibati binalarında və rayonlarda yerləşən regional bölmələrində Mərkəzin internet saytı vasitəsilə əvvəlcədən onlayn növbə götürməklə vətəndaşların qəbuluna başlanılıb.

♦ Nazirlər Kabinetinin 18 may 2020-ci il tarixli qərarı ilə 9-cu sinif buraxılış imtahanı qaydaları, 9 və 11-ci sinif təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul və ali təhsil müəssisələrinə qəbul qaydalarında müvəqqəti dəyişikliklər edilib.

♦ Mayın 20-də DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ilə Gürcüstanın Milli Qiymətləndirmə və İmtahan Mərkəzinin (MQİM) direktoru Sofia Qorqodze, həmçinin hər iki tərəfin rəhbər şəxsləri arasında onlayn formada görüş keçirilib və tərəflər arasında Anlaşma Memorandumu imzalanıb.

♦ May ayı ərzində DİM əməkdaşları tərəfindən Təhsil Nazirliyinin tabeliyində olan binalara yerində baxış keçirilib, imtahan üçün seçilmiş təhsil müəssisələrinin sayı 2,5 dəfəyədək artırılaraq onların imtahanın keçirilməsi üçün yararlılıq vəziyyəti yoxlanılıb.

♦ Mayın 23-də Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın (IAEA) rəsmi internet səhifəsində DİM-in pandemiya dövründə imtahanlara hazırlığı işıqlandırılıb.

♦ 25-29 may tarixlərində DİM-də Pearson VUE tərəfindən təqdim olunan beynəlxalq imtahanlar keçirilib. İmtahanlarda 5 nəfər iştirak edib.

♦ Mayın 28-də Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının növbəti iclası keçirilib. İclasda COVID-19 pandemiyası dövründə DİM-in fəaliyyəti, pandemiyanın təhsil və imtahan prosesinə mənfi təsirinin aradan qaldırılması ilə bağlı həyata keçirilən tədbirlər, virusla əlaqədar müvafiq metodiki göstərişlərə uyğun imtahanlara hazırlıq işləri və s. məsələlər müzakirə edilib.

♦ 28 may və 2-4 iyun tarixlərində DİM-in təşəbbüsü ilə OECD (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının) və Avropa İttifaqının SİGMA proqramı çərçivəsində "Dövlət qulluğunda vəzifələrin təhlili və səriştələrin müəyyən olunmasına dair onlayn təlimlər keçirilib.

♦ Mayın 30-da DİM-də TOEFL imtahanı keçirilib. İmtahanda 6 nəfər iştirak edib.

♦ Mayın sonlarında zal nəzarətçisi sertifikatı əldə etmək istəyən namizədlərlə təlimlər yekunlaşdırılıb. Təlimlər Bakı şəhəri, Bərdə, Gəncə, Şəmkir regional bölmələri üzrə cəlb olunan namizədlərlə ənənəvi qaydada, Xaçmaz, Şəki, Şirvan, Göyçay, Lənkəran regional bölmələri üzrə isə onlayn rejimdə keçirilib.

♦ İyunun 1-də Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə buraxılış və qəbul imtahanlarının keçirilməsinin başlanılması ilə əlaqədar onlayn mətbuat konfransı keçirib.

♦ 1 iyun-14 iyul tarixlərində ali təhsil müəssisələrinə qəbul olmaq istəyən subbakalavrların onlayn qeydiyyatı aparılıb.

♦ 2 iyun tarixində 7 dövlət orqanında inzibati vəzifələrin 4-7-ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə ümumi müsahibə elanı verilib. Qeydiyyat iyulun 2-dək aparılıb.

♦ İyunun 3-də DİM tərəfindən pandemiya şəraitinin tələblərinə uyğun imtahanların keçirilməsi qaydaları ilə bağlı növbəti maarifləndirici video-çarx təqdim olunub.

♦ İyunun 4-də Dövlət İmtahan Mərkəzinin mütəxəssisləri tərəfindən onlayn imtahanların keçirilməsi üçün "ProctorDİM" adlı xüsusi proqram təminatı təqdim edilib.

♦ 4-8 iyun tarxlərində magistraturaya 44 və 70 saylı proqramlar üzrə qabiliyyət imtahanlarında iştirak etmək üçün qeydiyyat aparılıb.

♦ İyunun 5-də Dövlət İmtahan Mərkəzində Pearson VUE (Virtual University Enterprises) tərəfindən təqdim olunan PMI - Project Management Institute təşkilatının "Program Management Professional (PgMP)®" sertifikat imtahanı keçirilib. İmtahanda 1 nəfər iştirak edib.

♦ 5 iyun saat 11:00, 12:00 və 13:00-da olmaqla, 3 seansda DİM mütəxəssisləri tərəfindən hazırlanan və onlayn imtahanların keçirilməsi üçün nəzərdə tutulan "ProctorDİM" xüsusi proqram təminatı vasitəsilə ödənişsiz sınaq imtahanları keçirilib. İmtahanlarda ümumilikdə 147 nəfər iştirak edib.

♦ İyunun 8-də elektron qaydada (pdf formatında) «Magistr» jurnalının 3-cü nömrəsi dərc edilib. Jurnalın bu nömrəsində "Magistratura səviyyəsi üzrə ixtisaslaşma seçimi cədvəli" və 44 və 70 nömrəli proqramlar üzrə qəbul imtahanı proqramları təqdim olunub.

♦ İyunun 8-dən 21-dək ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul aparılan ixtisaslaşmaların müsabiqəsində iştirak etmək üçün internet vasitəsilə proqram və ixtisaslaşma seçimi aparılıb.

♦ 8-13 iyun tarixlərində DİM-də Pearson VUE (Virtual University Enterprises) tərəfindən təqdim olunan Institute of Internal Auditors təşkilatının "CIA Exam Part One: Essentials of Internal Auditing" və Chartered Institute of Management Accountantsinstitutunun "P1 Management Accounting" adlı sertifikat imtahanları keçirilib. İmtahanlarda 2 nəfər iştirak edib.

♦ İyunun 9-da «Magistr» jurnalının 4-cü nömrəsi nəşr edilib. Jurnalın bu nömrəsində 2020/2021-ci tədris ili üçün ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul üçün ixtisaslaşma seçimi haqqında elan dərc edilib. Bu nömrədə, həmçinin "Bakalavrın elektron ərizəsi"ndə ixtisaslaşmaların seçimi və təsdiqi üçün təlimat, elektron ərizə formasının nümunəsi, müsabiqə şərtləri, ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul aparılan ixtisaslaşmalar üzrə ümumi qəbul planı və dövlət sifarişi ilə qəbulun proqnozu təqdim olunub.

♦ İyunun 9-da DİM mütəxəssisləri tərəfindən hazırlanan və onlayn imtahanların keçirilməsi üçün nəzərdə tutulan "ProctorDİM" xüsusi proqram təminatı vasitəsilə növbəti ödənişsiz sınaq imtahanı keçirilib.

♦ İyunun 10-da 21 şəhər və rayonda ümumi və tam orta təhsil səviyyəsi üzrə buraxılış (qəbul) imtahanları keçirilib. İmtahanlarda 25597 şagirdin (abituriyentin) iştirakı nəzərədə tutulub. İmtahanların təşkil edilməsi üçün 117 imtahan binası, 1960 imtahan zalı, 117 ümumi imtahan rəhbəri, 316 imtahan rəhbəri, 2550 nəzarətçi – müəllim, 117 bina nümayəndəsi ayrılıb. Mərkəz tərəfindən pandemiya şəraitinin tələblərinə əsasən iştirakçıların yalnız tibbi maska ilə imtahan binasına daxil olmasına icazə verilib. Buraxılış rejimi yeni qaydalara uyğun şəkildə tənzimlənib, imtahan heyəti müvafiq qoruyucu vasitələrlə (xüsusi geyim, əlcək, üz sipəri, tibbi maska) təmin olunub. Bütün imtahan binaları dezinfeksiya edilib və sanitar-gigiyenik tələblərə uyğun şərait yaradılıb. Kütləviliyin və təmas hallarının qarşısının alınması məqsədilə imtahan iştirakçıları üçün imtahan binasına müxtəlif daxilolma vaxtları müəyyən edilib. İmtahan keçirilən binaların qarşısında sırada gözləmək üçün nişanlayıcı xətlər çəkilib. İmtahan binasına buraxılış rejiminin növbə ilə – lazımi sosial məsafəni gözləməklə təşkil edilməsinə nail olunub. İmtahan binasına daxil olan iştirakçıların məsafədən ölçə bilən elektron termometrlə bədən hərarətləri yoxlanılıb, zəruri dezinfeksiyaedici vasitələrdən istifadə olunub.

Qeyd: Mərkəz tərəfindən iyun ayından etibarən keçirilən digər imtahanlar da yuxarıdakı normalar gözlənilməklə həyata keçirilib.

♦ İyunun 11-də 18 şəhər və rayonda ümumi və tam orta təhsil səviyyəsi üzrə buraxılış (qəbul) imtahanları keçirilib. İmtahanlarda 17021 şagirdin (abituriyentin) iştirakı nəzərədə tutulub. İmtahanların təşkil edilməsi üçün 80 imtahan binası, 1324 imtahan zalı, 80 ümumi imtahan rəhbəri, 222 imtahan rəhbəri, 1718 nəzarətçi – müəllim, 160 buraxılış rejimi əməkdaşı, 80 bina nümayəndəsi ayrılıb. İmtahanlar yenə də pandemiya şəraitinin tələblərinə uyğun təşkil olunub.

♦ İyunun 11-də Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının xüsusi qabiliyyət tələb edən Dekorativ sənət, Dizayn, Rəngkarlıq, Qrafika və Heykəltəraşlıq ixtisasları üzrə ixtisas magistraturasının 70-ci proqrama daxil olan ixtisaslaşmaları üçün magistraturaya qəbul imtahanları keçirilib. Bakalavrlar 5 Qabiliyyət İmtahanı Komissiyası üzrə kompozisiya, rəngkarlıq, rəsm və yapma imtahanlarında iştirak ediblər.

♦ İyunun 12-də DİM koronavirus (COVİD-19) ilə bağlı ölkədə tətbiq edilən xüsusi karantin rejimini nəzərə alaraq abituriyentlərə dəstək məqsədilə Mərkəzin "Youtube" kanalında təcrübəli ekspertlərin bütün qəbul imtahanı fənləri üzrə mühazirələrini yerləşdirib.

♦ İyunun 12-də jurnalistika üzrə magistratura ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlar üçün qabiliyyət imtahanı keçirilib. Qabiliyyət imtahanında iştirak edən 6 nəfər bakalavrın hamısı "məqbul" qiymət alıb və jurnalistika üzrə 44 saylı proqramı və jurnalistika üzrə magistratura ixtisaslaşmalarını seçmək hüququ qazanıb.

♦ İyunun 13-də 10 və 11 iyun tarixlərində keçirilən 9-cu sinif buraxılış, 9 illik təhsil bazasında kolleclərə qəbul, 9 və 11 illik təhsil səviyyələri üzrə Azərbaycan dili (dövlət dili kimi) imtahanlarının nəticələri elan olunub. 9-cu sinif üzrə buraxılış imtahanlarında iştirakı nəzərdə tutulan 17089 nəfərdən 422 nəfər, kolleclərə qəbul imtahanlarında iştirakı nəzərdə tutulan 1669 nəfərdən 268 nəfər, Azərbaycan dili imtahanında iştirakı nəzərdə tutulan 2776 nəfərdən 76 nəfər imtahana gəlməyib. 1 nəfər isə tələb olunan qaydaları pozduğu üçün imtahandan xaric olunub.

♦ 15-19 iyun tarixlərində DİM-də Pearson VUE tərəfindən təqdim olunan Oraclekorporasiyasının "1Z0-809 (Java SE 8 Programmer II)" və Huawei şirkətinin "HCIE-Storage (Written) V2.0" adlı sertifikat imtahanları keçirilib. İmtahanlarda 2 nəfər iştirak edib.

♦ İyunun 16-da 18-19 iyun tarixlərində keçirilən imtahanlarda nəzarətçi qismində iştirak edən şəxslər üçün onlayn rejimdə təlimlər keçirilib.

♦ İyunun 17-də "Abituriyent" jurnalının 2-ci nömrəsi nəşr edilib. Bu nömrədə 2020/2021-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu elanının tam mətni, ixtisaslar üzrə müsabiqə şərtləri, ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə müsabiqə şərtləri və digər zəruri materiallar dərc edilib.

♦ İyunun 17-də xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olmaq istəyənlər üçün "Xüsusi qabiliyyət imtahanları"jurnalının 1-ci nömrəsi dərc edilib.

♦ İyunun 17-də buraxılış imtahanlarının keçiriləcəyi məktəblərdə dezinfeksiya və təmizlik işləri aparılıb.

♦ İyunun 17-dən iyulun 20-dək Azərbaycan Dövlət Pedaqoji Universiteti və Corc Vaşinqton Universitetinin birgə ikili diplom proqramına əsasən təhsil ixtisası üzrə magistraturada oxumaq üçün növbəti sənəd qəbulu elan edilib.

♦ İyunun 18-də şəhər və rayonların qrafikinə uyğun olaraq növbəti buraxılış (qəbul) imtahanları keçirilib. İmtahanlarda 24312 şagirdin (abituriyentin) iştirakı nəzərədə tutulub. İmtahanların təşkil edilməsi üçün 115 imtahan binası, 1904 imtahan zalı, 115 ümumi imtahan rəhbəri, 312 imtahan rəhbəri, 2475 nəzarətçi – müəllim, 230 buraxılış rejimi əməkdaşı, 115 bina nümayəndəsi ayrılıb.

♦ İyunun 19-da 18 şəhər və rayonda ümumi (9 illik) və tam (11illik) orta təhsil səviyyəsi üzrə növbəti buraxılış (qəbul) imtahanları keçirilib. İmtahanlarda 19455 şagirdin (abituriyentin) iştirakı nəzərədə tutulub. İmtahanların təşkil edilməsi üçün 94 imtahan binası, 1539 imtahan zalı, 94 ümumi imtahan rəhbəri, 247 imtahan rəhbəri, 1999 nəzarətçi – müəllim, 188 buraxılış rejimi əməkdaşı, 94 bina nümayəndəsi ayrılıb.

♦ İyunun 21-də 18 və 19 iyun tarixlərində keçirilən ümumi orta təhsil səviyyəsi üzrə buraxılış, 9 illik təhsil bazasında kolleclərə qəbul, ümumi orta və tam orta təhsil səviyyələri üzrə Azərbaycan dili (dövlət dili kimi) imtahanlarının nəticələri elan olunub.

♦ İyunun 24-də 9 şəhər və rayonda ümumi (9 illik) və tam (11illik) orta təhsil səviyyəsi üzrə növbəti buraxılış (qəbul) imtahanları keçirilib. İmtahanlarda 8712 şagirdin (abituriyentin) iştirakı nəzərədə tutulub. İmtahanların təşkil edilməsi üçün 43 imtahan binası, 696 imtahan zalı, 43 ümumi imtahan rəhbəri, 112 imtahan rəhbəri, 904 nəzarətçi – müəllim, 86 buraxılış rejimi əməkdaşı, 43 bina nümayəndəsi ayrılıb.

♦ İyunun 24-də koronavirus (COVİD-19) ilə bağlı ölkədə tətbiq edilən xüsusi karantin rejimi nəzərə alınaraq abituriyentlərə dəstək məqsədilə Mərkəzin "Youtube" kanalında təcrübəli ekspertlərin bütün qəbul imtahanı fənləri üzrə mühazirələri yerləşdirilib.

♦ 24 iyun tarixində DİM-də Pearson VUE tərəfindən təqdim olunan Chartered Institute of Management Accountants (CIMA) institutunun "F1 Financial Reporting" və Cisco Systems şirkətinin "Cisco Certified Network Associate" adlı sertifikat imtahanları keçirilib. İmtahanlarda 2 nəfər iştirak edib.

♦ İyunun 25-də 10 şəhər və rayonda ümumi (9 illik) və tam (11illik) orta təhsil səviyyəsi üzrə növbəti buraxılış (qəbul) imtahanları keçirilib. İmtahanlarda 10519 şagirdin (abituriyentin) iştirakı nəzərədə tutulub. İmtahanların təşkil edilməsi üçün 52 imtahan binası, 834 imtahan zalı, 52 ümumi imtahan rəhbəri, 133 imtahan rəhbəri, 1090 nəzarətçi – müəllim, 104 buraxılış rejimi əməkdaşı, 52 bina nümayəndəsi ayrılıb.

♦ İyunun 26-da 2020/2021-ci tədris ili üçün ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına müsabiqənin nəticələri Mərkəzin internet saytında yerləşdirilib. Müsabiqənin nəticələrinə əsasən, ixtisaslaşma seçimində iştirak edən 11380 bakalavrdan 8324 nəfəri ali təhsil müəssisələrinin magistraturalarına qəbul olunub. Qəbul olunanlardan 3069 nəfəri dövlət sifarişi, 5255 nəfəri isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib.

♦ İyunun 27-də 24 və 25 iyun tarixlərində keçirilən ümumi orta təhsil səviyyəsi üzrə buraxılış, 9 illik təhsil bazasında kolleclərə qəbul, ümuni orta və tam orta təhsil səviyyələri üzrə Azərbaycan dili (dövlət dili kimi) imtahanlarının nəticələri elan olunub. 9-cu sinif üzrə səviyyəsi üzrə buraxılış imtahanlarında iştirakı nəzərdə tutulan 9314 nəfərdən 356 nəfər, kolleclərə qəbul imtahanlarında iştirakı nəzərdə tutulan 642 nəfərdən 149 nəfər, Azərbaycan dili imtahanında iştirakı nəzərdə tutulan 890 nəfərdən 53 nəfər imtahana gəlməyib. 2 nəfər isə tələb olunan qaydaları pozduğu üçün imtahandan xaric olunub.

♦ İyulun 29-da «Magistr» jurnalının 5-ci nömrəsi nəşr edilib. Jurnalın bu nömrəsində 2020/2021-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul olunanların siyahısı, ixtisaslaşmalar üzrə minimal keçid balları, o cümlədən dövlət sifarişi üzrə müsabiqə nəticəsində formalaşmış keçid balları və digər zəruri məlumatlar dərc olunub.

♦ 29 iyun – 3 iyul tarixlərində DİM-də Pearson VUE tərəfindən təqdim olunan informasiya texnologiyaları və daxili audit sahələrinə aid olan beynəlxalq imtahanlar təşkil olunub. İmtahanlarda 7 nəfər iştirak edib.

♦ İyunun 30-da Rusiyanın Ali İqtisadiyyat Məktəbi Milli Tədqiqat Universiteti tərəfindən "Postsovet ölkələrində ali təhsil müəssisələrinə qəbul: İmtahanlar dövlət məsələlərinin həlli aləti kimi" monoqrafiya nəşr olunub. Kollektiv müəlliflər tərəfindən hazırlanmış monoqrafiyada 6 postsovet (Azərbaycan, Ermənistan, Qazaxstan, Qırğızıstan, Rusiya, Tacikistan) ölkəsində dövlətin vəzifələri prizmasından çıxış edərək ali təhsil müəssisələrinə qəbul imtahanları barədə məlumat verilir.

♦ İyunun 30-da 11-ci sinif şagirdləri üçün iyunun 10-u və 11-də keçirilmiş buraxılış imtahanlarının nəticələri elan olunub. İmtahan iştirakçıları arasında 1 nəfər – Abşeron rayonu Xırdalan şəhər 1 saylı orta məktəbin məzunu toplanıla biləcək maksimal nəticə – 300 bal toplayıb. İkinci ən yüksək nəticəni 297.7 bal toplayan Bakı şəhəri 36 saylı orta məktəbin məzunu göstərib. Bundan əlavə, 4 nəfər (Qəbələ rayonu Vəndam qəsəbəsi 1 saylı orta məktəbin, Qubadlı rayonu 3 saylı şəhər tam orta məktəbin, Bakı şəhəri 57 saylı orta məktəbin, Bakı şəhəri 178 saylı orta məktəbin məzunları) 297.1 bal toplayıb.

♦ İyulun 1-dən etibarən dövlət qulluğu vəzifələrinin tutulması məqsədi ilə onlayn müsahibələrin keçirilməsi onlayn formada bərpa olunub. Müsahibələr video-konfrans şəklində keçirilib.

♦ İyulun 2-də DİM mütəxəssisləri tərəfindən hazırlanan və onlayn imtahanların keçirilməsi üçün nəzərdə tutulan "ProctorDİM" xüsusi proqram təminatı vasitəsilə növbəti ödənişsiz sınaq imtahanı keçirilib. İmtahanda 120 nəfər iştirak edib.

♦ İyulun 2-də 11 şəhər və rayonda ümumi (9 illik) və tam (11illik) orta təhsil səviyyəsi üzrə növbəti buraxılış (qəbul) imtahanları keçirilib. İmtahanlarda 13450 şagirdin (abituriyentin) iştirakı nəzərədə tutulub. İmtahanların təşkil edilməsi üçün 67 imtahan binası, 1072 imtahan zalı, 67 ümumi imtahan rəhbəri, 167 imtahan rəhbəri, 1395 nəzarətçi – müəllim, 134 buraxılış rejimi əməkdaşı, 67 bina nümayəndəsi ayrılıb.

♦ İyulun 3-də 16 şəhər və rayonda ümumi (9 illik) və tam (11illik) orta təhsil səviyyəsi üzrə növbəti buraxılış (qəbul) imtahanları keçirilib. İmtahanlarda 14272 şagirdin (abituriyentin) iştirakı nəzərədə tutulub. İmtahanların təşkil edilməsi üçün 71 imtahan binası, 1273 imtahan zalı, 71 ümumi imtahan rəhbəri, 207 imtahan rəhbəri, 1660 nəzarətçi – müəllim, 142 buraxılış rejimi əməkdaşı, 71 bina nümayəndəsi ayrılıb.

♦ İyulun 5-də 2-3 iyul tarixlərində keçirilən ümumi orta təhsil səviyyəsi üzrə buraxılış, 9 illik təhsil bazasında kolleclərə qəbul ümumi orta və tam orta təhsil səviyyələri üzrə Azərbaycan dili (dövlət dili kimi) və H.Əliyev adına Hərbi Liseyə qəbul imtahanlarının nəticələri elan olunub.

♦ 6-10 iyul tarixlərində DİM əməkdaşları beynəlxalq səviyyədə İT sahəsində aparıcı yer tutan Moodle platformasını əhatə edən "MoodleMoot Global Online 2020" onlayn konfransında iştirak ediblər. Qeyd edək ki, Moodle Öyrənmə İdarəetmə Sistemi (LMS) əsasında DİM-in əməkdaşları tərəfindən onlayn imtahanların keçirilməsi üçün "ProctorDİM", həmçinin "Yüksəliş" müsabiqəsinin imtahan platformaları hazırlanıb.

♦ İyulun 7-də orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyənlər üçün "Xüsusi qabiliyyət imtahanları" jurnalının 2-ci nömrəsi nəşr edilib. Jurnalda qabiliyyət imtahanı mərhələsi və müsabiqənin keçirilmə şərtləri, ixtisasların Yaradıcılıq Qabiliyyətinin Yoxlanılması Komissiyaları (YQYK) üzrə bölgüsü, kadr hazırlığı aparılan orta ixtisas təhsili müəssisələri haqqında məlumatlar, qabiliyyət imtahanlarının proqramları, qiymətləndirmə meyarları, imtahanlara hazırlıqla bağlı tövsiyə və məsləhətlər, tapşırıq nümunələri, əyani vəsaitlərdən reproduksiyalar, şəkillər və digər faydalı məlumatlar əksini tapıb.

♦ İyulun 7-də 11-ci sinif şagirdləri üçün 18 və 19 iyun tarixlərində keçirilmiş buraxılış imtahanlarının nəticələri elan olunub. İmtahan iştirakçıları arasında ən yüksək nəticəni 297.1 bal toplayan Lənkəran şəhəri 1 saylı şəhər tam orta məktəbin məzunu göstərib. İkinci ən yüksək nəticəni 294.1 bal toplayan Goranboy rayonu Qızılhacılı qəsəbə 2 saylı tam orta məktəbin, üçüncü ən yüksək nəticəni isə 288.9 bal toplayan Lənkəran şəhəri Liman 2 saylı şəhər tam orta məktəbin məzunu göstərib.

♦ 8-10 iyul tarixlərində DİM-də Pearson VUE tərəfindən təqdim olunan informasiya texnologiyaları və layihələrin idarə edilməsi sahələrinə aid beynəlxalq imtahanlar təşkil olunub. İmtahanlarda 3 nəfər iştirak edib.

♦ İyulun 10-da sərtləşdirilmiş karantin rejimi tətbiq olunmayan 41 şəhər və rayonda əvvəlki illərin məzunları üçün ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanı (I mərhələ) keçirilib. İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 49 imtahan binası, 740 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 49 ümumi imtahan rəhbəri, 121 imtahan rəhbəri, 965 nəzarətçi–müəllim, 98 buraxılışı təşkil edən əməkdaş, 49 bina nümayəndəsi ayrılıb. İmtahanlarda ümumilikdə 8370 abituriyentin iştirakı nəzərdə tutulub.

♦ Rezidenturaya qəbul imtahanlarında iştirak etmək istəyən, lakin vaxtında qeydiyyatdan keçməyən namizədlər üçün iyulun 10-dan 13-dək əlavə sənəd qəbulu aparılıb.

♦ İyulun 13-dən etibarən 18 mart 2020-ci il tarixindən təxirə salınmış 17.09.2019-cu il və 13.01.2020-ci il tarixli müsabiqə elanları üzrə müsahibələrin onlayn qaydada keçirilməsinə başlanılıb.

♦ 13-17 iyul tarixlərində DİM-də Pearson VUE tərəfindən təqdim olunan informasiya texnologiyaları və layihələrin idarə edilməsi sahələrinə aid beynəlxalq imtahanlar təşkil olunub. İmtahanlarda 3 nəfər iştirak edib.

♦ İyulun 14-də 10,11,18 və ya 19 iyunda keçirilmiş imtahanlarda iştirak edə bilməyən cari ilin məzunları (9-cu sinif) üçün buraxılış (qəbul) imtahanları və ümumi orta və tam orta təhsil səviyyələri üzrə Azərbaycan dili imtahanlarının nəticələri elan olunub. Bu imtahanlarda 130 nəfərin iştirakı nəzərdə tutulub. Onlardan 28 nəfər imtahana gəlməyib.

♦ İyulun 16-da 11-ci sinif şagirdləri üçün 24-25 iyun tarixlərində keçirilmiş buraxılış imtahanlarının nəticələri elan olunub. İmtahan iştirakçıları arasında ən yüksək nəticəni 290.7 bal toplayan Balakən rayonu, Katex kənd 3 saylı tam orta məktəbin məzunu göstərib. İkinci ən yüksək nəticəni 289.6 bal toplayan Quba rayonu, Güləzi kənd tam orta məktəbin, üçüncü ən yüksək nəticəni isə 288.3 bal toplayan Quba rayonu, Səbətlər kənd tam orta məktəbin məzunu göstərib.

♦ İyulun 17-də Rusiya Federal Gömrük Xidməti Rusiya Gömrük Akademiyasında və onun Sankt-Peterburq və Rostov şəhərlərindəki filiallarında "Gömrük işi" ixtisası üzrə təhsil almaq istəyənlərlə onlayn test imtahanı və müsahibə keçirilib. Onlayn test və müsahibədən uğurla keçən 4 nəfərin namizədliyi ödənişsiz təhsil forması üzrə oxumaq üçün Akademiyaya təqdim olunub. Müsabiqədə iştirak etmək istəyən abituriyentlər üçün sənəd qəbulu onlayn formada 9-15 iyul tarixlərində aparılıb.

♦ İyulun 17-də Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə növbəti buraxılış və qəbul imtahanlarının keçirilməsi ilə əlaqədar onlayn mətbuat konfransı keçirib. Sədr bildirib ki, 23-24 iyul tarixlərində imtahan keçiriləcək rayon və şəhərlər, imtahanda iştirak etməli olan şəxslər və imtahanların növləri barədə yaxın 2 gün ərzində məlumat veriləcək. Daha sonra sədr magistraturaya qəbul olunanların qeydiyyatı, subbakalavrların ərizə qəbulu, rezidenturaya qəbul imtahanları, həmçinin dövlət qulluğuna qəbul, onlayn müsahibələr və s. haqqında məlumat verib və jurnalistləri maraqlandıran sualları cavablandırıb.

♦ 20-24 iyul tarixlərində DİM-də Pearson VUE tərəfindən təqdim olunan informasiya texnologiyaları və layihələrin idarə edilməsi sahələrinə aid olan beynəlxalq imtahanlar təşkil olunub. İmtahanlarda 3 nəfər iştirak edib.

♦ İyulun 21-də Dövlət İmtahan Mərkəzi və Səhiyyə Nazirliyinin həkim-mütəxəssisləri ilə birgə hazırlanan koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə görülən tədbirlərə dəstək məqsədilə "Viber", "Facebook Messenger", "Telegram" sosial şəbəkə istifadəçiləri üçün çatbot (süni söhbət simulyasiyası) təqdim olunub.

♦ İyulun 21-də Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Əlaqələr Universitetində təhsil almaq istəyənlərlə onlayn test imtahanı və müsahibə keçirilib. Onlayn test və müsahibədən uğurla keçən 3 nəfərin namizədliyi MDBƏİ-yə ödənişsiz təhsil forması üzrə təhsil alması üçün təqdim olunub. Müsabiqədə iştirak etmək istəyənlər üçün sənəd qəbulu 09-16 iyul tarixlərində aparılıb.

♦ İyulun 21-də dövlət qulluğunda inzibati rəhbər (A növü) vəzifələr üzrə müsabiqənin test imtahanına qeydiyyat elan edilib. Qeydiyyat prosesi 1 avqust saat 18:00-dək davam edib.

♦ 23-24 iyul tarixlərində növbəti buraxılış (qəbul) imtahanları keçirilib. İmtahanlar respublikanın 24 şəhər və rayonunda təşkil olunub. İmtahan keçirilən şəhər və rayonlarda, ümumilikdə 149 imtahan binası, 2286 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 149 ümumi imtahan rəhbəri, 385 imtahan rəhbəri, 3024 nəzarətçi–müəllim, 298 buraxılışı təşkil edən əməkdaş, 149 bina nümayəndəsi ayrılıb. İyulun 23-də keçirilən imtahanlarda 16052, iyulun 24-də keçirilən imtahanlarda isə 13483 nəfər olmaqla, ümumilikdə 29535 şagirdin (abituriyentin) imtahanlarda iştirakı nəzərdə tutulub.

♦ İyulun 23-də DİM "Abituriyent" jurnalının 3-cü nömrəsini nəşr edib. Bu nömrədə 2020/2021-ci tədris ili üçün Azərbaycan Respublikasının ümumi orta (9 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, qəbul aparılan ixtisaslar, onların plan yerləri, "Elektron ixtisas seçimi ərizəsi"nin doldurulması və təsdiqi üçün təlimat, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin nümunəsi və digər zəruri materiallar Azərbaycan və rus dillərində təqdim olunub.

♦ İyulun 23-də 11-ci sinif şagirdləri üçün 2-3 iyul tarixlərində keçirilmiş buraxılış (o cümlədən əvvəlki illərin məzunları üçün Naxçıvanda keçirilmiş qəbul) imtahanlarının nəticələri elan olunub. Bu imtahanlarda iştirakı nəzərdə tutulan 9180 nəfərdən 353 nəfər imtahana gəlməyib. Qaydaları pozduğu üçün 7 nəfər imtahandan xaric olunub və nəticələri ləğv edilib. İmtahan iştirakçıları arasında ən yüksək nəticəni 291.8 bal toplayan Naxçıvan şəhəri, Heydər Əliyev adına məktəbin məzunu göstərib. İkinci ən yüksək nəticəni 286 bal toplayan Ağcabədi rayonu, 11 saylı şəhər tam orta məktəbin məzunu göstərib. Naxçıvan MR Babək rayonu, Güznüt kənd tam orta məktəbin və Şirvan şəhəri, 16 saylı şəhər tam orta məktəbin məzunları isə hər biri 285.3 bal toplayıb.

♦ 24 iyul - 18 avqust tarixlərində 2020/2021-ci tədris ili üçün 9 illik orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyən abituriyentlərin qeydiyyatı aparılıb.

♦ İyulun 25-də 23-24 iyulda keçirilən ümumi orta təhsil səviyyəsi üzrə buraxılış (qəbul), 9 illik təhsil bazasında kolleclərə qəbul, ümumi orta və tam orta təhsil səviyyələri üzrə Azərbaycan dili və C.Naxçıvanski adına Hərbi Liseyə qəbul imtahanlarının nəticələri elan olunub.

♦ 29-30 iyul tarixlərində növbəti buraxılış (qəbul) imtahanları keçirilib. İmtahanlar respublikanın 20 şəhər və rayonunda təşkil olunub. İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 135 imtahan binası, 2158 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 135 ümumi imtahan rəhbəri, 365 imtahan rəhbəri, 2888 nəzarətçi–müəllim, 270 buraxılışı təşkil edən əməkdaş, 135 bina nümayəndəsi ayrılıb. İyulun 29-da keçirilən imtahanlarda 13948, iyulun 30-da keçirilən imtahanlarda isə 14255 nəfər olmaqla, ümumilikdə 28203 şagirdin (abituriyentin) iştirakı nəzərdə tutulub.

♦ İyulun 27-də əvvəlki illərin məzunlar üçün 10 iyul tarixində keçirilmiş qəbul (o cümlədən cari ilin məzunları üçün buraxılış (qəbul) və əlavə xarici dil imtahanı) imtahanlarının nəticələri elan olunub. İmtahan iştirakçıları arasında ən yüksək nəticəni 266.2 bal toplayan Yardımlı rayonu, Alçabulaq kənd tam orta məktəbinin cari il məzunu göstərib. İkinci ən yüksək nəticəni 260.6 bal toplayan Quba rayonu, İkinci Nügədi kənd 1 saylı tam orta məktəbin əvvəlki illərinin məzunu göstərib. Növbəti ən yüksək nəticəni isə 258.5 balla Sabirabad rayonu, 5 saylı şəhər tam orta məktəbin əvvəlki illərinin məzunu göstərib.

♦ İyulun 29-dan Dövlət İmtahan Mərkəzi ilə İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası (ACCA) arasında rəsmi tərəfdaşlığa başlanılıb. Əldə edilmiş razılığa əsasən Dövlət İmtahan Mərkəzinə avqust ayından etibarən dünyanın bir çox ölkələrində tanınan ACCA - (The Association of Chartered Certified Accountants – İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası) beynəlxalq imtahanlarının keçirilməsi üçün lisenziya verilib.

♦ İyulun 31-də 29-30 iyulda keçirilən ümumi orta təhsil səviyyəsi üzrə buraxılış (qəbul), 9 illik təhsil bazasında kolleclərə qəbul, ümumi orta və tam orta təhsil səviyyələri üzrə Azərbaycan dili və Hərbi Liseylərə qəbul imtahanlarının nəticələri elan olunub.

♦ Avqustun 3-dən 14-dək ali və ya orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanını rus dilində verən abituriyentlər üçün ikinci Azərbaycan dili (dövlət dili kimi) imtahanına qeydiyyat elan olunub.

♦ Avqustun 3-də dövlət qulluğunda inzibati vəzifələrin A növünə (inzibati rəhbər vəzifələr) aid olan AA, AB və AC qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib. İmtahanda 83 namizəd iştirak edib. İmtahan nəticələrinə əsasən AB3 altqrupu üzrə 1 nəfər, AC1 altqrupu üzrə 1 nəfər, AC2 altqrupu üzrə 2 nəfər, AC3 altqrupu üzrə 6 nəfər, AC4 altqrupu üzrə 6 nəfər olmaqla, ümumilikdə 16 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb. 1 nəfərdə mobil telefon aşkar edildiyi üçün imtahandan xaric olunub.

♦ Avqustun 4-də 5-11-ci sinif dərsliklərinin hər bir mövzusuna dair test tapşırıqlarının otk.az portalına yerləşdirilməsi başa çatıb. Abituriyentlər (şagirdlər) 5-11-ci sinif dərsliklərinin hər bir mövzusuna dair portala yerləşdirilmiş qiymətləndirmə tapşırıqlarından istifadə etməklə hazırlıq səviyyələrini yoxlaya bilərlər.

♦ Avqustun 4-də DİM-də Pearson VUE tərəfindən təqdim olunan informasiya texnologiyaları və daxili audit sahələrinə aid beynəlxalq imtahanlar təşkil olunub. İmtahanlarda 2 nəfər iştirak edib.

♦ Avqustun 5-də baza ali tibb təhsili əsasında həkim-mütəxəssislərin hazırlanması məqsədilə rezidenturaya qəbul imtahanının I mərhələsi keçirilib. İmtahan Bakı və Naxçıvan şəhərlərində təşkil olunub. İmtahanların təşkil edilməsi üçün ümumilikdə 7 imtahan binası, 110 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 7 ümumi imtahan rəhbəri, 19 imtahan rəhbəri, 142 nəzarətçi–müəllim, 14 buraxılış rejimi əməkdaşı cəlb olunub.

♦ Avqustun 5-də 7 dövlət orqanında inzibati vəzifələrin 4-7-ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə ümumi müsahibə elanı verilib.

♦ Avqustun 5-də mərkəzi icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanları olmaqla inzibati dövlət qulluğu vəzifələrinin 4-7-ci təsnifatı üzrə A və B növünə aid olan ümumilikdə 46 dövlət orqanında 408 vakant vəzifənin tutulması üçün müsabiqənin müsahibə mərhələsi elanı verilib.

♦ Avqustun 6-da rezidenturaya qəbul imtahanının birinci mərhələsinin nəticələri açıqlanıb. 762 namizəd birinci mərhələnin müsabiqə şərtini (40 və daha yüksək bal) ödəyib. 295 nəfər bu ilin, 336 nəfər isə əvvəlki illərin məzunları olmaqla, ümumilikdə 631 namizəd ikinci mərhələyə buraxılıb.

♦ 7-21 avqust tarixlərində 2020/2021-ci tədris ili üçün ali təhsil müəssisələrinin və 11 illik təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyən abituriyentlərin qabiliyyət imtahanlarında iştirak etmək üçün qeydiyyatı aparılıb.

♦ Avqustun 10-da 11-ci sinif şagirdləri üçün 23-24 iyul tarixlərində keçirilmiş buraxılış (o cümlədən əvvəlki illərin məzunları üçün qəbul) imtahanlarının nəticələri elan olunub. İmtahan iştirakçıları arasında 2 nəfər – Xırdalan şəhəri, 2 saylı tam orta məktəbin cari il məzunu və Lənkəran şəhəri, 10 saylı tam orta məktəbin 2019-cu il məzunu maksimal olan 300 bal toplayıb. 23 nəfər isə 297.1 bal toplayıb.

♦ 10-14 avqust tarixlərində Pearson VUE tərəfindən təqdim olunan informasiya texnologiyaları, daxili audit və layihələrin idarə edilməsi sahələrinə aid beynəlxalq imtahanlar təşkil olunub. İmtahanlarda 4 nəfər iştirak edib.

♦ 12-21 avqust tarixlərində 2020/2021-ci tədris ili üçün ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyən subbakalavrların qabiliyyət imtahanlarında iştirak etmək üçün qeydiyyatı aparılıb.

♦ 13-14 avqust tarixlərində cari və əvvəlki illərin məzunları üçün II və III ixtisas qrupları üzrə qəbul imtahanları, həmçinin I və IV ixtisas qrupları üzrə ali təhsili müəssisələrinin müsabiqəsində buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyənlər üçün əlavə xarici dil imtahanı və qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyənlər üçün əlavə imtahan (Azərbaycan və ya rus dili) keçirilib. İmtahanlar respublikanın 35 şəhər və rayonunda təşkil olunub. İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 164 imtahan binası, 2877 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 164 ümumi imtahan rəhbəri, 490 imtahan rəhbəri, 3754 nəzarətçi–müəllim, 328 buraxılışı təşkil edən əməkdaş, 164 bina nümayəndəsi ayrılıb. Avqustun 13-də keçirilən imtahanlarda 19197, avqustun 14-də keçirilən imtahanlarda isə 18102 nəfər olmaqla, ümumilikdə 37299 abituriyentin iştirakı nəzərdə tutulub. Bunlardan 14232 nəfər II ixtisas qrupu, 22607 nəfər III ixtisas qrupu üzrə qəbul imtahanının ikinci mərhələsini, 460 nəfər isə I və IV ixtisas qrupları üzrə əlavə xarici dil imtahanını veriblər.

♦ Avqustun 15-də Dövlət İmtahan Mərkəzində GRE imtahanı keçirilib. İmtahanda 5 nəfər iştirak edib.

♦ Avqustun 17-də orta ixtisas təhsili pilləsi üzrə “Subbakalavr” peşə-ixtisas dərəcəsi almış və ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq istəyən şəxslər üçün "Abituriyent" jurnalının xüsusi buraxılışı çap edilib. Jurnalda “Subbakalavrların ixtisas seçimi elanı”, “Subbakalavr dərəcəsini almış şəxslərin ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbulu ilə bağlı “ixtisas uyğunluğu cədvəli ” və digər faydalı məlumatlar təqdim olunub.

♦ 17-21 avqust tarixlərində DİM-də Pearson VUE (Virtual University Enterprises) tərəfindən təqdim olunan marketinq və daxili audit sahələrinə aid olan beynəlxalq imtahanlar təşkil olunub. İmtahanlarda 2 nəfər iştirak edib.

♦ 20-21 avqust tarixlərində cari və əvvəlki illərin məzunları üçün I və IV ixtisas qrupları üzrə qəbul imtahanları, həmçinin II, III və V ixtisas qrupları üzrə ali təhsili müəssisələrinin və 9 illik təhsil bazasında kolleclərin müsabiqəsində buraxılış imtahanında verdiyi xarici dildən fərqli dil üzrə iştirak etmək istəyənlər üçün əlavə xarici dil imtahanı və qəbul imtahanını buraxılış imtahanında verdiyi dildən fərqli dil üzrə vermək istəyənlər üçün əlavə imtahan (Azərbaycan və ya rus dili) keçirilib. İmtahanlar respublikanın 35 şəhər və rayonunda təşkil edilib. Xatırladaq ki, imtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 160 imtahan binası, 2838 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 160 ümumi imtahan rəhbəri, 485 imtahan rəhbəri, 3685 nəzarətçi–müəllim, 320 buraxılış rejimi əməkdaşı, 160 bina nümayəndəsi ayrılıb. Avqustun 20-də keçirilən imtahanlarda 20100, avqustun 21-də keçirilən imtahanlarda isə 16884 nəfər olmaqla, ümumilikdə 36984 abituriyentin iştirakı nəzərdə tutulub. Bunlardan 30980 nəfər I ixtisas qrupu, 5160 nəfər IV ixtisas qrupu üzrə qəbul imtahanının ikinci mərhələsini, 844 nəfər isə II, III və V ixtisas qrupları və 9 illik təhsil bazasında kolleclərə qəbul üçün əlavə xarici dil imtahanını verənlər olub.

♦ Avqustun 18-də 11-ci sinif şagirdləri üçün 29-30 iyul tarixlərində keçirilmiş buraxılış (o cümlədən əvvəlki illərin məzunları üçün qəbul) imtahanlarının nəticələri elan olunub. İmtahan iştirakçıları arasında 2 nəfər – Binəqədi rayonu, 297 saylı tam orta məktəbin cari il məzunu və Binəqədi rayonu, 276 saylı tam orta məktəb məktəbin cari ilin məzunu maksimal olan 300 bal toplayıb. 6 nəfər isə 297.1 bal toplayıb.

♦ Avqustun 21-də dövlət qulluğunda inzibati icraçı (B növü) vəzifələr üzrə müsabiqənin test imtahanlarına qeydiyyat elan edilib. 27 avqust tarixində keçirilən imtahan kompüter, 10 sentyabr tarixində keçirilən imtahan isə kağız daşıyıcılar vasitəsilə aparılıb. 27 avqustda keçirilən imtahanda iştirak etmək üçün qeydiyyat 26 avqust saat 17:00-dək, 10 sentyabrda keçirilən imtahanda iştirak etmək üçün qeydiyyat isə 1 sentyabr saat 10:00-dək aparılıb.

♦ Avqustun 22-də 9 illik təhsil bazasından kolleclərə sənəd verən abituriyentlər üçün avqustun 21-də keçirilmiş fərq (əlavə xarici dil) imtahanlarının nəticələri elan olunub.

♦ 24-28 avqust tarixlərində DİM-də Pearson VUE tərəfindən təqdim olunan layihələrin idarə edilməsi, daxili audit və çirkli pulların yuyulmasına qarşı mübarizə sahələrinə aid beynəlxalq imtahanlar təşkil olunub. İmtahanlarda 3 nəfər iştirak edib.

♦ Avqustun 25-dən 31-dək 2020/2021-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarının boş qalan yerlərinə qəbul olmaq üçün proqram və ixtisaslaşma seçimi elan edilib.

♦ Avqustun 25-də «Magistr» jurnalının 6-cı nömrəsi nəşr edilib. Jurnalın bu nömrəsində ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarının boş qalan yerlərinə qəbul haqqında elan, müsabiqə şərtləri, "Bakalavrın elektron ixtisaslaşma seçimi ərizəsi"ndə ixtisaslaşmaların seçilməsi və təsdiqi üçün təlimat, "Bakalavrin elektron ərizəsi"ndə ixtisaslaşma seçimi formasının nümunəsi, ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarının boş qalan yerləri olan ixtisaslaşmalarının siyahısı, magistratura səviyyəsinə dövlət sifarişi ilə qəbulun proqnozu və digər zəruri məlumatlar təqdim olunub.

♦ Avqustun 25-də Azərbaycan Respublikası Müdafiə Nazirliyinin xətti ilə Türkiyə Respublikasının Tibb Elmləri Universitetinin Gülhanə Tibb Fakültəsinə və Rusiya Federasiyasının Hərbi Tibb Akademiyasına kursantların qəbulu üçün müsabiqə elan olunub.

♦ Avqustun 26-da Dövlət İmtahan Mərkəzi tərəfindən 3 mərhələli "Xarici dil (ingilis dili) fənn kurikulumu, dərslikləri və qiymətləndirmə alətlərinin təkmilləşdirilməsinə dəstək" layihəsinin həyata keçirilməsinə başlanılıb.

♦ Avqustun 27-də DİM tərəfindən Azərbaycan dili (dövlət dili kimi) fənni üzrə ikinci imtahan, Dövlət Sərhəd Xidməti Xüsusi Məktəbinin V sinfinə qəbul imtahanı, Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Məktəbinin feldşer ixtisasına qəbul imtahanı və Sabah qruplarına tələbə seçimi müsabiqəsinin ikinci mərhələsi üzrə test imtahanı keçirilib. İmtahanlar Bakı, Naxçıvan, Gəncə, Şəki, Bərdə, Lənkəran və Xaçmazda təşkil olunub. Həmin gün ümumilikdə 4606 nəfərin imtahan verəcəyi nəzərdə tutulub. İmtahanların idarə olunmasına 22 imtahan binası, 336 imtahan zalı, 22 ümumi imtahan rəhbəri, 56 imtahan rəhbəri, 437 nəzarətçi müəllim, 44 buraxılış rejimi əməkdaşı, 22 bina nümayəndəsi ayrılıb.

♦ Avqustun 27-dən sentyabrın 18-dək ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq üçün qabiliyyət imtahanları keçirilib.

♦ Avqustun 27-də dövlət qulluğunda inzibati vəzifələrin B növünə (inzibati icraçı vəzifələr) aid olan BA və BB qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib.

♦ Avqustun 27-də Hərbi Tibb Məktəbinin feldşer ixtisasına və Dövlət Sərhəd Xidməti Xüsusi Məktəbinin V sinfinə qəbul olmaq üçün keçirilən imtahanların nəticələri elan edilib.

♦ Avqustun 28-də "Azərbaycan dili" fənni (dövlət dili kimi) üzrə 1 gün əvvəl keçirilən imtahanın nəticəsi elan olunub. İmtahanda iştirak edən 1370 abituriyentdən 507 nəfəri ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün tələb olunan müsabiqə şərtini ödəyərək "məqbul" qiymət alıb.

♦ Avqustun 28-də Dövlət İmtahan Mərkəzinin Dövlət qulluğu məsələləri şöbəsinin əməkdaşları Elnur Abbasov və Ayşən Atakişiyeva tərəfindən "Vəzifələrin idarəedilməsi sisteminin aparılması qaydaları" mövzusunda növbəti onlayn təlim keçirilib. Təlimdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin nümayəndəsi iştirak edib.

♦ Avqustun 28-də II və III ixtisas qrupu üzrə 13-14 avqust tarixlərində keçirilən qəbul imtahanlarının nəticələri elan edilib. İmtahanda iştirak etmək üçün ərizə təsdiq etmiş 36840 abituriyentdən 2395 nəfəri imtahana gəlməyib. İmtahanda iştirak edən abituriyentlərdən 8 nəfər qaydaları pozduqlarına görə imtahandan xaric olunub və nəticələri ləğv edilib. İmtahanda II ixtisas qrupu üzrə ən yüksək nəticəni 394.3 bal toplayan Sumqayıt şəhəri, Təbiət elmləri təmayüllü gimnaziyanın məzunu göstərib. O, hər iki mərhələnin cəminə görə 688.4 bal toplayıb və bu nəticə II ixtisas qrupu üzrə ən yüksək baldır. III ixtisas qrupu üzrə ən yüksək nəticəni 400 bal toplayan Bakı şəhəri, Binəqədi rayonu 276 saylı məktəbin məzunu göstərib. O, imtahanın I mərhələsində 300 bal toplamışdı və beləliklə hər iki mərhələnin cəminə görə maksimal olan 700 bal toplayıb.

♦ Avqustun 29-da DİM-də SAT imtahanları (SAT and SAT Subject) keçirilib. İmtahanlarda 34 nəfər (o cümlədən 6 nəfər SAT Subject üzrə) iştirak edib.

♦ Avqustun 30-da DİM-də TOEFL iBT imtahanı keçirilib. İmtahanda 13 nəfər iştirak edib.

♦ Avqustun 31-də I və IV ixtisas qrupu üzrə avqustun 14-də, II və III ixtisas qrupu üzrə isə avqustun 21-də keçirilmiş əlavə xarici dil (bölmə) imtahanlarının nəticələri elan edilib.

♦ Sentyabrın 1-də "Rezidentura" xüsusi buraxılışının 3-cü nömrəsi nəşr edilib. Jurnalda rezidenturaya qəbul imtahanının ikinci mərhələsi (ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanı) və ixtisas seçimi haqqında elan, "Namizədin elektron ərizəsi"ndə ixtisasların seçimi və təsdiqi üçün təlimat, rezidenturaya qəbul aparılan ixtisaslar və onların plan yerləri və s. dərc edilib.

♦ Sentyabrın 1-dən 7-dək rezidenturaya qəbul imtahanının II mərhələsində iştirak etmək üçün qeydiyyat aparılıb.

♦ Sentyabrın 1-də SABAH qruplarına qəbul olmaq üçün avqustun 27-də keçirilmiş imtahanın nəticəsi elan edilib.

♦ 1-4 sentyabr tarixlərində DİM-də Pearson VUE (Virtual University Enterprises) tərəfindən təqdim olunan marketinq və İT sahələrinə aid beynəlxalq imtahanlar təşkil olunub. İmtahanlarda 2 nəfər iştirak edib.

♦ Sentyabrın 1-də rezidenturaya hazırlaşanlara kömək məqsədi ilə "Терапевтическая стоматология (заболевания пародонта и слизистой оболочки полости рта)" adlı vəsait tərtib edilib.

♦ Sentyabrın 1-də ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarının boş qalan plan yerlərinə qəbul olmaq üçün keçirilən müsabiqənin nəticələri elan olunub. Müsabiqə nəticəsində 757 nəfər magistraturaya qəbul olub.

♦ Sentyabrın 2-də «Magistr» jurnalının 7-ci nömrəsi dərc edilib. Jurnalın bu nömrəsində 2020/2021-ci tədris ili üçün ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarının boş qalan yerlərinə qəbulun nəticələri dərc olunub. Jurnalda, həmçinin ixtisaslaşmalar üzrə minimal keçid balları və dövlət sifarişli yerlər üzrə müsabiqə nəticəsində alınmış keçid balları təqdim olunub.

♦ Sentyabrın 2-də I və IV ixtisas qrupu üzrə 20-21 avqust tarixlərində keçirilmiş qəbul imtahanlarının nəticələri elan edilib. Bu mərhələdə I ixtisas qrupu üzrə 12 nəfər 400 bal toplamaqla ən yüksək nəticəni göstərib. Onlardan 1 nəfər – Xırdalan şəhəri, 1 saylı orta məktəbin məzunu imtahanın I mərhələsində 300 bal toplamışdı və beləliklə, hər iki mərhələnin cəminə görə maksimal olan 700 bal toplayıb. İkinci ən yüksək nəticəni 697 bal toplayan Bakı şəhəri, Binəqədi rayonu 297 saylı orta məktəbin məzunu göstərib (Həmin abituriyent imtahanın I mərhələsində 300 bal toplamışdı). IV ixtisas qrupu üzrə 5 nəfər 400 bal toplamaqla ən yüksək nəticəni göstərib. Hər iki mərhələnin cəminə görə ən yüksək nəticəni isə 691.4 bal toplayan Bakı şəhəri, 178 saylı tam orta məktəbin məzunu göstərib. İkinci ən yüksək nəticəni 691.2 bal toplayan Bakı şəhəri, 114 saylı tam orta məktəbin məzunu göstərib.

♦ Sentyabrın 3-də Azərbaycan Respublikası Müdafiə Nazirliyinin xətti ilə Türkiyə Respublikasının Tibb Elmləri Universitetinin Gülhanə Tibb Fakültəsinə və Rusiya Federasiyasının Hərbi Tibb Akademiyasına kursantların qəbulu üçün müsabiqə elan olunub.

♦ Sentyabrın 3-dən 13-dək internet vasitəsilə ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin ixtisas seçimi həyata keçirilib.

♦ 4-8 sentyabr tarixlərində III ixtisas qrupu üzrə imtahan verən və "Jurnalistika" ixtisasına qəbul olmaq istəyən abituriyentlərin qeydiyyatı aparılıb.

♦ Sentyabrın 5-də DİM-də GRE: General Test imtahanı keçirilib. İmtahanda 4 yerli vətəndaş və 1 əcnəbi olmaqla, 5 nəfər iştirak edib.

♦ 7-11 sentyabr tarixlərində Pearson VUE (Virtual University Enterprises) tərəfindən təqdim olunan layihələrin idarə edilməsi və audit sahələrinə aid beynəlxalq imtahanlar təşkil olunub. İmtahanlarda 2 nəfər iştirak edib.

♦ Sentyabrın 8-də «Abituriyent» jurnalının 4-cü nömrəsi nəşr olunub. Jurnalın bu nömrəsində 2020/2021-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma qaydası, ali təhsil müəssisələrinə qəbul aparılan ixtisaslar, dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu çap edilib.

♦ Sentyabrın 8-də DİM-də GRE: General Test imtahanı keçirilib. İmtahanda 3 nəfər iştirak edib.

♦ Sentyabrın 8-də Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ali təhsil müəssisələrinə qəbul olmaq üçün ixtisas seçiminin başlanması ilə əlaqədar onlayn mətbuat konfransı keçirib. Mətbuat konfransında "Abituriyent Məsləhət Mərkəzləri", abituriyentlərin ixtisas seçimi zamanı diqqət yetirməli olduqları məsələlər, ixtisas qrupları üzrə plan yerləri, abituriyentlərin bu il və ötənilki imtahan nəticələrinin müqayisəli təhlili və s. haqqında məlumat verilib.

♦ Sentyabrın 9-da II və III ixtisas qrupu üzrə müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlər üçün "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı kitabçalar nəşr edilib.

♦ Sentyabrın 9-da "Abituriyent" jurnalının xüsusi buraxılışında 2019-cu ilin tələbə qəbulu müsabiqəsində ali təhsil müəssisələrinin ixtisasları üzrə formalaşmış keçid balları dərc edilib.

♦ Sentyabrın 9-da DİM-də TOEFL iBT imtahanı keçirilib. İmtahanda 12 nəfər iştirak edib.

♦ Sentyabrın 10-da inzibati icraçı vəzifələrə aid olan vəzifə qrupları üzrə dövlət qulluğuna qəbul olmaq üçün test imtahanı keçirilib. İmtahanda iştirak etmək üçün BA qrupu üzrə 382, BB qrupu üzrə 1035 olmaqla, ümumilikdə isə 1417 namizəd qeydiyyatdan keçib. İmtahanda iştirak üçün qeydiyyatdan keçən 1417 namizəddən 23 nəfər imtahana gəlməyib. İmtahan nəticələrinə əsasən, BA1 altqrupu üzrə 6 nəfər, BA2 altqrupu üzrə 28 nəfər, BA3 altqrupu üzrə 37 nəfər, BA4 altqrupu üzrə 43 nəfər, BB1 altqrupu üzrə 109 nəfər, BB2 altqrupu üzrə 90 nəfər olmaqla, BB3 altqrupu üzrə 148 nəfər, BB4 altqrupu üzrə 165 nəfər ümumilikdə 626 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ Sentyabrın 10-da DİM tərəfindən iyun-iyul aylarında keçirilən yekun qiymətləndirmə (attestasiya) imtahanlarda iştirak etməyən şagirdlər üçün buraxılış imtahanları keçirilib. İmtahanlar respublikanın 15 şəhər və rayonunda təşkil olunub. İmtahanlarda ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə 18277, tam (11 illik) orta təhsil səviyyəsi üzrə 1789 şagirdin iştirakı nəzərdə tutulub. 369 şagird isə yalnız Azərbaycan dili fənni üzrə imtahan verib.

♦ Sentyabrın 10-dan 20-dək ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi aparılıb.

♦ Sentyabrın 11-də ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı keçirilib.

♦ Sentyabrın 11-də I və IV ixtisas qrupu üzrə müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlər üçün "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı kitabçalar nəşr edilib.

♦ Sentyabrın 11-də 1 gün əvvəl keçirilən 9-cu sinif səviyyəsi üzrə buraxılış imtahanları və ümumi orta və tam orta təhsil səviyyələri üzrə Azərbaycan dili imtahanlarının nəticələri elan olunub.

♦ Sentyabrın 14-dən 27-dək aqrar sığorta fəaliyyəti üzrə müstəqil ekspert sertifikatı almaq istəyən namizədlərin imtahanda iştirakı üçün qeydiyyatı aparılıb.

♦ 14-18 sentyabr tarixlərində Pearson VUE tərəfindən təqdim olunan audit və marketinq sahələrinə aid beynəlxalq imtahanlar təşkil olunub. İmtahanlarda 3 nəfər iştirak edib.

♦ Sentyabrın 15-də "Jurnalistika" ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün keçirilmiş qabiliyyət imtahanının nəticələri açıqlanıb. İmtahanda iştirak edən abituriyentlərdən 648 nəfər "məqbul" qiymət alıb.

♦ Sentyabrın 15-də ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün keçirilən müsabiqənin nəticələri elan olunub. 9310 nəfər orta ixtisas təhsili müəssisələrinə qəbul olub.

♦ Sentyabrın 16-da “Abituriyent” jurnalının 5-ci nömrəsi nəşr edilib. Jurnalının bu nömrəsində ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olan abituriyentlərin siyahısı, qəbul olduqları ixtisasların kodları, ixtisaslar üzrə formalaşmış keçid balları və digər zəruri məlumatlar Azərbaycan və rus dillərində təqdim olunub.

♦ Sentyabrın 16-da 11-ci sinif şagirdləri üçün ayın 10-da keçirilmiş buraxılış imtahanlarının nəticələri elan olunub.

♦ Sentyabrın 17-də Nur-Sultanda yerləşən Dövlət Qulluğu üzrə Regional Xab "Pandemiya dövründə dövlətlərin böhran kommunikasiyası" adlı beynəlxalq onlayn təlim təşkil edib. Təlimin məqsədi COVİD-19 pandemiyası dövründə dövlət qurumlarının kommunikasiya strategiyalarının təkmilləşdirilməsinə töhfə vermək olub.

♦ Sentyabrın 18-də Bakı və Naxçıvan şəhərlərində rezidenturaya qəbul imtahanının II mərhələsi keçirilib. İmtahanın II mərhələsində iştirak etmək üçün 601 namizəd qeydiyyatdan keçib. Onlardan 415 nəfəri qız, 186 nəfəri oğlandır. 562 namizəd Azərbaycan bölməsinin, 39 namizəd rus bölməsinin, 280 namizəd cari ilin, 321 namizəd isə əvvəlki illərin məzunu, 4 nəfər isə xarici ölkə vətəndaşı olub. Bakı şəhərində 583, Naxçıvan şəhərində isə 18 namizədin imtahan verəcəyi nəzərdə tutulub. İmtahanların idarə olunması üçün 7 imtahan rəhbəri, 67 zal nəzarətçisi ayrılıb. İmtahanda iştirakı gözlənilən 601 namizəddən 1 nəfər imtahana gəlməyib. Namizədlərdən 459 nəfər müsabiqə şərtini (ixtisas fənləri üzrə topladığı test balı 50 və daha yuxarı) ödəyərək ixtisaslaşma seçiminə buraxılıb.

♦ 21-25 sentyabr tarixlərində DİM-də Pearson VUE tərəfindən təqdim olunan İT, marketinq və akademik ingilis dili sahələrinə aid beynəlxalq imtahanlar təşkil olunub. İmtahanlarda 6 nəfər iştirak edib.

♦ Sentyabrın 21-dən 25-dək rezidenturaya qəbul olmaq üçün ixtisas seçimi aparılıb.

♦ Sentyabrın 22-də Dövlət İmtahan Mərkəzinin Dövlət qulluğu məsələləri şöbəsinin böyük məsləhətçisi Elnur Abbasov və E-imtahanların və müsahibələrin təşkili şöbəsinin məsləhətçisi Hüseyn Bəşirov tərəfindən “Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları” mövzusunda təlim təşkil edilib. Təlimdə Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin əməkdaşları iştirak ediblər.

♦ Sentyabrın 23-də “Abituriyent” jurnalının 6-cı nömrəsi nəşr edilib. Jurnalda orta ixtisas təhsili müəssisələrinə tam (11 illik) orta təhsil bazasında tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, ”Abituriyentin elektron ixtisas seçimi ərizəsi”nin doldurulma qaydası, qəbul aparılan ixtisaslar və s. məlumatlar əksini tapıb.

♦ Sentyabrın 22-də DİM-də GRE beynəlxalq imtahanı keçirilib. İmtahanda 6 nəfər iştirak edib.

♦ Sentyabrın 23-də DİM-də TOEFL iBT beynəlxalq imtahanı keçirilib. İmtahanda 13 nəfər iştirak edib.

♦ Sentyabrın 24-də 2020/2021-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələri elan edilib. Ali təhsil müəssisələrinin müsabiqəsində 66464 nəfər iştirak edib. Onlardan 42731 nəfəri (o cümlədən 5785 subbakalavr) ali təhsil müəssisələrinə qəbul olunub. 20799 (o cümlədən 779 subbakalavr) nəfər dövlət sifarişi əsasında, 21932 (o cümlədən 5006 subbakalavr) nəfər isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib.

♦ Sentyabrın 25-də “Abituriyent” jurnalının 7-ci nömrəsi nəşr olunub. Jurnalda ali təhsil müəssisələrinə qəbul olmuş abituriyentlərin siyahısı qruplar üzrə (Azərbaycan bölməsi – I, II, III qruplar hər biri ayrı jurnalda, IV və V qruplar isə birlikdə bir jurnalda, rus bölməsinin bütün qrupları isə bir jurnalda) çap olunub. Bu nömrədə, eyni zamanda həm təhsili ödənişli əsaslarla aparılan ixtisaslar üzrə, həm də dövlət sifarişi əsasında aparılan yerlər üzrə müsabiqə nəticəsində alınmış uyğun keçid balları, dövlət sifarişi əsasında qəbul olan abituriyentlərin ali təhsil müəssisələri və ixtisaslar üzrə paylanması barədə məlumatlar, müsabiqədənkənar qəbul olmuş abituriyentlərin siyahısı və müsabiqənin birgə aparıldığı ixtisaslar üzrə plan yerlərinə Azərbaycan və rus bölmələrindən qəbul olan abituriyentlərin sayı haqqında məlumat təqdim edilib.

♦ Sentyabrın 25-də Ukraynanın Dövlət Qulluğu üzrə Milli Agentliyi tərəfindən “Richelieu forumu: Dövlət qulluğunda yeni era” adlı tədbir təşkil edilib. Tədbirdə Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov və icraçı direktoru Vəfadar Misirov iştirak ediblər. Tədbirin əsas məqsədi dövlət idarəçiliyi və dövlət qulluğunda rəqəmsal infrastrukturun inkişafı, insan resurslarının idarə edilməsi üçün alət və prosedurların təkmilləşdirilməsi, xüsusilə şəffaf əmək haqqı sistemi və vəzifə təsnifatının həyata keçirilməsi, istedadın qorunması və şəxsi inkişaf, rəqəmsal ünsiyyət və mədəniyyətin dövlət qulluğunun yeni dəyərləri kimi təqdim olunması və digər məsələləri onlayn və ya oflayn formatda müzakirə etmək olub.

♦ Sentyabrın 26-da Dövlət İmtahan Mərkəzi "Abituriyent" jurnalının 8-ci nömrəsini nəşr edib. Bu nömrədə ali təhsil müəssisələrinin boş qalan yerlərinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma qaydası, ali təhsil müəssisələrinin boş qalan yerləri olan ixtisaslar, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu və digər zəruri məlumatlar Azərbaycan və rus dillərində təqdim olunub.

♦ Sentyabrın 26-dan oktyabrın 5-dək ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə və tam (11 illik) orta təhsil bazasında kolleclərə qəbul olmaq istəyən abituriyentlərin ixtisas seçimi aparılıb.

♦ Sentyabrın 26-da pandemiya dövründə Azərbaycanda yeganə SAT Test Mərkəzi olan DİM-də növbəti SAT imtahanı keçirilib. İmtahanda ümumilikdə 40 yerli vətəndaş və 1 əcnəbi olmaqla, 41 nəfər iştirak edib (1 nəfər SAT esse imtahanı verib).

♦ 28 sentyabr – 19 oktyabr tarixlərində 8 dövlət orqanında inzibati vəzifələrin 3-7-ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə ümumi müsahibə elanı verilib.

♦ 28 sentyabr – 2 oktyabr tarixlərində DİM-də Pearson VUE tərəfindən təqdim olunan İT, audit, akademik ingilis dili və tibb sahələrinə aid beynəlxalq imtahanlar təşkil olunub. İmtahanlarda 4 nəfər iştirak edib.

♦ Sentyabrın 28-də əsas (baza ali) tibb təhsili əsasında rezidenturaya qəbul olmaq üçün keçirilmiş müsabiqənin nəticələri elan olunub. Qəbul imtahanının nəticələrinə əsasən müsabiqədə iştirak edən 456 namizəddən 422 nəfəri təhsilini rezidenturada davam etdirmək hüququ qazanıb. Onlardan 133 nəfərini oğlan, 289 nəfərini qızlar təşkil edir. 218 namizəd cari ilin, 204 namizəd isə əvvəlki illərin məzunu olub.

♦ Sentyabrın 29-da ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi ilə bağlı "Abituriyent" jurnalının xüsusi buraxılışı nəşr edilib. Jurnalın xüsusi buraxılışında ixtisas seçimi elanının tam mətni ilə yanaşı, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulması və təsdiqi üçün təlimat və "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin nümunəsi, qəbul aparılan ixtisasların siyahısı, boş yerlərin sayı və digər məlumatlar Azərbaycan və rus dillərində dərc olunub.

♦ Sentyabrın 29-dan oktyabrın 4-dək ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerləri üzrə ixtisas seçimi elan edilib.

♦ Sentyabrın 29-da "Rezidentura" xüsusi buraxılışının 4-cü nömrəsi dərc edilib. Jurnalın bu nömrəsində 2020/2021-ci tədris ili üçün rezidenturaya qəbul olanların siyahısı, müsabiqə nəticələrinə görə alınmış keçid balları və digər zəruri məlumatlar təqdim olunub.

♦ Sentyabrın 29-da mərkəzi icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanları olmaqla inzibati dövlət qulluğu vəzifələrinin 6-7-ci təsnifatı üzrə B növünə aid olan ümumilikdə 3 dövlət orqanında 7 vakant vəzifənin tutulması üçün müsabiqənin müsahibə mərhələsi elan edilib.

♦ Sentyabr ayı ərzində DİM-in 5 əməkdaşı Vətən müharibəsində iştirak etmək üçün könüllü olaraq Azərbaycan ordusu sıralarına qoşulub.

♦ Oktyabrın 3-də DİM-də TOEFL iBT və SAT imtahanları keçirilib. SAT imtahanında 46 nəfər, o cümlədən 1 nəfər SAT esse, 10 nəfər isə SAT Subject imtahanı verib. TOEFL iBT imtahanında isə 12 nəfər iştirak edib.

♦ Oktyabrın 5-də DİM-də GRE: General Test imtahanı keçirilib. İmtahanda 2 nəfər iştirak edib.

♦ 5-9 oktyabr tarixlərində DİM-də Pearson VUE (Virtual University Enterprises) tərəfindən təqdim olunan audit, İT və layihələrin idarə edilməsi sahələrinə aid beynəlxalq imtahanlar təşkil olunub. İmtahanlarda 3 nəfər iştirak edib.

♦ Oktyabrın 5-də ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbulun nəticələri elan olunub. Müsabiqədə iştirak etmək üçün 23465 şəxs ixtisas seçimi edib. Müsabiqə nəticəsində ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə 1193 nəfər (o cümlədən 1097 nəfər subbakalavr), tam orta orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə isə 10622 nəfər qəbul olub.

♦ Oktyabrın 6-da "Abituriyent" jurnalının 9-cu və 10-cu nömrələrinin elektron versiyaları DİM-in saytına yerləşdirilib. Jurnalın 9-cu nömrəsində ali təhsil müəssisələrinin boş qalan yerlərinə qəbul olmuş abituriyentlərin siyahısı, müsabiqə nəticəsində ixtisasların həm ödənişli əsaslarla olan yerləri, həm də dövlət sifarişli yerləri üzrə formalaşmış keçid balları Azərbaycan və rus dillərində təqdim olunub. 10-cu nömrədə isə tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmuş abituriyentlərin siyahısı, ixtisaslar üzrə müsabiqə nəticəsində alınmış minimal keçid balları Azərbaycan və rus dillərində təqdim olunub.

♦ Oktyabrın 9-dan noyabrın 10-dək doktorantura və dissertanturaya xarici dil üzrə qəbul imtahanında iştirak etmək üçün qeydiyyat aparılıb.

♦ Oktyabrın 9-da Müsahibələrin təşkili sektorunun müdiri Xədicə Əzimova və Dövlət qulluğu məsələləri şöbəsinin böyük məsləhətçisi Elnur Abbasov tərəfindən "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda təlim təşkil edilib. Təlimdə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşları iştirak ediblər.

♦ Oktyabrın 10-da DİM-də TOEFL iBT imtahanı keçirilib. İmtahanda 11 nəfər iştirak edib.

♦ Oktyabrın 12-də DİM-də GRE: General Test imtahanı keçirilib. İmtahanda 5 nəfər iştirak edib.

♦ Oktyabrın 12-də DİM-də Pearson VUE tərəfindən təqdim olunan və hüquq sahəsinə aid beynəlxalq National Admissions Test for Law (LNAT) sertifikat imtahanı keçirilib. İmtahanda 1 nəfər iştirak edib.

♦ 13-14 oktyabr tarixlərində rezidenturaya boş qalan plan yerlərinə ərizə qəbulu aparılıb.

♦ Oktyabrın 14-də əsas (baza ali) tibb təhsili əsasında rezidenturanın boş qalan plan yerlərinə qəbul olmaq üçün keçirilmiş müsabiqənin nəticələri elan olunub. Nəticələrə əsasən 7 nəfər təhsilini rezidenturada davam etdirmək hüququ qazanıb.

♦ Oktyabrın 14-də TOEFL iBT imtahanı keçirilib. İmtahanda 13 nəfər iştirak edib.

♦ 15-16 oktyabr tarixlərində Qazaxıstanın paytaxtı Nur-Sultanda yerləşən Dövlət Qulluğu üzrə Regional Xab Nazarbayev Universitetinin Dövlət İdarəçiliyi Məktəbinin "Mərkəzi Asiyada dayanıqlı inkişaf məqsədləri və COVID-19-un yaratdığı çətinliklər" mövzusunda keçirdiyi onlayn beynəlxalq konfrans çərçivəsində "Yeni reallıqda idarəçilik və inam" adlı panel sessiya təşkil edib. Tədbirdə Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov, icraçı direktoru Vəfadar Misirov, Strateji inkişaf, Dövlət qulluğu məsələləri və Hüquqi təminat və insan resursları şöbələrinin əməkdaşları iştirak ediblər.

♦ Oktyabrın 16-dan 19-dək tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə ixtisas seçimi aparılıb.

♦ Oktyabrın 16-da "Abituriyent" jurnalının 11-ci nömrəsi nəşr edilib. Jurnalın bu nömrəsində Azərbaycan Respublikasının tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma qaydası, qəbul aparılan ixtisasların siyahısı, plan yerləri haqqında məlumatlar Azərbaycan və rus dillərində dərc olunub.

♦ Oktyabrın 16-da Avropa İttifaqı Şərq Tərəfdaşlığı proqramının "Demokratiya, Yaxşı İdarəçilik və Sabitlik" adlı Platforması çərçivəsində ŞT-nın Dövlət İdarəçiliyi İslahatları panelinin onlayn formatda 18-ci görüşü keçirilib. Görüşdə Dövlət İmtahan Mərkəzinin Strateji inkişaf şöbəsinin əməkdaşları Vəli Hüseyn, Pərviz Kazımov və Günel Məmmədova, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin nümayəndəsi Nəzrin Əliyeva iştirak ediblər.

♦ Oktyabrın 19-da Azərbaycan dili və ingilis dili fənləri üzrə işçi qruplarının onlayn iclasları keçirilib. İclasların gündəlik məsələsi ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları üçün proqram və imtahan modelinin müzakirəsi olub.

♦ 19-23 oktyabr tarixlərində DİM-də Pearson VUE tərəfindən təqdim olunan layihələrin idarə edilməsi, İT və audit sahələrinə aid beynəlxalq imtahanlar təşkil olunub. İmtahanlarda 3 nəfər iştirak edib.

♦ Oktyabrın 20-də tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə qəbulun nəticələri elan olunub. Boş qalan plan yerlərinin müsabiqəsində iştirak etmək üçün 5934 abituriyent ixtisas seçimi edib. Müsabiqə nəticəsində 1292 nəfər orta ixtisas təhsili müəssisələrinə qəbul olub.

♦ Oktyabrın 20-də riyaziyyat və kimya fənləri üzrə işçi qruplarının onlayn iclasları keçirilib.

♦ Oktyabrın 21-də fizika və rus dili (təlim dili) fənləri üzrə işçi qruplarının iclasları keçirilib. İclaslarda buraxılış və qəbul imtahanı proqramları, imtahan modeli müzakirə olunub.

